




BİOQRAFİYA DAVAM EDİR...

Kitabın Azərbaycan dilində nəşri
möhtərəm Prezidentimiz cənab İlham Əliyevin



illik yubileyinə ithaf olunur

Viktor
ANDRİYANOV
Hüseynbala
MİRƏLƏMOV

İlham
ƏLİYEV

MOSKVA
MOLODAYA QVARDİYA
2007

УДК 342.51 (479.24)
ББК 67.400.6 (5Aəz)
A 65

SERİYA 2005-ci İLDƏ YARADILIB

Proyekt müəllifi:
VALENTİN YURKİN

Seriya tərtibatçısı:
KONSTANTİN FADİN

Redaktor:
İNTİQAM QASIMZADƏ

Tərcümə edənlər:
MƏMMƏD ORUC
İNTİQAM QASIMZADƏ

ISBN 978-5-235-03090-9

© Viktor Andriyanov,
Hüseynbala Mirələmov, 2007

© «Molodaya qvardiya» nəşriyyatı,
bədii tərtibat, 2007

Kitabı açanda

Bir dəfə Heydər Əliyevin istəkli nəvəsi balaca Heydərdən böyüyəndə nəçi olacağını soruşdular. Uşaq dərhal cavab verdi:

– Təyyarəçi!

Yaşlılar təəccüblə:

– Bəs nə üçün prezident yox, təyyarəçi? – dedilər.

Oğlanın cavabı yenə də kəsə oldu:

– Prezidentlərin işi çox ağırdı.

Babası heç zaman işinin ağırlığından şikayətlənməzdi. Hətta bu dünyadakı ən əziz adamlarına – həyat yoldaşına, qızına, oğluna belə bu barədə heç nə deməzdi. Onun atası da qayğılarını özü çəkər, yaxınlarından kimsəni qayğılarına şərik etməzdi. Amma görünür, balaca Heydər öz körpə ürəyi ilə nə isə hiss eləmişdi ki, dilinə məhz belə gözlənilməz cavab gəlmişdi. Ola bilsin ki, Heydər babanın (babasının) birbaşa yayım zamanı televiziya ekranında səndələdiyi an yaddaşında iz qoymuşdu...

Bu hadisə 2003-cü ilin aprel ayında baş verdi. Azərbaycan prezidenti hələ Sovet dönəmində öz şəxsi təşəbbüsü ilə yaradılmasına nail olduğu Cəmşid Naxçıvanski adına hərbi məktəbin yubileyinə həsr olunmuş təntənədə mütləq iştirak etmək qərarına gəlmişdi. O nitq söyləyirdi, amma birdən ürəyini tutub səndələdi... Birbaşa yayım zamanı bu anı bütün ölkə gördü. Bütün ölkə beş, on, on beş dəqiqə ekran qarşısından çəkilmədi, həyəcan içində gözlədi və gərginlik son həddinə yetəndə, adi pıçıltı qışqırıq kimi əks-səda verəndə, Prezident Ali baş komandan, həkimlərin israrına baxmayaraq, müstəqil Azərbaycanın ümidi olan gələcək zabitlərin onu gözlədiyi zala

daxil oldu. O, başqa cür hərəkət edə bilməzdi. Sarsılmaz Əliyev iradəsi, Əliyev mətanəti onu ayağa qaldırmış və gələcək Azərbaycan zabitlərinin cəm olduğu bu zala qaytarmışdı. Tam haqqına demək olar ki, həmin anlarda, o, qəhrəman əcdadları Babək, Koroğlu kimi yenidən döyüş meydanına dönmüşdü, əfsanəvi general Mehmandarov və hələ sağlığında «Rus artileriyasının Allahı» adlandırılan general Şıxlinski kimi yadda qalan bir addım atmışdı.

...Sonra isə babası uçdu. Vidalaşanda söz verdi ki, ona hədiyyələr alacaq.

–Sənə nə bağışlayım, Heydər?

Heydər – mömin Şərq dünyasında güc, qüdrət rəmzidir, aqillik, nəcabət mücəssəməsidir, müqəddəs Əliyə verilən addır. Əlirza və İzzət Əliyevlər 1923-cü ildə Naxçıvanda dünyaya gələn dördüncü oğullarına məhz bu adı veriblər. Özü də İzzət xanımın azərbaycanlıların Zəngəzurdan qovulması zamanı həlak olmuş cavan qardaşı Heydərin xatirəsini yaşatmaq üçün.

Mühit və tərbiyə öz təsirini göstərsə də, insanların taleyində başlıca rolu valideynlər oynayır. O ki, qaldı ad seçiminə, həyat sübut edir, elm adamları da təsdiq eləyirlər ki, bu nə isə bir tale yazısıdır. El arasında buna alın yazısı deyirlər və bu yazı insanın özü ilə doğulur.

İlham və Mehribanın ailəsində oğlan uşağı dünyaya gələndə Heydər Əliyev ABŞ-ın Hyuston şəhərində ezamiyyətdə idi. Şəhərin meri bu hadisədən dərhal yarınmağa cəhd etdi. Körpənin dünya şöhrətli babasına eşitdirdi ki, nəvənin adını Hyuston Əli qoysunlar, amma təklif keçmədi. Ailədə çoxdan qərara gəlmişdilər ki, oğlan uşağı doğulsa, adını Heydər qoysunlar. Prezident ABŞ-dan Bakıya Londonda doğulmuş oğul nəvəsinə baş çəkəndən sonra uçdu. İngiltərənin baş şəhərində – doğum evində o, körpəni başı bərabərində qaldıraraq xoşbəxtcəsinə bildirdi: «Sənə Heydər adı verirəm!».

...13 dekabr, 2003-cü ildə Heydər Əliyev özünün sonuncu ezamiyyətindən Vətənə – Bakıya qayıtdı. Minlərlə insan eyni anda saata baxdı, əqrəblər 13.55-i göstərirdi. Və hamı bilirdi ki, bu təyyarədən o özü düşməyəcək. Zəif ruzigar acı yovşan qoxusu gətirirdi. Sükut – səssiz rekviyemi andırırdı.

Amma bu rekviyemin qopardığı fəryadı hər kəs öz ürəyində eşidirdi. Hər kəsin çəkdiyi ağrı və qüssə ümumi kədərə qarışırdı.

Xalq öz milli liderini – öz başçısını, İlham Əliyev isə atasını itirmişdi. Bu acı xəbəri o xaricdə – informasiya əlaqələri üzrə Beynəlxalq Sammitdə almışdı.

İndi o, təyyarənin trapına ayaq basmalı, borta qalxmalı və atasına yaxınlaşmalı idi.

Bu, onların təkbətək qaldıqları sonuncu on beş dəqiqə idi. Kim bilir bu dəqiqələrdə dünya şöhrətli atasını itirmiş oğul ürəyi nələr çəkirdi, bu dəqiqələr, anlar İlhamın yadına nələri salırdı? Yəqin ki, onu yalnız atasını, ya anasını sonuncu mənzilə yola salmış və bu hüznlü borcdan çıxmış insanlar başa düşərlər.

Təzəpir məscidində rəhmət duaları səsləndi. Məhəmməd peyğəmbərin vəsiyyətilə yüz illərdən bəri davam eləyən matəm mərasiminin qayda-qanunlarına əməl olundu.

«Bu dünyanı tərk edənin arxasınca ağlamayın, axı bütün yaradılmışlar bu dünyadan getməlidir. Ona görə ağlamayın ki, gedənin arxasınca ağlamaqla siz çox şeylər itirə bilərsiniz...» Bu, peyğəmbərin nəsihətidir, amma ağlamamaq, dözmək mümkünmü?

Heydər Əliyevin sonuncu və həm də ən başlıca bir nigarançılığı vardı: dövləti kimə tapşırmaq? Gənc demokratiya bu irslə bacaracaqmı? Siyasi oyunların səhnəarxası ustaları və təsadüfən vəzifə başına keçənlər öz mənfəətləri naminə demokratiyadan yararlanmağa, şanslarını qaçırmamağa çalışmayacaqlarmı?

Siyasətçilərin yeni nəsli, öz məktəbinin yetirmələri gözləri önünə gəlmişdi. Bir ata, rəhbər, tərbiyəçi kimi İlhamın ümumi arenadakı uğurlarına sevinirdi. Oğlunun nüfuzu cəmiyyətdə, xalq arasında günbəgün artırdı. Qəlbindən səda gəlmişdi: ən uğurlu namizəd oğlundur. Amma həyat təcrübəsi başqa şeylər də pıçıldamışdı: onun namizədliyi birmənalı qarşılanmayacaq, radikal müxalifət, siyasi demaqoqlar prezidenti «valideyn himayəçiliyində», «vəliəhdlik tətbiq etməkdə» və Allah bilir daha nələrdə suçlayacaqlar... Amma İlham, rəhbər, şəxsiyyət, ləyaqət sahibi kimi yüksək mənəvi-insani dəyərlərə yiyələnmişdi. O, iliyindən sümüyünə kimi varis idi və Heydər Əliyev də bunu bilirdi. Onun seçimini xalq dəstəklədi. Onun seçimini dünyada da qiymətləndirdilər.

Dekabr ayının 15-də, dəfn günündə Moskva qəzeti «Vremya novostey» belə yazırdı: «Heydər Əliyev əsil Şərq dövlət xadiminə layiq tərzdə «getdi». O, ölkədə hakimiyyət

sülaləsinin əsasını qoymağı bacardı. Onun siyasi opponentləri nə qədər özlərindən çıxsalar da, o, bu işin öhdəsindən son dərəcə qanuni yollarla, çağdaş Azərbaycan şəraitində mövcud olan bütün imkanlardan yararlanmaqla gəldi. Amma yalnız MDB-də yox, bütün Avropada da tam unikal olan bu sülalənin yaşaması indi yalnız onun oğlu İlhamdan asılıdır. Öz aramızdı, onun da oğlu böyüyür, adı da Heydər».

Zənnimizcə, bir qədər yersiz görünən sülalə söhbəti ətrafında mübahisə açmayaq. Sözümüzün canı başqa şeydir. İlham Əliyev atasının cənazəsinin arxasınca addımlayanda, izdihama qoşulmuş insanlar dönə-dönə, astadan pıçıldayırdılar: «O, nə qədər də atasına oxşayır. Özü də yalnız zahirən yox». «O, gözəl təəssürat oyadır, atasından çox şeylər əxz eləyib, – akademik Yevgeni Maksimoviç Primakov dedi, – İlham Heydəroviç dərin düşüncəli zəka sahibi, savadlı adamdır, mən əminəm ki, o da, atası kimi Azərbaycanın ləyaqətli prezidenti olacaq».

* * *

Sivilizasiyaların salnamələrində elə adlar var ki, dünəndən bu günə işıq salır, xəyalında ağsaçlı qocaların obrazını canlandırır, anılması ilə anımlar, assosiyasiyalar oyadır. Bunlar insan, şəhər, o cümlədən azman hadisələrə səhnə olan tarixi yer adları, nəhənglərin əməllərıdir ki, gələcək nəsillərin yaddaşına keçir.

Assosiasiyalar cürbəcür ola bilər. Tutaq ki, Sezarın adı çəkiləndə yadımıza Roma – Rubikon düşür, Paris söyləyəndə Bastilya – Fransa Burjua inqilabı xatırlanır; Kiyev deyəndə knyaz Vladimir – Rusiyanın xristianlaşdırılması, Böyük Pyotr deyəndə Peterburq, Poltava döyüşü, Puşkinin «Poltava» poeması anılır: «Ura! Biz cumuruq, isveçlilər əyilir...»

Pekın deyəndə yəqin ki, çoxlarının gözü önündə Böyük Çin səddi canlanır... İnsanlar, xalqlar uzun əsrlər boyu bizim gözəl, amma təəssüflər olsun ki, pərən-pərən olmuş planetimizdə sədlər çəkib, qala divarları ucaldıblar.

Tac Mahal haqqında haradasa, nə isə eşidəndə Moğol hökmdarı Cahan gözlərimiz önünə gəlir, söhbət o Cahandan gedir ki, dünyasını vaxtsız dəyişmiş ıstəkli ömür yoldaşının xatirəsini bu memarlıq incisi ilə əbədiləşdirib. Təbii ki, bu sənət abidəsi haqqında Rabindranat Taqorun da məşhur misrasını xatırlayanlar olur: «Əbədiyyətin yanaqlarından süzülən göz yaşları».

Tarix böyük rəmzlər daşıyan, ölkələrin və torpaqların özünəməxsus vizit kartı olan adlarla son dərəcə zəngindir.

Azərbaycan – qədim Odlar ölkəsidir. Bakı «qara qızıl» şəhəridir. Azərbaycan öz kəşməkəşli tarixində Respublika kimi təşəkkül tapana, tanınana qədər, həm yüksəlişə, ekspansiyaya, həm də ixtilaflara, parçalanmalara, xalqlar arasında bölüşdürülməyə məruz qalıb. Sovet dönəmində Sovet quruluşunun bütün çatışmazlıqlarına baxmayaraq, respublikada qüdrətli iqtisadi potensial yaradılmış, milli mədəniyyət nəinki qorunmuş, həm də zənginləşdirilmişdi. Yeni, müstəqil Azərbaycanın yaradılması və quruculuğu birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. O, hələ Sovet dönəmində dövlət xidmətindəki uğurları ilə nəyə qadir olduğunu sübut etmiş, Azərbaycan Sovet Respublikasının idarəçiliyi zamanı təcrübə toplamış, Sov. İKP MK Siyasi bürosunda və Sovet İttifaqının Nazirlər Sovetindəki fəaliyyəti isə ona yeni bir universitet olmuşdu.

Azərbaycan xalqının böyük oğlu Qarabağ müharibəsi ilə bağlı meydana gəlmiş ixtilaflar, çəkişmələr qorxunc və həyəcanlı günlər zamanı da xalqın iradəsi, tələbi ilə suveren Azərbaycana rəhbərlik elədi. Və ölkəni ağır böhranlardan qurtardı, atəşkəsə nail olmaqla xalqı erməni silahlı qüvvələrinin təcavüzü nəticəsində meydana gələn qanlı qarşıdurmadan xilas elədi, cəmiyyəti anlaşmaya, birləşməyə səslədi. Respublika sülh, əmin-amanlıq, azadlıq və tərəqqi yoluna qədəm basmış stabil dövlət reputasiyası qazanmağa başladı. O, tarixin müxtəlif kəsimlərində əzablara, məhrumiyyətlərə məruz qalmış Vətəni üçün sözün həqiqi mənasında XİLASKAR rolu oynadı.

Bu kitabın müəllifləri Heydər Əlirza oğlu Əliyevlə müxtəlif zamanlarda, bir-birindən fərqli yaddaqalan şəraitlərdə görüşüblər. Respublika Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi cavan mühəndisin, tikinti idarəsi rəisinin əlini sıxaraq ona Qırmızı Əmək Bayrağı ordenini təqdim edib və Mərkəzi televiziyanın məşhur «Vremya» proqramında Azərbaycanda milyonuncu mənzilin qazlaşdırılması barədə süjet göstərilib.

– Səni təbrik edirəm, sən cavan oğlansan, elə belə də çalış! – dedi Əliyev.

Artıq dövran dəyişəndən sonra Əliyevin çağdaş Azərbaycan tarixində oynadığı rol barədə düşünən azərbaycanlı həmkarlarımız prezident haqqında onlarca kitab və publisistik esselər qələmə aldılar.

Bu əsərin rusiyalı həmmüəllifi isə ilk dəfə Heydər Əliyevi Azərbaycan KP MK-nin birinci katibi olanda tanıyıb. Sonralar, Heydər Əliyev MK Siyasi bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olanda da dəfələrlə qarşılaşıblar.

Daha sonra isə bu görkəmli, müdrik insanın taleyinə və siyasi həyatına olan müştərək marağımız bizi «Heydər Əliyev» kitabı üzərində birgə işləməyə sövq elədi. Kitab iki dəfə (2005 və 2006-cı illərdə) «Molodaya Qvardiya» nəşriyyatında «Görkəmli adamların həyatı» populyar seriyasından nəşr olundu. Oxucular bizim «Heydər Əliyev»i hərarətlə qarşıladılar. 2006-cı ildə ümumi rəy sorğusu əsasında Azərbaycanda bu əsər «İlin kitabı» seçildi. 2006-cı ilin avqustunda, Moskvada keçirilən «Kitab incəsənəti» III Beynəlxalq müsabiqəsində isə bu nəşr «Solidarnost» («Həmrəylik») mükafatına layiq görüldü. Amma başlıca məsələ, əlbəttə, mükafatlarda, diplomlarda, təltiflərdə deyil. Əsas amil – bu kitabın Azərbaycanda, Rusiyada eləcə də MDB-nin digər dövlətlərində məhəbbətlə qarşılanması və oxunmasıdır.

Çoxlu sayda məktubların arasından yalnız birinə nəzər salaq. Bu yazının müəllifi tələbə Vladimir Krasnoslobotsev Azərbaycanda olarkən öz təəssüratını İnternetlə bölüşüb:

«Mənə elə gəlir ki, Azərbaycanın uğurlarında, vətəndaş müharibəsinin qarşısını alan, cəmiyyətin həyatında və iqtisadiyyatda qayda-qanun yaradan, respublika üçün sərfəli müqavilələrə imza atan Heydər Əliyev çox böyük rol oynayıb. Mən məsləhət görürəm ki, onun haqqında Viktor Andriyanovun və Hüseynbala Mirələmovun «Jizn zameçatelnıx lyudey» («Görkəmli adamların həyatı») seriyasından birgə yazdıqları «Heydər Əliyev» kitabını oxuyasınız. Son qırx il ərzində ölkənin bütün siyasi həyatı bu əsərdə öz əksini tapıb».

Dünya şöhrətli yazıçı Çingiz Aytmatovun bu kitabın müəlliflərindən birinə göndərdiyi teleqram da, etiraf edək ki, fərəh doğurdu:

«Əziz Hüseynbala, mən sizin rus yazıçısı Viktor Andriyanovla birgə yazdığınız «JZL» seriyasından «Heydər Əliyev» kitabını aldım. Həyatımız boyu həyatından ibrət götürməyə borclu olduğumuz dahi, görkəmli dövlət xadimi, türk dünyasının böyük və qüdrətli oğlu haqqında yaratdığınız çox dəyərli mənəvi abidə mənim qəlbimi qürur, iftixar hissilə doldurdu.

Bu nəhəng ədəbi, mənəvi abidə haqqında mən internet saytlarında görkəmli insanların ürək sözlərini oxumuşam. Siz

başqa yazıçıların görə bilmədiyi işin öhdəsindən gəlmisiniz, fəxri bir vəzifəni yerinə yetirmisiniz. Bu missiyanı ləyaqətlə yerinə yetirdiyinizə görə sənə və rus yazıçısı Viktor Andriyanova dərin təşəkkürümü bildirirəm.

Mən çox istərdim ki, sizin əlinizi sıxım. Tezliklə görüşmək ümidilə.

Çingiz Aytmatov».

Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadə şeirlərindən birində insan mahiyyətini görünən və görünməyən üzü olan Ayla müqayisə edib. Parlaq, qeyri-adi şəxsiyyət həmişə çoxcəhətli olur, xüsusən də siyasi fırtınaların sınağına məruz qalıb, mübarizələrdə bərkiyəndə, müasirlərinin silahdaşlarının və opponentlərinin fəaliyyətinə şahid olanda, qiymətli arxiv sənədlərini araşdıranda və bundan nəticələr çıxardanda.

60 ildən də artıq bir müddətdə, o, qaynar hadisələrin içində olub, günbəgün, aybaay, ilbəil öz təcrübəsini zənginləşdirərək dünya miqyaslı siyasətçiyə çevrilib, ümummilli lider kimi formalaşıb.

Amansız müharibədə erməni birləşmələri respublika ərazisinin dörddə birini işğal etdilər. Milyonlarla adam qaçqın düşdü! On minlərlə günahsız insan yurdsuz-yuvasız qaldı. Heydər Əliyev və onun silahdaşları xalqı dirçəltməyi, onu mənəvi sarsıntıdan çıxarmağı, yaradıcılıq gücünü bərpa etməyi bacardılar.

Yaxın keçmişə nəzər salanda, görürsən ki, Azərbaycanın yolu sanki Ssilla ilə Xaribda arasından keçib. Bir tərəfdən son dərəcə özünə qapanma, arxayınlıq eyforiyası, digər tərəfdən isə güclülərə meyillənmə, yıxılma cəhdi.

Lider milli maraqlara cavab verən, hərəkəti düzgün istiqamətləndirən balanslaşdırılmış kursu seçdi və bu kursu davam etdirdi. Məhz elə bu səbəbdən də xalq Heydər Əliyevi ümummilli lider adlandırır. Neynəyəsən ki, insan ömrü hansı andasa bitir. Heydər Əliyevin çiyninə düşən böyük sınaqlar, onun qəlbini yaralasa da, o, son ana qədər Azərbaycanın sükanını əlində saxladı. Prezident silahdaşlarını toparlamağa, yetkin siyasətçilər ordusu yaratmağa macal tapdı. Bu dəstənin önündə isə onun oğlu, Azərbaycan Respublikasının hazırkı Prezidenti İlham Heydər oğlu Əliyev addımlayırdı. Əliyev kursunun XXI əsrdəki ən ləyaqətli davamçısı da odur. Azərbaycanın bütün sahələrdəki uğurları göz qabağındadır. Bunu

bütün obyektiv müşahidəçilər də qeyd edirlər. Qonşu respublikaların liderləri bu tərifləro darılmırlar.

...Rusiya prezidenti Vladimir Putinlə Azərbaycan prezidenti İlham Əliyevin növbəti qeyri-rəsmi görüşü 2 iyul 2007-ci ildə Rostov şəhərində baş tutdu.

– Hamımız Azərbaycandakı iqtisadi artım sürətinin təəssüratı altındayıq – 34-35 faiz – özü də birinci il deyil, – Vladimir Putin dedi. – Bu, həqiqətən təəccüblüdür! Əlbəttə, Azərbaycanın zəngin olduğu enerjidaşıyıcılarının qiymətinin artması barədə istənilən qədər danışmaq olar, amma burada hər halda nəsə başqa şeydir. Bu, şübhəsiz, sizin hökumətin apardığı düşünülmüş iqtisadi siyasətdir.

Azərbaycan Prezidenti xoş sözlərə görə həmkarına təşəkkürünü bildirdi və əlavə etdi:

– Bu, həqiqətən də belədir. Son üç ildə bizdə iqtisadi artım 96 faizdir. Əlbəttə, burada neft amili də var, amma qeyri-neft də. Biz həmçinin ikitərəfli iqtisadi əlaqələrimizdə əmtəə dövriyyəsinin artımını müşahidə edirik. Əslində, biz son üç ildə onu üç dəfə artırmışıq. Bu, ölkələrimizin potensialının, həmçinin münasibətlərimizin yaxınlığının göstəricisidir, çünki biznes bir qayda olaraq yaxşı siyasi baza olan yerdə səmərəli inkişaf edir. Ölkələrimiz arasında isə bu mövcuddur. Bu münasibətlərin bütün istiqamətlər üzrə möhkəmləndirilməsinə ümid edirik.

Ən qədim zamanlardan bu günə kimi dövlət xadimi olan atanın yolunu onun övladlarının, əsasən oğulların və bəzi hallarda da qızların davam etdirməsi tarixi örnəyə çevrilib.

Sözün bu yerində bir qisim oxucular deyə bilər ki, sülaləçilik – sülalə hakimiyyəti monarxiyaya məxsus bir quruluşun nişanəsidir. Bu, guya demokratik dəyərlərlə uzlaşmır. Əlbəttə, varis şəffaf seçkilər nəticəsində birinci şəxsə çevrilməsəydi, bu cür düşünənləri qınamaq olmazdı. Hər şey məhz bu açıq, şəffaf seçkilərlə bağlıdır. İlham Əliyev bir neçə namizədin arasından Azərbaycan prezidenti seçildi. Seçicilər ona səs verdilər. Böyük əksəriyyət onu dəstəklədi. Amma kimsənin təhriki ilə yox. Radikal müxalifətin namizədləri azlıqda qaldılar. Öz aramızdı – belə seçkilər çağdaş dünyamızda nadir hadisə deyil. Corc Buşdan sonra oğul Buşun ABŞ-da necə hakimiyyətə gəlməsini yadınıza salın.

Əgər monarxiya – sülaləçilik formasiyalarını araşdırsaq belə, məlum olar ki, tarixdə sülalə hakimiyyətinin qüdrətli

davamçıları olub və onlar hökmdarlığı nəsildən-nəslə şərəflə ötürüblər. Səfəvilər dövlətinin banisi, böyük fateh, qüdrətli dövlət başçısı, həm də Azərbaycan ədəbiyyatı tarixində poetik yaradıcılığı ilə iz qoymuş Şah İsmayılın oğlu Birinci Şah Təhmasib də belələrindəndir və o, atasının yolunu şərəflə davam etdirib. Onların zamanında Səfəvilər dövləti öz sərhədlərini xeyli genişləndirib, hərbi və iqtisadi qüdrətini yüksəldib, ölkədə ədəbiyyat, təhsil, elm, mədəniyyət çiçəklənib.

Şəxsiyyətin miqyasını müəyyənləşdirən, onun böyüklüyündən xəbər verən nədir? Yüksək ideallara ləyaqətlə xidmət, özünüdərk, həyat eşqi, iradə, müdriklik və cəsarət. Lev Nikolayeviç Qumilyov passionarlığı özündə cəmləyən xalqların və şəxsiyyətlərin passionarlığından danışırdı.

* * *

Rusiyanın, əlbəttə, yalnız Rusiyanın yox, eləcə də digər onlarca ölkənin teletamaşaçılarına Mixail Qusmanın apardığı populyar «Formula vlasti» («Hakimiyyət formulası») verilişi yaxşı tanışdır. İstedadlı jurnalist, İTAR-TASS agentliyi baş direktorunun birinci müavini Rusiya televiziyasının I kanalında göstərilən proqramında çoxlu dövlətlərin liderlərindən söz açıb. Və bu telesöhbətlərin materialları əsasında «Hakimiyyət formulası» seriyasından kitablar da meydana gəlib. Belə ki, Heydər Əliyevlə söhbətləşən jurnalist ona o zaman Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti olan İlham Əliyevin siyasi gələcəyi barədə sual verib.

«Bilirsiniz, siyasət çox mürəkkəb şeydir, – Prezident cavab verib, – siyasətlə məşğul olmağı mən hər hansı bir adama məsləhət görə bilərəm, amma öz oğluma yox. O, öz işi ilə məşğul olan adamdı. İndi o, bizim neft şirkətində böyük işlər görür. Xüsusən də xarici ölkələrlə bağlı məsələlərdə. O, siyasət aləmində də çox istedadlı adamdır. Bu səbəbdən də hesab edirəm ki, o, öz fəaliyyətini siyasi arenada da davam etdirə bilər. Mən bunu istəyərdim, bilirsiniz, hər bir peşə üçün hansısa bir genetik qabiliyyət də olmalıdır. Amma bu heç də hamıda yoxdur. Amma onda var...»

Bir rəmzi məqamı qeyd etmək münasib olardı. İlham – ilhamlanmaq, ilhama gəlmək sözündəndir... Biz öz hekayətimizə adların aurasından başladıq. Yəqin ki, bu anlayışla bağlı bir neçə söz demək yerinə düşər.

İlham – yaradıcılıq tonusunun ən yüksək həddidir, yaradıcılıq qüdrətinin fəallığı və zirvəsidir. İlham meydana gələndə mənəvi aləm, idrak, bədii-yaradıcı düşüncə tərzi özünü var gücü ilə göstərir və aydınlaşdırır. Bir qisim insanlar İlhamın başlıca mənbəyini reallıqda, gerçəklikdə görürlər, bir qisim adamlar isə onu ilahi düşüncələrlə bağlayırlar, göylərdən gələn nur kimi qəbul edirlər.

İlham Əliyevin fikrincə, «siyasət real işdir, nə şüar söyləməkdir, nə də sözə istinad etmək» və elə bu da onun düşüncəsinin reallığından xəbər verir; digər tərəfdən, onun siyasi əxlaqı yaradıcılığında da özünü göstərir; o, cəmiyyətdəki, ölkədəki, geopolitik proseslərdəki gəlişmələri öncədən görə bilir.

Bəli, İlham Əliyev yeni, suveren Azərbaycanın ümummilli lideri Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirir. Amma verilmiş tapşırıq sürətlə dəyişən dünyanın siyasi əxlaqına bütün məqamlarda cavab vermir, çünki verilmiş tapşırıq matrisa deyil ki, istəyən kimi surətini çıxardasan. Azərbaycan mürəkkəb geopolitik maraqların toqquşduğu çağdaş dünyanın o qədər də sadə olmayan çağırışlarına hay verməli olan bir məmləkətdir. Səddam Hüseyn İraqındakı hadisələri yadımıza salaq; ABŞ münaqişənin həllini hərbi müdaxilədə görürdü, Rusiya, Fransa, Almaniya isə rejimin zor gücünə devrilməsini istəmirdilər. Belə olan təqdirdə bəs Azərbaycan hansı mövqedə dayanmalı idi?

Azərbaycan və onun balanslaşdırılmış siyasəti nəticəsində uzun illər Azərbaycanı öz əlində saxlamış, onun hər bir işinə qarışmış Rusiya ilə normal, dostluq münasibətləri yaradıldı. Qərb ölkələri ilə, Birləşmiş Ştatlarla müqavilələr bağlandı, əməkdaşlıq inkişaf etdirildi, qlobal layihələr gerçəkləşdirildi. İraq məsələsində öz sözünü demək, bax, indi mümkün idi. Məlum olduğu kimi Birləşmiş Ştatlar bu proqrama «terrorla mübarizə» adı verdi və beynəlxalq koalisiya da yaratmağa nail oldu. Hadisələrin sonrakı inkişafı göstərdi ki, «kanonerlər siyasəti», yəni tanklar və bombardmançı təyyarələr vasitəsilə demokratiyanın yayılması iflasa məhkumdur. Azərbaycan da İraqa az sayda hərbi qüvvə göndərdi. Bizim fikrimizcə, bu qərar Prezidentə o qədər də asan başa gəlməyib. Bəli, mövcud şəraitdə bu addımı atmamaq mümkün deyildi və bu, əlbəttə, siyasi iradə tələb eləyirdi. İraq böhranının hərbi yolla aradan qaldırılması ideyası tədricən gözdən düşdü, özünü doğrultma-

dı. ABŞ-ın özündə belə kütləvi etirazlar başladı, dövlətin öz qoşunlarını İraqdan çıxartsın tələbləri səsləndi; buna bənzər hadisələr İngiltərədə də baş verdi; İspaniya isə öz hərbi qüvvələrini İraqdan geri çağırdı.

Azərbaycan və Rusiya «münasibətlərin» diplomatik yolla «aydınlaşdırılması» tərəfdarıdırlar. Yalnız öz iqtisadi maraqları ilə (Buşerdə AES-nın tikintisi və başqa layihələr) əlaqədar deyil, həm də ona görə ki, dövlətlərarası beynəlxalq münaqişələrin hərbi yolla, silahlı həlli əks-məhsuldardır. Tehran qətiyyətlə Vaşinqtonla qarşıdurmaya gedir, bir sıra başqa dövlətlər kimi «çoxqütblü dünya» ideyasını dəstəkləyir. Azərbaycan bu hadisələrin kənar seyrçisi olaraq qala bilməz. İlham Əliyevin mövqeyi sərrast ifadə olunub: «Biz heç zaman elə addımlar ata bilmərik ki, öz qonşularımızla münasibətlərimizə qanqaralığı gətirsin. Bizim İranla çox yaxşı əlaqələrimiz var. Orada otuz milyon azərbaycanlı yaşayır». *(«Fıqaro», 30 yanvar 2007-ci il)*

Zarafat deyil, otuz milyon İranın əhalisinin üçdə ikisidir. Ortaya çox ucadan səslənən bir sual çıxdı. Amerikanların İrana soxulacağı təqdirdə Şimali Azərbaycanın, daha doğrusu, Azərbaycan Respublikasının mövqeyi necə olacaq, nə kimi addımlar atacaq. Ola bilsin ki, kiminsə gözünə Bakı aerodromlarından qalxıb Arazın o tayındakı obyektləri bombardman eləyən Amerika «uçan qalaları» görünə bilər. Jurnalistlər qarşısında növbəti çıxışlarının birində İlham Əliyev bu fitnəkar dedi-qodulara son qoydu. O dedi ki, Azərbaycan heç bir zaman dövlətlərarası konfliktlərin həllində arena olmayacaq, qlobal xarici güclərin hərbi qarşıdurmasını özünə yaxın buraxmayacaq. Əlbəttə, dövlət başçısının bu sözləri milli maraqlara cavab verən, dərindən düşünülmüş, uzaqgörən, ayıq mövqeyi bildirirdi. Məşhur Qriboyedov təbiri ilə söyləsək, fərq etməz ki, «Knyaginya Mariya Alekseyevna nə deyəcək». Bu sayaq mövqe hörmətə layiqdir və siyasi mərdlik tələb eləyir.

Bəli, dahi atanın dövlət təcrübəsi, çox mürəkkəb situasiyalarda yüksək siyasi əxlaqi keyfiyyətlər nümayiş etdirməsi, qəti addımlar atması İlham Əliyev üçün meyar – dərs idi. Onu prezidentliyə gətirən yollarda, idarəetmə fəaliyyətində qazandığı dövlət təcrübəsi də hər an köməyinə çatırdı.

Xəzərdə neft yataqlarının aşkarlanması, mənimsənilməsi və istismarı barədə müqavilələrin meydana gətirilməsində və hazırlanmasında və beləliklə də «Əsrin müqaviləsi»nin ortaya çıxmasında o müstəsna rol oynadı. Heydər Əliyevin rəhbərlik

etdiyi Azərbaycan Respublikasının 1994-cü ildə bağladığı bu müqavilədə Azərbaycan həlledici rol oynadı, Xəzərin bölünməsi ilə bağlı başlanmış möhtəkirliyə son qoyuldu, polemikalar işgüzar relsə yönümləndi. İlham Əliyev böyük layihənin necə gerçəkləşdirilməsinə başlandığını xatırlayanda çox haqlı olaraq demişdi: «Mən fəxr edirəm ki, Azərbaycanda neft sənayesinin dirçəldilməsində, yeni mərhələdə özül qoyulmasında mənim də xidmətim var».

O, Respublika parlamentinin deputatı, Avropa İttifaqı Parlament assambleyasının vitse-prezidenti, Milli Olimpiya Komitəsinin sədri kimi də çox işlər gördü. İnsanlar bunları dəyərləndirdilər.

Prezident seçilməmişdən iki il öncə onun haqqında çəkilmiş «Sabaha inamla» filmi maraqlı akkordla bitir. *İlham* adının məğzi, mənası – bu sözün fonetik tərkibi ağılla hallandırılaraq doğma adları eyni bürc altında birləşdirir – İlham, Leyla (qızı), Heydər (məşhur babasının adını daşıyan oğlu), Arzu (qızı), Mehriban (həyat yoldaşı Mehriban xanım)...

Sizin oxumağa başladığınız bu kitab Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə həsr olunur.

Siz elə bilməyin ki, konstitusiya normalarına, həmçinin şəxsi keyfiyyətlərinə görə bütün ölkələrdə prezident liderə çevrilir. İlham Əliyev gənc (postsovet məkanı tarixinin hesabatını aparsaq) dövlətin lideri adını, xalqın etimadını özü qazanıb. Çingiz Aytmatov demişkən, «qloballaşan dünyada lider etalonu»na çevrilib. O, öz xalqının övladıdır və həm də beynəlmiləlçidir, bəşəri mənəvi insani dəyərlərin tərəfdarıdır.

O, respublikada mövcud olan ənənəvi dəyərlər və dini institutların qayğısına qalmaqla, respublikada fəaliyyət göstərən konfessiyaların münasibətlərinin tolerantlığına çalışmaqla yanaşı, dünyəvi dövlətin dünyəvi başçısıdır.

Hər bir tarixi şəxsiyyət öz əsrini əks etdirir. Biz İlham Əliyevin prezidentlik fəaliyyətini, ömür yolunu xronoloji ardıcıllıqla izləməyə hazırlaşmırıq; bizim məqsədimiz – hekayətimizin qəhrəmanını həyatda olduğu kimi, əhatəli şəkildə Sizə çatdırmaqdır. Buna nail olmuşuqmu? Söz Sizindir. Hörmətli oxucu, Sizi bizim kitabı oxumağa dəvət edirik.

I fəsil

ODLAR DİYARI

«Ot kökü üstündə bitər».
Azərbaycan atalar sözü

Adlar nələr deyir

Rəşid Behbudovun oxuduğu kimi, Bakı buxtasında «Bir-birinə göz vurur Bakının ulduzları».

Qışda dəniz beşik kimi yırğalanaraq Ayın şəfəqlərindən ulduzlar kimi sayrışır. Axşamın sakitliyində kövrək nəğmə kimi səslənir. Sakit gecənin ahəngini tamamlayır, sanki narahat, şıltaq dəniz özü layla çalır.

Layla deyim yatasan,
Qızıl gülə batasan,
Qızıl gülün içində
Şirin yuxu tapasan.

Pəncərəyə ay işığı düşür. Dekabr gecəsinin soyuq ulduzları parıldayır. Heydər və Zərifə Əliyevləri həm yeni il, həm də oğulları İlhamın dünyaya gəlməsi münasibətilə təbrik edirlər. Valideynləri sevindirərək körpəyə səadət diləyirlər, ümidləriniz gerçəkləşsin, özünü doğrultsun, – deyirlər.

Körpə Oğlaq bürcü altında doğulmuşdu; qədimlərdən gələn şairanə təxəyyülə görə bu bürc altında dünyaya gələnlər dini mahiyyət daşıyan mənəvi qüdrətə və təcrübəyə malik olurlar. Liderlik onlara vergi kimi verilir, uğurla ucalır, uzaqgörən olurlar ki, bu da rəqibləri məğlub etmək üçün mənəvi qüvvədir. «Oğlaqlar» ciddi işlərlə məşğul olurlar, onların natiqlik istedadı var, amma diqqət mərkəzində olmağı xoşlamırlar. Qırx bir yaşından sonra ziyalılıq zirvəsini fəth eləyirlər, ali məqsədlərinə çatırlar. Ulduz falını elm səviyyəsinə yüksəl məyəcəyik, amma Oğlaq bürcü altında dünyaya gələn böyük simaların bir

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi

qisimini yada salmaq maraqlı olardı. Aristotel və Sokrat, Janna d'Ark və Nyuton, Molyer və Monteskye, Qriboedov və Adam Mitskeviç, İohann Kepler, Kiplinq, Anri Matiss, İqor Kurçatov, Osip Mandelştam, Mel Gibson...

İlham incəsənətə və mədəniyyətə, elmə, savada böyük hörmət bəslənilən bir mühitdə, ziyalı ailəsində böyüyüb.

Gələcək şəxsiyyətin hazırlıq məktəbi ailədir. Balaca «sualbaz»ın dünya ilə ilk tanışlığı, dünyanı dərk etməsi də burada başlayır. Ana laylaları, nənənin, babanın sehirli nağılları, ilk heyrət, ilk şadlıq, inciklik, kimisə tanıma – nəcabət, zəhmətsevərlik, xeyirxahlıq dərsi olur.

Dünya müəmmalarla doludur. Nə üçün təyyarələr quşlar kimi uçmur? Qarışqa özündən ağır yükü çəkir. Bu güc onda haradandır? Ancaq ən böyük sirr – dənizdir! Odur bax – Dənizkənarı parkın ağacları arasından parıldayır. Qayıqların açılmış yelkənləri bəyaz kəpənəklər kimidir. Gəmilər isə əzəmətlə üzür, yavaş-yavaş limanda körpüyə yan alır, sanki dalğalı dənizdən aralanmaq istəmirlər. Gəzinti gəmisinin göyərtəsindən körfəzə daha yaxından baxmaq olar. Lap yaxından baxanda görürsən ki, suyun səthi əlvan qaysaqla örtülüb. Və yalnız uzaq çimərliklərdə dəniz şəffaf və təmizdi, orada hətta suyun dibindəki xırda balıqlar da görünür. Burada isə suyun üzündə yağlı ləkələr var. Bu, neft ləkələridi. Mazut daşıyan bərələrdən qalan izdi. Uzaqlarda – dənizlə səmanın kəsişdiyi yerdə buruqlar görünür. Bir qədər də uzaqda, deyirlər ki, dəniz mədənləridi, Neft Daşlarıdı. Suyun dərinliyindən neft, «qara qızıl» çıxardırlar. Sən demə, hələ «ağ qızıl» da mövcuddur, «ağ qızıl» pambığa deyirlər... Və bütün bunlar Azərbaycandır. Sonralar İlham eşitdi ki, Vətəninin qədim adı Odlar Yurdudur.

Gözəl bir mahnıda: «Vətən nədən başlanır?» – sualı səslənir və onun cavabı da elə həmin mahnıda verilir: «Sənin «Əlifba»ndakı şəkillərdən».

Hələlik bizim balaca qəhrəmanımız üçün Vətən – tanış sifətlərdi, tanış səslərdi, valideynlərin nəvazişidi, sevimli oyuncaqlarla dolu evdi, doğma ocağın istisidi, gülərüz adamları olan səsli-küylü şəhərdi... Xəzrisi əskik olmayan qışdan və gözqamaşdıran qısa yazdan sonra neft və yod qoxusu dərhal hiss olunan qızmar yay günləri başlayır. Bu torpaq öz tərkində od gizləyir, bu dəniz qayalı, qumlu sahilləri, bağların minbir əziyyətlə ərsəyə gəldiyi Abşeron şoranlıqlarını qucaqlayır...

Vətən nədən başlanır?.. Sənə həyat vermiş insanlar haqqında xatirələrdən, səni və sənin əcdadlarını öz qoynunda böyütmüş torpağa inamdan. Onu *Azərbaycan* adlandırırlar. Bu sözün etimologiyası haqqında çeşidli mülahizələr mövcuddur. Bir qisim adamlar bu toponimi «azər» – «od» sözü ilə bağlayırlar. Bir qisimi isə deyir ki, bu toponim qədim türkdilli etnos «Az»larla əlaqədardır.

Xəzər, Xəzər... Əfsanəvi Kaspi. Gənc İlham öz atası kimi dənizi – bu azman, sirli-sehirli təbiət möcüzəsini sevdi. Əvvəlcə o, yalnız «eşmə» üsulu ilə yavaş-yavaş üzməyi bacarırdı. Amma çox keçmədi ki, başqa cür üzmək üsullarını da mənimsədi və sürətini artırdı. Atası onun üzgüçülükdəki uğurlarını təmkinlə qiymətləndirirdi, oğlu isə söz verirdi ki, sürətini artıracaq. O, sözünün üstündə durdu. «Geri çəkilmək» onun xasiyyətinə yaddı. Bu nə deməkdir? Həvəs? İradə? İnadkarlıq? Seçim sizindir.

Gənc İlhamın portretinə daha bir diqqətəlayiq cizgi. İttifaqın tanınmış xalq artistləri Müslüm Maqomayev və Tamara Sinyavskaya yenə də Əliyevlər ailəsinin qonağı idilər. Müslüm Maqomayev bir məqamı belə xatırladı: «Mən İlham Heydər oğlu Əliyevi uşaqlıqdan tanıyıram. Bilyard oyunlarımızı isə heç zaman unutmayacağam. Bizim ilk oyunumuzda gənc İlham mənə uduzdu. Amma bir ildən sonra o, xəfifcə gülümsəyərək məni həmin bilyard stolunda oynamağa dəvət etdi. Və mən o görüşdə darmadağın olundum. Və başa düşdüm ki, bu gənc həyatda öz karyerasını yaratmağa başlayanda da öz məqsədinə uğurla nail olacaq. Allaha şükür ki, mən yanılmadım!» *(Birja-plyus, 8 mart, 2007-ci il).*

Altı saylı Bakı məktəbi

Valideynləri İlhamı böyük bacısı Sevilin oxuduğu, evlərinin lap yaxınlığında yerləşən 6 saylı məktəbə yazdırdılar. 1 sentyabr 1967-ci ildə İlham məktəbə getdi, amma necə deyərlər, «kampaniya xatirinə». Çünki onun hələ altı yaşı da tamam olmamışdı, amma çox istəyirdi ki, oxusun. Bir halda ki, belə oldu, valideynləri qərara aldılar ki, daha bir il də gözləməsinlər.

Onların seçiminə daha bir gerçəklik təsir göstərmişdi ki, bu da rus məktəbi idi. Beynəlmiləl Bakıda hələ keçmiş zaman-

6 saylı məktəbin məzunları böyük ölkənin bütün şəhərlərinə səpələndilər. Onlardan biri, Sapan Xocayev Voljsk şəhərində yaşayır. O «Şəhərin həftəsi» adlı yerli qəzetin *29 iyun 2006-cı il* sayında doğma məktəb haqqında xatiratlarını oxucularla paylaşıb.

«Mənimlə birgə, – Sapan yazır, – səkkiz rus, yeddi azərbaycanlı, dörd yəhudi, iki erməni, bir polyak və bir ukraynın uşağı oxuyurdu. Hələ biri də mən. Qətiyyən ağlımıza da gəlmirdi ki, «xalqlar həbsxanasında» çürüyürük, milli simasızlıq haqqında düşünmürdük, hamıya eyni tarixin, eyni ədəbi nümunələrin öyrədilməsi də etirazla qarşılanmırdı. Və o zaman mən bilsəydim ki, milli zəmində oyanmış cəmiyyətdə məni nələr gözləyir, buraxılış gecəsində pəncərədən tullanıb məktəbdən qaçmağa cəhd eləməzdim. Əksinə, qəti şəkildə tələb edərdim ki, zamanı dayandırsınlar, bütün dəlik-deşikləri bərkidib tutsunlar ki, həmişəlik sinifdaşlarım və müəllimlərim mənimlə qalsınlar. Çünki biz hamımız eyni ağacın meyvələri idik...»

O buraxılışın 97 məzunundan 90-ı ali məktəblərə ilk cəhddən – özü də medalsız-filansız qəbul olunub.

«Bizim buraxılış ilimizdə İlham Əliyev üçüncü sinifdə oxuyurdu, mən onu, ümumiyyətlə, tanımırdım, ancaq, zəmanət verə bilərəm: hətta ötəri də olsa, ona bir qapaz da endirməmişəm. Çünki ümumiyyətlə balacaları incidən deyildim».

İlham Əliyev çalışqanlıqla, şövqlə oxuyurdu. Pifaqor teoremi də onun üçün maraqlı idi, İvan İvanoviçlə İvan Nikiforoviçin küsülü qalması da, maye heliumla aparılan təcrübə də, həddindən artıq aşağı temperaturda rezin topun şüşə kimi sınıb parçalanması da...

Ata respublikanı idarə eləyirdi. Ana elmlə məşğuldu. Qız və oğul çox şeyi dərk edirdilər. Sonralar o söyləyəcək ki, məktəb, həmçinin institut illərində o özünü elə aparmağa çalışırmış ki, valideynlərinin reputasiyasına və saf adına heç nə ilə kölgə salmasın.

Yetmişinci illərin ortalarında, yeddinci sinifdə o, artıq «ikidilli» şagird idi, ingilis dilinə məftun olmuşdu.

Bir qayda olaraq məktəbin, sevimli şagirdlərini obrazlı adlarla çağırmaq səlahiyyətinə malik olan «ingilis qızı» ucaboylu, əlaçı şagirdə gah «Cefri Cekson», gah da «Ceneral menecer», yəni «baş direktor» deyə müraciət edirdi... Dil – dünyaya pəncərədir, xalqların qəlbinə açardır. Bu hamıya bəlli həqiqətdir. Azərbaycan və rus dilinin sehirli dünyası Füzulinin, Sə-

məd Vurğunun, Puşkinin və Tolstoyun ədəbi irsinin ona öz qapılarını ona açmışdı. İndi isə Şekspiri və Bayronu, Heminqueyi və Folkneri də orijinalda oxuya bilərdi... Əlbəttə, bir saata, bir günə yox. Bunun üçün yabançı dilin qrammatikasını, incəliklərini və məlahətini duymaq lazımdı. Hansısa maestronun sözüdür: bəstəkar gözləri ilə eşitməli, qulaqları ilə görməlidir. İngilis dilindən söhbət gedəndə bu fikir, yəqin ki, lap yerinə düşür. İngilis dilinin orfoepiyası və orfoqrafiyası nabələd üçün – yer və göy kimidir...

Deyirlər ki, geniş yayılmış dillərdən beşini bilmək kifayətdir ki, bütün dünyanı dolanasan, qarşılıqlı ünsiyyət yaradasan, adamlarla əlaqələrə girəsən. Elə dillər var ki, 15-20 ölkədə dövlət səviyyəsində istifadə olunur. Rəvayətə görə, qədim fars hökmdarı Mitridat Poliqlot imiş, yer üzünün bütün insanları ilə onların öz ana dilində danışa bilirmiş. İmam Əlinin sözüdür: «Dil – dərrakənin göstəricisidir». Vavilion qalası haqqında bibliya əfsanəsi çox geniş yayılıb. Pərvərdigar öz yaratdıqlarına hirslənərək onlara müxtəlif dillər verib ki, onlar öz aralarında dil tapa bilməsinlər... İnsanlar arasında, ölkələr arasında ümumi dil tapmaq nə qədər də vacibdir! Həm sözün məcazi, həm də müstəqim mənasında.

Müdriklərdən Gəncəli Nizami söyləyib ki, adam nə qədər çox dil bilirsə, o, insan adını bir o qədər çox doğruldur. Qriboyedov deyib ki, xarici dillərə bələd olmaq adama öz doğma dilini yaxşı anlamaqda kömək edir. Aleksandr Sergeyeviç özü fars və ingilis dillərini bilirdi. Fars şahzadəsi Abbas Mirzə ilə danışıq apararkən (Rusiyanın elçisinə Abbasqulu ağa Bakıxanov kömək edirdi) o, 150 min rus döyüşçüsünün Vətənə dönməsinə nail olub. Əvvəlcə Şahzadə etirazını bildirib: «Bu 150 min adam olsa-olsa dənizdə bir damladır». Qriboyedov cavab verib: «Bəs bu damla dənizə qarışmaq istəyirsə, onda necə olsun?» Və öz mövqeyindən çəkilməyib.

Çağdaş dünyanın beynəlxalq, dövlətlərarası əlaqələrində çoxlu dillər bilməyin nə qədər vacib olduğunu vurğulamağa ehtiyac varmı?! Artıq yuxarı siniflərə gəlib çatmış İlham seçəcəyi meydan barədə düşünürdü. O, müəllimləri sevindirirdi, adı ən yaxşıların sırasında çəkilirdi; sinifdaşları onunla yaxınlığa can atırdılar. Atasının, ya anasının personal limuzinində məktəbə gətirilən, məktəbdən aparılan elita uşaqlarından fərqli olaraq bu ucaboylu, söhbətcil, gülərüz oğlana bütün süni manevralar, təmtəraq yaddı. Tədbirlərdə kimsədən geri qalmazdı,

kefin istəyən tvist də oynayardı, voleybol meydançasında da nəyə qadır olduğunu göstərə bilirdi, uca boyu da buna imkan verirdi... Onun bilyard oyunundakı uğurları isə bizə artıq Müslüm Maqomayevin sözlərindən məlumdur.

1973-cü ilin oktyabr ayında 12 yaşlı İlhamın sovet kosmonavtları və Amerika astronavtlarının mötəbər dəstəsində çəkilmiş şəkli diqqət çəkir; o zaman Bakıda ulduzlara doğru başlanan yolun fatehlərinə həsr olunmuş konfrans keçirilirdi. Yeniyetmənin həyəcanını təsəvvür etmək olar – bu, tarixin özü ilə qısa, amma xoşbəxt bir təmas idi.

Lyudmila Konstantinovna Frantseva tarix və ictimaiyyət fənlərini tədris eləyirdi. O, İlhamı belə xatırlayır: «Enerjili və diqqətcil yuxarı sinif şagirdi idi. Onun maraq dairəsi tədris proqramının çərçivəsindən çıxırdı, verdiyi suallardan anlaşılırdı ki, bu oğlan kitablardan oxuduqlarını həyatın gerçəklikləri ilə tutuşdurur. İlham Əliyevin tarixi hadisələrə, siyasi axınlara, iqtisadi mövzulara cazibəsi onun gələcək taleyinə işıq saldı. Artıq 10-cu sinifdə biz müəllimlərdə şübhə qalmadı ki, İlham Əliyev özünün gələcək həyatını siyasət meydanı ilə bağlayacaq. Bu, belə də oldu».

Biologiya müəlliməsi Emilya Əlihəsən qızı Kazımova İlhamın ad günündə (24 dekabrda) bütün sinifdaşların Əliyevlər ailəsinə dəvət olunmasını yadına saldı.

– Bir dəfə İlham etiraf etdi ki, bəs dərsə hazırlaşmayıb və mən də onu tənbeh elədim. Görünür, o, bu barədə evlərində nə isə söyləmişdi. Mən belə başa düşdüm ki, atası onu nəinki həmin mövzunu öyrənməyə, hələ üstəlik əlavə materiallar da oxumağa məcbur eləyib. İlham mənə üzrxahlıqla yaxınlaşdı. Mən ondan təzə dərsi soruşanda gördüm ki, hər şeyi dərindən mənimsəyib və ona əla qiymət yazdım.

Son zəngi, buraxılış gecəsini nəinki məktəbin yetirmələri, həmçinin 6 saylı təhsil ocağının müəllimləri də uzun müddət xatırlayacaqlar. Valideynlər fərəhdən həyəcanlanmış, atalar, analar da gəlmişdilər. İlham söyləyəndə ki, gecəyə onun atası da gələcək, bir çoxları inanmadı. MK birinci katibinin iş rejimindən hamı xəbərdardı; televiziya ilə onu gah pambıq tarlalarında, gah üzüm plantasiyalarında, gah Neft daşlarında görürdülər... Birinci katibin qayğıları azdımı?! Amma həmin gün Heydər Əliyev ömür yoldaşı Zərifə xanım və qızı Sevillə birlikdə həqiqətən də o mübarək axşamın qonağı oldu. Hamı şadlıq, şadyanalıq içində idi.

Təbriklər, həyəcanlı nitqlər, kövrəlmiş müəllimlər, valideynlər... Musiqi, rəqslər. İlham da sinifdaşları ilə birgə şənlənirdi. Onun atası da, anası da, necə deyərlər, cavanlıqlarını yada saldılar. Sevil də valideynlərindən geri qalmadı. Gecənin yarısına kimi Heydər Əliyev məktəbdə qaldı, yadigar şəkillər çəkdirdi. Xudahafizləşəndə:

– İndi isə meydan cavanlarındı, – dedi, – qoy şənlənsinlər.

Gecə isə səhər açılana qədər davam elədi.

Kim bilmir ki, cavanlıq qanadlıdır, ömrün ən gözəl mövsümüdür...

Ayrılmışıq xeyli vaxtdır
Əziz dostlar məktəbdən.
Hər il dönüb qayıdırıq
Doğma sinfə yenidən.

İlhamın oxuduğu 10 «B» sinfi indi də 6 saylı məktəbin ən mehriban sinfi hesab olunur. Ənənəyə çevrilmiş toplanışa, bir qayda olaraq, demək olar ki, hamı gəlir. Cavanşir Vahabov və Nazim Ələkbərov, Emin Şəkinski, Elmira Məmmədova və Olqa Vilenskaya, Afa Ziyadova və Zakir Cəmilov, Rüstəm Hacıbəyov, Azər Əhmədbəyli və Azad Rəştiyev, Ceyhun Kərimov, iki Fərid – Quliyev və Cəfərov, Tahirə Əkbərova və Nataşa Quryeva, Fərhad Quliyev, Rauf Həsənli və Esmira Qurbanova. Hərdən İsraildən Marik Diment və Marina Lipoviç də uçub gəlirlər, yeri gəlmişkən, indi onların soyadları eynidi – Diment. Əgər kimsə sinifdaşlarının görüşünə gələ bilmirsə, mütləq teleqram göndərir.

– «Zaman insanları dəyişdirir» ifadəsi bizə aid deyil. İllər keçib, çox şeylər itib-batıb. Amma bizim bir-birimizə qarşı münasibətimiz, – Cavanşir Vahabov deyir, – dəyişməyib».

İlham Əliyevin 45-illiyində dostlar xatiratlardan ibarət kitab nəşr etdirdilər: «Məktəbdən zirvəyə».

«Biz, oğlanlar, – Cavanşir yazır, – hər şeydən çox bədən tərbiyəsi dərsini sevirdik, həndbola, futbola çox aludə olmuşduq. Çox yaxşı yadımdadır, həndbol, futbol komandalarında İlham hücumda oynayırdı, gözəl «qollar» vururdu. Mənim sinifdaşımın idmana məhəbbəti, sonradan Respublika Milli Olimpiya komitəsinə başçılıq etməsi öz mənbəyini məktəb illərindən götürüb».

O zamanlar 8 Mart məktəblilər üçün də çox sevilən bayramlardan idi. Bayram ərəfəsində uşaqlar pul yığırdılar, götür-

qoy eləyirdilər ki, qız sinifdaşlarına hansı hədiyyələri alsınlar. Sinif həmişə, İlhamın, yaşca hamıdan balaca olmasına baxmayaraq, rəyi və zövqü ilə hesablaşırdı. Təqdim olunan hədiyyələr həmişə qızların xoşuna gəlirdi.

Həm elmi işlə məşğul olmasına, həm ailə qayğılarını çəkməsinə baxmayaraq, Zərifə xanım Əliyeva bir dəfə də olsun valideyn iclaslarından qalmazdı. Digər uşaqların valideynləri də bunu bilirdilər və onlar valideyn yığıncaqlarına can atırdılar. Cavanşir Vahabov belə söyləyir: «Uşaqların əksəriyyəti zaman-zaman dərsdən qaçırdılar. İlham isə bir dəfə də olsun dərs buraxmaz və eyni zamanda məktəbə gecikməzdi». Sinifdaşamı inanaq? Yoxsa İlhamın ola bilsin haçansa xüsusən yuxarı siniflərdə dərsdən qaçmasına? Bu suala cavab tapmaq üçün sinif jurnalını vərəqləmədik, amma bu qənaətə gəldik ki, ikinci versiya İlhamın xasiyyətinə daha çox uyğundu. Onun dostları yeni filmə baxmaq üçün aradan çıxanda və ya haradasa yeni bir əyləncə axtaranda, o, sinifdə oturub «nümunəvi uşaq» rolunu oynamayacaqdı ki? Bizim gümanımızı 6 saylı məktəbin tarixinə «Funikulyora ekskursiya» adı ilə daxil olmuş epizod təsdiqləyir.

Bir dəfə sinfin bütün uşaqları dərsdən yayındılar ki, funikulyora minsinlər və Dağüstü parka qalxıb Bakının ən uca yerindən şəhəri seyr etsinlər. İstəklərini həyata keçirtdilər. Amma geri qayıdanda gördülər ki, milislər məktəbi dövrəyə alıblar. Hamı həyəcanlı idi, elə bil həyəcan siqnalı verilmişdi.

– Allah İlhamın anasına rəhmət eləsin. Zərifə xanım olduqca mehriban, böyük ürəkli qadın idi. Bu hadisədən sonra o bizdən rica elədi: «Bir də gəzmək niyyətinə düşsəniz, əvvəlcə mənə deyin».

Ertəsi gün uşaqlar İlhamdan söz çəkmək istəyirdilər. Bilmək istəyirdilər ki, evdə onu çoxmu tənbeh eləyiblər? Baxmayaraq ki, bu «samovolka»ya görə çox güman onun dərsini vermişdilər, amma o bildirdi ki, hər şey öz qaydasındadır. Məktəbi bitirəndən sonra hərə bir səmtə üz tutdu, hərə bir yola düşdü. Amma hər kəsin bir peşə sahibi olandan sonra tutduğu vəzifədən asılı olmayaraq bizim dostluğumuz və yoldaşlığımız neçə illər qabaq olduğu kimi qaldı.

Daha bir unudulmaz hadisə!

25 may 1977-ci ildə 6 saylı məktəbdə buraxılış gecəsi keçirilirdi. Bayram libaslı uşaqlar valideynləri ilə gəldilər. Onların arasında Heydər Əlirza oğlu və Zərifə Əziz qızı da var idi...

Üstündən çox-çox illər keçəndən sonra Heydər Əliyev o buraxılış gecəsindən söz saldı. Yeni dərs ili ərəfəsində, 2001-ci ilin 31 avqustunda 6 saylı məktəb Prezidenti qarşıladı. Bu təhsil ocağının direktoru Ceyran Quliyeva söylədi ki, 6 saylı məktəb mövcud olduğu 70 il ərzində altı mindən çox məzununu böyük həyata yola salıb. İndi təlim-təhsil rus və Azərbaycan dillərində aparılır, ingilis dili də dərindən öyrənilir. Prezidentlə söhbətdə pedaqoqlar, o cümlədən artıq bizə tanış olan veteranlar, İlhamın müəllimləri iştirak edirdilər.

– Mən ümidvaram ki, Azərbaycanda məşhur olan 6 saylı məktəb gözəl ənənələrini davam etdirəcək, – Prezident dedi. – Uşaqlar burada, əlbəttə, yalnız mənim uşaqlarım deyil, çox yaxşı təhsil alıblar. Siz bilirsiniz ki, 1969-cu ildən mən Azərbaycana rəhbərlik etmişəm. Və biz respublikada məktəblərlə ciddi məşğul olmuşuq. Nümunəvi məktəblər yalnız Bakıda deyildi. Məsələn, Yevlax rayonunun Xaldan kənd məktəbi bütün Azərbaycanda məşhur idi. Mən bir-iki dəfə orada olmuşam və direktor Zahid Şöübovla söhbət etmişəm. Ona birincilər sırasında o vaxtlar çox fəxri olan «SSRİ xalq müəllimi» adı verilmişdi. Məktəbin şəhərin mərkəzində və ya əyalətdə olması ondakı təhsilin səviyyəsinə təsir etməməlidir. 6 saylı məktəb həmişə nümunəvi olub, onun böyük tarixi var. Mən çox məmnunam ki, o çətin dövrlərdən keçərək öz reputasiyasını saxlayıb və ümid edirəm ki, gələcəkdə də öz şanlı adını qoruyub saxlayacaq.

1977-ci ildə oğlum İlham məktəbi bitirəndə mən də başqa valideynlərlə birlikdə buraxılış gecəsinə gəlmişdim. Onda çoxları təəccüblənmişdi ki, respublikanın başçısı məktəbə gəlib və başqa valideynlərlə birgə mərasimdə iştirak edir. Hesab edirəm ki, təəccüblənənlər yanılıblar. Çünki bizim hamımız bu və ya digər məktəbdən çıxmışıq. Bizim hamımız məktəblərin yetirməsiyik. Oğlum on il burada oxuyub. Və o burada yaxşı təhsil aldığından mən onun buraxılış gecəsinə gəlib müəllimlərə minnətdarlığımı bildirməliydim. Keçmişi xatırlayaraq, demək istəyirəm ki, mənim rəhmətlik həyat yoldaşım Zərifə xanım bütün valideyn iclaslarına gəlirdi. Sevilin də, İlhamın da.

Mən məktəbə övladlarıma verdiyi biliklərə görə dərin minnətdarlığımı bildirirəm. Hər şeyin başlanğıcı məktəbdir *(Azərbaycan müəllimi, 7-13 noyabr 2003-cü il).*

...Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu, məşhur MDBMİ. Rus ədəbiyyatından imtahanda abiturientlərə seçim üçün dörd mövzu təklif edirlər. Əlbəttə, bu kitab barədə

düşünəndə və bu məqsədlə MDBMİ-yə getməyə hazırlaşanda, biz bilmirdik ki, abiturient Əliyev hansı mövzunu seçib. Amma siz deyin, bəs nə üçün o ərəfədə bizlərdən birimiz ailə kitabxanasından Puşkinin «Yevgeni Onegin» romanı çap olunmuş cildini kitab taxçasından endirib? Heydər Əliyev bu poemanı əzbər bilirdi. Ədəbiyyatçıların Mərkəzi evində, yazıçılarla görüşdə «Onegin»dən söz salaraq Moskvanın söz sərraflarını heyran qoydu. Əliyevlərin evində Puşkin misralarının səslənməsini də təsəvvür etmək olar. Deməli belə. Amma kim söyləyə bilər ki, nə üçün, İlhamın kurs yoldaşları, müəllimləri ilə görüşə – MDVMİ-yə yola düşəndə nə üçün biz Puşkini təzədən oxuduq?

Mən yazıram sizə – neyləyim artıq?
Yenə söylənəcək bir sözümmü var?
Bilirəm, sizdədir indi ixtiyar,
Cəzanız olsa da etinasızlıq.
Fəqət, bu qismətsiz taleyimə siz
Barı bir damlacıq rəhm eləsəniz,
Məni atmazsınız – deyirəm – əlbət.

Abituriyent Əliyev qəbulda inşasını «Onegin» mövzusunda yazdı. Məhəbbət və ölüm, qız qüruru və etibar, hisslər və borc bütün nəsillərin əbədi problemləridir. Abituriyent Əliyev onaltı yaşına keçmişdi.

II fəsil

MOSKVA, MOSKVA...

«Alimlik – acı köklərin
şirin barıdır».
D.Katon

«Azərbaycan sizə güvənir»

Ötən yüzilliyin 70-ci illərində Bakıda yeni bir ənənə bərqərar oldu. Sentyabrın 1-i ərəfəsində Heydər Əliyev və onunla birlikdə respublikanın rəhbər işçiləri tələbələrlə görüşürdülər. Qəzetlərin yazdığı kimi Bakı ali məktəblərinin nümayəndələri və Azərbaycan hökumətinin göstərişi ilə Moskva, Leninqrad və İttifaqın digər şəhərlərinin ali tədris ocaqlarında təhsil alan, uğurla imtahan verib həmin institutların, universitetlərin 1-ci kursuna qəbul olunmuş tələbələrin də qatıldığı bu görüşlər hərarətli, səmimi keçirdi. Onlara – respublikanın gələcəyinə – Moskvaya təyinat alana qədər hər dəfə Heydər Əliyev bir ata kimi müraciət edirdi.

27 avqust 1977-ci ildə V.İ.Lenin adına (indiki H.Əliyev adına «Respublika») sarayının gözəl zalı yenə tələbələrlə doldu. Elman Nəcəfova Moskva aviasiya, Svetlana Sərkisovaya Xarkov elektronika institutlarında, Yelena Portyanskaya MDU-da, İlham Əliyevə və Teymur Yəhyayevə isə MDBMİ-də təhsil almaq nəsib olmuşdu... Ümumiyyətlə isə 1977-ci ildə Azərbaycandan İttifaqın aparıcı alı təhsil ocaqlarına 800-dən artıq gənc qəbul olunmuşdu.

– Biz ümid edirik və inanırıq ki, siz yaxşı oxuyacaqsınız, biliklərə yiyələnəcəksiniz, komsomol işlərində, institut kollektivlərinin ictimai-siyasi həyatında fəal iştirak edəcək, mənəvi zənginləşəcək, elm və mədəniyyətin böyük dəyərlərinə doğru yiyələnəcəksiniz, – deyə Azərbaycan KP MK birinci katibi Heydər Əliyev onlara xeyir-dua verdi. – Bizim ölkəmizdə mil-

lətlərarası ünsiyyət vasitəsi olan rus dilinin, sovet xalqlarının qardaşlıq və dostluq dilinin daha dərindən mənimsənilməsinə gələcəkdə böyük diqqət yetirməyiniz çox vacibdir...

Biz ümid edirik və inanırıq ki, siz Moskvanın, Leninqradın və başqa şəhərlərin tələbə kollektivlərində Azərbaycan gəncliyini, Azərbaycan komsomolunu ləyaqətlə təmsil edəcəksiniz, öz babalarınızın və atalarınızın inqilabi, döyüş və əmək ənənələrini artıracaq və inkişaf etdirəcəksiniz (*Bakınskıy raboçiy, 28 avqust 1977-ci il*).

Moskvanın və İttifaqın digər şəhərlərinin ali təhsil ocaqlarında oxuyan azərbaycanlı tələbələrin sayı ildən-ilə artırdı. 1970-ci ildə belə tələbələrin sayı cəmi 60 nəfər idisə, 1977-ci ildə 818 nəfərə qalxmışdı. O zaman Sovet İttifaqının 40 şəhərindəki 140 ali məktəbində Azərbaycandan 2500-dən artıq tələbə təhsilini davam etdirirdi. 1982-ci ilin 1 sentyabrı ərəfəsində Heydər Əliyev tələbələrlə növbəti görüşündə qeyd etdi: «Hazırda bizim respublikanın xalq təsərrüfatının kəskin ehtiyac duyduğu ixtisaslar üzrə Sovet İttifaqının ən yaxşı ali məktəblərində hazırlanmış kadrlar ordusu varımızdır. Bu il respublikadan kənardakı ali məktəblərdə oxumağa 853 nəfər, bunların 720 nəfəri birinci kursda oxumağa yola düşür. Bundan başqa 42 nəfər Kiyev Mülki Aviasiya İnstitutuna qəbul edilib. Bu il Azərbaycandan 244 ixtisas üzrə 3600 oğlan və qız təhsil alacaq» (*«Bakinskiy raboçiy», 29 avqust 1982 il.*). Respublika Nazirlər Soveti irəlicədən, üç-dörd il qabaqcadan Respublikanın gözlədiyi gənc mütəxəssislərin yerləşdirilməsinin personal planını təsdiq edirdi.

Şübhəsiz ki, Azərbaycanın özündə də ali təhsil ocaqları fəal surətdə inkişaf etdirilirdi. Həmin 70-ci illərdə beş yeni ali təhsil ocağı, o cümlədən, nəzərinizə çatdıraq ki, Dağlıq Qarabağın mərkəzində, Stepanakertdə pedaqoji institut yaradılıb.

Kommunist partiyası MK birinci katibinin təklifi ilə Azərbaycanın bütün rayonlarında iqtisadi və sosial-mədəni həyatı inkişaf etdirmək məqsədilə bir sıra bölgələrdən müsabiqədənkənar tələbə qəbuluna icazə verilməsi məqsədilə hazırlanan layihə təsdiqləndi. Naxçıvan Muxtar Respublikasından, Dağlıq Qarabağ Muxtar Vilayətindən, kənd rayonlarına 1982-ci ildə respublikanın ali məktəblərində təhsil almaq üçün 849 yer ayrıldı. Respublikalararası tələbə mübadiləsinə müvafiq olaraq Azərbaycan Gürcüstandan, Ermənistandan və Türkmənistandan böyük dəstələrlə gənclər qəbul elədi.

Bütövlükdə ümumi mənzərə belədir. İndi isə MDBMİ-nin birinci kurs tələbəsi İlham (tələbəlik və aspirantlıq illərində onun adı rusca (İLQAM yazılıb) Əliyevdən söz açaq. Dərs ilinin əvvəlində onun hələ onaltı yaşı tamam olmamışdı, deməli, pasport da almamışdı...

– Sənədləri saxtalaşdırdılar ki, qəbul etsinlər? –»Formula vlastı» populyar televiziya verilişinin aparıcısı və müəllifi Mixail Qusman öz həmsöhbətini bu sualla meydana çağırdı.

«Pasportsuz qəbul etdilər, – Azərbaycan prezidenti düzünü dedi. Və xatırlatdı ki, onaltı yaşının tamam olmasına vur-tut bir neçə ay qalmışdı. – Arayışla qəbul etdilər... Birinci il məndən ötrü çox çətin oldu və təhsillə bağlı planlarımda mühüm rol oynadı. Bakıda MK birinci katibinin oğlu kimi oxumaq ayrı şeydi, cavan yaşında başqa bir şəhərdə sakin olmaq, tamam yeni bir mühitə düşmək – başqa. Amma mən tez bir zamanda bu yeni şəraitə alışdım və yaxşı oxumağa başladım, hələ sonra da aspiranturaya girdim, dərs dedim...»

* * *

Neçə illərdir ki, internetdə İlham Əliyevin MDBMİ-də təhsili ilə bağlı bir nağıl dolaşır. Guya «Sov.İKP MK-nın şöbələrindən birinə rəhbərlik eləyən Leonid Zamyatin «MDBMİ»-yə kafedra müdiri vəzifəsinə keçəndən sonra «Beynəlxalq əlaqələr» fənnindən Azərbaycan Kompartiyasının başçısının oğluna heç cür müsbət qiymət yazmaq istəmirmiş. Belə nağıllayırlar ki, guya Yevgeni Primakov da işə qarışıb ki, bu məsələni yoluna qoysun. Və guya İlham Əliyev təhsilini davam etdirmək üçün hətta Kiyev Beynəlxalq Əlaqələr İnstitutunda oxumaq məcburiyyətində qalıb».

Moskvanın «Vlast» jurnalının müxbirləri 2003-cü ilin yayında bu nağıla aydınlıq gətirmək üçün Leonid Mitrofanoviç Zamyatini axtarmağa ərinmədilər. «O dedi ki, heç zaman «MDBMİ»də dərs deməyib və bir dəfə də olsun İlham Əliyevlə qarşılaşmayıb. Bu həqiqəti Zamyatinin bioqrafiyası da təsdiq edir: belə ki, İlham Əliyevin tələbə olduğu illərdə o, SİTA-ya rəhbərlik eləyib, sonra da Sov. İKP MK-da Beynəlxalq informasiya onu «əfsanə»yə çevirib. O ki, qaldı Yevgeni Primakova, həmin illərdə o, Şərqşünaslıq institutuna başçılıq edib və elə bir «çəki»yə malik olmayıb ki, o məsələnin öhdəsindən gələ bilsin» cümləsilə jurnal öz araşdırmasına nöqtə qoyub *(«Vlast» 2003-cü ilin avqust sayı).*

70-ci illərdə Yevgeni Maksimoviç Primakovu həqiqətən də hələ «ağırçəkili siyasətçi» adlandırmırdılar. O, Yaxın Şərqdə jurnalist kimi fəaliyyət göstərmişdi, Dünya İqtisadiyyatı və Beynəlxalq Əlaqələr İnstitutunda direktor müavini işləmişdi. 1977-ci ildə Primakov SSRİ EA Şərqşünaslıq İnstitutuna rəhbərlik etməyə başlayır. O, Heydər Əliyevlə sadəcə tanış deyildi, arada dostluq körpüsü atılmışdı və ola bilsin ki, bu xoş münasibətin təməli uzun illər qabaq Bakı hərbi-dənizçilik məktəbində kursant Jenya Primakov çiynində admiral paqonu gəzdirmək, kiçik leytenant Heydər Əliyev isə general olmaq arzusu ilə yaşayanda qoyulmuşdu.

– Heydər Əliyev, şözsüz ki, görkəmli şəxsiyyətdir, – akademik Primakov söhbətimiz əsnasında söylədi. O, Azərbaycan üçün son dərəcə böyük işlər görüb. Gürcüstan KP MK-nın birinci katibi Şevardnadze ilə onun arasında qeyri-aşkar yarış gedirdi. Heydər Əliyev bu yarışda qalib gəldi, Azərbaycan önə keçdi, çünki Azərbaycanın başçısının təşkilatçılıq keyfiyyətləri böyük təcrübəyə əsaslanırdı, o daha təmkinli idi.

– Mən Heydər Əliyevlə kifayət qədər tez-tez görüşürdüm, – deyə, hal-hazırda Rusiya ticarət-sənaye palatasının rəhbəri, çağdaş dünyanın ən nüfuzlu siyasətçilərindən biri sayılan Yevgeni Maksimoç Primakov sözünə davam elədi. – Bir dəfə hətta onun bağında üç gün dincəlmişəm. Biz dənizə girirdik və söhbət eləyirdik.

–Yəqin ki, dalğaların şahə qalxması, Mahaçqaladan Bakıya qədər gəlib çıxması barədə yox...

– Əlbəttə, – deyə özü də poetik duyğuya yad olmayan Yevgeni Maksimoviç gülümsəyir. – Biz insanlar haqqında, dövlətlərin gələcəyi barədə, bütün Sovetlər ölkəsi, həmçinin Azərbaycan haqqında danışırdıq.

Primakovla Əliyevin açıq söhbət üçün dənizi seçmələrinin səbəbini başa düşmək olar. Azərbaycanda söyləyirlər ki, daşın da, divarın da qulağı var. Amma dəqiq bilirsən ki, Xəzər şeytançılıq etməyəcək, heç kimə heç nə söyləməyəcək...

– Əlbəttə, o zamanlar da Heydər Əliyev hamının haqqında hər şeyi açıq demirdi, amma biz kifayət qədər açıq şəkildə fikir mübadiləsi aparırdıq. Heydər Əliyev mütərəqqi insan idi. Ona xas olan ciddi tələbkarlığın kökündə də mütərəqqi istəklər, niyyətlər dururdu. Belə düzgündür. Mən də buna şübhə ilə yanaşmıram. O, demokratiyaya rəğbət bəsləyirdi, amma bununla belə ciddi qayda-qanun tərəfdarı idi. Azərbaycan onun

rəhbərliyi altında həm iqtisadi, həm də sosial yöndən böyük quruculuğa nail oldu. Özü də bazar iqtisadiyyatı yox, qabaqcadan qəbul olunmuş planlı təsərrüfat əsasında.

Kapitan Nosenko əhvalatı

Sevil Əliyeva Şərqin öyrənilməsində dünyanın ən nüfuzlu elmi mərkəzi sayılan Şərqşünaslıq institutunda namizədlik dissertasiyası hazırlayırdı. Primakovun məsləhəti ilə tarix elmləri namizədi Vladimir İvanoviç Nosenko onun elmi rəhbəri təyin olunur. Axır illər o İsraildə, sonra da Yəməndə Rusiyanın məsləhətçi-elçisi kimi fəaliyyət göstərib. İndi istefadadır. Ekspert kimi dövri mətbuatda Yaxın Şərq mövzusunda məqalələr çap etdirir.

Ötən əsrin 60-cı illərində *«Nosenko»* soyadı hər addımda hallanırdı. Böyük Vətən müharibəsi illərində SSRİ Gəmiqayırma sənayesinin məşhur xalq komissarı olmuş, sonra SSRİ Maşınqayırma Sənayesi naziri işləmiş İvan İsidoroviç Nosenkonun oğlu xaricə qaçmışdı. Vaxtsız ölümünə qədər (54 yaşında dünyasını dəyişib, cənazəsinin külü Qızıl meydanda, Kreml divarındadır) oğlanları ilə fəxr edirdi. Biri elm dalınca getdi. Digəri – Yuri isə «MDBMİ»-nu bitirəndən sonra çekist oldu, əks-kəşfiyyatda çalışmağa başladı.

1964-cü ilin fevralında kapitan Yuri Nosenko İsveçrəyə – xidməti ezamiyyətə yola düşür. Qayıdanda o, mayor rütbəsi almalı və yeni hərbi adını «yumalı» idi. Amma o müəmmalı ezamiyyətdə Nosenko qeyb oldu. İttifaqda onu vətən xaini, satqın elan elədilər və ona ən ağır cəza kəsdilər. Nikolayev gəmiqayırma tərsanəsindən «Nosenko» soyadını sildilər. Şübhə kölgəsi doğmaların və yaxınların da üzərinə düşdü.

Bununla belə Yuri Nosenkonun məsələsi ilə bağlı həqiqətin üstü bu günə qədər açılmayıb. Amerikalılar onu Birləşmiş Ştatlara aparıblar. Üç il yarım tək kamerada saxlayıblar. Cəhd eləyiblər ki... SSRİ «DTK» sədrinin birinci müavini olmuş ordu generalı Filipp Bobkov deyib ki, ...hələ də əminəm ki, Nosenko çox çətin vəziyyətə düşüb və dözə bilməyib. Əlbəttə, ola bilər ki, o atdığı addım barədə qabaqcadan düşünüb-daşınıb, ancaq mənim qəlbim bununla barışmır. Mən bilirdim ki, Yuri qızının xəstəliyinə görə necə həyəcan keçirir, onu necə sevirdi. Ola bilməz ki, o heç nədən qızını, oğlunu atsın».

Nosenkonun işi ilə bağlı vəziyyəti Rusiya Xarici Kəşfiyyat xidmətinin veteranı, polkovnik Aleksandr Sokolov son dərəcə dürüst araşdırıb. Onun fikrincə, «Amerika kəşfiyyatı Nosenka haqqında həqiqəti ciddi-cəhdlə gizləyir, həmişə bu mövzudakı yazıları yanlış yollara yönəldir». Sokolov hesab edir ki, Yuri Nosenko xəyanət etməyib, amma «Mərkəzi Kəşfiyyat» idarəsinin əli ilə oğurlanıb, özü də ola bilsin ki, 4 fevral, 1964-cü ildə İsveçrə ərazisində, uyuşdurucu vasitələrin təsiri ilə».

Bu yaxınlarda (1961–1967-ci illər arasında) SSRİ «DTK» nin sədri olmuş Vladimir Yefimoviç Semiçastnının da xatiratları çap olunub. Bir görün «qarmaqarışıq» hala salınmış bu tarix haqqında o nə yazır:

«1964-cü ilin yanvar ayında Nosenko yenə Cenevrəyə yola düşdü. O «DTK»dən kifayət qədər mühüm bir tapşırıq almışdı. Cenevrədə o, həm də əks-kəşfiyyatın rəisi Qribanovla görüşməli idi. DTK onun öz söylədiklərinə görə, bir sıra təşkilatlara və müəyyən informasiyalara çıxışı olan fransız qadınına maraq göstərirdi. Tapşırığa görə Nosenko onunla «əlaqə yaratmalı» və onu ələ almalı idi. İsveçrəyə yetişəndən sonra Nosenko o qadını tapdı və razılaşdılar ki, görüşsünlər: bir yerdə şam etsinlər. Onlar İsveçrə-Fransa sərhədindəki mehmanxanada görüşüblər. Bu bizdə olan son məlumatdır. Şam yeməyindən sonra Nosenko izsiz-tozsuz yoxa çıxıb. Bu hadisə Qribanovun Cenevrəyə gəlib çatmasına iki gün qalmış baş verib. Görünür, məlahətli fransız qadını da kəşfiyyatçı olub, özü də daha bacarıqlı. Sonra nələr baş verməsi barədə mən ancaq fərziyyə yürüdə bilərəm. Görünür, fransalı madam yalnız öz ölkəsinin kəşfiyyatına işləmirmiş.

Bütün təzə məlumatlar bizi yeni şübhələrə, gümanlara salırdı: şam yeməyi zamanı nə iləsə Nosenkonun başını dumanlandırmayıblar ki? – Semiçastnı sözünə davam edir. – Elə «dumanlı» vəziyyətdə də siyasi sığınacaq üçün imza atır. Müəyyən müddətdən sonra, o özünə gələndə isə, artıq gec idi, onun siyasi sığınacaq istəməsi barədə xəbər bütün dünyanı gəzirdi. Mən DTK-də öz fəaliyyətimi başa vurana qədər Nosenko haqqında daha heç bir məlumat öyrənə bilmədik. Çox sonralar bizə çatdı ki, o heç kimin adını çəkməyib, heç kimi satmayıb və elə bu səbəbdən də amerikalıların etimadını qazanmayıb və uzun müddət dəmir barmaqlıqlar arasında çox amansız şəraitdə öz ömrünü keçirməli olub. Amerikalıların etimadını qazanmaması sübut eləyir ki, Nosenko SSRİ-dən «qaçana» qədər

Qərbin məxfi xidmətlərinə işləməyib. Bizim kəşfiyyatçıların adlarının hallandırılmaması bir daha göstərir ki, o xaricə qaçmağa hazırlaşmırmış, yoxsa özü ilə yeni «sahiblərinə» faydalı olan kifayət qədər material da apara bilərdi. Bəlkə o, düşüncəli surətdə, bilərəkdən öz köhnə həmkarlarını satmayıb? Yuri Nosenkonun qaçması haqqında həqiqəti heç kim öyrənə bilməyib. Bunu mən də bilmirəm».

Di gəl ki, görünməyən cəbhənin amerikalı döyüşçülərinə hər şey məlumdur. 2007-ci ilin aprelində «Vaşinqton post» qəzetində hansısa bir Devid İqnatiusun Nosenko «hekayətinə» həsr olunmuş «Soyuq müharibənin «qarabasmaları» başlıqlı yazısı yer alıb. Bu məqalənin meydana gəlməsinə isə T.Baqlinin «Casus müharibələri» kitabının nəşri səbəb olub. Keçmişdə Mərkəzi kəşfiyyat idarəsi ilə fəal əməkdaşlıq eləyən kitab müəllifi Sovet «qaçaqlarının işləri» ilə bilavasitə məşğul olub. İqnatius yazır: «Nosenko əhvalatı həmişə həddindən artıq yaxşı görünürdü ki, gerçək olsun. Lakin burası da var ki, Nosenkonun özünün taleyi onu çox az maraqlandırır. Əsas məsələ «soyuq müharibə» ocağına odun atmaqdı. Kitab da buna görə yazılıb, rəyçi də buna cəhd eləyib. «Baqlinin kitabını oxuyarkən, – rəyçi öz məqaləciyini yekunlaşdırır, – bir fikirdən xilas ola bilmədim: «Ruslar indi bizimlə ağlın hansı oyunlarını oynayırlar, görəsən?»

Fikirləş, Devid, fikirləş!.

Primakov heç zaman təqib olunanlara, gözdən düşənlərə kömək əli uzatmaqdan çəkinməyib. Heydər Əliyev də onun bu mövqeyinə şərik çıxıb. Onların xahişi ilə Vladimir Nosenko Sevilin elmi rəhbəri təyin olunur. Belə ki, naəlac qalanda Yevgeni Maksimoviç imtahanlara da kömək edərdi. Amma məsələ bundadır ki, köməyə ehtiyac vardımı?

Komsomolsayağı intizam

İlham müvəffəqiyyətlə oxuyur və heç bir başqa ali məktəbə dəyişilməyə hazırlaşmırdı. 1988-ci ilin mayında yaradılmış Kiyev Beynəlxalq Əlaqələr İnstitutunda oxumaq isə ağlına da gəlmirdi. Kiyev universitetinin Beynəlxalq hüquq və beynəlxalq əlaqələr fakültəsinin bazası əsasında yaradılmış təhsil ocağına 1990-cı ilin dekabrında institut adı verildi.

* * *

Tələbə Əliyev Moskvadan Kiyevə və Kiyevdən yenidən Moskvaya dəyişdirilməyib ki, sualına cavab axtaranda bir daha bir mənbəyə MDBMİ komsomol komitəsinin sənədlərinə də müraciət etdik. Bu sənədlər yığıncaqların protokolları, konfransların, fəalların iclaslarının stenoqramları, komsomol uçotunun jurnalları Moskvanın ictimai-siyasi tarixini özündə əks etdirən Mərkəzi arxivdə hifz olunur.

28 sentyabr 1977-ci ildə MDBMİ-nin komsomol komitəsində on üç nəfər birinci kurs tələbəsi uçota götürülüb. Onların arasında 2927711287 saylı biletin sahibi Əliyev İlham Heydər oğlu da var. ÜİLKGİ-nin «MDBMİ» komitəsində komsomol qeydiyyatına götürülən üzvlərin qeydiyyat jurnalının növbəti bəndində (8 sentyabr 1977-ci ildən 17 sentyabr 1980-ci ilədək) göstərilir: «Hansı təşkilatdan gəlib» – Azərbaycan SSR-in Bakı şəhərindən...». «Hansı ilk təşkilatda qeydiyyata götürülüb» – BM («Beynəlxalq Münasibətlər» fakültəsi) 1-ci akademik qrup, 1-ci (kurs). Sonuncu bənd: «ÜİLKGİ üzvünün fərdi qeydiyyat kartoçkası alan zaman şəxsi imzası». «İ.ƏLİYEV». *(«ÜAOPİM. F 5459. On. 1.D.38 L.5.ob-6»)*

«Sonra ÜİLKGİ-nin «MDBMİ» komitəsində komsomol qeydiyyatından çıxanların qeydiyyat jurnalı»nı vərəqləyirik. 16 oktyabr 1979-cu ildə başlanıb. 16 iyun 1982-ci ildə başa çatdırılıb». 9 martda Əliyev İlham Heydər oğlu – komsomol biletinin nömrəsi həmin nömrədir, sosial vəziyyəti haqqında isə belə yazılıb – tələbə, ilk təşkilat həminkidir, «Beynəlxalq əlaqələr» fakültəsindən komsomol uçotundan çıxarılır. Sual dəftərçəsində açıqlanıb: «Qeydiyyata düşəcəyi təşkilatı (ilk təşkilat, rayon, şəhər, vilayət, diyar, respublikanı) göstərməli. Uçotdan çıxarılmasının səbəbi yaşa görə (doğulduğu ilin, ayın və yığıncağın tarixini göstərməli), ÜİLKGİ-dan çıxarılması (raykom səlahiyyətli komsomol komitəsinin, raykomun, şəhər bürosunun protokol nömrəsini və tarixini qeyd etməli»)

Cavab qısadır: «Sov.İKP üzvü» *(«ÜAOPİM. F 5459. On. 1.D.47 L.46.ob-45»)*

Bununla da İlham Əliyevin komsomol bioqrafiyası qurtardı. O, babaları, atası və anası kimi kommunist oldu. Qürrələnməyə haqqı da vardı. Qürrələnirdi. Ona görə qürrələnirdi ki, «MDBMİ»nin ilk tələbələri Böyük Vətən müharibəsinin səngərlərindən qayıdan əsgərlər olmuşdu.

31 avqust 1943-cü ildə SSRİ Xalq Komissarları Soveti qərar qəbul elədi: Moskva Dövlət Universitetində Beynəlxalq Əlaqələr fakültəsi yaradılsın. Hələ Kursk altında, Oryolda, Belqorodda – Qızıl ordunun Hitlerin tank armadasını darmadağın etdiyi yerlərin hamısında çöllər, meşələr tüstülənirdi. Yalnız qırmızı ox işarəsi ilə hücum ifadə olunan döyüş xəritəsində sovet diviziyaları irəli gedib Dnepr çayına, sərhədə yaxınlaşırdı... Amma artıq ölkə bilirdi, insanlar inanırdı: demək bizim küçədə də bayram olacaq, bizim döyüşçülər qırmızı bayrağımızı Berlin üzərinə qaldıracaq. Və müharibədən sonrakı həyat haqqında düşünürdülər, o günlərə qayğı ilə, ciddi hazırlaşırdılar.

Xalq komissarlığı cəbhədən neft mühəndislərini, mədənçiləri, alim-fizikləri geri çağırtdırırdı... yeni kafedralar, fakültələr, institutlar açılırdı. Həmin 1943-cü ilin noyabrında Moskva Dövlət Universitetinin Beynəlxalq Əlaqələr fakültəsində dərslər başladı və çox keçmədi ki, bu fakültə instituta çevrildi.

1978-ci ildə «MDBMİ» ikinci kursunda oxuyan İlham Əliyev də bu ali təhsil ocağının 35, ilk buraxılışın 30-illiyinə həsr olunmuş tədbirlərdə səmimi-qəlbdən iştirak elədi. Tədbirə qatılanların arasında ilk buraxılışın nümayəndələri də vardı.

* * *

1980-ci ilin axırlarında bu kitabın müəlliflərindən biri «Komsomolskaya pravda» qəzetində əməkdaşlıq eləyirdi. Elə oldu ki, o, Estoniyanın paytaxtına – Tallinə ezam olundu.

...Burjua ideologiyasının əleyhinə fikir mübadiləsi aparılan elmi-praktik konfransda Moskva alimlərinin bir dəstəsi ilə tanışlığım çox maraqlı oldu. O, alimlərin arasında «MDBMİ»-nin 1948-ci il ilk buraxılışının məzunu, Moskva universitetinin elmi kommunizm kafedrasının müdiri Nikolay Andreyeviç Sidorov da vardı!

Biz Moskvaya bir kupedə qayıtdıq. Hələ də yadımdadır ki, Nikolay Andreyeviç necə sirayətedici tərzdə, möhtəşəm gülürdü. Hətta kupe yoldaşlarımızdan biri ona zarafatla, – sənin gülüşünü radiostansiyalara satmaq olar, – dedi.

Çay içə-içə nə üçünsə, oradan-buradan söz güləşdirirdik. Yavaş-yavaş söhbət gəlib çıxdı Böyük Vətən Müharibəsinin, daha doğrusu, bir kəşfiyyat vzvodunun üstünə. Nikolay Andre-

yeviç adına qısa olaraq rusca İFLİ deyilən Fəlsəfə və Ədəbiyyat institutunda təhsil alıb, cəbhəyə könüllü gedib, halbuki aparmaya da bilərdilər: mənfi 6,5 ölçüdə eynək qoyurdu.

Müharibədən qabaqkı Moskvada qaçış üzrə çempion olub, yuxarı sinif şagirdlərinin ümumittifaq müsabiqəsində Çernışevski haqqında yazdığı inşaya görə diplom alıb; atıcılıq dərnəyində məşğul olub. 1937-ci ildə oxuduğu məktəbin komsorqu seçilib. Komsomolun X qurultayında ÜİLKG ittifaqının birinci katibi Kosarevin məruzəsinə qulaq asıb, amma çox keçməyib ki, həmin Kosarevi həbs ediblər. 1938-ci ildə raykoma çağırıblar, üzünə istintaqın protokolunu oxuyublar. O zaman da inanmayıb. Əmin imiş ki, bu saxtalaşdırmadır.

Sidorovun anası yeddi yaşında olanda xaçı boynundan qopartdı. Babası onu atın cilovu ilə döydü. Xeyri olmadı və o bir daha, Baqritskinin pioner qızı kimi, xaçı boynundan asmadı.

«İFLI»dən könüllüləri Volqanın o biri tərəfinə, tərcüməçilərin hazırlıq məktəbinə yolladılar.

– Paşka Koqanla (Məşhur «Briqantina» poemasının müəllifidir, Xarkov yaxınlığında həlak olub) çarpayımız yanaşı idi.

İki ay sonra desant qoşunlarına göndərildilər. 37-ci qvardiya diviziyası, 62-ci Ordu. Onları Stalinqrad ətrafına «atdılar». Əylənmədən yol gedirlər: «Tıbb bacıları da «yüngül», ya «ağır» tələbata görə vaqonun bir küncünə, qarşısı əsgər plaşı ilə tutulmuş küncdə gedirdilər».

– İlk hərbi uğur – alman snayperinin sıradan çıxması oldu... – Birdən iyirmi il qabağa körpü atır. – AFR-da ezamiyyətdə olarkən vaxt tapıb tirə girdim. Nişan alıb bütün hədəfləri vurdum. Tir sahibi maraqlandı: «Kanadalısan? Amerikalısan?» Cavab verdim: «Yox, Moskvadanam». Frau hikkəsindən hətta yerə də tüpürdü.

Stalinqraddan sonra onları Kursk yaxınlığına yönəltdilər.

– Kurskun ən qərbində idik. Təminat hissələri arxada qalmışdı. Palçıq dizdəndi. Ən çətini isə duzun olmaması idi. Amma yollar bərpa olunandan sonra çatışmayan hər şeyi gətirib çatdırdılar.

Və sözün bu yerində vaqon bələdçisi bizə sarı üz tutdu:

– Yenə çay gətirimmi?

– Yox, – deyə Nikolay Andreyeviç hamımızın əvəzinə cavab verdi. Və bir qədər susandan sonra, – Müharibəyə görə Stalinə hörmət bəsləyirəm, qalan şeylərə görə – yox...

Küknar meşəsi tünd qara pərdə kimi aynanın qarşısını kəsmişdi.

– Bax, belə bir meşədə bizə hücum etdilər. Uşaqların çoxusu elə orada qaldı. Kabab olub qaldı.

1944-cü ildə baş leytenant Sidorovu xəstəliyi ilə əlaqədar olaraq ordudan təxris etdilər. O da yenicə açılmış Beynəlxalq Əlaqələr İnstitutuna daxil olur. Kurs yoldaşlarından bir semestr geri qalır.

– Amma ikinci kursun əvvəlində onların hamısını qabaqladım, – Sidorov dedi və dəhlizə siqaret çəkməyə çıxan kupe yoldaşlarının arxasınca başını buladı.

Onun təhsil aldığı qrupda qırx nəfər cəbhəçi var imiş. Hələ də onlarla qürrələnir. Onların arasında isə sütüllər də vardı.

– Kiminsə ürəyi qüsurlu idi, kiminsə başqa bir sağalmaz xəstəliyi vardı, amma bu onların karyerasına mane olmur... Biz cəbhəçilər haqq-hesabda sərtik. Güzəştə getmirik – O, məşhur bir filosofun adını çəkdi. – Ölənin arxasınca pis söz danışmaq istəmirəm. Amma ki, qorxaq çıxdı. – Moskvaya doğru şütüyən qatarda daha bir ad hallandı. – Ona əl də vermirəm, verməyəcəyəm də.

Onu Xarici Dillər İnstitutuna rektor təyin edirlər. İttifaqın ali təhsil naziri Stoletov söz verir ki, bir ildən sonra ona doktorluq dissertasiyasını yekunlaşdırmaq üçün vaxt verəcək. Və vədinə əməl edir.

– Sözünə əməl etməyi qiymətləndirirəm.

Yenə də bələdçi qadın bizə sarı boylanır:

– Çay istəyirsinizmi, uşaqlar?

Yenə də hamımızın əvəzinə Sidorov cavab verir:

– Yox, pivə məsləhətdi.

Biz axırıncı rubllarımızı və qəpiklərimizi ortaya qoyuruq. Nikolay Andreyeviç də evə qayıdanda cibində küləklər əsməsini xoşlayır.

* * *

O görüşdən sonra biz vaxtaşırı zəngləşirik. Bir-birimizə kitab bağışlayırıq... «MDBMİ»-nin «Mejdunarodnik» adlı çoxtirajlı qəzetində Sidorovun böyük bir müsahibəsinə rast gəldim. Nikolay Andreyeviç söyləyir ki, «MDBMİ» müharibənin qızğın vaxtda yaradılıb. Və bu zatən uzaqgörənliyin nəticəsi idi. Görkəmli diplomatlar institutun inkişafına kömək etdilər. «MDBMİ»-nin ilk rektoru son dərəcə ziyalı, gözəl na-

tiq, böyük görüş dairəsinə və mədəniyyətə malik köhnə bolşevik, V.İ.Leninin dostu İvan Dmiriyeviç Udaltsov oldu. Tələbələrə qarşı münasibətdə pedaqoji cəhətdən özünü olduqca təmkinli aparan bu nurlu insan bizim sevimlimiz idi. MDBMİ-nin rektorluğu onun adına yazıldı və köhnə institutun köhnə himnində İvan Dmitriyeviçin adı üç dəfə səslənirdi.

Müharibədən sonrakı üç ilin tələbə qəbulu, Sidorovun fikrincə, əvəzsizdi. «600 cəbhəçi-kommunist, amansız döyüşlərdən sonra yaralansa da, kontuziya alsa da mübariz keyfiyyətləri – mərdliyi, dəyanəti, həyat eşqini yaşadan insanlar tələbə adını daşımağa gəlmişdilər. Cəbhə qaydaları ilə od-alov içində doğulan, hər an Vətənin sabahı naminə canından keçməyə hazır olan bu insanlar instituta qaynayıb-qarışdıqca bu təhsil ocağının ənənələrini də yaratdılar və institutun həyatında cəbhəçilər nəsli dərin izlər qoydular və nəzərə çarpan səviyyədə bu gün MDBMİ-nin mövcud simasını yaratdılar. Onlar çox şövqlə oxuyurdular, bütün münasibətlərdə – sərbəst düşünməkdə, öz sözünü çəkinmədən söyləməkdə, prinsipiallıqda örnək idilər. Onların arasından çox maraqlı insanlar yetişdi».

Professor Sidorov qürurla adlar sadalayır: pulemyot vzvodunun komandiri, Stalinqrad altında yaralanmış V.P.Suslov, «MDBMİ»-nin məzunları arasından ilk dəfə fövqəladə və səlahiyyətli səfir kimi fəaliyyət göstərən, hələ tələbəlik illərində «Qovorit 12-ıy» divar qəzetinə redaktorluq eləyən siyasi şərhçi V.S.Zorin, SSRİ xarici işlər nazirinin müavini işləmiş, ali dərəcəli diplomat A.Q.Kovalyov, akademiklərdən – N.İ.İnozemtsev, Q.A.Arbatov...

Gənc jurnalist müsahibə zamanı professordan xahiş eləyir ki, 40-cı illərin tələbə ordusu ilə, indiki – 80-cı illərin tələbə nəslini müqayisə etsin.

«Nəsillər bir-birinə bənzəmir və heç zaman bizim cəmiyyət yekrəng, unifikasiyalı olmayıb, amma ölkəmiz haqqında düşüncəli surətdə yalanlar formalaşdırmağa çalışan rəqiblərimiz qəsdən bizi yeknəsəklikdə məzəmmət edirlər. Əlbəttə, tələbələrin eruditsiyası, dünyagörüşü çox fərqlidi... Ötən qırx ildə mədəniyyət də cəm halında yüksəlib və bu, hətta iradəsindən asılı olmayaraq, hər bir insana təsir edib. Bütün bunlar yaxşıdır. Amma tələbələr arasında inamsızlıq, məktəb partası arxasından özləri ilə gətirdikləri qətiyyətsizlik, sosial planda lənglik, bir sözlə cansıxıcılıq, infantillik var *(«Mejdunarodnik», 31 oktyabr, 1984-cü il).*

* * *

Volodya Xaritonov 1945-ci ildə tələbə olub. «Za otvaqu» döyüş medalını o, özünün ən böyük mükafatı sayırdı. Amma cəbhəçilərə onun böyük mükafatı «Den pobedı» (qələbə günü) mahnısı oldu. İlk dəfə 1975-ci ildə səsləndirilib. David Tuxmanovla və başqa bəstəkarlarla Vladimir Xaritonov onlarca bir-birindən gözəl mahnılar yaradıb: «Moy adres-Sovetskiy Soyuz» («Mənim ünvanım Sovet İttifaqıdır», «Ne plaç, devçonka» («Ağlama, gözəl qız») «Rossiya – rodina moya» (Vətənimdir Rusiya»)... onun son şeirləri çox gözəldi, müdriklik nişanəsidir.

Özümü ilahi qisiminə yazdım,
Düşündüm, peyğəmbər elə özüməm.
Ağır fikirlərin
dəyirman daşı
Məni toz eylədi düzü-düzünə.
Sübhdən güc alırdım,
Güc,
Lap təzə, tər,
Şair yaşayacaq, buna inandım,
Yaşasa yazdığı
Sözlər, şeirlər.

Güman ki, poeziya ilə diplomatiya arasında hansısa dərin yaxınlıq var. «MDBMİ»nin 60 illiyində «Naş dom» («Bizim evimiz») adlı poeziya toplusu nəşr olundu. Kitabda müxtəlif illərdə «MDBMİ»nu bitirmiş və hal-hazırda tələbə olan yetmiş müəllifin şeirləri toplanıb. Müəlliflər arasında SSRİ xarici işlər naziri (1991) Aleksandr Besmertnı, MDBMİ-nin 1972-ci il məzunu Rusiya xarici işlər naziri Sergey Lavrov da var.

Yeri gəlmişkən, «MDBMİ»nin hal-hazırdakı rektoru, Rusiya EA-nın müxbir üzvü, professor, siyasi elmlər doktoru Anatoliy Vasılyeviç Torkunov da beynəlxalq əlaqələr fakültəsini o dövrdə bitirib. İlham Əliyev «MDBMİ»də oxuyanda və dərs deyəndə tarix elmləri namizədi Torkunov baş müəllim, Asiya və Afrika ölkələri tarixi və mədəniyyəti kafedrasının dosenti, xarici tələbələrlə iş üzrə dekan, beynəlxalq əlaqələrlə bağlı prorektor kimi vəzifələr daşıyıb. Sonra üç il (1983-1986) ABŞ-da işləyib, xarici ezamiyyətdən qayıdandan sonra isə Anatoli Vasilyeviçi beynəlxalq əlaqələr fakültə-

sinin dekanı seçiblər, sonra isə bu təhsil mərkəzində birinci prorektor olub.

* * *

XX əsrin 70-ci illərinin ortalarında «MDBMİ» Krım körpüsünün yanındakı köhnə korpuslarda yerləşirdi və tədricən öz yeni şəhərciyinə – paytaxtın cənub-qərbinə köçürdü. Yenə şəhərciyə əvvəlcə iki fakültənin – beynəlxalq jurnalistika və beynəlxalq hüquq fakültələrinin tələbələri gəldilər. SSRİ Xarici İşlər Nazirliyi yanında «MDBMİ»nin Partkomunun (birinci növbədə!), rektorluğunun, «ÜİLKGİ» komitəsi, yerli komitə və həmkarlar ittifaqının orqanı olan «Mejdunarodnik» qəzeti öz oxucularını yeni tikiliyə dəvət etdi və Ostojenkoda necə oxumaları, necə dostluq etmələri, necə aşiq olmaları haqqında xatiratlarını səxavətlə çap etməyə başladı. Sovet dönəmində bu küçə Metrostroyevka olmuşdu, amma indi yenə də Ostojenkodur. 18-27-ci ildə bu küçənin bəzəyi Böyük knyaz Mixail Pavloviçin sarayı idi. Sonra burada Katkov liseyi yerləşirdi, 1893-cü ildən vəliəhd Nikolay liseyi kimi tarixə düşüb. Tyutçevin məşhur şeiri yadınızdadır?

Çar oğlu can verir Nitsada indi –
Yetən hallandırır onun adını...
«Polyakların alır intiqamını
İlahi» – deyirlər, dözmək çətindi.

Hansı dar düşüncə sahiblərinin
Beynində doğulub bu söz, bu nə iş?
Kimdir bunu deyən: polşalı keşiş,
Yoxsa ki, sözüdür bir rus nazirin?

Ürəkləri didən acı şayiə
Düzür, sıralayır qoxu-qarasız.
Kimdir söz uyduran, kimdi o arsız,
Onu eşitməli Rusiya niyə?

Allah göstərməsin, salmaya saya,
Qəfil ucalanda qədim bir nida:
«Çar əsir düşübdür, çarımız darda!»
Geriyə çəkilə bütün Rusiya.

Tərcümə O.Heydərindir.

Şahzadə Nikolay 12 aprel 1865-ci ildə Nitsada öldü. Oktyabr inqilabı onu, onun adını daşıyan liseyə görə yada saldı.

Sonra Maarif komissarlığı öz sükanını buraya çevirdi, qırmızı professorluq həqiqətlərini aramağa başladı və nəhayət buraya tələbələr gəldi.

...SSRİ Elmlər Akademiyasının müxbir üzvü, Sovet İttifaqının beynəlxalq əlaqələri və xarici siyasəti kafedrasının müdiri Vladimir Qriqoryeviç Truxanovski «Mejdunarodnik»in səhifələrində öz işləri və planları haqqında söhbət açıb. İlk kafedra müdiri akademik L.N.İvanovu xatırlayıb. Bir neçə nömrə sonra qəzetin verdiyi xəbərdən məlum olur ki, bu kafedranın müəllimləri tələbələrlə görüşüblər. Məqaləni dostcasına, açıq diskussiya şəklində qələmə alan beynəlxalq əlaqələr fakültəsi Tələbə Elmi Cəmiyyətinin sədri A.Puşkovdur. Bu gün artıq Aleksey İvanoviç tanınmış elm xadimidir, «MDBMİ»nin professorudur, populyar «Postskriptum» teleproqramının aparıcısıdır.

1 sentyabr 1977-ci il tarixli sayında «Mejdunarodnik» «Sov.İKP-nın tarixini öyrənən I kurs tələbələrinə tövsiyələr» çap eləyib, üçüncü semestri, yəni tələbə tikinti dəstələrinin işini xatırlayıb, qarşıdakı kənd təsərrüfatı işlərinə hazırlaşmağı məsləhət görüb.

Bunun nə olduğunu bugünkü oxucuya izah etmək lazımdır. Hər bir təşkilatın – zavodun, fabrikin, institutun, redaksiyanın, hərbi hissənin şefliyə götürdüyü kolxoz və ya sovxoz vardı. Məsələn «Komsomolskaya pravda»nın jurnalistləri Moskva vilayətindəki Dmitrov rayonuna kartof yığmağa gedirdilər. «MDBMİ»-nin tələbələri Zoya Kosmodemyanskayanın həlak olduğu ərazidə – Petruşeva kəndindən bir qədər aralıda işləyirdilər. Uşaqların qazandığı vəsait partizan qızın – Sovet İttifaqı Qəhrəmanı Zoya Kosmodemyanskayanın adı ilə bağlı muzeyin fonduna keçirilirdi.

Təsəvvür edirsinizmi – BƏ (beynəlxalq əlaqələr) fakültəsi Bakıdan olan cavan oğlanı (bəyəm yalnız onumu?) necə də heyrətləndirirdi. Müəllimin hər biri məşhur bir adam... Yox, onlar sadəcə müəllim adı daşımır. Onlar ən böyük beynəlxalq danışıqların iştirakçıları, tarixin yaradıcıları və salnaməçiləridi! Deyirlər ki, professor Volkov «İkinci dünya müharibəsi diplomatik pərdə arxasında» adlı monoqrafiya hazırlayır, akademik Rıbakov «İqor polku haqqında dastan»ın ona necə «açılmasından» danışır: «Mənə elə gəlirdi ki, onun haqqında hər şeyi bilirəm, demək olar ki, hər şeyi... Mən bu gün bunda çətin ki israrlı olum. Böyük əsərlərin gerçək anlaşılması illər

ərzində – çox zəhmət aparan, çox səbr və diqqət tələb edən zəhmət bahasına başa gəlir».

...1 yanvar 1985-ci ildə «Mejdunarodnik» xəbər verir ki, «MDBMİ»nin muzeyi açılıb. O vaxt üçün Beynəlxalq Əlaqələr İnstitutunun 80 məzunu səfir, 30-u isə xarici ölkələrdə Sovet ticarət nümayəndəsi kimi çıxış edirdi.

Bu ancaq İlham Əliyevin «MDBMİ»də oxuduğu və işlədiyi o illərin ştrixləridir.

Brejnev dövrü başa çatırdı

Beynəlxalq Münasibətlər İnstitutunda, həmçinin, Mehribanın təhsil aldığı Birinci Moskva Tibb institutunda, eləcə də, bütün İttifaqda Leonid İliç Brejnevin «Kiçik torpaq», «Dirçəliş», «Xam torpaq» kimi tarixi əsərləri öyrənilirdi. Bu kitabların dırnaqarası müəllifini, əli qələm tutan, illərlə növbələrdə duran həmvətənlərin tikanlı təbəssümləri altında Yazıçılar Birliyinə qəbul eləyirdilər, amma hər halda babat kitablar yazan bir çoxlarına heç «sağ ol» da demədilər.

MDBMİ-də Sovet Azərbaycanının 60-illiyi münasibətilə (1980-cı ilin aprelində) təntənəli yığıncaq keçirildi. Bakıdan respublika Ali Sovetinin sədri Q.Xəlilovun rəhbərliyi ilə böyük nümayəndə heyəti gəlmişdi. «Azərbaycanlı tələbələr adından BƏ fakültəsinin IV kurs tələbəsi Elşad Nəsirov çıxış etdi. İnstitutun tavanı altında Azərbaycan mahnıları və şeirləri səsləndi. *(«Mejdunarodnik», 1 may, 1980)*

O zaman başqa respublikalar da öz yubileylərini qeyd edirdilər, ancaq biz «Mejdunarodnik»in səhifələrində yalnız biri haqqında ətraflı söhbətə rast gəldik.

Sovet İttifaqının 60-illiyində – 1982-ci ildə XTNS-də bütün müttəfiq respublikaların «Günü» keçirilirdi. Ancaq institut qəzeti yalnız Azərbaycanın «Günü» haqqında yazıb. Bu diqqətin səbəbini təxmin etməyəcəyik. «Mejdunarodnik»in əməkdaşları özlərinin baş məqalələrinə başlıca mövzunu özləri seçmirdilər.

1976-cı ildə Brejnev geniş infarkt keçirtdi. Sovet İttifaqı marşalı Axromeyev öz xatiratlarında yazır ki, bu hadisədən sonra o, ömrünün sonuna qədər «bir daha dövlət və partiya başçısına lazım olan səviyyədə işləmədi... 1978-ci ilin martında D.F.Ustinovla birlikdə Brejnevi dəmir yolu ilə Moskvadan

Vladivostoka qədər müşayiət etməyimizi xatırlayıram. Bütün görüşlər 30-40 dəqiqəlik formal söhbətlərlə yekunlaşırdı. Bu hadisəyə Sverdlovskinin, Novosibirskinin, Krasnoyarskinin, Çitanın, Xabarovskinin partiya fəalları ilə yanaşı, iki hərbi hissə də cəlb edilmişdi. Brejnevin çıxışı məzmunsuz idi, acı təəssüf hissi doğururdu. Amma faktiki olaraq heç bir sonuc verməyən, iki həftəyə başa gələn bu səfərin nəticələri kağız üzərində ruh yüksəkliyi ilə, bayramsayağı yazıldı.

Dövlət başçısı, partiya rəhbəri olaraq öz vəzifəsini yerinə yetirməsə də, başqalarının səlahiyyətlərinə göz dikirdi. Nazirlər Sovetinin sədri vəzifəsini tutan A.N.Kosiginin əsas imtiyazlarını demək olar ki, əlindən alırdı. Bu minvalla Brejnev 60-cı illərin ortalarında təməli qoyulan iqtisadi reformalardan artıq imtina eləmişdi. Rəhbərlik üçün kifayət qədər ağır və mürəkkəb iş olan iqtisadiyyatla o özü məşğul deyildi, hələ üstəlik Nazirlər Sovetinə nəzərə çarpacaq dərəcədə mane olurdu və bütün bunlar iqtisadiyyatın tənəzzülünə aparırdı...»

Danışırlar ki, qocalmış Brejnev qatarla cənub şəhərlərinə yola düşür. Başçının marşrutu Ukraynadan keçir. Xarkovda Leonid İliçi salamlamaq üçün Ukraynanın bütün elitası vağzala toplanır.

Bu səhnəni öz gözlərilə görənlərdən biri bizə söylədi:

– Perronda gəzişən Leonid İliç yanında bir cavan oğlan olan Konstantin Ustinoviç Çernenko ilə qarşı-qarşıya gəlir. Baş katib maraqlanır: «Kostya, bu kimdi?» «Qardaşım oğludu, Leonid İliç».

Aralanırlar. Üç-dörd dəqiqə keçəndən sonra yenə üz-üzə gəlirlər. «Kostya, bu kimdi?» – «Qardaşım oğludu, Leonid İliç», – Çernenko təmkinlə cavab verir. Deyirlər ki, qardaşoğlu bir daha vaqondan yerə düşmədi.

* * *

Əlbəttə ki, liderlərin qocalığı, xəstəliyi müəyyən siyasi sistemə və ya ölkəyə aid olan şey deyil. Uinston Çerçill də baş nazir olduğu son illərdə ciddi xəstə idi və heç kim bunu «bayraq etməyə» tələsmirdi. ABŞ-ın prezidenti Ronald Reyqan öz həmkarları ilə danışıqların mənasına vara bilmirdi.

...1987-ci ilin dekabrında Reyqanla Qorbaçovun danışıqları Ağ Evdə başladı.

«...Orta və yaxın mənzilli raketlərlə bağlı müqavilə imzalanandan sonra qonaqlar dağılışdılar, liderlər ikisi də müşavir-

ləri ilə Kabinet zalına keçdilər və burada Qorbaçov təşəbbüsü ələ aldı. O uzun-uzadı, amma həvəslə Yenidənqurmanın gedişindən, qarşıya çıxan çətinliklərdən, hansı maneələri aşmalı olduğundan danışırdı. Amma Reyqana nə isə olmuşdu: o, həmkarına qulaq asmır, hətta hərdən heç üzünə də baxmırdı. Ancaq arada heç nəyə dəxli olmayan bir lətifə söylədi». Bu məlumatı da «birinci əldən», bu danışıqların bilavasitə iştirakçısı Oleq Qrinevskidən almışıq. «Reyqanın ətrafı da prezidentin mövcud vəziyyətindən şoka düşmüşdülər». Ehtimal ki, bu Altsgeymer xəstəliyinin ilk əlaməti idi və ABŞ prezidenti bu xəstəliyin qarşısında uzun illər duruş gətirmişdi. Yaddaşını tamam itirmək təhlükəsi ilə üzləşəndə ölkəyə, əzizlərinə, yaxınlarına açıq məktub yazdı və əslində bu yolla bütün ölkə ilə vidalaşdı.

Baş katibin son səfəri

1982-ci il iyulun axırlarından avqustun son günlərinə qədər Brejnev Krımda Sosialist Birliyi ölkələrinin liderlərini – Çexoslovakiyadan Qustov Qusakı, Almaniya Demokratik Respublikasından Erix Xonekkeri, Polşadan Voytsex Yaruzelskini, Monqolustandan Yumjagiyn Sedenbalı qəbul etdi... Sentyabrın 24-də isə Sov.İKP MK-nin baş katibini, SSRİ Ali Sovetinin sədrini Bakıda qarşıladılar.

Sanırsan ki, o günlər haqqında hər şey yazılıb, hər şey deyilib, saatına, dəqiqəsinə qədər. Amma belə deyil, elə epizodlar olub ki, indi onları yalnız bir adam bilir. O zaman Əliyevin referenti olmuş, sonralar Milli Məclisə deputat seçilmiş Mixail Zabelin.

...O bazar səhəri Heydər Əliyevin səsi batdı. Ola bilsin ki, həyəcanlanmışdı, ola bilsin ki, səs tellərini zora salmışdı, hər halda bir kəlmə də söz söyləyə bilmədi. Mərkəzi Komitə Səhiyyə Nazirliyini ayağa qaldırdı, həkimlər dərhal onun başının üstünü kəsdirdilər. Amma əllərindən gələni etsələr də, bir faydası olmadı. Və elə bu zaman Əliyev Zabelinə pıçıldadı: «de ki, süd və borjomi gətirsinlər». Bir saata yaxın Heydər Əliyev boğazını qarqara elədi və xəstəliyi keçdi. Bu naxoşluğa ya xalq təbabəti güc gəldi, ya da güclü iradə – əzmkarlıq.

Sonra isə hər şey ssenari üzrə – Baş katibin *ertəsi gün* MK-da oxuyacağı nitqi böyük zalda höccələməsinə qədər –

getdi. Baş katibin köməkçisi Aleksandrov – Agentov ikinci sıradan tribunaya tərəf atıldı. Amma natiq ona məhəl qoymadı. Özünü itirmiş köməkçi əllərini yellədi və kimsənin üzünə baxmadan zaldakı yerinə qayıtdı. Və elə bu zaman Əliyev rəyasət heyətindən qalxıb Brejnevə yaxınlaşdı, ona nə isə pıçıldadı və sabah oxunacaq *nitqin mətnini* onun qarşısından götürdü.

Baş katib təmkinlə:

– Nə etməli, – dedi, – belə şeylər olur.

Bu hadisədən həyəcan keçirən zal bu sözü alqışladı. Sonra Leonid İliç səlis danışmağa başladı, yalnız bircə dəfə yanlışlıq yapdı: «Azərbaycan nefti» əvəzinə, «Əfqanıstan nefti» dedi.

* * *

...Zabelin də bu zalda idi və dəyişik salınmış nitqlərlə bağlı olan bu hadisəni bütün xırdalıqlarına qədər görüb izləmişdi. Yığıncaqdan sonra MK-ya qayıtdı: referent öz postunda olmalı idi. Axşamdan xeyli keçəndən sonra qonaqlarla xudahafizləşmiş Əliyev gəldi və astanadan şux soruşdu:

– Gördün?

– Gördüm, Heydər Əliyeviç! – Söhbətin nədən getdiyini dərhal anlayan Zabelin cavab verdi.

– Hə, necə alındı? Düz elədim?

– Düz elədiniz!

Mixail Yureviç qətiyyəti və hazırcavablığı ilə iftixar hissi keçirən Heydər Əliyevlə bağlı bu mükaliməni dönə-dönə elə canlı nağıllayırdı ki, sanki biz də bu əhvalatın həqiqi iştirakçısına çevrilirdik. O, əslində vəziyyəti qaydasına salmışdı. Axı bütün bunları yalnız biz yox, milyonlarla televiziya tamaşaçısı görürdü. Onların arasında Moskvada İlham Əliyev də vardı. Onun atası ilə necə fəxr etdiyini, ona görə necə həyəcanlandığını söyləməyə ehtiyac varmı?

* * *

Bazar ertəsi Azərbaycan KP MK-nin büro üzvləri ilə görüşən və özünün lazımi nitqini söyləyən Brejnev Moskvaya uçdu. Zaman onun son günlərinin hesabını aparırdı.

Təhsil görmüş insanlar baş sındıraraq quruluşa ad fikirləşirdilər: real, yetkin, inkişaf etmiş sosializm... Amma bu məhsulun da təkmilləşməyə ehtiyacı vardı. Ölkənin qarşısında gündəlik vəzifələr get-gedə daha sərt şəkildə dururdu: insanları yedirtmək və geyindirmək, onlara ev, təhsil vermək, sağlamlıqlarının qayğısına qalmaq və Əfqanıstan müharibəsindən çıxartmaq.

Moskva dövlət beynəlxalq əlaqələr institutu da quruluşun bir hissəsi, onun inikası idi. 1978-ci ildə institutun rektoru, aspirant İlham Əliyevin elmi rəhbəri, cəbhəçi N.İ.Lebedev partkomun iclaslarından birində çıxış edərək Sovet ali məktəbinin real simasını yaratmağa səslədi. – Moskvada bizim institut haqqında nə danışırlarsa, – deyə o, həmkarlarını inandırırdı, – ya bilərəkdən verilmiş dezinformasiyalara əsaslanır, ya da işdən tamamilə bixəbərliyə *(«ÜAOPİM. F 538. On. 2.D.340 L.16»)*

Bəs bu xüsusda nələr danışdılar ki? Xüsusilə abituriyentlər və onların valideynləri arasında deyirdilər ki, buraya «sanballı daydaysız» ya da ağızbaağız dolu kisəsiz düşmək mümkün deyil. «MDBMİ»yə gələn yol guya yalnız böyük səlahiyyət sahiblərinin törəmələrinin üzünə açıqdır. Törəmələr özləri açıq şəkildə say-seçmə olmaları ilə lovğalanırlar. Nazirlərdən birinin oğlu, Brejnevin yaxın qohumu qürrələnərək belə söyləmişdi: «Bizim «MDBMİ»də komsomol komitəsi Sov. İKP MK kimidir!» Cavan və son dərəcə təkəbbürlü komsomol, funsioneri çox da şişirtməmişdi.

«MDBMİ» aktivinin iclaslarının və komsomol konfranslarının materiallarını vərəqləyək. O soyadları qeyd edək ki, indi də dedi-qodu gündəmində hallanırlar və o soyadları daşıyanlar bir zamanlar institutun qapısını sehirli parolla – «simsim»lə açırdılar.

Leonid İliç Brejnevin nəvəsi Brejnev, xarici ticarət nazirinin birinci müavini Yuri Leonidoviçin oğlu Brutents, Patoliçeva, Şibayev, Şyolokov, Tixonov, Qromıko...

Ola bilsin ki, bu siyahıda böyük rəislərin soydaşları var, ola bilsın ki, bu uşaqlar özləri də bu institutda oxumağa tamamilə layiqdirlər və onları diplomatiyaya, bir qədər bəlağətlə söyləsək romantika, cavanlıq xəyalları gətirib, etibarlı valyuta ilə gələcək mənfəətlərinin işgüzar hesablamaları yox... Və ye-

nə də... və yenə də... keçmiş zamanlardan fərqli olaraq «nomenklatura» uşaqları mühəndis hazırlayan ali təhsil ocaqlarını, hərbi məktəbləri seçmirdilər, amma institutların o fakültələrinə – akademiyalara can atırdılar ki, oradan alacaqları diplomla, uzunmüddətli xarici ezamiyyətlərə yol açsınlar. Özü də hər hansı xarici ezamiyyətə yox ha! Sosialist birliyi ölkələri, Asiya və həmçinin bir sıra Avropa ölkələrinə ezamiyyət bu dairədə dəyərləndirilmirdi. İngiltərəyə, Fransaya, Birləşmiş Ştatlara, İtaliyaya, İsveçrəyə, uzunmüddətli ezamiyyət başqa məsələ...

Sov.İKP MK, Nazirlər Soveti ali tədris ocaqlarından tələb edir ki, tələbələr sırasında kəndli gənclərin, orduda və eləcə də müxtəlif təsərrüfat sahələrində həyat dərsi keçənlərin sayını artırsınlar. Əlbəttə, onilliyi yenicə bitirmiş həmyaşıdları ilə eyni səviyyədə imtahan verib ali məktəbə qəbul olmaq onlara çətin idi. Əvvəlcə Çelyabinsk və Maqnitoqorsk ali təhsil ocaqlarında, sonra isə bütün ölkənin tədris müəssisələrində hazırlıq fakültələri açıldı. Ötən yüzilliyin 20-30-cu illərində belə örnəklərə rabfak deyirdilər. MDBMİ-də də hazırlıq fakültəsi açılır. İnstitut öz nümayəndələrini Moskva məktəblərinə göndərir, fəhlə ailələrindən uşaqlar seçir. Partiya komitəsi «Sov.İKP MK Şöbəsinin göstərişləri, SSRİ Nazirlər Sovetinin 20.X. 1978-ci il tarixli Qərarına müvafiq olaraq MDBMİ-yə fəhlə və oxuyan gənclərin ən yaxşı nümayəndələrinin seçiminin təmin edilməsinə dair rektorat və partkomun tədbirlər planı»nı təsdiq edir.

* * *

İnstitutun gündəlik həyatı iki həyat tərzi idi. Lakin o zaman hər bir kollektivdə – istər tələbə kollektivi olsun, istər təsərrüfat sahəsi, istər ordu quruculuğu – iki həyat tərzi yaşanırdı. Gözdən pərdə asmaq üçün əyani təbliğatlar, yığıncaqlar, plenumlar, aktiv toplanışları, kafedralar, fakültələr arasında yarışlar (!), qrup rəhbərlərinin və «sağ cinahda» duranların seçimi keçirilirdi.

«Gözdən pərdə asmaq» dövranının gerçəkliklərinə nabələd olan gənc oxucu soruşa bilər: bu nə deməkdi? Bu nə cinah tutanlardı? Onlar 1 may, ya da oktyabr nümayişlərinin iştirakçılarıdır. Məsələn, 1979-cu ilin, 10-u oktyabrında «MDBMİ» raykomunun bürosu «Böyük Oktyabr Sosialist inqilabının 62-ci ildönümü tədbirlərinin keçirilməsinə hazırlıq barədə» məsələnin müşavirəsini keçirib. Bütün fakültələr məruzə eləyirlər

ki, «nümayiş iştirakçılarının «sağ cinahda» duranların, dəstə başçılarının siyahısını veriblər. Təklif ediblər ki, Böyük Oktyabr Sosialist İnqilabının mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, nümayişçilərin seçilməsi üzrə iclasların aparılmasından başlayaraq hazırlıq işləri daha təntənəli aparılsın. *(«ÜAOPİM. F 538. On. 2.D.347 L.7»).*

Nümayişdən sonra partkom, komsomol komitəsi yekun sənədi hazırlayırdılar. Belə məlum olur ki, gələcək diplomatlar 1978-ci ilin 1 may nümayişində Mavzoleyin tribunası qarşısından necə gəldi qeyri-müntəzəm halda, yersiz qışqırıblar. Bəs bunun səbəbi nə olub? «Səs edənlər, şüarları səsləndirənlər qruplarının toplantıları keçirilməyib. Bundan başqa da çatışmazlıqlar olub: sağ cinahçılar nümayişə ümumiyyətlə gəlməyiblər» *(«ÜAOPİM. F 538. On. 2.D.187 L.2»).*

Ola bilsin ki, bayram günündə «sağ cinah»çı sola gedib, olan şeydir, cavanlıqdır. Bəlkə institutun diskoklubunda həddindən artıq yorulub, sadəcə yatıb yuxuya qalıb, unudub ki, onu «sağ cinah»çı seçiblər. Formal, gündəmdən gələn tapşırıqlara uşaqlar elə belə münasibət bəsləyirlər. Və əsil işlə qarşılaşanda onlar, əlbəttə, dəyişdilər! Böyük Vətən müharibəsi cəbhələrində həlak olmuş əsgər analarını himayəyə götürəndə... Tələbə inşaat dəstələrində... İməciliklərdə... Geri qalan yoldaşa köməkdə... Elə həmin ilin oktyabr ayında MDBMİ-nin komsomol komitəsi partkomda məzəmmət olundu.

– Beynəlxalq əlaqələr fakültəsində fərdi işin pis aparılması iradı ilə razı deyiləm, – deyə fakültə komsomol komitəsinin, aydındır ki, azad olmayan katibi Aleksey Podberezkin dilləndi, – indi bu işin real nəticələrini görmək olar. Amma bizim «Mejdunarodnik» institutun gerçək həyatını əks etdirmir. O, partkomun yığıncaqlarını işıqlandırır, amma fakültələr haqqında danışmır. «Mejdunarodnik» institutun gerçək həyatını real şəkildə yazıya almalı, canlı orqan olmalıdır.

«Beynəlmiləlçilik işinin yalnız xarici tələbələrlə aparılması məsələsi də düzgün deyil. Bu iş birgə aparılmalıdır» *(«ÜAOPİM. F 538. On. 2.D.340 L.6»).*

Rektor hər dəfə dillərə diqqət yetirməyi önə çəkir: «Üç» alan məzunları götürmürlər. Təşkilatlara dili səlist bilən insanlar lazımdır. Hazırda istehsalçıların qarşılaşdığı çətinliklər biz cəbhəçilərin çətinlikləri ilə müqayisəyə gəlməz. Biz vağzallarda gecələyirdik, küncdə-bucaqda yatırdıq. Amma bu bizim dərslərdən pis qiymətlər almağımıza əsas vermirdi, haqq qa-

zandırmırdı. İlham Əliyevin ingilis və fransız dillərində səlis danışması da o mənbədən, Moskva beynəlxalq əlaqələr institutundakı tələbkarlıqdan qaynaqlanıb.

Andrey Andreyeviç Qromıko hər il xoş sözlərlə «MDBMİ»-nin məzunlarına gələcək iş fəaliyyətlərində uğurlar arzulayırdı. 1982-ci ildə də nazir bu ənənəni pozmadı: «Mürəkkəb beynəlxalq şəraitdə, sizin həyatınızın yeni mərhələsi başlayır, – onun «MDBMİ-nin 1982-ci il məzunlarına müracıəti» bu ifadə ilə başlayırdı. – Sovet İttifaqı imperializmin təcavüzkar, təxribat yönümlü kursuna qarşı qardaş sosialist ölkələri ilə birgə dünyada sülhün və əmin-amanlığın bərqərar olunması, silahlanmanın dayandırılması, tərk-silahın həyata keçirilməsi yönümündə pozitiv, konstruktiv mövqe tutmaqla çıxış edir» («Mejdunarodnik», 1 sentyabr 1982).

III fəsil

KREML SƏMASINDA YENİ ULDUZ

«Böyük ürək okean kimidir –
heç zaman buz bağlamır».
K.Byörne

Yekunlaşdırma və başlanğıc ili

1982-ci ili Əliyevlər ailəsi üçün yekunlaşdırma və yeni başlanğıclar ili adlandırmaq olar.

İlham İnstitutu bitirib aspiranturaya daxil oldu. Yuxarı kurslarda o artıq öz seçimini etmişdi: təhsilini davam etdirəcək, ingilis dili ilə məşğul olacaq. Dostları deyirlər ki, bu məsələlərdə görkəmli sovet tarixçilərindən biri, «Voprosı istorii» jurnalının baş redaktoru, Çerçilin, İdenin, admiral Nelsonun, İngiltərənin baş naziri Dizraelinin (bu kitab 90 illərin əvvəllərində çap olunub) bioqrafiyası haqqında kitab bağlamış Vladimir Qriqoryeviç Truxanovskinin ona yaradıcı təsiri olmuşdu.

1 iyun 1982-ci ildə «MDBMİ»nin partkomu Əliyev İlham Heydər oğlunu Sov.İKP-yə üzvlüyə qəbul etdi. *(«ÜAOPİM. F 538. On. 3.D.208 L.13»)* O illərdə tanınmış şərhçi və publisist Henrix Borovikin oğlu Artyom Borovik, gələcək Baş katibin famildaşı və adaşı Mixail Qorbaçov, hansısa bir Vladimir Mekseyev və Kazbek Beysebayev də İlhamla birlikdə kommunist oldular... Sonuncu üç ad və soyad institutun sənədlərində daha qarşımıza çıxmadı, amma İlhamı və Artyomu «MDBMİ» xatırlayır. Artyom Borovik parlaq yazırdı, «Soverşenno sekretno» nəşriyyatını yaratmışdı və eyni adda qəzet açmışdı. Şübhəsiz ki, 9 mart 2000-ci ildə təyyarə qəzasında faciəli surətdə həlak olmasaydı, hələ jurnalistika sahəsində və eləcə də ictimai həyatda çox şeylər eləyə bilərdi.

«Mejdunarodnik»in səhifələrində onun canlı nitqi qalıb. «Bu gün sizin reallıq duyğularınız hansılardır?» sualını məşhur jurnalistin tələbə-reportyor həmkarı dilinə gətirir. «Sual çox maraqlıdır və sadə deyil, – Artyom cavab verir. – Mən bu suala birmənalı cavab verə bilmərəm və bu heç mümkün də deyil. Bu duyğu sənin ətrafında baş verənlərdən qaynaqlanır, amma bu, obyektiv reallıq deyil. Bax, məhz indi mən deyərdim ki, məndə qeyri-sabitlik duyğusu var. Bu o deməkdir ki, sən titrəyən bir otaqdasan və burada elə bir künc tapmısan ki, sənin fikrincə, ora nisbətən az titrəmiş olsun. Bu hisslərin iqtisadiyyatda və siyasətdə sabitləşmənin başlanmasından xəbər verməsinə baxmayaraq, təhlükə duyğusu da var. Bax bütün bunlar, üstəgəl günlərin ovqatı... Bax, bu gün mənim əhval-ruhiyyəm yaxşıdır və deyəsən hər şey öz qaydasındadır. *(«Mejdunarodnik», 15 noyabr, 1994).*

* * *

Partkomun iclasından dərhal sonra İlham Bakıya zəng vurdu: bilirdi ki, şad xəbər atasını sevindirəcək.

Bir neçə il keçəcək və partiyaya təpilən (daha doğrusu, sürünə-sürünə girən «özgə yoldaşlar» öz partbiletlərini camaatın qarşısında yandırmağa başlayacaqlar. Partiyanı bu yolla ifşa edəcəklər. İnandırmağa çalışacaqlar ki, onlar həmişə barrikadanın o biri tərəfində durublar. İlham da, onun atası da siyasi məsləklərindən dönmədilər.

...1985-ci ildə Beynəlxalq jurnalistika fakültəsinin birinci kurs kommunistləri Şamun Kaqermanovu partiya bürosunun katibi seçdilər. O, kurs yoldaşlarının çoxusundan yaşlı idi: əsgərlik çəkmişdi, «Pravda» nəşriyyatının mətbəəsində işləmişdi, ölkədə ən böyük nəşriyyat sayılan bu çap mərkəzinin komsomol komitəsinin katibi olmuşdu. Artıq iyirmi ilə yaxındır ki, Şamun Musaeviç bir zamanlar bütün İttifaqda tanınan «Selskaya jizn» qəzetinə rəhbərlik edir. Baş redaktor olaraq Azərbaycan prezidenti İlham Əliyevlə həm Moskvada görüşüb, həm Bakıda. Prezident onu institut illərindən tanıyır, həmkarları arasından onu seçir, Yəqin ki, elə Şamun kimi, o da ilk görüşlərini – incikliklərini yaxşı xatırlayır.

«MDBMİ»-nin partkomunda İlham Əliyevə tapşırılmışdı ki, Beynəlxalq jurnalistika fakültəsinin partiya təşkilatının işinə hamilik etsin. Birinci kursun partiya bürosu tələbə K.Pyankanın işini – milisdən gəlmiş məktubu müzakirəyə çıxartmışdı.

Partiya bürosu və tələbə yoldaşları cavan oğlanı müdafiə elədilər və ona son xəbərdarlıqla şiddətli töhmət verilməsini təklif etdilər. Partkom öz sözünün üstündə durub təkid elədi: «Partiyadan xaric olunsun!» Amma məlum məsələdir ki, partiyadan kənarlaşdırılırsa, demək institutdan da çıxarılmalıdır.

Bax, bu zaman Kaqermanov və Əliyev ciddi mübahisə etdilər.

Şamun coşqun halda:

– Gəl, iki qafqazlı kimi danışaq, – dedi. İlham dərhal cavab verdi:

–Yaxşı olar ki, iki kommunist kimi danışaq.

Şamun:

– Onsuz da fərqi yoxdur, – dedi. – Mən ona töhmət elan olunmasına səs verəcəyəm.

Büro prinsipial partiya təşkilatı katibini dəstəklədi: töhmət. Uşaqlar sevinirdilər: kurs yoldaşlarını xilas etmişdilər, ona şans vermişdilər ki, etibarı, inamı doğrultsun. Amma çox tezliklə onlar özləri də əmin oldular ki, K. bu qəlbi yumuşaqlıqdan sui-istifadə eləyib. Guya o, hər şey eləyə bilər və ona heç nə olmaz. Əliyev bu cavan oğlanın xasiyyətinə daha dərindən bələd olmuşdu və başa düşmüşdü ki, onu düşdüyü «sürüşkən» yoldan çəkindirmək üçün indi ciddi cəza lazımdı.

İki aydan sonra milisdən rektorluğa növbəti məktub gəldi: birinci kurs tələbəsi sərxoş halda saxlanılıb.

Şamunla qarşılaşan İlham Əliyev dedi:

– Söhbətimiz yadındadır?

Cavab kəsə oldu:

– Mən səhv etmişəm.

İlham Əliyev gülümsündü:

– Onda bizə içmək olar...

Kafeyə endilər. – Ölkə ayıq həyat tərzi keçirmək uğrunda mübarizəyə başladığından barışığı ətirli kofe ilə möhkəmlətdilər...

...O illərdə Şamun Musayeviç bir qovluq düzəltmişdi və bütün «donos»ları (hər şeyi öz adıyla çağıraq) ora yığırdı. «Məktublardan» birində tələbələrdən birinin cins alıb-satdığı «nəzərə çatdırılırdı». Başqa bir məktubda isə «ideoloji diversant» – «Pleyby» jurnalı oxuyan tələbədən söhbət açılırdı. Amma Şamun «araşdırma» aparmağa tələsmirdi. Fikirləşdi ki, bu cavanların 17-18 yaşı var, onlara kömək lazımdı, cəza verməyə tələsmək olmaz...

Sonradan məlum oldu ki, «xəbərçilər» bu məlumatları iki nüsxədə yazır, bir nüsxəsini də İlham Əliyevə göndərirmişlər.

Bir dəfə söz-sözü çəkdi və İlham Əliyev Şamundan soruşdu:

– Sən o məktubları niyə üzə çıxartmırsan?

Kaqermanov izahat verdi.

– Mən də bu fikirdəyəm, – İlham Əliyev dedi.

İki yoldaşın müdafiə etdiyi o uşaqlar əxlaqlı insanlar kimi böyüdülər, işgüzar mütəxəssis oldular.

* * *

Öz tələbəlik illəri, dostları-yoldaşları və bu sırada İlham haqqında Teymur Yəhyayev hərarətlə yazıb. Onun atası, Sovet ordusunun zabiti Monqolustanda xidmət eləyib və 1979-cu ilin oktyabr ayında əsgərləri qaçılmaz ölümdən xilas etsə də, özü həlak olub. Böyük ailə başsız qalıb. Teymur Yəhyayev «Eyni taleli iki ömür» kitabında nisgilli günləri xatırlayaraq yazır: «İlham Əliyev öz xeyirxah əməlləri ilə institutda böyük hörmət qazanmışdı. Hər hansı bir çətinliyə düşən uşaqlar ona müraciət edirdilər. Çox zaman da o özü tələbə yoldaşlarının həyatı ilə maraqlanır, onlara öz köməyini təklif eləyirdi, amma bunları açıb-ağartmağı sevmirdi. 1979-cu ilin oktyabr ayında mənim zabit atam Monqolustanda həlak oldu. Onun cəmi 43 yaşı vardı. Böyük oğul kimi anamın, bacılarımın, qardaşlarımın qayğısını çəkməyə mən borclu idim. Əla oxuyurdum, əlaçı təqaüdü alırdım, amma bu pulla heç nə etmək olmazdı.

O ağır günlərdə İlham mənə dayaq oldu. «Ürəyini sıxma, mən sənə kömək edəcəyəm, – dedi. Və həqiqətən də o mənə çox kömək elədi».

Sonra təyinat məsələsində də Teymur problemlə üzləşir və bu zaman sadiq dostu onun köməyinə gəlir.

Bu zaman Moskvaya gələn Heydər Əliyev T.Yəhyayevi qəbul etməyə də vaxt tapır: «İlham deyir ki, sən dolaşığa düşmüşsən, həyəcanlanma, çalışarıq ki, sənə kömək edək», Cavan oğlana SİTA-da iş təklif edirlər, mənzil verirlər... Heydər Əliyev cavan, hazırlıqlı diplomatı sonralar da unutmur. Üstündən illər keçəndən sonra ona təklif edir ki, respublikaya qayıtsın, Masallı rayonu icra hakimiyyətinə başçılıq etsin. Bu illər haqqında isə Teymur Yəhyayev özünün «Tanıdığım kimi, başa düşdüyüm qədər» kitabında söhbət açır.

Onun xatiratlarında Heydər Əliyevin və İlhamın adı ilə bağlı bir xeyli, təsirli epizodlar, xoş sözlərlə dolu səhifələr var.

Tələbə yoldaşlarından biri möhkəm xəstələnəndə İlham yardım üçün anasına müraciət eləyir. Zərifə xanım dərhal kömək edir. Xəstə tələbəni Moskvanın ən yaxşı klinikalarından birinə yerləşdirirlər.

«İlham Əliyevlə biz sevincimizi də, kədərimizi də bölüşmüşük, – T.Yəhyayev yazır, – o həmişə sənə diqqətlə qulaq asır və çalışır ki, səni başa düşsün. Onun səmimiyyətinə – səmimi, mənəvi rəğbətlə cavab verirdilər. Bizimlə bir yerdə təhsil alan həmyerlilərimiz – Elşad Nəsirov, Elçin Bağırov, Kamil Abbasov, Ramiz Həsənov, Murad Hüseynov – bu gün də onun komandasında, prezident komandasındadırlar. O başqa millətlərdən olan tələbələrin də hörmətini qazanmışdı. İndi onların çoxu xarici işlər nazirliklərində, öz ölkələrinin mətbuatında, beynəlxalq təşkilatlarında fəaliyyət göstərirlər. Və əminəm ki, onların hamısı Azərbaycana olan xoş duyğular bəsləyirlər».

* * *

Bir neçə il arxaya – bütün Əliyevlər ailəsi üçün unudulmaz olan 1982-ci ilə qayıdaq.

Sevil namizədlik dissertasiyası müdafiə elədi.

Dərin zəkası ilə yaraşığı bir-birini tamamlayan, gözəlliyi göz qamaşdıran Mehriban Paşayeva Bakıdakı 23 saylı məktəbi qızıl medalla bitirəndən sonra N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə qəbul olundu.

Və bununla belə, ən böyük dəyişiklik Heydər Əlirza oğlu Əliyevin yeni təyinatı idi. 22 noyabr 1982-ci ildə Sov.İKP MK-nın plenumu onu MK Siyasi bürosuna namizədlikdən üzvlüyə keçirtdi.

Ali Sovetin sessiyası Əliyevi Sovet İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini seçilməsini təsdiq elədi.

* * *

Heydər Əliyev öz fenomenal yaddaşı, ən mürəkkəb vəziyyətlərdə ağılla nəticələr çıxarması, uzaqgörənliyi ilə şöhrətlənmişdi... Bu barədə, onunla ünsiyyət səadəti qismət olanların hamısı danışır. Amma ən yaxın ətrafında olanların yalnız bir qismi bilirdi ki, nəzərəçarpan fitri göstəricilər çox böyük zəhmət bahasına möhkəmlənmişdi.

Mixail Zabelinin xatirələrindən bir məqama diqqət yetirək: «Heydər Əliyeviç Moskvaya yola düşməzdən təxminən

bir ay qabaq, mənə bir neçə səhifədən ibarət böyük bir ədəbiyyat siyahısı verdi və xahiş etdi ki, bu kitabları ondan ötrü toplayım. Bu siyahıda dəmiryolu, dəniz və çay nəqliyyatı, mədəniyyət təşkilatlarının problemləri, səhiyyə tədbirləri haqqında xüsusi nəşrlər sıralanmışdı... Biz, onun köməkçiləri, referentlər təcili surətdə siyahı üzrə kitabları topladıq. Dəqiq yadımda deyil, neçə qutu kitab alındı – on bir, ya on iki. Düzü bilmirəm qısa bir zaman kəsiyində bu kitabları dərindən oxuyub öyrənməyi necə çatdırdı. Yola düşəndə Heydər Əliyeviç xahiş elədi ki, kitabları kitabxanaya qaytaraq».

Ata

Tarixçi və publisist Roy Medvedyevin sərrast ifadəsinə görə Kremlin üfüqlərində yeni ulduz parladı. Üstündən illər keçəndən sonra SSRİ Xarici işlər naziri. Sovet rəhbərliyində ən nüfuzlu dövlət xadimlərindən biri olan Andrey Qromıko da Heydər Əliyevə verdiyi qiyməti dilinə gətirdi. O, özlüyündə düşündüklərini dilə gətirdi: Sovet İttifaqını idarə etmək üçün belə cavan, enerjili rəhbər lazımdır. Təəssüf ki, Andrey Andreyeviç həlledici anda, Andropovdan, Çernenkodan sonra yeni lideri müəyyənləşdirmək lazım gələndə bu doğru-düzgün fikrini səsləndirmədi.

Zahirən hər şey əvvəllər olduğu kimi görsənirdi. Ancaq, yalnız zahirən. Hələ də Brejnevi qiymətləndirir, MK-nin, SSRİ Ali Soveti Rəyasət Heyətinin və Nazirlər Sovetinin «Leonid İliç Brejnevin xatirəsinin əbədiləşdirilməsi haqqında» Fərmanı çap olunur – şəhərlərə, rayonlara, zavodlara, kolxozlara, ali təhsil ocaqlarına, məktəblərə, meydanlara və Leonid İliçin 30-cu illərdə xidmət etdiyi təlim tank diviziyasına onun adının verilməsi təklif olunurdu.

Amma ölkədə siyasi kursun dəqiqləşdirilməsinə başlanılmışdı və – ilk dəfə idi! – sonralar Qarboçovun öz adına çıxmağa cəhd etdiyi «sürətləndirmə» sözü dillərə düşmüşdü.

«Heydər Əliyev» kitabında biz Heydər Əlirza oğlunun Siyasi bürodakı fəaliyyətindən, fövqəladə məsələlər üzrə komissiyaya rəhbərlik etməsindən, həll etdiyi problemlərdən, uşaq evlərinə, yetimlərə necə kömək etməsindən ətraflı söz açmışıq. Bunlar kimin üçün maraqlıdırsa, qoy «Molodaya qvardiya»nın 2005, 2006-cı il nəşrlərini oxusunlar. O söhbətləri təkrar edən

deyilik; yalnız naəlac qalanda bu və ya digər hadisələrə istinad edəcəyik. Amma yeni, qabaqlar məlum olmayan və ya hələ də qaranlıq qalan materiallar haqqında hərtərəflı bəhs edəcəyik. Onlar Heydər Əliyevin baş vurmalı olduğu Sovetlər İttifaqının paytaxtındakı mühiti parlaq cizgilərlə səciyyələndirir və onun simasını yeni boyalarla zənginləşdirir.

* * *

Heydər Əliyevin himayə etdiyi idarələrin sırasında SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi də var ıdi. Bu nazirlikdəki vəziyyət Sov.İKP MK-ni, Çernenkonu narahat edirdi; təzə Baş katib Heydər Əliyevdən xahiş elədi ki, təhsil ocaqlarına xüsusi diqqət yetirsin.

Heydər Əlirza oğlu göndərilən arayışlarla, hesabatlarla qane olmayaraq, aparıcı təhsil ocaqlarına şəxsən baş çəkməyi vacib sayırdı. Yeri gəlmişkən, onun riyazi analiz kafedrasının müdiri, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin gələcək prorektoru və rektoru Viktor Antonoviç Sadovnıçı ilə tanışlığı da həmin dövrdən başlayıb. Bu tanışlıq iki böyük insanın dostluğuna çevrilmişdi. Heydər Əliyevin prezidentliyi dövründə Sadovniçi Bakıya bir dəfə yox, bir neçə dəfə gəldi və bizimlə görüşdə söylədi ki, onların söhbəti saatlarla davam edirmiş. Fərəhləndiricidir ki, MDU-nun rektoru İlham Heydər oğlu Əliyevlə də qarşılıqlı əlaqələrin təməlini qoydu. 2007-ci ilin mayında baş tutan növbəti görüş zamanı elmi problemlər çözüldü və məlum oldu ki, Bakıda MDU-nun filialı açılacaq.

Azərbaycan prezidenti:

– Və bu filial MDU-nun özü kimi güclü və nüfuzlu Ali təhsil ocağı olacaq, – dedi.

Amma biz çox irəli qaçdıq. Təqvimi geri varaqlayaq – 1983-cü ilin martına qayıdaq.

«Yoldaş Çernenko K.Ü.

Hörmətli Konstantin Ustinoviç!

Sizin xahişinizə cavab olaraq, SSRİ Ali təhsil nazirliyinin 29 mart 1983-cü il tarixli geniş kollegiya iclasında toxunulan bir sıra məsələlər barədə arayışı sizə göndərirəm.

H.Əliyev

8 aprel, 1983-cü il».

(TARF.F.P-5456 On.152.D.U.L 128)

Bu arayışı oxuyanda – Ali təhsil ocaqlarındakı və orta ixtisas təhsili məktəblərindəki həyəcanlı vəziyyət ilk sətirlərdən bəlli olur: nazir V.P.Yelyutinin «həddindən artıq ümumi xarakter daşıyan, çatışmazlıqların tənqidində konkretlik olmayan, çatışmazlıqlara görə məsuliyyət daşıyanların adları hallanmayan çıxışında. (Yenə orada. L.129) Daha sonra oxuyuruq: «Ali təhsil ocaqlarının işçiləri arasında xoşagəlməz tendensiyaların (rüşvətxorluq, himayədarlıq, meşşanlıq, kiçik burjua psixologiyası elementləri və digər neqativ hallar) olması ciddi narahatlıq doğurur. SSRİ prokurorluğunun məlumatlarına görə hər il ölkənin ali təhsil ocaqlarında çoxlu sayda müxtəlif mənşəli cinayət hadisələri törədilir və onların sayı ilbəil artır...»

Bəli, rəqəmlər təsirləndirir. 1978-ci ildə ali məktəblərin 2158 işçisi cinayət törədib; onların 533-ü oğurluqda və vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə (əsas etibarilə rüşvət almaqda) təqsirləndirilib. 1979-cu ildə ali təhsil ocaqlarında baş verən cinayətlərin, müvafiq olaraq, 2221-dən 529-u, 1980-ci ildə 2362-dən 598-i, 1981-ci ildə 2504-dən 615-i, 1982-ci ildə 2746-dan 671-i oğurluq və ya rüşvətxorluq hadisəsidir. Bunlar ələ keçib mühakimə olunanlardı. Bəs nə qədər oğru, rüşvətxor kölgədə qalıb?

«Xüsusilə, ali təhsil ocaqlarına qəbul imtahanları zamanı daha çox cinayət törədilir, – SSRİ Nazirlər Soveti mədəniyyət və elmi işlər idarəsinin şöbə müdiri A.Kutepovun arayışında daha sonra oxuyuruq: – Son zamanlar ali təhsil ocaqlarının bir sıra işçiləri cinayət məsuliyyətinə cəlb ediliblər. Onların arasında keçmiş rektor... MDU-nun hüquq fakültəsinin vətəndaşlıq hüququ kafedrasının baş müəllimi, Yerevan politexnik institutu elmi kommunizm kafedrasının müdiri, Gürcüstan SSR Ali Təhsil Nazirliyinin baş metodisti Çarqaziya və qiyabi təhsil üzrə elmi-metodik kabinetin şöbə müdiri Qoqelaşvili uzun illər ərzində abituriyentləri müxtəlif ali məktəblərə və texnikumlara düzəltməkdən ötrü rüşvət alıblar. Hal-hazırda müttəhimlərin etiraf etdikləri, sübut olunmuş rüşvətin ümumi məbləği 400 min rubldan artıqdır» *(Yenə orada. L.132)* Amma məruzədə, kollegiya iclaslarındakı çıxışlarda vəd olunur: «Bu ciddi məsələlər tamamilə aradan qaldırılacaq; aşkarlanmış faktların mövcud olması və onlara qarşı mübarizə aparılması barədə bir kəlmə də söz deyilməyib.

Kollegiya iclasında Sov.İKP MK siyasi bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini yoldaş Əliyev mövcud problemləri ətraflı təhlil elədi, öz sərt çıxışını yoldaş Yelyutinin məruzəsinə yönəltdi, Nazirliyin şöbə və idarələrini, kollegiyanı işlərində sübut olunmuş bu ciddi nöqsanlara görə ciddi tənqid etdi» *(Yenə orada. L.134).*

Rektor Kozlovanın məsələsi

Bu əhvalat SSRİ Nazirlər Sovetinə məktubdan başlayır. İqtisad elmləri doktoru, professor A.F.Kolosov Sov. İKP Siyasi bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Ə.Əliyevə müraciət edir:

«Bir vətəndaş və kommunist kimi özümə borc bilirəm ki, Moskva İdarəçilik İnstitutunun rektoru O.V.Kazlovanın törətdiyi cinayət əməlləri haqqında sizə məlumat verim ki, bu bədnam hərəkətlərin qarşısının alınması üçün təcili tədbirlər görülsün...» Sonra professor rektorun etdiyi günahları bəndbəbənd sadalayır. Belə ki, O.V.Kozlovanın nəinki rektor postunda qalması, həm də onun xidmətlərinin əsassız şişirdilməsi üçün səylərini əsirgəməyən məsul işçilər «Mİİ» vasitəsilə elmi dərəcələr alırlar. İqtisadçı alimlərin siyahısında Kalinin rayon partiya komitəsinin iki keçmiş katibini və onların üç qohumunu (o cümlədən Z.İ.Qrekovu, onun arvadını və kürəkənini) Sov.İKP MQK-in keçmiş katibi V.N.Makeyevin oğlunu, Krasnodar Sov.İKP diyar komitəsinin keçmiş katibi Medunovanın oğlunu (Kozlova O.V. hər il Krasnodar diyarında – Soçidə dincəlir), Odessa şəhər komitəsinin keçmiş sədri (sonra elmlər namizədi diplomunu qeyri-qanuni aldığını bildirmiş və ondan imtina etmiş) və onlarca başqaları. Kozlova başqa təşkilatlarla (nəşriyyatlarla, jurnallarla və başqa orqanlarla da) əlaqələrini «sən mənə-mən də sənə» sistemi ilə formalaşdırıb».

Doqquz bənd, faktlar və nəticə: «Mənim SSRİ Ali təhsil nazirliyinə O.V.Kozlovanın, əvvəllər etdiyi cinayət tərkibli hərəkətlərinə görə və baş verə biləcək yeni cinayət əməllərinin qarşısının alınması (hazırda onlar da baş verib) məqsədilə edilən müraciətlərim nəticəsiz qalıb.

Və elə bu da, məni Sizə bu məktubu yazmağa vadar elədi». *(QARF.F.R-5456.On.152 D.7.L.14-16)*

İmza. Ünvan. Ev və iş telefonları. Tarix – 26 sentyabr, 1983-cü il.

* * *

Birinci dəfə deyildi ki, Heydər Əliyev ali təhsil ocaqlarında korrupsiya, elmi dərəcə «axtarışları» ilə qarşılaşırdı. O, öz mövqeyini son dərəcə ləyaqətlə bildirirdi, o cümlədən «Literaturnaya qazeta»nın müxbiri ilə artıq istinad etdiyimiz ədalət haqqında və iri həcmli müsahibəsində. Amma o zamanlar o, respublika masştabında hərəkət eləyirdi. İndi isə İttifaq strukturunda fəaliyyət göstərirdi və ona həvalə olunan sahələrdən biri də Ali təhsil nazirliyi idi. Əlbəttə, Heydər Əliyev quruluşun ittifaq miqyasında zədələndiyini təxmin edirdi, amma Moskvada – ölkənin paytaxtında üzləşdikləri ağlına belə gəlməzdi.

Münaqişənin necə davam etməsinə nəzər salaq.

«SSRİ Ali Təhsil Nazirliyi – yoldaş Yelyutinə V.P.

Xahiş edirəm, A.F.Kolosovun məktubundakı faktları yoxlayasınız, Moskva idarəçilik institutundakı mövcud vəziyyəti nəzərdən keçirəsiniz və təcili tədbirlər görəsiniz.

Nəticə barəsində məlumat verin.

H.Əliyev

25 oktyabr 1983» *(Yenə orada L.17)*

Dekabr ayının 15-də SSRİ Ali və Orta İxtisas təhsili naziri V.P.Yelyutin «A.F.Kolosovun məktubu ilə bağlı çıxarılan nəticə» barədə sənəd imzaladı. SSRİ Nazirlər Sovetinə göndərilən bu məktub belə tamamlanırdı» Kolosovun məktubunda göstərilmiş faktlar ya xeyli təhrif edilib ya da həqiqətə qətiyyən uyğun deyil». Nazir Kolosovun sadaladığı faktları bir-bir yalana çıxardır, yoldaş Kolosov isə ortalıqda qalır: özü də böhtançı, fitnəkar kimi.

Moskva dairələrində artıq Yelyutinin «ədalət uğrunda mübarizləri necə kötəkləməsi» barədə şayiələr dolaşırdı. Amma hələ sevinməyə dəyməzdi, çünki bu başdansovdu cavabdan sonra Əliyev bu qənaətə gəlmişdi ki, qarşıdurma onun təsəvvür etdiyindən də güclü şəkildə aparılmalıdır. SSRİ Nazirlər Soveti sədrinin birinci müavininə məxsus katiblikdəki sənədlərdən bəlli olur ki, 11 yanvar 1984-cü ildə «yoldaş Əliyev bu məsələ ilə əlaqədar olaraq yoldaş V.P.Yelyutini qəbul eləyib və ona lazımi göstərişlər verib».

Diplomatlar demişkən, bu görüş «təkbətək formatda» keçirilib. Burada nə katiblər, nə köməkçilər olub. O görüşün işti-

rakçılarından daha heç nə soruşmaq mümkün deyil. Amma Əliyevin Kremldəki kabinetində baş tutan o söhbətin məğzini, mənasını sonradan baş verən hadisələrdən anlamaq olar.

19 yanvar 1984-cü ildə professor Kolosov Əliyevə yenidən müraciət eləyir: «Kozlovanı və onun əlaltılarını ifşa etdiyimə görə mənə cinayət tərkibli və ya başqa üsullarda böhtanlar atırlar. Kozlovanın törətdiyi cinayətlərə görə heç bir tədbir görmürlər, Kozlova O.V. da əlində olan hakimiyyətdən istifadə edərək mənə divan tutur. İnstitutda mənə qarşı mübarizə aparmaq üçün komissiya yaradılıb. Komissiyanın heyətinə tamamilə Kozlovadan asılı olan adamlar daxil ediliblər» *(Yenə orada. L.22)*.

Heydər Əliyev bu məktubun surətini də tədbir görülmək üçün nazirliyə göndərir:

«Ali təhsil nazirliyinə (yoldaş Yelyutinə)

Xahiş edirəm araşdırasınız və nəticəsi barədə məruzə edəsiniz.

H.Əliyev

25 yanvar 1984» *(yenə orada. L.24)*

Paralel olaraq Moskva şəhəri icraiyyə komitəsinin istintaq idarəsi də öz araşdırmasını aparır.

Və nəhayət Sov.İKP siyasi bürosunun üzvü Əliyev MK katibi Zimyatinə məktub göndərir:

«Hörmətli Mixail Vasilyeviç! Mövcud razılaşmaya əsasən, Moskva İdarəçilik İnstitutunun rektoru yol. Kozlova haqqında SSRİ Nazirlər Sovetinə daxil olmuş materialları Sizə göndərirəm.

H.Əliyev

3 fevral 1984» *(Yenə orada L.27)*

Və Əliyevin sərəncamında olan katibliyin qeydi: «SSRİ prokurorluğu arayışının əsli və vət. Kolosovun 9.I.84-cü il tarixli məktubunun surəti ünvan sahibinə göndərilir».

Görürsünüzmü, institutlardan birində ədaləti bərpa etmək nələrin bahasına başa gəlir? Nazir Yelyutinin yeni cavabında ahəng dəyişdi.

«SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yol. A.F.Kolosovun SSRİ Ali Sovetinə ünvanlanmış məktubunda göstərilən faktları araşdıraraq Sizə məlumat verir.

Məktubda göstərilən faktların araşdırılması Moskva İdarəçilik İnstitutunda 1983-cü ilin dekabrında SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi tərəfindən aparılan kompleks maliyyə-

təsərrüfat yoxlamaların gedişində institutun fəaliyyətində bir sıra ciddi nöqsanlar aşkarlanmışdır. Rektorun işindəki bu ciddi nöqsanları nəzərə alaraq nazirlik institutun rəhbərliyini möhkəmləndirmək üçün tədbirlər görür.

Nazir V.Yelyutin»

Bu sənəddə də H.Əliyevin köməkçisi O.Uxovanin qeydi var: «Yoldaş Əliyevə məruzə edildi. Göstəriş – işə tikmək. Uxov.6.IV.84».

«İşə tikmək» lazımdır ki, həqiqətin necə əldə olunmasını qoy bilsinlər. Bu hələ yalnız bir əhvalatdır.

Vyana üçün portret

Avstriya milli kitabxanası, fotoarxiv və portret qalereyasının direktoru Valter Vizer məktubla Heydər Əlirza oğlu Əliyevə müraciət edib.

«Zati aliləri!

Avstriya milli kitabxanasının portret qalereyası qrafika işləri kolleksiyasından onunla fərqlənir ki, onun ikonaqrafik fondu sənədli xarakter daşıyır və bu minvalla kolleksiyaya bir qayda olaraq mis üzərində qravyura kolleksiyalarında istifadə olunmayan bir sıra döymə sənəti örnəklərini və fotoşəkilləri daxil etmək olar.

Nəzərə alsaq ki, çağdaş dünyamızın görkəmli xadimlərinin fotoşəkilləri satışda yoxdur, bəlli olar ki, bu şəkilləri əldə etmək asan başa gəlməz, amma zamanla ayaqlaşmaq imkanı qalır. Demək kolleksiyanı zənginləşdirməyin yeganə yolu beynəlxalq həyatda böyük rol oynayan görkəmli simaların özlərinə müraciət etməkdir. İnsan nailiyyətlərinin universallığını bütün sahələrdə və bütün zamanlarda ifadə edən şəkillər yalnız bu yolla bizim qalareyamıza gəlib çıxa bilər.

Bununla əlaqədar olaraq bu gün qalareya sizə belə bir xahişlə müraciət edir.

Yuxarıda adları sadalanan məqsədlər üçün biz arzu edərdik ki, avtotipiyanı çıxmaq şərtilə, hər hansı bir texniki icraatla başa gələn foto şəkilləri, mümkünsə 13X18 formatda (ancaq bu format vacib deyil) bizə göndərəsiniz.

Bununla yanaşı bizdən ötrü xüsusi ilə dəyərli olardı ki, şəxsən sizin tərəfinizdən fotoqrafın adı, soyadı, əgər mümkün-

sə bioqrafik məlumatları göstərilmiş olsun; bu foto şəklin arxa tərəfinə də qeyd oluna, ayrıca kağıza da yazıla bilər ki, bunu bizim birliyin avtoqraflar toplusuna daxil edə bilək.

Bizim xahişimizə xoş dıqqət göstərdiyinizə görə Portret qalareyası Sizə təşəkkürünü bildirir.

Direktor, həqiqi saray müşaviri Valter Q.Vizel»

Qeyd: «SSRİ Xarici İşlər Nazirliyinin tərcümə şöbəsi, 01.04.83. A.Nikalayev» *(PTAHU.F.P-5446.On.152.D.4.L.9)*

Bir ay sonra, 20 apreldə Vena şəhərinə Əliyevin katibliyinin dəftərxana müdiri V.Qridnevin imzası ilə məktub yola salınır: «Heydər Əliyeviç öz foto şəklinin Avstriya Milli kitabxanasının Portret qalereyasına göndərilməsinə səmim-qəlbdən razılıq verdi. Şəkil 1981-ci ildə (fotoqraf İ.V.Filatov tərəfindən) çəkilib».

Əliyev böyük foto-rəssam, tanınmış sənətkar İlya Vasilyeviç Filatovu yüksək qiymətləndirirdi.

V.Qridnevin göndərdiyi məktubun surətində diqqətəlayiq qeyd qalıb: «Sov.İKP MK ilə razılaşdırılıb (yol. Çernyayev A.S.69-34)» Rəqəmlər MK-ın Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini, Qorbaçovun gələcək köməkçisi Çernyayevin «vertuşka» telefonu idi. Aleksandr Sergeyeviç Çernyayevin yazıları ilə biz hələ qarşılaşacağıq.

1982-ci ilin dekabr ayında SSRİ Nazirlər Sovetinə, Əliyev adına 37 məktub daxil oldu. Nədən və kim yazırdı? Naxçıvan Sovet Muxtar Respublikasının Hop kəndində yaşayan keçmiş sovxoz direktoru ona qarşı sürülən ittihamın əsassız olmasından yazır. Onu sosialist əmlakını mənimsədiyinə görə mühakimə etmişdilər; Diyallı kəndindən Əliyeva Sünbül Məcid qızı yazırdı ki, Ucarın və Göyçayın məhkəmə orqanları cinayətkarın əməllərini ört-basdır edirlər; Qamsaxurdıya Zviad (gələcəkdə Gürcüstanın prezidenti olacaq həmin Qamsaxurdiya) Balakən və Zaqatala rayonlarının inzibati orqanlarının qeyri-qanuni hərəkətlərindən, Tbilisi universiteti tələbələrinin İtitala və Əliabad kəndlərində olarkən üzləşdikləri münasibətdən yazır, yazır ki, gürcü dilində dərs vəsaitləri yaydıqlarına görə onlar axtarışa məruz qalıblar, həbs olunublar.

Kirovabaddan Səfər İsmayılov Sov.İKP MK siyasi bürosuna üzv və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini seçilməsi münasibəti ilə təbrik edir və ümidvar olduğunu bildirir ki, gələcəkdə də Respublika vətəndaşlarının müraciətlərinə böyük diqqət göstərəcək.

Həmişə olduğu kimi, şəxsi xahişlər çoxdur: kimi telefon, kimi mənzil, kimi ixtisası üzrə iş təmənnasındadır; Bakıdan Nina Petrovna Baqan isə təqaüdünün artırılmasını istəyir.

Siyəzən şəhərindən – birbaşa neft mədənlərindən isə kollektiv məktub gəlib. Yazıblar ki, «üç aydır mağazalarda ət və süd yoxdur, amma alverçilərdə var».

«Hörmətli Heydər Əliyeviç!

Sizə müraciət edən Stepanakert sakini Rafael Mamikonoviç Poqosbekovdur. Mən bu məktubu siz hələ Azərbaycan KP MK-nın birinci katibi olanda yazmaq istəyirdim, bax budur, artıq yeni vəzifədəsiniz, mən də sizə məktub yazıram. Hər şeydən öncə icazə verin Sizi yeni və məsul vəzifəyə təyin olunmağınız, bizim dövlətimizdə ən mötəbər mərtəbə olan siyasi büroya üzv seçilməyiniz münasibətilə öz sadə müəllim adımdan səmim-qəlbdən təbrik edim. Əziz Heydər Əliyeviç, biz – Sizin həmyerlilərinizi Sizinlə qürur duyuruq və şübhə etmirik ki, siz öhdənizə götürdüyünüz vəzifənin öhdəsindən, əvvəllər tutduğunuz vəzifələrdə olduğu kimi, şərəflə gələcəksiniz».

Rafael və onun arvadı pedaqoqdular – onların iki övladları var. Bütün Poqosbəyovlar öz əsil-nəcabətləri ilə fəxr edirlər. Rafaelin dayısı İşos Artyomoviç Yoxsullar Komitəsinin sədri olub, onun iki qardaşı – Xristofor və Əmircan inqilabdan qabaqkı stajla bolşevikdilər. Əmircan Artyomiç sağdı, Bakıda yaşayır, 98 yaşın içindədir. Qardaşların üçü də Bakıda – Nobelin zavodunda tökməçi-fəhlə işləyiblər.

Yaşayış şəraitləri çox pisdir, çox pis..

«Əlbəttə mən başa düşürəm ki, mənim müraciətim çox xırda məsələdir. Sizin artıq icrasına başladığınız işlərlə müqayisəyə belə gəlməz, amma ola bilər ki, mənim xahişimə diqqət göstərməyə də vaxtınız tapılar. Məsləhət verin, mən neynəyim, kimə müraciət edim?

Dərin hörmətlə

R.Poqosbəyov
6.XII.82»

Dağlıq Qarabağlı müəllimin məktubu Moskvada it-bata düşmədi. 22 dekabr 1982-ci ildə o məktub H.Əliyevin tapşırığı ilə geri göndərildi: araşdırılması və nəticəsi barədə məruzə olunması məqsədilə. Bir ay keçəndən sonra Azərbaycan KP MK katibi Y.Puqaçov Kremlə məruzə elədi. Bəli, Poqosbəyovların dörd nəfərdən ibarət olan ailəsi kommunal, şəraiti ol-

mayan ikiotaqlı mənzildə yaşayırdı. 1976-cı ilin sentyabr ayından mənzil növbəsində idilər. «1983-cü ildə həmin ərazidə çoxmərtəbəli bina tikmək məqsədilə həmin ev söküləcək və bu zaman onun ailəsinin bütün kommunal şəraitləri olan mənzillə təmin edilməsi məsələsi həll olunacaq»

H.Əliyev Azərbaycan universitetinin əməkdaşı İman Hacıyevin məktubunu haqlı olaraq həyəcanla oxudu:

«...Sizdən sonra respublikada, əsasən də Bakı şəhərində yaşamaq çətinləşib. Sizin işıqlı zəkanız, Sizin ağlınız respublikanı ittifaq respublikaları arasında ön cərgələrdən birinə çıxartmışdı. İndi respublikada qanunsuzluq hökm sürür, kim daha çox aldadırsa, o da yaşayır. Məsələn, bütün ali təhsil ocaqlarında rüşvət adi hala, bir sıra yuxarı dairələrin alver mexanizminə çevrilib. Zəhmətkeş xalq üçün heç kim, heç bir mübarizə aparmır. Bütün uşaq bağçaları və körpələr evləri, əgər 25-30 manat rüşvət verməsən, uşağını qəbul etmirlər. İşsizlərin sayı günbəgün artır, əmək birjası açmaq vaxtıdır. Bakıda təsərrüfatsızlıq, çirkab hökm sürür. Bir sözlə, hər yerdə və hər tərəfdə təmizləmə aparmaq lazımdır...»

Bu məlumatları saf-çürük eləyəndən sonra H.Əliyev qərara gəlir ki, Azərbaycan KP MK-nin birinci katibi K.M.Bağırova açıq səmimi məktubla şəxsən müraciət eləsin.

«Hörmətli, Kamran Məmmədoviç!

Mənim adıma respublikanın zəhmətkeşlərindən məktublar gəlir. Sizin razılığınızla belə məktubları ölçü götürmək üçün Sizə göndərəcəyəm.

Hörmətlə, H.Əliyev

16 dekabr, 1982.

(QARF.F.R-5446.On.152.D.1.L.1)

Bakıdan konkret, işgüzar cavablar gəlirdi. Ehtimal ki, H.Əliyevə yalnız Azərbaycandan yazmırdılar. Altay diyarından xahiş edirdilər ki, Barnaul Dəmiryolu məhkəməsinə hər cür rahatlığı olan bina alınması üçün yardım etsinlər. Məktubda deyilirdi: «məhkəmənin qapılarını bərk örtəndə tavandan adamların başına toz-torpaq tökülür». Kiyevli Y.V.Skripnik həyəcanlanmışdı, onu «Kievqaz» birliyinin fərsiz başçılarının ünvanına yönəldilmiş tənqidi çıxışına görə» təqib edirdilər. Özbəkistandan gənc ailə öz sevincini Heydər Əliyevlə bölüşürdü. 12 mart 1981-ci ildə Leninin silahdaşı, Ümumittifaq Mərkəzi İcraiyyə komitəsinin həmsədrlərindən biri Nəriman Nərimanovun adını orada inşa

olunmuş şəhərə vermişdilər. Və ilk nərimanovçu gənc ailənin ilki Eldar Qalyautdinov olmuşdu. Bu barədə Nərimanova həsr olunmuş televiziya filmində də söhbət açılır. «Və biz qərara almışıq ki, Heydər Əliyev, Sizi qonaq çağıraq – balaca Eldarın valideynləri yazırlar, – bizim şəhərin ildönümündə oğlumuzun bir yaşının tamamında bizdə olmağınızı xahiş edirik».

Heydər Əliyev cavab yazmağı köməkçisi jurnalist Qavrilova həvalə elədi.

– Aleksandr Timofeyeviç, mənim adımdan təşəkkür eləyin. Təəssüf ki, adı bütün azərbaycanlılar üçün əziz olan Nərimanovun adını daşıyan şəhərə gedə bilməyəcəyəm. Eldara arzulayın ki, bizim ölkənin ləyaqətli vətəndaşı kimi böyüsün

* * *

Moskva İdarəçilik İnstitutu quruluşun əlahiddə bir parçası deyildi. Sadəcə olaraq orada hər şey gərginləşmişdi, üzə çıxmışdı

Əliyevlər ailəsində əvvəllər olduğu kimi – komitə illərindən – iş barəsində danışmırdılar. Danışanda da ata özü danışırdı və ondan nə isə soruşmaq ailədə məqbul sayılmırdı. Moskvanın ali məktəblərində İdarəçilik İnstitutundakı dəyişikliklər haqqında söhbətlər qızışanda Heydər Əliyev oğlundan soruşdu. Bəs onların institutunda – «MDBMİ»də – nə deyirlər bu barədə?

Onların öz «ÇP»ləri kifayət qədərdi. 1980-1983-cü illər ərzində əxlaqsız hərəkətlərinə görə 25 nəfəri, o cümlədən 10 kommunisti institutdan xaric etmişdilər. Partiya konfrasında – o, 27 oktyabr 1983-cü ildə keçirilmişdi – açıq-aşkar rüşvətxorları damğaladılar. Müəllim L. hədə-qorxu gəlmək vasitəsilə abituriyentlərin valideynlərindən pul alırmış. Partkomun katibi qətiyyətlə kommunist əxlaqı normalarını pozanlardan yaxa qurtarmağa səsləmişdi.

«MDBMİ»də komsomol komitəsinin təşəbbüsü ilə keçirilən anketləşdirmənin nəticələri də Heydər Əliyevi maraqlandırmışdı. Tələbələr müəllimlərin mühazirələrinə qiymət vermişdilər. Anketə imza atmaya da bilərdilər, amma tələbələrin çoxusu, o cümlədən İlham Əliyev bu sənədə qol çəkmişdi. Tələbələri həyəcanlandıran nə idi?

Birinci növbədə – tədrisin səviyyəsi: «Hamısı xalturadı, özü də hamıya məlum xaltura, mən bunları mühazirəyə girmə-

mişdən qabaq da bilirdim, belə mühazirələrə getmək istəmirəm»; «çox vaxt görürsən ki, müəllim materialı lazımi səviyyədə təqdim etməyə hazır deyil, ona görə öz şəxsi həyatından nağıl danışır». Bəs nə etməli? Nəyi dəyişməli? «Problematik mühazirələr çox olmalıdır. Onlar sıx şəkildə müasirliklə bağlanmalıdır». Bütün problemlərə müqabil yanaşmanı tez-tez açmaq, o cümlədən burjua və təftişçilik problemlərini diqqətlə öyrənmək, onlarda zəif nöqtələri tapıb yüksək səviyyədə tənqid etmək», «daha tez ixtisaslaşmanı həyata keçirmək».

Bir qədər öncə bizim yada saldığımız partiya konfransı ərəfəsində «MDBMİ»nin rektoru Lebedevi Xarici İşlər Nazirliyi kollegiyasına üzv təyin etdilər. Nikolay İvanoviç nümayəndələri bu barədə özü məlumatlandırdı. «Bu gün mən Sizin qarşınızda Xarici İşlər Nazirliyi kollegiyasının üzvü qisimində çıxış edirəm. Bu bütün institut kollektivinə, Siz nümayəndələrə, bütün partiya təşkilatının əməyinə verilən yüksək qiymətdir.

Əslində də, nümayəndələrə – yoldaş Lebedevin Xarici İşlər Nazirliyi kollegiyasının üzvü seçilməsinin dəxli yoxdu, amma institut üçün bu həqiqətən əlamətdar hadisə idi.

İlham Əliyev Lebedevi təbrik elədi, axı, Nikolay İvanoviç yalnız rektor deyildi, həm də onun elmi rəhbəri idi.

Nikolay İvanoviçi rektor vəzifəsinə 1974-cü ildə təyin etmişdilər. «O zaman, – Lebedev xatırlayır, – birinci kursa 540 tələbə qəbul etdilər. Amma bu il (1983) cəmi üç yüz. Bu azalmaya səbəb nə idi? Rektor böyük siyasət haqqında danışır. Prezident Reyqan cəhd eləyir ki, beynəlxalq ilişgiləri məhdudlaşdırsın. Gözlənilməz nəticə də elə bundan doğmuşdu: «On il öncə kadrların sayı bizim üçün böyük önəm daşısa da, bu gün məsrəfdi». (ÜAOPİM. F 538. On. 4.D.1 L.103)

21 mart, 1984-cü ildə qəzetlərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi haqqında SSRİ Ali Soveti İdarə Heyətinin Qərarı çap olundu. Ordeni Sütunlu zalda təqdim etdilər. Sov.İKP MK Siyasi bürosu üzvlüyünə namizəd, SSRİ Ali Soveti sədrinin birinci müavini Kuznetsov xoş sözlər dedi, müəllimləri, müxtəlif illərin məzunlarını təbrik elədi. Qocaman müəllimlərdən İ.A.Kirilinanı və rektor N.İ.Lebedevi Lenin ordeni, üç nəfəri Oktyabr inqilabi ordeni, on nəfəri isə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif etdilər...

Böyüklərə hörmət duyğusu, xeyirxahlıq və həssaslıq, açıq-saçıqlıqdan uzaq mehribanlıq, yumor duyğusu – bax, bu cizgilərdi müxtəlif xasiyyətli və müxtəlif cinsdən olan tələbə auditoriyasında İlhamı başqalarından fərqləndirən.

Üstündən 25-30 il keçəndən sonra «MDBMİ»nin professoru, beynəlxalq əlaqələr fakültəsinin dekanı, tarix elmləri doktoru, professor Yuri Alekseyeviç Bulatov öz tələbəsi İlham Əliyevi xatırlayır: «Onun öz atasına olan münasibəti məni həmişə valeh edib. Bizə haçansa həyat bəxş etmiş insanlara belə münasibət ola bilsin ki, yalnız Qafqazda, Cənubi Qafqazda qalıb. Mən İlhamın Heydər Əliyevə necə münasibət bəslədiyinə şahid olanda, həmişə özümdən asılı olmayaraq özümə sual vermişəm: bəs mən öz atamın məzarını sonuncu dəfə haçan ziyarət etmişəm? Ya da: mən öz atamla axırıncı dəfə haçan görüşmüşəm?..»

Y.A.Bulatovun söylədiyinə görə, onun qəlbində İlham Əliyevlə bağlı çoxlu sayda xoş xatirələr qalıb. Onlardan biri tələbələrin xaricə – təcrübəyə göndərilməsi ilə əlaqədardır. O zaman məqbul sayılan qaydalara görə təcrübə keçməyə ən yaxşıları seçirdilər – komsomol və ya partiya komitələri onlara xasiyyətnamə verirdi və axırda da siyahını rektorluq və partkom təsdiq edirdi:

– İlham Londona stajirovkaya, tədrisə olan münasibəti – öz zəhməti ilə layiq görüldü. O, Böyük Britaniya üzrə ixtisaslaşmışdı və ingilis dilini çox gözəl bilirdi.

İnstitutu bitirəndən sonra İlham aspiranturaya daxil oldu, tarix kafedrasında Avropa və Amerika ölkələrinin siyasəti ilə məşğul olmağa başladı. O, özündən yalnız bir qədər cavan olan tələbələrlə öz biliyini səxavətlə bölüşürdü, bir müəllim kimi göz qabağında formalaşırdı, seminar aparırdı, tələbələrə mühazirə oxuyurdu. 1985-ci ildə aspiranturanı bitirib, bizim institutda Böyük Britaniyada antihərbi hərəkat mövzusunda dissertasiya müdafiə elədi və 25 yaşında tarix elmləri namizədi oldu.

Professor Bulatovun fikrincə, cavan alimi parlaq elmi karyera gözləyirdi.

Bəli, bütün ölkənin və eyni zamanda milyonlarla insan taleyinin altını üstünə çevirən Qorbaçov parçalaması olmasaydı İlham Əliyev İttifaqda İngiltərə üzrə məşhur mütəxəssis, sonra

da yəqin ki, diplomat olardı... Amma çoxdan deyilmiş sözdü: deyir, sən saydığını say, gör fələk nə sayır... Bununla belə, İlham Heydər oğlunun elmi axtarışları dəyişməyib. Onun «Azərbaycanın Xəzər nefti» monoqrafiyası yalnız Azərbaycanda yox, bütün dünya mütəxəssislərinə məlumdur. Xarici mətbuat o əsəri yüksək qiymətləndirib, tərifləyərək peşəkarların diqqətinə çatdırıb. SSRİ Dövlət plan komitəsinin keçmiş sədri Nikolay Konstantinoviç Baybakovun təbirincə, bu zəhmət «ensiklopedik xarakter daşıyır, toxunduğu sahədə ətraflı, ilk monoqrafiya kimi diqqət çəkir».

«Neft aləminin tarixi bizə yaxşı məlumdur. Biz həm də ayrı-ayrı ölkələrin təcrübəsini araşdırırıq. Təəssüflər olsun ki, bir sıra hallarda neft ölkələrə, xalqlara dinc həyat yox, çətinliklər, sosial ədalətsizliklər, cürbəcür problemlər, gərginliklər gətirir. Biz isə istəyirik ki, neft Azərbaycana sülh, tərəqqi, əməkdaşlıq gətirsin, xalqın həyat tərzinin yaxşılaşmasına xidmət eləsin».

Bu sözlər İlham Əliyevin kitabından örnəkdir.

İlham Əliyev 2004-cü ildə «Formula vlasti» teleproqramına müsahibəsində deyib:

«Tələbə, aspirant və müəllim kimi mən ömrümün 13 ilini «alma-mater»in divarları arasında keçirmişəm. Bu yaxınlarda rəsmi görüş zamanı mənə «MDBMİ»nin fəxri doktoru adını verdilər. Və mən bu təltiflə çox fəxr edirəm».

İlham hər il yay tətilində Bakıya gəlirdi. Və növbəti ezamiyyət ucbatından çox vaxt atasını evdə tapa bilmirdi. Ezamiyyət məkanı ya neft istehsal sahələri, ya pambıq tarlaları, ya da dağ rayonları idi. Hərdən İlham xahiş eləyirdi ki, atası onu da özü ilə aparsın. Bu səfərlər İlhamdan ötrü əsil dövlət idarəçilik məktəbi oldu.

Bölgələrə səfərlərinə Birinci katib bir qayda olaraq rəssamları, bəstəkarları, yazıçıları da dəvət edirdi... İlham atasının hər bir həmsöhbəti ilə necə ümumi dil tapmasını, yeri gələndə üzüm kolunun dibini yumşaltmaq üçün əlinə bel almasını, tarla düşərgəsində turnik görəndə özünü sınamasını canlı şəkildə müşahidə eləyirdi... Söhbətlər zamanı heç bir sünilik olmurdu, amma bununla belə yerli rəislər Birinci katibin gəlişi şərəfinə bir başqa mühit yaratmağa çalışırdılar. Amma bəsirətli Heydər Əliyev lüzümsüz «kosmetika»nı real şəkildən çətinlik çəkmədən ayırırdı.

Rayon mərkəzindəki mağazalardan birinə yaxınlaşan Əliyev vitrində tənha ekzotik konyak şüşəsi görür. Üzündə şən heyrət ifadəsi yaradaraq yazıçıya, özü də səhhəti ilə əlaqədar olaraq içki içməyən yazıçıya – yol yoldaşına üz tutaraq soruşur:

– Bakıda necə, belə konyak tapmaq asandırmı?

Hamı gülüşür. Və yalnız yerli rəislər peysərlərinin tərini silirlər.

Vətən nədən başlanır? – Bu nəqarətın üstünə qayıdaq ki, vətənpərvərlik haqqındakı düşüncələrə, insanın mənəvi simasını müəyyən eləyən, əhval-ruhiyyəsindən xəbər verən fikirlərə bir neçə cizgi əlavə edək. Doğma torpaq, ana vətən haqqında ilhamlı sətirlər yazılıb, gözəl nəğmələr qoşulub, əfsanələr yaradılıb. Nə qədər istəsən Puşkindən, Lermontovdan, Nekrasovdan, Yesenindən sitat gətirmək olar. Bizim günlərdə Nikolay Rubtsov bəsirətli misralar yaradıb:

Hər daxmayla, hər buludla,
İldırımla – göydən gələn.
Ən isti bir yaxınlığı,
Mehmanlığı duyuram mən...

Səməd Vurğunu xatırlayaq:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

H.Əliyev vətəndaşların tərbiyəsində mühüm rol oynayan ədəbiyyatı, incəsənəti, folkloru sevirdi, insanın mənəvi təkamülünün əsasını onların məcmusunda görürdü. «Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adən-ənənələrini yaşatmalıyıq». Bu fikir kimə isə çox sadə görünə bilər, təbiidir, amma deyildiyi kimi tarixi nöqteyi nəzərdən fikirləşməyə dəyər. Nə zamanlar ki, insanların yeni tarixi cəmiyyəti təntənəli surətdə elan edildi – Sovet xalqı dillərin qovuşdurulması haqqında utopik fantaziyaları da vurub keçdi, nə zaman ki, formaca milli, məzmunca sosialist mədəniyyət meydana çıxdı, milli dəyərlər ikinci plana keçdi və bütün bunlar birbaşa və ya dolayısı yolla şəxsiyyətin

etnik təməlində milli özünüdərkin tədricən silinməsi aləti rolunu oynamağa başladı. Bu düşüncənin işığında Heydər Əliyevin sözü sağlam milli özünüdərk, millətin çoxəsrlik genetik yaddaşına, ləyaqətli tarixi qüdrətinə çağırış kimi səslənir...

Öz xalqının doğma mədəniyyətinə ürəkdən, bütün varlığı ilə xidmət edənin canlı nümunəsi İlham Əliyevin gözü qabağında idi.

Əliyevlər ailəsi yeni kitablar, tamaşalar haqqında ürəkdən gələn söhbətlərin məkanı idi, musiqisiz, nəğməsiz ötüşmürdü. Zərifə xanım yaxşı fortepiano çalırdı.Onun bacısı Gülarə xanım Əliyeva tanınmış musiqiçi idi, «Dan ulduzu» instrumental ansamblına rəhbərlik eləyirdi. İlhamın bacısı Sevil ixtisasca ərəbşünas olsa da, mahnı yaradıcılığında uğurlu addımlar atırdı. Bir çox musiqi həvəskarları, onun mahnılarını məşhur Radmila Karaklaiçin ifasında dinləmək imkanı qazandıqlarından son dərəcə məmnundular.

İlhamın kurs yoldaşı, beynəlxalq jurnalistika fakültəsinin tələbəsi xatırlayır: «İlhamla tanışlığımızın birinci ilində ağlıma da gəlməzdi ki, o xalq yaradıcılığından, eyni zamanda bizim çağdaş incəsənətimizdən bu dərəcədə xəbərdardır. Hətta mən bir dəfə onu sınağa çəkdim... Kalinin (indiki Tver) vilayətində hərbi toplanışda idik. Bir dəfə İlhamla ikilikdə gəzə-gəzə söhbət eləyirdik... Mən dedim: gəl yarışaq, görək kim daha çox Azərbaycan mahnısı bilir.

Növbə ilə oxumağa başladıq. Yadımıza düşən xalq mahnılarını və eləcə də bəstəkar mahnılarını növbə ilə zümzümə eləyirdik. Mən yoruldum və susdum. O isə hələ də oxumasına davam edirdi. Etiraf edim: ağlıma da gəlməzdi ki, mən belə asanlıqla məğlub olacağam. Və bir də ona heyrətləndim ki, o, bütün bunları haradan bilir.

El bilir ki, tükənməyən sərvətin vardır,
Sinən üstü ağ pambıqlı gen tarlalardır.
Buruqların göy Xəzərdə qatar-qatardır.
Yurdum, yuvam, məskənimsən, Azərbaycanım
Anam doğma, Vətənimsən, Azərbaycanım.

İlham mərci uddu. Lakin qələbəsi ilə öyünmədi!»

Yeri gəlmişkən, İlhamın ədəbiyyata və incəsənətə genetik məhəbbətindən söz düşəndə, daha bir görkəmli şəxsiyyəti – onun ana babasını, görkəmli dövlət xadimi Əziz Əliyevi də

xatırlamaq olar. İxtisasca həkim olan bu insan Azərbaycanda yüksək vəzifələr tutub, Böyük Vətən Müharibəsi illərində Dağıstan vilayət partiya komitəsinə başçılıq eləyib. Əziz Məmmədkərim oğlu Dağıstan xalqlarının maarifləndirilməsində, mədəniyyətlərinin inkişaf etdirilməsində böyük rol oynayıb. O, xalq şairi Həmzət Sadasla dostluq eləyib, gənc Rəsul Həmzətovun şair kimi böyük gələcəyini də o duyub, məsləhət görüb ki, (gələcəkdə poeziya ulduzunun parladığı) M.Qorki adına Ədəbiyyat institutunda təhsil alsın. Müharibə illərində Əziz Əliyev Sovet siyasi işçilərinin və mədəniyyət xadimlərinin Cənubi Azərbaycanda (İranda) fəaliyyət göstərən xüsusi dəstəsinə rəhbərlik missiyasını öz boynuna götürüb. Bizim hekayətimizin çərçivəsi imkan vermir ki, biz o insan haqqında geniş söhbət açaq. Yalnız bir epizodla kifayətlənirik.

Artıq bır neçə infark keçirmiş, ömrün qürub günlərini yaşayan Əziz Əliyev vağzala yollanır ki, uzun illər onların evində xadimə kimi çalışan qoca rus qadınını şəxsən yola salsın. O, bu işi oğullarına, sürücüsünə və nəhayət.. bir başqasına da tapşıra bilərdi. Yox, qoca rus qadının çamadanını perronla vaqona özü aparır. Elə orada o perronda da Əziz Əliyevin ürəyi dayanır... Belə hadisə –bütöv bir ömür üçün əxlaq dərsidi. Babası dünyasını dəyişəndə İlham hələ çox balaca idi. Bu epizod ona çox-çox sonralar bəlli olacaq.

Vətən nədən başlanır? Sovet İttifaqında böyümüş nəsillər üçün yeni reallıqlara alışmaq çətindir – «keçmiş ölkə»nin yeri hər addımda görünür.

«Qələm akulaları» dağılmış hakimiyyətin tarixinə çirkab boşaltdılar. Ancaq sistemin bütün qüsurlarına və rejimin əvəzedilməz qurbanlarına baxmayaraq çoxmillətli ölkənin insanları bir-birilərinə qəlbən bağlandılar, doğmalaşdılar. Ukrayna şairi Pavlo Tıçınanın parlaq boyalarla əks etdirdiyi «vahid ailə» duyğusu, yalnız şairanə deklarasiya deyildi.

Tanınmış Azərbaycan yazıçısı, görkəmli dövlət xadimi, Sov. İttıfaqı Xalq Komissarları Sovetinin həmsədrlərindən biri olmuş Nəriman Nərimanov ölümündən qabaq oğluna məktub yazıb. Onda Nəcəfin beş yaşı vardı:

«Əziz oğlum Nəcəf! Əgər hələ yaşamaq qismətim varsa, mən səni elə hazırlamağa çalışacağam ki, sən bəşəriyyət üçün daha çox iş görəsən. Lakin əgər mən əbədi məzara tez köçməli olsam, təvəqqe edirəm başqaları üçün daim əzab çəkən atan qədər kiçik bir iş görəsən...

Ümidvaram ki, bu mənada sən öz işinlə mənim əməllərimi davam etdirəcəksən».

Nəcəf texnika vurğunu idi, o günlər barədə fikirləşirdi ki, traktorlar sahilə çıxır və bu ağıllı maşınlar üzümçülərin, pambıqçıların işini yüngülləşdirir. Amma Böyük Vətən müharibəsində o, tankçı oldu. Stalinqradı qorudu, Donbası azad elədi... Böyük qvardiya leytenantı tank vzvodunun komandiri Ukraynanın cənubunda iri dəmiryolu qovşağı olan Volnovaxa uğrunda döyüşlərdə həlak oldu. Onun atası Moskvada – Qızıl meydanda uyuyur. Bakıda Heydər Əliyevin təşəbbüsü ilə onun nəhəng abidəsi ucaldılıb.

Bəli, bizim ünvanımız, populyar mahnıda oxunduğu kimi, nə evdi, nə küçədi – bizim ünvan Sovet İttifaqıdır.

Biz, bu kitabın müəllifləri, hərəmiz ayrı bir diyarda doğulmuşuq. Birimiz Azərbaycandanıq, Azərbaycanın cənubunda doğulub və böyüyüb. Digəri – əslən Donbaslıdı. Puşkinin, Şevçenkonun, Lev Tolstoyun müstəqil Azərbaycanda, xarici yazıçı hesab olunması fikrinə alışmaq birimizə çətindir. Digərimizin isə dili gəlmir söyləsin ki, məsələn «Yevgeni Onegin» romanını böyük ustalıqla Azərbaycan dilinə çevirən Səməd Vurğun xarici şairdir.

Bəlkə də deyəcəksiniz: bu emosiyadı. Bəli, emosiyadı. Milyonların, yüz milyonların ürəyində yaşayan emosiya. Və onları bir gündə, bir saatda silib ata bilməzsən. Suverenlik, milli müstəqillik – tarixin hökmüdür. Sərhəd dirəkləri yeni xatirələr nişanıdır. Amma dünya inteqrasiya haqqında danışmaqda davam edir (indi biz daha tez-tez əmrlərlə və qayçılarla doğranması mümkün olmayan mənəvi məkanı yada salırıq).

Bizim hekayətin qəhrəmanının dünyaya münasibəti haqqında düşünəndə, bütün bu mülahizələr ağla gəlir, onun siyasi təkamülü haqqında, ölkədə baş verən yenidənqurma, aşkarlıq, dəyərləndirmə, demokratik ümidlər və illüziyalar, çılpaqlaşdırılmış tarixi həqiqətlər kimi hadisələrin fonunda onun siyasi təkamülü yada düşür.

«Gələcəyə baxmaq»

Heydər Əliyev dolğun Moskva həyatının beş ili ərzində partiya-hökumət nümayəndə heyətinin başçısı kimi bir neçə dəfə xarici ölkələrə – Vyetnam, KXDR, Anqola,

Suriya, Yuqoslaviyaya... getmişdi. Onu Vətənin hüdudlarından kənarda dincəlməyə dəvət edirdilər: bilirdilər ki, Sovet elitası gəzib-dolanmağı sevirlər. Dostlar (rəsmi yazışma termini) Soçiyə, Putsundaya, Krıma uçub gəlirdilər, bizim kasıb olmayan soydaşlarımız isə, partiya rəhbərlərindən komsomol xadimlərinə qədər müftəcə Bolqarıstanın Qızıl qumlarında dincəlməkdən həzz alırdılar, Macarıstanın Balatonunda «yorğunluqlarını çıxardır», Drezden qalereyasındakı əsərləri tamaşa eləyirdilər... Macarıstan Nazirlər Soveti sədrinin müavini Yojef Maryan iki dəfə – 1983, 1984-cü illərdə – Əliyevi ailəsi ilə birlikdə dincəlməyə dəvət edib. «...Təəssüf ki, işim çox olduğundan mənim Macarıstana səfər etməyimə imkanım yoxdur», – deyə Əliyev cavab verib.

Öz vəzifə borcu olaraq SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Sovet İttifaqına danışıqlar aparmağa gəlmiş dövlət, hökumət başçıları, nümayəndə heyətləri rəhbərləri ilə görüşürdü. Qarşıda kimi qəbul etmək lazım olması – prezidenti, naziri, ya səfiri – məsələsi durmurdu, çünki tapşırıq Köhnə Meydandan gəlirdi: «İnformasiya qaydalarına uyğun olaraq» söhbətlərin yazısı da oraya – Sov. İKP MK-nə göndərilirdi. 3 sentyabr, 1985-ci ildə Heydər Əliyev Çin Xalq Respublikasının SSRİ-dəki səfiri Li Tszevanla söhbətinin mətnini MK-yə yollayır. Bu sənəd çox maraqlıdır. Ciddi mükalimələrin arxasında (görüşün mətnini SSRİ Xarici İşlər Nazirliyi I Uzaq Şərq şöbəsinin attaşesi Q.S.Longinov yazıya alıb və tərcümə edib) sanki Heydər Əliyevin özünü görürsən. Onun – nəhəng bir dövlətin elçisinin mövqeyində kompomisə aparan qərarların axtarışına hazırlıq da var, əgər qarşı tərəf başqa dilə keçirsə, cavab dərhal həmin anda gəlir, özü də dəqiq.

Orijinalı Rusiya Federasiyasının Dövlət arxivində saxlanılan bu söhbəti diqqətlə oxuyaq.

«3 sentyabr, 1985-ci il.

H.Ə.Əliyev: ...Düşünürəm ki, hazırda ölkələrimiz arasındakı münasibətlərin pisləşməsinə gətirmiş səbəblərin təhlilinə varmağa dəyməz, bununla qoy xələflərimiz məşğul olsunlar. Bizim qarşımızda duran məsələ isə bu günün problemlərini həll etmək və gələcəyə baxmaqdır.

Siz doğru qeyd etdiniz ki, son illərdə sovet-çin münasibətlərində, xüsusilə də ticarət-iqtisadiyyat sahələrində dəyişikliklər baş vermişdir. Təəssüf ki, bunun siyasət kimi mühüm sahədə hələ də olmadığını görməmək mümkün deyil. Sovet tərəfi

münasibətlərin qeyri-şərtsiz və ya maneəsiz* əsl normallaşması tərəfindən çıxış edir. Bu bizim sonrakı nəsillər qarşısında borcumuzdur.

Li Tszevan: Necə deyərlər, olan oldu, keçən keçdi. Bu gün keçmişi töküşdürməyə dəyməz... Həqiqətən də, bizim siyasi münasibətlərimiz praktik sahədən geri qalır. Amma «üç maneə» obyektiv mövcuddur və hər iki tərəf birgə çalışıb onları aradan qaldırmalıdır.

H.Ə.Əliyev: Bununla razılaşa bilmərəm. Özü də bu «maneələr» kim üçün sərfəlidir? Bu nə deməkdir: Amerika imperializmi ilə münasibətlərdə siz heç bir maneəni birinci plana çıxartmırsınız, bunlar sizə onlarla hətta intensiv hərbi nümayəndəliklər mübadiləsinə qədər dostluq münasibətləri qurmağa mane olmurlar. Siz darmadağın edilməsinin 40-illiyi ümumi bayramımız olan və hazırda militarizmi bərpa olunan Yaponiya ilə yaxınlaşırsınız. Bu kimi yaxınlaşma kimə sərfəlidir?

Sovet ittifaqı ilə sizə? Axı siz Sovet İttifaqını sosialist ölkəsi kimi tanıyırsınız. Bununla belə Çin bizimlə dostluq münasibətlərinin qurulmasına getmir. Hər dəfə məsələ «üç maneə»yə dirənir.

Li Tszevan: ...ÇXR ilə ABŞ arasında böyük maneə – Tayvan məsələsi – var. Bir vaxtlar Varşavada biz Amerika tərəfi ilə 18 danışıqlar apardıq və nəhayət istədiyimizə nail olduq: ABŞ yalnız bir Çinin – Çin Xalq Respublikasının olduğunu tanıdı və Tayvanın onun ayrılmaz hissəsi olduğunu bildirdi. Çin-sovet münasibətlərində isə «üç maneə» obyetiv olaraq mövcuddur və hər iki tərəf onların aradan qaldırılması üçün bacardığını etməlidir. Biz bir-birimizə tərəf getməli. Fərqli tərəflərə yönəlməməliyik.

H.Ə.Əliyev: Amma əsl həqiqətdə isə ABŞ Sizin Tayvan üzrə qeyd etdiyiniz razılaşmanı hər addımda pozur. Bununla belə bu, Çinə imperialist Birləşmiş Ştatlarla dostluq münasibətlərini inkişaf etdirməyə mane olmur... Biz bir-birimizə doğ-

---

*O illərdə Çin- Sovet ittifaqına qarşı bir sıra iddialar irəli sürmüşdü. – Çin tərəfinin formulasına görə bizim münasibətlərin normallaşmasının "üç əngəli" vardır. Söhbət Sovet qoşunlarının Monqolustanda yerləşdirilməsindən; Sovet ordusu kontingentinin Sovet-Çin sərhəddində gücləndirilməsindən; Kambocaya qoşun yeridən və Pol Pot rejimini devirən Vyetnama Sovet İttifaqının yardım etməsindən gedir.

ru irəliləməliyik və istəklərimizin səmimiliyi praktik əməllərlə dəstəklənməlidir. Sovet tərəfi bu yolla gedir və öz hissəsini başacan getmək niyyətindədir...

Li Tszevan: Amma bu günlərdə «Pravda»da Le Zuanın çıxışı verilmişdi və orada Çin «amerika imperializminin əlaltısı adlandırılmışdı».

H.Ə.Əliyev: Nə olsun, bu günlərdə «Jenmin jibao» Reyqanın sovet əleyhinə sözləri olan çıxışını çap eləmişdi. Gördüyünüz kimi, biz kommunistlərdən sitat gətiririk, siz isə imperialist dövlətin başçısından.

Li Tszevan: Mən bir səfir kimi tam gücümlə çalışacağam ki, SSRİ-də olduğum müddətdə yaxşılığa doğru əsaslı dönüş baş versin. Bütün Çin rəhbərliyinin istəyi də belədir» *(QARF.F.R-5456. Op. 52. D. 13. L. 100-105).*

Bu sənədi oxuyanda, unutmayaq ki, Əliyev partiyada, hökumətdə, dövlətdə yüksək mövqe tutsa da, Sov.İKP-nin sərt istiqamətinə bağlı idi və hələ də Çinlə ideoloji qarşıdurmadan (və yalnız ideoloji yox) uzaqlaşmaq üçün yollar axtarırdı. Onun dövlət başçısı olandan sonra Çinlə, ABŞ-la, Rusiya ilə danışıqları necə aparması isə başqa məsələdir. Görənlərin şəhadətinə görə Qərbdə də, Şərqdə də bu parlaq diplomatiya dərsləri idi. Və ən diqqətəlayiq cəhəti budur ki, Heydər Əliyev bu dərsi oğluna verib.

IV fəsil

SEÇİM

İnsanın mövcudiyyətinin ən böyük sirri ondan ibarətdir ki, onun öz gücünü tam göstərməsi üçün yalnız xeyir kifayət deyil, şər də lazımdır.

Nikolay Berdyayev

Onun yarı Mehribandır

«MDBMİ»nin məzunları arasında söhbət gəzirdi ki, İlham səfirliyə təyinat alacaq, hətta iki ölkənin adını da hallandırırdılar – İngiltərə, Belçika.. Belə təyinat xeyli nüfuzlu sayılırdı: Paris və London, Roma və Brüssel – gənc karyeristlərin ən əziz arzusu idi. Amma İlham Əliyev nüfuzlu ezamiyyətdən imtina elədi. Ata oğluna da, qızına da məsləhət gördü ki, ciddi şəkildə elmlə məşğul olsunlar. İlham doğma institutun aspiranturasına daxil oldu və parlaq şəkildə «Müasir mərhələdə Böyük Britaniyada anti-hərbi hərəkət və siyasi partiyaların ona münasibəti» mövzusunda dissertasiya müdafiə elədi» (Bu barədə sonra da danışacağıq). İlham tarix elmləri namizədi oldu.

Düşünmək olar ki, İlhamı Moskvada, atasının yanında saxlayan daha bir səbəb vardı. Belə şeylər barədə ailədə də həmişə söz açmırlar, üstəlik də kənardan müxtəlif variasiyalarla özgənin işinə qarışmaq əsla məqbul sayılmır. Amma hər halda bir müşahidəni bölüşək: ailə üzvləri də hiss eləyirdilər ki, Zərifə xanımın kefi yaxşı deyil, amma o çalışırdı ki, heç nəyi büruzə verməsin və İlhama məsləhət görürdü ki, ailə haqqında fikirləşsin.

* * *

Cənab Reyqan Sov.İKP MK Baş katibinin köməyi ilə «şər imperiyası»nı dağıdanda, «MDBMİ»nin aspirantı İlham Əliyev dumanlı Albionun tarixinə baş vururdu. Nelsonun Trafalqar yaxınlığındakı döyüşündən, Viktoriya dövründən, Çerçilin Fulton nitqindən daha çox onu şəxsi işləri maraqlandırırdı. İngilis ledilərinin obrazı alagözlü, qələmqaşlı gözəl bir qızın şəkillərinin kölgəsində qalmışdı ...

Bir dəfə kurs yoldaşlarından biri maraq göstərərək ondan soruşdu:

– Sən evlənmək haqqında nə düşünürsən?

İlham təbəssümünü gizlətməyə çalışaraq diplomatik cavab verdi:

– Bu məsələ ilə mənim anam məşğul olur.

Bu cavab dostunda anlaşılmazlıq oyatdı. Əlbəttə, necə ola bilər ki, bizim günlərdə son dərəcə şəxsi işini dünyada ən çox arzu olunan seçimini ananın öhdəsinə buraxasan?

Puşkin deyib ki, «İnsanlar arasında bir despotdur ənənə». Amma ənənədən ənənəyə fərq var, axı. Belə adətlər var ki, müdrik nəsillərin sınağından çıxıb, əziz tutulur, müqəddəs sayılır. Həyat yoldaşı seçimini tamamilə valideynlərin öhdəsinə buraxmaq olmaz. Amma onların rəyinə qulaq asmaq heç nəyə mane olmur. Köhnəlik qalığı? Konservativlik? Qoy belə olsun. Lakin ola bilər ki, sosioloqlar, çağdaş dünyada ailə krizisi üzərində baş sındıranlar, ailə ocağının yaradılmasında keçmişin qaydalarını yada salsalar, günaha batmazlar; bu əsla sönük rasionalizm deyil, son dərəcə canlı, ali duyğudur. Məhz valideynlərin örnəyi ilə qurulan ailələr, məhəbbətin həmişə qalib çıxan qüdrətindən xəbər verir.

«DTK»-nin ümidverən zabiti Heydər Əliyev etibardan düşmüş Əziz Məmmədkərim oğlu Əliyevin qızını sevib. Rəisləri dönə-dönə cavan zabitə məsləhət görüblər ki, əgər o öz xidməti ilə vidalaşmaq istəmirsə, gözdən, nüfuzdan düşmüş rəhbərin qızı ilə görüşməyə son qoysun. Məhəbbət, yoxsa karyera? Heydər Əliyev məhəbbəti seçib. Bırı ölməsə, birı dırılməz», – deyirlər. Stalin öldü... Respublikanın keçmiş «ağası» minlərlə, onminlərlə təqiblərin, məhv edilmiş ömürlərin, o cümlədən Əziz Əliyevin həyatına bais olmuş M.Bağırov mühakimə olundu.

Heydər Əliyev və Zərifə xanım gözəl ailə qurdular. Ailə qayğıları İlham və Sevilin anasının uğurla elmi işlər aparmasına, mərkəzi sahə jurnalının redaksiya heyətində çalışmasına,

dünya Sülh Komitəsində işləməsinə, görmə orqanlarının patologiyası ilə bağlı apardığı fundamental tədqiqatlara görə akademik Mixail İosifoviç Averbax mükafatı laureatı adını qazanmasına mane ola bilmədi.

Beləliklə, «MDBMİ»nin aspirantı kurs yoldaşının ailə qurmaq məsələsi ilə bağlı sualına diplomatik cavab verməsinə baxmayaraq, artıq öz seçimi barədə fikirləşirdi. Bu məsələdə «kurator» rolunu oynayan ana İlhamın seçimindən tamamilə razı qaldı: Mehriban Paşayeva.

«Öz əsrimdə mənim yaratdığım ən böyük əsər mənim ailəmdi». Bu, Paşayevlər nəslinin patriarxı – yazıçı, professor Mir Cəlalın sevə-sevə, tez-tez dilinə gətirdiyi ifadədir. Mehribanın atası, istedadlı fizik Arif Paşayev bu ailədə böyüyüb.

Arif müəllim öz məşhur atası, milli ədəbiyyatın klassiki kimi sadə insandı, mətbuatla öz arasında məsafə saxlayır, pedaqoji, elmi fəaliyyətini davam etdirir. Təbii ləyaqət duyğusu, bu sözün ən böyük anlamında ziyalılıq –Əliyevlər, Paşayevlər, İmanquliyevlər nəslinin alın yazısıdır...

İmanquliyeva Mehribanın anasının qızlıq soyadıdır: füsunkar gözəlliyə və məlahətə malik olan Aida xanım görkəmli jurnalist, Azərbaycan mətbuatının aparıcı simalarından biri, yüksək əxlaqı keyfiyyətləri ilə yaddaşlarda qalmış Nəsir İmanquliyevin (1911-1998) qızıdır.

Aida xanım təməlini babası Yusif bəyin qoyduğu, nəcib əməlləri ilə tanınan, kökdən gələn adət və ənənələri ata-anası yaşadan bir ailədə böyüyüb, ərəbşünaslıqla məşğul olaraq elmlər doktoru olub, şərqşünaslıq institutuna başçılıq eləyib. Bəsirətli alim kimi o, qərb və şərq sivilizasiyaların yaxınlaşmasını hiss eləyirdi, xalqlar və mədəniyyətlər arasında mənəvi körpülər atılmasına kömək eləyirdi. Səmərəli şəkildə, ilhamla çalışdı, amma nə yazıqlar ki, qısa bir ömür yaşadı, ömrün çiçəklənmə çağında dünyadan getdi.

Onun axtarışlarının mövzusu, elm aləminin predmetinə çevrilən ədəbi nümunələr intellektual qatlarda həyatiliyə açılması ilə diqqət çəkirdi, Aida xanım sufi, panteist, sakral və mücərrəd materiya arxasında mistik dünyagörüşün reallıqla bağlı nüanslarını və bağlarını axtarır, bu bağları açmaq istəyirdi. Onun transendental romantizm cərəyanının görkəmli nümayəndəsi ər-Reyhaniyə həsr olunmuş məqaləsində oxuyuruq: «Allah insanı öz substansiyasının ayrılmaz hissəsi hesab edir. İnsan isə həyatın, məhəbbətin, həqiqətin, müdrikliyin... mahiy-

yətidir». Beləcə, orta əsr klassikasının ali, ilahi məkanı arxasından insanın aliləşməsi, onun mənəvi ləyaqəti və ucalığının təsdiqi ideyası təzahür edirdi.

Mehriban xanım anasını xatırlayaraq qüssə və məhəbbətlə söyləyəcək: «...Bununla bərabər, o, son dərəcə güclü qadın idi, o, həm də çox xeyirxah, həssas bir xanımdı. O, harada olur-olsun, dərhal hamının diqqətini özünə çəkirdi. Mən onu həmişə öz yanımda hiss etmişəm, hətta xeyli uzaqda – Moskvada yaşayanda da. O, bu dünyanı tərk edən gün mənə elə gəldi ki, bir saatın içində yaşımın üstünə xeyli yaş gəldi.

Əlbəttə, həyat davam edir, amma müəyyən məqamlarda, – xüsusən də sevincli dəqiqələrimizdə, mən ona görə çox xiffət çəkirəm ki, anam yanımda deyil və mən öz sevincimi onunla bölə bilmirəm. Bu kövrək duyğular həmişəlik mənim qəlbimdə qalıb...»

* * *

26 aprel 1978-ci ildə Mir Cəlalın (Paşayev Mir Cəlal Əli oğlu) 70 yaşı tamam oldu. Azərbaycan KP MK-nin birinci katibi Heydər Əliyev Sov.İKP MK-ya yubileyi mükafatlandırmaq məqsədilə müraciət etdi. Mükafatlandırmaq barədə Qərarlar SSRİ Ali Soveti Rəyasət heyətində qəbul olunurdu, amma hər şey MK-də, Köhnə Meydanda həll olunurdu. Güman etmirik ki, orada – Azərbaycan nəsrinin canlı klassiki, əsərləri rus və bir sıra başqa dillərə tərcümə olunmuş yazıçının kitablarını oxumuş olsunlar və elə bu səbəbdən də Respublika KP MK-nin birinci katibi onun yaradıcılıq yolunu əhatəli şəkildə təqdim edir. Birinci beşilliyin zərbəçiləri haqqında kitablar, «Bir gəncin manifesti» romanı «Azərbaycan sovet nəsrinin ən qiymətli əsərlərindən biri»dir. Yazıçı tərəfindən Böyük Vətən müharibəsi illərində yaradılmış «Vətən haqqında hekayələr», «Vətən oğlu», «Silah qardaşları», müharibədən sonrakı illərdə isə –»Yeni şəhər», «Dağlar dilə gəlir» kitablarının adları bu kitablar haqqında çox şey deyir.

Mir Cəlal ədəbiyyat nəzəriyyəsinin və filologiya elminin inkişafına böyük töhfələr verib, – deyə Əliyev sözünə davam edir. – Filologiya elmləri doktoru Mir Cəlal Paşayev «Füzuli yaradıcılığının bədii xüsusiyyətləri», «Səməd Vurğunun poeziyası», «Cəlil Məmmədquluzadənin hekayələri», «M.F.Axundovun Şərqdə ardıcılları», «Azərbaycanda ədəbi məktəblər» kimi fundamental elmi əsərlərin müəllifidir.

Mir Cəlal fəal yaradıcılıq və elmi fəaliyyətini uğurla S.M.Kirov adına ADU-da pedaqoji işlə birləşdirir, professor, Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri olur.

Yoldaş Paşayev M.C.Ə. 1944-cü ildən Sov.İKP üzvüdür. O, «Qırmızı əmək bayrağı» ordeni (1967), iki dəfə «Şərəf nişanı» ordeni (1953, 1958) ilə təltif olunub. «Azərbaycan SSR-in əməkdar incəsənət xadimi fəxri adına (1969) və Azərbaycan Lenin komsomolu mükafatına (1968) layiq görülüb.

SSRİ Ali Soveti İdarə Heyəti Mir Cəlalı Lenin ordeni ilə mükafatlandırıb. Və bu yüksək mükafatı ona Heydər Əliyev təqdim edib.

* * *

Mir Cəlalın oğullarından biri 13 il ABŞ-da Azərbaycanı təmsil edib. Amerika konqresmenlərindən biri onun haqqında alim, diplomat kimi söhbət açaraq belə yazıb: «İngilis dilini mükəmməl bilən bu cavan oğlan bizim yaxın dostumuz Hafiz Paşayev ABŞ-a gələnə qədər bizim Azərbaycan haqqında heç bir təsəvvürümüz yox idi. Öz mədəni davranışı, yetkin biliyi ilə o, həm də Azərbaycanı bizimlə tanış etdi, bu ölkəni bizə sevdirdi».

Xalq şairi Bəxtiyar Vahabzadə öz xatirələrində sevimli müəllimi Mir Cəlal haqqında söhbət açaraq yazır ki, böyük vətəndaş, böyük yazıçı Mir Cəlalın yaradıcılıq örnəklərindən biri də Hafiz Paşayevdir. «Paşayevlər soyadının şəcərə ağacı müqəddəs imam Zeynalabdin ocağının işığından nurlanıbdır...»

* * *

1982-ci ildə Zərifə xanım Mehribanın valideynlərindən, onların qızının İlhamla izdivaca girməsi haqqında razılıq aldı. Adətə görə belə hallarda şirniyyat stolu açırlar, şirin çay içirlər. İndi də belə oldu.

Bu həyəcanlı səhnəni təsəvvür edək. Təntənəli süfrə arxasında iki ana, iki nurlu qadın. Yeni ailə haqqında sakit söhbət... Zərifə xanım təklif edir ki, xeyir işi ləngitməsinlər, toyu yubatmasınlar. Sanki ürəyinə damıbmış ki, yer üzündə yaşamaq üçün ona ayrılmış zaman kəsiyi ərimə yə başlayıb...

Toyu təvazökarcasına, cah-cəlalsız (Şərqdə tez-tez belə olur, yalnız Şərqdə yox), yalnız ən yaxınların iştirakı ilə etdilər.

Əliyevlər ailəsində ilk nəvə – füsunkar Leyla dünyaya gəldi. Baba da, nənə də ona pərəstiş edirdilər. Körpəyə İrəvan xanlarının nəslindən olan Leyla xanımın, ulu nənəsinin adını qoydular. Sonralar, Leyla böyüyəndə rus dilində şeir yazacaq və onu istəkli babasına həsr edəcək.

Göylər göz yaşından üzülür

İndi isə, hörmətli oxucu, Əliyevlər ailəsinin həyatında baş verən ən qara günlərdən biri haqqında danışmaq istəyirik. 17 aprel 1985-ci ildə Heydər Əliyev, İlham və Mehriban, Sevil və başqa doğmaları, yaxınları Zərifə Əziz qızını torpağa tapşırdılar.

Sov.İKP MK Siyasi bürosuna seçiləndən və İttifaqın Nazirlər Sovetinə təyinat alandan sonra Heydər Əlirza oğlu Moskvaya tək gəldi. Zərifə xanım elmi axtarışlarını yekunlaşdırmaq üçün hələlik Bakıda qaldı.

Artıq uzaqlarda qalmış müharibədən qabaqkı illərdə Moskvanı o daha tez görmüşdü, nəinki ömür yoldaşı Heydər Əliyev; o zaman Naxçıvanlı yeniyetmə Heydər üçün Sovet İttifaqının paytaxtında olmaq əlçatmaz bir şeydi. Zərifənin ailəsinin imkanları böyükdü və onlar qızlarını Moskvaya –dostlarının yanına yola salmışdılar. Zərifə tamam təzə təəssüratlarla qayıtmışdı, gur, gözəl saçları araqçının altına güclə sığışmışdı. O zaman onun onaltı yaşı vardı – bütün ömür qabaqda idi.

– O dəfə Moskvanı mən kəşf etdim, – Zərifə zarafatla ərinə dedi, – indi isə – sən...

«Mən hələlik Bakıda qalmışam, – deyə o Leninqrada – O.P.Dobromıslovaya yazırdı, – öz işimi, öz yetirmələrimi, çox böyük səmərə verən, maraqlı işimi atmağa təəssüflənirəm. Bakıda hələ çox işlər görmək lazımdır».

Və daha bir məktub:

«Mən hələlik Bakıda qalıram. Fikirləşirəm ki, ili başa vurum, sonra isə gedim. Bütün ailə oradadır. Uşaqlarımdan və nəvəmdən ötrü olduqca darıxıram».

30 yanvar, 1985-ci ildə Moskvadan yazılmış məktub:

«İndi Moskvadayam. Məni çox yaxşı qəbul etdilər. Çoxlu cəlbedici təkliflər oldu, amma mən qərarımı vermədim.. lakin hələ götür-qoy etməyə vaxt var».

Bu məktubu yazanda onun iki ay yarım ömrü qalıbmış.

Professor, tibb elmləri doktoru Z.M.Skripniçenko – onlar birlikdə təcrübələr aparmağa hazırlaşırdılar. Növbəti görüş 1984-cü ilin qışında – bağ evində baş tutmuşdu. «Onun xəstə vəziyyətinin görüntüsündən mənim ürəyim sıxıldı..»

Onlar sabah görüşməyə və öz müzakirələrini davam etdirməyə hazırlaşırdılar. Amma həmin sabah Zərifə xanımı xəstəxanaya apardılar. Bu onların son görüşü oldu.

Zərifə xanımın iri açılmış gözləri Alimlər evindəki portretindən hamıya baxır. Zərifə xanımı görənlərin, onunla ünsiyyətdə olanların çoxu «dil açmış gözlərdən», «son dərəcə ifadəli qonur gözlərdən, «iri, birbaşa adamın qəlbinə nüfuz eləyən ifadəli qonur gözlərdən» danışırlar. Onun gözləri hələ 1927-ci ildə, o uşaq ikən çəkilmiş şəkildə də dərhal diqqət çəkir. Telləri səliqə ilə kəsilmiş qız uşağı oyuncaqları sinəsinə sıxıb. Onun iri gözləri, zamanın ağlagəlməz dərəcədə uzaqlığından birbaşa sizə baxır. Sönməkdə olan ulduzun işığı kimi.

Alimlər evində Müslüm Maqomayevin səsində Üzeyir Hacıbəyov tərəfindən Nizami Gəncəvinin sözlərinə yazılmış ölməz bir romans səslənir:

«Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz...»

Bütün Qafqaz müsəlmanlarının şeyxi, başı çalmalı və uzun, bəyaz əbalı Şeyxül-İslam Quran ayələrindən birini – »Yasin»ı oxumağa başlayır. Alışmadığı şərait görünür ki, onu çaşdırır, səsi titrəyir. Əliyev bir anlığa cənazədən aralanaraq, başının hərəkətilə onu başa salır ki, öz işinin icrasına davam eləsin.

İlhamın gözlərindən qəm-qüssə yağır. Dünyanı anasız necə təsəvvür etmək olar. Bu müsibət atanı necə sındırmasın! İlhamın yanında bacısı Sevil dayanıb. İtki ağrısı, sevimli ana ilə əbədi ayrılıq onun kədərli mahnılarında öz ifadəsin tapacaq.

Xalq şairi Bəxtiyar Vahabzadə Zərifə xanımla vida dəqiqələrini yazıya belə alıb:

Bu bahar günündə yağmurlu göy də,
Bu gün için-için qan ağlayırdı.
Sənin matəminə Üzeyir bəy də
«Sənsiz»* in dililə yas saxlayırdı.

Dəfn mərasimindən bir həftə sonra Heydər Əliyev son illər artıq üçüncü yeni Baş katibin zamanında Leninin anadan

* «Sənsiz» – Üzeyir Hacıbəyovun məşhur romansı.

olmasının 115 illiyinə həsr ediləcək təntənəli yığıncaqda çıxış etməli idi. Qorbaçov təklif elədi ki, çıxışdan imtina etsin, guya öz nitqini növbəti ilə saxlasın.

– Yox, – Əliyev cavab verdi, – mən bu vəzifənin öhdəsindən gələrəm.

«Pionerlər» tufan əkdilər

Və elə həmin 1985-ci ildə Moskva Beynəlxalq Əlaqələr İnstitutunun aspirantı İlham Əliyev İngiltərədə antihərbi hərəkata həsr olunmuş namizədlik dissertasiyasını yekunlaşdırdı. Əgər Siz, bir oxucu olaraq, o illərin siyasi durumunu təsəvvür etmək üçün yalnız Sovet mətbuatının yazdıqlarını istinad etsəniz, dünyanı yalnız müharibə qızışdırıcılarının fitnə-fəsad meydanı və bir də ola bilsin ki, ayıq həyat tərzi uğrunda çevrə kimi təsəvvür edə bilərsiniz. Qəzetlər ABŞ-a, NATO-ya damğa basırdılar. «Komsomolka» kəsilib, Ağ evə göndərilməsi təklif edilən etiraz məktubu çap etmişdi. Vaşinqtondakı məmurların bir illik işi vardı – «Komsomolka»nın tirajı artıq 18 milyon nüsxəni keçmişdi. Real mənzərə isə təsvir olunandan bir qədər seçilirdi.

* * *

3 oktyabr 1983-cü ildə siyasi büro Oleq Qrinevskinin Avropada tərk-silah məsələsi ilə bağlı keçiriləcək konfransa nümayəndə heyətinin sədri kimi qatılmasını təsdiq etdi. Danışıqlar Stokholmda aparıldı. Nümayəndə heyəti başçısı təyin olunmaq, xüsusi tapşırıqla elçi getmək XİN dairələrində böyük nüfuz hesab olunurdu. Oleq Alekseyeviç «Dönüş. Brejnevdən Qorbaçova» adlı maraqlı qeydlər çap elətdirdi.

«Mən öz təyinatımdan sonra neynədim? Birincisi, – o yazır, – Avropada SS-20 raketlərinin yerləşdirilməsi qərarı arxasında hansı gizli məqsədlərin durduğunu öyrənməyə cəhd elədim. Belə fərziyyə yürütmək olar ki, SS-4 və SS-5 raketləri son dərəcə köhnəlib və onları yeni SS-20 raketləri ilə əvəz etmək lazımdır: bu raketlər mövcud hərbi tarazlığın bir hissəsidir və onların əvəz olunmasından imtina hərbi tarazlığın pozulması ilə nəticələnə bilərdi. Moskvada hesab edirlər ki, – görünür, düz eləyirlər, – burada Qərbin ciddi etirazı olmayacaq.

Bəs «pionerlərin» kütləvi surətdə yerləşdirilməsinə nə lüzum? Məntiqi cavab yoxdur.

1979-cu ildə Tokioya uçan Almaniya Federativ Respublikasının kansleri H.Şmidt yolüstü, qısa müddətə Moskvada əyləndi. Aeroportda onu Baş nazir A.N.Kosigin qarşıladı. Söhbət zamanı, – söhbət üçün də vaxt çox dar idi, – kansler diqqəti birbaşa SS-20 raketlərinin Avropada yerləşdirilməsinə yönəltdi və soruşdu ki, Sovet İttifaqının qəsdi nədir? Qoy Sovet İttifaqı «kartları açsın». Əgər o, onların (raketlərin başlıqlarının sayı nəzərə alınarsa) artıq Avropada yerləşdirilmiş SS-4 və SS-5 raketlərinin sayını məhdudlaşdırsa, hətta yeni raketlərin keyfiyyətinin yüksək olmasını nəzərə alaraq hətta sayını bir qədər azaltsa daha yaxşı olardı və bu da Qərbin narahatçılığına son qoyar və Avropa Amerikanın «Perşinq-2» raketlərinin yerləşdirilməsi məsələsi gündəmdən silinər.

Kosıgin Siyasi büronun növbəti yığıncağında Şmidtin bu təşəbbüsü barədə məruzə elədi və dedi:

– Bəlkə bu təklif üzərində fikirləşməyə dəyər?

Araya sükut çökdü və bu zaman bütün mövcud qayda və ənənələri pozaraq – əvvəlcə Siyasi büro üzvlərinin hamısının öz fikrini söyləməsini gözləmək lazım idi – xarici işlər nazirinin müavini Q.M.Korniyenko söz istədi. O, özü bunu belə xatırlayır:

– Mənim dediyim sözün məğzi qısaca ondan ibarət idi ki, Şmidt tərəfindən çatdırılan təklif bizim üçün məqbul kompromisə getmək üçün zəmin yaradır! Bundan ötrü Avropada yerləşdirilməsi nəzərdə tutulan SS-20 raketlərinin miqdarında azaltmaya doğru bır qədər dəyişiklik aparmaq lazım idi və bu, zənnimcə, bizim təhlükəsizliyimizə xələl gətirməzdi.

Ancaq dərhal müdafiə naziri D.F.Ustinovun kəskin tərzdə neqativ reaksiyası eşidildi:

– Sən bir işə bax! Gör bir nə istəyirlər? Həm planlarımızı açaq, həm də onu təshih eləyək?! Bəs kim zəmanət verə bilər ki, onlar bundan sonra öz planlarından əl çəkəcəklər?

Brejnev başa düşməyib, sual dolu nəzərlərlə Qromıkoya baxır, amma o baxışlarını masanın üstünə zilləyib susur, aşkarca görünür ki, Ustinovla münaqişəyə girmək istəmir, amma onunla yığıncaq öncəsi söhbətdən Korniyenko bu qənaətə gəlmişdi ki, Qromıko Şmidtin təklifinə neqativ münasibətdə deyil.

Beləliklə də sovet siyasəti orta mənzilli raketlər məsələsinin tənzimlənməsi şansını əldən verdi. O raketlərin Avropada yerləşdirilməsi elə sürətlə davam etdirildi ki, sanki Sovet İttifaqı Avropada müharibəni udmaq istəyirdi. 1983-cü ilin axırlarında orada artıq 243 SS-20 raketi yerləşdirilmişdi.

Birləşmiş Ştatlar da öz növbəsində sovet obyektlərinə Volqa çayı hüdudlarına qədər zərbə endirə bilən «perşinq» raketlərini Avropada yerləşdirməyə başladı. SSRİ-nin Qərb hissəsində yerləşən potensial hərbi və mülki obyektlərin 65 faizi raket təhlükəsi altında qaldı. Moskvanın taleyi isə xüsusi narahatlıq doğururdu». Bir sözlə, Qrinevski fikirlərini ümumiləşdirərək, son nəhayətdə bu qənaətə gəlir ki, «perşinq»in Avropada yerləşdirilməsi nəticəsində biz tamamilə məğlub duruma düşə bilərik, halbuki onların –»perşinq»lərin Avropada yerləşdirilməsinə Amerikalıları biz özümüz təhrik etmişik... 28 avqust 1983-cü ildə Andropov təklif etdi ki, ingilis və fransız raketlərinin sayından artıq olan bütün SS-20 raketlərini sökək. O, elan elədi ki, sökülmüş raketlər Asiyaya köçürülməyəcək, məhv ediləcək. Bu, əslində Şmidtin 1979-cu ilin yayında irəli sürdüyü təklifi ilə üst-üstə düşürdü. Ancaq... artıq gec idi».

Əlbəttə, qarşı tərəfdə də kifayət qədər «quzğun» var idi. Və onlar öz şanslarını əldən vermədilər. Bax, Avropada və o cümlədən İngiltərədə müharibə əleyhinə mübarizə belə bir siyasi mənzərənin fonunda güclənirdi.

* * *

Dissertasiyanın avtoreferatı elmi dərəcə iddiasında olanlar üçün vacibdir. Bu gün İlham Əliyevin 1985-ci ildə 100 nüsxə ilə çap olunmuş avtoreferatı – biblioqrafik nadirlikdir. Bu sənədi varaqlamaq maraqlı olardı. Beləliklə – «İndiki zamanda Böyük Britaniyada müharibə əleyhinə hərəkət və siyasi partiyaların ona münasibəti».

Avtoreferatların strukturu sərtdir. Dissertant *mövzunun aktuallığını* əsaslandırmalı, *dissertasiyanın məqsəd və vəzifələrini, predmetini* açıqlamalı, *elmi yeniliyi* göstərməlidir ...

Elmi yenilik nədədir? «...Sovet tarixi ədəbiyyatında ilk dəfə olaraq, – İlham Əliyev yazır, – 80-ci illərdə İngiltərədə müharibə əleyhinə keçirilən antihərbi hərəkatlar, baş verən proseslər təhlil olunur; müasir mərhələdə antihərbi təşkilatların əsas fəaliyyəti izlənilir, onların sülh uğrunda mübarizədə ak-

tual məsələlər üzrə mövqeyi göstərilir, müasir dövrdə antihərbi təşkilatlarda inkişaf etdirilən ideya axınları üzə çıxarılır. Müdafiə məsələlərində İngiltərənin bütün aparıcı partiyaların əsas mövqeyi, onların antihərbi hərəkatla əlaqəsi bu hərəkatda iştirakı da yeni tədqiqat mövzusudur.

İşin praktik əhəmiyyəti Böyük Britaniyada antihərbi hərəkatın inkişaf təcrübəsinin ümumiləşdirilməsində, onun zəif və güclü cəhətlərinin üzə çıxarılmasındadır. Ölkənin əsas partiyalarının xarici siyasət və müdafiə siyasəti məsələlərində mövqeyinə təsirinin xarakterini müəyyənləşdirmək işində də əhəmiyyət kəsb edir. Dissertasiyanın nəticələri Böyük Britaniyanın müasir beynəlxalq əlaqələr, xarici siyasət və ictimai hərəkatların inkişafı məsələləri ilə məşğul olan tədris, elmi və praktiki təşkilatlar və müəssisələr üçün əhəmiyyət kəsb edir».

Gənc alim Böyük Britaniyada antihərbi hərəkatların əsas mərhələlərini və tərkibini, sosial bazasını, müharibədən sonrakı dövrdə ingilis sülh hərəkatı tərəfdarlarının və onların fəaliyyəti nəticəsində meydana gələn antihərbi hərəkatın əmələ gəlməsini və inkişafını dərindən öyrənib. Onun diqqət dairəsində Böyük Britaniyada antihərbi hərəkatda ideoloji mübarizə, İngiltərənin birtərəfli qaydada nüvə silahından tərk-silah olunması barədə tələb, Avropada nüvəsiz zona yaradılması uğrunda hərəkat durur. Bu isə İlham Əliyev çıxışçılara istinadən deyir, – Avropada yeni Amerika raketlərinin yerləşdirilməsindən imtina və orta mənzilli sovet raketlərinin ləğv edilməsi deməkdir. O illərin real şəraitində müəllif «Qərb mətbuatının təsiri altında antihərbi hərəkat iştirakçılarının bir hissəsi arasında yaranmış inamsızlığı» təqdim edir. Dissertasiyanın sonunda Böyük Britaniyanın əsas partiyalarının – mühafizəkarlar, liberal, sosial-demokrat, leyborist partiyalarının, həmçinin həmkarlar ittifaqlarının və kommunist partiyasının müharibə əleyhinə hərəkatda müfəssəl, elmi təhlili verilir.

Tədqiqatçı öz tədqiqatının nəticələrini kütləvi informasiya vasitələrinin Kremldən diktə olunan hakim ideolojiyaya müvafiq sxemlərə uyğunlaşdırmır. O, bir alim kimi çalışır ki, obyektiv mənzərə yaratsın. Yazır ki, (tərk-silah uğrunda) «bərabər məsuliyyət» tezisi bir sıra antihərbi təşkilatlarda dəstək qazanıb. Lakin... «hərəkatın nüvəsi, Amerikanın qanadlı raketlərinin İngiltərədə yerləşdirilməsinə, «Traydent» sistemlərinin alınmasına, ölkələrin, Amerika imperializminin aqressiv avantürist mövqeyinə qarşı çıxış edir».

Zənnimizcə, politoloqlar və siyasətçilər, alimlər bir sözlə Yer üzərində, evinin damı üstündə aydın səmanı əziz bilənlərlə bu tədqiqata dönə-dönə müraciət edəcəklər. Doğrudur, son iyirmi ildən artıq dövrdə sülhə təhlükə azalmamışdır. Əksinə... Bütün dünya qaynar ocağa çevrilib, amma bəşəriyyəti bu yanğından xilas etmək hələ gec deyil.

Kremlin pərdə arxası

Anatoliy Sergeyeviç Çernyayev 1921-ci ildə anadan olub. Öyünməyə haqqı var: Moskva universitetinin tarix fakültəsinin üçüncü kursundan könüllü olaraq cəbhəyə gedib... Təhsilini qələbədən sonra tamamlayıb. Özünü bir o qədər də yormayıb. Praqada müxtəlif dillərdə nəşr olunan «Dünyanın və sosializmin problemləri» jurnalı üçün məqalələr redaktə eləyib. Sov.İKP MK-nın Beynəlxalq şöbəsində çalışıb, 1986-cı ildən 1991-ci ilə kimi Sov.İKP MK Baş katıbının, sonra SSRİ Prezidentinin köməkçisi olub. Və elə indi də eks-prezidentin arabasında – «Qorbaçov fondunda»dır.

Kreml qocaları ilə yaxından tanış olduqdan sonra öz gələcək şefinə aşıq olub. «14 apreldə (1984) MK plenumu keçirildi, – deyə Çernyayev «Qorbaçovla altı il» kitabında yazır. – Brejnevin dövründə olduğu kimi Çernenkonun ünvanına da tərifl ər deyilirdi, alqışlar qopurdu. Amma bu tərifl ər, alqışlar daha riyakarcasına və iyrənc səsl ənirdi. Əgər insana «bu lazımdırsa, əgər o və onun ətrafındakılar hesab edirlər ki, hökuməti idarə etmək üçün «bu lazımdır» və «düzgün yol budur», onda yenidən «brejnevçiliyə» yuvarlanmamağımız bir möcüzə olardı».

29 apreldə MK Katibliyinin növbəti iclasında idim. Fövqəladə bir şey olmadı. Amma yenə Qorbaçova baxa-baxa həzz aldım: çevikdi, hər hansı mövzuda olan söhbətə dərhal qarışa bilir və bununla yanaşı görünür ki, çıxışa hazırlaşır, səriştəlidir, özünə güvənir, sualın məğzini tuta bilir, çərənçilikdən uzaqlaşmağı, çıxış yolu tapmağı, düzgün yolu göstərməyi, amma eyni zamanda hədə gəlməyi də, yerində oturtmağı da bacarır. Xasiyyətcə də şəndir. Bir sözlə, bizdə «əvəz» var.

Məhz belə də yazıb – «əvəz». Dırnaq arasında.

«Qorbaçovla altı il» kitabı 1993-cü ildə Moskvada nəşr olunub. Dərhal boynumuza alaq ki, o zaman heç birimiz

(kitabın müəllifləri nəzərdə tutulur) bu kitabı oxumamışıq. Və elə bu səbəbdən də Moskvalı müəllif oxucuların indi də xoşluqla xatırladıqları «Leninka»ya – Rusiya Dövlət kitabxanasına sifariş verdi. 13-cü səhifədə, Çernyayevin yenidən Qorbaçova baxıb heyran olduğu yerdə kiminsə iri nida işarəli qeydi var: «Yaltağa bax!»

Çeynyayev inanır ki, altı il dünyanın ən qüdrətli dövlətlərindən birinə başçılıq edən Qorbaçovun dünya tarixinin ən böyük reformatorları sırasında yer tutmağa haqqı var. O, qayanı yerindən *tək* (fərqləndirmə müəllifindir) tərpətdi. «Şəxsi həyatını, taleyinə yazılmış uğurlu siyasi karyerasını və maddi vəziyyətini nəhəng risk altına qoyaraq özü buna getdi».

Qəribə şəhadətdir! Belə çıxır ki, Baş katib-prezident özünün siyasi və maddi durumunu risk qarşısında qoyub. Amma nəticədə cənab – yoldaş kapitalını xeyli artırıb. Onun qızı açıq şəkildə özünü öyür: bazar iqtisadiyyatına uyğunlaşa bildik. Qoçaqdırlar... Amma «Sovet cəmiyyəti adlandırılan» qaya dağdan aşağı dığırlandı, qanlı qəlpələrə parçalandı.

Çeynyayev Qarabağ haqqında ətraflı yazır, Baş katibin 1988-ci ilin martında, Sumqayıt hadisələrindən dərhal sonra Siyasi büroda səsləndirilmiş mövqeyini xatırlayır.

– Yoldaşlar, bu gün bizim qarşımızda bütün ölkə həyatının, onun taleyinin ən mürəkkəb məsələlərindən biri durur, – Qorbaçov dedi. – Milli məsələlərdə heç bir zaman bəsitləşdirilmiş cavablar olmur və heç zaman da olmayacaq... Bəli, qətiyyətlə hərəkət etmək lazımdır, kişi kimi, cəsarətlə. Amma necə gəldi yox. Milli məsələdə bu yolla hər şeyi məhv etmək olar...

Sonra Baş katib bir qədər günahlarını etiraf etdi:

– Milli problemlər lazımi səviyyədə öyrənilməyib, neqativ hadisələrin kökləri, keçmişdə onların necə aradan qaldırıldığı tədqiq olunmayıb. Hər şey başlı-başına buraxılıb...

Götürək elə Azərbaycanı, Əliyevin fəaliyyətini. Onun vəzifədə olduğu on beş ildə biz bu regionda nələr itirmişik! Bax bu yerdə millətçilik işə düşüb, rəhbərliyin mənəvi hörmətdən düşməsi ilə bağlı sosial-siyasi mənşəli hadisələrə əlavə olunub. Bəli, biz Azərbaycan KP MK-də və Ermənistan KP MK-də rəhbərlik böhranı olduğunu deyə bilərik. Demirəm ki, bizim onlara rəhbərlik etməmizdə də böhran var. Amma düşünməyimizə əsas var.

* * *

Hələlik Baş katibi bir yana qoyaq, qoy yoldaşları qarşısında mənəviyyatdan ağzına gələni üyüdüb töksün. Biz isə onun müxtəlif illərdə dediklərini bir araya gətirək və soruşaq: haçan Mixail Sergeyeviç daha səmimi olub?

19 oktyabr 1987-ci ildə Kremldə SSRİ Ali Sovetinin sessiyası açıldı. Rəyasət heyətində – Ali Sovetin palata rəhbərləri, hökumət, siyasi Büro üzvləri oturmuşdular.

«Kimsə gəlir, kimsə gedirdi, – Heydər Əliyeviç həmin günləri belə xatırlayır. – Qorbaçov düz mənim qarşımda oturmuşdu. Gördüm ki, o yerindən qalxdı və zaldan çıxdı. Onun ardınca Liqaçov da dikəldi və başının hərəkəti ilə Rıjkova işarə elədi ki, o da gəlsin rəyasət heyəti otağına. Orada biz iclasa qədər cəmləşərdik, fasilələrdə çay içərdik. Bir qədər sonra məni də dəvət etdilər.

Qorbaçov mənimlə danışmağa başlayaraq dedi ki, onun fikrincə, mən Siyasi bürodan və Nazirlər Sovetindən getməliyəm. Mən dedim, bunu nə üçün etməli olduğum səbəbi bilmirəm. Mən hesab etmirəm ki, getməliyəm, yox, əgər siz belə hesab edirsinizsə, onda etirazım yoxdur. «Onda siz söyləməlisiniz ki, biz bilək: səhhətinizlə bağlı, yoxsa öz xahişinizlə gedirsiniz?».

Fasilədə evə getdim. Oğlum və qızım evdə idilər. Vəziyyəti onlara izah etdim. Afərin onlara! Dedilər: ata, sən narahat olma, burada nə var ki...

Axşam Qorbaçova yaxınlaşaraq dedim ki, mən gedirəm. Bəli, mən gedirəm və elan edə bilərsiniz ki, səhhətimə görə gedirəm. O yerindən qalxdı, məni qucaqladı, öpdü və dedi: «Çox sağ ol, Heydər Əliyeviç!»

Qarabağ

18 fevral 1988-ci ildə Qorbaçov politoloq, alim Georgi Xosroyeviç Şahnəzərovu özünə yeni köməkçi vəzifəsinə təsdiq etdi. Çətin ki, erməni yazıçısı və publisisti Zori Balayan məhz həmin gün qəbul üçün müraciət etmiş olsun. «Mən onu «Literaturnaya qazeta»dakı maraqlı çıxışlarına görə tanıyırdım», – Şahnəzərov özünün «Azadlıq günü» kitabında yazır, – və bu səbəbdən də onun görüşmək təklifinə həvəslə yanaşdım, zənn etmirdim ki, söhbət Qarabağdan gedəcək. Ancaq qonağı yalnız bu məsələ həyəcanlandırırmış.

Onun hətta cənublular üçün də son dərəcə qarabuğdayı, arıq sıfətinə, qıyıq gözlərinə baxanda, anlamaq olardı ki, bu adamdan ötrü onun çoxlu sayda soydaşları kimi, Qarabağın Ermənistanla birləşdirilməsi sadəcə istək deyildi, ölüm-dirim məsələsi idi.

...Onları heç cür inandırmaq olmur ki, bu məsələdə kompromis qərar axtarmaq lazımdır. Vaxtı çatıb, indi ya da heç vaxt! – Balayan, Ter-Petrosyan və onların ardıcılları məsələni milli zəmində belə qələmə verdilər və bu niyyətin ifadəçisinə çevrildilər.

Lakin Sov.İKP MK Baş katibinin köməkçisinə – «əslən qarabağdan olan, ruslaşmış ermənіyə, Bakı əhlinə» (o, özü haqqında belə yazır) bu aid deyildi? Bəyəm öz həmyerlilərinə bəlkə də hamıdan öncə «kompromis qərar axtarmaq lazımdır» söyləyən o deyildimi? Yox, o, Balayanın xahişini Baş katibə çatdıracaq, şairə Silva Kaputikyanla birlikdə qəbul olunmaq niyyətlərini bildirəcək. «Belə bir görüş 26 fevralda baş tutdu və hadisələrin sonrakı inkişafında az rol oynamadı», – Georgi Şahnəzərov qeyd edir. Sovet dövrünün ən mötəbər tarixçilərindən və siyasətçilərindən biri olan Valentin Falin sonralar Şahnəzərovun fəaliyyətini dəyərləndirərək yazırdı: «Onun ideyalarının cövhəri bu mənanı kəsb eləyirdi: azadlığın qiyməti – Sovet İttifaqının dağılmasıdır».

1988-ci ilin fevralında Dağlıq Qarabağ Muxtar Vilayəti hökuməti Azərbaycan SSR-in tərkibindən çıxmaq haqqında qərar qəbul etdi. Bu etnik münaqişə zəminində zəncirvari yanğına səbəb olacaq fitil idi.

Çoxlu sayda nəşrlərdən, o cümlədən «Heydər Əliyev» kitabından məlum olan hadisələrin xronikasını bir tərəfə qoyaq. Bir vaxtlar tam məxfi olmuş üç sənədə nəzər salaq.

Birincisi, «Azərbaycan SSR-də və Ermənistan SSR-də ictimai qaydaları bərpa etmək üçün təcili tədbirlər haqqında» Sov.İKP MK-ya məktubdur.

«Azərbaycan və Ermənistan müttəfiq respublikalarında Dağlıq Qarabağ ətrafında hadisələrin inkişafı get-gedə daha təhlükəli şəkil alır. Tətil hərəkatı genişlənir, icazəsiz mitinqlər və nümayişlərin sayı artır. Onların iştirakçılarının çıxışları və hərəkətləri get-gedə daha aqressiv və nəzarətə gəlməyən olub, kütləvi itaətsizliyə çevrilir.

Yaranmış vəziyyətdə mövcud hüquqi vasitələrlə bu antiictimai hərəkətlərin qarşısını almaq mümkün görünmür.

Bununla əlaqədar olaraq müvəqqəti tədbir qisimində SSRİ Ali Soveti Rəyasət heyətinin ictimai asayişin qorunmasını təmin edən qüvvələrə bu kimi qeyri-qanuni hərəkatların təşkilatçıları, təhrikçiləri və fəal iştirakçılarını təcrid etməyə imkan verən Qərarının qəbul edilməsini lazım bilərdik.

Sov.İKP MK bu məsələ üzrə qərarının layihəsi əlavə olunur.

23 noyabr 1988-ci il.

A.Yakovlev
V.Çebrikov
Q.Razumovski
A.Lukyanov»

Məktubun üzərində Qorbaçovun «lehinə» dərkənarı var *(RQANİ. F. 89. Op. 4. D. 5. L. 1-5).*

İkinci sənəd – elə həmin gün, 23 noyabrda tarixli Sov.İKP MK-nın «Azərbaycan SSR-də və Ermənistan SSR-də ictimai qaydaları bərpa etmək üçün təcili tədbirlər haqqında» qərarı: «SSRİ Ali Soveti rəyasət heyətinin mövcud məsələ üzrə fərmanının layihəsini təqdir etmək (əlavə edilir) *(«RQANİ F.3.On 102. D.1058.L.22-26).*

Və nəhayət, çeşidli dördlüyün israrlı olduğu təcili tədbirlər haqqında fərmanın layihəsi:

«1. Daxili işlər orqanlarının və daxili qoşunların SSRİ Daxili işlər naziri tərəfindən məsul edilmiş vəzifəli şəxslərinə komendant saatı tədbiq edilmiş yerlərdə və yaşayış məntəqələrində öz hərəkətləri ilə milli ədavəti qızışdıran və ya ictimai qaydaların pozulmasını təhrik edən, yaxud antiictimai hərəkətlərə məcbur edən, həmçinin vətəndaşlara və vəzifəli şəxslərə öz qanuni hüquq və vəzifələrini icra etməyə mane olan şəxsləri inzibati qaydada 30 günə qədər saxlamaq hüququ verilsin.

2. Müəyyən edilsin ki, bu Fərmanın birinci bəndinə əsasən saxlanılmış şəxslər SSRİ Daxili işlər nazirliyinin xüsusi təcridxanalarında və ya SSRİ Daxili işlər naziri tərəfindən müəyyənləşdirilmiş başqa yerlərdə qanunla müəyyənləşdirilmiş qaydalara əsasən saxlanılsın.

3. Bu Fərman 24 noyabr 1988-ci ildən qüvvəyə minsin»

Layihə fərmana çevrildi.

Baş katib prinsipiallığı qoruyub saxlamağa, özündən çıxmamağa, əsəblərini və emosiyaları cilovlamağa çağırdı. Süni surətdə düşmənlər yaratmamağa...»

* * *

Köməkçi şefinin mülahizələrini öz gündəliklərində şərh eləyir: «O, milli məsələlərə münasibətdə çox əxlaqlı və səmimi, dürüst idi...» Və hətta «xoşməramlı» ifadəsindən də istifadə olunub. Əlavə edək: cəhənnəmə aparan yol «xoş məram»lardan salınıb. Baş katibin köməkçisi özünə sual edir, bəs nə üçün, burada hər şey – onun baxışları, əqidəsi və səmimi cəhdləri ilə müqayisədə «tərsinə» alındı?

Onun fikrincə, Qorbaçovun özü tərəfindən əta olunmuş «söz və əməl azadlığı»ndan təkan alan hadisələrin obyektiv inkişafı artıq hakim partiya siyasətinin metodologiyasını rədd etməyə başlamışdı. Onun özünə qalsa, başqa cür hərəkət edər, daha «tarazlaşdırılmış», daha «düşünülmüş» gediş edərdi.

«Bunun üçün hələ Qarabağ böhranı yenicə yaranan və Azərbaycan millətçiliyi dərin yuxuda olan, hər halda «heç cür təşkilatlanmamış olan» 1986-cı ildə Qarabağı Ermənistana vermək lazım idi, – Çernyayev yazır. – Sonra isə iki suveren dövlət öz aralarında məsələni çözərdilər. Bəlkə yenə də qansız ötüşməzdi, amma onda bu xaotik vəziyyət, ara verməyən qırğın-qada, illərdən bəri davam eləyən və haçan sona çatacağı bilinməyən hadisələr 1986-cı ildə Qarabağın erməni xalqına «ötürülməsilə» sonuclanardı. Amma bu məsələdə M.S.-in bir qayda olaraq irəli sürdüyü dəlil məna kəsb eləyirdi, o deyirdi ki, tutaq ki, Qarabağı «verdilər», bəs onda Azərbaycanda yaşayan yarım milyon erməninin taleyi necə olsun?! Necə olsun? Hər şeyin necə olması göz qabağındadır. Cəhənnəm əzabına gətirib çıxaran hadisələr neçə illərdir ki, uzanır.

Qorbaçov Qarabağda Muxtar Respublika yaradılması ideyası ilə razı idi. Budur onun mülahizəsi: «...O ki, qaldı DQMV-nin muxtar respublikaya çevrilməsinə, bunu da onlar özləri (daha doğrusu, Ermənistanın və Azərbaycanın parlamentləri) müzakirəyə qoyub həll etməlidilər. Belə ki, bizim vicdanımız təmizdir. Heç bir qərəzimiz də yoxdur. Bu qayda ilə də davam edəcəyik». Amma orası da var ki, bütün bu mülahizələr Sumqayıt hadisələrindən sonra, 6 iyun 1988-ci ildə söylənilmişdi».

Əlbəttə, oxucunun diqqətindən yayınmadı: bu böyüklükdə deyimdə elə həmin ərəfədə Ermənistandan qovulmuş yüz minlərlə azərbaycanlının taleyi haqqında bir kəlmə də olmadı. Kremldən onlar gözə görünmürdü...

Çernyayev özünün «Mənim həyatım və mənim zamanım» adlı digər kitabında köməkçilərinin Brejnevə necə şeytançılıq etməsindən danışır.

«Misal üçün. Zavidovoda Brejnevin Sov.İKP XXV qurultayında edəcəyi məruzə üzərində işləyirik. Kapitonov ideoloji fəaliyyət də daxil olmaqla, partiyanın təşkilati işi ilə bağlı bölmənin layihəsini göndərir. Brejnev onu rədd etdi, ucadan oxunuş zamanı isə dönüb-dönüb özündən çıxırdı. Məsələn, biz, o deyirdi, Şelesti Ukraynada, Mjavanadzeni Gürcüstanda, bundan əvvəl isə Əliyevi Bakıda, Koçinyanı Ermənistanda işdən çıxartdıq. Özü də elə ideoloji işə görə. Amma Kapitonovun mətnində bu barədə heç nə yoxdur. Və ümumiyyətlə, ideoloji sahədə necə işləmək lazım olduğu göstərilməyib...

Biz «ideoloji sahədə necə işləmək» mövzusundan həm də MŞK-nin bu sahə üzrə katibi, qatı stalinçi və qaragüruhçu Yaqodkini yıxmaq üçün istifadə etdik... Axı bu kimi adamın ziyalıların qarşısında partiyanı təmsil etməsi bilavasitə ziyankarlıqdır! Hamı ondan lələdağlıdır. Özü də bu arada «Novıy mir» jurnalında partiyanın mədəniyyət siyasəti haqqında məqalə çap etdirib. Bu ki, XXIV qurultayın ana xəttinə qarşı çıxmaqdır. Belə adamı XXV qurultaydan sonra da belə vəzifədə saxlamaq olmaz.

Brejnev sakıtcə dınləyərək bir-bir hamımıza göz gəzdirdi. Dedi: «Aydındır, Moskvaya qayıdanda Qrişinlə danışaram».

Danışdı. Və «Yaqodkin ümumiyyətlə siyasi üfüqlərdən qeyb oldu».

1968-ci ildə Çexoslovakiya hadisələrindən sonra Çernyayev MK-dan uzaqlaşmaq fikrinə düşür, amma ürək edə bilmir. Və özünün dediyi kimi, «ikibaşlı rejimdə» işləməkdə davam etdi. Bır əli ilə rəhmət, bir əli ilə lənət yazırdı. İndi də, arxaya nəzər salanda hesab edir ki, hələ 1990-cı ilin yayı və payızında «partiya və sosialist ideologiyası ilə üzləşmək, hakimiyyəti köhnə qaydalarla həyata keçirməkdən əl götürərək, parlamentə yeni seçkilər keçirmək, Sovet İttifaqından imtina etmək» lazım idi.

Yeri gəlmişkən, memuarçının dəqiqliyi barədə. Sov.İKP MK-nın XXV qurultayı 1976-ci ilin martında keçirilmişdi. Azərbaycan KP MK-nin birinci katibi qurultayda çıxış edərək tam əsasla dedi:

– Yerinə yetirilmiş borc hissi ilə bildiririk ki, Azərbaycan qarşısında qoyulmuş vəzifələr uğurla həyata keçirilmişdir. İqti-

sadiyyatda yer almış uzunmüddətli gerilik aradan qaldırılmış və onun inkişafında əsaslı dönüş yaradılmışdır. Uzun illər ərzində ilk dəfədir ki, əsas iqtisadi göstəricilər üzrə beşillik plan yerinə yetirilmişdir və vaxtından əvvəl yerinə yetirilmişdir! Azərbaycan xalq təsərrüfatının artımında əvvəllər bizdə heç vaxt olmayan yüksək sürətə nail olmuşdur.

Bəli, Leonid İliç bu zaman artıq unutqanlığa başlamışdı, bir də görürdün ki, kimi isə tanımadı, amma Əliyev də Bakıda işdən çıxarılıb deyə bilməzdi. Əliyevi Qorbaçov uzaqlaşdırdı. Baş katıbə Heydər Əliyevin müstəqil xarakteri, fikir sərbəstliyi, bütün ölkəni başına almış yeniliklərə ayıq münasibəti mane olurdu.

Əliyevə qarşı hücum tədriclə hazırlanmışdı. Və böyük siyasətdə çox vaxt olduğu kimi özgə əllərilə. Özü də «nəcib məqsədlər» adı altında.

...11 may 1987-ci il. Bazar ertəsi. Bayramdan sonra ilk iş günü. 1978-1982-ci illərdə Əliyevin cangüdəni, 1982-1988-ci illərdə SSRİ DTK-nin məşhur «doqquzuncu» bölməsində Əliyevin şəxsi mühafizə dəstəsinin rəisi olmuş Aleksandr İvanov xatırlayır:

– O sabah mən Heydər Əliyevi həmişə olduğu kimi səhər saat 6-da oyatdım (Azərbaycan SSR DTK-də işlədiyim zamanlardan yadımdadır ki, o bir qayda olaraq, günün bu çağı hava şəraitindən asılı olmayaraq durub idman edirdi). Saat 9 üçün onu Kremlin I korpusuna apardım. O, adi səhər yeməkləri sifariş verdi – kəsmik, kaşa, südlü çay. Bir qədər keçəndən sonra dedi ki, ona istidir. Köynəyinin düymələrini açdı və çalışdı ki, uzansın. Amma vəziyyəti pisləşdi. Əliyev katibliyin müdiri Valeri Qridnevi, o da öz növbəsində Nazirlər Sovetində növbətçi olan həkimi, o da mövcud qaydalara uyğun olaraq Səhiyyə nazirliyinin 4-cü idarəsindən altı mütəxəssisi çağırdı. Bundan sonra briqada gəldi, Əliyevin ürəyinə birbaşa iynə vurdular. Əliyev özü «təcili yardım» maşınına qədər gedir. (Başqa bir versiyaya görə, Heydər Əliyeviç «Təcili yardım» maşınına qədər özü getmək istəsə də, yalnız dəhlizə qədər çıxa bilir. Sonra onu xərəkdə aparırlar). Mən xəstəxanaya gələndə onun huşu özündə deyildi və bu hal dalbadal iki gün davam elədi. Heydər Əliyevlə işlədiyim müddətdə hələ bir dəfə də olsun onun xəstələndiyini görməmişdim. O demək olar ki, spirtli içki içmir, siqaret çəkmirdi.

Sonra Heydər Əliyev mənə dedi ki, pristupdan sonra iynə vurulanda anlaşılmaz hallar keçirməyə başlayıb. Xeyli sonralar o, artıq Azərbaycanda olarkən dəfələrlə müsahibələrində anladıb ki, baş verən o hadisə yeni Baş katiblə münaqişənin nəticəsi idi. 4-cü idarə tibb işçilərinin başlıca vəzifəsi isə rəhbərliyə xidmətdir. O gün növbədə olan xörəkpaylayan qızlar 100 faiz yoxlanılmışdı. Ancaq xüsusi mətbəxin fəaliyyəti başqa şöbənin nəzarəti altında idi. *(Sayt «Rassledovanie». ru)* və Sevil Əliyeva hələ də «fikirləşir ki, bütün bunlar qəsdən təşkil olunmuşdu».

(*Elmira Axundovanın müsahibəsindən*)

Əliyevə Azərbaycanın rəhbərləri – Bağırov və Seyidov baş çəkdilər. SSRİ Rabitə naziri Konarev də xəstəxanada göründü. Bəs onun siyasi bürodakı silahdaşları? Doğrudanmı, adi insani duyğular onlara tanış deyil? Doğrudanmı, onların dünyasında yalnız «faydalanmaq» mövcuddur? Görünür, elə belə idi. Yalnız Nikolay Alekseyeviç Rıjkov xəstəxanaya – onun yanına gəlmişdi. Aleksandr İvanov o görüş haqqında:

– İllər keçəndən sonra Əliyev mənə dedi: «Əgər desəm ki, o zaman Nikolay İvanoviç xəstəxanaya, mənim yanıma gələndə, onun bunu özünü yüngülləşdirmək məqsədilə etdiyini düşünmüşdüm. İndiki kimi xatırlayıram, hansısa xarici dövlətin baş nazirini yola salmışdı və elə oradan da xəstəxanaya zəng vurmuşdu ki, hazırda müalicə proseduru yoxdursa, gəlib mənə baş çəksin. Və gəlmişdi. O, çox minnətdar idi, sonralar etiraf etdi ki, gümanında yanılmışdı.

Qorbaçov məqsəd qoymuşdu ki, ətrafındakıları təmizləsin.

Və Liqaçov da ona fəal surətdə kömək eləyirdi. Onlar addımbaaddım meydanı təmizləyirdilər. Bütün bunlar yaxşı deyildi. Yaramazlıq idi.

Nikolay İvanoviçin yaddaşında belə bir əhvalat həkk olmuşdu.

– Əliyevin oğluna, ya qızına mənzil lazım idi. Ailəsinə yaxından bələd deyildim, arvadı ilə bir, ya iki dəfə qarşılaşmışdım, mənim Lyudmilam Zərifə xanımı məndən yaxşı tanıyırdı. Bir sözlə, oğluna, ya qızına mənzil gərəkdi. Və biz qərar çıxartdıq ki, əvvəllər «Oktyabr» mehmanxanası adlandırılan, indiki «Prezident oteli»nin yaxınlığındakı yeni binada mənzillə təmin etsinlər. MK-nın işlər idarəsi və Nazirlər Kabineti evləri dəyişirdilər və bir yerdə işləyirdilər. Nə isə, mənzili ayırdılar və birdən Əliyev gəldi ki, bəs, guya etiraz ediblər. Mən

MK-nın İşlər İdarəsinə – Kruçinə zəng vurdum: «Nikolay İvanoviç, sən nə edirsən?». Deyəsən o bu işdən yorulmuşdu. «Bura bax, bu ki, ləyaqətsizlikdi, Əliyev dünən Siyasi Büronun üzvü idi, o Nazirlər Soveti sədrinin birinci müavini olaraq qalır, ailə təzə mənzilə köçməyə hazırlaşır. Biz səninlə Moskvaya bir yerdə gəlmişik, MK-da bir yerdə işləmişik». –»Elədir ki, var, Nikolay İvanoviç, bəyəm mən başa düşmürəm». – »Bu, nə hoqqadı?»

Elə o anda zəng edirəm Smirtyukova. Bir sözlə, məsələni həll elədik...

– Lakin məlum məsələdir ki, bu işi ləngidən nə Kruçina, nə də Smirtyukov idi.

– Əlbəttə. Belə bir gün də yadımda qalıb. Əliyevi vəzifədən azad edəndən sonra, biz ikilikdə üç saat oturub, çox səmimi şəkildə söhbət etdik. Dedim ki, mənim seyfimdə kağızlar var... Mən onları varaqlamışam...

– Nikolay İvanoviç onları kimin yazdığını mən bilirəm. Belə kağızlar Sizin də seyfinizdə var, Qorbaçovun da, Yakovlevin də... Bu şərəfsiz insanların qisasıdır.

* * *

O illərdə SSRİ Nazirlər Soveti sədrinin müavini işləmiş Yuri Petroviç Batalin Moskvada Əliyevlə son görüşlərindən birini belə xatırlayır:

– Bu görüş Miçurin prospektindəki xəstəxanada, onun istefasından sonra olub. Biz, həmişə olduğu kimi gülərüzlə görüşdük, söhbət etdik. O zaman Heydər Əliyeviçin görünüşü o qədər də yaxşı deyildi, xeyli arıqlamışdı, üzgündü. Biz bir kənara çəkilib əyləşdik. Və o elə bir şey dedi ki, yadımda qaldı. Sözbəsöz mən onu söyləməyəcəyəm, amma mənası belədir: hər halda məni məhv etmədilər, mənə sağ qalmaq nəsib oldu, indi mən yenə fəal həyata qayıdacam. O belə danışırdı ki, hər şey aydın olsun: söhbət yalnız fiziki sağlamlıqdan getmir. Deyilənlərə görə, onu aradan götürmək istəyiblər, amma bacarmayıblar.

Aleksandr İvanoviç təsdiqləyir ki, Əliyevin müəmmalı infarktından kimin xəbəri vardısa, bir-birinin ardınca öldürdülər. «Birinci katibliyin müdiri, sonralar Çernomırdinlə işləmiş Valeri Qridnev oldu. O, Moskvada, Kutuzov prospektində, Alaqapının yanında avtomobil qəzasına düşdü. Bundan sonra

DTK-nin Miçurinskidəki elitar binanın girişi qarşısında 1987-ci ildən reabilitasiya dövründə şefə təhkim edilmiş müalicə həkimi Dmitri Neçayevi öldürdülər. Bir qədər keçəndən sonra 80-ci illərdə həmin xəstəxananın baş həkimi olmuş Dmitri Şerbatkin özünü pəncərədən tulladı».

Sual doğur: artıq istefaya çıxmış Əliyev kimə bu qədər mane olurdu? Moskvalı müqəddərat həll edənlərə? Əliyev Qorbaçovun, Yakovlevin iç üzünü görür, onların əleyhinə çıxış edirdi. Amma burada işlər sadəcə gündəlik nəzarət, telefonu dinləmə kimi məsələlərlə məhdudlaşırdı. Bəlkə Azərbaycanda hakimiyyətə can atan qüvvələr? Əliyev dəfələrlə, həmçinin özünün Moskvadakı erməni dostları ilə söhbətlərdə, məsələn, İttifaq neft və qaz sənayesi müəssilərinin tikintisi nazirinin müavini Arakelyana demişdi: «Əgər mən o dövrdə Azərbaycanda olsaydım, heç bir Qarabağ, Sumqayıt hadisəsi baş verməzdi».

– Bu dəqiqdi, – Yuri Petroviç Batalin sözünə davam edir. – Mən buna əminəm. Əliyev Qarabağda müharibəyə son qoymağı bacarardı. Danışıqlar başlanıb. Belə danışıqların nə qədər çətin olduğunu başa düşürəm. Amma onlar nə qədər uzanır uzansın, hər halda müharibədən yaxşıdır.

* * *

Sov. İKP-nın XXVII qurultayında, artıq ittifaq əhəmiyyətli fərdi təqaüdçü olan Heydər Əliyevi Mərkəzi Komitəyə üzv seçdilər. Onun partiya və dövlət vəzifələri, ən sonuncusu da – «1987-ci ilin oktyabrından, 1988-ci ilin noyabrına qədər SSRİ Nazirlər Soveti yanında dövlət məsləhətçisi» – daxil olmaqla bioqrafik arayışda sadalanır.

Şərəfli vəzifə idi. Gücü özünə qayıdırdı. O həmişə olduğu kimi səhər saat 8.30-da işə gəlirdi və özünün çox da böyük olmayan kabinetinin qapısından keçirdi və hər gün daha amansız tərzdə hiss edirdi ki, burada heç kim onun məsləhətlərinə möhtac deyil.

«Mən Qorbaçovla görüşməyə cəhd edirdim»

İttifaq əhəmiyyətli fərdi təqaüdçü Heydər Əlirza oğlu Əliyev Sov.İKP MK-nın üzvü olmaqda davam edirdi. Praktik olaraq işdən kənarlaşdırılmasına baxmayaraq, o, hakimiyyətdə

olanlara nəyi isə təlqin etməyə, məsləhət verməyə, öz fikirlərini bölüşməyə cəhd eləyirdi.

– Mən Qorbaçovla görüşməyə çalışdım, amma o məni qəbul etmədi. Onda mən artıq təqaüdçü idim. Köməkçiləri deyirdilər: biz məlumat vermişik, o məşğuldur. Orada həmişə cavab sadə olur – biz məlumat vermişik, o bilir, haçan dəvət edəcəyini gözləmək lazımdı. Bir gün, iki gün, bir ay gözlədim, xəbər çıxmadı. Bir də zəng vurdum. Söz yox ki, o məni qəbul etmədi. Mən Lıqaçovla görüşə çalışdım. O da məni qəbul etmək istəmədi, amma bir dəfə mən MK-ya sadəcə olaraq çox tezdən gəldim və keçib onun qəbul otağında oturdum, – daha doğrusu, beləcə, adi qaydada. Gəlib çıxdı. Mən ona Dağlıq Qarabağdakı vəziyyət haqqında öz nöqteyi-nəzərimi açıqlayıram. O qulaq asır, asır və mənə ağıllı-başlı heç nə söyləmir, mən isə düşünürdüm ki, mənim söylədiklərimin müəyyən dərəcədə faydası ola bilər.

– Siz Liqaçova konkret olaraq vəziyyəti nizamlamaq üçün plan təklif etdinizmi?

– ...Xülasə, mən ona dedim ki, vəziyyət o yerə gəlib çatıb ki, qətiyyətli addımlar atmaq lazımdır. «Ancaq biz, – o dedi, – tədbir görürük». Bu da axırı. Daha doğrusu, mənim məsələyə qarışmağıma ehtiyac yox imiş... Demək, mənim məsləhətlərimə də. O zaman getdim Razumovskinin yanına, o da məni dərhal qəbul etmədi, baxmayaraq ki, hələ mən Siyasi büronun üzvü idim, o isə adicə katib. Mən danışdım, danışdım, o da oturub guya qulaq asırdı, mən hələ də bilmirəm, mənim söylədiklərim ona çatdı, yoxsa çatmadı. (televiziya aparıcısı Andrey Karaulovla dialoqdan)

«Tamamilə məxfi
Sov.İKP MK

Dağlıq Qarabağ və onun ətrafında vəziyyətin kəskinləşməsi ilə əlaqədar tədbirlər haqqında.

Dağlıq Qarabağ və onun ətrafında hadisələrin inkişafı DQMV-də, Naxçıvan İSSR və Azərbaycanın bütün ərazisində azərbaycanlılarla ermənilər arasında kütləvi silahlı toqquşmalara gətirib çıxarda bilər. Daxili qoşun qüvvələri və milis bölmələrinin ictimai asayişin və əhalinin təhlükəsizliyinin təmin edilməsi üzrə gördükləri tədbirlər qeyri-qənaətbəxş ola bilər.

Bununla əlaqədar olaraq artıq indidən Sovet Ordusu hissələrindən əhalinin müdafiə edilməsində istifadə imkanını nəzərdə tutmaq lazımdır. Hadisələrin belə faciəvi inkişafı halı üçün Azərbaycan və Ermənistanın müəyyən yerlərində fövqəladə hal tətbiq edilməsi haqqında təklif də hazırlamaq lazımdır.

Bununla bağlı SSRİ Müdafiə nazirliyinə (yol. Yazov D.T.), SSRİ DİN-nə (yol.Bakatin V.V.), həmçinin SSRİ Ali Soveti Sədrinə (yol.Lukyanov A.İ.) tapşırmaq olar ki, SSRİ Ali Sovetinin sessiyasında müvafiq qaydada nəzərdən keçirilmək üçün təqdim edilməyə əvvəlcədən müvafiq təkliflər hazırlamağı tapşırmaq olar.

29 avqust 1989-cu il *N.Slyunkov*
V.Çebrıkov».

Sov.İKP MK katibi və DTK-nin sədrinin Qorbaçova ünvanladıqları başqa məktubda tələb olunur ki, «Azərbaycanın və Ermənistanın rayon və şəhər milis şöbələrindəki avtomat və snayper silahları yığılsın... Azərbaycanın və Ermənistanın ərazilərində yerləşən raket qurğuları və qrad əleyhinə zenit artilleriyaları Zaqafqaziya hərbi dairəsinə verilsin». Bununla yanaşı guya «güc tətbiq etmək üçün təşkil edilmiş, milli zəmində ekstremist, silahlı dəstələrin aşkarlanması və zərərsizləşdirilməsi» və başqa tədbirlər də təklif olunur. *(RQANİ F.89.On 10. D.42. L.1-4).*

Bu vaxta qədər hər iki respublikadan artıq 300 mindən çox adam qaçmışdı. Daha İttıfaqdakı hadisələri Kreml idarə etmirdi. Baş katib yalnız orduya arxalanırdı.

21 Yanvar 1990, Moskva

Sübh tezdən Azərbaycan SSR-in Moskvada, Leontyev döngəsində yerləşən Daimi nümayəndəliyinin binası qarşısında həyəcanlanmış insanlar toplaşmağa başladılar. Onları buraya Bakıdan alınan xəbər gətirmişdi: şəhərə ordu yeridilib, dinc əhalı arasında qurbanlar var. Nə baş vermişdi? Rəsmi xəbərlərə inanan azdı. Hamı, nə isə ağlabatan izah gözləyirdi. Məhz elə bu zaman Heydər Əliyev var səsilə öz mövqeyini elan elədi.

Həmin müraciətini sizə təqdim etməmişdən öncə Heydər Əliyevin övladları Sevilə və İlhama qarşı münasibətini əks etdirən, özünün parlaq xarakterindən xəbər verən diqqətəlayiq

bir detalı yada salaq... nümayəndəliyə yola düşməmişdən əvvəl «o öz övladlarından xahiş etdi ki, razılıq versinlər, çünki o bu əqidədə idi ki, onların taleyini risk qarşısında qoya bilməz və buna haqqı da yoxdur». Əliyevin bioqrafı, yazıçı–publisist Elmira Axundova belə yazır və Sevil Əliyevanın onunla bölüşdüyü xatiratlarından misal gətirir:

«Azərbaycanda nələr baş verdiyini öyrənəndən sonra o Barvixadən evə gəldi. Bizi səslədi və dedi ki, ona məsləhətləşmək lazımdı. «Mən, – o dedi, – indi gedib nümayəndəlikdə çıxış edəcəm və bunun nəticəsi də məlum deyil. Ya da elə beləcə yaşayacağam». Biz ona dedik: «Get! Bizim başqa yolumuz yoxdur». O bizə görə ehtiyat eləyirdi, özündən ötrü yox. Bu səbəbdən də bizim rəyimizi öyrənmək istəyirdi. Lakin biz də kol dibində gizlənməyə öyrənməmişik. Biz də onunla getdik».

Onlar bilirdilər ki, bu yol Qolqofa aparır, amma yenə də onunla yanaşı getdilər. Çünki həqiqəti yalnız belə, yalnız belə qorumaq olardı. O zaman Heydər Əliyevin etdiyi müraciət onlarca telekameraya, mikrofona yazılıb, dünya mətbuatına yayılıb. Belə sənədlər illərlə köhnəlmir. Və əgər bu kitabın oxucusuna Heydər Əliyevin mərdanə müraciəti artıq tanışdırsa, səhifələri çevirməsin, bir də oxusun.

«Əziz həmvətənlərim, xanımlar və cənablar!

Bildiyiniz kimi, uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işləmiş, Sov. İKP MK Siyasi Bürosunun üzvü olmuşam. Geniş infarkt keçirmişəm. Xəstəliyimlə əlaqədar iki ildən artıqdır ki, pensiyadayam. Azərbaycanı tərk etdiyim 1982-ci ilin dekabrından keçən müddətdə bu gün ilk dəfədir ki, Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyinin astanasına qədəm qoyuram. Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsi Söhrab İbrahimovdan xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.

Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycanda yaranmış mürəkkəb vəziyyətin bir sıra səbəbləri vardır. Vaxtımızın məhdudluğundan bu məsələlərin üzərində ətraflı dayanmaq istəmirəm. Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də, ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq hər bir adamın ümumi federativ ittifaqı olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün ikiillik müddət kifayət idi.

Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı».

Əliyev Azərbaycanda vəziyyəti nizamlamaq üçün siyasi imkanların olduğunu da dedi. «Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı üç ay əvvəl sərhəd zolağı ilə bağlı camaat öz tələblərini irəli sürmüşdü. Fəqət heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir.

Təkrar edirəm: camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi. İki-üç ay əvvəl Azərbaycan partiya rəhbərliyinin möhkəmləndirilməsi məsələsi həll edilsə idi, vəziyyət gərginləşməz, ordu yeridilməsinə zərurət yaranmazdı. Bütün vəziyyətlərdə hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur. Belə qərar qəbul

etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar, sadəcə olaraq, respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətmişlər. Onlar, görünür, bu işlərin belə ağır faciəyə çevriləcəyini əvvəlcədən düşünməmişlər.

Bütün bunlar qabaqcadan nəzərə alınmalı və vaxtında vacib, zəruri tədbirlər qəbul edilməli idi. Ordu yeridilmiş, günahsız adamlar həlak olmuşlar. Yeri gəlmişkən deyim ki, ölənlər arasında hərbi qulluqçuların olması haqqında da məlumatlar daxil olur. Sual olunur: ölkənin ali dövlət, partiya rəhbərliyinin səhv qərarı üzündən, olmayan qiyamı yatırtmaq adı ilə Azərbaycana göndərilmiş rus gənclərinin günahı nədir?

Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər – 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov, öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdır. Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir.

Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır»

Və elə həmin gün Heydər Əliyev Azərbaycan KP MK-ya, Ali Sovetə və Nazirlər Sovetinə teleqram göndərdi:

«Azərbaycan xalqına!

Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gəlmiş faciədən – dinc əhalinin qırılmasından böyük ürək ağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm.

Mən bu düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanunazidd hesab edirəm. Bu ağır gündə sizi ağıllı-kamallı olmağa, həmrəylıyə və birliyə çağırıram. Mənim teleqra-

mımın respublika mətbuatında dərc olunmasını, radio, televiziya ilə verilməsini, matəm mitinqində oxunmasını xahiş edirəm.

Heydər Əliyev

21 yanvar 1990-cı il, Moskva».

Demək lazımdırmı ki, ürək ağrısı ilə diktə olunmuş bu teleqramı nə respublika mətbuatı, nə radio, nə televiziya xalqa çatdırmadı. Mərkəzi mətbuat isə bu müraciəti Moskva senzorlarının «rəndələməsindən» sonra çap etmişdilər. Həqiqət yalnız xidməti istifadə üçün teleqramlarda mümkün idi.

İlham bütün bu günlər ərzində atasının yanında oldu. Nümayəndəlikdə də, oradan poçta gedəndə də, Bakıya teleqram göndərəndə də.

* * *

Rusiya diplomatı Oleq Qrinevskinin xatirələrində maraqlı məqamlar var. Oleq Alekseyeviç Baş katibin xahişi ilə onun yanına – Kuntsevoya, xəstəxanaya gedir. O xəstəxanaya ki, ölüm yatağında olan Andropov oradan dövləti idarə eləyirdi.

– Mənim Sizdən xahişim var, – söhbətinin işgüzar hissəsini başa vuran Yuri Vladimiroviç dedi. – Mənim oğlum İqor Sizin nümayəndəlikdə işləyir. O yaxşı insandır – namuslu, xeyirxah, amma onun ətrafında onu içirdən və işləməsinə mane olan müftəxor köpək sürüsü ulaşır. Onları rədd elə. Mehriban komanda yaradın. Komandanı səmərəli fəaliyyətə istiqamətləndirin, meyxanaya yox. Mən sizi çoxdan nəzərdə saxlayıram və bilirəm ki, siz bunu bacararsınız.

El arasında uşaqlar haqqında deyirlər: balacasının balaca dərdi var, böyüyünün böyük. Mənası da budur: uşaqlar böyüdükcə, dərdləri də böyüyür. Elə bəla da bundadır. «Böyük uşaqlar», – bu ifadənin ikinci qatı da var: iri rəislərin uşaqları. Onlara qarşı bütün zamanlarda xüsusi münasibət olub. Ətraflarında yaltaqlar, tez-tələsik mənsəb, yüngül səadət axtaranlar, Andropovun təbirincə desək, müftəxor köpək sürüsü... Cavan adamın ayırd etməsi asan deyil. Kimin üçün o maraqlıdı, bəs kim üz görənlik eləyir, öz xeyrini güdür. Baş katib atasının xahişi ilə İqor Andropova səfir İqor Qrinevski kömək etdi. İqor Yuryeviç özü müəyyən dövrdən sonra Rusiyanın səfiri, nüfuzlu diplomatı oldu. Onun ətrafında quyruq bulayanlar isə məğlub oldular, tamam içkiyə qurşandılar, həyatda özlərinə

yer tapa bilmədilər, onların köpək sürüsü, «dostları» xəyanətlə bir başqa axura cumdular.

«Bilirsiniz, – Qalina Vişnevskaya müsahibələrindən birində dedi, – məşhurların uşaqları uşaqlıqdan ata-analarının qurduqları dəbdəbəli həyata öyrəşirlər və həm cəmiyyətdə, həm də yaradıcılıqda özlərinin gələcək uğurlarına əvvəlcədən inanırlar. Yalnız tək bircə şey ağıllarına gəlmir: ataları ilə anaları kimi işləmək. Amma elə ki, özləri böyük olurlar, ətraflarındakı atmosfer sıxlaşır. Nə qədər ki, balacadırlar, hamı onlara yaltaqlanır: «Siz necə də istedadlısınız, sizin nə gözəl ata-ananız var». Bu don sizə necə də yaraşır, elə bil əyninizə biçilib. Hələ bir tuflilərə bax, bunu sənə mama alıb?» Sonra bu uşaq böyüyür və başlayır valideynlərinin daşıdığı soyadın məsuliyyətini hiss etməyə. Və elə bu zaman onun həyatı qalır pərdə altında və bu pərdə də onu irəliləməyə qoymur. Məşhurluq xəstəliyinə mübtəla olmuş uşaqlarda başlıca bəla öz həvəsinin, istəyinin, daxili atəşinin olmamasıdır». (*Tribuna, 30 mart, 2007-ci il*)

Qalina Vişnevskaya (qızlıq soyadı İvanovadır, «Vişnevskaya» soyadı ona birinci ərindən qalıb) «Tribuna»ya bu müsahibəni Rostropoviçin 80-illiyi ərəfəsində verib. Maestronun yübileyini Kremldə qeyd etdilər. Böyük masanın arxasında, dostlarının təbirincə desək, Slavka ilə yanaşı onun Qalinası, Rusiyanın prezidenti Vladimir Putin və Azərbaycanın prezidenti İlham Əliyev, birinci xanımlar – Lyudmila Putina və Mehriban Əliyeva... oturmuşdular. Prezident Əliyev və onun ömür yoldaşı Moskvaya – bu təntənəyə məxsusi olaraq uçub gəlmişdilər ki, böyük yoldaşları və Heydər Əliyevin böyük hörmətlə yanaşdığı insanı təbrik etsinlər.

Rostropoviçin üzünə baxan kimi görünürdü ki, sifəti çəkilib, arıqlayıb, axı, o ağır xəstəlik keçirmişdi. Amma həmişə gələcəyə inanmaq istəyirdi. Slavanın yeni konsertləri, Bakıda yenidən görüşmək imkanları barədə danışırdılar... Heyhat, çox keçmədi ki, bəla gəldi. İlham Əliyev və Mehriban xanım Rostropoviçlə Novodeviçye qəbristanlığında vidalaşdılar.

«MDBMİ»də «təmizləmə» işləri

Qorbaçov yenidənqurmasının anlaşılmaz illərində «MDBMİ»nin həyatından daha bir neçə ştrix.

16 sentyabr 1986-cı il, SSRİ XİN-nin Kadrlar üzrə Baş idarəsi və təhsil müəssisələrinin partiya iclası... Baş idarə rəisinin birinci müavini, partiya bürosunun katibi Y.V.Manjosov çıxış eləyir. Deyir ki, ciddi qanun pozğunluqlarına görə «nazirliyin tabeçiliyində olan təhsil müəssisələri, o cümlədən əvvəlki rektor tərəfindən yol verilmiş ciddi qanun pozuntuları nəticəsində rəhbərliyi dəyişdirilmiş MDBMİ üzərində nəzarət gücləndirilməlidir» *(ÜAOPİM F.192. On 1. D.2349.L.8).*

Bir aydan bir qədər çox keçdi və idarənin növbəti iclası keçirilir. Və «MDBMİ»nin ünvanına daha bir atmaca: «İnstitutun Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunması, əməkdaşların böyük bir dəstəsinin yüksək dövlət mükafatları ilə mükafatlandırılması bizi çaşdırmamalıdır».

XİN-nin kadrlar üzrə müavini V.M.Nikiforov söz alır. Valentin Mixayloviç – mühəndis – konstruktor, təcrübəli partiya işçisidir, Sov.İKP-nin XXVII qurultayında MK üzvlüyünə namizəd seçilib. «...Şübhəsiz, institutda seçim qaydalarını kökündən dəyişməyi təklif edənlər, sosial ədaləti və qəbul zamanı müsabiqə sistemini dəstəkləyənlər və bu yolla da ataların və ailələrin «müsabiqəsini» atmağı təklif edənlər haqlıdırlar...» Nazir müavinini beynəlxalq əlaqələr fakültəsi tələbələrinin savadsızlığı dəhşətə gətirmişdi: «...nəinki Taleyran, heç Qorçakov haqqında da onlar heç nə eşitməyiblər» *(Yenə orada. L-52-54)*

Hər şeyi bilmək istəyən nazir müavini «Mejdunarodnik» qəzetini oxuyaraq gələcək diplomatlar haqqında öz təsəvvürlərini bir qədər də zənginləşdirə bilərdi. O qəzeti istedadlı uşaqlar hazırlayırdılar, müəllimlərin «kolleksiyalarındakı» və imtahanlardakı «mirvarilərı» üzə çıxardırdılar və bəzi şeyləri də özləri toqquşdururdular.

«Fransanın baş naziri Popadu» (O zaman baş nazir Pompidu idi).

«Siz NATO haqqında nə bilirsiniz?» – «O, Yapon imperatorudur».

«Xiroxito – yaponların öz qarnını kəsib doğramaq adətidir».

«Siz Pentaqon haqqında nə deyə bilərsiniz?» – «Mən dərmanlarla maraqlanmıram».

«Hollandiyanın əsas müstəmləkəsi Niderlanddır».

«Mariya Antuanetta məşhur Fransa «şansonetka»sıdır».

* * *

Həmin 1986-cı ilin 5 noyabrında «MDBMİ»nin iclasında yeni rektor R.S.Ovçinnikov məruzə eləyir. Qəbul və təyinat zamanı himayədarlığa qarşı amansız olmağa çağırır. *(Mejdunarodnik, 26 noyabr, 1986-cı il).*

Növbəti toplantıya Diplomatiya akademiyasının, «MDBMİ»-nin və SSRİ XİN-nin Mərkəzi aparatının fəallarını çağırdılar. Yeni Xarici işlər naziri, MK Siyasi bürosunun üzvü Eduard Amvrosiyeviç Şevardnadze «SSRİ XİN-nin Ali təhsil müəssisələrində yenidənqurma işləri haqqında» danışdı. Nazir və onun müavinləri «insanlara qarşı həssas və diqqətli olmağa» çağırırdılar. Mümkün məzəmmətləri qabaqlayaraq, dönə-dönə vurğuladılar ki, heç bir kampaniya, kadrların təqibi olmayacaq. Heç kim olub-keçənləri, xırım-xırda şeyləri, yanlışlıqları çözələməyə hazırlaşmır. Bu, bizim vəzifəmiz deyil. Biz işlərimizi mütləq yenidən qurmalıyıq...» *(ÜAOPİM F.192. On 1. D. 2349.L.43)*

Yenidənqurma yavaş-yavaş yenidən çomaqlaşmağa, sonra isə atışmağa keçdi. Ailəcanlılıq və qohumbazlıqla mübarizədə başlar uçurdu və onların hər biri nailiyyət kimi qələmə verilirdi. «Bugünkü günə, – XİN-nin partkomunun 1988-ci ilin noyabrından 1990-cı ilin aprelinədək gördüyü işlərin hesabatında qeyd olunur, – ailəcanlılıq proseslərinin inkişafı dayandırılıb. 1989-cu ilin axırına kimi, XİN-də və onun tabeçiliyində olan təşkilatlarda, həmçinin partiya-sovet orqanlarında, dövlət idarəçiliyi birliklərində qohumluq əlaqələrinə malik olanların sayı 1987-ci illə müqayisədə 22,5 faiz azaldılıb. Əlbəttə, kadrlara qarşı təqib, «qohumluq əlamətlərinə» görə işdən çıxarılma olmayıb və ola da bilməz». *(ÜAOPİM F.192. On 1. D. 2618.L. 14)*

Belədirmi? Problemlər yalnız MDBMİ-də mövcud imiş? Diplomatik korpusun böhranından danışmağın vaxtı çatıbmış. XİN-nin kadrlar idarəsi zamanın ruhunda qabaqcadan 1989-cu ildə 1991-1992-ci illər üçün səfirliklərdə, konsulluqlarda və beynəlxalq təşkilatlarda vakans yerləri tutmaq üçün elan verdi. Bəs nəticəsi? Ən çox ərizə – 16! – Cenevrədə baş konsul vəzifəsini tutmaq üçün daxil oldu. Digər kapitalist ölkələrində nüfuzlu vəzifələri tutmaq üçün hər bir yerə on ərizə verilmişdi. Ancaq Afrika, Ərəb, Şərqi Avropa və Asiyanın sosialist ölkələrində olan 64 vəzifəyə bir nəfər də olsun ərizə verməmişdi. Borc barədə sözləri kimə deyəsən?!

Xüsusi tapşırıqlar üzrə səfir Oleq Qrinevskinin kitabından daha bir neçə səhifəni vərəqləyək. Oleq Alekseyeviç Av-

ropada tərk-silah üzrə Stokholm konfransında Sovet nümayəndə heyətinə başçılıq edirdi. Şevardnadze dövrü XİN-nin «mətbəxinə» daxildən bələd idi.

«O bahar (1986) XİN-də kadrların «təmizlənməsi» başlandı, – Qrinevski yazır, – Şevardnadze ona sərf etməyən adamlardan metodiki şəkildə canını qurtarırdı.

Amma o, bu işi həmişə olduğu kimi son dərəcə hiyləgərcəsinə həyata keçirirdi. Üzdə söhbət yalnız ailəcanlılıqdan və himayədarlıqdan gedirdi. Partiyanın MK-dan gəlmiş yeni nazir müavini Nikifirovun rəhbərliyi altında kadrlar idarəsi əməkdaşların kimin kiminlə, nə dərəcədə, hansı tellərlə-bağlarla qohum olması barədə siyahı hazırladı, burada göstərilirdi ki, XİN-də və onun tabeliyində olan təşkilatlarda, o cümlədən MDBMİ-də kim-kimin əridir, arvadıdır, uşağıdır, qardaşıdır, bacısıdır. Amma məlum oldu ki, belə əlaqələr o qədər də çox deyil.

...Amma bununla belə, 1987-ci ilin mayına olan məlumata görə XİN-də:

– 9 nazir müavinindən 7-si;
– xüsusi tapşırıqlar üzrə 10 səfirdən 7-si;
– 16 ərazi şöbəsi müdirlərindən 8-i;
– 115 səfirdən 68-i dəyişdirildi.

Stalin repressiyasından sonra miqyasına görə bu XİN-də aparılan ikinci böyük «təmizləmə» idi. Baxmayaraq ki, işdən çıxarılanların heç biri repressiya olunmadı, amma XİN çoxlu sayda ixtisaslaşmış kadrlarından məhrum oldu».

Diplomat kadrlarını hazırlayan «MDBMİ»də da belə bir vəziyyət hökm sürürdü. Nə qədər ki, İlham Əliyevin atası hələ Kremldə idi, ona toxunmurdular. Elə ki, Heydər Əliyevi də istefaya göndərdilər, güman etdilər ki, onu susduracaqlar. Amma necə?!

Dahi Sabirin misralarını yada salaq:

– Görmə! –Baş üstə yumaram gözlərim.
– Dinmə! –Mütiyəm, kəsərəm sözlərim.
– Bir söz eşitmə! – Qulağım bağlaram.
– Gülmə! –Pək ey, şamu səhər ağlaram.
– Qanma!– Bacarmam! Məni məzur tut,
Böyləcə təklifi-mənanı unut!
Qabili imkanmı olur qanmamaq?
Məcməi-nar içrə olub yanmamaq?
Eylə xəmuş atəşi-suzanım,
Qıl məni asudə, həm öz canım.

Perspektivli alim, tarix elmləri namizədi İlham Əliyevi həmkarları, tələbələri yüksək qiymətləndirirdilər. Amma atası ilə hesablaşandan sonra oğlunu da MDBMİ-dən xaric etdilər.

«Siz bilirsinizmi, Artyom, mən şadam ki, Siyasi büronun tərkibindən qovulandan qarşılaşdığım və duyduğum həqarətləri Zərifə görmədi». Heydər Əliyev təyyarə qəzasında həlak olmuş peşəkar jurnalist Artyom Borovikə belə deyib. Artyomun söylədiklərini kinorejissor Vaqif Mustafayev lentə alıb. Borovik öz filmində danışır ki, Heydər Əliyev Şevardnadzeyə zəng eləyir (İlhamın dərs dediyi MDBMİ XİN-ə, ona tabe idi) və deyir: «Cavan oğlanla işiniz olmasın. Nəyə görə Siz onun başına dəyənək vurursunuz?» «Amma yenə də, – Artyom Borovik sözünə davam edir, – İlhamı işdən azad etdilər. O, isə bu zaman atasını, ailəni saxlayırdı. Bu ailə döyülüb, çox sınaqlardan çıxıb».

Mehriban Əliyeva: «1987-ci ildən sonra bizim ailəmiz həqiqətən çox böyük çətinliklərlə üzləşdi. İlham özünü itirmədi, hər şey elədi ki, ailəsi, uşaqlar bu çətinliyi hiss etməsinlər. O zaman çox böyük problemlərimiz var idi, bizə demək olar ki, heç kəs kömək etmirdi. Onun sayəsində biz çox üzgünlük çəkmədik...»

– Ağır idimi? – «Günay» qəzetinin jurnalisti bir il keçəndən sonra İlham Əliyevdən soruşur?

– Ağır idi, – İlham həqiqəti gizlətmir, – Mən nəzarət altında yaşayırdım, ağlıma da gəlmirdi ki, haçansa Bakıya qayıdaram. Bizneslə məşğul olmağa başladım..

Və bununla belə, o Moskvanı tərk etmək zorunda qaldı. Lakin hara? «Azərbaycana qayıtmaq mümkün deyildi. – Bakıdan hədələr eşidilirdi. Onda mən Türkiyəyə yola düşdüm. Oradan özümün Moskva kampaniyalarıma rəhbərlik elədim...».

* * *

İlham Əliyev ömrünün 13 ildən də bir qədər artığını «MDBMİ»də keçirib – oxuyub, öyrənib, dərs deyib. O, bu illərə xəyalən tez-tez qayıdır, cavanlığı, yaşadolma çağları, ilk sınaqları, ilk ümidləri, əziz olan adamları...

– 1987-ci ildə atamı bütün vəzifələrdən götürdülər, Siyasi büronun tərkibindən çıxartdılar və göndərdilər istefaya. Siz təsəvvür edirsinizmi, Sovet zamanında bu nə demək idi? Bizi, – ailə üzvlərini hər yerdə sıxışdırırdılar. – Amma İlham institutdan, həmkarlarından incik qalmayıb. – O insanlar ki,

onlarla bir yerdə oxumuşdum, bir yerdə işləmişdim, çalışırdılar ki, mənə dayaq olsunlar, əhvalımı qaldırsınlar, daha çox diqqət göstərsinlər. Bu çox dəyərlidir. Mən rəsmi vizitlə Moskvada olanda «MDBMİ»yə baş çəkdim. Orada mənə fəxri doktor adı verdilər. Mənim üçün böyük əhəmiyyət kəsb eləyən doktor adı. İndi isə institutun 60 illik yubileyidir, necə ola bilər ki, getməyim (Mixail Qusmanla söhbətdən).

İlham Heydər oğlu yaşlı nəslin insanlarına, valideynlərə – əsrlərdən bəri Azərbaycanda mövcud olan xüsusi hörmət hissilə yanaşıb və yanaşır. Heydər Əliyevdən başqa öz kabinetində kimin portretini görmək istərdiniz, sualına o qəti cavab verib: «Mənim kabinetimdən Heydər Əliyevin portreti asılıb. Və yəqin ki, elə biri bəsdi. – Və bir qədər ara verəndən sonra sözünə davam edir: – Bütün bunlardan əlavə o məndən ötrü doğma insandı, atamdı, o, bütün ömrü boyu, ictimai-siyasi situasiyalardan asılı olmayaraq, xalqına bütün varlığı ilə xidmət etmiş liderdi. Azərbaycanın tərəqqisində onun əməyi qiymətsizdir. Ona saflıq və ali insani keyfiyyətlər xasdı. Amma bu keyfiyyətlərlə siyasi karyerada çox uzağa getmək olmur. Bu planda o unikaldır. Bir ailə üzvü kimi bu mənə daha yaxşı bəllidir, nəinki başqasına: axı başqaları dövlət xadimlərini ya aralıdan görürlər, ya da televizorda».

Bu sözlərdə böyük miqyaslı dövlət xadiminə obyektiv baxışlar, Azərbaycan ailəsi üçün xas olan, ataya-anaya, sənə doğma olan insanlara görə qürur hissi öz əksini tapıb. «İnsana bütün ömrü boyu yol yoldaşı olan, toylarda, şənliklərdə oxunan mahnılara sevgi də, doğma diyara məhəbbət də İlhamın boya-başa çatdığı ailə ilə bağlıdır.

Axı, hansı azərbaycanlı kababı, dolmanı sevmir? «Həmişə evimizə əziz qonaqlar gələndə, – İlham Heydər oğlu deyir, – plov dəmlənir. Toy-düyünlərdə, bayramlarda da həmçinin. Mən plovu çox xoşlayıram. Bilirsiz, bizimkilər çox çeşidli plovlar bişirirlər, başqalarının bişirdiyi plovlara əsla bənzəmir. Şəxsən mən plovu bütün xörəklərdən üstün tuturam».

Masa arxasında qonaqpərvər insanlarla söhbət çox maraqlıdı. Süfrəyə qız bədənini xatırladan armudu stəkanda çay, hərdən də qonağın zövqündən asılı olaraq, məşhur «Yeddi gözəl» ya da «Qız qalası» şərabı gəlir... Elə ki, kimsə başladı palan içi tökməyə, kimsə mütləq etirazını bildirəcək: «Yamanı yada salma». Bu, atalar sözüdü. Bir Azərbaycan mahnısında isə deyilir: «...keçən sözü çəkmə üzə, olan oldu, keçən keçdi». Görün-

düyü kimi, bu mahnının sözləri də atalar sözündən qaynaqlanıb. Atalar sözü milli xüsusiyyətin mənəvi dəyərlərindən biridir. Rusiyada isə deyirlər ki, qoltuqda daş saxlamazlar, yəni yaxşılıqları yada salmaq, yamanlıqlarla vidalaşmaq lazımdır.

Şəxsi münasibətlərdə, şübhəsiz ki, elə belə də lazımdır. Ancaq bizim Sovet İttifaqının qürubunda fəaliyyətində olan adamların əməllərini dəyərləndirməyə haqqımız var. Məsələn, cənab Şevardnadze indi öz müsahibələrində təkidlə deyir: «Heydər Əliyev mənim ən yaxın dostum idi. İndi mənim Azərbaycanda ən sıx əlaqələrim İlham Əliyevlədir. Qorbaçovun təşəbbüsü ilə Əliyev tutduğu vəzifələrdən kənarlaşdırılandan sonra Azərbaycana qayıdanda, İlham Əliyev mənim başçılıq etdiyim SSRİ XİN-də işləyirdi. Dəqiq yadımda deyil, Liqaçov idi, ya bir başqası, dedi ki, Siyasi büro Heydər Əliyevi vəzifəsindən kənar edib, mən də gərək onun oğlunu nazirlikdən uzaqlaşdıram ki, ağrımayan başıma dəsmal bağlamalı olmayım. Mən bilirdim ki, İlham Heydər oğlu Beynəlxalq Əlaqələr İnstitutunu bitirib və öz vəzifəsinin də öhdəsindən əla gəlir, ona görə də bu mövzuya qayıtmadım».

Bizim isnad etdiyimiz bu müsahibə 2006-cı ilin 13 oktyabrında yazıya alınıb. O zamandan çox sular axıb... Keçmiş Sovet nazirinin, Gürcüstanın sabiq prezidentinin yadından çıxıb nədi, elə həmin müsahibədə qırmızı-qırmızı deyib: «Bununla belə, bir neçə ay keçəndən sonra, mənim iştirakım olmadan, bilmirəm hansı səbəbdənsə, İlham işdən getdi. Sonra biz onunla Azərbaycanda görüşdük. Mən bilirdim ki, o, atasından ötrü çox şeylər eləmiş ləyaqətli bir oğuldur. Mən onu əsil insana xas olan keyfiyyətlərinə görə sevirəm və gənc dostum hesab edirəm».

Elə də hesab etsən, belə də – bu batano Şevardnadzenin şəxsi işidir. Bəs onda uydurma toxumağa nə lüzum?

Misal üçün daha bir şahidin – tanınmış Rusiya diplomatı, dərin məzmunlu «Azərbaycanın yeni yolu» kitabının müəllifi Stanislav İvanoviç Çernyavskinin şəhadəti: «SSRİ XİN-i Şevardnadzenin şəxsi göstərişi ilə İlham Əliyev «MDBMİ»ni tərk etmək məcburiyyətində qaldı. Azərbaycanın özündə gözdən düşmüş Siyasi büro üzvünün qohumlarına qarşı münasibət dəyişmişdi, çoxları onu nifrət və istehza ilə yanaşırdılar».

Şevardnadzenin adını «Keçmiş və gələcək haqqında» qoyduğu memuarlarındakı bu və buna bənzər haşiyələri də əlavə edək. Bəlkə də bu yolla bütöv bir kitab da bağlamaq olar: «So-

vet İttifaqının mövcud olduğu tarixdə ilk dəfə dövlət başçısı qarşısına məqsəd qoydu ki, kommunist ideologiyasını təftiş etsin, – o, Qorbaçovu nəzərdə tutaraq belə yazır, – o zaman çoxları soruşurdular: «Aşkarlıq, yenidənqurma nə deməkdir? Sosializmdən imtina?». Bu həqiqətə yaxın cavab idi, lakin bu barədə ucadan danışmaq o illərdə mümkün deyildi». *(Drujba narodov, № 11, 2006).*

Hər şeyi öz adı ilə çağıraq. Şevardnadze Baş katibin, prezidentin xəyanəti haqqında yazır. Özünə isə «keçmişlə gələcək arasında yer ayırır... Demək, həm peyğəmbər, həm də hakimdir.

Sovet İttifaqı Qorbaçov komandasının hakimiyyətini göylərə qaldırdı. Və elə bu komanda da ölkənin keçmişini və gələcəyini əlindən aldı.

Böyük dövlətlərin geosiyasi maraqlarının reallığı da mövcuddur, xalqların özünümüdafiə duyğusunun gerçəkliyi də. Generallar – Yermolovun, Paskeviçin, tarixi Azərbaycanın bölünməsini sənədləşdirmiş Gülüstan müqaviləsi və Türkmənçay traktatının da həqiqəti var, Paskeviç İrəvanskiyə məğlub olmuş İrəvan hökmdarı Hüseynqulu xanın da, çarın şişirdib general elədiyi və sonradan ailəlikcə çar mayoru Lisaneviç tərəfindən güllələnən İbrahim xanın da; Sisianovun döyüşçülərinə qarşı vuruşmada öz xanlığının divarları önündə həlak olmuş gəncəli Cavad xanın da həqiqəti var.

Hətta rus milli ruhunun dahi ifadəçiləri belə bu iki həqiqətə hakim millətçilik (çox təbiidir) notları və xalqların – «alçaldılmış və təhqir olunmuşlar»ın oyatdığı acı duyğularla səs veriblər. Özü də «Təslim ol, Qafqaz! Yermolov gəlir» və «...Mütləqiyyət xərabəsində bizim də adımız yazılacaqdır» (Puşkin) kimi ölməz misralarla! Qriboyedov Cənuba gedib ki, «Türkmənçay traktatı ilə farsların başına ağıl mıxlasın» (D.Kedrin) və elə həmin Qriboyedov, öz pulundan keçib ki, dəyişdirilərək Yelizavetpol qoyulmuş Gəncədə Nizaminin məzarını abadlaşdırsınlar.

Böyük rus mədəniyyətinin sivil missiyasını – xalqlara savad, ziya aparmasını etiraf etmək lazımdır, amma torpaqların anneksiyasını da unutmaq olmaz. Sovet dönəmində anneksiyanı belə qələmə verdilər: «Könüllü olaraq Rusiyanın tərkibinə keçdilər».

* * *

İlham atası ilə birgə son illərin kəşməkəşlərinə dözə-dözə hıss eləyirdi ki, boğulmuş liberal demokratiya həqiqət uğrunda yeni döyüşlərə başlayır.

Atası mərdanəliklə Qorbaçovu və onun respublikaya rəhbərlik edən əlaltılarını Azərbaycanın yaşadığı faciənin əsas səbəbkarları kimi qələmə verdi.

İlham hələ orta məktəbdə oxuyanda Dənizkənarı parkda Azərneft meydanı ilə paraşüt qülləsinin arasındakı 400 metrlik məsafəni qaçarkən ikinci nəfəsin nə olduğunu başa düşmüşdü. Həmin yanvar axşamı atasına ikinci nəfəs verdi. Amma indi bu məsafə finişi yaxın olan 400 metrlik yol kəsiyi deyil, başdan-başa sınaq meydanı idi...

Lev Qumilyov yazır: «Etnos üçün ən təhlükəli dövr – dinc həyatdan aralanıb başqa etnosların hücumlarından qorunmağa keçid dövrüdür. Bu ərəfədə hələ qırğınlar başlamasa da, ruh düşgünlüyündən, sarsıntıdan qaçmaq mümkün deyil. Heydər Əliyev öz xalqını şok vəziyyətindən, donub qalmaqdan, ümidsizlikdən xilas etdi.

21 Yanvar 1990-cı ildə Bakı həlak olanları dəfn elədi. İnsan dənizində Dağüstü parka, öldürülənlərin cənazəsi qoyulmuş «Nuhun gəmiləri» uçurdu. Bu park tezliklə xalqın yaddaşının panteonuna çevriləcəkdi.

Yollara, güllələrin insanları haqladığı yerlərə qırmızı qərənfillər döşəmişdilər. Bronejiletli, dəbilqəli sovet əsgərləri sakitcə bu matəm mərasimini, bu azman izdihamı izləyirdilər.

Elə ki, meyidləri torpağa tapşırdılar, Bakı buxtasında, limanlarda yol üstdə olan bərələr uzun-uzadı fit verdilər. Gəmilər həlak olanların yasını tuturdu, Bakı onlara son borcunu verirdi.

* * *

XX əsrin əvvəlində, 1905, 1918-ci illərdə Qafqazda millətlərarası qanlı qırğınlar başlayanda Azərbaycan və erməni mədəniyyətinin nümayəndələri sülhə, mehriban qonşuluğa, humanizmə çağırdılar. Ovanes Tumanyanın «Bal damcısı», Cəlil Məmmədquluzadənin «Kamança», Cəfər Cabbarlının «1905-ci ildə» əsərlərini oxusanız, bir daha əmin olacaq, inanacaqsınız ki, əxlaqi dəyərlər, o cümlədən insanpərvərlik bu xalqların ikisinə də xasdır.

Ovanes Tumanyan ağ bayraqla, ağ atın belində Lori nahiyəsində Azərbaycan kəndini dolaşıb ki, düşmənçiliyə başlamış qonşuları barışdırsın.

Ömrünün son günlərini yaşayan Martıros Sarıan ona baş çəkməyə gələn şair həmkarı Məmməd Araza göz yaşı axıda-axıda pıçıldayıb: «Dostluq etmək lazımdı...»

Avetik İsaakyan Bakılı erməni şairi Markar Davtyandan Səməd Vurğunun ölümü haqqında eşidəndə həyəcanla soruşub: «Sən onu ölmüş halda gördünmü? Bəs sənin gözlərin niyə kor olmadı?». Bəs Qarabağda etnik təmizləmə aparan, qatarlarda, Bakı metrosunda teraktlar törətmək üçün razılıq alan ədəbiyyatçılar haqqında nə deyək? Kin sarsıdıcı şeydir. O hər şeydən öncə kin saxlayanın özünü məhv eləyir.

V FƏSİL

KÖRPÜLƏR

«...Şərait insanı, insan şəraiti yaradan dərəcədə yaradır».

K.Marks, F.Engels

Kökünə qayıdış

Azərbaycan dilində rus dilindəki «papenkin sınok» ifadəsinə yaxın olan dəqiq bir ifadə: «dədəlilər».

«60-cı illərdə biz ədəbiyyata gələndə, bizə çoxlu iradlar bildirilirdi, – böyük Azərbaycan şairi Səməd Vurğunun oğlu, tanınmış şair və siyasətçi Vaqif Səmədoğlu yazır: Bizim ədəbi nəslin çoxlu sayda nümayəndəsini «dədəlilər» adlandırırdılar. Bu bir kəlmə hansısa sosial tipı bildirirdi. Mən hesab eləyirdim ki, bu ifadə keçən əsrin ikinci hissəsinin salnamələrində qalacaq. Lakin, görünür, yanılmışam. Çünki həmin münasibət bir vaxtlar İlham Əliyevə də şamil edilməzdi: guya Heydər Əliyevin oğlu siyasətçi ola bilməz... Bəs nəyə görə? Biz İlham Əliyevlə Strasburqda tez-tez oluruq, – Azərbaycan nümayəndələrinin «AŞPA»-dakı fəaliyyətindən söz açan Vaqif deyir: – O, özünü tam yetkin siyasətçi kimi aparır. Onun orada öhdəsindən gəldiyi işi isə, məncə, Azərbaycanda heç kim bacarmaz».

Vaqifin diplomat İlham Əliyevdə gördüklərini, MDBMİ-dəkı həmkarlarının bildiklərini hər kəsdən öncə ata görə bilmişdi. Bəli, Heydər Əliyev Zərifə xanımla birlikdə uşaqlarının qəlbini yüksək duyğularla zənginləşdirmişdilər, onlara yüksək səviyyədə təhsil verməyə çalışmışdılar, amma nə edəsən ki, hərdən valideynlərin ümidləri boşa çıxır. Şübhəsiz ki, Stalin də, Xruşşov da, Brejnev də öz uşaqlarına belə tale istəməzdilər.

İstefa, qoy bu kimlərçünsə qəribə görünməsin, Heydər Əliyevi doğmaları, qızı, oğlu, onun mübariz, təmənnasız köməkçiləri ilə daha da yaxınlaşdırdı.

«Yadımdadır, – Sevil deyirdi, – o, onun ünvanına mətbuatda çap olunmuş məqalələrə təkzib yazırdı. Biz onunla birlikdə təkzibin mətnini qaydaya salırdıq, nə isə məsləhətlər verirdik. Düzdür, heç bir redaksiya onun məqalələrini götürmürdü və bütün qəzetlərin baş redaktorları ondan gizlənirdilər. Onun Siyasi bürodakı keçmiş həmkarları kimi. Belə olan halda onlar hansı həqiqətdən, hansı ədalətdən, hansı demokratiyadan danışa bilərdilər?!» *(Elmira Axundovanın müsahibəsindən).*

Düşünmək olar ki, bu aylar, illər ərzində ata ilə oğul arasında mənəvi, məvkurəvi (bu sözün qəzet şitliyini nəzərə almaqla) yaxınlaşma olub. Bu barədə natamam məlumatlara istinad etmək olar, çünki Heydər Əliyev memuar qoymayıb. İlham Heydər oğlu isə hər söhbətində atasından söz açmayıb. Əgər biz sərbəst roman yazsaydıq, onları nizamlamağa haqqımız olardı, amma sənədli nəsrin öz qaydaları var. O barədə danışaq ki, dürüst məlumdur. Belə ki, Heydər Əliyev istefadan sonra özünün bütün ciddi addımlarını ailədə və əsasən oğlu – öz ümidi ilə müzakirə eləyirdi.

Naxçıvana, siyasi həyata dönüş. Sov.İKP-dən çıxış və vilayətin Ali Sovetinə və Azərbaycan Ali Sovetinə seçilmək qərarı. Əlbəttə, söhbətlər yalnız telefonla aparılmırdı.

«İnsanlar onun yanına ardı-arası kəsilməyən axınla gəlirdilər, –Sevil Heydər qızı belə xatırlayır. – O, gündən yanmış, bir qədər cavanlaşmış görkəmdə onları həyətdə qəbul eləyir, bütün bu insanlarla söhbət edirdi. Onun bacısının balaca evində nə qədər adam yaşayırdı. O, uşaqlarla mən, onun qohumu qadın və onun qızları öz ailələrilə. Təkcə Sevilin, Vasifin arvadının üç uşağı vardı. Zöhrə və Bəylər də uşaqları ilə idilər. Bəylərlə Vasif bayırda yatırdılar... Atam yerli əhalinin böyük mənəvi dəstəyini hiss eləyirdi». *(Elmira Axundovanın müsahibəsindən).*

Heydər Əliyev Naxçıvana gəlişinin ilk günü ən çox sevdiyi şairlərdən biri Cavidin məzarını ziyarət etdi. Orada, o, baş əyərək nə düşünürdü? Hansı misraları təkrarlayırdı? Bəlkə də bunları?

Tərk edib cananə bixud canını,
Həp arar məşuqeyi-vicdanını.

İkinci gün Heydər Əliyev Cavidin ev muzeyinə baş çəkdi. O burada sonuncu dəfə haçan olmuşdu? Çox güman ki, 82-də, Respublika həmin vaxtda 24 oktyabr 1882-ci ildə Naxçıvanda doğulmuş, 15 dekabr 1941-ci ildə Sibirdə, sürgündə həlak olmuş şair, dramaturq, filosof Hüseyn Cavid Rəsizadənin 100-illik yubileyinə hazırlaşırdı. Necə də qəribə təsadüf – azadlıq carçısı, sağlığında Şərqin Şekspiri adlandırılan şair, Stalin konstitusiyası günündə – 5-i dekabrda ölüb. Meşə qırandamı taqətdən düşüb, Sibirin soyuğunamı tab gətirməyib? Yoxsa, ürəyi mənəvi əzablardan partlayıb?

Cavidin muzeyi dədə-babadan qalma ata evində yerləşir. Fotoşəkillər, sənədlər, XX əsrin məişət əşyaları: kerosin lampası, bu vilayətə Rusiyadan azıb gəlmiş samovar, patefon, armudu stəkanlar da muzeyin eksponatlarındandır. Camaxatanlarda (burada onları çoxdandı ki, divar şkafı adlandırırlar) nəlbəkilər, kuzələr... Hərəsinin də öz adı, öz mənası.

Tayşet rayon Xalq Deputatlar Sovetinin 21 oktyabr 1982-ci il tarixli sərəncamının əsli şüşə altındadır. Bu sənədi bütövlüklə təqdim edirik:

«Azərbaycan KP Naxçıvan vilayət bürosunun 12 oktyabr 1982-ci il tarıxli qərarına əsasən Azərbaycan KP Naxçıvan vilayət komitəsinin katibi Cəfərov Həmid Qara oğluna görkəmli Azərbaycan şairi və dramaturqu Hüseyn Cavid Rəsizadənin İrkutsk vilayəti Tayşet rayonunun Şevçenko kəndində 59 №-li qəbirdə basdırılmış nəşinin qalaqlarını vətəni Naxçıvanda dəfn edilmək üçün aparılmasına icazə verilsin.

Tayşet RİK-nın sədri
V.A.Smirnov»

Onun arvadı, Müşkünaz xanıma Cavidin heç bir günahı olmadığını bilmək kimi acı səadəti dadmaq xoşbəxtliyi nəsib olmuşdu. Amma o qadının buna heç bir şübhəsi olmayıb. Və öz uşaqlarına – Ərtoğrula və Turana atalarını gözləməyi buyurub, onun adı ilə fəxr etməyə öyrədib. Ərtoğrul baxtını incəsənət aləmində sınayıb, şəkil çəkib, kinossenari yazıb, musiqi bəstələyib. Böyük bəstəkarımız Üzeyir Hacıbəyov Ərtoğrulu ən istedadlı şagirdlərindən biri sayırdı. 41-də Ərtoğrulu orduya çağırırlar. Düzdür, səhhətinə görə onu cəbhəyə göndərmirlər. Gürcüstandakı arxa cəbhə hissələrindən birində saxlayırlar. Və çox keçmir ki, tamam xəstə halda, ölmək üçün evə qaytarırlar.

O, artıq qan qusurdu. Müşkünaz xanım dərman almaqdan ötrü Hüseyndən yadigar qalmış nişan üzüyünü də satır. Amma Ərtoğrul çox yaşamır, 14 oktyabr 1943-cü ildə Naxçıvanda, 24 yaşında dünyasını dəyişir.

Cavidlərin ailə xronikasında, nə isə sirli təsadüflər var: Hüseyn də oktyabr ayında doğulub, Ərtoğrul da, Turan da: Hüseyn 24-ündə, Ərtoğrul 22-sində, Turan 2-sində.

1982-ci ilin oktyabr ayında Hüseyn Cavidin 100-illik yubileyində Müşkünaz xanım da son mənzilini Cavidlə yanaşı tapdı. – 1976-cı ildə rəhmətə getmiş Müşkünaz xanımın və onların oğlu Ərtoğrulun nəşini də Bakıdan Naxçıvana apardılar. 2004-cü ildə isə, vəsiyyətinə əməl edərək, Turanı da onların yanında torpağa tapşırdılar. İndi onlar yenə də birlikdə idilər.

Onların son dayanacaqları üzərində Heydər Əliyev bəyaz, qarlı zirvə misallı məqbərə görmək istəyirdi, amma hələ bunun zamanı deyildi, 1990-cı il idi...

* * *

Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri H.Əliyevin keçirdiyi müşavirənin protokolundan çıxarış. 21 oktyabr, 1992-ci il.

H.Əliyev: Oktyabrın 24-də Hüseyn Cavidin anadan olmasının 110-illiyi qeyd olunur. Bununla bağlı qısa məlumat vermək üçün sözü Fəttah Heydərova verirəm.

F.Heydərov (Naxçıvan MR mədəniyyət naziri): Oktyabrın 23-də Cəlil Məmmədquluzadə adına teatrda Hüseyn Cavidin 110-illiyi qeyd olunacaq. Biz tədbiri yüksək səviyyədə keçirməliyik. Artıq bu gün Hüseyn Cavid haqqında verilişlər hazırlamalı və televiziya ilə göstərməliyik.

H.Əliyev: Naxçıvan televiziyası möhkəm gecikib. Bu verilişləri bir ay bundan əvvəl göstərmək lazım idi. Biz Hüseyn Cavidin məzarına baş çəkməliyik. Qoy hamı məzarın nə vəziyyətdə olduğunu görsün və bu günə qədər orada heç bir iş görməyən Naxçıvan şəhər rəhbərliyinə öz narazılığını bildirsin. Mən istəyirəm ki, xalq şəhər rəhbərliyinin necə işlədiyini görsün və bilsin və onların fəaliyyətini müvafiq qiymətləndirsin.

Planlaşdırıldığı kimi 23 oktyabrda Naxçıvan musiqili Dram teatrında dahi şairin anadan olmasının 110-illiyinə həsr olunmuş ədəbi-bədii gecə keçirildi. Naxçıvanın şair və yazı-

çıları, elm xadimləri, Bakıdan gəlmiş qonaqlar çıxış etdilər. Sonra isə tribunaya Heydər Əliyev qalxdı:

«Bu gün bayram günüdür. Bu gün bütün Azərbaycan xalqı üçün, o cümlədən naxçıvanlılar üçün böyük bir bayramdır. Biz Azərbaycanın böyük yazıçısı, şairi, dramaturqu, mütəfəkkiri, filosofu H.Cavidin anadan olmasının 110 illiyini qeyd edirik.

Bu dünya heç kim üçün, heç kəs üçün əbədi deyil. H.Cavid öz həyatı dövründə yaratdığı mənəvi, mədəni sərvətlərlə özünü əbədiləşdiribdir. Ona görə də bugünkü toplantı, bu mərasim, bu yubiley gecəsi, matəm gecəsi deyil bayram gecəsidir. Biz H. Cavidin əsərlərinin uzun illərdən sonra qalibiyyətini qeyd edirik. Onun fikirlərini, onun Azərbaycan xalqına verdiyi nəsihətlərin artıq həyata keçirilməsi imkanını əldə etdiyimizi qeyd edirik və bayram edirik... Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin bütün türk dünyasının, ən görkəmli bir simasıdır, təkrar olunmaz bir şəxsiyyətdir, bir şairdir və yazıçıdır. Onun yaratdığı əsərlər böyük çətinliklərdən keçərək indi artıq hamımız üçün dərslik olubdur və dərslik olmalıdır. Hüseyn Cavidin həyatı nə qədər əziyyətli olsa da onun yaratdığı əsərlər onu bir o qədər də zəngin, şöhrətli edir. Bu gün biz H.Cavidin məzarını ziyarət etdik. Bura toplanmışıq, onun anadan olmasının 110 illiyi münasibəti ilə ürək sözlərimizi demək istəyirik. 10 il bundan öncə Hüseyn Cavidin 100 illik bayramı keçirildi. 10 il keçibdir. Şübhəsiz ki, H.Cavidin yenidən Azərbaycan xalqına qayıtması, onun əsərlərinin Azərbaycanda yayılması və yeni-yeni nəsillərin onun əsərləri ilə tanış olması böyük nailiyyətdir. Ancaq, təəssüf olsun ki, bu 10 il içərisində bu barədə nəzərdə tutulmuş işlərin çoxu görülmədi... Hüseyn Cavidin cənazəsini Sibirdən gətirəndən sonra onun dəfni ilə əlaqədar Azərbaycanda fikir müxtəlifliyi oldu. Bəziləri onun Bakıda Fəxri xiyabanda dəfn olunması, bəziləri isə Naxçıvan torpağında, şəhərin mərkəzində dəfn olunması fikrini irəli sürdülər. Bu məsələni biz həm alimlərlə, həm yazıçılarla geniş müzakirə etdik və ümumi fikir belə oldu ki, cənazə Naxçıvana gəlsin. Bir ona görə yox ki, o burada Naxçıvanda doğulub, ona görə ki, burada onun məzarının üzərində böyük bir məqbərə, movzoley ucalsın. Bu bir ziyarətgah olsun... Biz qərar qəbul edirik. Hüseyn Cavid fondu yaranacaq. Hüseyn Cavidin bütün əsərlərinin yenidən dərc olunması, təbliğ olunması, onun məzarının üzərində məqbərənin tikilməsi, heykəlinin qoyulması, – bunların hamı-

sını bu fond təşkil etməyə qadir ola bilər. Deyildi ki, Bakıda Hüseyn Cavidin heykəli artıq qoyulur, şükür olsun. 10 il bundan öncə bu heykəli Azərbaycanın məşhur və çox istedadlı heykəltaraşı Ömər Eldarov gözəl bir zövqlə yaratmışdır. O heykəlin Bakı şəhərində yerini də biz o vaxt müəyyən etmişdik. Sonradan Moskvadan Bakıya iş üçün gələrkən bu məsələ ilə maraqlandım. Ö. Eldarovun emalatxanasına getdim, heykəlin hazır olmasını bir daha gördüm... Bu heykəl 8-9 il bundan öncə qoyulmalı idi. Əgər indi bunu qoymağa başlayıblarsa, bu çox təqdirəlayiq bir haldır və mən bu heykəli təsəvvür edirəm, çünki mən onu görmüşəm. Əgər heykəli ucaldan inşaatçılar heykəltaraşın bütün yaradıcılıq arzularını yerinə yetirsələr, bu heykəl H. Cavidə layiq, yüksək keyfiyyətli və yüksək zövqlü bir heykəltaraşlıq əsəri kimi Azərbaycanın paytaxtı Bakını bəzəyəcəkdir. Bir də qeyd edirəm, bizim yaratdığımız fond bütün Azərbaycanı əhatə edəcək və mən buradan elan edirəm ki, əgər mənə etimad göstərilsə, mən bu fonda başçılıq etmək istəyirəm, bütün Azərbaycanda olan millətini, mədəniyyətini, ədəbiyyatını sevən təşkilatlara, idarələrə, kollektivlərə, şirkətlərə, yeni yaranan assosiasiyalara, hamısına müraciət edərək bildirirəm ki, bu fondun təşkil olunmasında və onun fəaliyyət göstərməsində iştirak etmək hər bir şəxsi, hər bir təşkilatı mənəviyyatca daha da yüksəldəcəkdir. Bütün bu narahatçılıqlarla yanaşı, biz bu gün nikbin olmalıyıq, biz bu gün gələcəyə baxmalıyıq, biz bu gün başımızı dik tutmalıyıq...»

O gecədə səhnədə Cavidin ölməz misraları, o cümlədən aşağıdakı beyt səsləndi:

Yüksələn məhv olur, fəqət enməz!
Nuri-həqq daima yanar, sönməz!

Bir neçə il keçəndən sonra Naxçıvanın mərkəzində Cavidin məqbərəsi ucaldıldı. İnanırıq ki, bu yaradıcılıq örnəyi ilə Naxçıvanda Məminə Xatun və Yusif ibn Kuseyir türbələrini yaratmış böyük memar Əcəmi ibn Əbu-Bəkr də fəxr edərdi. Onlar birinci minilliklə ikinci minilliyin hüdudlarından yaradılıb. İkinci və üçüncü minilliklərin hüdudunda isə Cavidin gözəl məqbərəsi onlara əlavə olundu.

Başqa, pək başqa şimdi zevqi-cihan,
Dünki peymanələrdə qan coşuyor.
Dünki məmurələr bu gün viran,

Dünki viranələr bu gün məmur...
Hər pozulmuş da dünki peymanlar,
Yeni dost olmuş əski düşmanlar.

Dahi Cavid sanki bizim bugünkü dövrümüz haqqında yazıb. Sanki o uzaq günlərdən 2500 illik tarixi ərzində çox şeylər görmüş Naxçıvanın nə gözlədiyini soruşub.

Bu illər arasında qansız-qadasız illər çox az olub. 1919-1920-ci ildə Ermənistanla aparılan müharibənin canlı şahidləri ağsaqqal babalar da var. 1920-ci ilin iyulunda elan edilmiş Naxçıvan Sovet Sosialist Respublikası İnqilab Komitəsi o zaman erməni burjua respublikasının hökumətinə təklif edir ki, sülh danışıqlarına başlasınlar. Cavab ertəsi gün gəlir: «Naxçıvanın erməni hökumətinə şəksiz itaətkarlığı təmin edilsin». Ancaq Naxçıvan heç zaman ultimatum qəbul etməyib. Qanlı döyüşlər – Ermənistanda Sovet hakimiyyəti qurulana qədər – hələ dörd ay da sürüb.

1921-ci ilin əvvəlində Naxçıvanın şəhər və kəndlərində, Azərbaycan SSR, Ermənistan SSR və Rusiya Federasiyası nümayəndələrinin iştirakı ilə onların torpaqlarının kimə məxsus olması barədə sorğu keçirilib. Əhalinin 90 faizdən çoxu referendumda səs veriblər ki, Naxçıvan Muxtar Respublikası səlahiyyətləri ilə Azərbaycanın tərkibində qalsın. Xalqın bu seçimini Vladimir İliç Lenin dəstəkləyib.

16 mart 1921-ci ildə RK(b) P MK Siyasi bürosu Naxçıvan SSR-in Azərbaycan SSR-in tərkibində təşkil olunması haqqında qərar çıxardır. (1923-cü ildən Naxçıvan Muxtar diyarı, 1924-cü ilin fevralından isə Naxçıvan Sovet Sosialist Muxtar Respublikası)

Bəs indi necə olacaq? İndi kiminlə ayaqlaşmalı? İttifaq üçün məzmunsuz olan bu blokadada bu qəfil müharibədə hansı qüvvəyə söykənmək olar? Həmyerliləri bu sualın cavabını Ali məclisin sədrindən gözləyirdilər.

Bu qüvvə, Əliyevin əqidəsinə görə, xalqın özünün tarixi idi, Naxçıvanın, bütün Azərbaycanın mənəvi mənbələrə qayıdışı idi. O deyirdi və sonradan da dönə-dönə bu fikrin üstünə qayıdırdı ki, Rusiya öz dövlət suverenliyini ittifaq respublikalarından öncə bəyan eləyib və Sovet İttifaqını dağıtma prosesinə başlayıb... Heydər Əliyevin təklifinə əsasən respublikanın adından «Sovet Sosialist» sözü çıxarılır. Ali Sovet bu gündən etibarən Ali məclis adlandırılır. Muxtariyyət Azərbaycan De-

mokratik Respublikasının üçrəngli – mavi, qırmızı, yaşıl bayrağını özünə qaytarır.

Üstündən on il keçəndən sonra Moskvadan həddindən artıq müstəqil qəzetlərdən birinin reportyorunun gözünə görünüb ki, Naxçıvanda həyat sanki dayanıb, binaların uçulub-sökülmüş fasadı, kasıb geyinmiş uşaqlar hər anda diqqət çəkir. Jurnalist sonra da sözünə bunları əlavə edir: «Bu respublika Sovet İttifaqının tərkibindən çıxmasını birinci elan etmişdi, əslinə baxılırsa, SSRİ-nin dağılması oradan başlanıb». Görünür Moskvalı səyahətçi Naxçıvanla Qarabağı dəyişik salıb.

* * *

Azğın 1991-ci il axıra doğru dığırlanırdı. 8-i dekabrda Belovejskaya Puşşada Yeltsin, Ukrayna prezidenti Kravçuk və Belorusiya Ali Sovetinin sədri Şuşkeviç SSRİ-ni ləvğ etdilər. (Onbeş il sonra Ukraynanın ilk prezidenti, ölkə parlamentində sosial-demokrat fransiyasının lideri Leonid Kravçuk Ali Radanın tribunasından sensasiyalı bir etirafla çıxış etdi: «Əgər 91-ci ildə mən bilsəydim ki, belə – yəni indiki kimi – olacaq, demokratiya əvəzinə başıpozuqluq baş alıb gedəcək, Belovejski müqaviləsini imzalamazdan qabaq öz əlimi kəsərdim».)

1922-ci ildə İttifaqın yaradılmasında iştirak edən Qafqaz Respublikalarını isə Belovejski «boşanmasına» dəvət etməmişdilər. Dekabrın son günlərində, bir qaranlıq Kreml gecəsində (günün işığında vicdan yol verməyib) Qırmızı bayrağı endirdilər. Kremlin yeni ağası dərhal oradan Qorbaçovun, SSRİ-nin ilk və son prezidentinin bayrağını çıxartdı.

Azərbaycanda isə mövcud qüvvələr bir-birinin qəniminə çevrilmişdilər. Xalq cəbhəsi hakimiyyətə sahib çıxdı...

Naxçıvan blokadada

Kitablarda iki səhifə boyu çap olunmuş fotoəlavələrə baxın. Qafqaz dağlarının cənub–şərqində yerləşən Naxçıvan Muxtar Respublikası Türkiyə, İran və Ermənistanla həmsərhəddir. Sovet dönəmində müxtariyyəti tamamilə Azərbaycandan ayıran Ermənistanla sərhəd mahiyyətinə görə şərti idi, məsələn belə, Rusiya ilə Qazaxıstanın, Ukrayna ilə Belorusiyanın arasında olduğu kimi şərti idi... Sərnişinlər, qatarların bu sərhədləri keçməsinin fərqinə varmırdılar; bütün ölkəni

elektrik xəttləri ilə birləşdirən enerji sistemi də, neft və qaz kəmərləri də sərhədləri maneəsiz aşırdılar. Amma Sovet İttifaqının dağılması ilə Ermənistanla şərti sərhəd cəbhə xəttinə çevrildi, yollar qatarların və maşınların və eləcə də insanların üzünə bağlandı.

Blokada naxçıvanlılar üçün nə nəzəri, nə də ədəbi anlayış deyil. O onların həyat tərzini müəyyənləşdirir.

Elektrik lampası əvəzinə neft çırağı. Əl adəti üzrə elektrik xəttinin ayırıcısına uzanır – çıq və yenə də çıq və yalnız söyə bilərsən.

Qaz piltələri soyuyub. Mətbəxdə yenidən primuslar fısıldayır.

İndi isə siz təsəvvür edin ki, əlinizi sobada qızdırırsınız və uşaqlarınızla bir yerdə üçüncü, beşinci ya da yeddinci mərtəbədə yaşayırsınız və «vodovoz»dan su gətirməyə getmək, əllərini sobada qızdırmaq lazımdı.

Naxçıvanın blokadada olduğu günlərin xronikasını ağrı, həyəcanla, amma yaxşılığa, rəhmdilliyə, həmrəyliyə ümidlə oxuyursan. Görürsən ki, ucqar kəndlərdən camaat öz azuqə ehtiyatlarını gətiriblər ki, uşaq evləri ilə bölüşsünlər. İrandan «Qırmızı Aypara» Cəmiyyəti 1000 ton kartof göndərib. Hələ üstəlik də dörd elektrik generatoru və 500 ədəd də elektrik qızdırıcısı. Onları dərhal məktəblərə və uşaq bağçalarına payladılar. İranın qonşu əyalətindən 100 ton ərzaq məhsulları; Heydər Əliyevin tapşırığı ilə hamısını uşaqlara və qocalara payladılar. Türkiyə hökuməti Naxçıvan Respublikasına 100 milyon dollar kredit ayırdı. 100 naxçıvanlı tələbə təhsil almaq üçün Türkiyəyə dəvət olundu; xərcləri qonşu ölkə öz üzərinə götürdü.

Heydər Əliyev o günləri xatırlayaraq deyirdi:

«Bizi ərzaq, neft daşınmasından məhrum etmişdilər. Bütün energetika kəsilmişdi. Bizdə soyuq və aclıq başladı. Körpələr xəstəxanalarda ölürdülər. İnsanlar bağları oduna doğrayırdılar, meyvə ağaclarının 70 faizi evləri qızdırmaq üçün kəsilmişdi. Amma mən dözdüm, xalq da dözdü.

Mən çox sadə, ağır məişət şəraitində yaşayırdım, bütün xalqım kimi. Amma biz dözdük... Bakıdan yanıma tez-tez adamlar gəlirdi, dilə tuturdular ki, siyasətə qayıdım. Amma mən istəmirdim. Xalq cəbhəsinin uçuruma aparan siyasətinə baş qoşmaq istəmirdim...»

Bir vaxtlar Lenin demişdi ki, indi ən başlıca siyasət iqtisadiyyatdı. Budur, Əliyevin dünyadakı nüfuzu bu yerdə yaradı.

«Mənim İran və Türkiyə rəhbərləri ilə şəxsi dostluq münasibətlərim yaranmışdı, – Naxçıvan illərini xatırlayanda o demişdir. – İran prezidenti Naxçıvana öz təyyarəsini göndərdi, mən Tehrana uçdum və yardım haqqında razılıq əldə etdim. Biz elektrik ötürücü xətləri tikdik və İrandan enerji almağa başladıq. Həmçinin yanacaq da, ərzaq da... Türkiyənin prezidenti Dəmirəl özü mənə 100 milyon dollar kredit təklif etdi. O da öz prezident təyyarəsini göndərdi və mən Ankarada onun yanında oldum. Mən Türkiyəyə yol çəkdirdim, çayın üzərindən körpü saldırdım və əmtəə təminatını nizamladım. Lakin mənim ən böyük nailiyyətim – Ermənistanla silahlı münaqişəyə yol verməməyim oldu. Vəziyyət çox gərgin idi, kəskin məqamlar olurdu, amma mən çıxış yolu tapdım və bizim torpaqda qan tökülmədi».

Telekadrlar qoruyub saxlayıblar: Araz çayı üzərindəki körpüdən ət, quru süd, qənd, unla dolu ağır yük maşınları keçirlər, bu İranın humanitar yardımıdır. Heyif ki, Səməd Vurğun bu günlərə qədər yaşamadı. 1948-ci ildə bu «ölü» körpüdə şairin gözünə onu inşa edən görünmüşdü:

Bildim, o memardır... O yaradandır.
Yaxın gəl, oxucum, bax əllərinə!
O, Araz üstündə xeyli zamandır
Ağlayır xar olmuş əməllərinə...

Kim bilir, kim bilir, nə vaxtdan bəri
Bir insan keçməyir bu daş körpüdən.
Elə bil yol çəkir onun gözləri,
Fəqət nə gələn var, nə də bir gedən...

«Gələcəyə yolu yalnız məktəb açır»

Akademik İsa Həbibbəylinin həyatında ən əziz günlərdən biri 1991-ci ilin 15 yanvarıdır. Bəs görəsən, o zaman hansı fövqəladə hadisə baş verib? Hə, ona məktub gəlib ki, bəs Tehranda Azərbaycan ədəbiyyatının klassiki Cəlil Məmmədquluzadənin nəvəsi yaşayır. Lakin bu indi kimin üçün maraqlı ola bilər? Naxçıvan blokadada donur. Adamlar ağacları kəsirlər ki, sobada yandırıb qızına bilsinlər. Çörək növbələrində əziyyət çəkirlər... İsa Əkbər oğlu Milli məclisin sədri Heydər Əliyevin görüşünə yollananda bu düşüncələr içində idi. Sədr paltosunu çiyninə atmış vəziyyətdə oturmuşdu.

– İsa, sənə soyunmaq təklifi edən deyiləm. Danış görüm, daha nə aşkar etmisən?

– Mən qısa danışacağam. Heydər müəllim, yalnız ən başlıca məsələ haqqında...

– Qısa niyə? Mənim üçün bizim o, böyük Mirzə Cəlil haqqında nə öyrənmisənsə, hamısı maraqlıdır.

İsa Həbibbəyli ömrünün demək olar ki, on beş ilini görkəmli dramaturq, satirik, publisist Cəlil Məmmədquluzadənin yaradıcılığına həsr edib. Bakının, Moskvanın, Tiflisin, Odessanın, Peterburqun, Kiyevin, Yasnaya Polyananın arxivlərində külüng çalıb... Axtarışlarının ilkin dövründə ona Mirzə Cəlilin ətrafında olan 20-yə qədər yazıçı, rəssam məlum idi. İsanın siyahısında onların sayı 105-dir. O, onların əsərlərini toplayıb, bioqrafiyalarını yazıb. Kitabxanaların toz basmış rəflərində çoxdan unudulmuş qəzetlərin, jurnalların səhifələrində çağdaş mətbuata məlum olmayan 300-dən artıq məktub, məqalələr, şeirlər, bir pyes, tərcümələr, felyetonlar aşkara çıxarmışdır... Ən başlıcası isə Cəlil Məmmədquluzadənin nəvəsini tapmışdır, o, Tehranda yaşayır. Yazışandan sonra zəngləşəndə İsa deyib: «Mən istərdim ki, Sizin yanınıza gəlim. Lakin Arazın o tayında Azərbaycanı hələ Sovet İttifaqının bir hissəsi kimi qəbul edirlər və açıq-aşkar görüşməkdən çəkinirdilər, müxtəlif bəhanələrlə xahiş edirdilər ki, təklifi təxirə salsınlar.

– Heydər Əliyev məni son dərəcə böyük maraqla dinlədi, – akademik deyir, – mən dedim ki, Tehrana getmək, Cəlil Məmmədquluzadənin nəvəsi Teymurla görüşmək istəyirəm. Heydər Əliyev elə həmin anda Muxtar Respublikanın Nazirlər Sovetinə zəng vurdu, xahiş etdi ki, bizim (mən həmkarımla getmişdim) sənədlərimizi hazırlasınlar. Onda hələ viza xidməti mövcud deyildi.

– Qayıdan kimi yanıma gələrsən, – deyə Əliyev «yaxşı yol» arzulayaraq qonaqla sağollaşdı.

İsa Həbibbəyli o səfər haqqında dolğun bir yazı yazıb. Mirzə Cəlilin nəvəsi ilə ilk görüşünü xatırlayanda indi də həyəcanlanır: «Hələ ki, o gəlməmişdi, elə bilirdim öləcəyəm. Gözlərimi yumur və öz-özümə təkrarlayırdım: «Yox, mən ölməyəcəyəm, mən yaşamalıyam ki, onu görə bilim». Və nəhayət ki, görüşəndə mən də ağladım, o da, yanımızda olanlar da».

İndi artıq hamıya məlumdur ki, (bu barədə ilk dəfə İsa Həbibbəyli yazıb) Cəlil Məmmədquluzadənin (1869-1932) oğ-

lu Ənvər (1911-1979) həkim olub. Böyük Vətən Müharibəsi illərində Ənvər Məmmədquluzadə İranda mövqe tutan qızıl ordu hissələrində xidmət edib. Sonra isə onun həyatına böyük bir sevda – Polşa gözəli, Sofiya Baqrinovskaya yol tapıb. Onların nigahından ıkı oğlan – Midhət və Teymur və iki qız, Nəzrin və İren doğulub. Midhət hazırda Polşada, Nəzrin Fransada, İren xanım isə İranda yaşayır. Guya ki, Cəlil Məmmədquluzadənin bütün şəcərəsini belə sadəcə tapa biləcəkdi?.. İllər keçəndən sonra məlum olur ki, Ənvər öz ailəsini qorumaq məqsədilə anası Həmidə xanım Cavanşirin (1873-1955) soyadını götürüb. Mirzə Cəlilin nəvələri də bu soyadı daşıyırlar. Heydər Əliyev İsa Həbibbəylinin Tehrandan gətirdiyi foto şəkillərə diqqətlə baxırdı. Sən demə onu nəvələrin bir-birinə portret oxşarlığı maraqlandırmırmış, o nəvələrin simasında məşhur babadan nişanə axtarırmış:

– Onlar mənəvi cəhətdən, ruhən oxşayırlarmı? – Və bir qədər susandan sonra sualına aydınlıq gətirdi:

– Onlar Məmmədquluzadənin varisləridirmi?

Söhbətin axırında İsa Əkbər oğlundan xahiş etdi ki, yazıçının nəvələrinə xəbər yollayıb, onları Naxçıvana dəvət etsin.

Dəvətnamə elə həmin gün göndərildi, amma Teymurun bundan xəbəri olmadı. Səbəbi –qəza!

Müxtəlif vaxtlarda İsa Həbibbəyli bütün varislərlə – Mirzə Cəlil nəslinin bütün davamçıları ilə görüşüb. İndi o, toplanmış materiallar əsasında «Mirzə Cəlilin şəcərəsi» adlı monoqrafiyanı daha təkmilləşdirilmiş şəkildə çapa hazırlayır.

Naxçıvan Dövlət Universitetinin rektoru Həbibbəyli İsa Əkbər oğlu ölkənin ən görkəmli ədəbiyyatşünaslarından biridir, akademikdir. Poeziyaya, təhsilə uşaq yaşlarından maraq göstərib. Bu yolda atası – ibtidai sinif müəllimi Əkbər müəllim də əlindən gələni əsirgəməyib. Onların babaları bəy olub, yerli insanlarla müqayisədə imkanlı sayılırmışlar.

– Nəslimizin tarixini XVI əsrdən bəri bilirəm. Keçmiş zamanlarda bizim nə qədər torpağımız, sürülərimiz, dükanlarımız olub. Amma o, heç zaman evdə o malın, dövlətin söhbətini eləməyib. Mən ikinci, ya üçüncü sinifdə oxuyanda o, mənə sənət seçməkdən söz açdı və dedi: «İnsanın və eləcə də bütün xalqın gələcəyinə yolu yalnız məktəb açır...»

Atamla bu söhbət, onun qəlbindən nəğmə kimi süzülüb gələn bu ifadə mənim bütün gələcəyimə işıq saldı. Müəllim olmaq, elm arxasınca getmək. Naxçıvan Pedoqoji İnstitutunun

(1990-cı ildən universitet) ilk buraxılışının foto-albomunda gənc İsanı tanımaq asandı. Ali təhsil ocağını fərqlənmə diplomu ilə bitirəndən sonra o, XX əsrin əvvəlində Azərbaycan romantik poeziyasının tədqiqatı ilə məşğul olmağa başlayıb, bu sıraya çox haqlı olaraq «Şərqin Şekspiri» adlandırılan Hüseyn Cavid və onun ətrafında cəmləşmiş gənc şairlər dəstəsi – Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq daxildir. İsa Həbibbəyli öz tədqiqatları ilə gənc nəslin üzünə heç zaman öz təravətini itirməyən, müdrikliyi ilə seçilən «Molla Nəsrəddin» jurnalının səhifələrini taybatay qapı kimi açdı. 1996-cı ildə «Cəlil Məmmədquluzadə: onun mühiti və müasirləri» mövzusunda doktorluq dissertasiyası müdafiə elədi. Oskar Şmerlinqin (1863-1938) istedadla işlənmiş karikaturaları Cəlil Məmmədquluzadənin hədəfi vuran felyetonları zamandan qopub ayrılaraq bizim günlərə qayıdıblar. Oskar Tiflisdə anadan olub, Peterburqda və Münhendə təhsil alıb, sonra Tiflisdə Oktyabr İnqilabına qədər məşhur olan rəssamlıq məktəbi yaradıb. İstedadlı Azərbaycan rəssamlarından Bəhruz Gəngəlli, İsmayıl Axundov və onlarca başqaları bu sənət ocağında təhsil alıblar.

İsa arxivlərdən Oskarın onlarca məktubunu tapıb və onları ilk dəfə özünün çox gözəl tərtib olunmuş «Sənətkar Oskar Şmerlinqin karikaturaları» kitabında üzə çıxardıb. «Çox sağ olun, öz məktubunuzda toxunduğunuz məqsədlərə, xeyirxah niyyətlərə görə dərin təşəkkürlərimi qəbul edin. – 7 may, 1925-ci ildə Oskar Tiflisdən Mirzə Cəlilə yazdığı məktubu belə başlayır. – Sizin məktubu oxuyanda o gözəl günlər gözlərim önündə canlandı, mədəniyyətə xidmət təməli üzərində qurulmuş dostcasına fəaliyyətimiz yadıma düşdü, mən bir daha fantastik dərəcədə əmin oldum ki, nə etmişiksə, müsəlman xalqları üçün vacibdir və biz bununla da müsəlman dünyasının maariflənməsinə böyük fayda gətirmişik... Siz mənə «Molla Nəsrəddin»də işləmək təklif edirsiniz. Sizin məktubu alan andan heç bir gün də keçməyib, amma artıq mən qəti qərara gəlmişəm ki, Sizinlə işləyim. İndi mən xahiş edirəm ki, Siz öz təklifinizin üstündə dursunuzsa, hələ bu niyyətdən daşınmayıbsınızsa, məni öz əməkdaşlarınız sırasına qəbul edəsiniz...»

Şmerlinqin Cəlil Məmmədquluzadəyə yazdığı başqa bir məktubdan bir neçə haşiyə: «Sizin məktubunuz məni qanadlandırdı. Mən burada son günlər ruhdan düşmüşəm və elə bu səbəbdən də qərara gəlmişəm ki, dünyanın o başına da olsa gedim, təki Tiflisdən ayrılım – məni bu qərara gətirən səbəblər







Zərifə və Heydər Əliyevlər – İlhamın valideynləri

Onlar Bakıda görüşdülər



Oğul atasına oxşayır





Ailəvi xatirə şəkilləri – Bakıda və Moskvada





Zərifə və Heydər Əliyevlər qızları Sevil və oğulları İlhamla

Ata oğlunu özü ilə cəmiyyətə çıxarır
Kosmonavtlar və artistlərlə xatirə şəkilləri





İlham Əliyev bu məktəbdə oxuyub. Əla oxuyub.

Uşaqlar, məktəbinizi, sinfinizi unutmayın...




Выпускники школы №6 р-на 26-Бак. комиссаров
Асланбекова Л.Б.
завуч
Кулиева С.Р.
директор
Лапис Р.А.
секретарь парткома
Бросалин А.Е.
Варшавский И.С.
Громаховат П.
Тагиева З.А.
Шлимак А.М.
Дворкина Н.З.
Этина С.А.
Францева Л.К.
Саркисова З.М.
Мустафаева М.А.
Касымова Ш.Г.
Григорян А.С.
Мамедова Н.Р.
Борисов Г.М.
Чолакян Н.В.
1976
10 "Б"



Bakının 6 saylı məktəbində son zəngdir





Azərbaycan Kommunist Pariyası MK-nin birinci katibi Heydər Əliyev oğlunun sinif yoldaşlarının valideynləri ilə birlikdə məzunları təbrik etməyə gəldi...

...və uşaqlara kamal attestatı təqdim etdi





Heydər Əliyev Şuşada dahi Vaqifin məqbərəsini açır.
İlham da orada idi, lakin fotoaparatdan qaçırdı





İlham tətil vaxtı atası ilə birlikdə



Qohumları toy günü İlhamla Mehribanı təbrik edirlər

Əliyevlər Moskvadakı evlərində



Heydər Əliyev və Arif Paşayev Mehriban və İlham Əliyevlərin qonağıdırlar



Podmoskovyedə Əliyevlərin hamısı
xoşbəxt gələcəyə inanırdılar

barədə Bakıda görüşəndən sonra danışaram. Aşqabadda, ya da Bakıda yerləşmək çox fərqli şeylərdi. Bakı canlı şəhərdir, onda Avropanın çox nişanələri var, amma ən başlıcası budur ki, Bakı mənim xoşuma gəlir. Beləliklə, əgər Bakı məni qəlbən qəbul edərsə, mən dünyanın o başına səfərimi dayandıracağam və Bakıya köçəcəyəm...»

Şmerlinq «Molla Nəsrəddin»də 600-dən artıq karikatura çap etdirib. Onlar həmişə «onluğa» dəyib – yəni birbaşa hədəfə. «...Satira və yumora qarşı sevgimiz dəyişməz qalır», – deyə Oskar öz köhnə dostuna məktubunu yekunlaşdırır.

Bizim həmsöhbətimizin maraq dairəsi genişdir: ədəbiyyatşünaslıq, böyük şairlərin, yazıçıların yaradıcılığının təhlili. Hələ üstəlik də doğma universitetin inkişafı.

– Yeni, müasir universitet yaratmaq – bu özü də yaradıcılıqdır, – rektor inamla deyir. Və biz mübahisə etmirik. Əslində də bu yaradıcılıqdır.

Universitet şəhərciyi 100 hektara yaxın sahəni əhatə eləyir. Burada tibb fakültəsi ilə yanaşı xəstəxana da fəaliyyət göstərir. Botanika bağı da çox gözəldir. Konservatoriyanı bütün naxçıvanlılar bəyənir. İdman meydançaları, idman zalları da bir-birindən gözəl. Universitet prezident Heydər Əliyevin və prezident İlham Əliyevin, Naxçıvan Muxtar Respublikası Milli Məclisinin birbaşa dəstəyi ilə inkişaf etdirilib və etdirilir.

Naxçıvanda İsa müəllimin daha çox sevdiyi bir yer varmı?

– Əlbəttə var. Mənim uşaqlığımın çayı – Arpaçayın üstündən asmakörpü asılan yer. Biz oğlanlar o körpünün üstündən çaya tullanmağı çox xoşlayırdıq. O yellənir, sən isə uçursan... Sonra bu yerdə böyük su anbarı tikdilər. Kəndin bir hissəsi kimi, bu körpü də su altında qaldı. Deyəsən, elə mənim uşaqlığım da o suyun altında qalıb...

– Yəqin ki, Valentin Rasputinin «Matyora ilə vida» povesti sizə çox doğmadır?

– Hə, mən bu povesti dönə-dönə oxumağı sevirəm, rus klassiklərini həvəslə oxuyuram.

– Siz Moskvada tez-tez olursunuz. Rusiya paytaxtında ən sevimli yeriniz?

– Əlbəttə Lenin kitabxanası. Moskvaya gələndə mütləq o kitabxanaya gedirəm. Hələ mən aspirant ikən orada məşğul olmağı çox xoşlayırdım. Bu bilik xəzinəsi önündə baş əyirəm. Son illər mütəmadi olaraq «Ximki»də işləyirəm, orada, Sizin də bildiyiniz kimi, Rusiya Dövlət kitabxanasının qəzet şöbəsi

yerləşir. Orada mən görkəmli Azərbaycan publisisti və ictimai xadimi Məmmədağa Şahtaxtinskinin yüzə yaxın məqaləsini, tərcüməsini və məktubunu tapmışam. Bu materiallar Azərbaycanda çapa hazırlanan kitaba daxil olacaq.

Yeri gəlmişkən, bizim universitet də özünə gözəl elektron kitabxana yaradıb, müasir kompyuter sinifləri və internet mərkəzi. Naxçıvan universitetinin ən gözəl auditoriyalarından birində Heydər Əlirza oğlu Əliyevin əsərləri və həmçinin onun haqqında kitablar, videofilmlər sənədli materiallar toplanıb. Bu mühazirə zalı olan özünəməxsus bir muzeydi və burada elmlə yalnız tələbələr məşğul olmurlar.

Görkəmli dövlət xadimi, ümummilli lider dörd dəfə bizim muzeydə olub, – rektor iftixarla dedi, – biz İlham Əliyevi də burada sevinclə qarşılamışıq. Mənə elə gəlir ki, İlham Heydər oğlunun xarakterinin təşəkkül tapmasında orqanik olaraq atasının və anası Zərifə xanımın təsiri özünü hər addımda büruzə verir. Zərifə xanım tanınmış partiya işçisi, alim, səhiyyə təşkilatçısı Əziz Əliyevin ailəsində böyüyüb.

İsa Həbibbəyli əsil alim kimi İlham Əliyevin şəxsiyyəti haqqında dərin təhlil aparıb.

– Hamı yazır ki, o necə savadlıdır, necə də Heydər Əliyev kursunu ardıcıl davam etdirir. Hər şey düzdür, hər şey doğrudur, bununla yanaşı bu, məni bağışlayın, təbliğatdır, amma mən istərdim ki, bu məsələyə elmi nöqteyi-nəzərdən yanaşam. Və mən suallar verirəm. İlham Əliyevin siyasi kursu nədən qaynaqlanıb? Hansı amillərin təsiri altında təşəkkül tapıb?

O, MDBMİ-nin tələbəsidir, təbii olaraq, diplomatik səriştəyə əsaslı surətdə yiyələnib. O, politologiya doktoru, tarix elmləri namizədi kimi bütün hadisələrə tarixi nöqteyi-nəzərdən yanaşır. Buna sübut «Azərbaycanın Xəzər nefti» monoqrafiyasıdır. Respublika neft şirkətində çalışması ona iqtisadiyyat sahəsində rəhbərlik təcrübəsi verib.

Və nəhayət, – akademik öz mülahizələrini yekunlaşdırır, – bu insan Avropa düşüncəlidir, Yeni Azərbaycan partiyasındakı işi, «PASE»-də və Beynəlxalq Olimpiya hərəkatında iştirakı onu yeni təcrübələrlə zənginləşdirib. Bizim prezident Azərbaycan dilindən başqa rus, ingilis və fransız dillərində də sərbəst danışır. Bu yaxınlarda Çıngız Aytmatov İlham Əliyev haqqında deyib ki, o, «qloballaşma dövrünün lider etalonudur». Böyük yazıçı və mütəfəkkirin verdiyi qiymətlə tamamilə şərikəm.

İnsanlar həmişə liderləri, yaradıcı insanları, nazirləri müqayisə edirlər. Bu cür yanaşanda, mən demək istəyirəm ki, bir çox liderlər inqilabçılara, bir növ neobolşeviklərə oxşayırlar. Onlar mütəfəkkir deyillər. İlham Heydər oğlu isə mütəfəkkirdi, yaradıcıdı. O, yeni dövrdə yeni düşüncə tərzinin nümayəndəsidir. İlham Əliyev Azərbaycanın, bizim Vətənin böyük şansıdır.

* * *

Heydər Əliyev insanları partiya mənsubiyyətinə görə yox, işgüzar keyfiyyətlərinə görə qiymətləndirirdi.

Yeri gəlmişkən, – o xatırladı, – Azərbaycanda ilk dəfə Xalq Cəbhəsinin nümayəndələri Naxçıvanda rəhbər vəzifələrə məhz mənim təklifimlə qoyulublar. Xalq Cəbhəsinin iki fəal nümayəndəsini mən özümə müavin götürdüm. Bundan başqa xalqçı-cəbhəçilərdən birini də nazir müavini təyin etdim. Düzdür, bir qədərdən sonra sübut olundu ki, o julikdir, – qovmalı olduq. Və yalnız bundan sonra mən Xalq Cəbhəsi ilə yollarımı ayırmalı oldum.

Axı, onlar elə bilirdilər ki, Xalq Cəbhəsinin üzvüdülərsə, nə istəsələr edə bilərlər. Düzünə qalsa, o da belə düşünürdü. Və mən onu julik hərəkətlərinə görə divara dirəyəndə, o mənə qarşı aksiya keçirməyə cəhd elədi. Amma Naxçıvanda bu, ölümə bərabər bir şeydi. Xalq az qalmışdı onu parçalasın. Ona yük qatarında qaçmaq nəsib oldu – sərnişin qatarları Ermənistandan keçmirdilər.

1992-ci ildə Xalq Cəbhəsi Naxçıvanda Dövlət çevrilişinə cəhd etdi. Özü də Bakıda hazırlanmış ssenariyə əsasən. Əməliyyat iflasa uğradı. Bütün Naxçıvan öz liderinin müdafiəsinə qalxdı. «Heydər Əliyev» kitabında biz bu hadisələr haqqında ətraflı danışmışıq. Burada da başqa vacib məqamları yada salaq.

«Azərbaycan Sizin sözünüzü gözləyir»

1992-ci ildə, Naxçıvan hadisələri ərəfəsində cəmiyyətdə gündən-günə artan dəhşətli tirələnmə prosesini duyan böyük bir qrup alim Heydər Əliyevə açıq məktubla müraciət etdi: «Azərbaycan Sizin sözünüzü gözləyir. Heydər Əliyevə müraciət». 91 imza – hamısı da tanınmış alimlər, deputatlar, müəssisə rəhbərləri...

Onlar on minlərlə soydaşları adından xahiş edirdilər ki, Heydər Əliyev «Yeni Azərbaycan» partiyasına rəhbərlik etməyə razılıq versin.

Heydər Əliyev «91-lər qrupu»na, rəsmi olaraq onları belə adlandırmağa başladılar, böyük, ətraflı məktub yazdı. O, «Azərbaycan Respublikasının dövlət müstəqilliyinin mənbələrini dərindən təhlil edərək yazmışdı: «...bu obyektiv tarixi hadisələrin nəticəsidir, taleyin və zamanın Azərbaycan xalqına, həmçinin keçmiş ittifaqın respublikalarına taleyin qiymətsiz töhfəsidir. Və bundan sonra Heydər Əliyev aydın hərəkət proqramı təklif edir:

«*Birinci.* Azərbaycanın müharibə vəziyyətindən çıxması və Qarabağ probleminin tezliklə həll olunması...

İkinci. Azərbaycanda sosial-iqtisadi böhranın dərinləşməsi və əhalinin həyat səviyyəsinin aşağı düşməsi böyük narahatlıq doğurur...

Azərbaycan tükənməz təbii sərvətlərə, inkişaf etmiş sənayeyə və kənd təsərrüfatına, yüksək intellektual potensiala, müasir iş qüvvəsinə malikdir. Bütün bunlardan respublikanın müstəqilliyinin möhkəmləndirilməsi və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün istifadə olunmalıdır.

Üçüncü. Kadr siyasəti geniş xalq kütlələri arasında haqlı narazılığa və etiraza səbəb olur. Adamların rəhbər vəzifələrə onların iş keyfiyyətləri, bilikləri, bacarıqları, təsərrüfatçılıq və idarəetmə sahələrində təcrübələri nəzərə alınmadan, yalnız Xalq cəbhəsinə mənsub olmalarına görə təyin edilmələri hüquqi normaları pozur və ağır nəticələrə aparır. Xalq heç vaxt Xalq cəbhəsinə belə fövqəladə hüquq və səlahiyyətlər verməmişdir. Ötən illər və onilliklər ərzində respublikada idarəetmə, iqtisadi, elmi, mədəni və sosial sahələrdə kifayət qədər savadlı, təcrübəli, bacarıqlı, yüksək mədəniyyətli milli kadrlar hazırlanmışdır. Onların hamısı, partiyalara, ictimai-siyasi hərəkatlara, təşkilatlara mənsubluqlarından asılı olmayaraq, fəal quruculuq fəaliyyətinə cəlb olunmalıdır.

Dördüncü. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, birinci növbədə, respublika qanunlarının toxunulmazlığından, qanunun aliliyindən asılıdır. Totalitarizmdən tam qurtarmaq yalnız ardıcıl olaraq demokratiyanın, siyasi plyuralizmin inkişaf etdirilməsi, insan hüquqlarının təmin edilməsi şərtilə mümkündür. Söhbət söz, vicdan azadlığından, sahibkar-

lığın dəstəklənməsindən, mülkiyyətin qorunmasından, seçmək və seçilmək hüquqlarından gedir.

Beşinci. Son vaxtlar Azərbaycanın parçalanmasına yönəlmiş cəhdlər böyük təhlükə doğurur. Bu kimi cəhdlərin qarşısı qətiyyətlə alınmalıdır. Yaranan problemləri sivill və demokratik vasitələrlə tənzimləmək lazımdır. On illər, yüz illər ərzində Azərbaycan onun ərazisində yaşayan insanların hamısının vətəni olmuşdur. Vahid, bütöv Azərbaycanın saxlanılması və demokratik prinsiplər əsasında inkişaf etdirilməsi Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsinin mühüm xüsusiyyəti və əsas şərtidir».

Heydər Əliyev «Yeni Azərbaycan» siyasi partiyasının yaradılması fikrini dəstəkləyərək, məktubunun sonunda qeyd etdi: «Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edən belə partiya müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi və inkişafında tarixi rol oynaya bilər.

Belə partiya yaradılarsa, mən onun işində fəal iştirak etməyə hazıram».

* * *

O günlərdə (oktyabr, 1992-ci il) qəzetlər Ağstafa, Tovuz, Gədəbəy, Qubadlı rayonlarının sərhəd kəndlərində gedən döyüşlərdən bəhs edərək yazırdı: «...Erməni silahlı dəstələri Ağdama və ona yaxın olan digər yaşayış məntəqələrinə də ağır zərbələr endiriblər. Zərər çəkənlər var, onlarca ev dağıdılıb». Çörək, süd, ət növbələri böyümüşdü – hətta kartoçka ilə də ərzaq almaq hər dəfə mümkün olmurdu. İşsiz insanların sayı günbəgün çoxalırdı. Blokadada olan Naxçıvanda bütün fəlakətlər iki, üç qat artıq idi. Lakin artıq İrandan Araz çayının üzərindən keçən körpü vasitəsilə xilasedici yardımlar gəlirdi. Naxçıvanlılar əzmi ilə yumruq kimi birləşərək respublikanı yaşatdılar.

21 noyabr 1992-ci ildə Naxçıvanda «Yeni Azərbaycan» partiyasının təsis konfransı keçirildi. Ölkənin ayrı-ayrı regionlarında yaradılmış fəallar qrupunun 550 nəfərdən artıq nümayəndəsi partiyanın nizamnaməsini və proqramını təsdiq etdilər. Və Heydər Əlirza oğlu Əliyev açıq səsvermə yolu ilə «Yeni Azərbaycan» partiyasının sədri seçildi.

* * *

«Harada yaşayırsan yaşa, bu sənin öz işindir, lakin doğma torpaqdan əziz heç nə ola bilməz!» – Heydər Əliyev bu sözü təkrar etməyi sevirdi. O, respublikaya qayıdandan, artıq müstəqilliyə qovuşmuş Azərbaycana yenidən rəhbərlik etməyə başlayandan sonra körpülər yaratmaq, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün tez-tez uzaq səfərlərə çıxdı. Qayıdanda onu qarşılayan rəsmilər arasında, amma bir qədər arxada oğlu İlham Əliyev də dayanırdı. Növbəti səfərdən sonra aeroportda çəkilmiş bu şəkildə olduğu kimi, trapla düşən ata qarşılayanlara əl eləyir.

Oğul hər cəhətdən, həm qəddən, həm qamətdən atasıdır ki, durub...

«Nərdivanla yavaş-yavaş düşürlər...» – şair və hökmdar Şah İsmayıl Xətai belə deyərdi. Başqa bir mütəfəkkir isə xəbərdarlıq edirdi: «Unutma ki, arxasınca getdiyin adamı heç zaman ötüb keçə bilməzsən». İlham Əliyev atasından öyrənməyi, onun arxasınca getməyi şərəf sayırdı.

«Heydər Əliyevə xas xüsusiyyətlər, keyfiyyətlər heç kimdə, o cümlədən məndə də yoxdur. Amma mən öyrənirəm, hər ehtimala qarşı çalışıram ki, öyrənim. Hesab edirəm ki, bu dünyada öyrənməkdən gözəl heç nə yoxdur. İnsan nəyi bilmirsə, utanmamalıdır, əksinə, o, sual verməlidir.

Mənim xoşbəxtliyim ondadır ki, mən o, dahi şəxsiyyətin yaxınlığındayam və mənim daha çox öyrənmək imkanlarım var...»

Daha bir foto-şəkil: ata və oğul. İlham əllərini sinəsində çarpazlayıb, dodaqlarında zərif təbəssüm – tam diqqət kəsilib. Ata nə isə vacib bir şey haqqında danışır. Respublikanı dolanacaq bu şəkil aydın məcazi məna kəsb edəcək, siyasi kursda varislikdən xəbər verəcək.

Yolun təhlükəli olmasına baxmayaraq İlham Əliyev tez-tez Naxçıvanda fəaliyyət göstərən atasına baş çəkirdi. O görürdü ki, atası Moskva sınaqlarından sonra arıqlayıb, keçirdiyi xəstəliyin öhdəsindən gəlib və hətta ola bilsin ki, özünü Moskva hadisələrini unutmağa vadar eləyib. O, yenə mübarizə meydanında idi. Oğlu da yanında. İlham «Yeni Azərbaycan» partiyası gənclər qatarının liderinə çevriləcəkdi. 1999-cu ilin dekabr ayında onu müavin seçəcəkdilər, 2001-ci ildən isə partiya sədrinin birinci müavini. Lakin hələ bu hadisələr qabaqda idi. Hələ ən cəsur analitiklər belə söyləyə bilməzdilər ki, çox tezliklə partiya hakimiyyətə gələcək.

İlham Moskvada sahibkarlıqla məşğul olurdu. Onun yaratdığı kampaniyada çoxlu sayda azərbaycanlı çalışırdı, sonralar özlərini «Böyük demokratlar» sayan müxalifət nümayəndələri tezliklə biznesi də ona irad tutacaq, hətta böhtanlar deməkdən belə çəkinməyəcəklər.

«Mən Moskvada bizneslə məşğul olurdum və bununla fəxr edirəm, – İlham Əliyev cavab verdi. – Mən bunu heç zaman danmamışam. Yaradılmış, nizama salınmış bu kampaniya Moskvada açılmış ilk Azərbaycan ocağı idi. Bu öz yerində, bu kampaniyada Moskvada yaşayan azərbaycanlılar çalışırdılar, qazanırdılar. Mən o zaman da, bizneslə məşğul olmaqla, öz zəhmətimlə xalqıma xidmət etmişəm.

Bununla belə, Moskvada vəziyyət gündən-günə gərginləşirdi: Azərbaycana da qayıtmaq mümkün deyildi – Bakıdan təhdidlər eşidilirdi. Ona görə də Türkiyəyə yola düşdüm. Moskvada yaratdığım kampaniyaya oradan rəhbərlik etməyə başladım...»

«Mənim Türkiyəyə ilk gəlişim 1992-ci ildə baş tutdu, – on il sonra «Sabah» qəzetinə verdiyi müsahibəni İlham Əliyev belə xatırlayır. – O zaman atam Naxçıvanda Milli Məclisin sədri idi, amma mən Moskvada yaşayırdım. 1992-ci ildə gəldim, atamla görüşdüm. Naxçıvandan İstambula öz maşınımla yola düşdüm... Türkiyəni də çox sevirəm, türk xalqını da.

– İstambulda yaşadınızmı?

– Bəli, özü də uzun müddət. «Ulus» məhəlləsində mənzil kirayə etdim və söylədiyim kimi ticarətlə məşğul olmağa başladım. Və bu da imkan verdi ki, Türkiyənin böyük bir hissəsini gəzib dolaşım. İstambulu və Antalyanı daha çox sevirəm.

Türkiyə bizi həmişə maraqlandırıb. Amma əlimiz çatmırdı. Biz hamımız Türkiyənin xiffəti ilə böyümüşük. 70-ci illərdə Emel Sayının Azərbaycanda konsertlər verməsini indi də xatırlayıram. Desəm ki, onun konsertləri bizdən ötrü çox böyük təntənə idi, inanarsınızmı? Biz Azərbaycan türkləri Türkiyə və onun insanları haqqında həmişə düşünmüşük: «Maraqlıdır, görəsən onlar necə yaşayırlar, necə dolanırlar?» («Sabah», 1 sentyabr, 2003-cü il).

Türk müğənnisi Emel Sayını indi məşhurlar sırasında sayırlar. Bakıda o uğurla çıxışlar edirdi və artıq yuxarı siniflərdə oxuyan İlham onun konsertlərinə dostları ilə gedirdi.

* * *

1993-cü il fevral ayının ortalarında Heydər Əliyev Moskvada xəstələnmiş qızına baş çəkdi. Moskvanın böyük rəisləri Əliyevin gəlişini bildilər, amma ekspertlərin H.Əliyevin siyasi ambisiyalarını saxladığını və onun yaratdığı «Yeni Azərbaycan» partiyasının qarşıdakı parlament seçkilərində müəyyən şanslarının olduğunu söyləsələr də, onunla görüşmək istəmədilər. Bu proqnoz da özünü doğrultdu: 1993-cü ilin iyun ayında Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başladı.

Xalq Heydəri seçdi

Moskvadakı «hərarətli» görüşlə Bakıdakı tarixi dəyişikliyi cəmi üç ay ayırır ki, bu zaman kəsiyi də tarixi baxımdan çox cüzidir. Amma 1993-cü ilin fevral ayındakı Azərbaycanla iyun ayındakı Azərbaycan – iki fərqli ölkədi. Siyasi vulkanın püskürməsi deyəsən yalnız diletantlar üçün gözlənilməz oldu. Bəsirətli siyasətçilər hərəkatın dərinlərdən gələn gücünü səthə baxmaqla da hiss edirlər. «Belə siyasət iflasa məhkumdur», – deyə Heydər Əliyev prezident Elçibəylə bir neçə saat sürən söhbətində belə dedi. Bəs cavabında nə eşitdi? «Biz idarə etməyi öyrənirik. Qoy təcrübəsizlər təcrübə toplasınlar. Əgər toplaya bilməsələr, biz onları kənarlaşdırarıq, yeniləri ilə əvəz edərik». «Bəyəm, xalqın üzərində təcrübə keçmək olar?»

Beləcə, dünyagörmüş, müdrik insan hakimiyyət başında olan həmsöhbətinə etirazını bildirdi.

«Təcrübəsizlər» kənarlaşdırılmalarını və əvəz olunmalarını gözləyə bilmədilər. Çar dövründə Yelizavetpol, Kirov qətlə yetirilməndən sonra Kirovabad adlandırılan Gəncə qiyamı başladı. Polkovnik Surət Hüseynov tankları Bakıya yönəltdi. Prezident Elçibəy gündə iki-üç dəfə Naxçıvana, Əliyevə zəng vurardu və yalvarırdı ki, Bakıya uçsun və ölkəni xaosdan xilas etsin.

Sonralar Heydər Əliyev xatırlayırdı: «Mən telefonla Elçibəylə danışdım və Bakıya gəlməkdən imtina etdim. İyunun doqquzunda Surətin qoşunları Bakının yüzkilometrliyində idi. Onun adamları təhqir olunmuşdular. Deyirdilər: «Bakıya gəlsək, cinayətkarları dirəklərdən asacağıq!» Elçibəy yenidən dalımca təyyarə göndərdi. Yalvardı ki gəlim. Mən razılaşdım.

Etiraf edim ki, fəlakətə uçmaq qorxulu idi, amma başa düşürdüm ki, uçmalıyam, çünki xalqın taleyi həll olunurdu. Gəldim. Elçibəylə bir neçə saat söhbət etdik. O, mənə hələ də öz həmfikiri Pənah Hüseynovun daşıdığı baş nazir postunu təklif etdi. Mən imtina etdim. Onlar Elçibəyin yanında yığılıb məni dinləyirdilər. İsa Qəmbərov (Ali Sovetin sədri – müəl.) dözməyib dedi: «Biz düşünürdük ki, bizə məsləhət verəcəksiniz, amma siz bizə ittihamnamə oxudunuz!»

Həqiqətən də belə idi!

15 iyun 1993-cü ildə Heydər Əlirza oğlu Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Əlavə edirik: gizli səsvermə yolu ilə seçilib. Deputatların çox böyük bir hissəsi ona səs vermişdilər. 15 iyun Azərbaycanda ümumxalq bayramı – Milli Qurtuluş günüdür.

Daha bir neçə vacib hadisəni qısaca qeyd edək.

24 iyunda Milli Məclis heç bir şişirtməsiz – tarixi qərar çıxartdı:

«1. Təsdiq edilsin ki, Əbülfəz Qədirqulu oğlu Əliyev (Elçibəy) bundan sonra Azərbaycan Respublikasının prezidenti vəzifəsini icra edə bilməz.

2. Azərbaycan Respublikası prezidentinin səlahiyyətləri Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əlirza oğlu Əliyevə həvalə olunsun».

İndi onun rəsmi titulu belə səslənirdi: Azərbaycan Respublika prezidentinin səlahiyyətlərini icra edən Azərbaycan Respublikası Ali Sovetinin sədri.

* * *

O zaman Moskvadakı Azərbaycan səfirliyində məsləhətçi işləyən, hazırda «Trud» qəzetinin baş redaktor müavini olan Rəfael Hüseynovun ilk dəfə bizə danışdığı epizodu o iyun günləri ilə tamamilə əlaqələndirmək olar. Heydər Əliyev onu hələ Bakıdan tanıyırdı – Rəfael «Molodyoj Azerbaydcana» qəzetinin baş redaktoru olmuşdu, sonralar «Komsomolskaya pravda» da işləmişdi» – etibar qazanmışdı. Və indi Heydər Əliyev, kənar qulaqlar üçün əlyetməz «VÇ» ilə zəng vuraraq xahiş etdi ki, İlhama təcili Bakıya uçmağa kömək etsin.

Əlbəttə, Rəfael heç soruşmayıb ki, niyə bu məsələ təcili həll olunmalıdır?; Uçuşu sabaha saxlamaq, cavan oğlana toparlanmaq üçün vaxt vermək olmazdımı? Demək belə lazımdı!

Vəssalam! O telefonla İlhamla danışandan sonra bilet sifariş verdi. İlham evə qaçdı, Dmitrov küçəsindəki həmin evə; o evi ki, vəd olunmuş o mənzili Rıjkovun köməyi ilə almışdı. Vacib şeylərini çantasına dolduranda, Rafiq artıq onu səfirliyin «Volqa»sında həyətdə gözləyirdi.

Və onlar Domodedova aeroportuna üz tutdular.

Moskvadan o təcili uçuşdan ancaq üç nəfərin xəbəri var idi: Heydər Əliyevin, Hüseynovun və İlhamın. Təyyarə havaya qalxandan sonra diplomat Bakıya zəng vurdu. Heydər Əliyev: «Çox sağ ol, Rəfael», – dedi. Oğlunun ən etibarlı adamın yanında olmasının ondan ötrü nə qədər vacib olduğunu başa düşürük. Faktiki olaraq onlar, bir daha – ezamiyyətlər bu yerdə hesaba alınmır – ayrılmadılar, çiyin-çiyinə işlədilər, ortaq fikir, birgə fəaliyyət onları ayrılmağa qoymadı.

* * *

29 avqust 1993-cü ildə Azərbaycan prezidenti Əbülfəz Elçibəyə etimad haqqında referendium keçirildi. Cəmi il yarım qabaq o, 1800 000 səs toplamışdı, demək olar ki, seçicilərin 60 faizi onlara səadət vəd eləyən tarixçi alimə səs vermişdilər. Bu kapitalı tamamilə xərcləyib qurtarmaq üçün xeyli çalışmaq lazım idi. Amma indi Elçibəyə cəmi 77000 seçici səs verdi. Azərbaycan mifologiyasında səadətdən xəbər verən rəqəmlər – «yeddilər» ona səadət gətirmədi.

3 oktyabr 1993-cü il prezident seçkiləri günü təyin olundu. O ərəfədə, 20 sentyabr 1993-cü ildə Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyev «Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə qoşulması haqqında» qərarı imzaladı. Bu, şəxsən Heydər Əliyevin yazdığı yığcam və mənalı, mühüm siyasi sənəddən sitatlar gətirək.

«Azərbaycan xalqının ali maraqlarını əldə rəhbər tutaraq, həmçinin Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinin iştirakçısı dövlətlərlə tarixi əlaqələrini nəzərə alaraq, həmin dövlətlərlə siyasi, iqtisadi, elmi-texniki, mədəni və sair münasibətlərin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinə qoşulsun.

2. Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinin Kollektiv təhlükəsizlik haqqında müqaviləsinə qoşulsun.

3. Azərbaycan Respublikası prezidentinə bu qərardan irəli gələn lazımi tədbirləri görmək tövsiyə edilsin».

24 sentyabrda Moskvada Birlik ölkələri hökumət və dövlət başçılarının görüşü planlaşdırılmışdı. 21 sentyabrda Rusiya prezidenti Boris Yeltsin Rusiya Federasiyası Xalq Deputatları Qurultayının və ölkənin Ali Sovetinin öz fəaliyətini dayandırması haqqında sərəncam imzaladı. Yeltsin bu sərəncamla eyni zamanda konstitutsiyanı dəyişmək səlahiyyəti əldə etdi. Hökumət evində işığı, suyu, rabitəni və kanalizasiya xidmətini kəsdilər. Doğma parlamentə qarşı çağdaş tarixdə görünməyən blokada başlandı, Moskva çayının qırağındakı binaya hücum hazırlandı.

3 oktyabr 1993-cü ildə Azərbaycan Heydər Əlirza oğlu Əliyevi Prezident seçdi.

4 oktyabrda Moskvada da «seçkilər» keçirildi. Rus ordusunun tankları Rusiya Ali Sovetinə atəş açdılar. Amerikanın televiziyaları bütün dünyaya paytaxtın mərkəzindəki bu qırğın haqqında reportaj verirdi.

Yeltsin Əliyevdən fərqli olaraq dövlət böhranından xilas olmaq üçün sülh yolu, konstitusiyanlı çıxış yolu tapa bilmədi.

Təntənəli andiçmə dəqiqələri. Heydər Əliyev həmvətənlərinə təşəkkür edir və xalq qarşısında daşıdığı məsuliyyətdən söz açır:

«Azərbaycan Respublikası öz müstəqilliyini ağır və çətin bir şəraitdə əldə etmişdir. Respublika üçün ən ağır məsələ beş ildən artıq müddətdə Azərbaycanın müharibə şəraitində olması, erməni silahlı qüvvələri tərəfindən ərazimizə təcavüz edilməsi və bunun nəticəsində Azərbaycan xalqının böyük bəlalara düçar olmasıdır. Ona görə də Azərbaycan Respublikasının müharibə şəraitindən çıxması və vətəndaşlar üçün rahat, sakit, əmin-amanlıq şəraiti yaradılması qarşımızda duran əsas vəzifədir.

Azərbaycanın dövlət rəhbərliyinin buraxdığı kobud səhvlər nəticəsində iyun ayında respublikamız vətəndaş müharibəsi həddinə gəlib çatmış və onun bəzi bölgələrinin parçalanması real bir hal kimi meydana çıxmışdı. Allaha şükürlər olsun ki, bunların qarşısı alındı, bəzi cinayətkar qruplar aradan götürüldü və respublikanın daxilində ictimai-siyasi sabitliyin təmin edilməsi üçün şərait yaradıldı».

VI fəsil

AZƏRBAYCANIN NEFT AÇARLARI

Azərbaycan xalqı – öz təbii
sərvətlərinin sahibidir.
Heydər Əliyev

Əgər neft şahzadədirsə...

1994-cü ildə Heydər Əliyev Azərbaycan neft sənayesinin tarixi haqqında – onun dərsləri və perspektivləri barədə «Azərbaycan nefti dünya siyasətində» adlı çoxcildliklər üzərində düşünməyə başladı. Kitabların nəşri o zaman Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti İlham Əliyevə və onun həmkarlarına həvalə olundu. Bu gün demək mümkündür: Azərbaycanın yeni neft siyasəti və onun dərk edilməsi paralel aparılırdı. Və elə bu da siyasi, iqtisadi, sosial planlarda Prezidentin bu məsələ üzərində son dərəcə dəqiq işləməsindən xəbər verir.

Çoxcildlik prezidentin düşündüyü kimi də meydana gəldi. Vitse-prezident isə (Neft şirkətinin) gözəl təşəbbüs göstərdi və «Azərbaycanın Xəzər nefti» monoqrafiyasını yaratdı. Üz qabığı zil qara – neft rəngində olan bu sanballı kitab 2003-cü ilin əvvəlində Moskvada çapdan çıxdı. Birinci nüsxəni İlham atasına bağışladı.

Biz öz yazımızda bu monoqrafiyaya və eləcə də çoxcildliyə – birinci növbədə peşəkarların və sonra da siyasətçilərin, iş adamlarının yüksək qiymətləndirdiyi bu kitablara hələ dönədönə müraciət edəcəyik. Bizim artıq qələmə aldığımız kimi, bu kitablara ən fərəhləndirici qiyməti Sovet İttifaqı Neft sənayesinin patriarxı Nikolay Konstantinoviç Baybakov verib.

«Azərbaycanın Xəzər nefti» monoqrafiyasını oxuculara təqdim edəndə, o xüsusilə ona xas olan tarixi genişliyi, bütün xəzəryanı bölgənin geostrateji aspektlərinin dərin təhlilini, Xə-

zərin enerji ehtiyatlarının daşınması məsələsini, bu unikal hövzənin hüquqi statusunu... qeyd etdi. Müəllif antik dövrdən orta əsrlərə, oradan isə XIX əsrin əvvəllərinin hadisələrinə – Rusiya 10 fevral 1828-ci il tarixli Türkmənçay müqaviləsinin VIII bəndinə müvafiq olaraq yalnız özünün Xəzər dənizində hərbi donanma saxlamaq hüququna malik olduğunu təsdiqləməsinə keçir.

«Beləliklə, – İlham Əliyev yazır, – bütün XVIII əsr boyu və XIX əsrin əvvəllərində açarı Azərbaycan olan Xəzər hövzəsi üzərində tam nəzarət uğrunda İngiltərə, Fransa, Rusiya, Türkiyə, İran arasında qızğın mübarizə getmişdi. Məhz Xəzərin qərb, Azərbaycan sahili üzərində nəzarət Rusiya imperiyasına bütün Qafqaz-Xəzər regionunda, Bakının zəngin neft yataqları da daxil olmaqla, uzun müddət ərzində hakim geosiyasi qüvvə qisimində çıxış etməyə, XIX əsrin ortalarına Qafqazın tam ram edilməsini başa çatdırmağa, XIX əsrin 60-80-ci illərində İngiltərənin Orta Şərqdə müstəmləkəçilik maraqlarına real təhdid edərək, Türküstanda ekspansionist siyasət aparmağa imkan vermişdir».

XX əsrin axırında Sovet İttifaqının dağılması qüvvələr nisbətini, o cümlədən Xəzər regionunun dünyada rolunu kökündən dəyişdi. Burada yeni dövlətlər yarandı və öz maraqlarını ortaya qoydular. İ.Əliyev bununla bağlı göstərir ki, «Hazırda bu dövlətlərin hər biri meydana çıxan Xəzər problemlərinə öz cavabını axtarır və istəyir ki, bu cavab qlobal dünyanın şərtlərinə cavab versin, onların öz milli təhlükəsizlikləri və sabit inkişafları üçün optimal olsun».

Azərbaycan bu məsələlərə öz cavabını Heydər Əliyevin hazırladığı doğma ölkəsinə və bütün dünyaya təqdim etdiyi, bu günlər isə çağdaş reallıqlardan çıxış etsək İlham Əliyevin davam etdirdiyi yeni neft strategiyası ilə verdi.

...Hələ qədim, çox qədim zamanlar bütpərəstlər Bakı neftinə sitayiş edirdilər. XIX əsrin axırlarında naməlum şahidlərdən biri yazırdı: «Bir zamanlar yalnız balaca bir məbədin içərisini işıqlandıran neft hazırda bütöv bir imperiya hüdudlarına işıq salır və gün gələcək ki, o öz işığı və istisi ilə dünyanın yarısını təmin edəcək». Neftin önündə krallar və çarlar, prezidentlər və şeyxlər, bankirlər və avantürstlər baş əyirlər. Dövlətlər və siyasətçilər neftə görə vuruşublar və bu gün də vuruşurlar.

1918-ci ildə britaniyalı iqtisadçılardan biri yazırdı: «Neft dünyasında Bakının tayı yoxdur. Əgər neft şahzadədirsə, Bakı onun taxtıdır». Taxta namizədlər çox idi – İngiltərə, Almaniya, Türkiyə. 1920-ci ildə Qızıl ordu hamıya öz yerini tanıtdı.

1942-ci ilin 20 aprelində alman generalları Adolf Hitlerə üzərində Xəzər dənizi və Bakı şəhəri təsvir olunmuş tort hədiyyə etdilər. O günlərdə vermaxt – faşist Almaniyasının silahlı qüvvələri – Sovet–alman cəbhəsinin cənub cinahında həlledici döyüşə hazırlaşdı.

Bakı ətrafında müdafiə istehkamdarının inşasına bütün Bakı qoşulmuşdu. Yorucu iş növbəsindən sonra neftçilər bu müdafiə zolağını növbəyə çıxırdılar, tələbələr, məktəblilər, hətta evdar qadınlar da əllərində bel, külüng buraya gəlirdilər. Xoşbəxtlikdən bu hüdudlarda qanlı döyüşlər baş vermədi. Yalnız mədənləri qoruyan zenitçilər atəş açırdılar.

Xəzərin və Bakının konturlarını tortla meydana gətirən şirniyyatçılar və Berlindəki cənablar açıq-aşkar tələsmişdilər.

Böyük Vətən müharibəsi illərində Azərbaycan neftçiləri 75 milyon ton nefti çıxardıblar, 22 milyon ton benzin hasil ediblər. Ümumittifaq neft istehsalının 71,4 faizi Azərbaycanın payına düşürdü. Bununla yanaşı aviabenzinin 80, maşın-sürtgü yağlarının isə 96 faizi Bakıda emal olunurdu. Sovet tankları Qələbəyə doğru Bakı neft ilə gedirdilər.

* * *

«Qara qızıl» Azərbaycanın iftixarıdı. Amma yalnız «Qara qızıl» yox. Respublika həm də özünün «ağ qızıl»ı –pambığı ilə də şöhrətlənib. Amma əski çağlarda Bakının ağ nefti də qiymətini alıb. Vladimir İvanoviç Dal özünün məşhur lüğətində qeyd edib: «neftin ağı da olur – dumduru; qarası da olur – qətran kimi qatı və nəhayət, bərki də mövcuddur – şist kimi elastik. Neft bulaqları (Dal necə də dəqiq ifadə tapıb) vulkanik ərazilərdə, məsələn, Bakının yaxınlığında olur, belə yerlərdə neftin yığılması və ya üzə çıxması üçün quyular qazırlar.

Dal «Neftyanıe klyuçi» ifadəsi işlədir. «Klyuç» rus dilində çoxmənalı sözdür. O həm də su mənbəyi – bulaqdır. Rus dilində «Klyuçevaya voda» (bulaq suyu) ifadəsi var. Bəzən belə də deyirlər: «hündür, möhkəm yerdi, ərazinin açarıdır». Amma bu sözü keçmiş əyyamlarda deyirdilər, indi isə hakim yüksəklik deyərdilər; kilidin, qapının, məcazi mənada dənizin, səma-

nın, ölkənin açarı olur; qübbədə elə bir daş olur ki, bütün tikilini saxlayır – bu da açar daşdır... Azərbaycan tikilisində belə açar daş Heydər Əliyev və İlham Əliyevin neft siyasətidir.

Peşəkarların komandasında

Heydər Əliyev yaxşı bilirdi ki, əsrlərdən bəri qaynayan Xəzər xəzinəsini hansı açarla açmaq olar, ölkənin yeni neft siyasətində hansı adamlara arxalanmaq mümkündür. Birinci olaraq biz Heydər və İlham Əliyevlərin soyaddaşı, halhazırkı sənaye və energetika naziri Əliyev Natiq Ağəmi oğlunu yada salaq. (Saytlardan birində zirək oğlanlar onu da Heydər Əliyevin oğlu kimi qələmə veriblər). Rusiyada İvanov və Petrov soyadları geniş yayıldığı kimi, Azərbaycanda da Əliyev soyadı, hələ bəlkə onlardan bir qədər də artıq məşhurdur. Natiq Ağəmi oğlu 1993-cü ildən Heydər Əliyevin şəxsi təklifi ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə rəhbərlik edir.

O, həkim ailəsində böyüsə də, təbabət onu cəlb etməyib. O illər zəhmət adamlarının qızıl dövrü idi, Bakı və Tümen neftçilərinin, Donbas şaxtaçılarının, Sibirin elektrik stansiyaları inşaatçılarının adları, necə deyərlər, hər yanda gurlayırdı. Azərbaycanda ən geniş yayılmış peşə neftçi sənəti idi; buruq ustalarının, geoloqların, sənaye istehsalat təşkilatlarının adları qəzetlərin birinci səhifəsindən düşmürdü. Onlara cəmiyyət hörmət bəsləyirdi, dövlət isə mükafatlandırırdı. «Etiraf edirəm ki, mən də uşaqlıqdan, yeniyetməlik illərindən şöhrətpərəstlik hissi var idi, – Natiq müsahibələrindən birində belə deyib. – Və elə ona görə də orta məktəbi bitirən kimi sənədlərimi Azərbaycan Neft və Kimya institutuna verdim; o, Azərbaycanın ali təhsil ocaqları sırasında ən nüfuzlusu sayılırdı».

Sonra gənc mütəxəssisin adi həyat yolu başlandı: qazmaçı köməkçisi, texnik-geoloq, mühəndis-geoloq, aspirantura, elm və yenə istehsalat. 1991-ci ilin avqust ayından sonra alimin, partiya işçisinin Sovet neftçilik təcrübəsinə menecer ixtisası da əlavə olundu. Prezident Əliyev Neft şirkətini Natiq Əliyevə etibar etməkdə yanılmamışdı. Şirkətin prezident müavinlərindən biri İlham oldu.

Natiq Əliyev, Xoşbəxt Yusifzadə və başqa görkəmli peşəkar neftçilərlə birgə fəaliyyət İlhamı yeni biliklərlə zənginləşdirdi, ona təcrübə qazandırdı.

– İşin başlanğıcında belə cavan adamın neft şirkətində vitse-prezident kimi fəaliyyətə başlaması məni bir qədər düşünməyə məcbur etdi, – «ARDNŞ»in birinci vitse-prezidenti, texniki elmlər doktoru Xoşbəxt Yusifzadə o günləri belə xatırlayır. – O zamanlar biz xarici firmalarla əməkdaşlıq etməyə, müqavilələr haqqında danışıqlar aparmağa yenicə başlamışdıq. İlham Heydər oğlu bu müzakirələrə birbaşa qatılırdı. Və özünün bütün yüksək cəhətlərini göstərirdi. «MDBMİ»nin məzunu, tarix elmləri namizədi öz məcrasına – Beynəlxalq əlaqələrin canlı meydanına düşmüşdü. Danışıqların gedişində asanlıqla bir dildən o birinə – ingilis, fransız, rus dillərinə keçirdi. Və suçəkən kimi neftçilik hikmətlərini özünə çəkirdi. Bir sözlə, İlham Əliyev yeni həmkarları ilə asanlıqla uyğunlaşdı, necə deyərlər, kollektivə qaynayıb qarışdı.

Bəs İlham Heydər oğlu Neft aləmində neftçi kimi qəbul olunmasını özü necə xatırlayır: «Heç zaman düşünməmişdim və ağlıma da gəlməmişdi ki, haçansa mənim taleyim neft aləmi ilə bağlanar. Prezident məni yanına çağırdı və dedi: bu işlə məşğul olmaq lazımdır, bu ölkə üçün çox vacibdir. Ata sözü mənim üçün qanundur. Əgər o deyirsə, deməli, lazımdır. Yeni işdən yapışmaq lazımdır və həmişə olduğu kimi var qüvvə ilə». Bir sözlə, İlham başqa cür də edə bilməzdi.

* * *

1994-cü ilin sentyabr ayı. Əsası Heydər tərəfindən qoyulmuş «Əsrin müqaviləsi» məhz o zaman Azərbaycanda və eləcə də başqa ölkələrin siyasi-işgüzar dairələrində enerji formulasının başlanğıcı kimi intişar tapdı. «Əsrin müqaviləsi» – bu nə deməkdir? Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Beynəlxalq konsorsium kampaniyaları arasında Azərbaycanın Xəzər dənizi sektorunda «Çıraq», «Azəri» və «Günəşli» kimi neft yataqlarının birgə istismarı haqqında anlaşmanın rəsmiləşdirilməsi.

İlham Əliyev bu fikrə bir qədər aydınlıq gətirərək qeyd edir ki, Azərbaycanın neft ehtiyatlarının çıxarılması işinə Qərb kapitalının cəlb edilməsi ideyası hələ ötən yüzilliyin 80-90-cı illərində meydana gəlmişdi. 1991-ci ildə Sovet İttifaqı Neft və Qaz Sənayesi Nazirliyi və Azərbaycan SSR Nazirlər Soveti iri miqyaslı «Azəri» neft yatağının öyrənilməsi və istismarı barədə tender elan etmişdi. 1991-ci ilin iyun ayında tenderi Ame-

rikanın «Amoko» Şirkəti uddu; o «Xəzərdənizneft»lə birgə müəssisə yaratmalı idi. Lakin həmin ilin axırında nə Sovet İttifaqı var idi; nə də Azərbaycan Sovet Sosialist Respublikası. Azərbaycanda hakimiyyəti Xalq cəbhəsi ələ keçirmişdi.

İndi isə belə bir məqama diqqət yetirək. «Əsrin müqaviləsi»nin təntənəli imzalanması 20 sentyabr 1994-cü ildə baş tutdu. Heydər Əliyev hakimiyyətə gələndən bir il sonra. Bu kontrakt ilkin danışıqlardan sonra planlaşdırıldığı kimi 21 iyul 1993-cü ildə imzalanmalı idi və Əbülfəz Elçibəy artıq İngiltərəyə yola düşməyə hazırlaşırdı. Yəqin ki, yadınızdadır, gözlənilmədən o öz marşrutunu dəyişməli oldu.

Diletantlar xarici kampaniyalarda ölkəni asılı vəziyyətə salan müqavilələr bağlamağa hazır idilər, lakin görünür, özlərinə münasib şərtlərlə. Variantların mahiyyətini gözəl «üzlük» çəkilmiş reklam çağrışı ifadə edə bilərdi: «Total hərrac». Amma burada söhbət yerə atılmış əskidən yox, yeraltı sərvətlərdən gedir. Hansısa bir iş adamı vəd etmişdi ki, «Çıraq» yatağının mənimsənilməsi üçün altı il ərzində 21 milyon dollar ayıracaq. Və bununla da çıxarılan neftin və səmt qazın ağası olacaq, bu məhsulları Azərbaycanda bazar qiymətinə satacaq. «Çıraq» artıq üç il idi ki, mənimsənilməyə başlanmışdı, hasil olunmuş neftin hesabı milyon tona yaxınlaşırdı.

O hadisələr haqqında İlham Əliyev yazır ki, xarici kampaniyalar qərara gəldilər ki, 8 neft kampaniyasının anlaşmasını ifadə eləyən 70 milyon dollarlıq bonusu –(22 iyun 1993-cü il tarixli neft layihəsinə əsasən) Azərbaycana təklif etməklə hakimiyyəti şirniləndirsinlər. Amma bu bonus müqavilə imzalanandan sonra veriləcəkdi. *Bonus* – latın sözüdür, hərfi tərcüməsi *xeyirxah, yaxşı* anlamına gəlir. Kommersiya münasibətlərində mükafatları, həvəsləndirmə endirimlərini belə adlandırırlar. Özü də əgər satıcı alıcının başını piyləyib ona bir xeylı mal – özü də nəğdi pula sırıyırsa... O vəziyyətdə bu «mükafat» açıq-aşkar tulapayına bənzəyirdi. Və elə buna görə də dövlət başçısı ləyaqətlə ondan imtina elədi. Sazişin imzalanması təxirə salındı. İlham Əliyev Heydər Əliyevin «Çikaqo Tribun» qəzetinə verdiyi müsahibəsində ortaya qoyduğu mövqeyi yada salır:

– Mən başa düşürəm ki, Azərbaycana cəlb olunan neft şirkətlərinin öz maddi maraqları var. Bu tamamilə təbiidir. Amma biz, eyni zamanda öz ölkəmizin maraqlarını şirkətlərin maraqlarından üstün tutmalıyıq.

Danışıqlar çox çətin gedirdi. İlham Əliyev onları belə xatırlayır:

«Xəzər» dənizinin statusunun həlli problemi o qədər kəskin qoyulmuşdu, Azərbaycana diplomatik təzyiq o qədər güclü idi və bütün bunlar «Biz yol vermərik!» kimi ən müxtəlif diplomatik notalar və bəyanatlarla müşayiət olunurdu ki, xarici neft şirkətləri bu tezisi müqavilənin şərtlərinə daxil etmişdilər. Yəni müqavilə Xəzər dənizinin statusu müəyyənləşəndən sonra qüvvəyə minəcək. Bu, faktik olaraq o demək idi ki, müqavilə imzalanacaq, lakin qüvvəyə minməyənəcən və deməli, həyata keçirilməyəcək. Təbii ki, biz bununla razılaşa bilməzdik və danışıqlar çətin vəziyyətə düşdü. Onda Azərbaycan Respublikasının Prezidenti məni o zaman yekun danışıqları gedən Hyustondan Vaşinqtona, ABŞ energetika nazirliyinin rəhbərliyi ilə görüşə ezam etmək qərarına gəldi. Məni ABŞ-ın o zamankı energetika nazirinin müavini B.Uayt qəbul etdi. Bu məsələ üzrə Azərbaycanın mövqeyi izah edildi, müqavilədə Xəzərin statusu haqqında tezisin olması və bunun da heç bir nəticəyə gətirib çıxarmayacağı bildirildi. Yalnız ABŞ hökumətinin müdaxiləsindən sonra xarici neft şirkətləri bu bəndi çıxartmağa razılıq verdilər. O zaman onlar razılaşmasaydılar, bu gün «Çıraq» yatağında heç bir iş (Xəzərin statusu məsələsi həll oluncaya kimi) getməzdi və təbii ki, heç bir nəticə əldə olunmazdı».

İlham Əliyevin o vaxt, hər şeyin bir tükdən asılı olduğu o dövrdə uzunsürən, cansıxıcı danışıqlar barədə verdiyi müsahibələrindən daha bir neçə təsirli ifadəni yada salaq.

«...tərəflərdən hər biri, təbii ki, öz maraqlarını maksimum gözləməyə çalışırdılar. Hərdən iş çətinə düşürdü. Xüsusilə də danışıqların 1994-cü ilin yazı və yayında İstambulda və Hyustonda aparılan son mərhələləri çətin gedirdi. Danışıqların gedişində böhranlı anlar da olurdu. Və Azərbaycan tərəfi danışıqları dayandırmağa çox yaxın idi. Çünki bəzi şərtləri ölkənin maraqları üçün qeyri-məqbul saydığından onlarla razılaşa bilməzdi. Biz xarici şirkətlərə deyirdik: «Siz ayrı-ayrı şirkətlərin maraqlarını gözləyirsiniz, biz isə ölkənin və Azərbaycan xalqının maraqlarını gözləyirik. Siz səhvə yol versəniz, bu sizin şirkətin layihəsinə təsir edəcək. Biz səhv etsək, bu səhv bütün Azərbaycan xalqının maraqlarına zərər verəcək. Başqa sözlə, biz heç bir səhvə yol verə bilmərik»«. Opponentlər deyirdilər ki, gəlirlər xarici firmaların cibinə axacaq. İlham

Əliyev buna belə cavab verirdi: «... «Əsrin müqaviləsi»ndən gələn bütün gəlirin 80 faizi 30 il ərzində Azərbaycana çatacaq, xarici şirkətlərin hamısına birlikdə isə cəmisi 20 faizi».

«Əsrin müqaviləsi» Azərbaycanın XXI əsrə iqtisadi və siyasi sıçrayışı oldu. Sözsüz, bu hər şeydən öncə Heydər Əliyevin – onun dərrakəsi, iradəsi, enerjisinin xidmətidir. Bütün dünyada əks-səda verən bu tarixi hadisə haqqında bir qədər ətraflı danışaq.

4 fevral 1994-cü ildə Azərbaycan Prezidenti Heydər Əliyev «Azərbaycanın neft və qaz yataqlarının işlənməsinin sürətləndirilməsi barədə» sərəncam verdi. Bu strateji sənəd ölkənin dövlət neft kampaniyasının, daha doğrusu, onun rəhbərlərinin, dünyanın iri neft-qaz kampaniyalarının menecerlərinin, ev sahibləri ilə danışıq aparan nümayəndə heyəti üzvlərinin danışıqlarının əsasında dururdu. İlham Əliyev 1995-ci ilin oktyabr ayında həmin danışıqlar barədə «Günay» qəzetinə ətraflı müsahibəsində danışıb. Bu söhbət ona görə çox maraqlıdır ki, neft layihələri haqqında danışıqların xüsusi çərçivəsindən çıxır, artıq bizim də təqdim etdiyimiz kimi böyük məna, məzmun kəsb edən detallar dəyərləndirilir.

«2 may 1994-cü ildə, mənim bu vəzifəyə təyin olunandan bir gün sonra (ARDNŞ-in vitse-prezidenti), bizim nümayəndə heyəti danışıqlar aparmaq üçün İstambula yola düşdü, – İlham Əliyev deyir, – İstanbulda biz iki dəfə olduq. Birinci dəfə 20 gün. İkinci dəfə bir aya yaxın. Danışıqlar aparılandan sonra biz zənn edirdik ki, bütün məsələlər həll olunub. Əslində isə, 1994-cü ilin iyulunda Hyustona, danışıqların sonuncu mərhələsinə gələndə, düşünürdük ki, burada bir həftə, ən çoxu on gün qalıb, müqavilələrdəki bəzi üslubu qüsurları aradan qaldırıb, bəzi xırda mübahisəli məqamları dəqiqləşdirib Bakıya qayıdacağıq. Lakin gözlədiklərimizin əksinə olaraq danışıqların gedişində çoxlu mübahisəli məsələlər ortaya çıxdı və biz Hyustonda 45 gün qalmalı olduq. Hərdən vəziyyət o qədər gərginləşirdi ki, gah biz, gah da qarşı tərəf danışıqları dayandırmaq istəyirdi.

ARDNŞ-nın vitse-prezidenti kimi, mən başa düşürdüm ki, müqavilə bağlanmalıdır, lakin digər tərəfdən başa düşürdüm ki, o yalnız sərfəli şərtlərlə bağlanıla bilər. Çünki nə bu gün, nə sabah və ya on il sonra kimsə məni Azərbaycanın maraqlarına zidd müqavilə bağlamaqda günahlandırmamalıdır. Bu iki hiss nümayəndə heyətinin hər bir üzvünün qəlbində mübarizə

aparırdı. Çıxış yolunu mən məsələnin yalnız siyasi həllində gördüm.

Ağ evdəki, dövlət departamentindəki görüşlərdə mən mövqeyimizi bildirib, dedim ki, Azərbaycan müqavilə bağlamaq istəyir, lakin biz təklif olunan şərtlərlə razı deyilik. Əgər müqavilə bu şərtlərlə imzalanacaqsa, onda mənsiz.

Mən Amerikanın energetika naziri ilə görüşdüm, biz bir daha bu məsələni müzakirə etdik. Müzakirənin əsas mövzusu Xəzər dənizinin statusu məsələsi idi. O zaman konsorsiuma daxil olan şirkətlər deyirdilər ki, müqavilədə belə yazılmalıdır: işlər Xəzər dənizinin statusu müəyyənləşdirilməndən sonra başlanmalıdır. Yəni biz müqavilə bağlayırıq və o hətta qanuni qüvvəyə minir, amma Xəzər dənizinin statusu məsələsi açıq qalır. Axı siz bilirsiniz ki, bəzi ölkələr status məsələsinin açıq qalmasında maraqlıdırlar. Mən onda təkid etdim: bu ifadə götürülməsə, müqavilə imzalanmayacaq. Amerikanın energetika naziri məni dəstəklədi və bu maddə çıxarıldı. Müqavilənin bağlanmasında mən xeyli zəhmət çəkmişəm. Amma mən bunu şişirtmək istəmirəm».

– Əgər sabah, Allah eləməsin, ARDNŞ-nın vitse-prezidenti Ilham Əliyev ciddi səhvə yol versə Azərbaycan Prezidenti onu bağışlayarmı? – müxbir soruşur.

– Məncə, oğlu kimi bağışlayar, amma ARDNŞ-nin vitse-prezidenti kimi yox. Özü də əsas məsələ onun bağışlayıb-bağışlamaması deyil, mən özüm özümü bağışlamaram və əgər belə bir hadisə baş versə, işdən gedərəm.

ARDNŞ vitse-prezidenti ilə Azərbaycan Prezidentinin fikri həmişəmi üst-üstə düşür? Moskva dövründə, çətin zamanlarda Siz həmişəmi atanızın mövqeyində dayanmısınız?

– Bəli, bütün dövrlərdə atamın mövqeyində dayanmışam. Çünki bilirdim ki, o, haqlıdır. Mən indi də onun mövqeyindəyəm. Birincisi bu mənim bir oğul kimi borcumdur, ikincisi, hesab edirəm ki, bugünkü vəziyyətdə bu ən düzgün mövqedir və Azərbaycanın müstəqilliyinə xidmət edir.

– Onda sualı belə qoyaq: sizin aranızda, az da olsa, fikir ayrılığı olurmu?

Siyasi məsələlərdə – yox. Azərbaycanın geosiyasi vəziyyəti elədir ki, hazırda bizim bir neçə əsas prinsiplərimiz olmalıdır. Ən vacib məsələ suverenliyin qorunmasıdır. Prezidentin bu yolda apardığı işlər təqdirəlayiqdir. Mən onu dəstəkləyirəm və dəstəkləyəcəyəm də. Ola bilər ki, hansısa xırda məsələlərdə

mənim öz fikrim olsun. Lakin hazırda vəziyyət elədir ki, diskussiya açmaq olmaz. Hazırda xalqımız da, cəmiyyətimiz də, bir sözlə, hamımız bir nöqtəyə vurmalıyıq.

– *Azərbaycan Prezidenti ilə tez-tez görüşürsünüzmü?*

– Bəli.

– *Neft şirkətinin işindən başqa, o, oğlunun ailə, məişət məsələləri ilə, nəvələri ilə maraqlanırmı?*

– Bəli, çox maraqlanır. Nəvələri üçün çox darıxır. Çünki ailə üzvlərimiz uzun müddət ayrı yaşayıblar. Mən 1977-ci ildə Moskvaya köçmüşdüm. Sonra bacım Moskvaya köçdü. 83-cü ildən hamımız Moskvada toplaşdıq. Sonra atam Naxçıvana getdi və biz yenə ayrıldıq. Hazırda bacım xaricdədir. Əlbəttə, atam uşaqları üçün darıxır, onlarla daha çox bir yerdə olmaq istəyir. Onları bir vaxtlar məni tərbiyə etdiyi kimi, tərbiyə etmək, böyütmək istəyir.

– *İlham müəllim, ata məsləhətinə ehtiyac duyursunuzmu?*

– Əlbəttə, mən bu fikirdəyəm ki, əgər insan özünü kifayət qədər yetkin hesab edirsə, o özü qərar qəbul etməli və məsuliyyət daşımalıdır. Mən hərdən atama məsləhət üçün müraciət etsəm də, hər halda öz problemlərimi özüm həll etməyə çalışıram. Mən çoxdan müstəqil həyata alışmışam. Prezidentin işi onsuz da çoxdur, hər hansı şəxsi məsələmlə onu narahat etmək istəmirəm.

Danışıqların yekunlarına əsasən 14 sentyabr 1994-cü ildə Prezident sərəncam imzaladı. Bu sənəddə layihənin siyasi, sosial və iqtisadi əhəmiyyəti dəyərləndirilir. ARDNŞ-in prezidenti Natiq Əliyevə (prezidentin nə oğlu, nə qardaşı, nə də kürəkənidir) tapşırılsın ki, «Azəri», «Çıraq» və «Günəşli» yatağının dərin sulu hissəsində birgə iş aparılması barədə sərəncam imzalansın, neft məhsullarının pay bölgüsündə ARDNŞ-lə yanaşı doqquz xarici kampaniya, o cümlədən, Rusiyanın «Likoyl» şirkəti iştirak etsin. Öncə Azərbaycan «Lukoyl»u və o cümlədən, İran və Fransa şirkətlərini konsorsiuma daxil etməkdən imtina etmişdi.

Müqavilələrin təntənəli surətdə imzalanması mərasimi 20 sentyabr 1994-cü ildə «Gülüstan» sarayında keçirildi. Bakıya Birləşmiş Ştatlardan, Böyük Britaniyadan, Rusiyadan, Türkiyədən, Norveçdən nazirlər, parlament üzvləri və sahibkarlar gəlmişdilər. Heydər Əliyev üzünü qonaqlara tutaraq dedi:

– Neft Azərbaycan Respublikasının və Azərbaycan xalqının ən böyük milli sərvətidir. Azərbaycan qədim dovrlərdən

neft diyarıdır, neft və qaz kimi təbii sərvətlərə malikdir. Buna görə də Azərbaycanı Odlar diyarı adlandırırlar.

Əliyev Böyük Vətən müharibəsi illərində faşizm üzərində qələbədə Azərbaycan neftçilərinin göstərdiyi xidməti dəyərləndirərək, Respublikada neft istehsalının tarixindən iftixarla söz açdı.

– Sovet İttifaqının hər yerində yeni neft yataqlarının aşkara çıxarılmasında, onların istismar edilməsində Azərbaycanın neft sahəsində çalışan alimlərinin, mütəxəssislərinin, neftçilərimizin güclü fəaliyyəti olmuşdur. Təsadüfi deyildir ki, onların səyləri və əməyi sayəsində Sovet İttifaqı ərazisində aşkara çıxarılan yeni neft yataqları «İkinci Bakı», «üçüncü Bakı» və «dördüncü Bakı» adlandırılmışdır. Rusiyanın ən böyük neft yataqları olan Sibir, Tümen yataqlarının kəşf və istismar olunmasında, orada böyük neft və qaz komplekslərinin yaradılmasında Azərbaycan neftçilərinin əvəzsiz xidmətləri var və indiyədək də onlar həmin bölgələrdə çalışan neftçilərin əksəriyyətini təşkil edirlər.

Bu gün mən bütün bu məlumatları qonaqlarımıza çatdırmağı, Azərbaycan xalqına bir daha xatırlamağı lazım bilirəm. Çünki bunların hamısı Azərbaycan xalqının fəxridir, şöhrətidir, xalqımızın, neftçilərimizin dünya iqtisadiyyatına göstərdikləri böyük xidmətlərdən xəbər verir.

Ölkə başçısı belə dedi və onun sözü yalnız «Gülüstan» sarayının bərq vuran, gözəl zalında yox, respublikanın hər mənzilində eşidildi, çünki söhbət milli sərvətin taleyindən gedirdi. Dövlət başçısı sözünə davam edərək dedi:

– Açıq demək istəyirəm, müqavilədə Azərbaycan tərəfinin istək və arzularının heç də hamısı öz əksini tapmamışdır. Lakin biz başa düşürük ki, hər hansı bir müqavilə hər iki tərəfin mənafelərini təmin etməlidir. Qərb neft şirkətlərinin konsorsiumu öz mənafelərini təmin etməyə çalışmış, Azərbaycan Dövlət Neft Şirkəti isə Azərbaycan Respublikasının milli mənafelərini təmin etməyə səy göstərmişdir. Deyə bilərəm ki, görülən böyük və gərgin işin nəticəsində, tərəflərin məsələyə yüksək məsuliyyətlə yanaşması nəticəsində, nəhayət, hər iki tərəfin mənafelərinə cavab verən layihə hazırlanmışdır. Ona görə də mən bu gün imzalanacaq müqaviləni Azərbaycan Respublikasının indiki və gələcəyi üçün iqtisadi baxımdan mənfəətli hesab edirəm və onun imzalanmasına qərar vermişəm.

Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk.

«Gülüstan» sarayındakı təntənəli hadisədən bir il sonra, 9 oktyabr 1995-ci ildə Heydər Əliyev neft konsorsiumunun Beynəlxalq rəhbərlik komitəsinin üzvlərini qəbul etdi. Bütün layihə iştirakçılarının fikrincə, ötən bir il uğurlu alınmışdı. 1996-cı ildə ilkin neftin (peşəkarlar arasında belə bir ifadə var) çıxarılması və ondan istifadə gerçəkləşəcəkdi.

Azərbaycan neftçiləri hələ Sovet dövründə yaradılmış güclü imkanlar sayəsində böyük dərinliklərə yol tapdı. Neft sənayesi tarixinə əbədi olaraq 7 noyabr 1949-cü il tarixi həkk olunub. O zaman əfsanəvi neft daşlarında «qara qızılın» ilk fantanı vurmuşdu. Sonra üzən qazma qurğuları – «Şelf-1», «Şelf-2», «Şelf-3» yaradıldı və Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin təşəbbüsü ilə inşaası əvvəlcə Həştərxanda nəzərdə tutulmuş Dərin özüllər zavodunun tikintisi başlandı; tikinti hər necə olsa da ittifaq planlarında ayrıca bəndlə gedirdi – hər halda 500 milyon az pul deyildi.

4 iyun 1996-cı ildə Azərbaycan xarici tərəf-müqabilləri ilə daha bir müqavilə, dərin sulu «Şahdəniz» yatağının istismara hazırlanması və istismarı haqqında müqavilə imzalandı. Orada yerin yarım kilometr dərinliyində geoloqlar ehtiyatı trilyon kubmetrlərlə ölçülən qaz yataqları aşkar etmişdilər. Bu unikal yatağın inşası on il vaxt aparacaq, amma o da Azərbaycana xidmət edəcək.

İndi Xəzərdə bütöv bir donanma çalışır: onun sıralarında «İstiqlal» və vaxtı ilə «Kaspmorneft» adıyla tanınan «Dədə Qorqud» qurğuları da var. Adını Heydər Əliyev seçmişdi.

– Qurğu yenidən doğulub, – Prezident dedi. Buna görə onun adı da yeni olmalıdır. Deyə bilərəm ki, Azərbaycan xalqının ənənələri, ayrı-ayrı tarixi yerləri ilə bağlı onlarla ad təklif olunmuşdu. Bütün təklif olunan adlar həqiqətən də qiymətli idi. Ancaq mən qərara gəldim ki, bu qurğunun adını «Dədə Qorqud» qoyaq. Hesab edirəm ki, bu hər bir azərbaycanlı üçün əziz və müqəddəs olan bir addır və bu ən qiymətli, ən məşhur ad da bu qurğu üçündür.

«Dədə Qorqud» qurğusuna mavi sularda böyük səadət arzulayıram!»

Oxucuya bir daha xatırladaq ki, Azərbaycan xalq dastanı «Kitabi-Dədə Qorqud» VIII əsrdə yaradılıb. 2000-ci ildə YUNESKO-nun qərarı ilə dünya məşhur eposun 1300-illiyini qeyd etdi. Aydındır ki, ən böyük təntənələr Azərbaycanda keçirildi. Və hər yerdə də görkəmli rus şərqşünas alimi, Peterburq universitetinin məzunu Vasili Vladimiroviç Bartoldun adı hallanırdı. Alimlər bilirlər ki, «Kitabi-Dədə Qorqud»u həyata o qaytarıb. Əgər Bartoldun tərcüməsi meydana çıxmasaydı, dastanın taleyi faciəli ola bilərdi.

Bu sözlər Bartold kimi Peterburq universitetinin məzunu olan Rusiya Prezidenti Vladimir Putinə Slavyan universitetinin fəxri doktoru diplomu təqdim olunanda səsləndi. Bakıdakı Slavyan universitetini isə Heydər Əliyev yaratmışdır. Dövrlər belə səsləşirlər.

«Kitabi-Dədə Qorqud» – türk xalqlarının Orta əsrlər eposunun yeganə yazılı abidəsidir. Əlyazma Drezdendə saxlanılır; necə, hansı yollarla, hansı qismətlə Almaniyaya gedib çıxıb – məlum deyil. Gələcək şərqşünas, Peterburq universitetinin tələbəsi Vasili Bartold 1891-ci ildə, ömrünün üçüncü onilliyini yazmağa başlayandan bir neçə il sonra bu abidənin əlyazmasını ilk dəfə görən, dəyərini başa düşən insan oldu. Və elə o zaman da əlyazmasını köçürməyə və sonra da rus dilinə tərcümə etməyə başladı. On il ərzində, 1893-cü ildən 1903-cü ilə kimi gənc alimin hazırladığı dörd cild çap olundu. Onun elmi maraqlarının dairəsi genişləndi. – Şərq xalqlarının tarixi, onların təkamülü, Xəzərətrafı yerlərdə bənd almaları, müsəlman dünyası tarixində tutduqları yer onu dərindən düşündürməyə başladı, bu mövzuya silsilə mühazirələr həsr eləyən Bartold çıxışlarının birini də 1924-cü ilin dekabr ayında Azərbaycan Dövlət unisersitetinin şərqşünaslıq fakültəsində etdi... Amma onun üçün ən vacib olanı qədim hekayətçinin XV Azərbaycan torpağında yazıya alınmış epik ədəbi irs idi. Vasili Vladimiroviç Bartold ömrünün sonuna – 1930 ilə kimi «Kitabi-Dədə Qorqud» abidəsini öyrənib, tədqiq eləyib və rus dilinə çevirib.

«Oğuzlar arasında» o birinci insan idi. O, hər şeyi bilirdi, hər şeyi, o nə deyirdisə, gerçəkləşirdi.

Sonra Qorqud dədə deyirdi: «Çətin yollarda Qafqaz ayqırını çapa bilməyən igid yaxşı olar ki, heç at minməsin».

Qorqud dədə yenə də deyib: «Qara evə, o evə ki, ona qonaq ayağı dəymir sökmək yaxşıdı». «Acı otlar, ata yem olmayacaqsa, bitməsə yaxşıdır», «Acı sular, insan içməyəcəksə, axmasa yaxşıdır...»

Akademik Vasili Vladimiroviç Bartoldun tərcüməsində «Kitabi-Dədə Qorqud»u 1962-ci ildə böyük alimin tələbələri nəşr etdirdilər. Bu örnək dünya xalqlarının mədəni irsinə mənsub olan «ədəbi abidələri» seriyasından çap olunub. «İqor polku haqqında dastan» ruslar, ukraynalılar, beloruslar, «Roland haqqında nəğmə» fransızlar üçün əziz olduğu kimi, «Dədə Qorqud»da türklər, azərbaycanlılar üçün doğmadır.

Böyük neftə doğru yol

Böyük neftə doğru yol heç zaman sadə olmur. Yalnız ona görə yox ki, «qara qızıl» adama ağır zəhmət bahasına verilir. Tanınmış bankir qısa və aydın deyib: neft – puldur. Böyük neft – böyük puldur... və həm də böyük siyasətdir, – deyə bir başqası da dillənib. Yeni yataqların istismara verilməsində, xammalın daşınmasında – Azərbaycan nefti ətrafında fərqli maraqlar toqquşur: korporasiyaların, bankların, dövlətlərin maraqları. Ehtimal etmək olardı ki, yaxın keçmişdə bu regionun tam hüquqlu ağası olan Rusiya öz mövqelərinin itirilməsi ilə barışmayacaq. «Rusiyanı yalnız bir məsələ təmin edə bilər – Xəzərdə üstünlük qazanmaq, – Rusiya Federasiyası XİN-nin tanınmış diplomatlarından biri belə söylədi, – Rusiyanın buna hüququ və imkanları var. Alternativ yollar Moskvanın regionda siyasi təsir dairəsini itirəcək...» Gəlişi gözəl sözlər dəhşətlidi. I Pyotr da Konstantinopoldakı rus elçisi Neplyuyevi belə bir ovqatla dindirib: «Bizim maraqlarımız hər hansı başqa bir dövlətin Xəzər dənizində möhkəmlənməsinə qətiyyən yer qoymur...»

Gəlişi gözəl sözlər, təkrar edirik, müdhişdir, amma əfsus, geçikmişdir. Bunu elə Moskvada da iş adamlarının, işgüzar adamların çoxusu anlayırdı. Belə ki, Rusiyanın yanacaq və energetika naziri Yuri Konstantinoviç Şafranik 1995-ci ildə Bakıda çıxış edərək dedi ki, onun «Əsrin müqaviləsi»nə münasibəti müsbətdir və hesab edir ki, «Xəzərin statusu haqqındakı söhbətlər əsaslandırılmayıb». Bu da nazirin cəsarətli sözü. Bu

vaxta qədər isə Rusiyanın XİN-i Böyük Britaniyanın səfiri B.Tollu qəribə nota ilə təəccübləndirməyə macal tapmışdı. Bu nadir, ola bilsin ki, diplomatik təcrübədə nadirdən də nadir hadisə 27 aprel 1994-cü ildə baş vermişdi. Böyük Britaniya ilə Azərbaycan arasında imzalanan «Energetika sahəsində əməkdaşlıq haqqında»kı memorandumda işlədilmiş «Azərbaycanın Xəzər dənizi sektoru» ifadəsi rusların xoşuna gəlməyib və elə buna görə də onlar nota veriblər! Notada vurğulanır ki, Xəzərdə neft yataqlarının işləməsinə və xammalın daşınmasına dair hər bir layihə hövzə ölkələrinin razılığı olmadan heç bir hüquqi qüvvəyə malik deyil. Bu notanın analoqu BMT-yə, həmçinin Azərbaycan, Türkmənistan və Qazaxıstan səfirliklərinə də göndərilib. Sənəddə qeyd olunur ki, Xəzərə münasibətdə təkbaşına hərəkət qanunsuz sayılır və Rusiya Federasiyası tərəfindən tanınmayacaq. Rusiya «vəziyyət çıxılmaz olarsa və bu zaman baş vermiş qanun pozğuntularını aradan qaldırmaq yönümündə tədbir görmək hüquqlarını özündə saxlayır».

Rusiya maraqlarının «müdafiəçisi» xarici işlər naziri Andrey Kozırev belə bir addım atdı. Və elə buna görə də ABŞ Dövlət katibinin müavini Stroub Telbott Kozırevi «Rusiyanın ən qərbyönümlü siyasi xadimlərindən» biri adlandırdı.

Və elə həmin illərdə Rusiya Azərbaycanı nəqliyyat blokadasına aldı. Bəs rəsmi bəhanə? O da tapıldı, guya məqsəd Çeçenistana silah daşıyan kanalları bağlamaqdı. Blokada Dağıstandan tutmuş bütün Rusiyaya təsir elədi. Bu blokada nəticəsində Rusiya 1994-1995-ci illərdə 6,1 milyard dollara yaxın zərər çəkdi. Faciəli surətdə həlak olmuş general Roxlin Dövlət dumasında çıxış edərək Rusiyanın Azərbaycana qarşı siyasətinə münasibətini Rusiyanın maraqlarına qarşı milli xəyanət kimi dəyərləndirmişdi.

Xəzərin statusu haqqında danışıqlar, müzakirələr, mübahisələr üçün hələ illər davam edəcəkdi. Rusiyanın Azərbaycanın mövqeyini qəti olaraq tanıması İlham Əliyevin sayqılı mülahizəsinə görə 2001-ci ilin yanvarında Rusiya Federasiyasının prezidenti Vladimir Putinin Bakıya rəsmi səfərindən sonra baş verdi.

10 noyabr 1995-ci ildə ARDNŞ və bir qrup xarici neft şirkətləri arasında imzalanan razılaşmanın təntənəli rəsmi hissəsində Rusiyanı RF yanacaq və energetika naziri Yuri Şafranik təmsil edirdi. «Gülüstan» sarayını Azərbaycanın, Rusiyanın, ABŞ-ın, İtaliyanın dövlət bayraqları bəzəyirdi. Bu şirkət-

lərin qarşısında hələ 1959-cu ildə Sovet geoloqları tərəfindən kəşf edilmiş «Qarabağ» karbohidrogen yataqlarını istismara hazırlamaq vəzifəsi dururdu. Sahildən «Qarabağ»a 120 kilometr və ondan suyun səthinə yüz əlli metr idi...

Qonaqları Azərbaycan Prezidenti salamladı: «Müstəqil Azərbaycan Respublikası öz təbii sərvətlərinin sahibidir və bu sərvətlərdən istədiyi kimi istifadə etmək imkanına malik olaraq, onlardan Azərbaycan xalqının iqtisadi inkişafı və xalqımızın rifahı naminə xarici ölkələrin şirkətləri ilə müştərək istifadə etməyi lazımlı yol hesab edir və bu yol ilə də gedir. Bu yol Azərbaycan Respublikasının iqtisadiyyatının dünyaya açıq olduğunu göstərir, eyni zamanda respublikamızın demokratiya, bazar iqtisadiyyatı yolu ilə getdiyini gostərir.

Müstəqil Azərbaycan Respublikası həyatının bütün sahələrində demokratiyanın inkişaf etdirilməsinə çalışır. Biz dövlət quruculuğunda, ölkənin ictimai-siyasi həyatında, həm də iqtisadi sahədə demokratiyanın inkişaf etdirilməsi istiqamətində fəaliyyət gostəririk. Biz bu prinsiplərə soykənərək respublikamızın iqtisadiyyatını dünya iqtisadiyyatı ilə daha sıx əlaqələndirməyə və müştərək işlər görməyə çalışırıq».

Xatırladaq: bu arada Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan konstitutsiyasına Xəzərin sektorial statusu ilə (11-ci maddə) bağlı bənd daxil edilmişdi. Bu bəndə əsasən Xəzərin Azərbaycan sektorunun hüdudlarında suyun dibi, səthi və hava məkanı Azərbaycan Respublikasının mülkiyyəti hesab edilsin. İlham Əliyev «Azərbaycanın Xəzər nefti» monoqrafiyasında qeyd edir ki, Azərbaycan birinci olaraq Xəzərin öz milli sektorunun mövcudluq faktını hüquqi baxımdan rəsmiləşdirdi.

...Xarici firmaların rəhbərləri, Rusiya yanacaq və energetika naziri Yuri Şafranik çıxış edirlər.

– Belə razılaşmaları hazırlamaq üçün illər lazımdır, – Yuri Konstantinoviç deyir, – qısa bir zamanda bu qədər miqyaslı iş aparmaq, birinci növbədə onu göstərir ki, Azərbaycan düz yoldadır, onun başçıları, mütəxəssisləri istiqamətləri düz təyin eləyiblər. Bu istiqamətlərdə uğur qazanmaq üçün iradə və ən başlıcası, qonşuların və tərəf-müqabillərin inamı var.

1996-cı ilin oktyabr ayı. Heydər Əliyevin keçirdiyi müşavirədə «Əsrin müqaviləsi»nin yaranmasına gətirib çıxardan Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin («AMOKO») iki illik fəaliyyəti müzakirə olunurdu. Prezident yanında işgüzar müşavirələr qızğın və konkret keçirdi. «Yaxşı işləmək lazım-

dı» sözlərinə ehtiyac yox idi, söhbət vəziyyətin dəqiq təhlilindən gedirdi. Bu cür təhlillərin qazma qurğularında yerli kadrlardan istifadə olunmasına nə dərəcədə aidiyyəti var idi? Məsələn, bu müşavirədə ona məlum oldu ki, xarici tərəf – müqabillər Xəzərə öz fəhlələrini gətirməyə hazırlaşırlar. Buna münasibət bildirən Heydər Əliyev demişdir ki, mən öncədən xəbərdarlıq edir və Azərbaycan Dövlət Neft Şirkətinə tapşırıram ki, bunu nəzarətdə saxlasınlar, biz bununla razı deyilik. Siz bilirsiniz ki, Azərbaycan neftçiləri yüksək dərəcəli peşəkarlığa malikdirlər. Bizdə neft sahəsində məşhur alimlər, mühəndislər, yüksəkixtisaslı fəhlələr var. Bu reallıqdır. Neft razılaşmaları imzalanan bütün yataqlar Azərbaycan mütəxəssisləri, alimləri tərəfindən aşkarlanıb. Azərbaycan əlli ildən artıqdır ki, dənizin dərin qatlarından neft çıxardır. Azərbaycan neftçiləri yalnız öz ölkələrində neft çıxartmayıblar, onlar vaxtilə Vyetnamda işləyiblər, Kubada, Rumıniyada, Hindistanda neft çıxardıblar – onlar yüksək ixtisaslı mütəxəssislərdir. Hesab edirəm ki, Azərbaycan mühəndisləri kimi, bu işə həm də texniklər. Fəhlələr geniş cəlb edilməlidirlər.

3 iyul 1997, Moskva

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rusiya Federasiyasına ilk səfəri və Kremldə Rusiya prezidenti Boris Yeltsinlə apardığı danışıqlar. 10 il əvvəl Heydər Əliyev yalnız öz yazılarını, sənədlərini götürərək Kremldən çıxmışdı. Ola bilsin ki, bir başqası olsaydı, özünü çəkərdi, tamaşa göstərərdi, hə, bu da mən! Qayıtdım! Məni incidənlərin hamısına sübut elədim... Əlbəttə, Əliyev də sadə insan duyğularına biganə deyildi, maraqla Rusiya prezidentinin onu qəbul etdiyi yerə – Kreml palatasının yeni interyerinə tamaşa elədi, həmsöhbətinin əhvalı ilə maraqlandı, arvadını, qızlarını, nəvələrini soruşdu... Yeltsen ürəyindən əməliyyat olunandan sonra özünə gəlməyə macal tapmışdı, hətta adaşı Boris Nemtsova görə Kreml xidmətini və hökuməti «dalamışdı».

Şərhçilərin bir ağızdan söylədiyi kimi, Moskva Azərbaycan prezidentini görünməmiş təntənə ilə qarşıladı. Heydər Əliyevi o vaxta qədər yalnız kralların yerləşdirildiyi Kreml iqamətgahında yerləşdirdilər. Onunla o zaman Rusiya hökuməti sədrinin birinci müavini olan Çubays səhər yeməyi yedi,

«çar Boris» nahar elədi, başının dəstəsi ilə hörmət və izzətlə davrandı.

«Vnukova» hava limanında Heydər Əliyevi Boris Nemtsov və üç qoşun növünün fəxri qarovul dəstəsi salamladı, – artıq bizə tanış olan Rusiya jurnalisti Rəfael Hüseynov həftəlik «Delovoy vtornik» qəzetində belə yazırdı. – Bizim baş nazirin birinci müavini qızılı düyməli əla tikilmiş tutqun bleyzerdə və ağ şalvarda idi. Onun libası mənim çox xoşuma gəldi. Bu sadəlikdən və yüksək zövqdən xəbər verirdi.

Mənim XİN-də xidmət eləyən dostum «vitse-premyer»i ağ şalvarda görəndə qaşığı əlindən qaba saldı. Onun fikrincə, bu «protokol» deyildi, «prokol» – kobud səhv idi.

Demək lazımdır ki, yayda ağ şalvar yaxşı şeydir. Və təsadüfi deyil ki, hamının yaxşı tanıdığı Ostap Bender də ağ şalvarı tərənnüm edib. Düzdür, Ostap İbrahimoviç qəbullarda olmurdu, yüksək rütbəli qonaqları qəbul etmirdi.

Protokol, ümumiyyətlə, çox qəliz bir şeydir. Rusiya demokratiyasında o özünəməxsus yol gedir. Yenidənqurmanın ilk dalğası kütləni ələ ala bilən, mitinqlər təşkil eləyən xalq seçicilərini Moskvaya gətirdi. Onların bir çoxu tədricən dövlət strukturlarına adladılar və (vəzifələrinə uyğun olaraq) üstü qızılı gerbli paketlərdə qəbullara dəvətlər almağa başladılar.

Moskvada, xarici dövlətlərin səfirliklərində teniskalı, yalın ayaqlarına çəkələk almış adamlara çəp-çəp baxırdılar. Burada ucadan hırıldaşır, arağı cinə, cini arağa qarışdırırdılar və bir-biri ilə söhbətləşirdilər».

Hə, o ki qaldı ağ şalvara və qızılı düyməli pencəyə, atmacasını yekunlaşdıran Rafael Hüseynov kinayə ilə yazır ki, bu libas konsert zamanı sevdiyin müğənni qızın əynində yaxşı görünür, yaxt-klubda da onu geyinmək olar, bir şərtlə: əgər başına yengəcli kapitan furajkası qoysan, hətta saunanın da qapısını o libasla açа bilərsən, amma şalvarı girəcəkdə soyunmaq şərtilə».

Rəsmi məlumatlar yayan reportyorlar iki prezidentin görüşünü şərh eləyəndə bir kəlməni xüsusilə vurğulayırdılar. Yazırdılar ki, görüş «qarşılıqlı hörmət şəraitində isti atmosferdə keçib». Görüş isti atmosferdə necə keçməyə bilərdi ki, Rusiya prezidenti dörd il idi ki, azərbaycanlı həmkarını dəvət etməyə hazırlaşırdı, axı bir zaman Siyasi büroda onunla yanaşı oturmuşdu. Əvvəllər buna, görünür, heç cür vaxt tapa bilməyib...

İndi onların qarşısında dostluq əməkdaşlıq. qarşılıqlı təhlükəsizlik və bu qəbildən digər anlaşmaları, o cümlədən Xəzər dənizindəki «D-222» perspektivli Azərbaycan blokunda birgə aparılacaq kəşfiyyat işləri, neftin istehsalı ilə bağlı sənədləri imzalamaq qalırdı...

Kremlin bütün ilkin gözəlliyi bərpa olunmuş Vladimir zalında Azərbaycanın və Rusiyanın himnləri səsləndi. Boris Yeltsin kağızdan öz nitqini oxudu.

– Rusiya və Azərbaycanı çoxəsrlik tarix, yüksək ənənələr və çeşidli əlaqələr birləşdirir. Biz onları qıra bilmərik. Biz hər şey etməliyik ki, bu münasibətlər inkişaf etsin.

Heydər Əliyev öz sözünü sinədən dedi, bəlkə ona köməkçiləri nə isə yazıb vermişdilər, amma üzə çıxartmadı.

Boris Nikolayeviç, Sizi və burada olanların hamısını bu əlamətdar hadisə – Rusiya Federasiyası ilə Azərbaycan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında sənədin imzalanması münasibətilə ürəkdən təbrik edirəm... Mən dərin məmnunluq hissi ilə xatırlayıram ki, bu gün iqtisadi sənədlərin böyük bir paketi də imzalandı. Onlar bütün sahələrdə əməkdaşlığımızı daha da inkişaf etdirmək və dərinləşdirmək üçün yaxşı müqavilə – huquqi zəmin yaradır. Umumiyyətlə, bu gün etdiklərimiz dostluq münasibətlərimizin daha da dərinləşməsi və inkişaf etməsi, əməkdaşlığımızın daha da genişlənməsi üçün yaxşı zəmindir. Bizdə əsla şübhə yoxdur ki, bu münasibətlər inkişaf etməli, dərinləşməli və genişlənməlidir.

İradə mümkün olmayanı da mümkünləşdirir

«Cücəni payızda sayarlar», yəni əsas məsələ işin sonudur. Bir çox xalqlarda buna bənzər məsəl var. Amma mədən işində nə tac? Birinci fantan geoloqların işini yekunlaşdırır. Sonra isə neftçilər ağıl və yaradıcılıqla işləməlidirlər. «Əsrin müqaviləsi» imzalanandan üç il sonra ən yaddaqalan hadisə, peşəkarlar demişkən, ilkin neftin alınması oldu.

O gün Bakıda böyük, rəngarəng bayram idi. Neft çıxmışdı. Ənənəyə görə çoxdan gözlənilən bu neftin qarşılanma mərasiminə əməl etmək – yanağa yaxmaq lazımdı. Heydər Əliyev, İlham Əliyev (o zaman o ARDNŞ-nin prezident müavini idi), hörmətli qonaqlar buna məmnuniyyətlə əməl edirlər.

Yeni strategiyanın bariz təzahürü yüz milyonlarla dollar toplanmış Dövlət neft fondudur. Bu vəsait bütün respublika əhalisinin həyatının yaxşılaşmasına, sosial problemlərin həllinə yönəldiləcəkdi.

1 avqust 1997-ci ildə Heydər Əliyevin «Ağ ev»də rəsmi görüşü zamanı ABŞ-ın «Şevron», «Eksson», «Mobil», «Amoko» neft şirkətləri ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında dörd müqavilə imzalandı. İki ölkənin prezidentləri bu sənədləri belə qiymətləndirdilər.

B.Klinton: «Xəzər dənizi hövzəsi neft və qaz layihələrinin həyata keçirilməsi üçün həyati əhəmiyyətə malik regiondur. Enerji resurslarının istismarı üzrə bu günlərdə qəbul olunmuş razılaşmalar gələcək nəsillərə fayda verəcək. Xəzərin sərvətlərinin istismarı yönümündə, Azərbaycanla birgə işləyəndə biz bununla yalnız Azərbaycanın çiçəklənməsinə kömək etmirik, həm də öz ölkəmizi müxtəlif yollarla enerji məhsulları ilə təmin edirik və dövlətimizin təhlükəsizliyini möhkəmləndiririk».

Heydər Əliyev: «Ölkələrimiz arasında münasibətləri mərhələ-mərhələ daha da möhkəmləndirmək sahəsində böyük işlər görülmüş və görulməkdədir.

Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənməsi üçün imzalanan müqavilələrdə ABŞ-ın ən nüfuzlu neft şirkətlərinin iştirakı bu mənada çox müsbət qiymətləndirilməlidir. Biz 1994-cü ilin sentyabrında ilk böyük müqavilə – «Əsrin müqaviləsi» adlanan müqaviləni imzalamışıq və bu müqaviləyə ABŞ-ın beş böyük şirkəti qoşulmuşdur. Hazırda bu müqavilə əməli surətdə həyata keçirilir.

Nefti xaricə – Qərbə aparacaq neft kəmərləri marşrutlarının müəyyənləşdirilməsi barədə cənab Bill Klintonla şəxsi görüşlərimdə və telefon danışıqlarımda indiyə qədər geniş müzakirələr aparmışam və bildirirəm ki, bu sahədə artıq müəyyən işlər görülmuşdür. Nefti Qərbə – dünya bazarına çıxarmaq üçün iki neft kəməri tikilir. Üçüncü böyük neft kəmərinin də tikintisinə bu yaxınlarda başlanacaq. Eyni zamanda biz strateji cəhətdən çox əlverişli mövqedə yerləşən Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə dünya bazarı arasında əlaqələrin daha da sıxlaşdırılmasında mühüm rol oynaması amilini heç vaxt unutmamışıq və bu sahədə də respublikamızda çox önəmli işlər görülmüşdür. Artıq ABŞ-ın Rəfael «Şevron» şirkətinin Qazaxıstanın «Tengiz» yatağından hasil etdiyi neft Xəzər dənizi

vasitəsilə Bakıya çatdırılır, buradan isə dünya bazarına yola salınır. Hazırda bu prosesin daha yaxşı təşkili sahəsində geniş işlər görülməsi nəzərdə tutulur. Bu məqsədlə Xəzərin dibi ilə Bakıyadək neft kəməri çəkiləcəkdir. Bilirsiniz ki, bu gün Ağ evdə ABŞ-ın «Şevron», «Eksson», «Mobil», «AMOKO» şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında yeni müqavilələr imzalanacaqdır. Heç şübhəsiz, bu müqavilələr Amerika-Azərbaycan iqtisadi əməkdaşlığının mohkəmləndirilməsinə yeni təkan verəcək, ölkələrimizin münasibətlərinin daha da yaxşılaşdırılmasında mühüm rol oynayacaqdır».

Sənədlər Ağ evdə, Franklın Ruzveltin adını daşıyan otaqda imzalandı. ABŞ-ın vitse-prezidenti Albert Qor bu münasibətlə dedi ki, Amerika və Azərbaycan «energetik dialoqa» başlayırlar, bu «Xəzərin sərvətlərinin istifadə olunması uğrunda bizim ümumi ümidlərimizi əks etdirir».

Yüksək səviyyəli görüşlərdən başqa Heydər Əliyev bu səfərin gedişində daha 75 (rəqəmi yazıyla da ifadə edirik ki, oxucu bu rəqəmə inansın: yetmiş beş) işgüzar görüş, danışıqlar keçirtdi. Onun həmsöhbətləri arasında «Bi-Pi-Amerika», «Frontera resursez», «Şevron» və «Pennzoyl», «Yunokal» və «Konoko», «Eksson» və «Şell» kimi iri şirkətlərin başçıları da var idi.

Həmsöhbətlərindən biri ilə dialoq zamanı o vurğulayır ki, konqresmenlərlə, senatorlarla, Beynəlxalq Əlaqələr Komitəsinin sədri Gilmanla, nümayəndələr palatasının spikeri Qinqriçlə söhbət edib. Bu danışıqlar – ayrıca bir mövzudur; beynəlxalq arenada Azərbaycanın milli maraqlarını qorumaq, ABŞ konqresinin qəbul etdiyi Azadlığı dəstəkləmək haqqında akta 907-ci əlavənin ləğvi yolunda atılan təkidli addımlardandır.

Oxucuların çoxusuna, əsasən də Azərbaycandan kənarda yaşayanlara, 907-ci düzəliş (və ya əlavə) kimi məlum olan bu sənədin adı az şey deyir. Aydınlıq gətirək: 1992-ci ildə ABŞ konqresi Azadlığı dəstəkləmək haqqında Akt müzakirə elədi. O günlərdə böyük Amerika sahibkarı R.Berns dediyi kimi, «Ermənilər Azərbaycanla yalnız döyüş bölgələrində yox, həm də kabinetlərdə, ABŞ-ın konqres zallarında mübarizə aparırlar». Və son nəhayətdə də ABŞ-ın güclü erməni lobbisi bu sənədə (Azadlığı dəstəkləmək haqqında Akta) bir bölmə, indi çox məşhur olan 907-ci düzəlişi əlavə etdirə bildi. Bu düzəlişə ABŞ konqresinə müharibə getdiyi dövrdə və Ermənistanın blokadada olduğu müddətdə Azərbaycan hökumətinə birbaşa hər hansı bir iqtisadi yardım göstərməyi qadağan edir. Ədalət-

sizliyə baxın, həm təcavüzə məruz qalasan, həm də ittiham olunasan; bax Heydər Əliyev belə bir şəraitdə mübarizə apardı. Həmişə olduğu kimi İlham onunla çiyin-çiyinə idi.

Həmin 1997-ci ilin noyabr ayında İlham Əliyev ABŞ-ın ticarət palatasının və Azərbaycanın, Kembric energetika tədqiqatları assosiasiyasının Amerika-Rusiya işgüzar şurasının Vaşinqtonda keçirdiyi «Xəzər boru kəmərləri – yeni neft yollarının açarıdır» mövzusunda elmi-praktik konfransda iştirak edirdi. İlham Əliyev ingilis dilində çıxış elədi, gözəl çıxış elədi.

– Əgər məndən soruşsalar: Azərbaycan necə ölkədir? Onda mən iftixarla cavab verərəm: bu gün Azərbaycan – stabil, intensiv olaraq inkişaf edən ölkədir. Bu gün Azərbaycan demokratiya və tərəqqi yolları ilə irəliləyən ölkədir...

Amerikanın «Vest» qəzeti hələ o zaman vurğulamışdı: İlham Əliyevin adı Heydər Əliyevdən sonra birinci çəkilir. Xarici siyasətçilər, parlamentarilər İlham Əliyevin erudisiyasına diqqət yetirir, onun həmsöhbəti anlamaq xüsusiyyətini yüksək qiymətləndirirdilər. İşgüzar insanlar, iş adamları onun neft sahəsindəki biliyinə heyrandılar. «Dünya Neft sənayesi tarixi» əsərinin müəllifi Daniyel Yergin diqqətəlayiq sözlərinə fikir verin: «Dünyanın neft şirkətləri İlham Əliyevi neft sahəsini dərindən bilən mütəxəssis kimi qiymətləndirirlər...»

«Əsrin müqaviləsi» insan xidmətində

Dünya ictimaiyyəti ilə effektiv əməkdaşlıq, müharibə acıları yaşayan ölkənin təkamülü, yaradıcı proqramı; beynəlxalq forumlarda, seminarlarda, mətbuat konfranslarında və iri ölkələrin paytaxtlarında – Vaşinqtonda, Moskvada, Londonda, İstambulda İlham Əliyevin etdiyi çıxışların leytmotivini təşkil edirdi.

Çoxdan deyilib ki, siyasət iqtisadiyyatın məcmu ifadəsidir. Hesab etmək olar ki, iqtisadiyyat da, öz növbəsində, siyasətin maraqlarını əks etdirir.

1995-ci ildə İlham Əliyevi Qaradağ seçki dairəsindən Milli Məclisə deputat seçdilər. Diqqətimizi ona xas olan əsas, müəyyənləşdirici prinsipial cizgiyə yönəldək: «Mən heç nə vəd etmirəm, – o, seçicilərinə dedi, – Deputatın fəaliyyətini onun əməllərinə görə dəyərləndirirlər». Bəli, xalq dildən pər-

garların yağlı vədlərini İttifaqda da, Respublikada da çox görmüşdü.

Paytaxt civarlarında olmasına baxmayaraq, Qaradağ rayonunun mərkəzi sayılan Lökbatan biçimsiz və yaraşıqsızdır. Yayda maşınların his-pası, qışda – yağmur, rütubət, ətrafda köhnə mədənlərin çürümüş buruqları, qara göllər, bataqlıqlar. On beş il idi ki, sakinlər xahiş eləyir, yalvarırdılar ki, Lökbatan – Qızıldaş yolunu təmir etsinlər. Yeri gəlmişkən, Lökbatan – dəvə batan yer deməkdir. Ölkəşünaslar üçün nə qədər maraqlı olsa da, artıq nəsə bir dəyəşiklik olacağına ümid bəsləməyən yerli əhali üçün isə kədərli addır.

Belə ki, İlham Əliyev öz deputatlıq fəaliyyətinə Bakının ən böyük və artıq dediyimiz kimi çox bərbad vəziyyətdə olan Qaradağ rayonunun sosial-iqtisadi inkişafı üçün Yardım Fondu yaratmaqdan başladı. Yardım Fondunun vəsaiti ilə bütün yaşayış massivlərində, qəsəbələrdə yolları təzələdilər, körpüləri bərpa etdilər, su kəmərlərini, qaz xətlərini, işıq xətlərini yenidən qurdular. Üstündən illər keçəndən sonra fəallarla görüşdə Qaradağ rayonu «Yeni Azərbaycan» Partiyasının deputatı İlham Əliyev dedi: «1995-ci ildən mən sizinləyəm və heç zaman sizə boş vədlər verməmişəm. Ümumiyyətlə, mən vəd etməyi sevmirəm. Həmişə çalışıram ki, nə isə eləyim və yalnız bundan sonra bu barədə məruzə eləyim». Seçicilər bunu gördülər və dəyərləndirdilər.

Lökbatan qəsəbəsindəki 4 saylı Doğum Evinin nəzdində qadın məsləhətxanası açıldı; Olimpiya ehtiyatlarından Ələt qəsəbəsində ixtisaslaşdırılmış uşaq-gənclər idman məktəbi meydana gəldi və elə burada da «Təcili yardım» stansiyası, uşaq poliklinikasının şöbəsi tikildi. Lökbatan qəsəbəsini və Müşfiqabadı yeni məscidlər bəzədi. Xəzər sahilindəki park kompleksi Sahil qəsəbəsi sakinlərinin sevimli istirahət yerinə çevrildi. Orada əvvəlcə bataqlığa çevrilmiş torpağı qurutmaq lazım gəldi. Deputatın birbaşa köməyi sayəsində qaçqınlar və məcburi köçkünlər üçün Ümid qəsəbəsi salındı və abadlaşdırıldı.

Səngəçal qəsəbəsi də tamam dəyişdi, yeniləşdi. Transmilli Bakı-Tbilisi-Ceyhan neft boru xəttinin terminalı burada tikildi. Qaçqınların və məcburi köçkünlərin evlərində mavi qaz yanmağa başladı. Lökbatan, Sahil, Qızıldaş, Ələt qəsəbələrində Vətən uğrunda vuruşmuş döyüşçülərin şərəfinə xiyabanlar salındı, həlak olanların məzarları abadlaşdırıldı, milli qəhrəmanlara abidələr ucaldıldı.

Sahil qəsəbəsinin üç kilometrliyində, on hektar sahədə yaşayış massivi salındı. Müharibə əlillərinə, həlak olmuş döyüşçülərin ailə üzvlərinə orderlərin təqdim olunma mərasimində Heydər Əliyevlə yanaşı deputat İlham Əliyev də iştirak edirdi.

Parlamentə yeni seçkilər başlayanda İlham Əliyev seçicilərinin qarşısına alnıaçıq çıxacaqdı. 2000-ci ilin seçicilərlə görüşləri onun yüksələn nüfuzundan xəbər verirdi. Seçicilərin zəruri problemləri ilə məşğul olaraq, çətinliklər önündə susmadı, bir kənara çəkilmədi. «Kim deyir ki, bizdə problem yoxdur?.. Bizim hər birimiz ölkə üçün çalışmalıyıq. Biz bu problemləri birlikdə həll etməliyik».

Seçicilərlə görüşlərində o, şəxsi xatirələri ilə də bölüşürdü və bu da dialoqlara hərarət, səmimiyyət gətirirdi.

«Mən Xaçmazda dəfələrlə olmuşam. 70-ci illərdə atam bu bölgəyə gedəndə bir neçə dəfə məni də özü ilə aparıb. Yadımdadır, atamın təşəbbüsü ilə bu regiona Moldovadan, Macarıstandan, Rumıniyadan, Bolqarıstandan, «Palmet» alma tingləri gətirildi. Bilirəm ki, bu bağlar indi də yaxşı məhsul verir. Ümumiyyətlə, bu bölgənin inkişafı daima dövlətin diqqətində olub».

Siyasi dairələrdə tez-tez deyirlər ki, İlham Əliyev parlament sədri olacaq. «Bəs bu barədə İlham müəllim özü nə söyləyə bilər?» – «Moskovskiye novosti» həftəliyinin jurnalisti birbaşa soruşdu.

«Birincisi, sizə söyləməliyəm ki, mənim gələcək taleyim haqqındakı şayiələr həqiqətə və mənim şəxsi istəklərimə uyğun deyil, – İlham Əliyev cavab verdi. – Bir çox ölkələrdə qalib partiyanın siyahısına başçılıq edən insan parlamenti idarə etmək imkanına malik olur. Sizinlə tamamilə açıq danışıram, hal-hazırda mənim elə niyyətim yoxdur. Mən öz vəzifəmi parlament seçkilərində yerinə yetirdim, çox şadam ki, seçicilər mənə etimad göstərdilər. Ona görə etimad göstərdilər ki, mən onları aldatmamışam. Mən axırıncı beş ildə deputat oldum, özü də partiya siyahısı ilə yox, majoritar qaydada seçilmişdim. Bu müddət ərzində mənim seçicilərim əmin oldular ki, mən öz vədimi yerinə yetirmişəm. Hesab edirəm ki, indi mühüm postdayam. Neft strategiyasının həyata keçirilməsində, yəqin ki, mənim də az da olsa zəhmətim var. Ümidvaram ki, hal-hazırda çalışdığım vəzifədə də Azərbaycana xeyrim dəyəcək...» *(Moskovskiye novosti, 21-27 noyabr, 2000-ci il).*

İlham Əliyev mahiyyət etibarilə cəmiyyətə, özü də yalnız Azərbaycan cəmiyyətinə deyil, yeni – texnokrat, praqmatik – siyasətçi obrazı təqdim etdi və bu obrazda mənəvi cəhət, mənəvi dəyərlər üstünlük təşkil edir: «Məqsəd də ali nəcib olmalıdır, vasitələr də... İnsan üçün ən əsası budur ki, insanların, öz övladlarının gözlərinə düz baxa bilsin və əməllərinə görə heç vaxt peşimançılıq hissi keçirməsin». O, Qaradağ rayonu üçün nələr etdiyini məmnunluq hissi ilə xatırlayır: «Qaradağ rayonu mənə çox əzizdir. Mən beş il milli məclisdə Qaradağ rayonunu təmsil etmişəm, özü də, məncə, pis təmsil etməmişəm. 2000-ci ildə mən Milli Məclisə artıq «Yeni Azərbaycan» partiyasının siyahısı üzrə seçildim. Amma buna baxmayaraq, mən bu rayonla əlaqələrimi heç vaxt kəsməmişəm, onun rəhbərliyi ilə həmişə əlaqə saxlamışam. Mənim təşəbbüsümlə yaradılmış Qaradağ sosial-iqtisadi fondunun da fəaliyyəti davam edib, o indi də fəaliyyət göstərir, gələcəkdə də fəaliyyət göstərəcək... Mən Qaradağ rayonunda birgə topladığımız gözəl təcrübəni başqa bölgələrdə də tətbiq etməyə çalışacağam...»

İlham Heydər oğlundan tez-tez soruşurlar ki, onun bütün bu işlərə vaxtı necə çatır? «Speys» telekanalına müsahibədə o, belə cavab verib:

«...Bu, çətin sualdır... Çünki mən özüm haqqında çox danışmağı sevmirəm. Amma demək istəyirəm ki, mənə tapşırılan istənilən işi ən yüksək səviyyədə görməyə çalışıram... Ən əsası zəhmət çəkmək, zəhmət çəkməkdir... Zəhmət olan yerdə isə nəticə də olar. Neft sahəsində də, Qaradağ rayonunda da, Olimpiya komitəsində də. Sabah mənə başqa bir iş, yeni vəzifə tapşırsalar, yaxıd başqa sahəyə göndərsələr, yenə də yaxşı nəticə əldə etmək üçün əlimdən gələni edəcəyəm».

Nyu-York: illərdən sonra baxış

Smolensk meydanında Rusiya Xarici İşlər Nazirliyinin göydələnini telekanallarda çoxları görüb. Kabinetlərdən birində nazirin katibliyinin əməkdaşı Eldar Quliyev dəftərxana işləri ilə məşğul olurdu. Hə, bu da telefon zəngi.

– Cənab Quliyev? Salam. Sizinlə Heydər Əliyeviç Əliyev danışmaq istəyir.

Prezident qısa danışdı. – Xahiş etdi ki, o, Bakıya gəlsin: «Biz şəxsən görüşməliyik».

Nazir Kozırev ezamiyyətə icazə verdi. Azərbaycan prezidenti Quliyevi elə qarşıladı ki, elə bil dünən ayrılmışdılar, halbuki, onların son görüşlərindən az qala 15 il keçirdi. O illərdə, 70-in axırlarında – 80-in əvvəllərində Eldar Qulam oğlu Quliyev Sovet İttifaqının İstanbuldakı konsulu idi. Sovet diplomat korpusunda azərbaycanlı diplomatlar çox deyildi. Azərbaycan KP MK-nin birinci katibi onun işlərinin gedişatı ilə maraqlandı və sonra da... Hə sonra da bir gözəl gündə, daha doğrusu, bir gözəl axşamda məzuniyyətini doğma şəhərdə keçirmək üçün İstanbuldan Bakıya gəlmiş konsul dəvət alır.

– Mənə MK-dən zəng vurmuşdular. Dedilər ki, yoldaş Əliyev mənimlə görüşmək istəyir. Gecə saat on bir idi. Mən hesab etdim ki, görüşümüz diplomatlar demişkən müxtəsər olar, amma bir saat qırx dəqiqə söhbət elədik! Heydər Əliyev Türkiyə ilə – ölkənin ictimai-siyasi həyatı ilə dərindən maraqlanırdı. Sözarası hiss etdim ki, o, İstanbula yaxşı bələddir, baxmayaraq ki, orada cəmi bir dəfə olmuşdu, özü də bir sutkadan da az. Vidalaşanda Heydər Əliyeviç məndən söz aldı ki, haçan Bakıda olsam, hökmən onun yanına gəlim. Mən vədimə əməl elədim, doğma yurda gələndə hər dəfə əlaqə saxlayırdım, o da həmişə qəbul eləyir, hər şeyi ətraflı soruşur, maraqlandı ki, regionda Türkiyə-Sovet münasibətlərini necə dəyərləndirirəm... Sonra Əliyevə etimad göstərib Moskvaya apardılar, mən də yeni təyinat aldım. Və 1994-cü ildə baş tutan yeni görüşümüzə qədər biz qarşılaşmadıq. Və bu ötən illər ərzində elə vulkanik dəyişikliklər baş vermişdi ki, bizim neçə illər qabaq, çox sakit tərzdə keçən görüşümüzün işığı o hadisələrin fonunda, mənə elə gəlirdi ki, sönmüş olar. Amma təsəvvür edirsinizmi, prezident söhbətinə axırıncı dəfə müzakirə etdiyimiz məsələdən başladı, toxunduğumuz problemlərdən söz açdı. Baxmayaraq ki, Heydər Əliyevin fenomenal yaddaşı haqqında çox eşitmişəm, hadisə indi də məni heyrətə gətirir, axı o, fenomenal yaddaşa mən özüm də şahid oldum.

– Amma o yəqin ki, sizi köhnə söhbəti davam etdirmək üçün dəvət etməyibmiş...

– Ehtimal ki, belədir, – həmsöhbətimiz mənalı tərzdə gülümsündü, – mənə Azərbaycan Xarici İşlər Nazirliyində işləməyi təklif etdi. Mənə göstərdiyi etimada görə Heydər Əliyevə təşəkkürümü bildirdim, amma təəssüf ki, o zaman ailə vəziyyətimlə əlaqədar Moskvadan ayrıla bilməzdim. Bir sözlə, mən yenə xidmətimi Rusiya XİN-də davam etdirdim...

Eldar Quliyevin əmək bioqrafiyasının ilkin pilləsi, – məşhur Asuan bəndinin inşasında tərcüməçilik fəaliyyəti ilə başlayır. Azərbaycan Dövlət Universiteti Şərqşünaslıq fakültəsinin gənc məzunu Misirdə gerçəkləşən əsrin ən iri tikintilərindən birinə təyinat alır. Geodeziyaçılarla birlikdə Asuandan tutmuş İsgəndəriyyəyə qədər bütün ölkəni qarış-qarış gəzir. Onlar keçən yerlərdə elektrik xətləri ucalır. Və o zamanlar gənc Eldar bir qədər sözlərinə düzəliş verərək zümzümə etdiyi mahnını indi də xatırlayır: «Mənə məktub yaz, ay ana – birbaşa Asuana». Ancaq Bernesin məşhur mahnısında sözlərin düzülüşü belədir: «...mənim Volqam orda necə yaşayır»: əlbəttə, bu nəğməni Dneprə də şamil etmək olar, Xəzərə də, Nevaya da...

Eldar Quliyev yenidən Asuana diplomat – vitse-konsul kimi qayıdır. Sonra konsul olur. Özü də Sovetlərin xaricdə fəaliyyət göstərən bir təşkilatında ən cavan konsul, ən cavan rəhbər. Asuandan sonra Qahirədəki Sovet konsulluğuna başçılıq edir, İttifaq XİN-nin Diplomatiya Akademiyasında oxuyur. Yeni təyinatı İstanbula, sonra da Yəmənə verilir. Rusiya XİN-nin katibliyindəki fəaliyyətindən sonra ərəb ölkələrindən birinə uzunmüddətli ezamiyyət gözlənilirdi. Özü də fövqəladə və səlahiyyətli səfir vəzifəsinə. Və elə bu zaman, 29 avqust 1994-cü ildə Eldar Quliyevin kabinetinə Əliyevdən ikinci zəng gəlir. 29 avqust Eldar Qulam oğlunun ad günüdür. «Siz bizimlə işləmək qərarına gəldinizmi? – Azərbaycan prezidenti soruşur və sonra da rəsmiyyətdən uzaqlaşaraq ona səmimi şəkildə «sən» deyə müraciət edir, ad gününü təbrik eləyir və axırda da deyir: Gəl, danışaq».

– Heydər Əliyev mənə Azərbaycanın BMT-dəki daimi nümayəndəsi vəzifəsini təklif etdi. Əlbəttə, bu, böyük şərəfdi, belə təyinat hər bir diplomatın ürəyindən keçər, bu, o deməkdir ki, yaxşı əsgər Marşal yolu gedir. Ev işləri yoluna düşdü. Və mən fəxarətlə bu təklifi qəbul etdim.

BMT Baş Assambleyasının Azərbaycan nümayəndələrinin də qatıldığı fəaliyyətində o, Azərbaycan Dövlət Neft Kampaniyasının vitse-prezidenti İlham Əliyev də iştirak edirdi.

Əminəm ki, bu, ölkə prezidentinin dərindən düşünülmüş və uzaqgörən qərarı idi, – Eldar Quliyev sözünə davam edir. – Heydər Əliyev İlhamı yüksək dövlət postuna hazırlayırdı. İlham Heydər oğlu Prezidentin Nyu-Yorkda, Vaşinqtonda Amerika senatorları və konqresmenləri ilə danışıqlarında bilavasitə iştirak eləyirdi:

Bu vaxta qədər İlham Əliyev «MDBMİ»-ni, bu məşhur tədris ocağının aspiranturasını bitirmişdi və eyni zamanda bu şöhrətli təhsil ocağında dərs demişdi. Amma Heydər Əliyev akademiyası, belə demək olarsa, onun xarici siyasət, beynəlxalq münasibətlər təhsilini yekunlaşdırdı. Belə bir görkəmli insanın yanında olmaq, böyük siyasətin necə yarandığını, formalaşdığını görmək, duymaq – bütün bunlar, sözün həqiqi mənasında da, əsl akademiyadır. İlham Heydər oğlu atasının üslubundakı ən yaxşı keyfiyyətləri əxz eləmişdi və bu, onun fəaliyyətində parlaq şəkildə nəzərə çarpır.

Diplomatik xidməti illərində Eldar Quliyev çoxsaylı böyük xadimlər – krallar, şahlar, prezidentlər və nazirlər görmüşdü...

– Açığını deyim: Heydər Əliyev miqyaslı dövlət xadimlərinə çox az, nadir hallarda təsadüf olunur. Problemləri, böyük siyasətdə hadisələrin qarşılıqlı əlaqəsini belə geniş, əhatəli görmək, tarixin qəzet cəfəngiyyatından televiziya görüntüsünə qədər səthi baxışlardan gizli qalan dərin axınlarını anlaya bilmək çox azlarına xas olmuşdur. O, söhbətləri, danışıqları, deyərdim ki, ən yüksək dövlət, siyasət səviyyəsində aparırdı. Bu zaman onun emosiyaları heç cür təzahür etmirdi. Amma yeri gələndə o, zarafat da edə, atalar sözü işlədə, Azərbaycan, rus, avropa klassikasından məlum obrazlara isnad edə bilirdi.

ABŞ konqresində Heydər Əliyevin sərt polemika zamanı adət üzrə, demokratiyaya Amerika baxışını qarşı tərəfə qəbul etdirməyə çalışan həmsöhbətlərinə söylədikləri yadıma düşdü: «Əgər demokratiyanı mağazindən qarpız kimi almaq və bölüb hamıya vermək mümkün olsaydı, amma belə olmur...» Yeddi il Nyu-Yorkda... İndi isə yenidən Moskvada. Səfir Eldar Quliyev Ümumrusiya Azərbaycanlıları Konqresinin icraçı direktorudur. Bu nüfuzlu ictimai təşkilat Rusiyada yaşayan və işləyən minlərlə azərbaycanlını birləşdirir. Bizim həmsöhbətimizin atası Qulam Quliyev Böyük Vətən Müharibəsi illərində Bakı rayonlarından birinin birinci katibi olub. Arxa cəbhədəki xidmətinə, qələbə naminə, cəbhəyə neft göndərdiyi üçün mükafatlandırılıb – «Lenin» ordeninə layiq görülüb. Qulam Quliyev 56 yaşında həyatdan gedib. Amma oğlu onun işini davam etdirir. Ümumrusiya Azərbaycanlıları Konqresində işləmək özü də diplomatiyadır. Əgər real iqtisadiyyat, minlərin və yüz minlərin həyati maraqları ilə kəskin şəkildə toqquşursa, özü də

heç bir qayda-qanuna sığışmadan və sən cavab verə bilmirsənsə, demək, yenə də diplomatiya meydanındasan.

«Neft – bizim xoşbəxtliyimiz və baş ağrımızdır»

Azərbaycan qazının nəqli ilə bağlı Türkiyəyə təntənəli mərasimə Azərbaycan prezidentinin göstərişi ilə Dövlət Neft Şirkətinin vitse-prezidenti İlham Əliyevi təyyarə ilə yola saldılar. Həmişə olduğu kimi, qonağı jurnalislər əhatəyə aldılar.

– *Cənab Əliyev, son on il Azərbaycan üçün ağır olmuşdur – müharibələr, daxili münaqişələr, liderlərin tez-tez dəyişməsi. Demək olarmı ki, hazırda Azərbaycanda tam dövlətçilik formalaşmışdır?*

– Bəli, şübhəsiz. Və bizim on il müstəqillik dövründə nail olduğumuz buna sübutdur. Həqiqətən də, bu çox çətin dövr olub – nəticəsində ərazimizin zəbt olunduğu Ermənistanla müharibə, vətəndaş müharibəsi, kənardan müdaxilələr. Amma nəticədə Azərbaycan iqtisadi sahədə çox şeyə nail olmuşdur. Müxtəlif beynəlxalq maliyyə təşkilatlarının fikrincə, bir çox iqtisadi göstəricilərə görə ölkəmiz digər MDB dövlətlərini xeyli qabaqlayır.

Səbəbi? Bu, birinci növbədə məhz son illərdə stabil siyasi şərait, daxili münaqişələrin olmaması, cinayətkarlığın çox aşağı səviyyədə olması və ölkənin bütövlükdə müasir dünya dəyərləri yönümündə inkişafı ilə bağlıdır. Digər tərəfdən, Azərbaycanda iqtisadiyyat tam liberallaşdırılıb, iqtisadi fəaliyyətlə məşğul olmaq sahəsində bütün qadağalar aradan qaldırılıb. Təəccüblü deyil ki, son altı ilə birbaşa xarici investisiyalar beş milyard dollara yaxın olmuşdur. Əhalinin hər nəfərinə düşən bu göstəriciyə görə Azərbaycan yalnız MDB ölkələri arasında deyil, həm də Şərqi Avropa ölkələrinin çoxu arasında liderdir. Gələcəkdə biz Azərbaycanı dünya birliyinə inteqrasiya olunmuş və bəşəri dəyərləri bölüşən kimi görürük. Əlbəttə, yerli özəlliklər nəzərə alınmaqla. Xeyli irəli getmiş ölkələrin təcrübəsini kor-koranə təkrarlamaq olmaz.

Suallara cavab verərkən İlham, el məsəlində deyildiyi kimi, söz üçün məəttəl qalmır. O, atasındakı kimi fenomenal yaddaşında istehsal rəqəmlərini, ehtiyatların həcmini, mənfəətin məbləğini saxlayır.

– Dünya bankının məlumatına görə, Azərbaycan 2005-ci il üçün yalnız «Azəri» və «Çıraq» yataqlarının işlənilməsindən yarım milyard, 2007-ci il üçün isə bir milyard dollar mənfəət əldə edəcək. Bü yaxınlarda biz yeni qaz yataqları aşkarlamışıq ki, bunlar Azərbaycana ildə 30-40 milyard kubmetr qaz ixrac etməyə imkan verəcək. Biz neft sahəsində ümumi həcmi 60 milyard dollar investisiya nəzərdə tutan 29 müqavilə bağlamışıq. Özü də bu gün bizim büdcəmiz cəmisi bir milyard dollara yaxındır və təsəvvür edin ki, yalnız bir layihədən biz bir milyard əldə edəcəyik...

Sonrakı suallar iqtisadiyyatdan çox, siyasətdəndir.

– Hazırda Bakıda Rusiyaya münasibət necədir?

– Əvvəllər real əsasları olan ehtiyatlanma vardı. Birinci növbədə, Moskvanın bizim neft layihələrini qəbul etməməsi, rəhbərliyin qeyri-korrekt bəyanatları, Ermənistana dəstək, o cümlədən ona bir milyard dollarlıq silahın qeyri-qanuni verilməsi. Bu, Azərbaycanla Rusiya arasındakı münasibətlərin heç də bizim görmək istədiyimiz kimi olmamasına səbəb oldu. Rusiyanın Azərbaycana müsbət təsirinin tarixən müsbət olması kimsə üçün sirr deyil. Götürək, misal üçün, Şimali və Cənubi Azərbaycanı – bu, yer və göy kimidir. Bizim hazırda kifayət qədər yüksək səviyyəli təhsilə malik olmamız xeyli dərəcədə Rusiyanın xidmətidir. Azərbaycanda həmçinin xeyli rus yaşayır ki, onlar ən ağır dövrlərdə belə sıxışdırılmayıb. Ölkəmizdə Rusiyanın üç əsas televiziya kanalı yayımlanır və biz onların nə göstərməsindən asılı olmayaraq onları bağlamırıq*. Bu yaxşı zəmin idi və Rusiya, təəssüf ki, bundan keçmişdə istifadə etmək istəməyib və ya istifadə edə bilməyib. Lakin hazırda mən və bütün Azərbaycan cəmiyyəti Rusiya ilə iqtisadi və siyasi münasibətlərin inkişafına ümidlə baxırıq. Vladimir Putinin Bakıya səfəri göstərdi ki, iki dövlət arasındakı münasibətlər normal məcraya qayıdır.

– Siz hey həyata keçirilməsi Azərbaycana «qızıl dağları» gətirəcək miqyaslı neft və ya qaz layihələrindən danışırsınız. Amma son vaxtlar bir çox ekspertlər Xəzərin ehtiyatlarının xeyli şişirdildiyini bildirirlər.

---

* 2007-ci ilin iyulunda Rusiya-Azərbaycan işçi qrupu telekanalların qarşılıqlı yayımlanmasının tənzimlənməsi haqqında razılaşmanı müzakirə etmişdi. Kitab çapa imzalanan məqam üçün danışıqlar hələ davam edirdi.

– Neft bizim xoşbəxtliyimiz və baş ağrımızdır. Həqiqətən də, bizdə hazırda hələ ki yalnız bir yeni neft yatağı işləyir və bu da ildə altı milyon ton neft verir. Qalan strukturlar kəşfiyyat mərhələsindədir. Təsdiqlənmiş ehtiyatları trilyon kub metr qaz təşkil edən «Şah Dəniz» yatağı istisna təşkil edir... Xarici investorlar da hesab edir ki, Xəzər karbohidratlarla kifayət qədər zəngindir. Artıq indi Bakı–Ceyhan layihəsi üzrə mühəndis işlərinə başlanılıb və boru kəməri konsorsiumu demək olar ki komplektləşdirilib. Mən bu yaxınlarda «Şevron» şirkətinin prezidenti ilə görüşmüşəm və o, şirkətinin Bakı–Ceyhan layihəsinə qoşulacağını təsdiqləyib. Neft yataqlarının ehtiyatlarının rəqəmləri Qazaxstanda da, Rusiyada da təsdiqlənir.

– Bakı–Ceyhan boru kəmərinin Rusiya ilə Azərbaycanın sonrakı münasibətlərinə mənfi təsir göstərə biləcəyindən qorxmursunuz ki?

– Bakı-Ceyhan siyasi layihə deyil, Azərbaycanın dirçəlməsi üçün yeganə yoldur. Çeçenistandakı hadisələrə görə daim təhlükə altında olan mövcud Novorossiysk boru kəməri kifayət qədər ötürmə imkanlarına malık deyil. Supsaya boru kəməri ilə ildə yalnız altı milyon ton neft daşımaq olar. Nəzərə alsaq ki, Azərbaycanda ən azı 50 milyon ton neft çıxarılacaq, bizə Aralıq dənizinə boru kəməri lazımdır. Lakin hazırda Novorossiyskə çox böyük ötürmə imkanlarına malik yeni kəmərin tikilməsi tamamilə mümkün deyil. Novorossiyskdəki terminal 30 milyon ton qəbul edə bilər, daha 2-3 milyon ton tuapse «həzm edə» bilər. Beləliklə, hazırda Novorossiysk tam doludur. Nəzərə almaq lazımdır ki, Novorossiyskə öz terminalı olan Kazaxstan boru kəməri tikilir və onunla 40 milyon tona yaxın neft nəql olunacaq. Bu artıq 70 milyon ton edir, buna bizim 50 milyon tonu da əlavə edin və bu artıq 120 milyon ton edir. Heç bir Bosfor bu həcmi buraxmaz. Və əgər Aralıq dənizinə boru kəməri olmasa, Azərbaycanın bütün neft layihələri dayana bilər. Biz Rusiya şirkətlərini Bakı-Ceyhan layihəsinə qoşulmağa çağırmışıq, lakin onlar hələ hazır deyillər. İstəsələr, biz boru kəməri şirkətindəki öz payımızı onlara verməyə hazırıq...

Elə ondaca İlham Əliyev «Moskovskiy komsomolets» qəzetinə böyük bir müsahibə verdi.

«Heydər Əliyevin oğlu ilk nəzərdən Azərbaycanın Dövlət Neft Şirkəti başçısının çox da böyük olmayan müavini vəzifə-

sində olduğu altı il ərzində xeyli dəyişmişdir. Dəyişikliyin nədə olduğu dərhal anlaşılmır. Bir şey aydındır: atasına oxşar danışır. Sərtlik xeyli çoxdur. O, «yaxşı şəhər uşağından» hakimiyyətini anlayan adama çevrilib və bəlkə də buna öyrəşib və ondan imtina etməyə də hazırlaşmır. Söhbət zamanı – diktofonla və diktofonsuz – İlham Heydəroviç sadəcə ziyalının «geri çəkilə biləcəyi», amma arxasında güclü resurslar duran siyasətçinin isə heç vaxt çəkilməyəcəyi məsələlərdə «geri çəkilmədi». Özü də artıq sözə nə hacət: o aşkar bildirdi ki, heç yerə getmir və getməyə də hazırlaşmır. Və deməli, Azərbaycanda bu və ya başqa işlərin inkişafında maraqlı olan istənilən qüvvələr ölkənin hazırkı «hakim sinfi» üçün təbii lider və vərəsə olan kiçik Əliyevlə hesablaşmalıdır.

– İlham Heydəroviç, son vaxtlar Prezident Əliyevin müxtəlif səbəblərdən istefaya gedəcəyi barədə get-gedə daha çox məlumatlar yayılır. Mümkün varislərdən biri kimi Sizin adınız çəkilir. Bunu necə şərh edə bilərsiniz?

– Bu sualı mənə tez-tez verirlər. Və hər dəfə də cavab verirəm: bu barədə danışmaq çox tezdir. 2003-cü ildə yeni prezident seçkiləri olmalıdır. Azərbaycan Konstitusiyasına görə Prezident Əliyev növbəti dəfə seçilə bilər – bu, qanun pozuntusu olmaz. Və mən əminəm ki, o seçkilərdə iştirak edəcək və Azərbaycan xalqı onu dəstəkləyəcək. Mən tam səmimi deyirəm: bu məsələ hazırda jurnalistlərin güman etdiyi kimi cəlbedici deyil. Və Prezidenti TV-da və ya müxtəlif görüşlərdə görənlər, başa düşürlər ki, onun səhhəti yaxşıdır. O əvvəlki rejimdə işləyir. Və ondan xeyli cavan olan bizim üçün onunla ayaqlaşmaq hərdən çətin olur.

Azərbaycanda hakimiyyət dəyişikliyi barədə söhbətlər, əlbəttə, ürək açmır. Qərbdə hətta «Azərbaycan Prezident Əliyevdən sonra» mövzusunda dinləmələr də aparılır. Hesab edirəm ki, bu, məsələnin tamamilə qeyri-etik qoyuluşudur. Azərbaycanda monarxiyanın yaradılması, hakimiyyətin nəsilliklə ötürülməsi haqqındakı məlumatlar isə ya tam axmaqlıq, ya da təxribatdır.

– Lakın siz parlament seçkilərində qalib partiyanın siyahısında birinci olandan sonra ümumi fikir bu oldu ki, siz parlamentin spikeri olacaqsınız.

– Obyektiv yanlışlıqdır. Bir tərəfdən, bizim müxalifətin bu mövzunu hədsiz şişirtməsi ilə bağlıdır. Digər tərəfdən isə mənim «Yeni Azərbaycan» partiyasının siyahısında birinci ol-

mağımdan və seçkilər zamanı, əslində, partiyanın adından çıxış etməyimdən irəli gəlir. Seçki kampaniyası dövründə mən Azərbaycanın bütün regionlarında oldum, seçicilərlə çoxsaylı görüşlər, çıxışlar oldu. Mən bir növ bizim partiyanın sifəti idim. Və belə bir təcrübə var ki, qalib partiyanın siyahısının başında olan adam sonra spiker ola bilər. Lakin qarşıda belə bir məqsəd tamamilə durmurdu. Bu mənim planımda yox idi və ümumiyyətlə müzakirə olunmurdu. Mənim qarşımda duran məqsəd seçkiqabağı kampaniyanı aparmaq və partiyanın mümkün qədər çox səs toplamasına çalışmaq idi. Hesab edirəm ki, öz funksiyamı yerinə yetirmişəm, seçkiqabağı kampaniyanı aparmışam – vəssalam.

...Bizi sevindirir ki, hazırda Rusiyada bu və ya digər məsələyə dair, o cümlədən Azərbaycanla münasibətlər üzrə, vahid mövqe var. Keçmişdə nə baş verirdi? Hər nazirlik və idarənin öz mövqeyi var idi və ondan çıxış edirdi. Biz bununla, məsələn, neft müqavilələrinin bağlanılması zamanı üzləşdik. Bu zaman, bir tərəfdən, Yanacaq və energetika nazirliyi layihələrdə iştirak edir, Xarici işlər nazirliyi isə nota göndərirdi. Belə hərc-mərclik yalnız Rusiyanın özünün həyatını mürəkkəbləşdirmirdi, həm də bizim işimizi ağırlaşdırırdı, çünki biz dövlətin mövqeyinin necə olmasını aydınlaşdıra bilmirdik. Amma, olsun ki, onda mövqeyin özü də yox idi... Bu gün görürük ki, vəziyyət dəyişib, vahid hakimiyyət mövcuddur. O aşkar görünür, konkret addımlar atır...Və Rusiya tərəfinin yanaşmasında hiss olunan praqmatiklik bir çox problemlərin həllinə kömək edir. O cümlədən Xəzərin statusu məsələsində. Əminəm ki, yaxın zamanlarda Rusiya ilə Azərbaycan arasında bu məsələni tənzimləyən sənədlər imzalanacaq. Həll edilə bilməyən problemlər yoxdur, ən əsası istəyin olmasıdır. Azərbaycan tərəfdən isə istək həmişə olub, hazırda biz belə bir istəyin Rusiyada da olmasını hiss edirik. Və biz birinci növbədə Rusiyanın Qarabağ məsələsinin həllində iradəsinə ümid edirik.

– *Türkiyənin Ceyhan şəhərinə boru kəmərinin çəkilməsi Rusiyada ağrılı reaksiya doğurur. Rusiyada vəziyyəti sakitləşdirmək üçün hər hansı mexanizm varmı?*

– Bu məsələdə, birinci növbədə, biz istərdik ki, bütün problemlərimiz başa düşülsün. Azərbaycan balaca ölkədir. Hazırda və bir çox illər sonra Azərbaycan üçün iqtisadi və siyasi vəziyyət təbii resursların çıxarılması strategiyasından asılı olacaq. Bakı-Ceyhan boru kəmərinin çəkilməsi Azərbaycanın

iqtisadi inkişafının əsas elementidir. Gəlin hesablayaq: bizim hesablamalarımız göstərir ki, Azərbaycan ildə 50 milyon ton neft hasil edə bilər. Və bu nefti daşımaq lazımdır. Bu gün, Rusiya boru kəməri sistemi əlavə olaraq bu həcmi ötürmək imkanına malik deyil. Hazırda onsuz da tam gücü ilə işləyən Novorossiysk terminalının gücü 30 milyon tona yaxındır. Axı Azərbaycan neftindən başqa Qazaxstandan da böyük həcmdə nefti daşımaq lazımdır. Bu həcmi Gürcüstan vasitəsilə də daşımaq mümkün deyil, çünki Bakı-Supsa boru kəmərinin bunun üçün texniki imkanları yoxdur. Buna görə də Bakı-Ceyhan boru kəməri qətiyyən siyasi manevr deyil. Bizim üçün bu, iqtisadi azadlıq və iqtisadi inkişaf imkanı əldə etmək yoludur.

Bütün bunlarla yanaşı iqtisadi amil də nəzərə alınmalıdır. Bu gün neftin Bakı-Ceyhan marşrutu ilə daşınması Bakı-Novorossiysk marşrutundan xeyli sərfəlidir. Fərq, ton-kilometr baxımından yanaşdıqda, bir-iki dollar deyil, daha çoxdur. Birincisi, tariflər hesabına, ikincisi, keyfiyyət hesabına: çünki biz öz yüksək keyfiyyətli neftimizi daşıyırıq, Rusiyadan daşıyanda isə onun ural qarışığı ilə əvəzlənməsi baş verir. Biz hesab etmirik ki, öz neftimizi daşımaq istədiyimizə görə kiməsə nəsə borcluyuq. Digər tərəfdən isə, biz Rusiya tərəfinə dəfələrlə bildirmişik ki, neftimizi şimal marşrutu Bakı-Novorossiys xətti ilə daşımağa hazırıq. Biz həmçinin Bakı-Ceyhan layihəsində Rusiya şirkətlərinə pay ayırmağa da hazırıq. Təəssüf ki, onlar hələ ki öz razılıqlarını verməyiblər, amma bizim təklifimiz qüvvədə qalır. Bizi öz ölkəmizin xeyrini istəməkdə günahlandırmaq isə ədalətsizlikdir.

– Müsahibəmizin sonunda yenə də siyasi məsələlərə qayıtmaq istərdik. Şəxsən Siz Azərbaycan Dövlət Neft Şirkətində qalmağa hazırlaşırsınız, yoxsa siyasi karyera barədə düşünəcəksiniz?

– Güman edirəm ki, burada daha çox xeyir verə bilərəm. Siyasət hər halda nəsə etmək üçün bir vasitədir. Azərbaycanda xeyli çox partiya var – haradasa əlli. Və hər bir partiyanın lideri özünü siyasətçi sayır və deyir: bax biz siyasətçiyik, İlham Əliyev isə siyasətçi deyil. Lakin siyasət heç də yalnız televizorda çıxış etmək, müsahibə vermək, mitinq keçirtmək deyil. İnsanların sənə inanması, hörmət etməsi üçün nəsə etmək lazımdır.

Azərbaycanın hansı istiqamətdə inkişaf etməsi bu gün xeyli dərəcədə neft şirkətinin fəaliyyətindən asılıdır. Bir misal gətirim. 1993-cü ildə Azərbaycanın xəzinəsində pul yox idi.

Yəni orada olan az miqdarda pulu əvvəlki hakimiyyət – «Xalq cəbhəsi» – gedəndə harasa köçürmüşdü (indiyəcən də tapa bilmirlər). Bu gün Azərbaycanın valyuta ehtiyatı bir milyard dollardır. Bu bir milyardın əksər hissəsini neft sektoru qazanıb. Ölkəmizin neft sektoruna bir neçə milyard dollar xarici investisiya yatırılıb. Bilirsiniz ki, neft sektoruna qoyulan hər dollar başqa sahələrə ən azı bir dollar gəlir gətirir. Buna görə də hesab edirəm ki, hazırda məşğul olduğum sahə ən əsas siyasətdir. Çünki bu, Azərbaycanda əmək haqlarının artırılmasına, pensiyaların vaxtında verilməsinə təsir edir. Ola bilsin ki, istənilən qədər deyil, amma hər halda bir neçə il əvvəlkindən xeyli çoxdur. Hər il qaçqınlara verilən müavinətlər artırılır. Bu gün Azərbaycanda normal investisiya mühiti yaradılıb – bu da, zənnimcə, siyasətdir. Əlbəttə, parlamentdə işləmək daha asan olardı, çünki orada hər necə olsa da məsuliyyət bir qədər azdır: hey müzakirələr aparmaq praktik iş görməkdən asandır. Amma mən əvvəllər siyasətlə ARDNŞ-də işləri birgə apardığım kimi, indi də yenə birgə aparacağam.

– Siz özünüz şəxsən Azərbaycanın indiki elitasının maraqlarını ifadə etdiyinizi və artıq bundan heç yerə qaça bilməyəcəyinizi dərk edirsinizmi?

– İstəyirəm ki, məni düzgün başa düşsünlər. Mən heç yerə getməmişəm və getməyə də hazırlaşmıram. Prinsip etibarilə mən istənilən səviyyədə istənilən mübarizəyə hazıram, çünki hesab edirəm ki, bu illər ərzində Azərbaycanın əldə etdiyi nailiyyətlər saxlanılmalı və çoxaldılmalıdır. Və bu gün Azərbaycanın Prezidentin rəhbərliyi altında getdiyi kurs çox-çox illər və onilliklər ərzində Azərbaycanın kursu olaraq qalmalıdır. Bunun üçün də məndən asılı olan hər şeyi istənilən qisimdə etməyə hazıram. Bu gün mənim aşkar siyasətə birbaşa can atmağıma heç bir zərurət yoxdur. Belə zərurət yaranarsa, mən hazıram. Və bizim partiyaya səs verənlərin hamısı arxayın ola bilər» (*Moskovskiy komsomolets, 25 dekabr 2000-ci il*).

Üç dənizin əfsanəsi və həqiqətləri

18 sentyabr 2002-ci ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin təməlqoyma mərasimi keçirildi. Bu arteriya ilə Azərbaycanın «qara qızılı» dünya bazarına axmaqla respublikaya firavanlıq gətirəcəkdi. Unudulmaz, həyəcanlı dəqiqələrlə zəngin

olan təməlqoyma mərasimi. Təntənənin əsas iştirakçıları da həyəcanlı idi, – üç prezident: – Heydər Əliyev, Əhməd Necdət Sezər, Eduard Şevardnadze. Azərbaycan, Türkiyə Gürcüstan... Mərasimdə əlbəttə ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti İlham Əliyev də iştirak edirdi.

«Heydər Əliyev: Mən sizə bildirmək istəyirəm ki, Bakı-Tbilisi-Ceyhan boru xəttinin əleyhinə çıxanlar çox vaxt belə söyləyirdilər ki, bu, xəyaldır, mümkün deyil, Azərbaycanda o qədər neft yoxdur, olmayacaq da. Belə danışıqlar çox idi. Zaman çox keçdiyinə görə bəziləri də bu danışıqlara inanırdılar. Ancaq bunların hamısı əsassız oldu, biz öz işimizi gördük... «Üç dənizin əfsanəsi» adlı konfrans keçirildi... Mən orada nitq söylədim, dedim, siz burada əfsanədən danışırsınız. Amma mən sizə demək istəyirəm ki, bu, xəyal deyil, əfsanə deyil, üç dəniz – Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi birləşəcəkdir. Bunu birləşdirən də Türkiyə, Gürcüstan, Azərbaycan, onların həyata keçirdikləri bu layihə və Amerika Birləşmiş Ştatlarının bu məsələyə daimi dəstəyi olmuşdur. Ona görə indi xəyaldan gerçəkliyə gəlib çatmışıq».

«Əhməd Necdət Sezər: Mən bir daha başda hörmətli Əliyev və hörmətli Şevardnadze olmaqla şərq-qərb enerji dəhlizinin həyata keçirilməsində əməyi olan hər kəsi salamlayır, hörmət və ehtiram duyğusuyla fəaliyyətləriylə siyasi iradə, önəmli xidmətlər göstərmiş Türkiyə Respublikasının məndən öncəki prezidentləri rəhmətlik Turqut Ozalı və hörmətli Süleyman Dəmirəli yad edirəm. Arzu edirəm ki, bu böyük layihələr Azərbaycan, Gürcüstan və Türkiyə xalqları arasında dostluq və qardaşlığın daha da möhkəmlənməsinə, ölkəmizdə sülh və təhlükəsizliyə xidmət etsin».

«Eduard Şevardnadze: Həyata keçirilməsinə bu gün başlanan əsrin layihəsi nəvələrimiz və nəticələrimizə irs olaraq qalacaq. Mən fəxr edirəm ki, bizim nəslimiz onlara layiqli irs qoyur. Biz birgə səylərimizlə, yekdil harmonik fəaliyyətimizlə dünyaya göstərdik ki, kiçik də olsa, möcüzə yaratmağa qabilik. Arzu edirəm ki, birgə əməkdaşlığımız çoxlu belə möcüzələr yarada bilsin».

25 may 2005-ci il. Günü, ayı, ili bildirən bu rəqəmlər də Azərbaycanın yeni tarixinə daxil oldu – Bakı-Tbilisi-Ceyhan boru kəmərinin istifadəyə verildiyi tarix.

O günlər Azərbaycanın paytaxtı bəzənmişdi. Çoxlu qonaqlar gəlmişdi, təbriklər səsləndi, nitqlər söyləndi. Ölkə pre-

zidenti İlham Əliyev çıxış etdi. O, xatırlatdı ki, siyasəti iqtisadiyyatla çox sıx şəkildə sarmaşdıran bu layihə necə meydana gəlib. O dedi ki, çoxlarının, lap çoxlarının bu layihəyə şəkk gətirməsinə baxmayaraq, Heydər Əliyev bu anlaşmanın gələcəyinə inanırdı.

– Bir çoxları Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşacağına şübhə ilə yanaşırdı. – kəmərin neftlə doldurulması mərasimində İlham Əliyev belə dedi, – bir çoxları çalışırdılar ki, mane olsunlar, amma bacarmadılar. Azərbaycan, Türkiyə və Gürcüstan birliyi, bütün regional energetika layihələrində Amerika Birləşmiş Ştatlarının dəstəyi, «Britiş petroleum»un və başqa kampaniyaların dəstəyi bizə imkan verdi ki, əfsanəni reallaşdıraq.

Amerika Birləşmiş Ştatlarının prezidenti Corc Buş Azərbaycan başçısına xüsusi müraciətnamə göndərmişdi. Sənəddə deyilirdi ki, bu kəmər inandırır ki, Xəzər nefti Avropaya və başqa həyati əhəmiyyətli kommersiya baxımından faydalı, ətraf mühit üçün təhlükəsiz marşrutla çatdırılacaq.

O gün Bakıda Rusiyadan da qonaq gözləyirdilər. Rusiya Federasiyası prezidentinin Beynəlxalq energetika əməkdaşlığı üzrə xüsusi nümayəndəsi İqor Yusifov gəlməli idi. Amma o, gəlmədi. Dedilər ki, xəstələnib. Belə şeylər olur.

* * *

İyul ayının 4-də İlham Əliyev Prezident Sarayında Türkiyənin «Cümhuriyyət» qəzetinin müxbiri Leyla Tavşanoğluna böyük müsahibə verdi. Azərbaycan prezidentinin bir neçə diqqətəlayiq cavabına nəzər yetirək:

...– Bakı-Tbilisi-Ceyhan neft kəməri həm iqtisadi cəhətdən, həm də başqa cəhətlərdən çox sərfəli layihədir. Biz onun üzərində neçə il işləmişik və bu nəhəng layihəni birgə həyata keçirmişik. O bizə Xəzər neftini dünya bazarlarına çıxartmağa imkan verəcək. Bizdə çoxlu neft çıxarılması gözlənilir və əlbəttə, Bakı-Tbilisi-Ceyhanda başqa ölkələr, başqa şirkətlər də çox maraqlıdırlar. Qazaxstanın da bu layihəyə qoşulması bir daha bunu təsdiq edir.

Bilirsiniz, keçmişdə bu layihə ilə bağlı müxtəlif fikirlər söylənilirdi. Müəyyən qüvvələr müqavimət göstərir, bunu istəmirdilər. Hətta bildirirdilər ki, layihə iqtisadi baxımdan əsaslandırılmayıb, sərfəli deyil. Amma həyat göstərdi ki, bütün bu

dəlillərin real əsası yox idi. Bizim fikirlərimiz, ideyalarımız, siyasətimiz isə həyatda öz əksini tapır. Bu layihəyə və ümumiyyətlə Azərbaycanın özünün Xəzər dənizi sektorunda fəaliyyəti və bunun nəticəsində başqa beynəlxalq layihələrin meydana gəlməsi nəticəsində bu iş artıq qlobal müstəvidə həyata keçirilir. O, region hüdudlarını aşaraq qlobal müstəviyə çıxmışdır və bunun da Azərbaycan üçün çox böyük əhəmiyyəti var.

...Diqqət verin, erməni lobbisi Bakı-Tbilisi-Ceyhan neft kəmərinə qarşı fəal çıxış edir. Hətta beynəlxalq maliyyə qurumlarına məktublar da göndərilirdi. Beynəlxalq valyuta fonduna, Dünya bankına, bu layihəni maliyyələşdirən digər banklara ciddi təzyiq göstərilmişdi. Lakin onunla heç nəyə nail ola bilmədilər, çünki Azərbaycan dövlətinin iradəsi, Türkiyə dövlətinin iradəsi, Gürcüstan dövlətinin bu məsələdə fəallığı onlara bu işi pozmağa imkan vermədi.

Biz, Prezident vurğuladı, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsini də həyata keçirəcəyik.

Bu tikinti 2007-ci il sentyabrın 20-də Azərbaycan Prezidenti İ.Əliyevin, Gürcüstan Prezidenti M.Saakaşvilinin, Türkiyənin baş naziri R.Ərdoğanın iştirakı ilə başlanacaq. Yol üç ölkənin nəqliyyat sistemini birləşdirəcək. Axalkalaki-Tbilisi və Tbilisi-Bakı xətləri təzələnməli və 105 kilometr yeni yol çəkilməlidir ki, bunun da 29-u Türkiyə ərazisinə, qalanı Gürcüstan ərazisinə düşür.

– Bu layihədə iştirak edən ölkələr çox sıx əməkdaşlıq edirlər. Bizə hətta xaricdən maliyyə dəstəyi də lazım olmadı. Beləliklə, bu böyük layihəni biz özümüz həyata keçirəcəyik, – İ.Əliyev dedi. – Onun çox böyük siyasi və iqtisadi əhəmiyyəti olacaq, bütün geosiyasi vəziyyətə güclü təsir göstərəcək.

Xaricdən maliyyə dəstəyi haqqında. Azərbaycanın ABŞ-dakı dostları yolun maliyyələşdirilməsinə qadağa qoyulmasına nail ola bildilər. Lakin bu layihəni dayandırmadı. Yolun Gürcüstan hissəsinin tikintisinə Azərbaycan illiyi bir faiz (!) olmaqla 25 il müddətinə 200 milyon dollar ayırır. Bakı-Tbilisi-Ceyhan neft kəməri kimi Bakı-Tbilisi-Qars dəmir yolu da reallaşacaq.

Geosiyasətin pərdəsi arxasında

Heydər Əliyev tərəfindən düşünülmüş nəşrə onun oğlu İlham Əliyev təklif etdi ki, daha iki cild əlavə olunsun.

Bu yeni cildlərə daxil ediləcək materiallar Heydər Əliyevin ABŞ-a, Rusiyaya və digər ölkələrə səfərləri, bu dövlətlərdə keçirdiyi danışıqlar, verdiyi müsahibələr, etdiyi söhbətlər olacaqdı. Daha doğrusu, bu danışıqların, müsahibələrin, söhbətlərin stenoqramı yazıya çevriləcəkdir. Şərqin bir müdrik kəlamında isə deyilir: «Yazıya pozu yoxdur».

Yeni cildlər Heydər Əliyevin təklif etdiyi adla çap olundu: «Azərbaycan nefti dünya siyasətində». Oğul atanın işini davam etdirir.

2004-cü ilin avqust ayında Fransanın «Mond» qəzeti diqqətəlayiq sərlövhə ilə məqalə çap etdi: «Nə üçün neft geosiyasətin mərkəzinə qayıtdı». Qəzet «Afrikadan tutmuş Xəzər regionuna kimi yeni neft qaydalarının meydana gəlməsindən» yazırdı.

«Geosiyasi planda Xəzər regionu daha mühümdür. Müxtəlif araşdırmalara görə Azərbaycanın, Qazaxıstanın və Türkmənistanın neft ehtiyatları 30 milyard barelə yaxındır, daha doğrusu, təxminən Şimal dənizində olan neft ehtiyatı qədərdir.

Azərbaycan neftinin Gürcüstandan keçməklə Aralıq dənizi limanlarına çıxarılması üçün çəkilmiş Bakı-Tbilisi-Ceyhan magistral boru kəməri amerikalıların və rusların gizli maraqlarının toqquşduğu və İran, Türkiyə və Çinin gözlərini çəkmədikləri nöqtədir. Bütün bu ölkələr arasında Rusiya yalnız bir neft dövləti kimi (gündə 8 milyon barel – təxminən Səudiyyə Ərəbistanı qədər neft ixrac edir) deyil, həm də qaz dövləti kimi (Dünya qaz ehtiyatının cəmi 36 faizi Yaxın Şərqin payına düşdüyü halda, 45 faizi Rusiyanın payına düşür) potensialına müvafiq mövqeyə iddialıdır. Və bu iki amilə görə Rusiya prezidenti Vladimir Putin ölkənin energetika siyasətinə nəzarəti nə üçün bərpa etməsini izah edir, çünki o, hesab edir ki, bu siyasət hazırda Rusiyanın maraqlarına xəyanət etməkdə şübhəli olan oliqarxların əlindədir.

2004-cü ilin yayında «neft birjalarında qiymətlərin sıçrayışını» təhlil edən «Mond» qeyd edir ki, OPEK-in ona daxil olmayan neft istehsalçısı ölkələrə neft kranlarını daha çox açmaq çağırışı çətin ki, yaxın perspektivdə bir nəticə versin. OPEK ölkələrinin imkanları 96 faiz nəzərdə tutulub və ondan tələb olunduğu kimi gündə əlavə 2 milyon barrel əlavə neft vermək onun üçün çətin olacaq. Analitiklərin fikrincə, yeni energetik partlayışa səbəb Çindir. Beynəlxalq energetika agentliyinin verdiyi məlumata görə, 2025-ci ilə bu ölkənin

neftə tələbatı bir gündə 5,5 milyon barreldən 11 milyona qədər artacaq. Dünya tələbatı artımının yalnız 40 faizi bu ölkənin payına düşür, özü də tezliklə iri istehlakçılar siyahısına – Çinə başqa Asiya ölkələri də, o cümlədən Hiddistan, əlavə olunacaq, halbuki dəyişən zamanın əlaməti kimi 2004-cü ilin iyununda Böyük Britaniyanın son on ildə ilk dəfə neft idxal etməyə başlaması götürülə bilər.

Neftə tələbat artır. Bəs onu haradan almalı? Nəzəri cəhətdən kəşf olunmuş ehtiyatlarına görə Səudiyyə Ərəbistanından sonra dünyada ikinci yerdə duran İraq təklifin artırılmasında əsas rol oynamalıdır. Lakin ölkədəki qeyri-qənaətbəxş vəziyyət buna mane olur. Bütün ərəb-fars bölgəsinə dair də belə şübhələr var. Deməli yeni təminat mənbələri axtarmaq lazımdır. Bunlardan biri, «Mond» belə deyir, Xəzərdir.

Bu mövzunu «Neft bombadan daha qorxunc silahdır» məqaləsində İtaliyanın «Stampa» qəzeti (18 yanvar 2007) davam etdirir. «Müasir tarixdə hakimiyyət və neft qarşılıqlı əlaqədar olan anlayışlardır. Birləşmiş Ştatların getdikcə daha az etibarlı müttəfiq olan Ər-Riyad monarxiyasının mümkün əvəzləyicisi kimi İraqın neft ehtiyatlarından yararlanmağa qərar verməsi ideyası tədricən Səddam Hüseyn İraqına (ingilis) Amerika təcavüzünün başlamasını izah edən daha geniş yayılan versiyaya çevrilir.

Ruzvelt Yaltadan qayıdanda Fars körfəzində lövbər salmış Amerika kreyserində Səudlar sülaləsi ilə müqavilə bağlayan Birləşmiş Ştatlar o dövrdə, 1945-ci ildə dünyada birinci neft ixracatçısı idi. Amma artıq onda onlar dərk edirdilər ki, energetik resurslar üzərində nəzarət istənilən qalib strategiyanın birinci elementidir və bu müqaviləni bağlamaqla onlar gələcəyə hazırlaşdılar. İndi bu gələcək gəlib çatıb. ABŞ da idxalçı olub və neft gətirilməsindən asılıdır. Və dünya neft ehtiyatının 65 faizinin yerləşdiyi Fars körfəzi əsas neft mənbəyinə çevrilir. Hövzə üzərində nəzarət daimi və təminatlı neft alışını təmin edir. Lakin bu bölgədə öz yataqları olan İran da var. Və əgər Fars körfəzi şeyxləri ABŞ və Avropa Qərbinin əsas neft ixracatçılarıdırlarsa, İran öz neftinin 45 faizini Avropaya yönəldir, ABŞ-a isə bir barrel də vermir. Əlbəttə, bir zamanlar Amerika İranın sərfəli müştərisiydi, amma Xomeyni inqilabı nəticəsində Pəhləvi şah devrildi və həmin gündən kranlar bağlandı. Və İran, nəinki Amerikaya bircə barrel də neft vermir, o,

anti-Amerika siyasəti apararaq Vaşinqtonu «imperializm»də və «neomüstəmləkəçilik»də günahlandırır».

Amerikanın ünvanına belə ittihamlarla Çaves Venesuelası da çıxış edir, lakin öz ixracat neftinin 40 faizindən çoxunu Amerikanın neftayırma müəssisələrinə göndərir ki, bu da bütün Amerika neft idxalının 15 faizini təşkil edir. Və bu fakt, şübhəsiz, Amerika hökumətinin narahatçılığına səbəb ola bilər. Vaşinqton neft alışının bundan sonra da davam etdirilməsi məsələsi ilə məşğul olur, lakin Çaves və Əhmədi Nicatın mütəmadi möhkəmləndirdikləri alyans – onlar aralarındakı məsafənin nəhəngliyinə, siyasi və mədəni ənənələrindəki fərqlərə baxmayaraq artıq 30-a yaxın niyyət protokolu bağlamışlar – Ağ evin strategiyasını hazırlayanlar üçün problemlər yaradır...»

2006-cı ildə «Neft əsri: ən çoxmənalı dünya resursunun mifologiyası, tarixi və gələcəyi» kitabı çapdan çıxdı. Onun müəllifi İtaliyanın «Eni» neft-qaz konserninin böyük vitse-prezidenti Leonardo Maudjeri əmindir ki, neft xəzinələrinin tükənməsi haqqındakı qorxunc ehtimallar səhvdir. Onun fikrincə, yeni neft əsri indi başlanır.

...Yerin səthi altında nə qədər neft gizlənir? Biz bir şeyi dəqiq bilirik, bu da odur ki, tarixdə o qədər reallıqdan uzaq qiymətləndirmələr, daha doğrusu «yarımçıq qiymətləndirmələr», var ki, bu demək olar ki, gülüncdür. Məsələn, 1920-ci ildə İngilis-İran neft şirkəti (indiki «Britiş petrolium») Səudiyyə Ərəbistanında vəsait yatırmaqdan imtina etdi, çünki hesab edirdi ki, bu ölkədə bircə damla da neft yoxdur. 1919-cu ildə ABŞ-ın geologiya xidməti bildirmişdi ki, Birləşmiş Ştatlarda neft on ildən sonra qurtaracaq. Amma həmin on il başa çatan zaman üçün nəhəng yataqların, birinci növbədə Texasın «Qara nəhəngi»nin aşkarlanması elə neft artıqlığı yaratdı ki, bu az qala bütün iqtisadiyyatı məhv edəcəkdi. MKİ-nın məşhur məruzəsi əlyetər yataqların «sürətlə boşalmasından» xəbər verirdi, prezident Cimmi Karter isə «neft quyularının dünyanın hər yerində quruduğundan xəbərdar edirdi». Bunun əvəzində 1986-cı ildə neftin qiyməti, əvvəllər də dəfələrlə başımıza gəldiyi kimi, böyük ifrat istehsal səbəbindən birdən aşağı düşdü.

Doğrudur, neftin həmin ildə qiymətinin düşməsi səbəbləri haqqında başqa bir fərziyyə də var. Sırf siyasi. Qərbdə planlaşdırılmış və SSRİ-yə qarşı yönəlmiş.

Bu fərziyyəni uydurma hesab edənlərə xatırladaq ki, Xəzər indi də «ABŞ-ın həyat əhəmiyyətli maraqları bölgəsi» hesab olunur. İldə iki dəfə konqres Amerikanın maraqları bölgəsində nə baş verdiyini müzakirə edir. Və müzakirənin daha əyani olması üçün dövlət departamenti Amerika kəşfiyyatı üçün əlavə maliyyələşdirməyə nail olub. İndi MKİ-də Xəzər otağı adlanan otaq var, bu, «regionda siyasi proseslərin inkişafını müşahidə edən və onun sərvətlərini qiymətləndirən» xüsusi əməliyyat bölməsidir.

Bu dayılar, Xəzəri Şimali Amerikanın Böyük göllərindən biri hesab edən Amerika kolleclərindəki Mitrofanuşkalardan fərqli olaraq, Xəzərin tarixini də, coğrafiyasını da, geologiyasını da yaxşı bilirlər.

Yeri gəlmişkən.

Bu yaxınlarda Rusiyanın televiktorinalarından birində məşhur «Səhranın bəyaz günəşi» filmində hadisələrin harada baş verdiyi sualı səslənmişdi? Qız suala cavab verə bilməyib, kömək üçün zala müraciət etdi. Zaldakıların az qala 70 faizi Azov dənizini seçdi. Doğru cavab – Xəzər dənizi – on faizlə üçüncü mövqedə qaldı. Pavel Luspekayevin gözəl ifa etdiyi gömrükçü Vereşşagin haqlı idi: «Vətənə görə inciyirəm!»

Maudjerinin əsərinə qayıdaq.

Apokalipsik öngörümlər yenə də dəbdədir, o, sözünə davam edir, neft resurslarının tükənməsi bu onilliyin sonuna və ya gələn onilliyə təyin olunub. Qəzalar nəzəriyyəsinin yeni ardıcıllarının dedikləri daha inandırıcı görünə bilər, çünki onlar planetimizin tərkindəki sirlərə nüfuz etmək üçün statistik və ehtimal modellərindən istifadə edirlər. Əslində isə onlar heç yerə nüfuz etmirlər. Bütövlükdə, dünyanın tərkindəki resurslar haqqında olan az miqdarda biliklər gələcəyə nikbin baxmağa əsas verir.

Tarixən neftin yüksək qiymətləri investisiya bumuna və istehlakın azalmasına aparıb ki, bu gün də biz məhz bunu müşahidə edirik. İnvestorlar tipik neftdən qeyri-tipikə qədər (neftli qum, yanar şist) bütün enerjidaşıyıcılarına və təbii qazdan bioyanacağa və duruldulmuş kömürə qədər bütün alternativ enerji mənbələrinə yüzlərlə milyard dollar vəsait qoyurlar. Başqa sözlə, yüksək qiymətlər dünya iqtisadiyyatı üçün heç də pis xəbər demək deyil, çünki onlar innovasiyaları və səmərəliliyi sürətləndirir və eyni zamanda qənaətcilliyə rəvac verir.

Amma bu dövrün nə qədər çəkəcəyini kimsə bilə bilməz. Ayağımızın altında nələr olduğunu fundamental bilməməzliyimizdən çıxış etsək, ən yaxşı mərc hələ onillərlə bazarın tsiklik qalacağını və bum dövrlərinin tənəzzül dövrləri ilə əvəzlənməsi ilə xarakterizə olacağı olar. Biz hazırda 70-ci illərə bənzər yüksək qiymətlər dövrünü yaşayırıq, lakin prinsipial fərqlər də var. Bu gün neft ehtiyatlarının 90 faizdən çoxu istehsalçı ölkələrin nəzarəti altındadır və onların çoxu energetik millətçilik siyasəti yeridir. Yüksək qiymətlərin saxlanılmasına yönümlənmiş bu millətçi meyil yeni işləmələri boğa bilər. Bu, həm də istehsalçı və istehlakçı ölkələr arasında onsuzda artan və Qərblə Rusiyanı, ABŞ-la Venesuelanı və s. qarşı-qarşıya qoyan gərginliyi gücləndirə bilər. Sadə dillə desək, neft problemi yerin altında deyil, üstündədir.

Hər halda neft ehtiyatlarımızın tükənməsi fikri kütləvi şüura elə yeriyib ki, təshihlər lazımdır. Neftin miqdarı haqqında bu qədər qeyri-korrekt «fallar» görməyimizin səbəbi ən qabaqcıl texnologiyaların da yerin tərkində nə qədər xam neft olması haqqında bizə məlumat verə bilməməsindədir. Yeni yataqların axtarılmasının məqsədyönlü aparılmasına və ya heç olmasa məlum ehtiyatların həqiqi həcmini müəyyənləşdirməyə imkan verən metodlar hələ yoxdur. Amma ümumi qəbul olunmuş rəy bundan ibarətdir ki, neft ehtiyatları tükənəndir, amma onların nə zaman tükənəcəyini dəqiq bilən yoxdur... Bir sözlə, neft coğrafiyası haqqında biliklərimiz haqqında xəritələrimiz rəssam eskizini andıran okean dərinliklərinin topoqrafiyası haqqındakı biliklərimizdən də azdır.

...Zaman keçdikcə yataqların yeni işlənilməsi metodları, hətta yeni ixtiralar olmasa belə, mövcud ehtiyatları xeyli artırdılar. Neft ədəbiyyatında belə misallar çoxdur. Ən heyrətamizi 1899-cu ildə Kaliforniyada Kern çayında aşkarlanmış yataqdır. 1942-ci ildə onun qalıq ehtiyatlarının 54 milyon barrel olduğu bildirilirdi. Lakin 1942-ci ildən 1986-cı ilə qədər o 736 milyon barrel neft verib və onda hələ də 970 milyon barrel qalır. Bir şeydə biz əmin ola bilərik – bizim neft ehtiyatları barədə biliklərimiz daim yenidən nəzərdən keçirilir və hər dəfə bu ehtiyatların artması istiqamətində. Buna görə də planetimizin neft sərvətinin qiymətləndirilməsi on illər ərzində, hətta bu qiymətləndirmələrə gələcəkdə yeni yataqların aşkarlanacağı və neft veriminin səmərəliliyinin yüksəldilməsi ehtimalı da nəzərə alınmaqla, xeyli ehtiyatla aparılıb.

Bəs ayaqlarımızın altında nələr var? Çıxarılması mümkün olan neft resurslarının Beynəlxalq energetik agentliyi tərəfindən ABŞ-ın Geoloji xidmətinin əvvəlki işi əsasında edilmiş ən son qiymətləndirilməsinə görə, bu rəqəm 2,6 trilyon barrel təşkil edir və bunun da 1,1 trilyonu «təsdiqlənmiş ehtiyat» hesab edilir. Qalanını isə aşkarlanmış, lakin işlənilməmiş resurslar və gələcəkdə neft verimi əmsalının gələcəkdə artırılması, bir də hələ ki aşkarlanmamış yataqların həcmi haqqındakı ehtimallar təşkil edir. Bu gün dünya ildə 30 milyon barrelə yaxın neft işlədir; ildə tələbatın ehtimalla iki faizdən az artması şərti ilə, əgər BEA proqnozları doğrudursa, neft ehtiyatı cari əsrin çox hissəsinə çatar.

Leonardo Maudjerinin proqnozuna görə, bu ehtiyat daha çox müddətə çatacaq. Bundan başqa, BEA-nin ehtimal qiymətləndirmələri xeyli kiçikdir. Ola bilsin ki, yüksək qiymətlər dövrünün energetik bazarı əsaslı dəyişə biləcəyini və onun dünyanı necə idarə etməsini nəzərə alsaq, biz artıq yeni əsrdəyik. Amma bu yeni neft əsridir, bizim tanıdığımız neftin sonu deyil. Hər halda bu yüzillikdə yox.

«Rusiya qlobal karbohidratlar bazarında. Əsas meyillər, ziddiyyətlər, perspektivlər» kitabının müəllifi məşhur rus siyasətçisi Mixail Margelovun fikrincə, postsənaye insanı «karbohidrat insanı» olaraq qalır. Mixail Viktoroviç yazır: «Dünya karbohidratlar ehtiyatlarına malik ərazilər ya qlobal iqtisadiyyat, ya da geosiyasət obyektinə çevrilirlər... Və neft, daha geniş mənada energetik amil siyasətin ən mühüm aləti olaraq qalır. Çox güman, məhz bu, energetik bazarların qloballaşmasının və dövlətlərin suverenliyinin siyasi aşınması haqqındakı köhnəlmiş tezisinin inkişafı kimi resurslar üzərində qlobal nəzarətə çağırışların əsas motivi hesab olunmalıdır».

VII fəsil

Strasburqda döyüş

Vətən eşqi hər bir şeyi üstələr.
Vergili

Nə üçün killerlərdən siyasi dustaq düzəldirlər

26 iyun 2003-cü ildə Strasburqda Avropa Şurası Parlament Assambleyasının növbəti sessiyası keçirildi. Azərbaycanda siyasi məhbusların məsələsi müzakirə olunurdu. Hüquqi məsələlər və insan hüquqları üzrə komitənin üzvü belçikalı deputat Corc Klerfayt məruzə edirdi. O, bildirdi ki, Azərbaycan Avropa Şurasına qəbul edildikdə götürdüyü öhdəlikləri, o cümlədən siyasi məhbusların problemləri ilə bağlı olan məsələləri yerinə yetirmir. Cənab Klerfaytın məruzəsi ətrafında kəskin polemika başladı.

«Azərbaycanın və məruzəçinin mövqeləri arasındakı əsas ziddiyyət bir məsələ ilə bağlıdır, – AŞPA sədrinin müavini və Büro üzvü İlham Əliyev öz çıxışında dedi. – Siyasi məhbus kimdi? Və ya kimi siyasi məhbus hesab etmək lazımdır? Əgər məsələnin mahiyyətinə varsaq, əgər bütün vəziyyətləri, bütün şəraiti, cənab Klerfaytın siyasi məhbus hesab etdiyi insanların bioqrafiyasını, destruktiv fəaliyyətini və məşğuliyyətini nəzərə alsaq, yaxından tanısan onun səmimiyyətinə qarşı şübhə yaranar, özü də böyük şübhə. Cənab Klerfaytın məruzəsində separatçılar, terrorçular, killerlər, təyyarə qaçıranlar siyasi məhbus kimi təqdim olunur».

Azərbaycan nümayəndəsi faktlarla sübut elədi ki, Avropa Şurası cinayətkarları siyasi məhbusa çevirir.

«Əgər killerləri – onlar Klerfaytın məruzəsində kifayət qədərdir – dustaqxanalardan buraxsalar, onlar yeni cinayətlər törədəcəklər. Onlar yenidən insan öldürməyə başlayacaqlar.

Qurbanlar isə sizin ölkənin deyil, Azərbaycanın vətəndaşları olacaqlar. Elə əsas tərs-mütənasiblik də bundadır!

O ki qaldı meyar məsələsinə, bəli, bizim həmkarımız xorvatiyalı xanım meyarların müəyyənləşdirilməsinin vacibliyini qeyd etdi. Cənab Şvimmerin ekspertləri bu meyarları müəyyənləşdirməyə cəhd ediblər. Bəs nə üçün biz tək Azərbaycan üçün müəyyənləşdirilməyən meyardan danışmırıq?

İndicə qeyd olunan meyar yalnız Azərbaycana aid edilibdir. Gəlin bütün ölkələrə şamil edilən meyardan danışaq, əgər həmin meyar əsas kimi götürülsə, onda ümumi meyar hüdudlarında siyasi məhbusları müəyyənləşdirmək olar.

Qətnamənin layihəsindən görünür ki, – məhz elə bu da səsləndirilmişdi – Azərbaycanın siyasi iradəsi yoxdur. Əgər yoxdursa, onda 500-dən artıq adam necə azad edilmişdir? Onlar cənab Klerfaytın və ya başqa kiminsə fərmanı ilə deyil, Azərbaycan Prezidentinin fərmanı ilə azad edilmişlər! Mənə elə gəlir ki, bu kimi yanlış fikirlər, bəndlər məruzədən çıxarılmalıdır. Bundan başqa 17 iyunda böyük əfv Fərmanı çap olunmuş, cəza müəssisələrindən 100 nəfərdən artıq adam azad edilmişdir. Bu, məruzədə müsbət addım kimi qeyd olunmalıdır.

Ekspertlər işlərini davam etdirməlidirlər. Məruzənin bir sıra maddələri ekspertlərin rəyinə tamamilə ziddir. Ekspertlər bu şəxsləri siyasətlə əlaqəsi olmayan adamlar kimi təqdim edirlər, məruzəçi isə onları siyasi məhbuslar kimi təqdim edir. Sonra isə siz bizdən soruşacaqsınız. Bu halda biz nə etməliyik, hansı fikirə üstünlük verməliyik? Baş katibin ekspertlərinin rəyinə, yoxsa məruzəçinin? Bununla siz bizi də çaşdırırsınız.

Hesab edirəm ki, bu ziddiyyət aradan qaldırılmalıdır. Bundan başqa, məruzə də, qətnamə layihəsi də mandat hüquqlarından kənara çıxır. Seçkilər bu mövzuya toxunmamalıdır. Seçkilər ayrı müzakirə olunmalıdır. Məsələn, əgər məruzədə siz bu və ya digər siyasətçiyə üstünlük verirsinizsə, bunu çıxartmaq lazımdır. Məruzə neytral olmalıdır. Assambleya tərəfindən Azərbaycandakı bu və ya digər siyasi qüvvəyə dəstəkdən və ya bu dəstəyin olmamasından söhbət gedə bilməz. Seçkilərin gedişində Azərbaycan xalqının özü kimə səs vermək haqqında qərar qəbul edəcək.

Nəhayət, sonuncu məsələ. Azərbaycana və Ermənistana müxtəlif standartlarla yanaşmaq lazım deyil. Bu iki ölkənin hər ikisi eyni zamanda Avropa Şurasına qəbul edilib. Ermənistanda prezident seçkiləri zamanı ölüm hökmünün ləğvi barədə

məsələnin müzakirəsi sonraya saxlanılmışdı. Assambleya bunu edib. Bizdə oxşar problem yarananda isə, bu nədənsə baş vermir. Çox sağ olun».

Bir anlıq sakit Strasburq söhbətini saxlayaq və Azərbaycanın Avropa Şurasına yolunu yada salaq. 1996-cı ilin iyun ayında ölkə AŞPA-da xüsusi qonaq statusu aldı, beş il sonra, 2001-ci ildə Azərbaycan bu nüfuzlu Avropa təşkilatının üzvü seçildi. Azərbaycan Avropa ailəsinə daxil oldu. Və bununla əlaqədar olaraq İlham Əliyev bildirdi: «Biz, birinci növbədə, bu strukturda üzvlüyümüzün Dağlıq Qarabağ probleminin həllinə kömək edəcəyinə ümid edirik. Çünki artıq həm Azərbaycan, həm Ermənistan Avropa ailəsinə qəbul edilib. Avropa ailəsində isə iki dövlət bir-biri ilə münaqişədə ola bilməz».

Bu hadisədən öncə, 28 iyun 2000-ci ildə Azərbaycan Respublikası AŞPA-nın növbəti sessiyasında yekdilliklə Avropa Şurasının tam hüquqlu üzvlüyünə qəbul olundu və 17 yanvar 2001-ci ildə AŞ Nazirlər Şurası bu qərarı təsdiq etdi. Azərbaycan yüksək Beynəlxalq tribunadan öz səsini ucaltmaq hüququ qazandı.

Heydər Əliyev ölkənin Avropa Şurasına qəbul olunmasını həm Azərbaycan, həm də bu təşkilatın özü üçün mühüm hadisə kimi qiymətləndirdi. «Biz ümumavropa dəyərlər xəzinəsinə öz töhfəmizi verməyə hazırıq, – o vurğuladı. – Bu töhfə Avropada demokratik stabilliyin möhkəmləndirilməsinə də kömək edəcək, avropalılar tərəfindən Şərq xalqlarının tarixi taleyini daha dərindən anlamağa da». Dünya birliyini erməni-azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün səylərini birləşdirməyə çağıran Prezident deyirdi: «Bu bizim hamımıza lazımdır. Çünki erməni-azərbaycan münaqişəsini həll etmədən, digər münaqişələrə son qoymadan bizim regionda sülhə və təhlükəsizliyə nail olmaq olmaz».

H.Əliyev AŞPA-nın tribunasından proqram bəyanatında bildirdi ki, Cənubi Qafqaza siyasi bütövlük və neytrallıq statusu verilməlidir.

2001-ci ilin yanvar ayında Strasburqa Milli Məclisin deputatı İlham Əliyevin başçılığı ilə nümayəndə heyəti gəldi.

Nümayəndə heyətinin başçısını birinci növbədə daha az təcrübəli həmkarlarının prosedur incəliklərindən xəbərdar edilməsi narahat edirdi. O, çox güman, qədim şəhərin görməli yerləri ilə tanışlıq imkanlarını məhdudlaşdıraraq, başqa ölkələrin nümayəndələri ilə görüşlər keçirirdi.

Assambleyanın kürsüsündən İlham Əliyev təmiz ingilis dilində danışır. Zalla birbaşa, tərcüməçisiz və labüd fasilələrsiz ünsiyyət (ritmi və bəlkə də emosional enerjini pozan) auditoriyanın diqqətini cəlb etməyə əlavə imkanlar yaradır, lakin bu o demək deyil ki, qulaq oxşayan xoş sözlər deyilməlidir... Hər bir deputatın arxasında onun ölkəsi, dövlətinin, xalqının maraqları durur. İlham Əliyevin arxasında isə Qarabağ yaralarını sağaltmağa ümid edən Azərbaycan...

Respublikanın səması kor yağış yağanda olduğu kimidir. Bir tərəfdən, qəddənmiş, işğal olunmuş torpaqların qıraqlarından atəşkəsin kövrək sükutu üzərinə soyumamış hərbi tufan kölgəsi düşür. Vaxtaşırı Azərbaycan kəndlərini avtomat və iriçaplı pulemyotlardan atəşə tuturlar. Digər tərəfdən, bol cənub günəşi – ümid və dirçəliş günəşi gülümsəyən geniş mavilik...

– Mən sizin diqqətinizi bizim vəziyyətimizin təhlükəli olmasını göstərən bir neçə fakta cəlb etmək istəyirəm.

Birinci. Dağlıq Qarabağ respublikası adlandırılan ərazidən narkotik bitkilərin becərilməsi və daşınması məqsədilə istifadə olunur. Bu fakt öz əksini ABŞ dövlət departamentinin 2000-ci il mart hesabatında tapmışdır...Narkotiklə məşğul olan adamlar, tiryək alverçiləri özlərini orada tam təhlükəsiz və sərbəst hiss edirlər. Onları qondarma Dağlıq Qarabağ respublikasının bədnam rəhbərləri qoruyurlar. Bu rəhbərlər narkotik satışından əldə olunan puldan Azərbaycanın zəbt olunmuş ərazilərini əldə saxlamaq və muzlulara haqq vermək üçün istifadə edirlər.

İkinci. Yaxşı məlumdur ki, Rusiyanın əvvəlki rəhbərliyi özünün müvafiq strukturları vasitəsilə qeyri-qanuni yolla Ermənistana silah verməyə icazə vermişdi...

Bu silahların çox hissəsi Dağlıq Qarabağda və Azərbaycanın digər zəbt olunmuş ərazilərində yerləşdirilib. Mən sual verirəm: Ermənistan və Dağlıq Qarabağ bu qədər silah almaq üçün pulu haradan tapıb? Regiondakı vəziyyəti bilən hər kəsə aydındır ki, Ermənistanda iqtisadi vəziyyət çox pisdir. Ermənistan əsasən xarici yardım hesabına yaşayır. Xroniki iqtisadi böhran üzündən yüz minlərlə adam Ermənistanı tərk edib. Cavab aydındır. Onlar bu silahı ya pulsuz alıblar, ya da narkotik satışından əldə etdikləri vəsait hesabına.

Üçüncü. Dağlıq Qarabağda mövcud olan iqtisadi özbaşınalıq bu tanınmamış respublikanı çirkli pulların yuyulması sahəsində «məşhurlaşdırıb».

Dördüncü. Ermənilər Dağlıq Qarabağ ərazisində hərbi birləşmələrin təlimini keçirirlər. Bu birləşmələr terrorizmlə mübarizə üzrə beynəlxalq konvensiyaların nəzarətindən tamamilə kənardadır.

Biz bütün Avropa strukturlarını qəsbkarların bizim torpaqlardan çıxarılması, bir milyondan artıq qaçqının – azərbaycanlının hüquqlarının bərpa olunması, torpaqlarımızın cinayətkarlardan təmizlənməsi üçün ciddi, praktik tədbirlər görməyə çağırırıq...

Səlist, dəlil-sübutlu, manerasına görə atasının nitqlərinə çox oxşayan çıxışdır. Bu çıxışın arxasında həqiqət durur! Bir hissəsi dezinformasiya ilə şaşqınlaşdırılmış auditoriya üçün yəqin ki, məlum olmayan həqiqət!

Maraqlı bir məqam: AŞPA-nın başçısı «Azərbaycan» sözünü tələffüz edərkən «ilişir», amma dərhal da üzr istəyib keçir zarafata: «Mən Brejnev deyiləm ki, ölənə qədər *«Azərbaycan»* sözünü düzgün tələffüz edə bilməyim».

Ədalət naminə qeyd edək ki, rəhmətlik Baş katib tələffüzündəki bütün qüsurlara baxmayaraq Azərbaycana və eləcə də digər Sovet respublikalarına xüsusi diqqətlə yanaşırdı.

Yanvarın 25-də Azərbaycan Respublikasının üçrəngli bayrağı Avropa Parlamenti binasının qarşısında, digər dövlətlərin bayraqları ilə yanaşı, dalğalanmağa başladı. Məhəmməd Hadinin XX əsrin əvvəllərində səslənmiş misraları yada düşür:

İmzasını qoymuş millətə övraqi-həyatə,
Yox millətimin xətti bu imzalar içində...

Vətənpərvər şairin arzuları həyata keçib. Azərbaycan Avropa xalqları ailəsinin tamhüquqlu üzvüdür.

Strasburqda Azərbaycan Respublikası nümayəndə heyətinin başçısı nə özünə, nə də yoldaşlarına dayanıb dincəlməyə imkan vermirdi. O xatırlatdı ki, Türkiyənin 12, Azərbaycanın 6 yeri var. Birlikdə – 18 yer eləyir. Qüvvələri birləşdirmək lazımdır. İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamentariləri türkiyəli həmkarları – Türkiyə Milli Məclisinin deputatları ilə görüşdülər və birgə addımlar atmaq barədə razılığa gəldilər.

AŞPA-da həqiqət anı

Strasburq, sentyabr 2001. Payız sessiyasının ilk günündə (24 sentyabr) AŞPA Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfdən tanınması haqqında» qərar çıxartdı. Sənədin mahiyyəti – güclə, silahlı basqınla zəbt olunmuş torpaqlar heç bir qanuni bəhanəylə qəsbkarın hüquqi mülkiyyətinə verilə bilməz. Dağlıq Qarabağ və onun ətrafındakı ərazilər hərbi müdaxilə nəticəsində zəbt olunduğundan, bu ərazilərin müstəqilliyindən söhbət gedə bilməz. Bu, Azərbaycan nümayəndəliyinin aşkar uğuru idi.

Ermənistan nümayəndələri «millətlərin öz müqəddəratını müəyyənləşdirmək hüququ» kimi köhnə nəğməni təkrarlamağa başladılar. Qərar layihəsinin müzakirə zamanı onlar bu dəlildən dönə-dönə istifadə etmişdilər, lakin faydası olmamışdı, çünki öz müqəddəratını müəyyənləşdirmək hüququ ərazi bütövlüyü prinsipi ilə ziddiyyətə girə bilməz. Bundan başqa, erməni milləti artıq öz müqəddəratını təyin eləyib – artıq Ermənistan Respublikası mövcuddur. İkinci bir erməni respublikası yaratmaq cəfəngiyat olardı. AŞPA-dan dəstək alan Azərbaycan tərəfinin ədalətli məntiqi də belə idi.

Azərbaycan nümayəndələri daha bir vacib sənədin – Avropada təhsilin gələcək inkişafı kontekstində «Azərbaycanda qaçqınların və məcburi köçkünlərin təhsil hüququ»nun qəbul edilməsinə nail oldular.

Parlament Assambleyasının siyasi hörmət və diplomatik təmkinliklə seçilən sakit, proqramlaşdırılmış, reqlamentləşdirilmiş gündəlik həyatında Ermənistan nümayəndəsinin çıxışı kəskin seçildi. O, Azərbaycan nümayəndələrinə üz tutaraq bildirdi ki, Avropa Şurasının tribunası «yalan dolu, dedi-qodu xarakterli çıxışlar üçün»(?!) deyil!»

İlham Əliyev söz alaraq, iftiralara, böhtanlara ləyaqətlə cavab verdi. Əlbəttə, həmişə olduğu kimi, faktlara söykənərək.

«Təəssüf ki, mən öz çıxışıma erməni həmkarımın çıxışındakı guya ki, Azərbaycanda bəzi adamların Ben Ladenlə əlaqəsinin olması kimi əsassız sözlərinə cavabla başlayıram.

Tam məsuliyyətlə sizə bildirirəm ki, bu tamamilə əsassız yalandır. Bu... sözlər heç kim tərəfindən təsdiqlənməmişdir və mən həmkarlarımın hamısından xahiş edirəm, Avropa Şurasının yüksək tribunasından öz siyasi məqsədlərində böhtan yaymaq üçün istifadə etməsinlər...

Birləşmiş Ştatlarda törədilmiş terror aktları ilə bağlı bizim hamımız böyük sarsıntı keçirtdik. Azərbaycan nümayəndə heyəti adından mən minlərlə insanın ölümünə və yaralanmasına səbəb olmuş terror aktları ilə bağlı Birləşmiş Ştatların hökumətinə və xalqına başsağlığı verirəm...

Birləşmiş Ştatlara qarşı törədilmiş terror aktları bizim yaşadığımız dünyada sülhün nə qədər kövrək olduğunu göstərir. Buna görə də beynəlxalq birlik bütün dünyada bütün növ terrorçuluğa qarşı mübarizədə birləşməlidir.

Azərbaycan da terrorçuluqdan çox əzablar çəkmişdir. Ermənistanın təcavüzü başlayandan erməni terrorçu qüvvələri tərəfindən Azərbaycana qarşı 32 terrorçu aktı törədilmişdir. Bu terror aktları nəticəsində Azərbaycanda iki min nəfər öldürülmüş, on minlərlə adam yaralanmışdır. Azərbaycan xalqına qarşı terror aktları qatarlarda, avtobuslarda, gəmilərdə, metro qatarlarında törədilmişdir...»

Daha sonra İlham Əliyev dedi ki, Azərbaycanın işğal altında olan, beynəlxalq təşkilatların nəzarətindən kənarda qalan ərazilərində erməni rəsmi hökuməti terrorçular hazırlamaq üçün düşərgələr yaradıblar. Natiq bir daha xatırlatdı ki, bu ərazilər həm də narkotrafik üçün istifadə olunur, mənfəət isə, əsasən terrorçu mərkəzlər üçün nəzərdə tutulur...

İlham Əliyevin dəlillərlə zəngin çıxışı böyük rezonans doğurdu. Türkiyə nümayəndəsi, parlamentin deputatı Hüseyn Qalxan azərbaycanlı həmkarının çıxışını yüksək dəyərləndirərək, sessiya iştirakçılarına müraciət etdi:

– ...Bu gün bütün dünya terrorizmlə üzləşib. Türkiyə isə uzun illərdir ki, bu terrorçuluğun dəhşətlərindən sarsıntılar keçirir. Erməni terror təşkilatı «Asala» 1960-1984-cü illərdə Avropada və Amerikada çoxlu sayda Türkiyə diplomatlarını qətlə yetirib. Amma dünyanın heç tükü də tərpənməyib... «Asala» fəaliyyətini davam etdirərək Dağlıq Qarabağdan yerli azərbaycanlıları – qardaşlarımızı qovub didərgin saldı. Və halhazırda da onlar qaçqın həyatı sürürlər.

2001-ci ildə Strasburq payız sessiyasının gedişi zamanı Azərbaycan nümayəndələrinin ünvanına Vətəndən xeyli sayda məktub gəldi. Onlardan biri budur:

«Çoxminli Azərbaycan neftçiləri bir neçə gündür ki, respublikamızın nümayəndə heyətinin Strasburqda Avropa Şurası Parlament Assambleyasının sessiyasında bir-birinin ardınca

böyük uğurlar qazanması barədə xəbərləri sevinc və fərəh hissi ilə qarşılayırlar.

Azərbaycan parlament nümayəndə heyətinin başçısı İlham Əliyevin rəhbərliyi ilə hazırlanmış Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən tanınması sənədi 43 ölkənin nümayəndələrinin iştirakı ilə müzakirə olunmuş və qərar qəbul edilmişdir. Bu, parlament nümayəndə heyətinin mühüm qələbəsidir.

...Biz neftçilər Azərbaycanın haqq səsini nüfuzlu bir təşkilatın tribunasından dünya ictimaiyyətinə çatdırdığı üçün cənab İlham Əliyevə və nümayəndə heyətinin üzvlərinə dərin minnətdarlığımızı bildiririk.

İnanırıq ki, möhtərəm Prezidentimiz cənab Heydər Əliyevin uzaqgörən və düşünülmüş siyasətinin reallaşması istiqamətində hörmətli İlham Əliyev və onun başçılıq etdiyi nümayəndə heyəti daha böyük nailiyyətlər qazanacaq, xalqımızı layiqincə, yüksək səviyyədə təmsil edərək, bu şərəfli vəzifəni uğurla yerinə yetirəcəkdir» («Xalq» qəzeti, 29 sentyabr 2001-ci il).

– Biz yaxşı bilirik ki, İlham Əliyev nə qədər ciddi, ağıllı, peşəkarlıqla və eyni zamanda, yüksək diplomatik səviyyədə öz ölkəsinin – Azərbaycanın maraqlarını qoruyur – deyə «İTAR-TASS» Agentliyi baş direktorunun birinci müavini Mixail Qusman deyir, – və o, öz müsahibələrində dəqiq fikir yürütməyi, dəqiq sözlər tapmağı bacarır.

Azərbaycan nümayəndələrinin başçısı haqqında onun ukraynalı həmkarı, AŞPA-nın Ukrayna nümayəndə heyəti başçısının müavini Anatoli Raxanski belə dedi:

– O, həqiqətən geniş miqyasda obrazlı düşünən tərəqqipərvər adamdır, ardıcıl olaraq PA-da öz ölkəsinin maraqlarını qoruyur. İlham Əliyev rəhbərlik etdiyi nümayəndə heyəti üzvlərini başlıca ideya – məsələn, Azərbaycan qaçqınlarının və məcburi köçkünlərinin dözülməz vəziyyəti, işğal olunmuş ərazilərdə mədəniyyət abidələrinin məhv edilməsi, ali və orta ixtisas məktəblərinin tam dağılması kimi əsas ideya ətrafında birləşdirə bilib. Ermənistanın təcavüzü nəticəsində minlərlə azərbaycanlı uşağı təhsil almaq hüququndan məhrum olub, 616 məktəb dağıdılıb, 234 məktəbəqədər tərbiyə müəssisəsi, 12 peşə məktəbi, 5 texniki məktəb, bir universitet, üç universitet filialı və 3 peşə məktəbinin filialı məhv edilib... Bu sənədi assambleyanın çoxlu sayda deputatları imzalayıblar. Və bu

İlham Əliyevin mübarizliyi, yorulmaz iradəsi nəticəsində başa gəlib.

Vaşinqton, oktyabr 2002-ci il. Azərbaycanın ABŞ-dakı səfirliyində ARDNŞ-nin birinci vitse-prezidenti, respublikanın AŞPA-da nümayəndə heyətinin başçısı, parlamentin deputatı İlham Əliyevlə Birləşmiş Ştatların görkəmli siyasi xadimləri: Corctaun Universitetinin professoru Madlen Olbrayt, keçmiş müdafiə naziri Uilyam Koen, akademik Roald Saqdeev, professor Zbiqnev Bjezinski, aviasiya general-leytenantı Brent Skoufordun görüşü baş tutdu...

Brend Skouford: Biz İlham Əliyevlə çox maraqlı görüş keçirtdik. Bizim aramızda bütövlükdə regionun və Azərbaycanın perspektivləri haqqında səmərəli fikir mübadiləsi aparıldı. Mən müzakirələrdən çox məmnun qaldım. Başa düşürəm ki, indi çox mürəkkəb dövrdür. Lakin bununla belə, mən Azərbaycanın gələcəyinə nikbinliklə yanaşıram. İlham Əliyev bizə güclü siyasətçi təsiri bağışladı. O, öz ölkəsi, öz bölgəsi haqqında bizə gerçək, qiymətli, dəqiq məlumatlar çatdırdı.

* * *

2003-cü ildə AŞPA-nın növbəti sessiyasında AR daimi nümayəndəliyinin başçısı, parlamentin deputatı İlham Əliyev Parlament Assambleyası Bürosuna üzv və sədr müavini seçildi.

Assambleyanın reqlamentinə görə, qış sessiyasının birinci günü bir illiyinə prezident və vitse-prezident seçilir. Bu qaydaya, əsasən, qeyri-adi bir hadisə baş verməsə, seçilmiş şəxs məsul postu iki dəfə tutur.

Cənab Klerfayt məruzəsini geri götürür

İndi isə İlham Əliyevin cənab Klerfaytın cavabını yenicə verdiyi, onu yenicə yerinə oturtduğu zala qayıdaq. AŞPA-nın sessiyası məsələnin kifayət qədər öyrənilmədiyini, məruzədə göstərilən faktların həqiqətə uyğun olmadığını nəzərə alaraq qərarlaşdırdı ki, məruzə yenidən işlənsin. Sessiyanın iclasından sonra Milli Məclisin deputatları – Rəfael Hüseynov, Bəxtiyar Əliyev, Əli Həsənov və parlamentin beynəlxalq əlaqələr şöbəsinin müdiri Azər Qasımov Azərbaycan Dövlət Televiziyasına AŞPA-nın sədr müavini və büro üzvü İlham

Əliyevin yay sessiyasının işindəki fəaliyyəti haqqında müsahibə verdilər.

Rafael Hüseynov: Heç bir hadisə təsadüfən baş vermir. Hər qazanılan uğurun arxasında alın təri var, zəhmət var. Azərbaycan nümayəndə heyəti Avropa Şurası Parlament Assambleyasının yay sessiyasında çox böyük uğur qazandı. Bir neçə ay idi ki, Azərbaycan mətbuatında, ən müxtəlif ictimai dairələrdə Azərbaycana qarşı guya müxtəlif təzyiqlərin olacağı, sanksiyaların tətbiq ediləcəyi barədə fikirlər dolaşırdı.

Lakin Azərbaycan nümayəndə heyətinin rəhbəri, Avropa Şurası Parlament Assambleyası sədrinin müavini və büro üzvü İlham Əliyevin bir neçə gün ərzində apardığı çox ardıcıl, ağıllı, düşünülmüş xətt öz bəhrəsini verdi, Azərbaycana qarşı baş verə biləcək çox böyük bir ədalətsizliyin qarşısı alındı. Bu ədalətsizlik nədən ibarət idi? Bu il iyunun 5-də Parisdə Avropa Şurası Parlament Assambleyasının Hüquq Məsələləri və İnsan Hüquqları Komitəsinin iclasında Jorj Klerfaytın «Azərbaycanda siyasi məhbuslar» adlı məruzəsi ilk dəfə müzakirəyə çıxarıldı və qətnamə layihəsinin tətbiqi məsələsi qaldırıldı. Biz orada kiçik bir nümayəndə heyəti ilə iştirak edirdik və bildirdik ki, iclasdan 15 dəqiqə əvvəl hazırlanmış bir sənədi müzakirə etmək olmaz. Çünki nizamnaməyə görə, ən azı bir həftə əvvəl bu sənəd təqdim edilməli idi.

Bununla belə, çox çiy halda olan və xeyli dərəcədə emosional şəkildə hazırlanmış, ədaləti təhrif edən bu sənəd Avropa Şurası Parlament Assambleyasının yay sessiyasında müzakirəyə çıxarıldı. Azərbaycan nümayəndə heyətinin rəhbəri İlham Əliyev büro iclasında, komitə iclaslarında, xüsusən Siyasi Komitənin iclasında bu məruzədə göstərilən məntiqi cəhətdən düzgün olmayan məqamlara çox ardıcıl şəkildə diqqət yönəltdi. Parlament Assambleyasının açıq iclasında da çox məntiqli, ağıllı çıxışı ilə nümayəndə heyətinin mövqeyini də ifadə edərək, bütün deputatları inandıra bildi ki, bu məruzə müzakirəyə çıxarılmaq üçün hazır deyildir. Çünki ekspertlərin, mütəxəssislərin, ən nəhayət, Avropa Şurası Parlament Assambleyası rəhbərliyinin fikirləri ilə məruzəçinin şəxsi qənaətləri arasında ziddiyyətlər var idi. Ona görə də belə düşünürəm ki, çox düzgün bir qərar qəbul edildi, məruzə hələ tam obyektiv hazırlanmadığına, həqiqəti düzgün əks etdirmədiyinə görə, yenidən baxılmaq, yenidən işlənilmək üçün komitəyə qaytarıldı.

Bugünkü hadisənin çox vacib bir dərsi var. Bu dərs ondan ibarətdir ki, Azərbaycana qarşı heç bır ədalətsizlik keçməyəcəkdir. Azərbaycana qarşı haqsızlıq etmək mümkün olmayacaqdır. Çünki Azərbaycan nümayəndə heyətinin İlham Əliyev kimi çox güclü, uzaqgörən, müdrik qərarlar qəbul etməyi bacaran bir rəhbəri var və biz Avropa şurası çərçivəsində bundan sonra da daim uğurlu nəticələr əldə edəcəyik.

Azər Qasımov: Bu gün isə siyasi məhbus adlandırılan şəxslərə dair məruzə İlham Əliyevin təkidli səyləri ilə yenidən işlənilmək üçün komitəyə qaytarıldı. Bu, bizim üçün çox mühüm, əlamətdar hadisədir. Xüsusilə qeyd etmək istərdim ki, nümayəndə heyətimizin rəhbəri cənab İlham Əliyevin sessiyadan qabaq və sessiya dövründə gərgin fəaliyyəti öz bəhrəsini verdi. Nümayəndə heyətimizin rəhbəri aparılan ikitərəfli, çoxtərəfli danışıqlarda, büronun, komitələrin iclaslarında Ermənistanın Azərbaycana qarşı təcavüzü, Azərbaycanda demokratikləşmə prosesi və ümumiyyətlə, ölkəmizdə gedən hüquqi islahatlar barədə geniş məlumat verərək, belə bir məqamı avropalı deputatların diqqətinə bir daha çatdırdı ki, ölkəmiz Avropaya inteqrasiya yolundadır və Azərbaycan demokratik, hüquqi dövlət qurur.

Mən bir məqamı da vurğulamaq istərdim. Bizim nümayəndə heyətinin rəhbəri İlham Əliyevin beynəlxalq aləmdəki nüfuzu kifayət qədər yüksəkdir. Bu, Avropa Şurası Parlament Assambleyasının indiki sessiyasında özünü bir daha göstərdi. Bugünkü sessiyada nümayəndə heyətimizin rəhbəri əsaslı dəlillərlə, faktlarla avropalı deputatların diqqətinə çatdırdı ki, Azərbaycanda siyasi məhbuslarla əlaqədar məsələdə ölkəmizə ikili standartla yanaşılır və bu, çox zərərli meyildir. Gördüyünüz kimi, İlham Əliyevin qətiyyətli mövqeyi öz bəhrəsini verdi və məruzə yenidən işlənilmək üçün komitəyə qaytarıldı.

Bəxtiyar Əliyev: Avropa Şurası Parlament Assambleyasının yay sessiyası Azərbaycan üçün çox önəmli idi. Azərbaycanın Avropa Şurasındakı daimi nümayəndə heyətinin üzvləri, ilk növbədə isə onun rəhbəri cənab İlham Əliyev gündəlikdəki məsələlərlə bağlı ciddi çıxışlar etdilər və bunların çox böyük səmərəsi oldu.

Nümayəndə heyətimizin rəhbəri İlham Əliyevin muxtariyyətlərlə bağlı məsələyə dair çıxışı və hazırlanmış qərar layihəsinə onun təklifi ilə edilmiş düzəlişlər Azərbaycan üçün çox

əhəmiyyətlidir. Bu düzəlişlər hər bir muxtariyyətə hörmətlə yanaşılmaqla bərabər, problemlərin hər bir ölkənin suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll olunmasını nəzərdə tutur. Həmin düzəlişlər sessiyada böyük səs çoxluğu ilə qəbul edildi. Zənnimcə, bu uğur Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində Azərbaycan üçün çox əhəmiyyətli olacaqdır.

Gündəlikdəki digər bir mühüm məsələ bəzi hüquq müdafiəçilərinin siyasi məhbus adlandırdıqları şəxslərlə bağlı məruzə idi. Qeyd edim ki, məruzə həddən ziyadə kəskin hazırlanmışdı və öz qeyri-obyektivliyi ilə seçilirdi. Ona görə də Avropa Şurasında Azərbaycanı təmsil edən nümayəndə heyəti cənab İlham Əliyevin tapşırığı ilə gərgin iş aparmışdı. Buna baxmayaraq, İlham Əliyevin özü büronun və Siyasi Komitənin iclaslarında böyük qətiyyətlə çıxışlar etdi. Onun təklifi ilə qərar layihəsinə düzəlişlər ciddi müzakirə olundu. Bu müzakirələr komitə üzvlərinin məruzəyə münasibətlərini əsaslı surətdə dəyişdirdi.

Cənab İlham Əliyevin çıxışından sonra deputatlarla yanaşı, elə məruzəçinin özünün də mövqeyi dəyişdi. O dedi ki, son dəfə Siyasi Komitədə bu düzəlişlər müzakirə edilərkən komitə üzvlərinin də fikirləri dəyişdiyinə görə, məruzəmin yenidən komitəyə qaytarılmasını, bu düzəlişlərin məruzədə və qərar layihəsində əksini tapması üçün mənə imkan yaradılmasını təklif edirəm. Əlbəttə, bu o demək deyildir ki, onlar öz fikirlərindən daşınmışdılar. Bu, ona görə idi ki, İlham Əliyev öz məntiqli, təkzibolunmaz faktlara söykənən çıxışı ilə Avropa Şurası Parlament Assambleyasında təmsil olunan deputatlarını inandırdı ki, Azərbaycana ikili münasibət vardır. Azərbaycan həqiqətləri isə tamamilə başqadır. Bütün bunları deputatların nəzərinə çatdıran İlham Əliyev bir daha onları inandırdı ki, Azərbaycanda demokratik proseslər, hüquqi dövlət quruculuğu gedir.

Əli Hüseynov: «Azərbaycanda siyasi məhbuslar» məsələsinin müzakirələrdən sonra komitəyə qaytarılması Azərbaycan tərəfinin haqlı olduğunu bir daha sübut etdi. Bilirsiniz və bir neçə gündür izləyirsiniz ki, Parlament Assambleyasının komitələrində və siyasi qruplarda bu məsələ ilə bağlı çox gərgin müzakirələr və mübahisələr getmişdir. O da məlumdur ki, Parlament Assambleyasının bir sıra üzvləri bu məsələ ilə bağlı fərqli fikirdədirlər. Ümumiyyətlə, biz «siyasi məhbus» məsələsinin mübahisəli olduğunu dəfələrlə diqqətə çatdırmışıq. An-

caq buna baxmayaraq, həmin məsələ indiki sessiyanın gündəliyinə çıxarılmışdı. Biz dəfələrlə bildirmişdik ki, bu məsələ mübahisəlidir, onun bu sessiyaya çıxarılmasında tələsikliyə yol verilmişdir və məruzə başdan-ayağa ziddiyyətlərlə doludur.

* * *

Azərbaycan parlamentariləri öz rusiyalı həmkarlarının dəstəyini yüksək qiymətləndirirlər.

– AŞPA-da Bakıda siyasi nəsillərin dəyişməsi kimi aşkar reallığı nəzərə almırlar, – deyə RF Federal Məclisi Federasiya Şurasının beynəlxalq işlər üzrə Komitəsinin sədri Mixail Marqelov belə deyir. – Avropa Şurası ölkənin yeni rəhbərliyinə kömək etməlidi, məzmunsuz, neqativ tənqidlərin çarxını fırlatmamalıdır.

Az bir müddət keçəndən sonra, 29 aprel 2004-cü ildə İlham Əliyev bu tribunadan Azərbaycan Respublikasının Prezidenti kimi çıxış edəcək:

– Mən üç il ərzində AŞPA-nın üzvü olmuşam. Həyatımın bu dövrü mənim üçün bəlkə də ən vacib zaman kəsiyidir və bu dövr mənim gələcək fəaliyyətimdə, əlbəttə ki, bugünkü vəzifəmdə ciddi rol oynayıb.

AŞPA-nın sədri Piter Şider Azərbaycan Prezidentinə PA-nın fəxri üzvü medalını və diplomunu təqdim edərək dedi:

– Ən fəal deputat və nümayəndə heyəti rəhbəri, həmçinin AŞPA-nın ən fəal rəhbərlərindən biri və ən nəhayət, fəal dövlət başçısı kimi dəyərləndirdiyimiz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi yenidən bizimlə bir yerdə görəndə fərəh hissi keçiririk.

VIII fəsil

ATA VƏ OĞUL

Hökmranlıq işinin yolunu anlayırsan;
Qoyma kı, çıxsın işlər məcrasından, yolundan,
Hakimlik və dövlətin ruhudur vərdiş, adət.
(A.S.Puşkin)

Kimin bəxti gətirib

Bekara hazırcavablar kiminsə ağzından çıxan bir kəlmədən yapışıblar: İlhamın atadan bəxti gətirib. Bəs atasının oğuldan bəxti gətirməyib?

Bu suala müxtəlif cavablar verirlər. Daha çox siyasi simpatiyadan asılı olaraq. Şərhçilərdən birinin fikrinə görə, dinastiya rejimlərində uşaqlar həmişə öz valideynləri kimi istedadlı olmurlar, İlham da guya atasının kölgəsindən çıxa bilmir. Şərhçinin dəqiqliyini və vicdanla danışıb-danışmadığını bir misalla yoxlamaq olar: «70-ci illərin əvvəllərində Azərbaycandan kütləvi mühacirət yaşanmış, ölkəni iki milyon yarım adam tərk etmişdi».

Belə olsa, Azərbaycan səhraya çevrilməli idi. Halbuki respublikanın əhalisi müntəzəm olaraq artırdı, doğum evlərində hər deyəndə boş çarpayı tapılmırdı. 1970-1979-cu illər arasında Azərbaycanın əhalisi 5 milyon 112 min nəfədən 6 milyon 28 minə qədər artmışdı. *(Demoqrafik ensiklopediya lüğəti. M, 1985)* Azərbaycanlılar əvvəllər olduğu kimi, böyük ailədə yaşamağı xoşlayırlar. Şəhər və kənd əhalisinin öhdəsinə düşən vəzifə bu «nəhs» onillikdə təxminən bərabər olmuşdur. Belə ki, «kütləvi emiqrasiya» söhbəti açmaq soyuq dəymiş başın sayıqlamasından başqa bir şey deyil. O illər arasında ölkədən heç bir çıxış olmamışdır, nəinki kütləvi mühacirət.

İlham da, bəzi şərhlərdəkinin əksinə olaraq, ümumiyyətlə, «öz atasının kopiyası» deyil, müstəqil siyasətçidir, hakimiyyət təcrübəsi toplayan dövlət başçısıdır.

– Əlbəttə, İlham Heydər oğlu üçün, atası ilə müqayisədə ağırdı, – Azərbaycandakı rus icmasının başçısı, Milli Məclisin deputatı Mixail Zabelin belə düşünür, – Heydər Əliyevin təcrübəsi vardı, bütün dünyada nüfuz qazanmışdı. Amma mənə elə gəlir ki, İlham öz atasının genindən çox şey götürüb, o, ağıllı və işgüzar insandı. Onun necə sürət götürməsi, böyük dövlət xadiminə çevrilməsi göz qabağındadır.

Mixail Zabelin Heydər Əliyevə ünvanlanmış məşhur «91-lərin məktubu»nu imzalayanlardan biridir. Özü də o məktubu bəziləri kimi kampaniya xatirinə yox, qəlbinin çağırışı ilə imzalayıb.

– Çörçilin siyasətçi və dövlət xadimi haqqında məşhur kəlamı yadıma düşdü, – Zabelin deyir, – Çörçil hesab edir ki, siyasətçi gələcək seçkilər haqqında düşünür, dövlət xadimi isə gələcək nəsillər haqqında. Heydər Əliyev də bunun fərqində idi. İlham Əliyevin də əqidəsi belədir. Xalq prezidentə inanır, onun kursunu dəstəkləyir, baxmayaraq ki, mürəkkəb proseslərdə dövlət idarəçiliyi səhvsiz mümkün deyil. O, şübhəsiz başa düşür ki, Rusiya Azərbaycan üçün nə deməkdir və hər şeyi eləyir ki, bizim xalqlar yaxın qonşular kimi mehriban yaşasınlar.

Doğma evdə olduğu kimi

Zabelinlər ailəsində ailə tarixçəsinin hər səhifəsini göz bəbəyi kimi qoruyurlar. Qars kimin üçünsə Türkiyənin Şimal-şərqində şəhərdi, əyalət mərkəzidi. Köklü bakılı, Azərbaycan Milli Məclisinin deputatı Mixail Yuryeviç Zabelin üçün isə soyad tarixinin canlı səhifəsidir. Birinci Dünya Müharibəsi illərində onun rus ordusunun polkovniki olan babası və babasının kapitan rütbəsinə yüksəlmiş qardaşı orada vuruşublar. Əcdadları igidliklə vuruşublar, demək olar ki, Bağdada yaxınlaşıblar. Lakin elə bu zaman inqilab gurlayıb və cəbhədəki uğurlar batıb. Kapitan itkin düşüb, ola bilsin ki, Oktyabr inqilabından sonra meydana gələn sərhədləri aşaraq Moskvaya qayıtmağa cəhd edib, polkovnik isə paqonlarını sökərək, Bakıda mülki həyata başlayıb. Burada onun oğlu, 1946-cı ildə nəvəsi doğulub, körpənin adını Mişa qoyublar.

Sonra hər şey öz axarıyla gedib: məktəb, institut. Düzdür, ailənin maddi vəziyyəti ağır olduğundan qiyabi şöbəyə keçməli olub. Layihə institutunda işləyib. Cavan oğlanın ictimaiyyətçiliyi diqqət çəkib – onu institut komsomol komitəsinin katibi seçiblər, sonra raykom komsomolda, Şəhər Partiya Komitəsində, MK-də çalışıb. Heydər Əliyev referentliyə üç namizəddən birini – Mişa Zabelini seçib.

Referent – tamamilə fərqli xidmətdir. O, həm katibdi, həm köməkçi, həm də birinci katibin ətrafında olan əməkdaşların ən etibarlısı. Mixailin iş günü saat 9-da başlanırdı. Əliyevin gəlişinə bir saat qalmış. Onun iş vaxtı Əliyev gedəndən sonra başa çatırdı. Birinci katib bir qayda olaraq işdən gecə saat 10-da gedirdi. Şənbə günləri də işləyirdilər, amma bir qədər az. Birgə fəaliyyətindən Mixail Yuryeviçin yadında nələr qalıb?

– Heydər Əliyev tələbkardı, ciddi idi, amma eyni zamanda, obyektivdi. Nə isə bir yanlışlığa yol verəndə tənbeh eləyirdi və sonra da deyirdi: «Get işlə, amma bir də belə şey eləmə».

...Birinci katibin qəbul otağına Nazirlər Sovetinin sədri gəlir: «Heydər Əliyeviç yerindədir?» – Bəli, buyurun, keçin içəri». – Mən gözləyirəm». Bir qədər sonra Ali Sovetin Rəyasət Heyətinin sədri qəbul otağına daxil olur. Mükalimə yenidən səslənir. Artıq qəbul otağında iki nəfər oturub. Bır neçə dəqiqə sonra DTK-nin sədri də gəlib onların yanında oturur... Və elə bu zaman Heydər Əliyev zəng vurur: «Qəbul otağında kimsə var?» «Bəli, ...yoldaşlar» – «Niyə məruzə etmirsən? Onlar niyə içəri keçmirlər? Yoxsa sən onları buraxmırsan?» – Və Əliyev özü qəbul otağına çıxır:

– Niyə içəri keçmirsiniz?

– Qərara gəldik ki, Sizi burada gözləyək.

Məlum oldu ki, burada oturanların üçünün də iştirak etməli olduğu tədbir hazırlanırdı. Amma birinci gələn gözləməyi qərara aldığından o birisilər də elə biliblər ki, Heydər Əliyev məşğuldur. Tənbeh ciddi oldu: «Hökmən məruzə elə!»

...MK katiblərindən biri zəng eləyir: «İndi Heydər Əliyevin yanında kimsə var?» – «Var, nazirlərdəndi...» Belə məlumat bəs edirdi ki, zəng edən yoldaş nəticə çıxartsın. Birinci katiblə söhbətində o adam Əliyevin həmin nazirlə görüşünə istinad edir. Və elə buna görə də Heydər Əliyev Zabelinin dərsini verib:

– Mənim kabinetimdə kimin olması barədə məlumat verməyə sənin nə haqqın var? Mən sənə belə icazə vermişəm?

Bu hadisədən sonra Mixail Yureyeviç özü üçün daha bir qeyd elədi: «Dilini dinc saxla, dilinə yiyəlik elə».

– Ümumiyyətlə, Heydər Əliyevlə işləmək – Zabelin deyir, – bu böyük məktəbdi. O, büro iclaslarına necə hazırlaşırdı, onları necə aparırdı... Onun təklifi ilə büro iclaslarına Respublika KP. MK-nın təlimatçıları, inspektorları dəvət olunurdu. Özü də ona görə ki, yoldaşlar öyrənsinlər. Və həqiqətən də insanlar bu idarəetmə məktəbində öyrənirdilər. Sonralar Prezident Heydər Əliyevin icra aparatına rəhbərlik edən və indi də Prezident İlham Əliyevin Aparatında bu vəzifəni daşıyan Ramiz Mehdiyev də, bugünkü baş nazir Artur Rəsizadə də həmin idarəetmə məktəbini keçiblər.

Referentin səsləndirilməyən vəzifələri də vardı, məsələn, Zərifə Əziz qızının göndərdiyi buğda bişmiş kotletləri, kök şirəsini və ya hansısa bir dava-dərmanı çatdırmaq.

Mixail Yuryeviçin iri ştrixlərlə təsvir etdiyi 90-cı illərin əvvəllərinə qayıdaq. Azərbaycan Rusiya tərəfdən blokadaya alınmışdı. İqtisadi vəziyyətdən çıxmaq üçün Qərb ölkələrinə üz tutmaq lazım idi. Zabelinin və eləcə də çoxlu sayda digər siyasətçilərin fikrincə, Azərbaycanı da, Rusiyanı da bu hala düçar eləyən Yeltsinin hərəkətləri idi.

– Heydər Əliyev Rusiya ilə sağlam əlaqələr yaratmağa köklənmişdi, həqiqətən də Vladimir Putin prezident olandan sonra çox şeylər dəyişdi, – Zabelin deyir. – Biz, Azərbaycanda yaşayan ruslar buna çox sevindik. Axı hər hansı bir adam tarixi Vətəninə görə narahatlıq hissləri keçirir.

1990-cı ildə Zabelin «Azərbaycan-Rusiya» cəmiyyətini yaradır. Onu bu cəmiyyətə prezident seçirlər. Daha sonra «Rus icması» meydana gəlir.

– Siz onu nədən ötrü yaratdınız? – 993-cü ildə Bakıya qayıdan Əliyev soruşur. – Bəyəm, biz ruslarla pis davranırıq?!

Zabelin izahat verir:

– Biz icma yaratmamışıq ki, azərbaycanlılardan ayrılaq. Yox, ona görə yaratmışıq ki, rusların yeni həyat tərzinə uyğunlaşmasına kömək edək. Və başlıcası da Rusiya ilə Azərbaycanı yaxınlaşdırmaqdır.

– Əhsən! – Əliyev dedi, – Mən sənin lə razıyam. Bir dəfə Zabelinə Cəlal Əliyev zəng vurur: «Mişa, düş aşağı, Heydər Əliyev sənin lə danışmaq istəyir».

– Cəlal Əliyevin açıq-aşkar təmirə ehtiyacı olan mənzilində Heydər Əliyevlə çay içirdik, özü də əncir mürəbbəsi ilə.

Bir saatdan artıq danışdıq – Rusiya haqqında, buradakı işlər barədə, insanlar haqqında... Mən belə anladım ki, o, bu barədə başqaları ilə söhbət aparıb, məlumat toplayıb, informasıyalarına aydınlıq gətirib...

– Eybi yox, – vidalaşanda dedi, – mən hakimiyyətə gələcəyəm, hər şeyi döndərəcəyəm. O cümlədən Rusiyaya qarşı münasibəti.

– O çox istəyirdi bunları eləsin. Və o, prezident seçilən kimi birinci səfərini Moskvaya elədi. Bu, qeyri-rəsmi səfər idi; sonra Moskvaya rəsmi səfərə yola düşdü. Əvvəlcə Əliyev və Yeltsin təkbətək söhbət etdilər, sonra nümayəndə heyəti ilə birlikdə. Yeltsin gülümsəyir, guya deyir ki, biz hər şeyi müzakirə etdik: dostluğu da, birliyi də...

– Yox, – Əliyev deyir, – biz Sizinlə, Boris Nikolayeviç, hər şey barədə danışmadıq. Tapşırıq verək, protokollaşdıraq ki, Ermənistana silah göndərilməsi barədə istintaq aparılsın.

Yeltsin etiraz etdi: Və çox sərt mükalimə başladı. Boris Nikolayeviçin sifəti tutuldu. Mən çaşdım: elə bildim indicə nə isə olacaq. Yeltsin nəhayət ki, özünü ələ aldı: «Gəl, komissiya yaradaq». Yaratdılar... O komissiya da, başqa komissiyalar kimi, çox az fayda gətirdi, amma hər halda...

«Rus icması» – ictimai təşkilatdır, Rusiyanın və Azərbaycanın – öz ikinci vətənlərinin taleyinə biganə olmayan insanlarını birləşdirir.

Xoşbəxtlikdən bu evdən ana dilini sıxışdırmırlar. «Rus dili Azərbaycanda həmişə olacaq», – Heydər Əliyev deyib. Və həqiqətən də Respublikada rus dili məktəbləri qalmaqdadır. Azərbaycanda öz uşaqlarını həvəslə rus məktəblərinə verənlər çoxdur, hətta belələrinin arasında rus dilinin qənimləri də var.

Ta qədimlərdən Bakıda üç pravoslav kilsəsi olub. Onların ən qocamanı – Arxangel Mixail kilsəsi XIX yüzilliyin 40-cı illərində Azərbaycanın Rusiyaya ilhaq olunmasından sonra tikilib. İlk dəfə onun qarşısından keçənlər Xəzər donanmasının rus dənizçiləri olub. Möhtəşəm «Rojdestvo Boqoroditsı» soboru min nəfərə qədər adam tutur. Müqəddəs «Jen-Mironosits» adlandırılan üçüncü pravoslav kilsəsinin tarixi isə həm maraqlı, həm də ibrətamizdir. Ona 1905-ci ildə Salyan polku kazarmaları ərazisində, tanınmış Azərbaycan metsenantı Zeynalabdin Tağıyevin vəsaitinə tikiblər. Məlum zamanlarda bu kilsədən anbar kimi istifadə ediblər. Onu yenə də xeyirxah insanlar – azərbaycanlılar və rusların ianələri hesabına bərpa ediblər. 27 may

2001-ci ildə yeni kafedral kilsənin açılışında bütün Rusiyanın və Moskvanın patriarxı müqəddəs II Aleksiy iştirak elədi.

– Uçqunlar altından dikəldilmiş məbəd Azərbaycanın mənəvi həyatının yeniləşməsinin bir əlamətidir, – Rus provoslav kilsəsinin başçısı dedi, – Müqəddəs «Jen-Mironosits» məbədi Rusiya və Azərbaycan xalqları arasında qardaşlığın, birliyin olmasına daha bir bariz misaldır.

Onu da vurğulayaq ki, patriarxın bu viziti bütün Qafqaz müsəlmanlarının Şeyxi Allahşükür Paşazadə tərəfindən təşkil olunmuşdu. Çox hörmətli qonağı aeroportda din və dövlət xadimləri, həmçinin baş nazir Artur Rəsizadə qarşıladı. Və bu sadəcə hörmət naminə edilməmişdi. Rəsmi məlumatda belə deyilirdi: «Patriarx II Aleksiyin bu səfərinin təşəbbüskarı həmçinin Azərbaycan Prezidenti Heydər Əliyev olmuşdur».

Onlar mayın 28-də görüşdülər. Çox şeylər haqqında danışdılar, özü də açıq ürəklə...

– Əgər mənim gəlişim Azərbaycanda xalqların daha da mehribanlaşmasına yollar açarsa, mən hesab edirəm ki, öz missiyamı yerinə yetirmişəm, – patriarx dedi.

– Sizin sülh yaratmaq missiyanızı davam etdirməyinizə bizim ehtiyacımız var, – Azərbaycan Prezidenti dedi, – çünki xalqa nüfuzlu dini liderlərin təsiri bir sıra hallarda dövlət rəhbərlərinin təsirindən güclü olur..

Prezident patriarxı öz bağında qəbul etdi. Çox adam dəvət olunmamışdı: baş nazir Artur Rəsizadə, Bakının və Xəzərətrafının yepiskopu Aleksandr, «Rus icması»nın başçısı Mixail Zabelin...

– O zaman mən 1994-cü ilin Milad gününü xatırlatdım, – Mixail Yuryeviç dedi.

...Biz bu möhtəşəm bayrama hazırlaşırdıq. Birdən Əliyevdən zəng gəldi. O, yarım il qabaq prezident seçilmişdi və təbii ki, qayğıları başından aşırdı. Ancaq məndən soruşdu: «Milad yaxınlaşır. Siz bununla bağlı nə isə eləyirsinizmi?»

– «Eləyirik». «Kilsəyə yəqin ki, gələ bilməyəcəyəm, amma konsertə baş çəkərəm. Sən mənə dəvətnamə göndərmisən?» – «Əlbəttə, – cavab verirəm, – göndərmişəm», amma heç bu mənim ağlıma da gəlməmişdi. Bilirdim ki, prezidentin qayğıları çoxdur.

Biz konserti kirxada təşkil etmişdik, çünki başqa münasib yer tapa bilmədik: hər yan dağıntı, soyuqdu, adamlar hətta içəridə də paltolarını soyunmurdular.

Bakının meri mənə yaxınlaşdı: «Heydər Əliyev Sizi mənim maşınımda telefonda gözləyir». «Siz hazırsınız?» – «Bəli, hazırıq». –»Sizin konsert çox çəkəcək?» – «Bizim hesabımıza görə iki saat». – «Bir qədər qısaltmaq olmazmı? Mən özümü yaxşı hiss eləmirəm, xəstələnmişəm». – «Bəlkə Siz heç gəlməyəsiniz?» – «Necə yəni gəlməyəsiniz?!».

Və o gəldi. Həmişə olduğu kimi, şux, üzügülər. Çox soyuq olmasına baxmayaraq, paltosunu soyundu. Bizim özfəaliyyət dərnəyi üzvlərini səmimi-qəlbdən salamladı. Və yəqin ki, elə bu onları daha yaxşı ifaya həvəsləndirdi! Konsertdən sonra isə Heydər Əliyev səhnəyə qalxdı. Mənə elə gəldi ki, o, heç vaxt əvvəllər keşişlərin dua oxuduğu bu soyuq zaldakı kimi təsirli danışmayıb.

– Heç yana getməyin, – Prezident özünün rus həmvətənlərinə dedi: – Siz Azərbaycanda yaşamısınız və yaşayacaqsınız. Sizin təhlükəsizliyinizin və azadlığınızın qarantı mənəm. Və mən çalışacağam ki, Siz burada özünüzü normal hiss edəsiniz. Öz doğma evinizdə olduğu kimi...

Mixail Zabelin isə sözünə belə davam edir:

– Mən orada toplanmış rus insanlarının üzlərindən, gözlərindən görürdüm ki, onlar məhz belə düşünürmüş. Ölçülübbiçilmiş, sanballı sözlər gözləyirdilər.

Mixail Zabelin özü ilə xeyli fotoşəkil gətirmişdi. Onların çoxu çap olunmamışdı.

Sən demə, bu paketdə Heydər Əliyevin Moskvaya yola salınmasını (bu dəfə ezamiyyətə yox, İttifaq Nazirlər Sovetində işləməyə) əks etdirən bir nadir fotoşəkil də var idi.

Bakı aeroportunda çəkilmiş bu şəkildə Əliyevin ailəsini, həmkarlarını, MK-dən, Nazirlər Sovetindən yoldaşları görürük. Bir qədər arxada İlham və Mehriban dayanıblar. Onlar yenicə nişanlanıblar. Zərifə Əziz qızının qardaşı arvadıyla yanaşı durub. Əliyevin qardaşı Həsən Əliyev də buradadır.

«Rus icması» Milad bayramını qeyd etmək üçün bir daha köhnə kilsəyə yığışmadı. Əliyev dedi ki, sizə yaxşı bir tikilidə yer ayıracaqlar. Həmişə olduğu kimi, sözünün üstündə durdu. Onlar indi şəhərin yaxşı zallarında, hətta Opera və Balet Teatrında da toplaşırdılar.

Heydər Əliyevin şəxsi tapşırığı ilə Bakı Şəhər İcra Hakimiyyəti Rus Mədəniyyət Mərkəzi üçün bina ayırdı. Respublika hökuməti – yenə də Heydər Əliyevin göstərişi ilə –

«Rus icması»nın yaradılmasının onilliyini təntənə ilə qeyd olunması ilə bağlı bütün xərcləri ödədi. Bakı Beynəlxalq Rusiya həmvətənləri şurasının rəhbərlərini yalnız özünə xas qonaqpərvərliklə qəbul etdi. Tədbirin Bakıda keçirilməsini Mixail Zabelin təklif etmişdi. Prezident dərhal sözünü demişdi:

– Lap yaxşı. Dəvət edək!

Dəvət etdilər. Yüksək vəzifəli qonaqlardan biri Azərbaycanın gündəlik həyatına diqqətlə göz qoyandan sonra dedi ki, Azərbaycan bu gün yalnız neft yox, həm də öz həyat tərzinə xas olan tolerantlıq, milliyyətindən asılı olmayaraq, insana hörmətlə yanaşmaq kimi bəşəri dəyərlər də ixrac edə bilər.

Zabelinin fikrincə, rus mədəniyyətinə, – bir qədər də geniş anlamda söyləsək – Rusiyaya qarşı belə münasibəti İlham Əliyev də yaşadır və davam etdirir.

Azərbaycanın ucqar yerlərindən birində məşhur bir rus kəndi var: İvanovka. Hələ çarın zamanında onlar Rusiyadan köçürülərək burada məskunlaşıblar, kök atıblar. Onların pendiri, şərabı, çörəyi bütün ölkədə məşhurdur.

Buradakı kolxoza kənd təsərrüfatının istedadlı təşkilatçısı Nikitin rəhbərlik edirdi. Bir dəfə hüquq orqanları onu müasir fermanın tikintisinə görə günahlandırmaq istəmişdilər. Nikitin bu fermanın layihəsini Moskvada XTNS-də görübmüş. MK katibi Əliyev özü işə qarışdı və yenilikçini müfadiə elədi. Sonralar da Əliyev kənd rayonlarının başçılarını, təsərrüfat rəhbərlərini İvanovkaya cəm edərək, göstərdi ki, bax belə işləmək lazımdı. Bu unikal bir təsərrüfat idi. Torpağın, texnikanın fermerlərə verildiyi yeni şəraitdə də Heydər Əliyev qərar verdi ki, kəndlilərin istəyini nəzərə alaraq kolxozu saxlasınlar. İndi bu kolxoz Nikitinin adını daşıyır. Bakının mərkəzində öz dükanı var.

İlham Heydər oğlu Əliyev «Rus icma»sının nümayəndələrini qəbul edərkən dedi: «Narahat olmadan işinizə davam edin. Kolxoz qalacaq. Qanunda isə düzəliş etmək lazımdı».

Çoxları Əliyevi sərt adam hesab edir, – Mixail Zabelin deyir, – amma mən bilirəm ki, o, həssas və kövrək insandı. Moskvaya getməmişdən qabaq məndən soruşdu: evdə işlərin necədir, problemlər varmı?

– Hər şey qaydasındadır, çox sağ olun, Heydər Əliyeviç.

Bir müddət keçəndən sonra qəbul otağına MK işlər müdiri Yakov Mixayloviç Kirsanov daxil olur: «Heydər Əliyeviç sənինlə danışıb?» – «Danışıb». – «Sən demisənmi ki, Sizin iki-

otaqlı «Xruşşovkanızda» faktiki olaraq üç ailə yaşayır? – «Yox».

Kirsanov Əliyevin yanına keçdi. Sonra məni də çağırdılar.

– Sən bilirsən ki, məni aldadanda xoşum gəlmir, – Əliyev dedi: – Hansı şəraitdə yaşadığını niyə söyləməmisən?

Nə isə... bu söhbət elə burada tamamlanır. Zabelinə seçim üçün beş yerdə mənzil təklif edirlər. Onlardan birini – üç otaqlını bəyənir. Amma Əliyev onun bu seçiminə müdaxilə edərək MK-nin binasında dördotaqlı mənzil ayrılmasını tapşırır. Elə bu binada – iki mərtəbə aşağıda Əliyevin qardaşı Cəlal Əliyev ikiotaqlı mənzildə yaşayırdı.

– Ailəlikcə diqqətkeş idilər. Zərifə Əzizovna mənim qızlarımın ad günlərini, onların ölçülərini bilirdi və ad günündə Yulyaya da, Olyaya da hədiyyə göndərirdi.

– Və həmişə mənə zəng eləyirdi: «Mişa (ya da Mişenka) sən Heydər Əliyeviçə dərman verdinmi?»

– «Əlbəttə» – «Bəs şirəni necə, içdi?»

– «İçdi»

Bəyəm arvadı referintin başı üstündən Heydər Əliyevə birbaşa zəng vura bilməzdi? Başqa respublikalarda, vilayətlərdə bu normal hal sayılırdı. Azərbaycan KP MK-də isə – Yox...

– Heydər Əliyevin birbaşa şəhər telefonu yox idi. Onunla danışmaq istəyənlər qəbul otağına zəng eləyirdilər, mən calaşdırırdım.

– Zərifə Əzizovna öz ərinə elə bir hörmət və məhəbbətlə yanaşırdı ki, onu işdən ayırmağa özünə əsla yol verməzdi. O, zəng edib məndən soruşardı: Heydər Əliyeviç məşğuldurmu? Məşğul olanda, xahiş edirdi ki, asudə vaxtı olanda ona xəbər verim. Mən bu zəng haqqında məruzə eləyirdim. Adət etdiyim cavabı alırdım: «Mən özüm zəng vuraram».

– Bəs uşaqları? Qardaşları?

– Uşaqları zəng etmirdilər. Mən üç il qəbul otağında işlədim və bir dəfə də eşitmədim ki, İlham zəng vursun. Sevа-Sevil zəng eləyirdi və soruşurdu ki, atası necədir? Qardaşları Cəlal, Həsən hərdən zəng eləyirdilər. Amma, əlbəttə, ailə işləri ilə bağlı, şəxsi məsələlərlə əlaqədar yox.

Ailəsi ilə bağlı bütün məsələləri Heydər Əliyev Saşa İvanova tapşırırdı. İndi o, «İnterfaks-Azərbaycan»ın baş direktorudur. Bir dəfə o, Zərifə Əzizovanı Moskvaya müşayiət etmişdi. Havada məlum olur ki, təyyarənin şassiləri açılmır. Saşa

təyyarədən zəng vurub məndən xahiş etdi ki, onu Heydər Əliyevlə calaşdırım. Mən soruşdum:

– Siz artıq çatmısınız?

– Yox, çatmamışıq, – o, cavab verdi, – təcili calaşdır!

Mən calaşdırdım. Və elə həmin anda da Heydər Əliyev xahiş etdi ki, onu DTK-nin sədri və daha kiminləsə calaşdırım... Amma mən bütün bu məsələlər barəsində onlar qayıdandan sonra bildim. Zərifə Əzizovna Saşanı sakitləşdirirdi, Saşa da onu. Vəziyyət çox gərgin imiş. Əliyev zəng vurub soruşub ki, təyyarədə ehtiyat yanacaq varmı? Varsa, yaxşı olar ki, qayıtsınlar Bakıya... Ancaq geriyə reys üçün yanacaq bəs etməyib. Pilotlar bir də cəhd ediblər ki, şassiləri açsınlar və açıblar. Təyyarə yerə enib.

Sonralar Əliyev Zabelinə deyib: «Bütün bu müddət ərzində əlim Quranın üstündə idi».

Bu hadisədən sonra Heydər Əliyev Saşaya xüsusi mərhəmətliklə yanaşmağa başlayıb. Ümumiyyətlə, o, kişixasiyyət, sədaqətli oğlan idi. Əliyev onu özüylə Moskvaya apardı və orada o, demək olar ki, mühafizə dəstəsinin rəisi oldu.

Heydər Əliyev soyuq qış aylarından başqa istənilən havada dənizdə çimirdi. Hərdən çox uzağa üzürdü. Saşa isə ona güclə çatırdı və tez-tez xahış eləyirdi: «Belə sürətlə lazım deyil».

Moskvaya yola düşmək ərəfəsində Heydər Əliyev Zabelinə məsləhət görür ki, elə qəbul otağında da işləsin:

– Amma sən hara isə başqa yerə keçmək istəsən, mənə zəng elə.

Bir qədər keçəndən sonra o, Heydər Əliyevə zəng etməli olur: yeni birinci katib, necə deyərlər, öz komandasını yığırdı. Zabelini partiya işi şöbəsinə müfəttiş vəzifəsinə keçirirlər.

«Məsuliyyəti dərk edirəm»

Yerli mətbuatda Prezident İlham Əliyevə ünvanlanmış təbriklərin, nitqlərin əlvan təşbehlərlə ifrat «zənginləşdirildiyini» dərhal hiss edirsən. Aydın məsələdir: zaman dəyişir, yaltaqlar yox. Bu əbədi tipdir. Amma bu difiramblara İlham Əliyev necə yanaşır? O, bu sualın aydın cavabını hələ çox qabaqlar verib: «Mən bütün bunlara çox pis baxıram. Mən deyərdim ki, bu, «qaş qayıran yerdə göz çıxarmaqdır». Mədhiyyələrə ehtiyacım yoxdur. Bundan xəcalət çəkirəm. Mən üzr istəyirəm ki, bu məddahların sözlərinin qarşısını demokratik yollarla ala bilmirəm. Bu, biabırçı vəziyyətdir. Xahiş edirəm, məni tərifləmək lazım deyil, mən indi çox mühüm bir iş tapşırılmış adi, sadə bir insanam. Bütün fikir-düşüncələrim Prezidentin və atamın etimadını doğrultmağa yönəldilmişdir. Onun etimadını doğrultmalıyam. Avqustun 2-də Baş nazir təyin olunmağım barədə təkliflə parlamentə məktub yazanda onunla sohbətimiz oldu və mən dedim: əmin ol ki, sənin etimadını doğruldacağam.

Mənim uzərimə böyük məsuliyyət düşmüşdür. Azərbaycanın gözəl gələcəyi var. Mən istəyirəm ki, ölkədə hamı asudə, gələcəyə inamla işləsin. Bu, əsas məsələdir. Mən həqiqətən var gücümlə çalışacağam ki, ölkənin, Prezidentin və xalqın etimadını doğruldum».

Bu sözlər 2003-cü ildə prezident seçkilərindən öncə deyilib. Lakin prezident seçiləndən sonra da İlham Əliyev öz mövqeyini dəyişməyib.

Heydər Əliyev hələ Sovet dönəmində ölkədə böyük hörmət qazanmışdı. Onun nüfuzu Sovetlər zamanında da, hətta o, Moskvada Siyasi bürodan kənarlaşdırılıb gözdən salınanda da böyük kapital idi. O, iki fərqli cəmiyyətin görkəmli dövlət xadimi olaraq tarixdə qaldı. Maraqlı müqayisədir: Heydər Əliyev otuz yaşlarında DTK-nin perspektivli zabiti olub. İlham Əliyev isə həyatının həmin dövründə müstəqil respublikanın neft strategiyasının müəyyənləşməsində başlıca rol oynayıb.

* * *

Bir dəfə biri Pifaqordan soruşur:
– Əgər oğlum olsa, onu necə tərbiyə eləyim?
Pifaqor cavab verir:

– Əgər o, ədalətli ölkədə doğulsa, bəs edər...

Qədim yunan filosofu bəşəriyyətin tarix boyu can atdığı ideal cəmiyyət modelini yaxşı verib.

Höte isə, belə söyləyib: «Öz öhdənə düşənlərin hamısı yerinə yetirməyə cəhd et, onda necə insan olduğunu biləcəksən». Xalq arasında isə belə deyirlər: «Qaranlıqda qışqırmaq yox, bircə dənə şam yandırmaq lazımdır...» Ata və oğul əsrlərlə Xəzərin suları altında «öz saatını gözləyən» şamı bütün xalq üçün birlikdə alovlandıra bildilər.

Onlar ailəlikcə «KVN»in populyar komandası «Bakılı oğlanlar»ın vida konsertinə gəlmişdilər. Balaca Heydər gözlərini səhnədən çəkmirdi. Oradakı iki əmidən biri – babasına, biri isə atasına oxşayırdı.

Prezidenti xarici ölkəyə yola salırdılar. O, iri addımlarla, ox kimi düzülmüş silahdaşlarının qarşısından keçib hərarətlə gülümsünür. Onlarla növbə ilə əl verib görüşür, oğlu ilə isə öpüşür. Artıq prezidentlə əl verib görüşmüş nazirlərdən biri dəstənin yuxarı başına qaçır ki, bir də prezidentlə əl-ələ versin.

Bəli, «...Oğlanlar» hədəfi vurmuşdular; rəhbərin önündə səcdə zamanı alnını yara etməyə hazır olan məmurlar ölməz obrazlardır, Qoqolun «Müfəttiş»indəki personajlar kimi. Sağlam cəmiyyətin əxlaqi işarəsi – soyuq başla özünə nəzər salmaqdı, özünütənqiddi. Yeri gəlmişkən, Heydər Əliyev «Bakılı oğlanlar»ı öz kabinetində qəbul edərkən, «oğlanlar» tənqidə görə başlarının ağrı çəkməsindən söz salmışdılar. Heydər Əliyev həmin səhnəni xatırlayaraq ucadan qəhqəhə çəkmişdi, amma birdən-birə ciddiləşmiş və sərt şəkildə demişdi ki, siz öz işinizi görün, kimsənin belə sizin işə pəl vurmağa hünəri çatmaz.

Oğul sarıdan Heydər Əliyevin bəxtinin gətirdiyini demək olarmı? Bu suala cavab verərkən 2003-cü il– Heydər Əliyevin uzun və kəşməkəşli həyat yolunun, prezidentliyinin sonuncu və İlham Əliyevin prezidentliyinin isə birinci ilinin, daha doğrusu aylarının hadisələrinə nəzər salaq. Bizdən söyləməkdi, nəticəni isə faktlara istinad edərək oxucu özü çıxartsın.

2002-ci il bitmək üzrə idi. İnsanlar bayrama hazırlaşırdılar. Amma Heydər Əliyev üçün isə yenə də hər bir gün iş günü idi.

– Elə bir gün yadıma gəlmir ki, Prezident işə çıxmasın, – Xüsusi dövlət mühafizəsinin rəisi general Vaqif Axundov belə deyir, – 1993-cü ildən sonra o, bir dəfə də olsun məzuniyyətə çıxmadı. Və bir dəfə də olsun gündəlik iş rejimini dəyişmədi.

8-də səhər yeməyi, 10-a qalmış işə gedirdi: Nahar etmirdi. Bütün günü görüşlər, söhbətlər, yazışmalar, zənglər, məktublar... Axşam səkkizdə yüngülcə şam eləyirdi. Mən burada uzun illərdir ki, işləyirəm və bilirəm ki, Heydər Əliyev həmişə belə bir rejimlə yaşayır.

İnanırdıq ki, prezidentin 80 yaşı tamam olacaq yeni 2003-cü ildə də hər şey bu qayda ilə davam edəcək. O, yenə də həmişə olduğu kimi, əlini iqtisadiyyatın, xarici siyasətin nəbzi üzərində saxlayacaq və təbii ki, Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün mövcud imkanlardan istifadə edəcək. Və bütün bu işlərdə ən yaxın köməkçisi, əsas dayağı – oğludur. Oğlu – xarici siyasət arenasına uğurla çıxdı. Onu AŞPA-nın sədr müavini və Büro üzvü kimi dövlət və hökumət başçıları dəvət edirdilər. Martın 11-də İlham Parisdə görüşlər planlaşdırmışdı: Fransa prezidenti Jak Şirakın qəbulunda olmalı idi, XİN-də də onu qəbul gözləyirdi «Qarşılıqlı anlaşma və dostluq şəraitində keçən görüşdə, – kommunikedə belə qeyd olunur, – Fransa-Azərbaycan münasibətləri müzakirə olundu». «Dağlıq Qarabağ, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə istiqamətləndirilmiş» tədbirlər nəzərdən keçirildi.

Fransa prezidenti ilə görüşdən sonra İlham Əliyev Azərbaycan televiziyası müxbirlərinin suallarına cavab verdi:

« – *İlham müəllim, cənab Jak Şirakla görüşdə hansı məsələlərə toxunulmuşdur?*

– Cənab Şirakla görüşdə bir sıra məsələlər müzakirə olundu. Əlbəttə, ikitərəfli münasibətlər haqqında geniş fikir mübadiləsi oldu. Bununla belə söhbət Azərbaycanın avropa strukturları ilə əməkdaşlığından gedirdi. Həmçinin bizim regionda, o cümlədən Dağlıq Qarabağ ətrafında yaranmış vəziyyət müzakirə edildi.

– *İlham müəllim, Siz Prezident Jak Şirakla ətraflı söhbət etmisiniz. O, yəqin ki, ölkələrimiz arasında əlaqələrin inkişafına yeni təkan verəcək?*

– Hesab edirəm ki, belədir ki var. Özü də cənab Şirak da ikitərəfli münasibətlərdən dərin məmnunluğunu bildirdi. O hesab edir ki, bu münasibətlər uğurla inkişaf edir və gələcəkdə də inkişaf edəcəklər. Mən də öz tərəfimdən onu bu barədə məlumatlandırdım. Fransız şirkətlərinin fəaliyyəti və əməkdaşlığın perspektivləri haqqında ətraflı danışdım. Cənab Şirak da ikitərəfli münasibətlərdən çox razı qaldı. Hər iki tərəf bizim ikitərəfli münasibətlərimizin yüksək səviyyəyə çatdırılması üçün bu münasibət-

lərin daha da inkişaf etdirilməsinin, genişləndirilməsinin, onların bütün sahələri əhatələməsinin zəruri olmasından danışırdı. Daha doğrusu, onlar indi də yüksək səviyyədədir. Lakin biz onların bundan sonra da inkişaf etdirilməsini istəyirik.

Bildiyiniz kimi, Fransa Minsk qrupunun həmsədridir. Minsk qrupu isə olduqca mühüm rol oynayır. Məsələn, bu gün dünya siyasətində Fransanın rolu xeyli artmışdır. Cənab Şirak bildirdi ki, bundan sonra da Dağlıq Qarabağ münaqişəsinin tezliklə, ədalətli həlli, özü də hər iki tərəfi qane edən həlli üçün hər şey edəcək. Bunu çox müsbət hal sayıram.

Bilirsiniz, hazırda bütün dünya İraq böhranından narahatdır. Dünən cənab Şirak Fransa televiziyasında böyük müsahibə ilə çıxış etdi. Əlamətdardır ki, belə bir zamanda o, Azərbaycanın nümayəndəsini qəbul edib. Bu mənim üçün də böyük şərəfdir».

Əlamətdar haldır: özlərini «demokratik mətbuatın bayraqdarı» adlandıran müxalifət qəzetləri bu görüş haqqında bir kəlmə də yazmadılar.

* * *

Böyük ehtimalla güman etmək olardı ki, dünyanın aparıcı dövlətlərinin liderləri – Şirak da, Putin də, Buş da, başqaları da İlham Əliyevlə gələcək dövlət başçısı kimi hesablaşıblar. Amma elə ki, hər şeyi bilmək istəyən jurnalistlər oğlunun gələcəyi haqqında suallar verərək onu tərpədəndə, dövlət başçısı təmkinlə deyirdi: «İlham Əliyev gənc Azərbaycan vətəndaşıdır, siyasətlə, dövlət işlərilə məşğul olur. Çox sanballı təhsili, biliyi var.

...Son 5-6 ildə o, Azərbaycanda işləyib. Əvvəllər də onun belə iş təcrübəsi olub. Mənə görə insitutdan çıxardılanda, üç il bizneslə məşğul olmuşdur, müəyyən təcrübə toplamışdır, iqtisadiyyatı bilir. Əlbəttə, hər bir belə adamın müəyyən perspektivləri ola bilər. Amma bu onun özündən asılıdır. Bunu heç kim süni surətdə formalaşdıra bilməz, heç kim deyə bilməz ki, o, Heydər Əliyevin yerini tuta biləcək, yoxsa tuta bilməyəcək. Bunu gələcək göstərər...»

...Varislik söhbətinin səngimədiyi o günlərdə Londonda İlham Əliyevin Heydər adlı oğlu dünyaya gəldi. O zaman Heydər Əliyev Birləşmiş Ştatlarda rəsmi görüşdə idi.

– Bu gün mənim xoşbəxt günümdür. Nəvəm doğulub. Siz məni təbrik etdiniz. Çox sağ olun. Bu mənim oğlumun oğlu-

dur. Mənim üçün daha əzizdir. O, mənim altıncı nəvəmdir. Nəvəsi olan hər bir insan bilir ki, nəvə necə şirin şeydir. Hamınızı öpürəm.

Vətənə qayıdarkən Heydər Əliyev Londonda əyləndi. Mehriban xanım doğum evində çağanı prezident qaynatasına – körpənin babasına göstərdi və o da şad-xürrəm körpənin anasını və bir də atasını təbrik elədi.

Əliyevlər ailəsində balaca Heydər hamının sevimlisinə çevrildi. Babası saatlarla onu qucağında gəzdirərdi. Beləcə, körpə ilə məzələnəndə, sanki özü də öz uşaqlıq illərinə qayıdırdı.

Əliyevlərin ailə albomunda yaddaqalan fotolar çoxdur: onlarca qəzetin, jurnalın birinci səhifəsini balaca Heydərin Azərbaycan bayrağını əlində tutduğu an bəzəyir. Bu şəkildə valideynləri və bacıları gənc bayraqdarı məhəbbətlə süzürlər.

Başqa bir şəkil: iki Heydər top qovurlar...

Günlərin bir günü yenə də varis söhbəti səsləndiriləndə İlham Əliyev bu kimi söhbətlərə son qoymaq üçün hazırcavablıq nümayiş etdirərək adı hallananlar sırasına balaca Heydəri də daxil etdi:

– Hesab edirəm ki, İlham Əliyev Prezidentin deyil, atası Heydər Əliyevin varisidir, məsələyə yalnız bu tərəfdən yanaşmaq lazımdır, mən öz atamın varisiyəm, ailəmizin varisiyəm və atamın Prezident olmasına baxmayaraq – bu vaxta qədər o Prezident deyildi ki, – bu məsuliyyəti gözəl dərk edirəm, – başa düşürəm. ...Onu da qeyd etmək istəyirəm ki, mən artıq varis deyiləm, çünki Heydər Əliyevin varisi mənim oğlum Heydər Əliyevdir...

21 aprel 2003, Bakı

Biz hekayətimizin girişində qısa da olsa, həmin bu günündə Sovet diviziya komandiri, I Dünya Müharibəsində «Georgi» ordeni ilə mükafatlandırılmış igid, tanınmış hərbi rəhbər Cəmşid Naxçıvanski adına Hərbi məktəbin 30 illiyində baş verən hadisə haqqında danışmışdıq.

İndi yenə o günə – kursantların, cavan zabitlərin, Azərbaycan ordusu komandirlərinin cəm olduğu o zala qayıdaq.

Döyüşçülər özlərinin öz prezidentlərini, baş komandanlarını, dinləyirdilər. Heydər Əliyevin çıxışı birbaşa translyasiya

olunurdu. Tanış jestlər, həmişə olduğu kimi, məzmunlu, aydın, səlist nitq... Bəs bu nədir? Deyəsən, prezident səndirlədi və yıxıldı... Deyəsən, yox... Bu reallıqdı, acı reallıq...

Zal çaşqınlıq, heyrət içində Heydər Əliyevin səhnədən necə aparılmasına tamaşa eləyir. Hamı ayaq üstdədir. Qorxulu sükut... Həyəcanlı anlar... Və hamı dərindən nəfəs aldı. O anda! O anda ki, prezident yenidən səhnəyə qayıtdı. Özü qayıtdı! Və tribunaya yaxınlaşdı.

– Davam edək, dostlar!...

Lakin yenə də huşun itirilməsi ... Yenə...

Bu zala toplaşanların qəlblərində nələr baş verdiyini təsəvvür etmək olar! Həkimlər təcili olaraq Heydər Əliyevin xəstəxanaya aparılmasını təkid edirdilər. Amma Əliyev həkimlərin inadına, generalların onu dilə tutmasına baxmayaraq üçüncü dəfə (sonradan bəlli oldu ki, qabırğaları sınmış vəziyyətdə) tribunaya yaxınlaşdı. Ona görə yaxınlaşdı ki, Azərbaycan ordusunun cavan döyüşçüləri, gələcək zabitləri ilə vidalaşsın. Və yalnız bundan sonra o, səhnəni – döyüş meydanını tərk etdi. Ən qəti döyüşdə qalib gəlmiş sərkərdə kimi tərk etdi. O, bu meydanı alnıaçıq, başıuca tərk etdi. Vida addımlarının ona nəyin bahasına başa gəldiyini bir Allah bilir.

O gün İlham Əliyev Neft Şirkətində cari işlərlə məşğul idi. Sonra o özü danışırdı ki, atası yıxılanda yeddi qabırğası sınıbmış.

– Əlbəttə, bu yaşda bu çox ağırdır. Bu onun fiziki vəziyyətinə güclü təsir etdi, amma indi yaxşıdır.

Təəssüf ki, mən həmin gün Respublika Sarayında yox idim. Sonra öz-özümə fikirləşdim ki, orada olsaydım onu ikinci dəfə, üçüncü dəfə səhnəyə buraxmazdım. Sonra düşündüm ki, bunu mən də edə bilməzdim, çünki Heydər Əliyev haqlı idi. O, kursantlar, zabitlər qarşısında çıxış edirdi. Ali baş komandan kimi çıxış edirdi və istənilən halda səhnəyə çıxardı...

O günlərin qəzetlərini oxuyanda ən müxtəlif duyğuların üzə çıxdığını öz gözlərinlə görürsən. Həyəcan, səmimi sarsıntı və demək olar ki, gizli bədxahlıq. Dünənki yaltaqlar dünən gördükləri bədbəxt hadisəni Əliyev hakimiyyətinin axırının əlaməti kimi qələmə verirdilər, rejimin iflasının yaxınlaşması haqqında yazırdılar.

Bir zamanlar Puşkin başqa bir münasibətlə qeyd etmişdi: «Yaltaqlar, yaltaqlar! Çalışın ki, əyməyin nəcibliyin qəddini alçaqlıq edəndə də»

Moskvanın «İzvestiya» qəzetindəki bu barədəki məqalənin adı olduqca əlamətdardır – «Prezidentin dözümü». Məqalədə deyilir: «Siyasətdə və eləcə də həyatda əgər yıxılmısansa, özündə güc tap ki, ayağa qalxasan. Azərbaycan prezidenti o insanlardandır ki, hətta yıxılanda da ucalır...»

Yeri gəlmişkən, prezidentlərin, baş nazirlərin, kralların, baş katiblərin xəstəlikləri həmişə ən gizli sirlərdən olub. Məsələn, Çörçillin xəstəliyini ciddi-cəhdlə ingilislərdən gizlədirmişlər. Yalnız ən yaxın adamları onun iki dəfə – 1949 və 1953-cü illərdə insult keçirtdiyini bilirmişlər. Amerikalılar da Reyqanın naxoşluğunu gizlədirdilər. Kreml çox şad olardı ki, Brejnevin sağlamlıq durumunu ört-basdır etsin, amma hər şey göz qabağında idi.

Heydər Əliyev öz səhhətindəki problemləri cəmiyyətdən gizlətmirdi. ABŞ-da, Klivlenddə aparılmış ürək əməliyyatı haqqında bütün ölkəyə, ictimaiyyətə məlumat verildi. Bu barədə qəzetlərdə də yazıldı, sənədli «Sabaha inamla» filmində də söhbət açıldı. Bu elə bir telefilmdir ki, hər evdə, hər ailədə baxılır.

Klivlenddə ad günü

– 1999-cu ilin aprel ayında biz Amerikanın Klivlend şəhərində idik, – Mehriban xanım Əliyeva bu filmdə belə xatırlayır. – Biz bilirdik ki, cənab Prezidenti ürəyindən əməliyyat edəcəklər. Əlbəttə, biz çox həyəcanlanırdıq. Digər tərəfdən əmin idik ki, hər şey yaxşı olacaq, əməliyyat uğurla keçəcək. Allaha şükür ki, belə də oldu.

İlham Əliyevin öz atasına hörməti, səmimi yanaşması, halına yanması bizə də təlqin olunmuşdu. Hər bir insanın valideynlərinə belə münasibət bəsləməsi təbiidir.

Mehriban xanım o günlər İlhamın necə ağır həyəcanlar keçirdiyini də xatırlayır:

– O, ola bilsin ki, bunu gizlətməyə çalışırdı. Hər halda mən onun yanında idim və hiss eləyirdim ki, bu anlar onun həyatının ən ağır anlarıdır...

– Görürdüm ki, o, özünə yer tapa bilmir. Əlbəttə, çalışırdım ki, imkan daxilində onu sakitləşdirim. İlham çox etibarlı insandı. Biz on doqquz ildir ailə qurmuşuq, bir yerdə yaşayırıq...Mən də, mənim uşaqlarım da bilirlər ki, bizim arxamızda

belə bir insan, belə bir dayaq var və hər hansı bir çətin vəziyyətdə o, bizim müdafiəçimizdir...

İlham Əliyev uzaq Klivlenddən Bakıya tez-tez zəng eləyirdi, paytaxtda vəziyyətlə maraqlanırdı. Azərbaycanın havası haqqında soruşurdu. «Havanı» soruşmasını başqa cür də yozmaq olardı...

«Bakılı oğlanlar» şən və hazırcavablar klubunun kapitanı Anar Məmmədxanlı xatırlayır: «Mən İlhamla söhbətləşəndə o, təmkinlə dedi ki, işlər öz qaydasındadır. Amma mən onun səsinin ahəngindən hiss etdim ki, darıxır».

Bəli, Əliyevlər Vətən üçün darıxırdılar. AzTV Klivlend Klinikasından kadrlar göstərirdi və bu süjetlərin birində tanınmış Azərbaycan müğənnisi Yaqub Zurufçu «Ayrılıq» mahnısını oxuyurdu.

Ata və oğul Əliyevlər ömrünün böyük bir kəsimini qürbətdə yaşamış müğənninin yanıqlı səsindən son dərəcə təsirlənmişdilər:

– Hər bir dərddən olur, yaman ayrılıq...

10 may – Prezidentin ad günü yaxınlaşırdı.

İlham Əliyev qərar verdi ki, prezidentin ad gününü yubileyin iştirakı ilə Klivlenddə qeyd etsinlər.

Mehriban xanım Əliyeva:

– Bizim yerləşdiyimiz oteldə banket zalı var idi. Sübhdən buradakı stolu bəzəməyə başladıq, xeyli gül-çiçək gətirdilər, ətrafdan şarlar asdıq. Divara isə belə yazdıq: «Əziz prezident, Sizi ad günü münasibəti ilə təbrik edirik!» Biz çox həyəcanlı idik.

O kövrək axşam orada iştirak etmək nəsib olanların hamısının yadında qalıb. Əməliyyatdan sonra prezident ilk dəfə insanların qarşısına çıxdı. O, həmişə olduğu kimi, gümrahdı, əhvalına söz ola bilməzdi. Əl xətti ilə yazdığımız təbriki görəndə gülümsəyir. Bir sözlə, – Mehriban xanım sözünə davam edir, – hər şey çox gözəl idi. Bizim ağlımıza da gəlməzdi ki, Heydər Əliyevin ad gününü Klivlend şəhərində qeyd etməli olarıq... Biz hamımız – doğmalar, yaxınlar, dostlar, prezidentin tanışları – hesab edirdik ki, bizi buraya Yaradan özü gətirib.

* * *

İllər keçdikcə hər yubiley tarixi yadda qalmır. Heydər Əliyev subay həyatının sonuncu ad gününü – 30 yaşını çekist dostları ilə

qeyd edib: 50 və 60-illiklərində çalışıb ki, haylı-küylü təbriklərdən qaçsın, amma adətdən, ənənədən hara qaça bilərsən? Ən doğmaları evə toplaşardı. Həmkarları, yoldaşları təbrik etmək üçün MK-ya, Moskvada isə, Nazirlər Sovetinə gəlirdilər.

Və yenə də təntənə oldu

Yenə də ad gününü – 80 illiyini – klinikada – ona yaxşı tanış olan hərbi-tibbi «Gülhanə» Akademiyasında qeyd etməli oldu. Prezident Ankaraya may ayının 4-nə keçən gecə uçdu.

Türkiyəli və eləcə də xarici jurnalistlər çalışırdılar ki, Heydər Əliyevin səhhəti haqqında məlumat əldə etsinlər. Ancaq Əliyev yerləşdirilən reanimasiya bloku klinikanın yerdə qalan hissəsindən təcrid edilmişdi və buraya başqa korpusların həkimlərini də buraxmırdılar. Azərbaycan prezidentinin müalicəsinin necə keçdiyi barədə heç bir məlumat verilmirdi. Bu da dedi-qodular, şayiələr,üçün əsas verirdi. Və elə bu zaman Türkiyə televiziyası xəbər yaydı ki, Əliyev koma vəziyyətindədir və sağalacağına da ümid yoxdur. Azərbaycanda bu informasiyanı təkzib etdilər.

Mayın 7-də Bakı qəzetləri o zaman Respublika Dövlət Neft Şirkətinin vitse-prezidenti olan İlham Əliyevin müraciətini dərc elədi:

– Bazar ertəsi mən Ankaraya uçdum. Prezident özünü yaxşı hiss edir, müayinə uğurla davam etdirilir, ancaq o, Bakıya qayıtmağa can atır. Mən məsləhət gördüm ki, bir qədər dincəlsin və müayinənin başa çatmasını gözləsin. Prezidentin salamını Azərbaycan xalqına yetirirəm.

İlham Əliyevin bu müraciətinə baxmayaraq, artıq Prezidentin keçinməsi barədə şayiələr yayılmaqda idı. Dedi-qodular hətta Tbilisiyə də gedib çatmışdı.Və Eduard Şevardnadze eksprezidentə yaraşmayan, hətta istefada olan diplomat üçün də bağışlanılmaz sayılan bir addım atmışdı: Bakıya başsağlığı teleqramı göndərmişdi.

Mayın 7-də Prezidentin gəlini, Mehriban Əliyeva mətbuatın qarşısına çıxdı. Onun sözlərinə görə, «dövlət başçısının vəziyyəti stabildi, hal-hazırda onun səhhəti ilə bağlı narahatçılıq üçün heç bir əsas yoxdur, o «Gülhanə» klinikasında müayinə olunur».

Reportyorlar soruşdular:

– Prezidentin Vətənə dönüşü nə vaxta gözlənilir.

– Bu həkimlərin qərarından asılıdır. Əliyev özü indi də qayıtmağa hazırdır. Amma vaxtı həkimlər müəyyən eləyir.

* * *

Əlbəttə, Prezident öz bayram günündə evdə, Vətəndə olmağı ümid edirdi. Yubileyi gümü əzizlərinin və doğmalarının əhatəsində keçirəcək; qonaq qəbul edəcəklər; Rusiyanın və Qazaxıstanın, Türkiyənin və eləcə də başqa ölkələrin başçılarını və nümayəndələrini qəbul edəcək... Qismət olmadı. Yubiley tədbirlərini saxladılar payıza.

Hər-halda şənlik oldu. İsti, qəlbdən gələn bir şənlik – amma xəstəxananın divarları arasında. Yubileyə nəvələr də gəlmişdilər: İlhamın oğlu və Sevilin qızı. Türkiyə prezidenti Necdət Sezər gül-çiçəklə gəlmişdi. Vladimir Putin ürək sözlərini göndərmişdi. Çoxlu sayda dövlət, respublika başçıları da Heydər Əliyevi teleqramlarla yad etmişdilər. Heydər Əliyevə Tatarıstan prezidenti Mintemir Şaymiyevin «Mir» telekampaniyasına onun haqqında verdiyi müsahibədən söz açdılar.

Biz də bu müsahibəni tapa bildik.

«Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyeviç Əliyev hər şeydən əvvəl öz xalqının oğludur, – Mintemir Şaripoviç deyirdi. – O, dünya miqyaslı siyasətçidir. Təbiətən istedadlı adam kimi o, öz əməyi, bacarığı və səbri hesabına çox şeyə nail olub. Heydər Əliyevi bütün Rusiya Federasiyasının, MDB ölkələrinin, xarıcin ictimaiyyəti tanıyır. Heydər Əliyevi dövlət xadimi və siyasi xadim kimi bir sözlə səciyyələndirmək mümkün deyil. Mən uzun illərdir onu tanıyıram. Buna görə də Heydər Əliyevin müasir tarixdə rolu və yeri barədə öz fikrim var. Əsas məsələni deməliyəm: əgər Azərbaycan xalqı üçün faciəvi günlərdə, yenidənqurmanın ilk illərində hakimiyyətdə Heydər Əliyev olsaydı, Qarabağ problemi olmazdı. Əminəm ki, o, bu faciəyə yol verməzdi.

Azərbaycan olduqca mürəkkəb bölgədir. Qarabağ hadisələri göstərdi ki, olanı qorumuruq, itirəndə ağlayırıq. O qorxulu günlərdə, bir qədər gec də olsa, respublikanın xalqı Heydər Əliyeviçi istədi və bu da tarixən özünü doğrultdu. Əgər o onda Ali Sovetə rəhbərlik etmək təklifini qəbul etməsəydi, daha pis ola bilərdi. Sonra o, Azərbaycan Respublikasının bütün xalqı tərəfindən seçilmiş Prezidenti oldu.

Yaxşı ki belə bir insan var. O, həqiqətən də bir çox suallara cavab tapa bilir. Bunların sayı isə orada çoxdur. Başqa şəraitdə Azərbaycanda vəziyyətin necə ola biləcəyini söyləmək çətindir. Bəzən siyasətdə cüzi bir səhv xalqlar üçün böyük bəlaya çevrilir. Mən şəxsən Heydər Əliyeviçə insani və siyasi uzunömürlülük, qardaş Azərbaycan xalqına isə sülh və əmin-amanlıq arzu edirəm».

17 iyun 2003, London

Lankaster Sarayında Böyük Britaniyanın baş naziri Toni Blerin təşəbbüsü ilə Beynəlxalq konfrans keçirilir. Azərbaycan nümayəndə heyətinə İlham Əliyev başçılıq edir. Bler konfrans iştirakçılarını bütün ölkələrdə sənaye istehsalının şəffaflığı ilə bağlı təşəbbüs ətrafında birləşməyə çağırır. Ondan sonra söz ARDNŞ-nin vitse-prezidenti İlham Əliyevə verilir. Bu təklifi dəstəkləyən İlham Əliyev Dövlət Neft Fondunda cəmləşən gəlirlərin saxlanma şəraitindən söz açır və qeyd edir ki, əsas məsələ bu şərtin şəffaflığındadır. Bakı-Tbilisi-Ceyhan eksport neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin Azərbaycan Respublikasının və bütövlükdə regionun həyatında önəmli rol oynayacağını vurğulayır.

O günlərdə İlham Əliyev İngiltərənin Beynəlxalq inkişaf məsələləri üzrə dövlət katibi Hillari Benlə görüşür: onu –Azərbaycanı ağır vəziyyətlərə gətirib çıxaran Ermənistan-Azərbaycan qarşıdurması, Dağlıq Qarabağ münaqişəsi, onun tarixi və səbəbləri haqqında məlumatlandırır. Onu da nəzərə çatdırır ki, beynəlxalq ictimaiyyət Ermənistanın bu aqressiv siyasəti barədə bir çox məsələlərdə kifayət qədər məlumatlı deyil. Böyük Britaniyanın AŞPA-da nümayəndəsi Terri Devisin hazırlanmaqda olan məruzəsini xatırladan İlham Əliyev ümidvar olduğunu bildirir ki, məruzəçi obyektiv mövqedən çıxış edəcək. İlham Əliyev öz ölkəsinin mövqeyini bildirərək deyir ki, Ermənistan beynəlxalq hüquq normalarına əməl etməlidir, işğal etdiyi Azərbaycan torpaqlarından çıxmalıdır, qaçqınlar və məcburi köçkünlər öz yurd-yuvalarına qayıtmalıdırlar.

Məzuniyyətsiz yay

İsti, quru yay qısa Bakı yazını sıxışdırdı. Bakılılar ilin-ayın bu vədəsində bağlara köçürlər. Rahat kafeləri, restoranları ilə zəngin olan Dənizkənarı bulvar qələbəlik olur. Amma o yay siyasət sərbəst dincəlmək üçün çox az imkan vermişdi.

23 iyun 2003-cü ildə Yeni Azərbaycan Partiyasının Siyasi Şurası 15 oktyabra təyin olunmuş, prezident seçkilərində Heydər Əliyevin namizədliyini irəli sürdü.

«Yeni Azərbaycan uğrunda» hərəkatın ətrafında birləşmiş çoxsaylı siyasi partiyalar və ictimai təşkilatlar onun namizədliyini dəstəkləmək üçün bu kampaniyaya qoşuldular.

28 iyun 2003-cü ildə Naxçıvanda, prezident seçkilərində İlham Əliyevin namizədliyini irəli sürən təşəbbüs qrupu yaradılır. Bu qərarı Naxçıvan Dövlət Musiqili dram teatrında keçirilən toplantıda yekdilliklə dəstəkləyirlər. Unikal bir vəziyyət: dövlət başçılığına eyni partiyadan iki adamın, özü də ata və oğulun namizədliyi irəli sürülür. Daha doğrusu, formal nöqteyi-nəzərdən onlar rəqibdirlər. Amma axı bu insani münasibətlərin normal məntiqində ailə etikasına daban-dabana ziddir – hamı bilirdi ki, Əliyevlər ailəsində əxlaqi dəyərlər nə dərəcədə uca tutulur. Oğul, söylənildiyi kimi, atanın yolunu kəsməməlidir. Onda, yaxşı, bu «Əliyev dublyajı»nı, ya dupletini necə başa düşək? – bu sualı siyasi manevrlərin incəliyinə vara bilməyən çoxsaylı həmvətənlər, hətta ola bilsin ki, sərişteli insanlar da dillərinə gətirirdilər.

2003-cü ilin seçkiqabağı süjetinin gedişlərini təsəvvüründə canlandıranda bu qənaətə gəlirsən ki, hadisələr iki əsas varianta hesablanıbmış. Birincisi Heydər Əliyevin sağalıb dövlət başçısı kimi öz missiyasını yerinə yetirməsi ilə bağlıdır və bu çox təbii haldır; o zaman oğul Əliyev öz namizədliyini geri götürməli idi. İkinci variantda İlham Heydəroğlu bir oğul kimi nə qədər kədərli anlar yaşasa da, mübarizəni atasız davam etdirməli idi. Atanın idealları, əməlləri uğrunda...

Bir baxın, psixoloji cəhətdən necə də mürəkkəb, emosional fonuna görə ziddiyyətli bir düyün yaranır. Opponentlər demoqoq tezislərdən yapışırlar: guya bir partiyadan iki namizədin irəli sürülməsi özü də partiyadaxili qarşıdurmadan xəbər verir. «Səs» qəzeti bədxahlara cavab verir:

«Görünür bu onların daima bir-biriləri ilə antoqonist vəziyyətdə olmaları, buna vərdiş etmələri ilə bağlıdır. Üstəlik də nəzərə almaq lazımdır ki, müxalifət liderləri İlham Əliyevin şəxsində hakimiyyətə gəlmək şansı çox böyük olan bir siyasətçini görürlər və bunu da qısqanclıqla qarşılayırlar».

Qəzet qeyd edir ki, İlham Əliyev öz öhdəsinə düşən vəzifələrin öhdəsindən ləyaqətlə gəlir, müxalifətin liderləri isə, haylı-küylü aksiyalara üstünlük verirlər, şər-böhtan yazırlar. «İlham Əliyevin nümayəndə rəhbəri kimi AŞPA-da fəaliyyəti bir daha nümayiş etdirir ki, o, böyük siyasətə hazırdır, o, Azərbaycan həqiqətlərini AŞPA-nın tribunasından ağılla yaymağı bacarır, ona da şübhə ola bilməz ki, İlham Əliyev Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirəcək və gələcəkdə o, Azərbaycan prezidenti olacaq».

Paradoksal hal: əgər Heydər Əliyev səhhəti ucbatından seçki kampaniyasında iştirak etmək imkanına malik deyilsə, müxalifətin hakimiyyətə gəlmək şansını artır, İlham Əliyevin namizədliyi isə bu ümidləri heçə endirir. İlham Əliyev qibtə oyadan ləyaqətini saxladı. Münasibətləri tənzimləmək, hesablaşmaq üçün o, əlində olan inzibati və başqa imkanlardan istifadə etmədi. Hətta ən azğın hücumları belə cavabsız qoydu; yüksək intellekti və ayıq praqmatizmi, daxili mədəniyyəti onu küçə söyüşməsi səviyyəsinə enməyə qoymadı və yeganə doğru yola: işə, fəaliyyətə, xalqın, iqtisadiyyatın ən ümdə problemlərinin həllinə yönəltdi.

Jurnalist Andrey İvanov «Nezavisimaya qazeta»da yazır: «Təbiət İlham Əliyevə gözəl genlər əta eləyib: bunu etiraf etməmək olmaz». İlham Heydər oğlunun həyat yolunu vərəqləyən müəllif daha sonra belə yazır: « 1994-cü ildə onu Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezident vəzifəsinə dəvət edirlər. Və gənc olsa da, təcrübəli, fəal, mübariz, məsuliyyəti öz üzərinə götürə bilən İlham tez bir zamanda ölkə rəhbərlərindən birinə çevrilir.

...İlham Əliyev bu sektorda fəaliyyətə başlayana qədər ölkə iqtisadiyyatının taleyini müəyyən eləyən «Neft müqavilələri» ilə, parlamentin keçmiş sədri, Heydər Əliyevin keçmiş «silahdaşı» və həm də ən çalışqan və ən varlı rəqibi Rəsul Quliyev və onun komandası məşğul olurdu. Onlar hər bir sazişə görə xarici firmalardan beş, on faiz, el arasında deyildiyi kimi, «şapka», «başlıq» tələb edirdilər.

O günlər Heydər Əliyevin özü və oğlu haqqında dediyi sözlər tez-tez yada düşürdü. «Mən öz həyatımda hər şeyə özüm nail olmuşam. Onun nə günahı var ki, mənim oğlumdur. Mən çox istəyirəm ki, İlham hər şeyə özü nail olsun».

Avqustun əvvəllərində Türkiyə Prezidenti Süleyman Dəmirəl «Gülhanə» qospitalında Prezident Heydər Əliyevə baş çəkdi. Televiziyalar köhnə və etibarlı dostların hərarətli görüşlərini işıqlandırdı. Azərbaycanda bu kadrlara həyəcanla baxırdılar. Xəstəlik, aprel fəlakəti Heydər Əliyevin zahirində də özünü büruzə verirdi. Prezident arıqlamışdı, amma onun min kilometrləri aşan geniş təbəssümü özüylə ümid gətirirdi, soydaşlarına ruh yüksəkliyi bəxş edirdi: « Hər şey yaxşı olacaq... Mən qayıdacağam...»

Vətəndə nələr baş verdiyini o yaxşı bilirdi. Ola bilsin ki, Prezidentin halına yananlar radikal müxalifətin və onun mətbu orqanlarının qaldırdıqları seçkiqabağı haray-həşirin hamısını ona demirdilər.. Amma təcrübəli siyasətçi bu adamların dabbaqda gönünə bələd idi, o, bu adamların utanmadan, çəkinmədən hansı addımları ata biləcəyini dəqiq bilirdi. Azərbaycan Prezidentinin «Gülhanə» Tibb Akademiyasında imzaladığı məktub Milli Məclisə yetişdi. O məktubla qərar verilirdi ki, İlham Əliyev baş nazir vəzifəsinə təyin olunsun. Yalnız parlamentin bu qərarı təsdiq etməsi qalırdı.

Müxalifət nümayəndələri məktubun mətni ilə bağlı mübahisələrə başladılar, onlar sübut etmək istəyirdilər ki, imza prezidentin deyil, məktubu prezident özü imzalamayıb və s.

Xarici jurnalistlər xahiş edirdilər ki, İlham Əliyev bu polemik söhbətləri aydınlaşdırsın və o da bu qərəzli mübahisələrə şəffaflıq gətirdi. Bilavasitə söylədi ki, bu dedi-qoduları ən çirkin əməllərlə məşğul olanlar törədir.

– Mən qospitalda – Prezidentin yanında avqustun 2-də olmuşdum, – o deyir, – o, öz məktubunu parlamentə bu hadisədən qabaq göndərmişdi. Söhbətimiz əsnasında o, öz qərarını bəyan elədi, mən də razılıq verdim. Onu da söyləyim ki, o, tamamilə iş qabiliyyətlidir.

İlham Əliyev «Vaşinqton post» qəzetinə verdiyi müsahibədə bildirir ki, baş nazir təyin olunması barədəki məsələni əvvəllər də atası ilə çözüblər: «Amma qərarı ona görə indi verdi ki, belə fikirləşdi ki, bunu etməyin vaxtı gəlib çatıbdır. 20 gündən çoxdur ki, ölkədən kənardadır. Əlbəttə ki, hər şey

nəzarət altındadır. Amma onun qərarı ilə razılaşmalıydım və mən etiraz etmədim... Mən həmin gün Ankarada, onun yanında idim... Dedi ki, sənə inanıram, inanıram ki, sən idarə edə biləcəksən. Məni bir qədər tərifladi, onun dediklərini təkrarlamaq istəmirəm, yəqin bu, təvazökarlıqdan uzaq olar. Amma mən dedim ki, heç vaxt onun gördüyü işi heçə endirməyə yol vermərəm. Dedim ki, indiyə qədər fəaliyyət göstərdiyim bütün sahələrdə, həm ölkə daxilində, həm də ölkə xaricində onun siyasətini davam etdirməyə çalışmışam və söz verdim ki, onun işi davam etdiriləcəkdir».

Beləliklə, kimin bəxti gətirib: İlhamın ata sarıdan, yoxsa Heydər Əliyevin oğul sarıdan? Hər ikisinin. Azərbaycanın.

IX fəsil

«BAŞ NAZİR TƏYİN OLUNSUN...»

...Onlar isə: «Biz hökmdarlığa daha layıq ikən və ona var-dövlət verilmədiyi halda, o, necə bizə padşah ola bilər?» (Peyğəmbər onlara) dedi: «Allah sizdən ötrü onu (bəyənib) seçmiş, elm və bədəncə (qüvvəcə) ona üstünlük vermişdir. Allah öz mülkünü (səltənətini) istədiyinə verər ...»

Quran. 2 surə. Əl-Bəqərə (İnək). 247-ci ayə.

4 avqust 2003-cü il, Bakı

İnsan təbiəti, şəxsiyyətin mənəvi kökləri haqqında çox düşünmüş ispan yazıçısı və filosofu Baltasar Qratsian (1601-1659) «Kamillik elmi» traktatını yaratmışdı. «Əgər birinci məşhurdursa, onda bu üstünlük ikiqatdır, – alim yazırdı. – Birinci şərəfli titullar nəsil-nəcabətdən gəlir... Bır çoxları birinci cərgədə ikinci olmaqdansa, ikinci cərgədə birinci olmağa üstünlük verirlər».

Söhbət şöhrətpərəstlik ambisiyalarının dərəcələrindən, mürəkkəb cəmiyyət və şəxsiyyət (lider) münasibətlərindən gedir. Fəlsəfi incəliyə varmadan qeyd edək ki, bizi hekayətimizin qəhrəmanına şərəfli titullar nəsildən gəlməyib, mavi haşiyəli nəlbəkidə bunu ona verməyiblər.

...Respublikanın paytaxtı yeni günü qarşılayırdı. Günəş məşhur «Bakı, sabahın xeyir» mahnısının səsləri altında körfəzə nur çiləyirdi. Saat 10-da Parlamentin fövqəladə XXII sessiyası açılacaqdı. Gündəlikdə bir məsələ dururdu: «Azərbaycan Respublikasının baş nazirin təyin edilməsi. Prezidentin məktubunu Milli Məclisin sədri Murtuz Ələsgərov oxuyur:

«Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 4-cü bəndinə uyğun olaraq Azərbaycan Respublika-

sına ...baş nazir təyin olunması haqqında məsələni Sizin müzakirənizə verirəm... »

Daha sonra Murtuz Ələsgərov öz nitqində onun Dövlət Neft Şirkətindəki, Milli Olimpiya Komitəsindəki, Avropa Şurası Parlament Assambleyasındakı fəaliyyətindən söz açdı... Xalqın hörmətini qazandığını, ictimaiyyət arasında böyük nüfuz sahibi olduğunu xüsusilə vurğuladı. Və axırda da:

– Mən onun baş nazir təyin olunmasını ürəkdən dəstəkləyirəm və təklifi alqışlayıram! – dedi.

Deputatların çıxışları iclasın stenoqramında da qalıb:

Əli Əhmədov: Mən möhtərəm Prezidentimiz Heydər Əliyevin hörmətli İlham Əliyevin Azərbaycan Respublikasının Baş naziri təyin olunması ilə əlaqədar Milli Məclisə etdiyi müraciəti, demək olar ki, bütün Azərbaycan xalqının ürəyindən gələn istəkdən qaynaqlanan bir addım kimi qiymətləndirirəm. Azərbaycan xalqı Heydər Əliyevin siyasi xəttinin, onun müəyyənləşdirdiyi siyasətin ən layiqli davamçısı kimi məhz İlham Əliyevi görür.

Hadi Rəcəbli: Bir məsələni də qeyd etmək istərdim. Xoşbəxtlikdən, 5 il mən onunla yanaşı oturmuşam və bu gün fəxr edir və böyük inamla demək istəyirəm ki, onda yüksək intellekt və ağıl, yüksək mənəvi keyfiyyətlər vardır. O, bütün hərəkətlərində sivil rəhbər nümunəsi göstərir. Onda hay-küysüz, yüksək işgüzarlıq vardır. Bu gün bizdə bir iş görüb min dəfə danışan adamlar mövcuddur. İlham müəllim demokratik düşüncə tərzinə malikdir, cəsarətli siyasətçidir. Biz bunu Avropa Şurasında görürük. Bu gün xalq məhz belə bir rəhbər istəyir, belə bir liderə xalqın ehtiyacı vardır. Belə lideri də möhtərəm Prezidentimiz, bizim müdrik rəhbərimiz Heydər Əliyev bu gün parlamentə təqdim etmişdir. Sevindirici haldır ki, parlamentimiz birmənalı olaraq bu namizədi qəbul edir, onu, həmçinin xalqımız qəbul edir. Bütün məsuliyyətimlə deyirəm ki, xalq da onu alqışlarla qəbul edəcəkdir və bizim möhtərəm Prezidentimizə dua edəcəkdir.

Rəbiyyət Aslanova: Deyirlər, xarici siyasət daxili siyasətin davamıdır. Bu gün dünya birliyinə inteqrasiya olunan Azərbaycan dövlətinin daha da güclənməsi üçün məhz cənab İlham Əliyevin qüvvəsinin səfərbər olunması, xalqımızın rifahı naminə daha geniş istifadə olunması vacibdir, tarixi zərurətdir.

Bəxtiyar Əliyev: Mən İlham Əliyevi hələ tələbəlik illərindən tanıyıram. Onun sadəliyi, səmimiliyi, mehribanlığı, yük-

sək mədəniyyəti, böyük dünyagörüşü həmişə ona dərin hörmət, ehtiram və rəğbət qazandırmışdır.

Biz, Avropa Şurasında nümayəndə heyətimizin rəhbəri İlham Əliyevin verdiyi tövsiyələrin, göstərişlərin necə məntiqli, düzgün, uzaqgörən tövsiyələr olduğunun dəfələrlə şahidi olmuşuq. Qeyd etmək istəyirəm ki, cənab İlham Əliyev yetkin siyasətçi kimi iqtisadiyyat sahəsində də böyük uğurların əldə edilməsində müstəsna xidmətlər göstərmişdir. Hesab edirəm ki, bu gün cənab İlham Əliyevin Azərbaycan Respublikasının Baş naziri təyin olunması çox düzgün addımdır.

Millı Məclisin aqrar siyasət komissiyasının sədri Eldar İbrahimov parlaq və emosional çıxış etdi: Mənim üçün də bu gün çox tarixi bir gündü. Ona görə ki, həqiqətən, burada Konstitusiyaya uyğun olaraq, biz möhtərəm Prezidentimizin təqdimatı ilə Baş nazirin təyin edilməsinə razılıq veririk.

Həqiqətən, İlham müəllim böyük siyasətçi kimi Avropa Şurasında mühüm işlər görmüşdür. Biz özümüz də ATƏT-in işində iştirak edirik və orada onlara iki sözü dedirtmək mümkün deyil. Lakin İlham müəllimin apardığı səriştəli siyasətin nəticəsidir ki, Avropa Şurasında Ermənistanı işğalçı dövlət kimi tanımışlar .

Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti kimi İlham Əliyev 1994-cü ilin sentyabrında bağlanmış «Əsrin müqaviləsi»nin, sözün əsl mənasında, ilhamvericisi olmuşdur. Onun həyata keçirilməsində İlham Əliyevin böyük əməyi vardır. «Əsrin müqaviləsi» də və digər iqtisadi məsələlər də sübut edir ki,o, təkcə siyasətdə yox, həm də Azərbaycanın gələcəyi üçün böyük əhəmiyyət daşıyan iqtisadiyyat sahəsində də Azərbaycanın Baş naziri kimi ölkəmizin çiçəklənməsi naminə səmərəli fəaliyyət göstərəcəkdir. O, böyük intellekt və savada malikdir.

Bu gün biz İlham Əliyevin Baş nazir təyin olunması ilə ürəyimizdə olan arzumuzu gerçəkləşdirdik və bu xəbəri alqışlarla qarşıladıq. Lakin bu, təkcə bizim deyil, bütün Azərbaycan xalqının alqışıdır. Açıq deyim ki, mən seçicilərlə görüşürəm və onlar məndən soruşurlar ki, İlham müəllim nə vaxt rəhbərliyə gələcəkdir. Bu sualların əsası vardır. Bu suallar ondan irəli gəlir ki, İlham müəllimin xalqımızın qəlbində öz xüsusi yeri vardır.

Ona görə də mən möhtərəm Prezidentimizin, siyasi xadimin ən layiqli davamçısı hörmətli İlham Əliyevə uğurlar arzu-


liamenta



Heydər və İlham Əliyevləri Naxçıvan Muxtar Respublikasının Ali məclisinin sədri Vasif Talıbov salamlayır

- Salam, ata!





Məkkə, 1994-cü il

Beynəlxalq «Neft və qaz» sərgisi. *Bakı, 2002-ci il*





Heydər Əliyev görkəmli Azərbaycan şairi Hüseyn Cavidin məqbərəsini açır. *Naxçıvan, 1996-cı il*


HÜSEYN CAVID
1882 1941



Prezident Heydər Əliyev və İlham Əliyev yeni tikintilərdə





...və qaçqın şəhərciyində





İlham Əliyev Heydər Əliyevin ABŞ-da, Fransada və başqa ölkələrdə beynəlxalq danışıqlarında...





...böyük beynəlxalq forumların işində bilavasitə iştirak edirdi





Ata nəsihəti

Gənclərlə görüş





İlham Əliyev
Azərbaycanın Milli Olimpiya
komitəsinin prezidentidir



Mehriban xanım və
İlham Əliyev oğulları
Heydərlə





Azərbaycanın bütün
uşaqları – doğmadır



Ata ilə hər görüş,
hər söhbət
oğulun yaddaşındadır

Heydər Əliyev oğlu və nəvələri ilə

Azərbaycan, irəli!



Bakı respublikanın gələcək prezidentini salamlayır.
Oktyabr, 2003-cü il.

layır, onu təbrik edirəm. İnanıram ki, onun baş nazirliyi dövründə ölkəmiz daha da çiçəklənəcək və inkişaf edəcəkdir.

O fövqəladə sessiyada 15 deputat çıxış etdi: 12.13-də təklif səs qoyuldu, İlham Əliyevin baş nazir təyin olunmasına 101 nəfər səs verdi; əleyhinə – yoxdur; bitərəf – yoxdur, səsvermədə bir deputat iştirak etməyib.

Jurnalistlər İlham Əliyevi sual yağışına tutdular:

– Doğrusu, yekdilliklə mənə səs verəcəklərini gözləmirdim. Bilirsiniz ki, bizim parlamentdə bir çox partiyaların, o cümlədən müxalifətin və bitərəflərin nümayəndələri təmsil olunurlar. Buna baxmayaraq, mən yekdilliklə bu vəzifəyə təsdiq olundum və buna görə mənə səs verənlərə təşəkkür edirəm... İlham Heydər oğlu susdu, sonra kiminsə sualını qabaqlayaraq əlavə etdi. – Mən hansısa kəskin hərəkətlərin tərəfdarı deyiləm. Hesab edirəm ki, hər şey tədricən həll olunmalıdır.

Hökumətin başında ilk iş günləri. Cari işlər. Prezidentin səhhəti barədə şayiələr gəzir. Onun oğlu baş nazirə tez-tez müraciət edib, şərh eşitmək istəyirlər.

– Hər bir insanın öz fikri ola bilər. Mən şərh vermək fikrində deyiləm. Müxtəlif fikirlər, kifayət qədər saxtakarlıq olacaqdır. Ona görə də hesab edirəm ki, mənim üçün başlıcası, diqqəti bu gün mənə həvalə olunan vəzifənin uzərində cəmləşdirməkdir. Bu, çox böyük məsuliyyətdir. Mən ilk növbədə bu barədə düşünməliyəm. O ki qaldı bunu kimin necə qəbul edəcəyinə, bu məni o qədər də düşündürmür.

Parlament iclasından iki gün sonra yeni baş nazirin təqdimat mərasimi keçirildi. Bəlkə də ayrı vaxt olsaydı, İlham sevincindən qanad açıb uçardı. Amma belə bir gündə, belə bir saatda yox. İndı onun şadlığı yerinə düşməzdi. O, telekameraların əhatəsində məmnun-məmnun gülümsəyən yubilyar kimi görüntü yarada bilməzdi. Oğul atası barədə düşünürdü. Və o, öz bioqrafiyasının yeni mərhələsini onun adıyla başlayırdı.

– Azərbaycanda bir komanda var. Və bu da Heydər Əliyevin komandasıdır. Biz hamımız o komandanın üzvləriyik.

Və bu saatlarda okeanın o tayında, hələ gecənin ağuşunda olan uzaq ölkədə bir qoca insanın gözünə yuxu getmirdi, o, öz palatasında doğma simaların, ana dilinin qəlboxşayan ahəngini xiffətini çəkirdi... Ola bilsin ki, onun yadına Abşeron günəşi, qumlu sahilləri döyəcləyən Xəzər dalğaları düşmüşdü.

Bu insanın hakimiyyətin ali pilləsində olduğu illərdə Birləşmiş Ştatlarda 8 prezident dəyişmişdi. Böyük Britaniyanı isə bir-birini əvəzləyərək on baş naziri növbə ilə idarə etmişdi.

«Heydər Əliyev – anadangəlmə siyasətçidir, belə insanlar təqaüdə çıxmırlar. Axı, siyasət onlardar ötrü iş deyil, həyat tərzidir». Dəqiq sözdür, jurnalist Mixail Qusman deyib. Bir dəfə isə o, Heydər Əliyevə «Formula vlasti» televiziya verilişində belə bir sual verib: «Heydər Əliyeviç axı bu hakimiyyət adlanan şey nə olan şeydir?» «Sizə birbaşa cavab verim: dadsız, acı və yenə də acı».

Siyasət yolundakı çətinlikləri yada salan Heydər Əliyevin kinayəli gülüşünü təsəvvür etmək çətin deyil. Qətiyyətini də yada salmaq lazımdır.

«Kim Azərbaycanda hakimiyyətə gəlmək istəyirsə, 2003-cü ili gözləməlidir. O zaman ölkədə növbəti dövlət başçısı seçkiləri keçiriləcək, – prezident sərhədçilər qarşısında çıxış edərkən dedi, – Amma onlar bilməlidirlər ki, mənimlə mübarizə aparmalı olacaqlar».

İndi isə prezident seçkilərində rəqiblərdən biri öz oğlu olacaqdı.

Azərbaycanın baş naziri İlham Əliyevin ünvanına teleqramlar və məktublar gəlməyə başladı. Onu Rusiyanın, Türkiyənin, Fransanın, Ukraynanın, Çinin, Pakistanın, Hindistanın, Bolqarıstanın, Hollandiyanın, İsrailin, Yaponiyanın dövlət başçıları, həmçinin AŞPA-nın sədri Piter Şider, Avropa Şurasının baş katibi Valter Şvimmer təbrik etdilər...

12 avqustda ABŞ Konqresi Nümayəndələr Palatasının elçisi İlham Əliyevə ABŞ prezidenti Corc Buşun məktubunu təqdim etdi. C.Buş yazırdı: «Sizin təyinatınız Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında genişlənən, möhkəm ikitərəfli əməkdaşlıq dövrünə təsadüf edir. Siz qarşıdakı seçkilərə hazırlaşan zaman Sizin ölkənin demokratik institutlarını möhkəmlətmək üçün Sizinlə, Sizin hökumətlə və Azərbaycan parlamenti ilə işi səbirsizliklə gözləyirik. Biz sizinlə əməkdaşlığı, həmçinin bizim ölkələrin yaxınlaşmasına dəstək verən sahələrdə, o cümlədən, terrorizmlə mübarizə və regionda stabillık, energetika və uzunmüddətli siyasi və iqtisadi islahatlar, sahəsində də davam etdiririk.

Sizin atanıza və Sizin ailənizə öz diqqətimizi və dualarımızı yetiririk. ABŞ – Azərbaycan əlaqələrinin qurulmasında Sizin atanız əsas rol oynayıb».

Azərbaycanın baş naziri Buşa səmimi təbrikinə və xoş arzularına görə ürəkdən minnətdarlığını bildirdi. «Bu gün Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əlaqələrin bütün sahələrdə genişlənməsi, yüksələn xətlə davam etməsi bizi sevindirir. Bir sıra mühüm sahələrdə, irimiqyaslı iqtisadi layihələrdə ölkələrimizin sıx əməkdaşlığı, birgə fəaliyyəti və qarşılıqlı səyləri nəticəsində əldə etdiyimiz uğurlar bu qəbildəndir...

Atam prezident Heydər Əliyevə, ailəmizə böyük diqqət və qayğınıza görə Sizə son dərəcə minnətdaram».

Bu məktuba nəinki Azərbaycanda, həm də onun hüdudlarından kənarda diqqət yetirildi. «Siz bilirsiniz ki, ABŞ prezidentləri hətta prezident seçilənlərin belə heç də hamısını təbrik etmirlər, – İlham Heydər oğlu müsahibəsində dedi. – Mənim təyinatımla bağlı təbrik isə... bizim ölkələrimiz arasındakı münasibətlərin çox yüksək səviyyədə olmasını göstərir.

ABŞ bizim üçün strateji müttəfiqdir. Amerika dövlətinin dəstəyi ilə biz Bakı-Ceyhan boru kəmərini çəkirik. Biz İraq müharibəsində Amerikanı birinci dəstəkləyən ölkələr arasındaydıq və İraqa 150 əsgər göndərdik. Bizim ordunun nümayəndələri hazırda ABŞ silahlı qüvvələri ilə birgə sülhə xidmət edirlər. Hər bir dövlət üçün ən böyük problem xaricdən təcavüzdür. Və müstəqillik əldə etdikdən sonra Azərbaycanın üzləşdiyi ən böyük problem ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən zəbt edilməsidir.

Özünün ərazi bütövlüyünün təmin edilməsində Azərbaycan AŞTT-nın Minsk qrupunun həmsədri kimi ABŞ-ın və şəxsən Prezident Corc Buşun səylərinə ümid bəsləyirdi. Azərbaycan eyni zamanda NATO və ABŞ-ın Kosovoda, Əfqanıstanda və İraqda apardığı əməliyyatlarda iştirak etmək üçün əsgərlər göndərmişdi. Antiterror koalisiyasına qoşulmuşdur».

Dünya mətbuatı İlham Əliyevin hökumət başçısı təyin edilməsini geniş işıqlandırdı. Məsələn, «Los-Anjeles taym» qəzeti yazırdı ki, İlham Əliyevin yeni təyinatı qarşıdakı seçkilərdə mühüm amil olacaq, demokratik reformaların bərqərar olunmasında, həmçinin Bakı-Tbilisi-Ceyhan neft kəmərinin gələcəyində mühüm rol oynayacaq. «Çikaqo Tribün» Dövlət Departamentinin mətbuat katibinin müavini T.Piketin bəyanatını xatırladırdı: «Vaşinqton İlham Əliyevin dövlət başçısı təyin edilməsini Azərbaycan Respublikasının Konstitusiyasına

tamamilə uyğun sayır və yeni rəhbərin başçılığı altında Nazirlər Kabineti ilə əməkdaşlığa ümid bəsləyir».

Republikaya monarxiya təhlükəsi varmı?

Bakıda vəzifə dəyişikliyini Rusiyanın, Fransanın, İngiltərənin, Türkiyənin və başqa ölkələrin mətbuatı işıqlandırıb, şərh etmişdi. İlham Əliyevin baş nazir təyin olunması bütün dünya qəzetlərinin birinci səhifəsində yer almışdı.

İlham Əliyev öz yeni vəzifəsində ilk müsahibələrindən birini «İzvestiya» qəzetinin müxbirinə verdi.

– *Sizə necə müraciət etmək lazım olduğunu bilirik. Bununla belə, Azərbaycan mətbuatını əsas götürsək, onda Sizə zati-aliləri, hətta əlahəzrət deyə müraciət etməliyik. Biz çaşbaş qalmışıq...*

– Sağ olun. Mən belə başlanğıca hazır idim. Musaidənizlə deyim: mən şahzadə deyiləm, mən respublikanın vətəndaşıyam. Xüsusən də, kral deyiləm. Mən Azərbaycan adlı respublikaya mənsubam. Həmvətənlərimin huquqları kimi, mənim də huquqlarım Azərbaycan Respublikasının Konstitusiyası ilə qorunur. Mən bunu əziz tuturam.

– *Sizi bu vəzifəyə atanız təyin etmişdir. Bu qərarı düzgün hesab edirsinizmi?*

– Üzr istəyirəm, mənim hüquqlarım nə üçün məhdudlaşdırılmalıdır? Yalnız ona görə ki, mənim atam prezidentdir? Prezident qərar qəbul etdi, mən də razılaşdım. Hətta belə deyərdim: mən dövlətimizin başçısının qərarına tabe oldum.

– *Bu, atanın oğula xahişi idi?*

– Xeyr. Bu, Azərbaycan Respublikası Prezidentinin qərarı idi.

– *Mövzunu qurtaraq. Qarşıda nə var? Respublika üçün monarxiya təhlukəsi varmı?*

– Bir daha deyirəm, mən qanuna tabe olan vətəndaşam. Mən ölkənin qanunlarına tabeyəm. Belə cavab verim: mən çalışacağam ki, Azərbaycanda anarxiya olmasın.

– *Sizin indiki təyinatınız o deməkdirmi ki, Siz ölkənin gələcək prezidentisiniz?*

– Azərbaycanda prezident Heydər Əliyevdir. Atamın tənqidçiləri bu günlər ərzində dəfələrlə ən qorxulu şayiələr yaymışlar. Canlı və mənən güclü iradəyə malik bir insanı elə

hey məzara gömmək istəyirlər. Bu vicdansızlıqdır. Bu mənə çox ağır təsir bağışlayır. Müxalifətin nümayəndələri hətta Klivlendə gedib yəqin etmək istəyirlər ki, görsünlər, atam doğrudanmı oradadır. Nə etməli, bu həyasızlığa dözmək lazım gəlir. Həmvətənlərimin belə etməsi mənə ağır gəlir. Vəssalam. Mən bu mövzuda daha danışmayacağam.

Avqustun 9-da İlham Əliyev Rusiya televiziyasının «Vesti» proqramına məxsusi müsahibə verdi. Hər şeydən əvvəl o, Azərbaycan Prezidenti Heydər Əliyevin səhhəti barədə danışdı. Həkimlərin məlumatına istinad edərək bildirdi ki, hal-hazırda müayinə davam edir və nəticələr kafi qiymətləndirilir. Üstəlik də həkimlər deyirlər ki, onun tam müalicə kursu keçməsi vacibdir.

– Azərbaycan Prezidenti Heydər Əliyevin səhhəti normaldır, – İlham Əliyev sözünə davam etdi. – Mən bir neçə saat qabaq ölkəmizin Prezidentini müşayiət edən şəxslərlə danışmışam. Hər şey qaydasındadır, onun sağlamlığı tamamilə normaldır. Bu gün Klivlend xəstəxanası Prezidentin sağlamlığı barədə rəsmi açıqlama verib. O açıqlamada vurğulanıb ki, bir sıra problemlərlə yanaşı, çox pozitiv irəliləyiş də var və ona görə də biz ümid bəsləyirik ki, yaxın günlərdə cənab Prezident tamamilə sağalacaq və Vətənə qayıdacaq.

Özünün də iştirak edəcəyi seçkilər ərəfəsində Azərbaycandakı vəziyyətlə bağlı suala İlham Əliyev belə cavab verdi.

– Təəssüflər olsun ki, bizim müxalifət on illər ərzində heç bir tərəqqiyə nail olmayıb; nə öz dünyagörüşlərində, nə də siyasi mübarizə formaları axtarışlarında; cüzi olsa da, xalqın dəstəyini qazana bilməyiblər. İndi mənim baş nazir vəzifəsinə təyin olunmağım müxalifət rəhbərlərini şok vəziyyətinə salıb. Onlar hesab edirdilər ki, Prezident Heydər Əliyevin xəstəliyi ilə əlaqədar olaraq, – onlar fikirləşirdilər və cəhd etmək istəyirdilər ki, aparıcı komandada fikir ayrılığı yaratsınlar. Ancaq həmişə olduğu kimi, onlar yenə də yanılmışdılar. Parlamentdə mənə göstərilən böyük etimad, yekdil rəy bir daha sübut etdi ki, Azərbaycanda yalnız Heydər Əliyevin tam komandası var və bu komanda onun siyasətini bu gün də, sabah da həyata keçirməyə qadirdir.

İlham Əliyev həm də açıqladı ki, Azərbaycan xarici investorlar üçün cəlbedici məkan olaraq qalır və fəaliyyət şansı artıq Azərbaycan iqtisadiyyatına öz bəhrəsini verir.

– Qarşıdakı üç ildə Azərbaycanın neft sektoruna 9 milyard dollar investisiya qoyulacaq. Əgər nəzərə alsaq ki, 5-6 milyard dollar artıq sərmayə kimi qoyulub, onda görərik ki, Azərbaycanda adam başına xarici investisiya qoyuluşu dünyada ön sıralardan birini tutur.

Rusiya-Azərbaycan əlaqələrindən danışan İlham Əliyev qeyd etdi:

– Biz indi ölkələrimiz arasındakı ikitərəfli əlaqələrin səviyyəsindən çox razıyıq. Təəssüf ki, yüksək səviyyədə qarşılıqlı əlaqələr yaratmaq mümkün deyildi, amma Sizə deməliyəm ki, Vladimir Putın prezident seçiləndən sonra ikitərəfli əlaqələrimiz yeni impuls alıb, xüsusən də rəsmi görüşlərdən və aparılan danışıqlardan, xüsusən də bizim Prezidentin Dövlət səviyyəsində Rusiyaya səfərindən sonra. Biz böyük məsələlər spektrində geniş söhbətlər aparmışdıq və artıq praktiki nəticələr əldə etməyə başlamışıq.

Yeni baş nazirin yaşını yada salaq: qırx yaş – hələ yaradıcı qüvvənin çiçəklənən çağıdır. Heydər Əliyev bu yaşa qədəm qoyanda Azərbaycan SSR-in Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini təyin olunmuşdu, sonra sədr seçildi. 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi oldu. Oğlu respublika hökumətinə 41 yaşında başçılıq etməyə başladı. Bill Klinton həmin yaşda ABŞ, Vladimir Putin Rusiya prezidenti seçilmişdi, Con Meycor isə həmin yaşda Böyük Britaniyanın baş naziri olmuşdu... Bu siyahını bir qədər də uzatmaq mümkündür.

Kitabın əvvəlində qeyd etmişdik ki, İlham Əliyev oğlaq bürcü altında doğulub; bu bürc altında doğulanların zirvəyə qalxması 41 yaşdan sonraya təsadüf edir. Qoroskopa başqa cür də yanaşmaq, onların şərhlərini lağa qoymaq və ya sirli işarələri üzərində baş sındırmaq da olar, amma insan taleyinin reallıqları ilə onlardan irəli gələn məqamların üst-üstə düşməsinə biganə qalmaq da mümkün deyil.

El arasında deyirlər: «Atasının yerişini yeriyir». Əgər belədirsə, onda bu bəyanatı necə başa düşək? «Mənim komandam yoxdur və olmayacaq da!» Bu kəlmə əslində, klanlara meydan oxumaq idi. Amma prezidentin fəaliyyətdə olan administrasiyasında və eləcə də müxalifət nümayəndələri arasında bu xəbərdarlığı hamı anlamadı.

Respublika hökumətinin başçısı İlham Əliyevin sözlərinə görə, atasının ən etibarlı silahdaşı olan Artur Rəsizadə baş nazirin müavini təyin olundu. İlham Əliyev konstitusuya norma-

ları əsasında yüksək təyinatı qəbul edərək cəmiyyətə anlatdı ki, o, prezident seçkilərində mübarizə aparmağa, dövlət başçısı, prezident olmağa hazırdır.

Şaxta baba xurcunlu opponentlər

Artıq oxucuya məlum olduğu kimi, 1993-1994-cü illərdə Azərbaycanı vətəndaş müharibəsinin alovları bürüməkdə idi. Xalq köməyə Heydər Əliyevi çağırdı. O illərin hadisələrinə «Azərbaycan 1993. Anarxiyadan stabilliyə» və «Azərbaycan 1994. Milli dövlətçilik sınaq ərəfəsində» sənədli kitabları həsr olunmuşdur. İkicildliyi Heydər Əliyev düşünmüşdü, amma o bilavasitə İlham Əliyevin iştirakı ilə meydana gəlib. İkinci cild Heydər Əliyevin 80-illiyi ərəfəsində işıq üzü gördü. Prezident bu kitabı varaqlamağa macal tapdı...

Xatırladaq ki, Heydər Əliyevin hakimiyyətə qayıtmasını həmin illərdə hakimiyyət körpücüyünə dürtülmüş diletant və demaqoqlardan ibarət iqtidarın özü də istəmişdi.

«Prezident ölkənin simvoludur. Xüsusilə də Heydər Əliyev kimi Prezident! Onu tənqid edənlərin fəaliyyəti nəticəsində parçalanmaqda olan, uçuruma sürüklənmiş ölkəni xilas edən Prezident!

Müxalifətdəki bu adamlara ən yaxşı cavab bizim praktiki işlərimiz, əməli addımlarımız ola bilər. Əgər geriyə, 1992-ci ilə, bu adamların, müxalifətin hakimiyyətdə olduğu zamankı Azərbaycana baxsanız və bugünkü günlə muqayisə etsəniz, böyük fərq görünəcəkdir», – 2003-cü ildə «Vaşinqton post» qəzetinin müxbirinin suallarına cavab verərkən baş nazir belə demişdi.

«...Özümü məcbur edib, bu adamlara hirslənə bilmirəm. Elə bilirəm ki, belə şeyləri yazanlar insanlığa xas olan son hisslərini də itiriblər. Mən siyasi mübarizəni də, yenidən hakimiyyətə gəlmək istəyini də başa duşə bilərəm, amma hər şey sivil formada olmalıdır. Biz insanıq, başqa məxluq deyilik. Son iki-uc ay muddətindəki müxalifət qəzetlərinə baxsanız, hər gün yalan, təhqir, Prezidentin səhhəti ilə bağlı tamamilə qeyri-etik yazılar görərsiniz».

Jurnalistləri hər şeydən az baş nazirin fəaliyyəti maraqlandırırdı. Onlar Heydər Əliyevin səhhəti barədə suallar verirdi-

lər, ciddi-cəhdlə bilmək istəyirdilər ki, qarşıdakı prezident seçkilərində o, necə iştirak edəcək.

Hərdən olur ki, dövlət başçısının dəyişməsi ilə dövlətin kursu da kökündən dəyişir. Azərbaycanda 2003-cü ildə müxalifət nümayəndələrinin hakimiyyətə qayıdışı geriyə hərəkət kimi də mənalandırıla bilərdi. Azərbaycan demokratik inkişaf yolunu seçmişdi, Rusiya kimi ona da «böyük sarsıntılar» (ifadə P.Stolıpinindir) deyil, açıq, düzgün seçkilər lazımdı! Hakimiyyətin dinc yolla əldən-ələ keçilməsi – siyasi stabilliyin ən mühüm elementidir. Zaman meydanlarda meydan oxuyanların, populist çıxışlarla ortaya atılanların hakimiyyətə gəlməsini yox, köynəyinin rəngindən asılı olmayaraq, səriştəli, ləyaqətli, işgüzar, zəhmətkeş insanlara meydan verilməsini istəyirdi. Ata ilə oğulun, Əliyevlərin qrossmeystersayağı gedişi radikal müxalifətin ssenarisini pozdu.

Belə bir vaxtda çox sarsaq şayiə yaydılar: guya Qərb İlham Əliyevin prezidentliyinə o zaman razılıq verəcək ki, o, hakimiyyətə gələn kimi Qarabağ münaqişəsinin həllində təslimçilik sülhünə razılıq versin, yəni Qərbə boyun əysin.

Bu məsələ ilə bağlı İlham Əliyev müsahibələrinin birində belə demişdir: «Mənim mövqeyimdə heç bir dəyişiklik olmayıbdır. Əgər fikir versəniz, bir neçə ildir bu barədə mən öz fikirlərimi açıq-aydın bildirmişəm və yenə də bildirirəm. Azərbaycanın ərazi bütövlüyü tamamilə bərpa olunmalıdır, işğalçılar Azərbaycanın torpaqlarını azad etməlidirlər. Ondan sonra hər hansı bir sülh müqaviləsindən söhbət gedə bilər. Bu, əsas prinsiplərdir. Biz bu prinsiplərdən geri çəkiləsi deyilik».

İlham Əliyevin rəqibləri onu «varis diktator», gah «qeyriciddi fiqur», gah da «zəif rəqib» adlandırırdılar.

Siyasi elmlər doktoru R.Mustafayev zarafata salıb yazırdı: «Hakim qüvvələr aldadıcı siyasi genişlik yaradıblar, müxalifət ona can atır, özü də Londondan keçmək şərtilə...» Azərbaycandan kənarda yaşayan oxucular üçün izahat verək ki, nə üçün London xatırlanır? Məhz orada – Temzanın dilbər sahilində müxalifət partiyalarının dörd lideri bir araya gəlmişdilər. Dörd gün məsələni çözməyə çalışdılar, lakin yenə də bacarmadılar. Qələbəyə xülyavi ümidlər bəsləyərək protokol imzaladılar ki, kim ikinci tura çıxsa, onu dəstəkləsinlər. Ümidlə yeniyetmələr qidalanır. Siyasətçilər isə, böyük oyunları anlamaqla. London partiyaçıları bununla əsla seçilmirlər.

– Onun tezisi mənim xoşuma gəlir: «Siyasət bilavasitə insanlara xeyir gətirir» – Məşhur politoloq İlham Əliyev haqqında belə deyib: Hər bir siyasətçi yəqin ki, bu tezisi özü üçün seçər.

Bir qədər sonra, İlham Əliyev dövlət başçısı olandan sonra bəyan edəcək: «Mən hər bir Azərbaycan vətəndaşının prezidentiyəm». Aldadıcı vədlərə əsir düşə bilən xalqı, cəmiyyəti duymaq – işin bir tərəfidir. İkinci məsələ çoxmilyonlu cəmiyyətdə hər soydaşı hiss etməkdir, onun həyəcanlarını, qayğılarını, ümidlərini başa düşməkdir.

Elə həmin müsahibədə – müxalifət haqqında kinayəli və gözlənilməz bir haşiyə var: «Onlar 2003-cü ildə gəldilər, çiyinlərində də şaxta babanın uşaqlıq illərindən hamımıza tanış olan hədiyyələrlə dolu xurcunu .

Vaşinqton «Ceymstoun fundeyşn» Araşdırmalar Mərkəzinin analitiki V.Sokor «Yol-Strit-Cornel» qəzetində yazırdı: «Sovet dövlət quruluşu milli seçim olan, Qərb yönümü isə hakim elitanı, əsas müxalifət partiyalarını və əhalini birləşdirən siyasi konsensusa söykənən, transmilli neft şirkətlərinin həqiqətən də populyarlıq qazandığı, İsrailə isə dost münasibət bəsləyən yeganə müsəlman dövlətini göstərin. O ölkəni ki, orada antiterror koalisiyasında iştirak milli maraqların sinonimi̇nə çevrilmiş olsun. Bu, Azərbaycanın, əhalisinin çox qismini şiələr, bir milyardlıq müsəlman aləminin 8 milyon nümayəndəsinin yaşadığı türk ölkəsinin unikal keyfiyyətlər məcmusudur». Məqalə müəllifi belə hesab edir ki, Azərbaycanda seçkilərdən sonra üç ciddi problem həll olunmalıdır.

Birincisi – Bakı-Tiflis-Ceyhan neft kəmərinin Beynəlxalq qurumlar tərəfindən maliyyələşdirilməsi; ikincisi – 1993-cü ildə ermənilər tərəfindən zəbt olunmuş rayonların qaytarılması. Üçüncüsü – Azərbaycana terrorçu infrastruktorların və İslam fundamentalizminin nüfuz etməsinə yol verilməməsi.

«Ölkənin Qərb yönümlü üç əsas müxalifət partiyası və onların liderləri prezident seçkilərində iştirak edəcəklər... Ancaq müxalifətçilər özləri öz əlləri ilə özlərinə ciddi maneələr yaratdılar. Hər üç partiya və onların rəhbərləri 1992-1993-cü illərdə hakimiyyətdə idilər. İctimaiyyətin rəyinə görə, məhz bu illər birmənalı olaraq tənəzzül dövrü kimi səciyyələndirilir». Məhz buna görə məqalə müəllifi oxucuya çatdırır ki, prezident seçkilərində İlham Əliyevin qələbəsi qaçılmazdır.

İlham Əliyevi siyasi opponentlərindən fərqləndirən çoxlu sayda amillər vardı: «Rəqiblərin proqramları barədə mənə heç nə məlum deyildir. Onlar hər seçkilər – prezident və ya parlament seçkiləri qarşısında deyirlər ki, proqramları var, konsepsiyaları var. Amma proqramlarının təkcə üz qabığını göstərirlər. Heç yerdə heç nə demirlər, heç yerdə dərc etdirmirlər. Onların hansısa ciddi konsepsiyalarının olmasına şübhə edirəm».

Müsahibənin təhlili, çıxışlar və İlham Əliyevin bəyanatı bir daha sübut elədi: o, böyük siyasətdə özünün nəzərlər sistemini yaradıb. Baş nazir sadalanan uğurlarla – son beş-on ildə əldə olunmuş nailiyyətlərlə kifayətlənməyib. O, problemi dəqiq qiymətləndirməyi bacarır, qarşıda duran vəzifələri düzgün müəyyən edir.

X fəsil

«MƏN ONA ÖZÜM QƏDƏR İNANIRAM»

«Böyük vədlər vermədən, böyük işlər gör!»
Pifaqor

Seçilmək hüququ

Atasının həyat yolu İlham Əliyevdən ötrü ən parlaq örnəkdi. O, Şərqin və Qərbin, daha öncə isə Azərbaycanın milli dəyərlərindən bəhrələnərək böyüyüb.

«İlham Əliyevin də bütün vətəndaşlar kimi hüquqları var – o cümlədən seçilmək hüququ. Amma mənim oğlum olması, onu heç bir məsuliyyətdən azad etmir» – Heydər Əliyev belə deyib.

Seçkilərdən söhbət düşəndə tez-tez bədnam «inzibati resurslar»dan danışırlar. Amma ümumxalq simpatiyası və məhəbbət resursları da var axı. Nüfuzu, hörməti, içdən gələn məhəbbəti xalq arasında onun valideynləri, babası, nənəsi qazanmışdı.

İlham Əliyev – varlığında yüksək mənəvi ənənələri və əxlaqi dəyərləri daşıyan, Azərbaycanda tanınan, qol-budaq atan bir ocaqda böyüyüb.

Anası Zərifə xanım, qayınanası Aida xanım İmanquliyeva – ilahidən gəlmə analıq, qadınlıq mücəssəmələridir. Onun həyat yoldaşı Mehriban xanım öz valideynlərinin qanıyla qanına hopan yüksək dəyərlər öz yerində, bir an belə xatirəsi qəlbindən çıxmayan qaynanasından görüb-götürüb.

Mehriban xanım İlhama etibarlı dayaq və dəstək olmaqla, sanki «hər bir uğurlu fəaliyyətin arxasında böyük qadın dayanır» fikrini bir daha təsdiqləyir.

Ərini və sonra da oğlunu müstəqil Azərbaycanın başçısı kimi görmək, onlarla yanaşı addımlamaq Zərifə xanıma qismət ola bilərdi... Heyhat, Vətənin yeni tarixinin ən yüksək mərtə-

başında nə ərini, nə də oğlunu görmək ona nəsib olmadı. Əri və oğlu onun son mənzilini diqqətdən kənarda qoymadılar. Ümidləri boy versin, yeri behiştlik olsun.

Əliyevlər – şadlıq öz yerində, bu dünyada qəm-qüssə də çəkməli olublar, bəlkə də keçirtdikləri xoş günlərdən daha artıq qəm-qüssə Heydər Əliyev taleyin bu yazısına da nikbincəsinə yanaşıb: « Mənim həyatımda nə qədər ağır günlərim olubsa, bir o qədər də bəxtiyar çağlarım olub...»

– Jurnalist İlham Əliyevdən soruşdu:

– *Ailənizdə xanımınız, uşaqlarınız Sizin təyinatınızı necə qarşıladılar?*

– Normal qarşıladılar. Yəqin ki, onlar da müəyyən dərəcədə buna hazır idilər, odur ki, üzlərində xüsusi sevinc hissi görmədim. İndi bizim hamımız atamız və babamız barədə düşünürük.

...Mən bu cür həyat tərzini şüurlu surətdə seçmişəm. Mən anlayıram ki, prezidentlərin ailələri, tanınmış adamların ailələri müxtəlif cür olur. Onların qarşısında geniş imkanlar olur. Bəziləri normal həyat tərzi seçir, sakit həyat tərzinə üstünlük verir, bəziləri ölkədən kənarda yaşayır, özlərini orada daha təhlükəsiz, daha yaraşıqlı mühitdə hiss etmək istəyirlər. Bəziləri isə valideynlərinə, onların işlərinə kömək etməyə üstünlük verirlər. Ümumiyyətlə isə, necə yaşamaq bir o qədər vacib deyil, əhəmiyyətlisi odur ki, sən nə iş görürsən və nə cür kömək edirsən? İnsanlar sənin haqqında nə düşünürlər? Sən yeni dövlətin quruculuğu işinə hansı töhfələri verirsən. Ona görə də dediyim kimi, bu seçimi şüurlu etmişəm və bundan heç vaxt heyifsilənmirəm və xoşbəxtəm ki, atamın başladığı işi davam etdirmək mövqeyindəyəm. Ümid edirəm ki, bu işi onunla birlikdə davam etdirəcəyik.

Son 200 ildə Toni Bler Böyük Britaniyanın ən cavan baş naziri olub. «Yaş başlıca şərt deyil, – o deyib. – Başlıcası odur ki, sən işin öhdəsindən gəlməyə qadirsən, ya yox? Hərdən cavan olmaq faydalıdır – bu işə səbirsizlik gətirir... aqillik və təcrübə yaşla gəlir».

ABŞ prezidenti Corc Buş isə özünün «Cavabdeh olduğun iş» kitabında yazır: «Babamın və atamın təcrübəsi məni öyrədib ki, əgər hakimiyyətin fəaliyyət istiqaməti insanın xoşuna gəlmirsə, bununla barışması vacib deyil, – nəsə etmək tamamilə mümkündür». Corc Buş atasının bütün seçki kampaniyalarında iştirak etmişdi: 1988-ci ildə qələbə qazananda da,

1992-ci ildə qoca Buş prezident seçkilərində Bill Klintona uduzanda da.

1993 və 1998-ci illərdə atasının seçki kampaniyalarında iştirak edən İlham Əliyev inamla elan etdi ki, atası 2003-cü ilin seçkilərində də iştirak edəcək.

Sual: Ola bilərmi ki, YAP-ın iki namizədindən biri könüllü olaraq öz namizədliyini geri götürsün və yaxud YAP-dan vahid namizəd kimi Siz seçiləsiniz?

Cavab: Mən hesab edirəm ki, seçkilərdə vahid namizəd kimi Heydər Əliyev iştirak edəcəkdir. Məndə buna tam əminlik vardır. Əsas məsələ odur ki, onun səhhəti buna imkan versin. Mən əminəm ki, səhhəti buna imkan verəcək, həkimlərin rəyi də məhz belədir.

Demokratik dövlətlərdə hakimiyyətin varislik yolu ilə verilməsi prinsip etibarilə qəbahət və eyib sayılmır.

Görkəmli siyasi xadim kimi bütün dünyada məşhur olan, Cəvahirləl Nehru yalnız Hindistanın deyil, bütün dünya siyasətinin aparıcı simalarından idi. Onun qızı İndira Qandi atasının siyasi kursunu mətanətlə davam etdirirdi, Hindistanın nüfuzunu demokratik ölkə kimi möhkəmləndirdi. Onun oğlu Racib Qandi baş nazir oldu. Onun faciəli ölümündən sonra siyasi arenaya dövlət başçısının dul qalmış arvadı Sonya Qandi çıxdı. Pakistanda Bhuttonun qızının, Amerikada ata və oğul Buşların demokratik yolla hakimiyyətə gəlməsini yada salaq. «Hakimiyyətdəki varislik» bu ölkələrin inkişafına əsla mane olmayıb.

* * *

İlham Əliyev özünü gənc nəslin nümayəndəsi sayır. «Mən gənc nəslə ümid bəsləyirəm», – o deyir. Onun siyasi kredosu: güclü hakimiyyət, güclü iqtisadiyyat, güclü dövlət. Onun fikrincə, dünya iqtisadiyyatı qanunları ilə yaşayan Azərbaycanda sivil dövlətçilik ənənələri inkişaf etməlidir. O ki, qaldı müxalifətin «diktatura haqqında» fantaziyalarına, o, birmənalı tərzdə sözünü deyib: «Mənim diktaturaya münasibətim qəti olaraq pisdir. Diktator insandı – amma özünü xalqdan üstün tutan bir insan. O, dünya ictimaiyyətinin fikri ilə hesablaşmır. Diktatoru konkret şəraitlər arenaya çıxarırlar. Lakin sivil cəmiyyətlərdə diktatorların arenaya çıxması qəti mümkün deyil».

Baş nazirin iş günləri.

Baş nazirin seçkiqabağı iş qrafikindən fraqmentlər.

3 sentyabr. Baş nazir İlham Əliyev Böyük Britaniyanın nümayəndə heyətini qəbul etdi. Nümayəndə heyətinin başçısı, Ümumdünya Yahudi konqresinin vitse-prezidenti Lord Caner səmimi qəbul üçün Azərbaycanın hökumət başçısına öz dərin minnətdarlığını bildirdi: «Bizi Sizin ölkənizdə hərarətlə qarşıladılar. Sizi baş nazir kürsüsünə yüksəlməyiniz münasdibəti ilə təbrik etmək istərdim.

Yəqin bizim baş nazir də sizə söyləyəcək ki, bu, əsla asan iş deyil».

4 sentyabr. İlham Əliyev ATƏT-in Minsk qrupunun rusiyalı həmsədri Yuriy Merzlyakovu qəbul etdi. Baş nazir Azərbaycan ictimiyyətinin Minsk qrupunun fəaliyyətindən narazı qaldığını və bu səbəbdən də təəssüfləndiklərini ifadə edərək, diqqəti axır zamanlar problemin həlli istiqamətində Minsk qrupunun faktiki bir iş görmədiyini vurğuladı. İndi heç kimə sirr deyil ki, Azərbaycan ərazisi işğala məruz qalmış bir ölkədir. Baş nazir qətiyyətlə bildirdi ki, nə qədər ki, işğal olunmuş Azərbaycan torpaqları azad olunmayıb, Ermənistanla heç bir bağlantıdan söhbət gedə bilməz. XXI əsrdə Azərbaycanla Ermənistanın MDB, Avropa İttifaqı kimi beynəlxalq təşkilatların bərabərhüquqlu üzvləri olduqları halda, işğalın davam etməsi yolverilməzdir.

5 sentyabr. Xəzər gəmiçiliyinin yeni «Professor Əziz Əliyev» tankeri ilk reysinə çıxır. Baş nazir ekipajı salamlayır, ənənəyə uyğun olaraq, uğurlu yol arzulayır. Gəminin bortuna adı yazılan insan, bütün həyatını öz xalqına həsr edib. İnsanları sağaldıb. Səhiyyə üzrə respublika Xalq Komissarları Sovetinin sədri olub. Böyük Vətən Müharibəsi illərindəki fəaliyyətinə görə bir sıra nüfuzlu təltiflərə layiq görülüb. Gözəl övladlar böyüdüb. Zərifə adlı qızı da həkim olub. Söhbət Zərifə xanım Əliyevadan gedir.

8 sentyabr. Azərbaycanın baş naziri İlham Əliyevin yeni vəzifəsində xaricə – Türkiyəyə ilk rəsmi səfəri. Səfər ərəfəsində o, Türkiyə qəzeti «Səba»ya müsahibə verib. Atasının səhhətindən söz açanda prezidentin ağır vəziyyətdə olduğunu gizlətməyib. Qeyd edib ki, əgər səhhəti Heydər Əliyevə prezident

seçkilərində iştirak etməyə imkan verməsə, o, özü seçkilərə qatılacaq və ən azı seçicilərin 60-65 faiz səsini toplayacaq.

Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanla birgə keçirdikləri mətbuat konfransında o dedi ki, «...mənim ilk səfərim məhz Türkiyəyə olmalı idi və belə də oldu. Bu gözəl ənənə yaşayır və bundan sonra da yaşayacaqdır. ...Mən burada olmağıma çox şadam. Türkiyə mənim üçün əziz bir ölkədir, həyatımın bir hissəsi burada keçmişdir. Mən Türkiyəni özüm üçün ikinci Vətən kimi qiymətləndirirəm. Sizi əmin etmək istəyirəm ki, öz vəzifəmdə və gələcək fəaliyyətimdə ölkələrimizi daha da yaxınlaşdırmaq üçün əlimdən gələni edəcəyəm. Bu bizim strateji xəttimizdir...»

Hökumət nümayəndələri qarşısında çıxış edən İlham Əliyev, atasına qarşı göstərdikləri böyük diqqətə və qayğıya görə Türkiyə dövlətinə və hökumətinə öz adından və həmçinin Azərbaycan xalqı adından təşəkkürünü bildirdi, dərin minnətdarlıq hisslərini ifadə etdi.

Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məqbərəsinə əklil qoyulması ilə başlayan bu rəsmi səfərin əsas məqamları bunlardır. İlham Əliyev xatirə kitabına ürək sözlərini yazdı: «Bütün türk dünyasının böyük lideri, XX əsrin böyük siyasi və ictimai xadimi, Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün ölməz ruhu qarşısında baş əyir, türk xalqına hədsiz məhəbbətimi bildirməkdən şərəf duyuram» *(«İki sahil» qəzeti, 10 sentyabr 2003-cü il).*

Həmişə olduğu kimi, qeyri-rəsmi versiyalar da səslənirdi. Türkiyə mətbuatının materiallarına əsaslanan «Nezavisimaya qazeta» (9 sentyabr, 2003) yazırdı; «Prezident Heydər Əliyevin oğlunun və onun dövlət başçısı postuna ən mümkün varisinin səfəri haqqında rəsmi məlumat bu səfərin prezidentin ağır xəstəliyi ilə əlaqədar olmasını ört-basdır etmək üçündür».

Daha sonra qəzetlərdə oxuyuruq: «Həqiqətən də mahiyyət etibarilə, dövlətin birinci şəxsinin Türkiyəyə bu yarımrəsmi səfəri maraqlıdır. Yalnız bir şey aydındır ki, Ankarada İlham Əliyev Türkiyə prezidenti Necdət Sezərlə və baş nazir Rəcəb Ərdoğanla görüşüblər və iki ölkə arasındakı qarşılıqlı əlaqələri və İraq mövzusunu müzakirə ediblər».

Qeyri-rəsmi mənbələr, bununla yanaşı, təsdiq edirlər ki, Ankarada İlham Əliyev həm də «Gülhanə» ali-hərbi tibb akademiyasının rəhbərliyi ilə görüşüb (görünür, onun yüksək

rütbəli əhatəsi Türkiyə hökumətinin binasında foto və telekameralar qarşısında dayanıb mətbuatın və ictimaiyyətin diqqətini yayındıranda). Bu məlumatları diplomatik dairələrdəki mənbələrinə əsaslanan «Exo» qəzeti yayıb. Verilən məlumata görə, Heydər Əliyevin Türkiyədə müalicəsi müzakirə mövzusu olub. Vurğulanıb ki, Heydər Əliyevin vəziyyəti o dərəcədə ağırdır ki, onu ABŞ-da, avqustun 7-dən müalicə olunduğu Klivlend klinikasında saxlamağın heç bir mənası yoxdur (bu vaxta qədər isə o məhz «Gülhanə»də müalicə olunurdu)...

«Xəstə Prezidentin yerinin mümkün dəyişdirilməsi» ətrafında yaranmış söz-söhbət tez yarandığı kimi, tez də söndü. Müxalifət qəzeti «Hürriyyət»in sayı isə bizə elə gəlir ki, jurnalistika tarixində qara ləkə kimi qalacaq. Bu qəzet özünün birinci səhifəsində Heydər Əliyevin portretini yerləşdirərək dövlət başçısının Türkiyəyə müalicəyə yola düşən gündən, yəni 8 iyuldan qeyb olmasını yazıya alıb. Hətta o yazıda vurğulanıb ki, qeyb olmuş prezident haqqında «inandırıcı məlumat» verənlərə mükafat da vəd olunub. Belə elanları qəzetlər o vaxt çap edirlər ki, polis cinayətkarı, doğmaları və əzizləri isə itmiş insanları axtarırlar. Məsələn, belə yazırlar: «Evdən çıxıb və bir daha geri qayıtmayıb...» Ölkə prezidentinin axtarışını elan edənlərin etikasından, onların necə jurnalist olmasından nə danışaq? Yumşaq desək, bu, tərbiyəsizlikdir. Amma bu da ola bilər ki, həmkarlarımız öz yazılarını müvəffəqiyyət hesab etsinlər.

* * *

Axırıncı dəfə Heydər Əliyev kütlə qarşısına 8 iyul 2003-cü ildə çıxıb. Sonra uzun sürən müalicə kursu başlanıb. Əvvəlcə Türkiyədə, 6 avqustdan isə ABŞ-da, Klivlenddə.

Artıq aydın idi ki, hakimiyyət dəyişikliyi yaxınlaşır. Həmişə olduğu kimi, belə vəziyyətdə opponentlər fəallaşırlar. Prezidentliyə namizəd, «Müsavat» partiyasının lideri İsa Qəmbər təcili olaraq özünü ABŞ-a saldı. Kütlə arasında onun bu səfərini tam nailiyyət kimi dəyərləndirirdilər. Ancaq öz adamlarına aşkarca başqa söz deyirdilər: ABŞ administrasiyası İlham Əliyevi dəstəklədiyinə görə, İsa Qəmbər, guya öz incikliyini gizlədə bilmir.

Əliyevin ətrafındakı adamların həbs olunması barədə şayiələr meydana çıxdı. Yüksək vəzifəli məmurların Azərbayca-

na müəmmalı gəlişindən də dəm vururdular. Həqiqətən də Rusiya prezidenti administrasiyasının rəhbəri «Kremlin boz kordinalı» adını qazanmış (tam haqlı olaraq) Aleksandr Voloşin gəldi.

Görək «Exo» qəzeti bunu necə şərh etdi: «Son on il ərzində Aleksandr Voloşin Rusiya siyasətinin ən nüfuzlu simalarındandır, buna görə də onun Bakıya səfəri ən mühüm səbəblərlə izah oluna bilər. Bununla belə onun dünən verdiyi kütləvi açıqlamalar ən ümumi səciyyə daşıyır. Gündüz Voloşini baş nazir İlham Əliyev qəbul etdi. Jurnalistlərin yanında tərəflər iki ölkənin əməkdaşlığının inkişaf etdirilməsi fikrini söylədilər. Azərbaycanın baş naziri qeyd etdi ki, Azərbaycan və Rusiya arasındakı yaranmış strateji əməkdaşlıq hər iki ölkənin maraqlarına cavab verir. Azərbaycan və Rusiyanın tarixən sıx uzlaşmış və real səmərə verən əlaqələrini bundan sonra da bütün sahələrdə möhkəmlətmək lazımdır. «Azərbaycanla Rusiya arasında son illərdə yaranmış qarşılıqlı əlaqələrin səviyyəsindən biz çox razıyıq», – baş nazir dedi. A.Voloşin də öz növbəsində qeyd etdi ki, Rusiya ilə Azərbaycan arasındakı əməkdaşlığın möhkəm zəmini var və bu zəmin «ümumi tariximiz və iki prezident arasındakı qarşılıqlı anlaşmanın səviyyəsinin yaxşı olmasıdır. ...Rusiya üçün Azərbaycan ən üstünlük verimli tərəf-müqabildir. Azərbaycan bizim üçün yalnız yaxın və doğma deyil, o bizim üçün həm siyasi, həm də iqtisadi baxımdan vacibdir...» – Vladimir Putin administrasiyasının başçısı fikrini belə yekunlaşdırdı. Axşam o, Bakı görüşlərinin nəticələrinə görə mətbuat konfransı keçirtdi. Azərbaycanın baş naziri ilə danışıqların nəticələrindən danışan A.Voloşin bildirdi ki, Yaltada 18-19 sentyabr MDB sammitinin gündəliyinə çıxarılan məsələlər müzakirə olunmuşdur. «Orada İlham Əliyevin Vladimir Putinlə görüşü planlaşdırılıb və bu görüşdə ikitərəfli münasibətlərin bütün spektri nəzərdən keçiriləcək», – Voloşin dedi.

Azərbaycandakı seçkiqabağı vəziyyəti şərh etmək xahişinə Putin administrasiyasının başçısının verdiyi cavab maraqlı oldu.

«Azərbaycanda vəziyyət qabaqcadan aşkar görülə bilən səciyyəlidir», – o dedi. Onun sözlərinə görə, «prezident seçkilərinin iki aşkar lideri var və hər ikisi də Rusiyaya xoşdur. Lakın Voloşin «aşkar liderlərin» adlarını eləcə də çəkmədi».

18 sentyabr 2003. Yalta

Məşhur Livadiya sarayı. 1945-ci ildə burada Yalta konfransı keçirilib. Stalin, Ruzvelt, Çörçill... İndi Livadiyaya MDB dövlətlərinin başçıları toplaşıblar. Azərbaycanı bu sammitdə İlham Əliyev təmsil edir. Bu görüşlərin uzun olmasa da, öz maraqlı məqamlarla dolu tarixi var. Onlardan biri Soçidəki «Boçarov Ruçey» iqamətgahında baş verib.

– Rusiya Federasiyasında Azərbaycan günləri, hətta İlinin necə keçməsinə biz çox şadıq, – Vladimir Putin Ermənistan prezidenti Robert Koçaryanla görüşündə dedi və Robert Sedrakoviç isə nəzakətlə həmkarının səhvini düzəltdi. Putin üzr istəsə də, pərt olmadı:

– Bu yaxşı yanlışlıq oldu! – dedi. – Ümidvaram ki, məlum məsələlərin nizama salınmasında birgə fəaliyyət zamanı bu da kara gələcək.

Hərdən xeyli gülməli olan yanlışlıqlar, çaşmalar böyük diplomatiyanı Boris Nemtsovun ağ şalvarı diplomatik yanlışlıqlar, çaşmalar xronikasını bəzəyən kimi bəzəyir.

Oğul Buş çoxlu yalnış ifadələri ilə «şöhrət»lənmişdi». Onun üçün hətta bir yeni kəlmə də düşünüb tapmışdılar. – «buşizm». ABŞ prezidenti növbəti buşizmlərindən birini 2007-ci ilin mayında ingilis kraliçası II Yelizavetanın şərəfinə təşkil olunmuş qəbulda çıxış edərkən dilinə gətirib. Onun sözlərindən belə anlaşılıb ki, kraliça Böyük Britaniyanı XVIII əsrdən idarə edir və onun yaşı 80-dən bir qədər çox deyil, 200-dən çox olmalıdır. Qarı bu sözdən möhkəm inciyə də bilərdi, amma özünü ələ aldı. Bununla belə Britaniya səfirliyindən təşkil olunmuş vida banketində onun cavabını verib:

– Cənab prezident, mən fikirləşdim ki, tostumu 1776-cı ildə buraya gəldiyimi xatırlatmaqla başlamaq istəyirdim, amma güman edirəm ki, bunu deməyəcəyəm.

* * *

Yaltada İlham Əliyevi xüsusi diqqətlə qarşıladılar. O, Putinlə, Nazarbayevlə, Şevardnadze ilə, Kuçmayla danışıqlar apardı. Ukrayna prezidenti İlham Heydər oğlunu əvvəllər «Foros» adıyla məşhur olan «Zarya» iqamətgahında qarşıladı. Qorbaçovun və Qorbaçovanın ciddi nəzarəti ilə «Foros»u dəbdəbə ilə tikməyə başladılar. Və tikib qurtardılar... Bununla

belə hökmdarların tikib-qurma əyləncəsi ayrıca söhbətin mövzusudur. Nə üçünsə onların hər biri istəyir ki, öz iqamətgahı olsun, özü də sələfininkindən daha dəbdəbəli.

Putin və Əliyev bir sıra məsələləri, o cümlədən Azərbaycanda tamamilə yaxınlaşan prezident seçkilərini müzakirə etdilər. Bu da o söhbətin stenoqramı:

Vladımır Putin: Cənab Baş nazir, Sizi görmək, yenidən və yeni vəzifədə qarşılamaq mənim üçün çox xoşdur. Mən Sizi, ilk növbədə, bu yüksək vəzifəyə təyin olunmağınız münasibətilə təbrik etmək istəyirəm. Əminəm ki, bu, uğurlu seçimdir. Son vaxtlar bizim əlaqələrimizin inkişafı barədə ölkələrimizin ictimaiyyətinə təqdim etməli məsələlər var. İndicə mən ötən il üçün məlumatı nəzərdən kecirdim və gördüm ki, ötən il ölkələrimiz arasında əmtəə dövriyyəsi 70 faiz, bu ilin ilk beş ayında isə 20 faiz artmışdır. Çox yaxşı dinamikadır və ümidvaram ki, Azərbaycan Prezidenti ilə söhbətlərimiz də öz bəhrəsini verir. Sizdən xahiş etmək istəyirəm ki, ilk fürsət düşən kimi, ilk imkan yaranan kimi mənim ən xoş arzularımı Prezidentə yetirəsiniz. Biz ümidvarıq ki, o sağalacaq, hər şey normal olacaqdır. Biz bilirik ki, hazırda Azərbaycan getdikcə genişlənən seçkiqabağı mübarizə şəraitindədir. Lakin ümidvar olduğumu ifadə etmək istəyirəm ki, daxili siyasi proseslər ikitərəfli münasibətlərin inkişafının surətinə təsir göstərməyəcək və o, davam edəcəkdir.

İlham Əliyev: Cənab Prezident, səmimi sözlərə görə çox sağ olun. Mən, ilk növbədə, Prezidentimizin xahişini yerinə yetirmək və Sizə onun ən xoş arzularını çatdırmaq, işinizdə uğurlar dilədiyini bildirmək istərdim. Bizə də çox xoşdur ki, ölkələrimiz arasında münasibətlər bütün sahələrdə dinamik inkişaf edir və siyasi baxımdan da çox yaxşı qarşılıqlı fəaliyyəti var. İqtisadiyyata gəldikdə, qeyd etdiyiniz kimi, əmtəə dövriyyəsi surətlə artır və qarşılıqlı surətdə faydalı olan bir çox layihələr həyata kecirilir. Ancaq deməliyəm ki, münasibətlərimizin belə inkişafına başlıca təkan Sizin Azərbaycana səfərinizdən sonra verilmişdir. Bilirsiniz ki, Rusiya Prezidentinin səfərini Azərbaycanda çoxdan gözləyirdilər və Siz bu səfəri həyata kecirməyi qərara aldıqda, bu səfərdən dərhal sonra hiss etdik ki, bütün istiqamətlərdə çox surətli irəliləyiş yarandı və münasibətlərimiz fəallaşmağa başladı. Biz bunu çox əziz tuturuq. Prezidentimiz dəfələrlə bəyan etmişdir ki, Rusiya Azərbaycan üçün strateji tərəfdaşdır. İndi bu siyasət aparılır və gə-

ləcəkdə də aparılacaqdır. Dövlətlərarası münasibətlərin bütün səviyyələrində yeni uğurlar qazanmağımız, daha yaxından qarşılıqlı fəaliyyət göstərərək ölkələrimizə və xalqlarımıza fayda gətirməyimiz üçün biz özümüzdən asılı olan bütün işləri görəcəyik. Fürsətdən istifadə edərək, Azərbaycan Prezidenti mualicə olunarkən ona göstərdiyiniz qayğıya görə də Sizə öz şəxsi təşəkkürümü bildirmək istəyirəm. Biz bunu yüksək qiymətləndiririk. Bunu Azərbaycanda yüksək qiymətləndirir və həmişə yadda saxlayacaqlar.

Vladımır Putin: Zənnimcə, buna görə təşəkkür etmək lazım da deyildir. Bu, müqəddəs işdir. Təkcə bu məsələlərdə deyil, hər hansı digər məsələlərdə də bizim köməyimizə ümid bəsləyə bilərsiniz. Əgər səfərlər əlaqələrimizə belə kömək edirsə, Sizi Moskvaya işgüzar və ya rəsmi səfərə dəvət etmək istəyirəm. Səfərin formatını yəqin ki, Rusiya Federasiyasının hökuməti ilə razılaşdıracaqsınız...

Ümumi rəyə görə, İlham Əliyevin başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti Dövlətlər Birliyinin bu forumunda çox fəal iştirak etdi. Sammitdə imzalanmış sənədlərdə 2010-cu ildə MDB çərçivəsində azad iqtisadi zona yaradılması, Ümumdünya ticarət təşkilatına və dünya iqtisadiyyatına inteqrasiya məsələləri, həmçinin milli nəqliyyat komplekslərindən istifadənin səmərəliliyini artırmaq, MDB çərçivəsində daha perspektivli layihələrin işlənilməsi barədə söhbət getdi.

Həmin sentyabrda Bakıda Rus mətbuatının V Ümumdünya konqresi keçirildi. Rus dilində mətbuat – qəzetlər və jurnallar bütün dünyada çap olunur. Ona görə də bu tədbirə dünyanın hər yerindən – yaxın və uzaq ölkələrdən nümayəndələrin gəlməsi təbii haldır. Bu nəşrlərin siyasi baxışları fərqli olsa da, onların hamısını Rusiyaya, rus dilinə maraq birləşdirir. Bir çox jurnalistlər və nazirlər Bakıya ilk dəfə idi gəlmişdilər və ona görə də Azərbaycanda rus mətbuatının bolluğunu görəndə heyrətlənirdilər.

– Sizdə rus nəşrləri SSRİ dövründə olduğu qədərdir?

Ev sahibləri bu suala belə cavab verirdilər:

– Yox, bir qədər artıqdır.

Ümumdünya konqresində Rusiya prezidentinin ömür yoldaşı Lyudmila Aleksandrovna Putina iştirak edirdi. Əlbəttə, onun rəsmi proqramı var idi: Şəhidlər Xiyabanında əbədi məşələ gül qoymaq, Bakı Slavyan Universitetində «Moskovskaya

auditoriya» Rusiya tədris-mədəniyyət mərkəzinin işi ilə tanış olmaq, «Ulduz sarayı» Dövlət iqamətgahında Azərbaycanın baş naziri İlham Əliyev və onun xanımı Mehriban Əliyeva ilə görüşmək. İnformasiya agentliklərinin xəbərlərində deyildiyi kimi, İlham Əliyevlə Lyudmila Putina arasındakı söhbətin başlıca mövzusu Azərbaycanda rus mədəniyyəti ənənələrinin və rus dilinin qorunub saxlanılması məsələsi oldu. «Lyudmila Putina Azərbaycanda rus mədəniyyətinə bəslənilən münasibətdən heyrətləndiyini bildirdi».

İlham Əliyev söylədi ki, bir müddət öncə Yaltada Rusiya prezidenti ilə «təkbətək formatda» görüşüblər.

– Azərbaycana rus dili və rus mədəniyyəti yaxşı nə veribsə, hamısını qoruyub saxlamaq çox vacibdi, – baş nazir dedi. Və əlavə etdi ki, 2001-ci ilin yanvarında Rusiya Dövlət başçısının Azərbaycana rəsmi səfərini hələ də hərarətlə xatırlayır. Lyudmila Aleksandrovna xahiş etdi ki, Vladimir Vladimiroviçin və onun ən səmimi diləklərini Heydər Əliyeviç Əliyevə çatdırsın.

Azərbaycanın baş naziri İlham Əliyev konqres iştirakçıları ilə sentyabrın 20-də görüşdü.

– Azərbaycanda rus dilinə, rus mədəniyyətinə, rus mətbuatına münasibət , – o dedi, – bütün dünya xalqları üçün nümunə ola bilər. Konqresin Azərbaycanın paytaxtında keçirilməsi bu günün Azərbaycanı haqqında həqiqətlərin geniş Rusiya ictimaiyyətinə və başqa ölkələrə çatdırılmasına kömək edəcək.

22 sentyabrda Azərbaycanın baş naziri BMT Baş Assambleyasının 58-ci sessiyasında iştirak etmək üçün Nyu-Yorka uçdu. ABŞ prezidentinin təşkil etdiyi banketdə nümayəndə başçıları, qonaqlar Ağ Evin sahibinin baş nazir İlham Əliyevlə necə hərarətlə görüşməsinə, əlini onun çiyninə qoymasına – bu detal çox şeylərdən xəbər verirdi – maraqla diqqət yetirdilər.

* * *

Heydər Əliyev artıq iki aya yaxın idi ki, Klivlenddə müalicədə idi. Klinika qapalıdır, buradan «azadlığa» yalnız tam rəsmi informasiyalar çıxır: Mister Əliyevin sağlamlıq durumu stabildir, reabilitasiya kursu davam etdirilir.

İlham Heydər oğlunun sözlərinə əsaslanan «Nezavisimaya qazeta» yazır ki, o, ABŞ-a çatan kimi Klivlendlə telefon əla-

qəsi saxlayıb, yaxın günlərdə isə atasına baş çəkəcək. *(«Nezavisimaya qazeta», 26 sentyabr, 2003-cü il)* «Oradan yeni xəbərlər çox yaxşıdır. Prezidentin müalicəsi davam edir. Bərpa prosesi uğurla aparılır» – İlham Əliyev belə söyləyib.

Bu mövzunu davam etdirən «Nezavisimaya qazeta» Azərbaycan siyasətçiləri üçün Heydər Əliyevin səhhətinin başlıca məsələ olaraq qaldığını vurğulayır. «Ölkədə hakimiyyət məsələsi ortaya qoyulub. Bununla belə ekspertlərin bir qismi bildirir ki, Azərbaycanda vəziyyət tamamilə Birləşmiş Ştatların nəzarətindədir». «NQ» bu fikirlərin təsdiqi üçün analitik mərkəzlərdən birinin rəhbərinin nəzər nöqtəsinə istinad edib: «Respublika başçısının xəstəliyi haqqında nə dərəcədə kimisə məlumatlandırmaq məsələsini İlham Əliyev deyil, Vaşinqton həll edir. Hətta Prezidentin övladlarının belə bu barədə tam məlumata malik olmaması da istisna deyil».

Bununla belə, bu iddia ətrafında mübahisə etmək olar. Prezidentin ölümü ilə bağlı informasiya bazarı açan «azad» mətbuata görə heyrətlənib xəcalət çəkmək də olar. «Bu həyasızlığa dözməliyik». Bu kəlməni İlham Əliyev öz müsahibəsində söyləyəcək.

23-24 sentyabrda o, dövlət başçıları (Xorvatiya və Pakistan), xarici işlər nazirləri (Türkiyə və İran), ABŞ-ın dövlət katibi Pouellə görüşür.

24 sentyabda İlham Əliyev BMT Baş Assambleyasının 58-ci sessiyasında çıxış edir. Onun atası 1994-cü ilin sentyabr ayında Azərbaycan Dövlətini təmsil edərək bu zalda ilk dəfə nitq söyləmişdi.

İlham Əliyev dünyanın ən nüfuzlu tribunasından nə barədə danışdı?

«Azərbaycanın nümayəndə heyəti bu yüksək kürsüdən beynəlxalq icmanın diqqətini davam edən Ermənistan–Azərbaycan münaqişəsinə dönə-dönə cəlb etmişdir. Təhlükəsizlik Şurasının 4 qətnamə qəbul etməsindən artıq 10 il keçir. Bu qətnamələr erməni işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxmasını tələb edir. Bununla belə, Ermənistan bu qətnamələri saymazlığı ilə beynəlxalq icmaya meydan oxuyur. BMT Təhlükəsizlik Şurası və ATƏT-in Minsk qrupu isə bununla bağlı heç bir adekvat qərar qəbul etmirlər... Azərbaycan heç zaman «mövcud reallıqlar» əsasında həll variantı ilə razılaşmayacaq və torpağının bir qarışını belə heç kimə verməyəcəkdir! Azərbaycanın səbri sonsuz de-

yil və heç kim bundan sui-istifadəyə cəhd etməsin! Məsələnin həll olunmamasına görə məsuliyyət işğalçı Ermənistanın üzərinə düşür, işğalın qurbanı olan Azərbaycanın üstünə yox. Beynəlxalq icmanın tutduğu passiv müşahidəçi mövqeyi yaranmış çıxılmaz vəziyyəti daha da gərginləşdirə bilər».

Haqqın və ədalətin bərpa olunması naminə İlham Əliyev BMT-nin ünvanına tənqidi qeydlərini səsləndirməyi də mümkün saydı: «Həm ATƏT-in Minsk qrupu, həm də BMT-nin Təhlükəsizlik Şurası təcavüzkarın qarşısından geri çəkildilər və bununla öz fəaliyyətlərinin və niyyətlərinin ciddi surətdə davam etdirilməsini şübhə altına aldılar».

Prezidentin vəsiyyəti

1 oktyabr 2003-cü ildə Respublikanın KİV-ləri Prezident Heydər Əliyevin Azərbaycan xalqına müraciətini yaydı. Mühüm tarixi əhəmiyyətini nəzərə alaraq bu sənədi bütünlüklə diqqətinizə çatdırırıq.

«Əziz həmvətənlər, hörmətli Azərbaycan vətəndaşları!

Bu günlərdə mənim Azərbaycan Respublikasına bütövlükdə rəhbərliyimin 34, müstəqil Azərbaycan dövlətinə prezident kimi rəhbərliyimin isə 10 ili tamam olur. Bu illərdə istər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, prezident kimi mənim həyat amalım yalnız sizə – bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.

Azərbaycan xalqı dünyanın ən qabaqcıl xalqları sırasında öz layiqli yerini tutub. Onun zəngin mənəvi aləmi, dünya mədəniyyət xəzinəsinə bəxş etdiyi özünəməxsus töhfələr, sivil dünya dəyərlərinə yiyələnmək qabiliyyəti artıq hamıya məlumdur. Azərbaycanlıların öz əməyi, istedadı ilə bütün sahələrdə dünya xalqları ailəsinə getdikcə daha surətlə inteqrasiya olması indi heç kimi təəccübləndirmir.

Müstəqil dövlətimiz bu gün dünya ölkələrinin ən qabaqcıl təcrübələrindən və dəyərlərindən bəhrələnərək inkişaf edir.

Demokratik cəmiyyət, hüquqi dövlət, insan və vətəndaş haqlarının aliliyi, siyasi pluralizm prinsiplərini rəhbər tutaraq Azərbaycan Avropanın və dünyanın ən qabaqcıl, qüdrətli dövlətləri ilə ciyin-ciyinə fəaliyyət göstərir. Ölkəmiz beynəlxalq aləmdə öz layiqli yerini tutub. İndi dünyanın, regionun və bizi əhatə edən xarici aləmin əsas strateji və qlobal məsələləri bizim rəyimiz, mənafelərimiz nəzərə alınmadan həll edilmir. Bizi tanıyırlar, qəbul edirlər və əsas məsələlərdə bizimlə hesablaşırlar.

Azərbaycanın iqtisadi həyatı yenidən qurulur, yüksək dinamizmlə dirçəlir və inkişaf edir. Ölkə iqtisadiyyatına daxili və xarici kapital qoyuluşu ildən-ilə artır, aqrar sahə, yeyinti və yüngül sənayesi modernləşir, iqtisadiyyatda qeyri-neft sektorunun payı yüksəlir, manatın sabitliyi qorunur, valyuta ehtiyatları artır, yeni-yeni yüksək maaşlı iş yerləri açılır. Bütün bunlar 1994-cü ildən başlayaraq həyata keçirilən yeni neft və iqtisadi inkişaf strategiyasının nəticəsidir. Mən əminəm ki, biz belə davam etsək, qarşıdan gələn bir neçə ildə Azərbaycanda nə bir işsiz, nə bir kasıb insana rast gəlinəcəkdir. Maaşlar, təqaüdlər və insanların ümumi gəlirləri yüksələn surətlə artacaq. Azərbaycan dövləti, iş adamlarımız təkcə ölkəmizdə deyil, xarici aləmdə də ən perspektivli və gəlirli layihələrdə iştirak etmək, investisiya qoymaq imkanına və gücünə malik olacaqlar.

Dövlətimiz getdikcə öz müdafiə qabiliyyətini artırır, hərbi cəhətdən güclənir. Milli ordumuz qabaqcıl təcrübə və texnologiyalara yiyələnir, gənclərimiz həvəslə xidmətə gedirlər.

Bütün bunlar asan başa gəlməmişdir. Keçən dövrdə biz sizinlə birlikdə həm daxildən, həm də xaricdən qaynaqlanan nə qədər təhlükəli irticanın, təxribatın və digər antiazərbaycan aksiyaların qarşısını almışıq, nə qədər çətinliklərə sinə gərmişik. Siz bunları çox yaxşı bilirsiniz.

1988-ci ildən ermənilərin Dağlıq Qarabağda başladıqları avanturist millətçi separatizmin qarşısı Azərbaycan rəhbərliyinin qətiyyətsizliyi üzündən vaxtında alınmadı. 1990-1993-cü illərdə respublikamızda yaranmış siyasi və hakimiyyət böhranından, idarəsizlik və qarmaqarışıqlıqdan istifadə edən Ermənistan ordusu Azərbaycanın torpaqlarını işğal etdi, bir milyondan çox soydaşımızı qacqın və köckün vəziyyətinə saldı. Daxildə ölkə vətəndaşları bir-birinə qarşı silahlı toqquşmaya, qarşıdurmaya təhrik edildi, dövlətimizi və dövlətçiliyimizi məhv etməyə, dağıtmağa nə qədər səylər göstərildi. Biz bütün bunların qarşısını aldıq. Lakin xaos və anarxiya dövründə

Azərbaycanın pozulmuş ərazi bütövlüyünü, qacqın və köckünlərin öz yurd-yuvasına qaytarılması problemini hələ də həll edə bilməmişik. Mən əminəm ki, biz bu məsələni də mütləq həll edəcəyik.

Buna baxmayaraq, bu illərdə xalqımız və dövlətimiz üçün taleyüklu əhəmiyyət kəsb edən məsələləri həll edə bilmişik.

İlk növbədə dövlətçiliyimizin əsasını təşkil edən ictimai-siyasi sabitliyə nail olmuş, milli birlik və qanunların aliliyinə soykənən vətəndaş cəmiyyətinin təməlini qoymuşuq.

İkincisi, hər bir dövlətin, onun yaşamasının qayəsini təşkil edən ölkə iqtisadiyyatını yenidən qurmuşuq, inkişaf yoluna cıxarmışıq.

Üçüncüsü, Azərbaycan xalqının istək və arzularının ifadəsi olan, özünün bütün müvafiq təsisatlarına malik güclü, demokratik dövlətimizi qura bilmişik, onun müstəqilliyinin dönməzliyini təmin etmişik.

Yalnız milli birliyə, ictimai-siyasi sabitliyə malik, iqtisadiyyatı dinamik inkişaf edən, güclü dövlət təsisatları olan, demokratik və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil dövlətlə hər şeyi, o cümlədən ərazi bütövlüyü və digər məsələləri həll etmək olar. Əminəm ki, bu məhz belə də olacaq.

Əziz Azərbaycan vətəndaşları, əziz xalqım!

Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günu və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Bu sahədə görülən işlər sizə məlumdur, lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var. Son vaxtlar səhhətimdə yaranan bəzi problemlər mənə imkan vermir ki, bütün bu başladığım, nəticələrini aydın gördüyüm işləri tamamlayım. Buna baxmayaraq, 2003-cu ilin 15 oktyabrında keçiriləcək prezident seçkilərində iştirak etmək üçün mənim də namizədliyim irəli sürülüb və qeydiyyata alınıb. Yüz minlərlə insan seçki kampaniyasına qoşularaq mənim təbliğatımı aparır. Fürsətdən istifadə edərək bu insanlara, namizədliyimi irəli sürən və dəstəkləyən Yeni Azərbaycan Partiyasının bütün üzvlərinə, digər ictimai-siyasi təşkilatların nümayəndələrinə, elm, təhsil və mədəniyyət xadimlərinə, ziyalılara və mənə dəstək verən bütün Azərbaycan xalqına dərin təşəkkürümü bildirirəm. Ümidvaram ki, tezliklə səhhətimi bərpa edərək Vətənə dönəcək, xalqımla yenidən birlikdə olacağam. İndi isə öz namizədliyimi İlham Əliyevin xeyrinə geri götürürəm.

Üzümü sizə – həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm».

Müraciətnamənin altında tarix qoyulub: 1 oktyabr 2003-cü il. Bu ölçülüb-biçilmiş, qəlbin dərinliyindən gələn ürək sözləri böyük liderin öz xalqına son naməsi oldu. Mahiyyət etibarilə, bu, onun vəsiyyəti, vəsiyyətnaməsidir...

Bu namənin kəlmələri Klivlend klinikasının sakitliyində bir, iki günə «ətə-qana» gəlməyib, o kəlmələr, atasına baş çəkməyə gəlmiş oğlu ilə görüşəndə, söhbətləri axşamdan xeyli keçənə, bəlkə də dan yeri qızaranadək davam edəndə düzümlənib.

Bizə danışıblar ki, Heydər Əliyeviç Naxçıvanda soyuq bir qış gecəsində şair Xəlil Rza Ulutürklə etdiyi çoxdankı söhbəti xatırlamağı sevirdi. Azərbaycanın gələcəyi haqqında söhbət edirmişlər. Xəlil Rza özünə xas manerada – birbaşa soruşub:

– Bizim yolumuz hayanadır, Heydər bəy?

– Mahiyyətimiz Şərq olsa da, yolumuz Qərbədir!...

– Qərb – şər yuvasıdır, nifaq ocağıdır, – şair etirazını bildirib, – Günəş də Qərbdə batır...

Əliyev də eyni obrazlılıqla cavab verib:

– Günəş Qərbdə batır ki, yenidən Şərqdən doğsun.

Palataya ağ xalatlı cavan oğlan girir və özünü təqdim edir:

– Mən növbətçi həkiməm. Soyadım – Ağsaqqaldı.

– Qulaq as, oğlum, bizlərdən hansımız ağsaqqalıq, sən, yoxsa mən?

Prezident gülür. – Və sözünə davam edir. – Bakıda məşhur türk müğənnisi Barış Manço mənim qonağım oldu. Onun mahnıları məndən ötrü çox əzizdi.

Unutma ki dünya fani,
Verən Allah alır canı,
Mən necə unudum səni,
Can bədəndən çıxmayınca.

Bu aqil insan dünyada hər şeydən çox Azərbaycanı sevirdi. Öz Vətənini, öz Odlar ölkəsini, daha cənab filankəs kimi... hakimiyyəti yox. Öz aramızda qalsın, soyad çəkməsək də ötüşmək olar; oxucuya Sovet İttifaqının dağılmasına şahid olan oxucuya, yəqin, söhbətin kimdən getdiyi dərhal məlum oldu. Heydr Əliyev ən yüksək hakimiyyət uğrunda belə ölkəsini, ölkəsinin bütövlüyünü qurban verə bilməzdi. O, bütünlüklə, zəngin intellektini, təşkilatçılıq, başçılıq məharətini respublikanın çiçəklənməsinə, xalqın qorunmasına həsr edib. Elə bu səbəbdən də onu ümummilli lider adlandırırlar. Klivlend şəhərinin klinikasından Azərbaycan xalqına onun tanınmış lideri müraciət etmişdi. Belə liderlər yetirən xalq xoşbəxtdir.

Klivlend gecələri

İndi Bakıda səhər açılır. Xəzərdən Günəş boylanır. İsti günlər arxada qalıb. Çəmənliklərə xal düşüb, çinarın da yarpaqları arasında saralanları var. Dənizkənarı çimərliklər də seyrəlib. Evcanlı xanımlar əncirdən, zoğaldan mürəbbə bişirirlər... Piştaxtalar payız nemətlərinin ağırlığına tab gətirmir: Kəhrəba giləli Abşeron şanısı, bal dadan Kürdəmir yemişi, dünyanın ən ləziz meyvəsi – Göyçay narı...

Ola bilsin ki, artıq Abşeron qumluqlarına ilk yağışlar çiləyib, küləklər budağından qopmuş yarpaqları qovur. Göyün hansı qatından isə durna səsi gəlir. Cənuba uçan durnaların səsi...

Qarabağ xanlığının vəziri, şair Molla Pənah Vaqifin şeiri yada düşür:

Köçəri quşların səfləri görünür, ayrı düşmüş könüllərin kədəri kimi məhzun səsləşmələri eşidilir.

Orada, uzaqlarda, dənizdən əsən külək Prezident Sarayı üstündəki üçrəngli bayrağı dalğalandırır və gözləri önündə canlanan bu mənzərə qəlbini qürurla doldurur. Mavi-qırmızı-yaşıl və aypara içində səkkizguşəli ulduz... Elə bil əfsanəvi Simurq quşunun qanadlarıdır, göylərə şəfəq saçır.

İndi paytaxtda və eləcə də Azərbaycanın bütün şəhərlərində və qəsəbələrində seçkiqabağı plakatlar görünür – onun oğ-

luna və onun özünə – Klivlend Klinikasının pasiyentinə həsr olunmuş plakatlar...

Bir həftə qabaq İlham Əliyev Bakıdan videokassetlər gətirib. Prezident onlara palatada tamaşa eləyib, respublikadakı atmosferi, Vətəndəki əhval-ruhiyyəni öyrənmək üçün oğlunun söhbətlərini dinləyib. Sevimli mahnıların videoyazısı ona fərəh gətirib.

Uşaqlıqdan eşitdiyi tanış mahnılar onu xəyalən doğma diyara, qarış-qarış gəzib dolaşdığı yerlərə aparır.

Ötən il o, Naxçıvana getmişdi, ata yurduna baş çəkmişdi. Həmyerliləri, uşaqlıq, cavanlıq dostları ilə görüşmüşdü. (O səfər haqqında jurnalist Ə.Həsənov «Azərbaycan müəllimi» qəzetində hərarətlə yazıb).

...Bazarda Heydər Əliyev balaca bir çayxananın yanında dayandı: «Cavanlıq vaxtı bura çay içməyə gələrdik...»

Çay gətirdilər. Kimsə dedi ki, kəkotunun incə, xoş ətri gəlir. «Kəkotu yox, kəklikotu*, – o düzəliş verdi. – Gözəl adı var, niyə təhrif edirsən?» Çayın xeyrindən söhbət düşdü. Konfet gətirdilər. «Çayı konfetlə yox, qəndlə içərlər, özü də kəllə qəndlə». Və qəndini çaya batırdı...

Kənardan elə gəlirdi ki, qoca, ağsaqqal adam Naxçıvandan ayrılmaq istəmir. Mehriban, istiləşmiş gözləri ilə hər şeyi özündə yığmaq istəyir. Dağ biçənəklərinin güclə sezilən ətrini gətirən doğma havanı alırdı. Dağlara qədər uzanıb gedən düzənlikdə onun gözləri nə axtarırdı? Bəlkə həmişəlik uçub getmiş uşaqlığını...

Sərhədyanı Araz, çay üzərindəki salxım söyüdlər... Səməd Vurğun necə də gözəl deyib: «Durna gözlü bulaqlardan», «Sakit axan arazları».

Gəncə, Şəki, Şamaxı, Quba, Lənkəran... Hər diyarın öz təkrarolunmaz gözəlliyi var. Qarabağın başı üstünü isə qara buludlar alıb. Sanırsan ki, haradasa dünən gözəl Şuşada böyük Vaqifin Məqbərəsinin açılışı olub.

Lopa-lopa qar tökürdü. Maşınlar Xankəndini (onda Stepanakert idi) keçib Şuşaya tərəf yönəldilər. Görkəmli şair Natəvanın adını daşıyan bulağa çatanda birinci katibin maşını yerində sürüşməyə başladı. Şuşalılar onu əlləri üstündə şəhərə qaldırdılar.

---

* «Kəklik otu» – danışıq dilində, qısaldılmış halda «Kəkotu» da deyirlər.

Qədim Şuşanı İlham ilk dəfə görürdü. Gəncə qala qapısı, görkəmli söz, musiqi, elm xadimlərinin xatirəsini özündə yaşadan ocaqlar, məscidlər, mədrəsə. Möhtəşəm şəhər qala divarları arasındadır. Ətrafdakı dağlar – Kirs, Qırx qız və Sarı baba sanki əbədi keşikdədirlər. Bu da Cıdır düzü – düzənlik sərt sıldırım yamacla bitir. Oradan o tərəfə uçurumun başgicəlləndirici dərinliyi... Bir vaxtlar Vaqif bu yerdə qətlə yetirilmişdi.

25 metrlik ağ mərmərdən məqbərə göylərə dirənir. Şairin xatirəsinə ucaldılmış abidə, onun öz adına layiq son sığınacağı. Bir qədər aralıda digər bir müdrikin – musiqi bilicisi, şair, mədəniyyət xadimi Mir Mövsum Nəvvabın baş daşı. Qədim topxana meşələri xışıldayırdı. Kimin ağlına gələrdi ki, qəsbkarlar Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün heykəllərini güllələyəcək, xanəndə Cabbar Qaryağdıoğlunun, Rəşid Behbudovun, şair Zakirin ev muzeylərini dağıdacaq, Vaqifin müəllimlik etdiyi mədrəsəni yerlə yeksan edəcəklər?!

Heydər Əliyev uzaq Klivlenddə Şuşanın o qarlı gününü xatırlayırdı...

«Hörmətli şuşalılar, – o dedi, – əziz həmvətənlərim! Bu gün biz böyük bir tarixi hadisənin şahidi oluruq. Biz sevimli şairimiz Molla Pənah Vaqifin məqbərəsinin açılışına toplaşmışıq, o öz dərin, lirik heyrətamiz şeirlərində ilham və məhəbbətlə doğma diyarımızı, onun əsrarəngiz gözəlliyini vəsf etmişdir. O, eyni zamanda diplomat idi. Təzada diqqət verin: həssas, incə qəlbli şair və siyasət aləmində manevr edən diplomat.

...Mən bu gün bura ailəmlə gəlmişəm. Şuşa bizim üçün müqəddəs şəhərdir, Şuşa abidələr şəhəridir. Bu diyarın zəngin tarixi ilə bağlı hər bir abidə qayğıkeşliklə qorunmalıdır, qədim tikililər bərpa olunmalıdır».

Mirzə İbrahimov, Bəxtiyar Vahabzadə, Süleyman Rüstəm, Nəbi Xəzri kimi məşhur yazıçılardan və şairlərdən sonra tribunaya «Vaqif bulağı» ədəbi birliyinin üzvü olan cavan şair qalxdı. Onun qara qıvrım saçları, çox keçmədi ki, ara verməyən bəyaz qarın rəngini aldı:

Şuşa, Cıdır düzü... Müqəddəs diyar,
Dağların zirvəsi göylərə çatar,
Burda dağ başında el muzeyi var,
Hər qaya dibindən muğam ucalar.

Gənc şair şeirini oxuyub başa çıxanda Heydər Əliyev soruşdu ki, papaqsız üşümürmü?

– Yox, Siz olan yerdə üşümək olar?!

Sonra həmin cavan şair təklif etdi ki, Sabir, Vurğun, Müşfiq günləri keçirildiyi kimi, Şuşada da hər il Vaqif poeziya günləri keçirilsin.

Artıq 1982-ci ilin yayında Şuşada Vaqif poeziya günləri keçirildi. Bu bütün Qarabağın bayramı idi... Şənliklərdə azərbaycanlı həmkarları ilə yanaşı, İrəvanda, Bakıda, Dağlıq Qarabağda yaşayan erməni ədəbiyyatçıları da iştirak edirdilər.

Onlar Vaqif haqqında, Xalqlar dostluğu haqqında, gözəl Qarabağ haqqında şeirlər oxuyurdular. ...Və o zaman kimin ağlına gələrdi ki, on ildən sonra Şuşa döyüş meydanına çevriləcək? Azərbaycan mədəniyyəti nəhənglərinin güllələnmiş büstlərini qonşu respublikanın alverçiləri metal tullantısı kimi ermənilərdən aldılar və Bakıya gətirdilər. 1942-ci ildə Xarkovu işğal edən faşistlər də Taras Şevçenkonun heykəlini güllələmişdilər. Gülləni böyük Ukrayna şairinin alnına çaxmışdılar. Vəhşilik abidəsi.

Bu kitabın müəlliflərindən biri Şuşa abidələri haqqında – «Güllələnmiş abidələr» adlı povest yazacaq. Hələ sonra da Xocalının dinc əhalisinin qırğını haqqında («Tövbə»)...

Şekspirin «Qış nağılı»nda qəhrəmanlardan biri deyir: «Kafir tonqalda yandırılanlar deyil, insanları tonqallarda yandıranlardır». Bəs Vaqifin məqbərəsini, digər müqəddəs yerləri dağıdanlara nə ad verək?

Şuşada yazıb-yaradan Vaqifin də, Vidadinin də, Qasım bəy Zakirin də «Durnalar» adlı şeiri var.

Bu da Vidadinin şeiri:

Qatar-qatar olub qalxıb havaya,
Nə çıxıbsız asimana, durnalar!
Qərib-qərib, qəmgin-qəmgin ötərsiz,
Üz tutubsuz nə məkana, durnalar?

Təsbeh kimi qatarınız düzərsiz,
Havalanıb ərş üzündə süzərsiz,
Gah olur ki, danə-xuriş gəzərsiz,
Gah düşərsiz pərişana, durnalar!

Ərz eyləyim, bu, sözümün sağıdır,
Yollarınız haramıdır, yağıdır,

Şahin-şonqar sürbənizi dağıdır,
Boyanarsız qızıl qana, durnalar!

Əzəl başdan Bəsrə, Bağdad eliniz,
Bəylər üçün ərməğandır teliniz.
Oxuduqca şirin-şirin diliniz
Bağrım olur şana-şana, durnalar.

Bir baş çəkin dərdməndin halına,
Ərzə yazsın, qələm alsın əlinə.
Vidadi xəstədən Bağdad elinə
Siz yetirin bir nişana, durnalar!

Bu qoşma saz havası Baş Sarıtel üstündə okeanı aşaraq Klivlendə çatdı... Bu nəğmə əriyib gecənin sakitliyinə qarışırdı, soyuq payız səmasında qəmgin durna səsi kimi...

Həkimlər xahiş edirdilər ki, həyəcanlanmasın, iztirablı fikirləri ürəyinə salmasın, ürəyini qorusun... Ah, mister Debeyki, xeyirxah, əzizdən əziz Maykl Debeyki!

Damar şuntlaması onun sinəsində döyünən yorğun ürəyinə kömək eləmişdi, artıq səksən il idi ki, müntəzəm olaraq venalarına qan axıdırdı, damarlarında qanı tənzimləyirdi, zamanın sərt qasırğalarını, sevincini və kədərini, ömür nigarançılığını içində daşıyan yorulmaz əməkçi. Nazim Hikmət yada düşür:

Məgər ürəyimi sağaltmaq olar?
Mənim ürəyimi sağaltmaq?

Klinikada sükut hakimdi, gündüzün səsləri qeybə çəkilib, yad dildə sözlər hecalanır, tibb bacısı onu salamlayır: «Qud moninq, mister Əliyev...», «Qud nayt...» Qürbətdə nə qədər də tənhasan! Zərifə xanımın yeri görünür, nəfəsi, səsi qulaqlarına gəlir: bu xatırlama ağrılarını azaldır: O, son mənzilini doğma torpaqda tapdı, indi rahatca uyuyur və onun məzarı üstündəki abidəsi xalq ziyarətgahına çevrilmiş məzarını ziyarətə gələnləri kədərli təbəssümlə qarşılayır. Doğma torpaq onu öz ağuşuna ad günündə aldı.

«Bu gün mənim üçün əziz, eyni zamanda kədərli gündür. Bu gün Zərifə xanımın ad günüdür. Zərifə xanım mənə bir ömür yoldaşı kimi çox əzizdir. Ona görə ki, keçdiyim həyat yollarında o, mənə dayaq olub... və elə bu səbəbdən də mənim ailə həyatıma səadət gətirib, onu çıraqban edib.

Bu gün mən onun məzarı qarşısında baş əyirəm...

Mən onu bir dəqiqə də olsa unutmamışam və unutmayacağam. Mənim övladlarım da bu ruhda böyüyüblər. Siz bilirsiz, bizim həyatımız çətin etaplardan keçib. Zərifə xanımın həyatdan köçməsi bizdən ötrü Moskvada böyük faciə oldu. Biz onu, o zaman mənim ətrafımda olan yüksək rütbəli həmkarlarımla dəfn etdik. Amma həmişə istəyirdim ki, onun nəşini doğma torpağa qovuşdurum. Və belə bir imkan yarandı və buna görə sonsuz dərəcədə taleyə minnətdaram. Mən özümü ona görə xoşbəxt sayıram ki, həyat yolunu Zərifə xanımla bir yerdə keçmişəm...

Ona görə ki, həyatımda nə qədər ağır günlər olubsa, bir o qədər də xoş günlərim olub... Və bunlardan biri də odur ki, mən vətənimə qayıda bildim və Zərifə xanımın da nəşini vətənə, öz torpağımıza gətirə, atasının yanında dəfn edə bildim. Bu mənim böyük arzum, əhdim idi. Bu da həyata keçdi. Allah bunu mənə qismət etdi».

Taleyə minnətdarlıq... Tale onun oğluna gözəl yar bağışladı. Və ata inandı ki, Zərifə xanım ona necə can yandırırsa, Mehriban xanım da oğluna elə ləyaqətli silahdaş olacaq.

İndi oğlu böyük sınaq qarşısındadır.

Ata xəyalən taleyindən diləyirdi ki, onu Klivlend gecələrində dustaq həyatı yaşamaqdan xilas etsin, o, ululardan ulu Pərvərdigara dua eləyirdi ki, Yer üzündə onun üçün ayrılmış müddəti bir qədər uzatsın... Axı Azərbaycan onu gözləyirdi... Nə qədər işin təməli qoyulmuşdu, lakin tamamlanmamışdı. Nə qədər açılmamış düyünlər, çin olmamış ümidlər, Qarabağ dərdi vardı.

Yaddaşına Çörçilin bir kinayəli etirafı işıq saldı: «Mən o Yaradanımla görüşməyə hazıram. İkinci məsələ: Yaradan necə, mənimlə görüş kimi sərt sınağa hazırdırmı?»

Dodaqlarına xəfif təbəssüm qondu. Ser özünü effektli ifadə etmək istəyib... Yaradana meydan oxumaq? Bu nə demək-di? Bu məsələyə ciddi yanaşsaq, o – Heydər Əliyev – taleyin kritik dəqiqələrində onu təhlükələrdən xilas edən gözəgörünməz qüvvələri, bəxtin iltifatını hiss eləyib... «Etiqadsız insan yoxdur. Mən öz köklərimlə müsəlman etiqadına mənsubam...»

...1943-cü ildə atası dünyasını dəyişəndə, ailə atasız qalanda, o, anası ilə gələcəkdən xəbər verən, insanlara ümid bəxş edən müqəddəs bakılı Mir Mövsüm Ağaya nəzir gətirmişdi.

İllər keçdi. 1998-ci ildə o, artıq prezident kimi Mir Mövsüm Ağa türbəsini ziyarət elədi. Və orada çıxış edərkən dedi

ki, «Bu, bizim xalqımızın inam yeridir, çox zəngin bir ziyarətgahdır. İnsanlar buna etiqad edir, inanırlar. ...Hesab edirəm ki, millətimiz üçün, millətimizi, xalqımızı düzlüyə, saflığa, xeyirxahlığa, əməli salehliyə dəvət etmək üçün belə ziyarətgahlar çox əhəmiyyətlidir».

Və bütün bu əxlaqi qaydalar dövlət orqanlarında xalqa xidmət edən kəslərdə daha çox olmalıdır. «...Respublikaya həqiqətən də rəhbərlik etmək üçün istək azdır. Sən bilməlisən – biliyin, bacarığın, qabiliyyətin, savadın buna çatacaqmı? İkincisi, bunun üçün iradən, xarakterin varmı? Üçüncüsü, idarəetmə təcrübən varmı... Mənəvi cəhətdən zəif, natəmiz, əlüyri adamlar böyük dövlət qulluğunda işləməməlidir...»

Heydər Əliyev həyatının ən böyük mənasını Azərbaycan xalqına, insanlara xidmətdə görürdü. Və İlham Əliyev üçün ən böyük nəsihət bu oldu.

4 oktyabrda İlham Əliyev Amerika senatoru Con Makkeyni qəbul etdi. Qonaq dedi ki, Azərbaycanda baş verən prosesləri ardıcıllıqla izləyir. Və öz həmsöhbətinin uğurlarına rəğbətlə yanaşır. Onun Avropa İttifaqındakı ardıcıl fəaliyyətini, Azərbaycanın beynəlxalq imicinin qaldırılması sayəsində gördüyü işlərdən də xəbərdardır.

Senator İlham Əliyevin qarşıdakı seçkilərdə qələbəsinə əmin idi: «Böyük təcrübəyə malik bir siyasətçi kimi tam əminliklə deyə bilərəm ki, İlham Əliyev kimi liderlərin təşəbbüskarlığı siyasətdə həmişə seçicilərin hörmətini qazanır».

«Mənim bütün həyatım millətin gözü qarşısındadır»

Öz seçkiqabağı kampaniyasına İlham Əliyev televiziya çıxışları ilə başladı. İlk görüşü, atası kimi Azərbaycanda dərin hörmət və nüfuz sahibi olan ziyalılarla keçirtdi. O dedi: «Biz hamımız çox istəyirdik ki, cənab Prezident bu seçkilərdə iştirak etsin. ...Bəlkə də bunu hamıdan çox mən istəyirdim. Amma səhhətində yaranan problemlər buna imkan vermir».

«Heydər Əliyevin siyasətinə Azərbaycanda alternativ yoxdur, – İlham Əliyev deyir və zal isə bunu alqışlayırdı. – Bu siyasət Azərbaycanı anarxiyadan, xaosdan sabitliyə, inkişafa gətirdi».

Seçkilərdən bir neçə ay əvvəl İlham səmimiyyətlə etiraf etmişdi: «Mən fəxr edirəm ki, Heydər Əliyevin oğluyam. Mən bu duyğu ilə erkən yaşlarımdan yaşayıram və bu hiss mənim bütün ömrümdən keçib. Onun haqqında siyasətçi, şəxsiyyət, qeyri-adi qabiliyyətlərə, yüksək insani keyfiyyətlərə malik insan kimi çoxlu sayda kitablar, məqalələr, elmi araşdırmalar yazıblar. Amma məndən ötrü o, ilk növbədə istəkli atadır, övladlarımın babasıdır.

Heydər Əliyevin oğlu olmaq böyük xoşbəxtlikdir və eyni zamanda böyük məsuliyyətdir... Məsuliyyət ilk növbədə ona görədir ki, onun adına layiq olasan. Mən uşaq yaşlarımdan anlayırdım ki, nə isə bir ədalətsizliyə yol versəm, ya nəyisə düz eləməsəm adamlar deyəcək: «Bunu Heydər Əliyevin oğlu törədib». Mənim yanlış hərəkətim mənim atama ünvanlanacaq. Amma mən buna heç zaman yol verə bilməzdim. Həmçinin mənim uğurlarım da Heydər Əliyevin adı ilə bağlıdır. Bəli mən həyatımda nəyə nail olmuşamsa, bu atamın mənə verdiyi tərbiyənin nəticəsidir.

Heydər Əliyev qalibdir. O bütün zamanlarda qələbələr qazanıb və qazanır. Bunu hamı etiraf edir. Ancaq bəziləri heyrətə gəlib soruşurlar ki, o buna necə nail olur? Əlbəttə, bu suala tamamilə müfəssəl cavab vermək olar. Amma belə bir müxtəsər cavab yerinə düşər: «Xeyirxahlıq həmişə qalib gəlir». Heydər Əliyevin qələbəsi ədalətin və həqiqətin təntənəsidir. Həqiqət onun varlığında, təbiətində, naturasındadır...

Heydər Əliyev – xalqın, millətin lideridir, Azərbaycanın simasıdır. Bu gün də Azəbaycanın bir lider kimi ona ehtiyacı var, sabah da olacaq, bir çox illər sonra da bizim ölkəmiz onun rəhbərliyi ilə inkişaf edəcək, güc toplayacaq, öz müstəqilliyini möhkəmləndirəcək, iqtisadi cəhətdən qüdrətli dövlətə çevriləcək.

Mən atamın 70 illiyini xatırlayıram. 10 may 1993-cü ildə o, Naxçıvanda yaşayır və işləyirdi, atamın başına az adam yığılmışdı. Onlar da onun silahdaşları, qonaqlar, mövcud Respublika iqtidarının təzyiqlərindən çəkinməyərək Naxçıvana gələn «Yeni Azərbaycan» partiyasının fəalları idilər. Onların arasında, həmfikirlər, qohumlar və atama qəlbən bağlı olan insanlar vardı. Onlar gəlmişdilər ki, atamın yetmiş illiyini təbrik etsinlər və eyni zamanda Respublika rəhbərliyinin səriştəsiz hərəkətlərinə qarşı açıqca etirazlarını bildirirdilər. O hakimiyyət xalqın etibarını itirmişdi, xalqı uçuruma aparırdı,

Heydər Əliyevin vəzifədən kənarlaşdırılması naminə hətta qorxulu bir addım atmağa, Naxçıvan Muxtar Respublikasını ləğv etməyə belə hazır idilər.

Mən bu arada Türkiyədə yaşayırdım. Naxçıvana maşınla, Ərzurumdan keçərək gəlmişdim. Biz bir neçə gözəl günü bir yerdə keçirtdik. Bu arada heç kimin ağlına da gəlməzdi ki, bir neçə ay keçəcək və mövcud rejim çökəcək. O adamlar ki, Heydər Əliyevi məhv etmək niyyətinə düşmüşdülər, özləri yalvaracaqlar ki, Bakıya gəlsin və onları xilas etsin. Amma Heydər Əliyev Bakıya ona görə gəldi ki, öz xalqını, Vətənini xilas etsin. Əlbəttə, o gün, yəni 10 may 1993-cu ildə biz bu barədə düşünmürdük. Sadəcə atamın ad günündə bir yerdə olduğumuza görə sevinirdik. Biz hamımız o yaz günündə yüksək əhval-ruhiyyədə idik; aydın bahar səmasında gözqamaşdıran günəş parlayırdı. Naxçıvandakı o gözəl may gününü mən heç vaxt unutmayacağam.

Həmyerliləri istəmirdilər ki, Heydər Əliyev Bakıya uçsun. Amma o, söz verdi ki, bir neçə gündən sonra qayıdacaq. Yəqin ki, bu yeganə hal idi ki, o, vədinə əməl etməyib. Amma o, – Naxçıvana dəfələrlə qayıdacaq – Azərbaycan Respublikasının Prezidenti kimi qayıdacaq.

Bu il mənim atamın 80 yaşı tamam olur. Mən xoşbəxtəm ki, bu gün mənim övladlarım; onun nəvələri həyat dərsi keçirlər, bir zamanlar mən atamın yanında keçdiyim kimi».

Oktyabr ayının 1-də İlham Əliyev Neftçaladan, Salyandan Qaradağa qədər uzanan Şirvan milli parkının açılışında nitq söylədi. O, qeyd etdi ki, təbiətin qorunması dövlət əhəmiyyətli işlər sırasındadır. Şairlərin tərənnüm etdiyi ceyran «Qırmızı kitab»a düşüb. Səməd Vurğun isə, dilə düşmüş qoşması ilə həyəcan təbilini çoxdan çalmışdı:

Ovcu, insaf elə, keçmə bu düzdən!
O çöllər qızını ayırma bizdən!
Qoyma ağrı keçə urəyimizdən, –
Qıyma öz qanına boyana ceyran!

– İndi isə neft sektorunda bütün ekoloji tədbirlər görülür və deyə bilərəm ki, burada aparılan işlər ən yüksək dünya standartlarına uyğun şəkildə təşkil olunmuşdur. Mən bunu təsadüfi demirəm. Çünki bilirəm ki, bu ərazidə xarici neft şirkətləri, «Salyan Oyl» neft şirkəti fəaliyyət göstərir. Mən əminəm ki, onlar bütün işlərini, o, cümlədən ətraf mühitin qorunmasını da

dünya standartları səviyyəsində saxlayacaqlar. Başqa cür ola da bilməz. Azərbaycan bizim Vətənimizdir, doğma torpağımızdır və biz bu torpağı qorumalıyıq.

Baş nazir elə həmin gün Neftçala rayonunun «Nərə» balıqartırma zavodunun açılış mərasimində çıxış etdi. Bu müəssisə Heydər Əliyevin təşəbbüsü ilə yaradılmışdı: layihənin həyata keçirilməsinə 8 milyon dollar ayrılmışdı, bunlardan 5,5 milyonu güzəştli kredit kimi Dünya bankında götürülmüşdü, qalan hissəsini isə Respublikanın özü ayırmışdı. Elə həmin gün İlham Əliyev Biləsuvar rayonunda yeni mənzil alanları təbrik etdi. Orada qaçqınlar və məcburi köçkünlər üçün qəsəbə salınmışdı. Xaricdən təcavüz nəticəsində evsiz-eşiksiz qalmış 1560 ailə palatkalardan rahat evlərə köçdü. Onlarla görüşən İlham Əliyev çıxışında dedi:

– Bu gün buraya gələndə bir ailəyə qonaq oldum. Məni çox mehriban qarşıladılar. Mənim arzum var ki, – hesab edirəm, bu hamımızın arzusudur – Cəbrayıla qonaq gəlim. Cəbrayıl işğaldan azad olunandan sonra orada sizin üçün bundan da gözəl evlər tikəcəyik və mən də gəlib sizin qonağınız olacağam. ...Burada dedilər, bu qəsəbə deyil, şəhərdir. Həqiqətən belədir, görün burada nə qədər evlər, məktəblər, tibb məntəqələri, klublar tikilib, yollar salınıb, işıqlar çəkilibdir.

«İşıq çəkilib» – simvolik ifadədir. Daha yaxşı həyata ümid işığı. Çətinliklərin aradan qaldırılmasına, istəklərin doğrulmasına...

– Azərbaycanı çox qısa bir zamanda zəngin dövlətə çevirmək niyyətindəyik və bunu edəcəyik, – oktyabrın 2-də Bakıda, paytaxtın Xətai rayonunda yeni müəssisənin açılışında – Baş nazir dedi. O, sexləri gəzdi, istehsalatla, boruların antikorroziya qatı ilə örtülməsi üçün alman və Amerika avadanlıqları ilə tanış oldu. İlham Əliyev xatırlatdı ki, neft şirkətləri ilə əməkdaşlıq uğurla davam etdirilir. O qeyd etdi ki, əhalinin hər nəfərinə düşən investisiya qoyuluşuna görə Azərbaycan MDB-də və Şərqi Avropada birinci yerlərdən birinə çıxmışdır. O, neft və qaz ixracı üçün nəqliyyat infrastrukturunun perspektivlərindən danışdı. Bu, namizədlərin sevimli mövzusudur.

İlham Əliyev bu sahədə opponentləri üzərində aşkar üstünlüyə malikdir. Ölkədə də, dünyanın işgüzar dairələrində də onu neft biznesinin əla meneceri kimi tanıyırdılar.

«Müxalifət hesab edir ki, biz neftı gələcəyə saxlamalıyıq, onu daxili tələbatı ödəmək üçün çıxartmaq lazımdır... Mən bu-

nu qeyri-uzaqgörən yanaşma hesab edirəm. Əminəm ki, yaxın gələcəkdə Xəzər regionu dünyanın ikinci neft və qaz bazarına çevriləcək və müəyyən mənada OPEK-ə alternativ olacaq. Bazar qanunlarına və perspektivlərinə görə bu tamamilə mümkündür...»

Görün bəzi milli maraq «qoruyucularının necə maraqlı məntiqi var: neft və qazı ölkə ehtiyaclarına lazım olan qədər çıxart, bir ton da, bir kubmetr də artıq olmaz, digər ölkələr isə bu zaman dünya bazarına çıxacaq, dünya iqtisadiyyatına inteqrasiya olunacaq, istehsalı genişləndirəcək, investorlar cəlb edəcək, iqtisadi əzələlərini böyüdəcək. Sən isə bütün dünyadan təcrid olunmuş dağ kəndindəki kimi qapalı təsərrüfatda yaşa. Amma dünyanın ən iri şirkətləri ilə müqavilələrsiz, yeni dəniz neft və qaz yataqlarının işlənilməsi olmasa, nəhəng transmilli layihələr də olmazdı. Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Qars kəmərləri xülya kimi görünə bilərdi. Çoxmilyardlı investisiyalar, gəlir artımı, Neft fondu, bir milyon qaçqının ehtiyaclarına, yaşayış binalarının, mədəniyyət obyektlərinin, müəssisələrin tikintisinə, əmək haqlarının artmasına, minlərlə yeni iş yerlərinin yaradılmasına vəsait olmazdı.

O günlərdə müsahibələrinin birində İlham Əliyevin verdiyi cavablara diqqət yetirək.

Bəziləri deyirlər ki, Azərbaycana daha iradəli, daha güclü lider lazımdır. Sizin barənizdə isə deyirlər ki, xasiyyətiniz Prezidentin xasiyyətindən daha yumşaqdır. Bu belədirmi?

– Mən öz atamın oğluyam. Xasiyyətimdə hər hansı zəif, yaxud güclü tərəfləri axtarmaq lazım deyildir. Düşünürəm ki, Azərbaycan inkişaf yolunu, Dünya Birliyinə, dünya iqtisadiyyatına və dünya siyasətinə inteqrasiya yolunu seçmişdir. İstərdim ki, Azərbaycan, sözun tam mənasında, Avropa məkanının bir hissəsi olsun.

– Deməli, Azərbaycana sərt əl lazım deyil?

– Zənn edirəm ki, indi lazım deyildir. On il bundan əvvəl, beş il bundan əvvəl müstəqilliyimiz üçün təhlükə olanda, cevrilişlərə cəhd göstəriləndə lazım idi. İndi bunların hamısı kecmişdə qalmışdır. Ümid edirəm ki, bunlar təkrarlanmayacaqdır. Yox, Allah eləməmiş, əgər Azərbaycanın dövlətçiliyi, onun müstəqilliyi yenə də təhlükədə olarsa, əminəm ki, onun qarşısını sərt şəkildə almaq üçün bizdə qüvvə tapılacaqdır. Ölkənin müstəqilliyini və ərazi bütövlüyünü qoruyub saxlamaq

ücün qüvvə tapılacaqdır. Lakin ümid edirəm ki, buna ehtiyac olmayacaqdır. *(«İzvestiya» qəzeti, 15 avqust 2003).*

Əziz oxucular, biz sizinlə bilirik ki, Bakı-Novorossiysk və Bakı-Supsa neft kəmərlərinə artıq nəhəng Bakı-Tbilisi-Ceyhan və «mavi yanacağı» Xəzərdən, Gürcüstandan keçərək, Ərzuruma çatdıran qaz kəməri əlavə olunub. 2003-cü ildə bu kəmərlər haqqında gələcək zamanda danışırdılar.

Hələlik isə seçkiqabağı görüşlər davam edir. Oktyabrın 3-də İlham Əliyev İsmayıllı rayonunda oldu. Onunla görüşlərdə 40 mindən artıq adam iştirak etdi. Qarabağ müharibəsi qəhrəmanları və əlillərinin ailələrinə yeni mənzillər verilir. Bir gün əvvəl, oktyabrın 2-də Prezident Heydər Əliyevin Azərbaycan xalqına müraciəti çap olunmuşdu.

«Biz hamımız çox istəyirdik ki, cənab Prezident bu seçkilərdə iştirak etsin. Amma səhhətində yaranan problemlər buna imkan vermir. Buna baxmayaraq – biz daim əlaqə saxlayırıq – bərpa prosesi uğurla davam edir və yaxın gələcəkdə o, Vətənə dönəcəkdir, sizinlə bir yerdə olacaqdır».

Əlbəttə, oğul hər şeyin yaxşı olacağına ümid edirdi.

Qəbələyə gəliş Qaraçay üzərindən qəbələlilərin çoxdan gözlədikləri körpünün açılışına təsadüf etdi. İlham Əliyev Heydər Əliyevin adı ilə bağlı olan quruculuq siyasətindən danışdı: «Təkcə Qəbələ rayonunda qısa müddət ərzində 20-dən çox məktəb əsaslı təmir olunmuş, körpülər salınmış, digər infrastruktur obyektləri yaradılmışdır. Böyük stadion bərpa olunmuşdur... Azərbaycanın digər bölgələrində də buna oxşar proseslər gedir. Bu gün Şamaxı rayonunda (bir gündə üç rayonda – qeyd müəl.) olarkən orada inşa edilən yeni Olimpiya kompleksinin qarşısında seçicilərlə görüşüm olubdur...»

İlham Əliyev həmişəki kimi mənasız vədlərdən, sözçülükdən uzaq idi. Onun çıxışları dinamik, konkret idi. Siyasət Sizin üçün nədir sualına o belə cavab verdi: «Siyasət insanlara xeyir vermək üçün vasitədir». Bütün nəsillərə. Şəhərlilərə də, kəndlilərə də. Və birinci növbədə, əlbəttə, kimsəsizlərə. Ürəyində doğma yurd həsrəti, dağıdılmış məzarların ağrısı olanlara. Haqqın bir anda qələbə çalacağına inanmaq real deyil. Birinci növbədə müharibə və bəlalı illərin qurbanlarını normal yaşayış şəraiti, ev, işlə təmin etmək lazımdır ki, onlar ailələrini dolanışıqla təmin edə bilsinlər və ömrü boyu humanitar yardıma möhtac olmasınlar. Əlbəttə, xeyirxah xarici cənablar,

filantroplar sağ olsunlar, amma gəlin razılaşaq ki, əl açıb dilənərək özünü tam şəxsiyyət, vətəndaş saymaq mümkün deyil...

Görüşlərin birində baş nazir demişdi: «Ən böyük xoşbəxtlik, ən böyük qiymət xalqın səni dəstəkləməsidir. Sizin bugünkü xoş münasibətiniz mənə güc verir. Məni daha da ruhlandırır. Mən buna görə sizə minnətdaram. Sizi əmin edirəm ki, etimadınızı doğruldacağam...»

İlham Əliyevin seçkiqabağı səfəri Nizaminin vətənində – qədim Gəncədə başa çatdı. Düz on il əvvəl qardaş qarşıdurmasında qan tökülmüşdü. Müqəssirlər cəzalandırıldı. Onları bu gün bağışlamaq olarmı? Prezidentliyə namizəd bu məsələyə seçkilərdən sonra qayıdacağına söz verir.

Bəli, şərait dəyişir, siyasətin aksentləri və imperativləri də dəyişir. 29 dekabr 2003-cü ildə Prezident İlham Əliyev müxtəlif cinayətlərə görə cəza çəkən böyük bir qrup məhbusa amnistiya elan etdi. 17 mart 2004-cü il tarixli növbəti fərmanı ilə dövlət başçısı 2003-cü il 15-16 oktyabrında radikal müxalifət tərəfindən törədilmiş hadisələr zamanı həbs olunanları əfv etdi. Onda 129 nəfər öz ailələrinə qayıtdı. Yeri gəlmişkən, elə həmin fərmanla da Respublikanın Prezidenti ömürlük həbs cəzasına məhkum edilmiş sabiq baş nazir, qiyamçı polkovnik Surət Hüseynovu da əfv etmişdi. Azadlığa çıxandan sonra Surət Hüseynov Heydər Əliyevin məzarının yanına yollandı və üç dəfə məzar önündə baş əydi. Səhvini etiraf etmək belə də olur.

13 oktyabr 2003-cü il. İlham Əliyev 15 oktyabrda olacaq prezident seçkiləri ilə bağlı xarici KİV jurnalistləri üçün mətbuat konfransı keçirtdi. O vurğuladı ki, seçkilər yeni seçki məcəlləsi əsasında keçiriləcək. «Məcəllə çox demokratik sənəddir və beynəlxalq təşkilatların müsbət rəyini almışdır...

Mən vaxtınızı çox almaq istəmirəm, bilirəm ki, sizin mənə suallarınız vardır. Bu suallara cavab verməyə hazıram».

Baş nazir dünyanın ən iri agentlikləri, tele və radiokampaniyalarının, mətbu orqanları nümayəndələrinin suallarını ətraflı cavablandırdı.

İlham Əliyev seçkilərdə kənar müşahidəçi üçün böyük və aydın olan qələbəsi haqqında danışmağı təvazökarlıqdan kənar hesab edərək, bildirirdi ki, namizədlər haqqında seçkiqabağı bəyanatlara görə deyil, konkret işlərinə görə fikir yürütmək lazımdır: «Mən demokratik Azərbaycanın inkişafına verdiyim töhfəmlə fəxr edə bilərəm... Ona görə də mən bu seçkilərə boş

sözlərlə və vədlərlə deyil, hamının gözləri qarşısında olan konkret işlərlə və nəticələrlə gedirəm... Kiminsə boş vədlərə inandığı vaxtlar artıq keçib getmişdir». Oktyabrın 15-dən sonra Azərbaycanda vəziyyət sabit olacaqmı sualına baş nazir belə cavab verdi: «Əminəm ki, sabitlik olacaqdır. Çünki Azərbaycan bir dövlət kimi formalaşmışdır, biz heç kimə qanunları pozmağa imkan verməyəcəyik. Dediyim kimi, seçkilər ədalətli və açıq şəraitdə keçiriləcəkdir».

15 oktyabr 2003-cü il. Yeni minillikdə Azərbaycanda ilk prezident seçkiləri. Səkkiz namizəd: İlham Əliyev – baş nazir, Lalə Şövkət Hacıyeva – LDP sədri, Hafiz Hacıyev – Yeni Müsavat partiyasının sədri, Qüdrət Həsənquliyev – Azərbaycan Xalq Cəbhəsi partiyasının birləşdirici qolunun sədri, İsa Qəmbər – «Müsavat» partiyasının başqanı, Etibar Məmmədov – Milli İstiqlal partiyasının sədri, Sabir Rüstəmxanlı – Vətəndaş Həmrəyliyi partiyasının sədri, İlyas İsmayılov – «Ədalət» partiyasının sədri.

Seçkiqabağı monitorinqlər, sorğular İlham Əliyevin şəksiz qalib gələcəyini göstərirdilər.

Proqnozlar düz çıxdı.

Azər-TAC agentliyinin verdiyi xəbərə görə, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev oktyabrın 15-də yerli vaxtla saat 8.30-da (Bakı vaxtı ilə 17.30) Klivlend şəhərinin klinikasında səs verdi.

Bakı şəhəri Səbail seçki dairəsinin 6 saylı seçki məntəqəsi 6 saylı məktəbdə yerləşirdi – buranın İlham Əliyevin doğma məktəbi olduğu oxucuların, yəqin ki, yadındadır. Saat 11.00-da prezidentliyə namizəd İlham Əliyev, həyat yoldaşı Mehriban xanım və qızı Leyla ilə birgə bura səsverməyə gəldi. Güllər, reportyorlar, telekameralar... Bülleteni yeşiyə atandan sonra baş nazir jurnalistlərin suallarını cavablandırır.

Sual: İlham müəllim, seçkilərlə əlaqədar Sizin fikrinizi bilmək istərdik. Seçki kampaniyasına münasibətiniz necədir?

Cavab: Münasibətim çox müsbətdir. Seçki kampaniyası çox uğurla başa çatır. Əminəm ki, bu seçkilər Azərbaycanın xoşbəxt gələcəyi üçün mühüm bir addım olacaqdır. Mən arzu edirəm ki, ölkəmiz qüdrətli, zəngin dövlətə çevrilsin. Azərbaycanda yaşayan hər bir insan normal həyata layiq olsun. Əminəm ki, bu belə də olacaqdır.

Sual: İlham müəllim, ilk addımlarınızı bilmək olarmı?

Cavab: Əgər mənə etimad göstərilərsə, bütün addımlarım – istər ilk, istərsə də sonrakı addımlarım Azərbaycanın dövlətçiliyinin, suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsinə, iqtisadi inkişafa, sosial problemlərin həllinə, xüsusilə daha ağır şəraitdə yaşayanların – qacqınların, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına, Dağlıq Qarabağ probleminin ədalətli və beynəlxalq hüquq normalarına uyğun şəkildə həllinə yönəldiləcəkdir.

Sual: Cənab Əliyev, Siz ilk turda qalıb gələcəyinizə əminsinizmi?

Cavab: Mən özümün və yaxud digər namizədlərin şansını əvvəlcədən qiymətləndirmək istəmirəm və hesab edirəm ki, bu, düzgün deyildir. Heç kimə qabaqcadan nəticələr cıxarmağı məsləhət görmürəm. Lakin demək istəyirəm ki, keçirilmiş seçkiqabağı kampaniya və Azərbaycan vətəndaşlarının mənə göstərdiyi münasibət belə bir əminlik yaratmışdır ki, onlar öz seçimlərini etmişlər və bu seçim seçkilərin nəticələrində öz əksini tapacaqdır.

Elə bu arada müxalifət mətbuatı «sensasiyalı» xəbər yaydı. Guya baş nazir oktyabrın 16-da ölkədən qaçmağa hazırlaşır. «Yeni müsavat» qəzeti 14 oktyabr 2003-cü il sayında yazırdı: «İlham Əliyev Bakıda vertolyot və Rusiyaya məxsus xüsusi təyyarə hazırda saxlayır. Ciddi mühafizə olunan vertolyot və təyyarə oktyabrın 16-sı səhər tezdən uçuşa hazırlanacaqlar. İlham Əliyevin həyat yoldaşı və övladlarını təyyarəyə gətirəcəklər. İlham Əliyevi ailəsi ilə birlikdə Moskvanın 35 kilometrliyindəki evə aparacaqlar və mühafizəsini təmin edəcəklər. Sonra isə İngiltərəyə yola salacaqlar».

Ucuz detektivdəki kimi toqquşdurulub.

Hətta seçki günü də «Müsavat» partiyasının üzvləri seçiciləri başqanları İsa Qəmbərə səs verməyə çağırırdılar. Başqan isə bildirirdi ki 60-70 faiz səs yığacaq və Amerikada yaşayan Rəsul Quliyevi artıq baş nazir kimi təqdim edirdi.

Jurnalistin İlham Əliyevin taleyinin necə olacağı barədə sualına başqan belə cavab verdi: «Mən hesab etmirəm ki, ayrı-ayrı vətəndaşların taleyini Prezident müəyyənləşdirməlidir. Vətəndaşların taleyi, bir tərəfdən, onların öz əməlləri ilə, digər tərəfdən Allahın iradəsilə, eyni zamanda həmin adamların yaşadığı ölkənin qanunları ilə müəyyənləşir». İsa Qəmbər özünü artıq dövlət başçısı qismində görürdü: «Mən artıq andiçmə mərasiminə hazırlaşıram, andiçmədən sonrakı konsertə hansı

müğənniləri dəvət edəcəyim barədə düşünürəm». El arasında deyirlər: «Arxı tullan, sonra bərəkallah de».

2003-cü ilin payızında Azərbaycan xalqı öz seçimini etdi. Əliyev İlham Heydər oğlunu öz Prezidenti seçdi. Dünyanın aparıcı dövlətlərinin liderləri onu ürəkdən təbrik etdilər.

RF Prezidenti Vladimir Putinin teleqramında deyilirdi: «Sizin seçkilərdə inamlı qələbəniz göstərdi ki, Azərbaycan xalqı ölkənin inkişafı üzrə Sizin təklif etdiyiniz tarazlaşdırılmış proqramı və Azərbaycanın xarici siyasət xəttini dəstəkləyir». ABŞ Prezidenti Corc Buş seçkilərin şəffaf keçməsini vurğuladı: «Bizim məqsədimiz Azərbaycanla demokratik prinsiplərə söykənən möhkəm və çoxtərəfli əməkdaşlıqdır. Mən Sizinlə – Azərbaycan Prezidenti və Azərbaycan xalqı ilə əməkdaşlığı dərinləşdirməyə çalışacağam». Fransa prezidenti Jak Şirakın teleqramından: «Sizin atanız tərəfindən başlanmış nümunəvi fəaliyyətin davamı olacaq. Sizinlə gələcəkdə əməkdaşlığın fərəhini duyuram. Sizi ötən baharda Parisdə qəbul etdikdən sonra təqviminiz imkan verən ən yaxın zamanlarda Sizi rəsmi səfərlə Parisdə yenidən sevinclə qarşılamağa hazıram». Türkiyə Prezidenti Əhməd Necət Sezər: «Bütün qəlbimlə inanıram ki, dost və qardaş Azərbaycan Sizin rəhbərliyiniz altında tərəqqi və yeniləşmə yolu ilə sürətlə irəliləyərək ölkələrimiz arasında bütün sahələrdə yaxın münasibətlərin gücləndirilməsi və inkişafında beynəlxalq aləmdə nümunə ola biləcək uğurlara imza atacaqdır».

Dövrümüzün böyük sənətkarı Çingiz Aytmatovun bu kitabın müəlliflərinə söylədiklərini də burada veririk.

– Qırğızlarda və Azərbaycanlılarda belə bir müştərək deyim var: «Ot kökü üstündə bitər». Bu, öz təsdiqini Heydər Əliyevin layiqli varisinin yetişməsində də tapmışdır. Azərbaycan xalqı İlham Əliyevi öz Prezidenti seçəndə, mən buna öz xalqımın uğuru kimi sevindim. O çox ağıllıdır, dünyanın nəbzini tuta bilir. Ümumiyyətlə, hakimiyyətə İlham Əliyev kimi siyasətçilərin, ən ali qanunları mənəviyyat olan siyasətçilərin gəlməsi çox yaxşıdır. Onlar öz əməlləri ilə cəmiyyətdə bunu təsdiqləyirlər.

Qırğızıstanın Belçikada və AŞ-kı səfiri Çingiz Torequloviç Aytmatov Brüsseldən göndərdiyi təbrik teleqramında yazırdı:

«Hörmətli İlham Heydəroviç! Azərbaycanın Prezidenti seçilməyinizlə əlaqədar olaraq həm müasirlərinizin çoxsaylı

təbrikləri ilə yanaşı mənim də ağsaqqal təbrikimi qəbul edin. Bu artıq gerçəklikdir. Dünya ictimaiyyəti ümumxalq seçkilərini diqqətlə izləyirdi və demək lazımdır ki, bizim gözləmələrimiz və ümidlərimiz doğruldu, həyata keçdi. Dövlət vəzifəsinin atadan oğula keçməsi kimi vərəsəlik kimi nadir faktı xalqın məhz Sizə necə dərin hörmət bəslədiyini göstərir. Seçilən adam xalqın gözündə mənəviyyatca, aşkar və namusla böyüyəndə, onun siyasi reytinqi onun ictimai fəaliyyəti və şəxsi həyatını müşahidə prosesinin gedişində formalaşanda, məhz belə olur.

Siz millətin bu kimi yüksək münasibətini haqqına qazanmısınız. Şübhəsiz, bununla yanaşı, Siz müasirləriniz və ölkəniz qarşısında məsuliyyətinizi də dərk edirsiniz».

«Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam»

Prezidentin andiçmə mərasimi 31 oktyabrda «Respublika» sarayında keçirilməli idi. Artıq məlum idi ki, təntənə Heydər Əliyevsiz keçəcək: o, uzaq Klivlenddə öz dərsini Azərbaycana, xalqına, oğluna verməklə həyat uğrunda mərdanəliklə mübarizə aparırdı. Deməli, mərasim yüksək səviyyədə bayram ovqatında keçirilsə də, təmkin və ciddiyyət gözlənilməli idi.

«İnaqurasiya» sözünün latınca anlamı «təqdim etmə» deməkdir. Köhnəlmiş dəbdəbəli mərasimlərdən azad olan yeni cəmiyyət, onsuz da önündə xalqla milləti birləşdirən simvolik ənənələrsiz keçinmir. Qədim yunan islahatçısı, qanunvərəni Salon deyib: «Dövləti mərasimlər və qanunverənlər yox, xalqı arxasınca aparmağa qadir olan şəxsiyyətlər irəli apara bilər. Əgər onlar kütləni düz yolla aparsalar, o zaman mərasimlər də, qanunlar da fayda gətirər».

Çağdaş Rusiyada dövlət başçısının öz vəzifəsini tutması, özünün bütün əlvanlığı ilə hakimiyyət təntənəsi Kremldə baş verir. «... Tarixdə ilk dəfə Rusiyada ali hakimiyyət ən sadə, ən demokratik yolla, xalqın iradəsinə uyğun olaraq, sülh yolu ilə əldən-ələ keçir». – Bu fikir Rusiya Federasiyasının ikinci prezidenti Vladimir Putin tərəfindən 7 may 2000-ci ildə andiçmə mərasimində səslənib.

ABŞ-da, hər dörd ildən bir, 20 yanvarda andiçmə mərasimi keçirilir. Və həmişə də açıq səma altında; hava sarıdan Vaşinqtonun bəxti gətirib. Ağ Evin yeni sahibi and içir. Bu andda cəmi 35 söz var. Adətən and içəndə əllərini Amerikanın ilk prezidenti Corc Vaşinqtonun əl basdığı «Bibliya»nın üstünə qoyurlar. Amma seçki kampaniyasının leytmotivi «həmişə sabahı düşünün» mahnısı olan Bil Klinton andiçmə mərasiminə ailə Bibliyasını gətirmişdi.

Mərasimdən öncə İlham Əliyev Şəhidlər Xiyabanını ziyarət etdi, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi, azadlıq uğrunda canlarından keçmiş Vətən oğullarını yad edərək, Əbədi məşəlin önünə əklil qoydu. O, buradan – bu hündür yerdən doğma paytaxtın mənzərəsinə, Xəzər körfəzinə göz gəzdirdi. Onlar atası ilə uca zirvədə dayanıb şəhərə tamaşa etməyi çox sevirdilər...

Ertəsi gün Azərbaycan qəzetlərinin yazdığı kimi «Respublika» sarayında İlham Əliyevin vəzifəyə başlamasını yada salan yalnız oğul və ata Əliyevlərin təsvirləri yapılmış və hələ divarlarda qalmış şəkilləri – reklam plakatları idi: «Stabillik və tərəqqi», «Bizim yolumuz demokratiyadır», «Müstəqilliyimiz əbədidir»...

Andiçmə təntənəsi Orucluq bayramına düşmüşdü. İnanclı insanların duyğularına hörmət olaraq kütləvi gəzinti keçirilmədi, yalnız bakılıların sevimli məkanı dənizkənarı bulvarda atəşfəşanlıq oldu.

«Ramazan ayında yalan danışmaq olmaz: bu günahdı, – bu sözü «İzvestiya» qəzetinin jurnalistinə qocaman bir bakılı dedi. – Və elə bu səbəbdən də «Quran» və Dövlət Konstitusiyası kitablarının arasında dayanmış İlham Əliyevin deyəcəyi sözlər ikiqat məna kəsb edəcəkdi. Və o, deyəcəyi sözləri kağızsız – filansız, hazırlıqsız söylədi. Tərcüməçilər hərdən öz guşələrində çaşıb qalırdılar və bu da ondan irəli gəlirdi ki, heç bir proqramlaşdırılmış çıxış hazırlanmamışdı. Natiq mərasimin əvvəlində bir qədər həyəcanlansa da, hətta zalda əl çalanları öz yerlərində oturmağa dəvət etsə də, onun nitqi bir neçə dəfə gurultulu alqışlarla kəsildi: Xüsusən də o, atasından söz açanda və keçmiş Prezidentə sədaqətli olacağını bildirəndə; söyləyəndə ki, güclü orduya malik olmaq lazımdı; Dağlıq Qarabağ münaqişəsini gündəmə gətirəndə və deyəndə ki, Azərbaycan xalqının dözümü sonsuz deyil...

Azərbaycan Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev dedi ki, Konstitusiya Məhkəməsi Mərkəzi Seçki Komissiyasının protokolunda qeydə alınmış nəticələri təsdiq edib və cənab İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikasının prezidenti seçilib. (Seçkilərdə seçici kimi iştirak edən respublika vətəndaşlarının 76,84 faizi İlham Əliyevə səs vermişdi) Konstitusiya Məhkəməsinin sədri ölkə konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq yeni seçilmiş prezidenti and içməyə dəvət edir.

İlham Əliyevin həyəcanlı olduğunu onun ruhlanmış sifətindən, əl hərəkətlərindən, sərrast addımlarından, son dərəcə şax qamətindən sezmək olar. Diplomatik təlim və təcrübə emosiyaları cilovlamağa kömək edir. O, əlini ölkə Konstitusiyasının üstünə basır: «Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and icirəm!»

Sonra Prezident müqəddəs «Qurani-Şərifə» əl basır: «Əlimi Qurani-Şərifə basaraq and icirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam»

«Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir... Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanır. Beynəlxalq aləmdə Azərbaycan yüksəlir, uğurlar qazanır. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır. İndi Azərbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir».

Həmin gün İlham Əliyev «Gülüstan» sarayında təntənəli qəbulda çıxış edir.

«Bu gün mənim həyatımda çox əlamətdar bir gündur. Azərbaycan xalqının dəstəyi ilə mənə göstərilən böyük etimadın nəticəsində bu gün mən prezident vəzifəsinin icrasına başlayıram....

Düşünürəm ki, bu gün ən çox sevinən və bu günü gözləyən cənab prezident Heydər Əliyevdir. Onun əsəri olan müasir Azərbaycan özünün müəyyən etdiyi yolla gedəcəkdir. Onun

siyasəti yaşayacaqdır və Azərbaycan xalqına yeni qələbələr gətirəcəkdir. Ona görə də mən istəyirəm ilk badəni cənab Prezident Heydər Əliyevin sağlığına qaldıraq, ona uzun ömür, cansağlığı arzulayaq. ...Biz hamımız, bütün Azərbaycan xalqı ona cansağlığı, uzun ömür arzulayır və onun vətənə dönməsini səbirsizliklə gözləyir».

Rusiyanın Federasiya Şurasının sədri Sergey Mironov, Türkiyə baş nazirinin müavini Əbdüllətif Şenər, İranın vitse-prezidenti Məhəmməd Əli Əbtahi, Ukraynanın baş naziri Viktor Yanukoviç İlham Əliyevi təbrikə gəlmişdilər və prezident də onları bu sıra ilə salamladı və dedi ki, onları öz qəlbinə yazdı.

«Yeni yüzilliyin müxtəlif dövlətlərdə yüksək vəzifələrə yeni cavan siyasətçilərin gəlməsi ilə başlaması çox yaxşıdır. Hazırda Siz Heydər Əliyevdən gözəl ölkə almısınız, onu atanız qoruyan kimi qoruyun. Qoy onun adı və müdrikliyi sizin əməlləri nurlandırsın», – «Gülüstan» sarayında təntənəli şam yeməyi zamanı Sergey Mironov İlham Əliyevə dedi. «Mən sizin hamınızı Azərbaycan xalqının bayramı münasibətilə təbrik edirəm. İlham Heydərovic, mən bilirəm ki, Siz valideynlərinizdən çox şey götürmüsünüz, Ukraynanın baş naziri İlham Əliyevə belə deyir. – Onlar Sizə İlham adını qoyanda, yəqin bunu düşünərək etmişlər. Düşünürəm ki, Siz öz xalqınızdan, dostlarınızdan və ailənizdən ilham alacaqsınız. Sizə sülh və bərəkət diləyirəm».

Prezident İlham Əliyev xarici qonaqları salamlayaraq dedi:

«Bu gün Respublika sarayında keçirilmiş andıcmə mərasimində iştirak etmək istəyən insanların hamısı orada iştirak edə bilmədilər. Bilirəm ki, bu gözəl salonda da vətəndaşlarımız iştirak etmək istəyirlər. Əlbəttə, buna imkan yoxdur. Eyni zamanda bilirəm ki, Azərbaycanın müxtəlif yerlərində – Bakıda, digər şəhərlərdə şənliklər keçirilir. Bu gün Bakının Azadlıq meydanında yüz minlərlə insan elə bu vaxt yığışaraq bu günü qeyd edirlər, sevinirlər, bir-birilərini təbrik edirlər, bayram edirlər. Mənim üçün ən böyük xoşbəxtlik məhz bundadır.

Mən hər bir Azərbaycan vətəndaşı üçün prezident olacağam. Milliyyətindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam...»

* * *

Bayram atəşfəşanlığının qığılcımları söndü. Yeni gün başladı. Andiçmə mərasimindən sonrakı ilk müsahibə:

– Bilirsiniz, bu gün mənim üçün əlamətdar bir gündur. Əlbəttə, bir az həyəcanlı idim, gələcək haqqında düşünürdüm, planlar haqqında düşünürdüm. Mənə göstərilən bu böyük etimadı gərək doğruldam.

Gərək mən ümidləri doğruldam. Azərbaycanı xalqın dəstəyi ilə inkişaf etdirəm ki, yaxın zamanlarda respublikamız qüdrətli dövlətə çevrilsin. Gərək Heydər Əliyevin siyasətini davam etdirəm. Qarşımda çoxlu vəzifələr var, çoxlu işlər görmək əzmindəyəm. Bütün bunlar haqqında düşünürdüm. Keçmiş həyatım haqqında düşünürdüm. Bu da təbii idi ki, keçmişdə gördüyüm işlər haqqında düşünürdüm.

Sual: Sizcə, Sizi asan işlər gözləyir, yoxsa çətin?

Cavab: Həm asan, həm də çətin. Asan o mənada ki, artıq Azərbaycanda ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün gözəl zəmin yaranıbdır. On il ərzində Heydər Əliyevin siyasəti Azərbaycanda çox güclü bir təməl qoyubdur. Bu təməlin üzərində gözəl binanın inşa edilməsi asan görünə bilər. Amma eyni zamanda, həyat yerində durmur. Qarşımıza yeni tələblər, yeni vəzifələr çıxır. Əlbəttə, yəqin çətinliklər də olacaqdır. Amma mən bu çətinliklərə hazıram. Əgər mən özümdə belə bir hazırlıq görməsəydim, heç vaxt bu yola getməzdim. Mən məsuliyyətə də, çətinliklərə də hazıram. Əminəm ki, Azərbaycan xalqının dəstəyi ilə qarşıda duran bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəyəm. Demişəm, Azərbaycan xalqı görəcək ki, mən Azərbaycan üçün, xalqımız üçün yaxşı prezident olacağam.

Prezident respublikanın müxalifət partiyaları arasında konsolidasiyanı mühüm nailiyyət hesab etdiyini bildirdi və dedi ki, əsaslı surətdə sosial məsələlərlə, ordu quruculuğu ilə, təqaüdçülərin, veteranların, məcburi köçkünlərin və qaçqınların həyat şəraitinin yaxşılaşdırılması ilə məşğul olmaq başlıca niyyətidir.

Bill Klinton ABŞ-da prezident kimi fəaliyyətə başladığı ilk gün anasını Qızılgül bağçasına aparıb orada demək olar ki, otuz il qabaq dayandığı yeri göstərməklə başladı. O zaman orada prezident Kennedi onun əlini sıxmışdı... Böyük mənası olan diqqətəlayiq epizoddur. Yəqin ki, İlham Əliyev də istərdi

ki, istəkli valideynləri belə şən gündə onun yanında olsunlar. Heyhat! Tale ona belə səadət nəsib etmədi. Ata uzaq Klivlenddə xəstə, ana isə yox...

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya oxucuları üçün ilk böyük müsahibəni «Rossiyskaya qazeta»ya verdi.

– *İlham Heydəroviç, belə inamlı qələbə münasibətilə səmimi-qəlbdən Sizi təbrik edirik.*

– Təşəkkür edirəm.

– *Sizin qələbəniz Prezident Heydər Əliyevin yüksək populyarlığı, güclü inzibati resurslarla, yaxud başqa şeylərlə təmin edilmişdir?*

– Birinci növbədə azərbaycanlıların Heydər Əliyevin seçdiyi yolun varis tərəfindən davam etdiriləcəyinə inamı ilə. İnsanlar gördülər ki, Azərbaycan Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən demokratik islahatlar yolu ilə gedir. Bizdə yeni dövlətin quruculuğunu uğurla inkişaf etdirməyə imkan verən çoxlu qanunlar qəbul olunmuşdur. Bəs bu qanunları kim yaradıb və tətbiq edib? Yenə də Heydər Əliyev və komandası. Mən isə bu komandanın üzvüyəm və azad cəmiyyət və demokratiyanın inkişaf etdirilməsi kursunu davam etdirəcəyəm. Çünki bu birinci növbədə Azərbaycan xalqına lazımdır. Bugünkü Azərbaycan Heydər Əliyevin əsəridir və onun nələr etdiyi haqqında saatlarla danışmaq olar.

– *Sizin atanız əlbəttə, böyük siyasətçidir. Siz onun prezidentliyini necə qiymətləndirirsiniz? Və yeni prezidentin ilk addımları necə olacaq?*

– Heydər Əliyev Azərbaycan xalqının lideridir. Onun bütün ömrü, ölkədə siyasi iqlimin necə olmasından asılı olmayaraq, Azərbaycana xidmət etməyə həsr olunmuşdu. Əgər o, 1993-cü ildə xalqın iradəsiylə Bakıya qayıtmasa və prezident seçilməsəydi, Azərbaycan, yəqin ki, çox dəhşətli çətinliklər və bu gün də yenidən hakimiyyətə iddialı olan o vaxtkı rəhbərliyin məsuliyyətsiz və zərərli siyasətinin nəticələri ilə üzləşərdi. Mən hesab edirəm ki, Azərbaycanın son on ildəki və gələcəkdə siyasəti kiminsə maraqlarından asılı deyil. O, öz dəyərlərinin gözlənilməsinə söykənməli və taleyüklü məsələləri həll etməlidir. Azərbaycan rəqabət meydanı olmamalı, region və dünya miqyasında əməkdaşlıq üçün meydan olmalıdır. Xarici siyasətdə bizim müəyyən verilmiş istiqamətlərimiz yoxdur. Bizim istiqamətlər xarici siyasət fəaliyyətimizin qarşıya qoyulmuş məqsədlərə çatılmasına kömək etməsinə, Azərbaycanın

dünyada mövqeyinin möhkəmləndirilməsinə, həmçinin bütün dünya ilə qarşılıqlı faydalı əməkdaşlıq vasitəsilə bizim iqtisadi inkişafa nail olmağımıza əsaslanır. Və belə demək olar ki, bu, yeni prezident və yeni hökumətin Heydər Əliyevin qoyduğu yolda ilk addımları olacaq. Mən həmişə atama oxşamağa çalışmışam və çalışacağam. Belə bir ailədə doğulduğum üçün taleyimə minnətdaram. Onun prezident kimi fəaliyyəti çoxlarına məlumdur, amma onun şəxsi keyfiyyətlərini – mərdliyini, cəsarətliliyini, ürəyiaçıqlığını və ədalətliliyini az adam bilir. Ən ağır vəziyyətlərdə belə o mərd insan, sözün əsl mənasında mərd insan olaraq qalırdı.

– *Siz kimlərlə işləyəcəksiniz? Tarixdə novator prezident kimi deyil, yalnız Heydər Əliyevin işini davamçısı kimi qalmaq perspektivi sizi narahat etmirmi?*

– Azərbaycanın tarixində belə «novatorlar» olub: onlar rusdilli məktəbləri, Elmlər Akademiyasını, yaradıcılıq ittifaqlarını... bağlamaq istəyiblər. Bütün bu «novatorlara xalqımız qapını göstərib. Mən komandanı dəyişmək fikrində deyiləm. Bu adamlar Azərbaycanın xeyrinə işləyə bildiklərini sübut ediblər.

– *Prezident seçilməyiniz münasibətilə Sizi birinci təbrik edən Rusiyanın Prezidenti Vladimir Putin oldu. Bakının Moskva ilə münasibətləri necə inkişaf edəcək?*

– Bizim əməkdaşlığımızın səviyyəsi çox yüksəkdir. Və biz bundan sonra da Rusiya ilə iqtisadi əməkdaşlığa böyük diqqət yetirəcəyik və bu əməkdaşlığı bütün istiqamətlərdə inkişaf etdirməyə hazırıq. Biz elə layihələr həyata keçiririk ki, bunu keçmişdə təsəvvürə belə gətirmək mümkün deyildi. Bütün bunlar iki ölkə rəhbərlərinin iradəsi sayəsindədir. İki ölkənin rəhbərləri – Heydər Əliyev və Vladimir Putin – arasında əlaqələr, qarşılıqlı anlaşma, siyasi münasibətlərin yaxşılaşdırılması yaxşı iqtisadi nəticələrə gətirdi. Bir onu demək kifayətdər ki, son on ildə Azərbaycanın ÜDM-nun orta illik artımı on faiz təşkil edir. Bunda Rusiya ilə əməkdaşlığın özünün də rolu olmuşdur.

Bu ilin yanvar-sentyabr aylarında ölkə iqtisadiyyatına kapital qoyuluşunun həcmi bütün ötən ilə nisbətən 70,9 faiz artıq olmuşdur. Həmin müddət ərzində xarici investisiyaların həcmi isə 81,2 faiz artmışdır.

– *ABŞ-la münasibətlər necə davam edəcək?*

XI fəsil

VİDALAŞMA

Xalq yalnız sevimli insanı öz yanında saxlayır.
Fyodr Dostoyevski

Klivlenddən qara xəbər

Deyirlər ki, qara xəbər yel kimi qanadlıdır. Qara xəbər okeanı aşdı: 2003-cü il dekabrın 12-dən 13-nə keçən gecə Heydər Əlirza oğlu Əliyev Birləşmiş Ştatlarda – Klivlend xəstəxanasında vəfat etdi.

* * *

Ayın 13-dən, sübh tezdən Bakı küçələri, o cümlədən Azərbaycanın kəndləri, qəsəbələri, bütün şəhərləri matəm lentləri və qərənfillərindən qara-qırmızı oldu. Metro stansiyalarının girişində, çıxışında, avtobuslarda qara lentli bayraqlar dalğalanmağa başladı. Prezident Sarayına doğru insan axını ara vermirdi. Gecəyarıdan sonra, televiziya aparıcısı proqramı dayandırıb Heydər Əliyevin vəfatını bildirən dəqiqələrdən orada pillələrin üstündə ilk şamlar və qərənfillər göründü. Heydər Əliyev bu gülləri çox sevirdi, insanlar da əllərində qərənfil Prezident Sarayına doğru axışırdılar.

Bir neçə ay qabaq o, bu pillələri çox asanlıqla qalxmışdı. O, miskin, gücsüz, qoca ömrü yaşamadı. Onun nazirlərdən birini nə üçün təyin etməməsi lap dilə-ağıza düşmüşdü: «Zirək oğlandı, amma nə üçünsə çox kökdür? Qoy əvvəlcə özünü qaydaya salsın». Həmin adam özünü qaydaya saldı – arıqladı. Və prezident də həmişə olduğu kimi, sözünün üstündə durdu. Və beləliklə də, hakimiyyətdə Əliyevin daha bir «oğulluğu» peyda oldu.

Efirdə matəm musiqiləri səslənirdi. Teleekranlarda, ölkə Prezidenti, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Res-

publika KP MK katibi Heydər Əliyevin həyatından kadrlar göstərilirdi.

Heydər Əliyev həssas seysmoqraf kimi zamanın siyasi axınlarını duya bilirdi. Və onları öz ürəyindən keçirirdi. 1987-ci ilin may ayında artıq bizim qeyd etdiyimiz kimi, onu infarkt vurmuşdu. «Dəhşətli infarkt». Söhbətlərimizin birində bu ifadəni Heydər Əliyevin ünvanına Yevgeni Maksimoviç Primakov işlətmişdi. Bu barədə Yevgeni Maksimoviçə təəssüf ki, bu gün aramızda olmayan arvadı, Kreml klinikasının kardioloq həkimi Laura Vasilyevna danışıbmış. O zaman Əliyevi təqaüdə göndərdilər. «Ancaq o, infarktdan sonra vəziyyətdən çıxdı, – Yevgeni Maksimoviç sözünə əlavə edir, – və elə bu da onun iradəsindən, özünü ələ almaq bacarığından xəbər verir. 13 dekabr 2003-cü ildə – o qara şənbədə Yevgeni Maksimoviç Primakov Moskvadakı Azərbaycan səfirliyinə ona görə gəlmişdi ki, öz böyük dostu ilə vidalaşsın. «Bu insan tarix yaradıb», – Primakov Əliyev haqqında başsağlığı kitabında belə yazıb. «O, elə bir insandır ki, hər bir millətə şərəf gətirə bilər» – Dövlət Dumasının deputatı Sergey Baburinun sözüdür. Bu hüzn kitabında yaddaqalan yazılar çoxdur, amma «dahi», «Azərbaycan xalqının böyük oğlu» sözlərinə daha çox təsadüf olunur.

Sonu üzülməyən insan axını hüznlə Respublika Sarayının divarı önündə qoyulmuş, üstü Azərbaycan bayrağı ilə örtülmüş cənazənin qarşısından keçir. Kimsə için-için ağlayır, kimsə dua eləyir. Hər kəsin qəlbində öz Əliyevi var. Bir qisim onu yalnız televiziya ekranlarında görmüşdü. Bir qisminə onunla görüşmək nəsib olmuşdu, bəziləri də general Vaqif Axundov kimi dünənə qədər onunla işləyirdi.

16 sentyabrda general-leytenantın ad günü idi. Bütün ötən illər ərzində həmin gün prezident onu yanına çağırardı və hərarətlə təbrik edərdi. 2003-cü ilin sentyabrında onlar Klivlenddə idilər. Bir palatada Prezident, qonşu palatada mühafizə, həm Prezidentin, həm də amerikanlıların. General Vaqif Axundov o gün çox şeylər barədə fikirləşə bilərdi, amma ağlına da gəlməzdi ki, Prezident onu yanına dəvət edəcək ki, ad günü münasibəti ilə təbrik etsin.

– Mən Heydər Əliyeviçlə 27 sentyabrda vidalaşdım, – Vaqif Axundov sonralar bizə dedi: – Onun ovqatı çox yaxşı idi, əla görünürdü. Mən onun sağ əlindən öpdüm, sol əlinə sistem qoymuşdular. Məni özünə tərəf çəkib o da məni öpdü.

Dedi: «Tezliklə görüşənədək». «Seçkilər yekunlaşan kimi mən Sizin dalınızca gələcəyəm və biz Bakıya birlikdə uçacağıq» , – mən cavab verdim. Mən İlham Əliyevin təhlükəsizliyini təmin etməli idim, o zaman o, baş nazir idi. Mən Bakıdan Klivlendə zəng edirdim, məruzə eləyirdim, söhbətləşirdik... Bu da bədbəxtlik baş verən gün, dekabrın on ikisi ...

Xarici nümayəndələr vidalaşırlar – Türkiyə prezidenti Əhməd Sezər və baş nazir Rəcəb Tayyib Ərdoğan...

Qazaxıstan prezidenti Nursultan Nazarbayev ayaq saxlayır və cənazənin qarşısında baş əyir.

Rusiya Federasiyasının prezidenti Vladimir Vladimiroviç Putin Bakıya uçmağı, çağdaş dünyanın görkəmli siyasətçisinin xatirəsi önündə baş əyməyi – həm öz adından, həm rusiyalılar, həm də rus xalqı adından başsağlığı verməyi özünə borc bildi.

Bakını tərk edəndə Putin jurnalistlərə müsahibəsində deyəcək: «Mən Heydər Əliyeviçə çox hörmət bəsləyirdim. Mən ona yalnız böyük hörmətlə yox, həm də məhəbbətlə yanaşırdım. O, qüdrətli dövlət xadimi idi. Siyasət qayası – mən bu ifadəni ona şamil edərdim. O, həmişə irəli baxmağı bacarırdı».

Dünyanın hər yerindən Bakıya başsağlığı teleqramları gəlirdi: Berlindən, Vaşinqtondan, Tokiodan. Pekindən.

Hüzn karvanı Prezident Sarayının yanından keçir ...

Yəqin ki, okeanın o tayındakı o uzaq klinikada Əliyev dövlət başçısı postunda onu kimin əvəz edəcəyini bildi və üzündə sevinc təbəssümü parladı...

Heydər Əliyevin cənazəsi top atəşi altında birinci Fəxri Xiyabanda torpağa tapşırılır. Torpaq doğmadı. Və bu doğma torpaq onun son mənzili oldu. Və bu torpaq əsrlərlə Azərbaycan xalqının ziyarətgahı olacaq.

Torpaq içini çəkir və onun ilıq, rütubət qoxusu verən nəfəsi xəzəllərin ətrinə qarışaraq, insan dənizi üzərində dolaşır.

Leyla babasına elegiya həsr etdi

Bir ildən də az vaxt keçəcək. Və 3 noyabr 2004-cü ildə «Prezident Heydər Əliyev» tankeri Xəzərdə ilk reysini başa vurub Bakıya yan alacaq. Onun bortunda 777 ton Qazaxıstan nefti var. 7-nin uğurlu rəqəm sayıldığını nəzərə alsaq, artıq sözə ehtiyac qalmaz!

Tanker Xəzərin azman dalğalarını yara-yara üzürdü, bortunda elə bir insan adı daşıyırdı ki, o insandan ötrü bu işıqlı dünyada bu dənizdən sevimli dəniz olmayıb. Haradasa dəniz yol qovşağında «Dədə Qorqud»la qarşılaşır, sürətlə ötüb keçən fani ömür haqqında bir-iki kəlmə kəsirlər. Bəs bu gəlimli-gedimli dünyada, son üzü ölümlü dünyada nə qalacaq?

Bu sualın cavabını müdrik Qorqud Dədə bilir. O, öz qopuzu ilə nəsillərdən nəsillərə, əsrlərdən əsrlərə yol gəlir, kim yaramazdı, kim cəsurdu – o, hər şeyi bilir, hər şeyi, o, nə deyirsə hasil olur.

– Hanı bəy ərənlər, dünya mənim deyənlər? Əcəl aldı, yer gizlədi, fani dünya kimə qaldı? Gəlimli-gedimli dünya! Son ucu ölümlü dünya!

Anası kimi son dərəcə gözəl Leyla Əliyeva – İlhamın və Mehriban xanımın böyük qızı bizə dedi ki, babası haqqında kitab yazmağa hazırlaşır. Əmindir ki, öz müşahidələrinin, duyğularının süzgəcindən keçirərək babasına həsr etdiyi «Elegiya» kimi, kitabı da gözəl alınacaq.

Ulduzlar pillələr olsaydı bir an,
Ay da nur çiləsə yoluma, göyə.
Üz tutub tezcə mən qalxardım haman,
Səni yer üzünə qaytarım deyə.

Eşitsəydi mənim səsimi külək,
Bilərdin: ağlaram mən için-için,
Necə sızıldayır qəlbim, o, kövrək,
Mehriban səsini eşitmək üçün.

Səsin qulağımda, ürəyimdədir,
Gözümün önündə durur surətin,
Həsrətin aramsız qəlbimi didir,
Sənsizliyə dözmək çətin, çox çətin.

Quşlar bircə anlıq göstərsəydi, mən
Göylərdəki yolu tutub gələrdim,
Sənə yetişməklə məni incidən
Həsrəti köksümdən silə bilərdim.

Sordum avazımış bənizli aydan,
Nədir dərdi onun, niyə qəmlidir?
Bu nə göz yaşıdır, soruşdum çaydan,
Nə üçün buludlar saçını didir?

Dağlar da durublar çiyin-çiyinə,
Ayrılıq onlara yer eyləyibdir,
Dağların saçları ağarıb niyə?
Bu gün o dağlar da sənsizləyibdir.

Əgər ki, cığıra dönsəydi şimşək,
Sən olan yerə mən uçar, qaçardım.
Qəlbimdə gizlənən sirləri, bişəkk,
Üzümdə təbəssüm, sənə açardım.

Birdən çəkilərsə qaranlıq, zülmət –
Qədər özü səni qaytarsa geri,
Sinəmə sıxaram mən səni, əlbət,
Qoymaram tərk edib gedəsən Yeri.

Yaxşılar içində ən yaxşı səndin,
Səni anacağam mən yana-yana.
Bir gün görüşərik, gözləmək çətin
Olsa da gözlərəm, inanıb buna.

XII fəsil

ATA VƏSİYYƏTİ İLƏ

Atanın xidmətləri oğula şamil edilmir.
M.Servantes

«Ayrılarmı könül candan»

Nə üçün tarix başqalarını güclə xatırladığı halda, kralları, şahları, imperatorları, prezidentləri şöhrətə mindirir? Bu sualın yığcam cavabı ilə Puşkinin qeyd dəftərçəsində qarşılaşırıq. Onun şəhadəti ilə Mələikə (II – Yekaterina) deyib: «Yeni bir məsələ ilə məşğul olmaq istəyəndə əmr verirəm ki, arxivlərə baş vurub araşdırsınlar, görsünlər ki, Böyük Pyotr zamanında bununla bağlı nəsə deyilibmi? Və həmişə də məlum olur ki, nəzərdə tutulan məsələ artıq götür-qoy edilib».

Bəşər tarixində belə keyfiyyətləri ilə fərqlənən hökmdarlar çox deyil. Göylər istedadla on illər sonranı görmək və cəsarətlə xalqların taleyini həll edə bilmək bacarığını az-az insana qismət edir. Şübhəsiz ki, tarixin belə böyük seçilmişləri sırasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin öz yeri var. Onun böyük irsini davam və yaradıcı şəkildə inkişaf etdirmək, əlbəttə, yeni yanaşma ilə, İlham Əliyevin öhdəsinə düşdü.

Əlbəttə, onun gördüyü işlər heç də hamının xoşuna gəlməyəcək və bu da cəmiyyət üçün normal haldır: prezident manat, ya dollar deyil ki, hamının xoşuna gələ; o da bütün insanlar kimi səhv edə bilər. Lakin onun tənqidçiləri, opponentləri, bir qayda olaraq oğulun ziyanına ata ilə oğulu müqayisə etməkdə haqlı deyillər. Guya ata xarizmini xatırladan heç nə yoxdur: Bəs bu xarizm nədir və onu nə ilə ölçürlər? Mitinqlərdə alqışlara görə balla? Kütlə arasında populyarlıqla? Bu populyarlıq Bakı küləyi kimi dəyişkəndi.

...Heydər Əliyevin qardaşı akademik Həsən Əliyevin «Həyəcan siqnalı» adlı avtobioqrafik kitabından bir neçə sətiri gözdən keçirək.

«Bahar gəlmişdi. Quşlar səs-səsə vermişdilər. Torpaq oyanmışdı. Babam məni özü ilə əkin yerinə apardı. Məni boyunduruğa oturtdu. Öküzləri hayladı. Xış torpağın dərinliyinə işlədikcə ətrafa xoş ətir yayılırdı. Bu, torpağın qoxusu idi.

Birdən mənim köynəyim yaxınlıqdakı kola ilişdi və mən boyunduruqdan yerə yıxıldım...

Ağlayıb kiriyəndən sonra dedim: «Baba, gəl bu kolu kəsək». Babam heç zaman müşahidə etmədiyim sərt baxışlarla məni süzdü: «Bəyəm, mən kolu əkmişəm ki, indi kəsib tullayam? Mənim balam, bu kolları xeyirxah insanlar əkiblər, bu kollar nə qədər tikanlı olsalar da, bizim torpağın bərəkəti bu kollardan asılıdır, torpağın təmizliyini bu kollar saxlayır...»

Babamın sözünün məğzi-mahiyyəti mənə sonralar çatdı. Mən başa düşdüm ki, bu torpaqlar mənim babamın babasına məxsusdur və kolları da o əkib. Babam bu dilsiz-ağızsız kollara müqəddəs ayə kimi baxırdı».

Bəli, əsl müdriklik – doğma torpağa, təbiətə hormonik münasibətdir. 2007-ci ildə Novruz bayramı ərəfəsində Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Bakı ətraflarındakı boş ərazilərdə şəhər əhli 20 min ağac əkdilər. Heydər Əliyev Fondunun yaşıl layihəsi belə təcəssüm tapdı. «Hərəyə bir ağac əkək!» Çox keçmədi ki, bu qayda ilə əkilən ağacların sayı 100 mini aşdı. Bakı kimi sənaye şəhərinə yaşıllığın nə qədər gərəkli olduğunu söyləməyə ehtiyac yoxdur. XX əsrin əvvəllərində Nobel qardaşları Bakıya regionlardan qara torpaq gətirdilər. Nobel qardaşları 80 min ağac əkdilər, park saldılar; bir qədər sonra isə, o yaşıl məkanı alman antifaşistlərilə həmrəylik əlaməti olaraq «Rotefane» («Qırmızı bayraq») adlandırdılar.

Heydər Əliyev xatırlayırdı ki, cavanlıq illərində yaşadığı həyətdə kimsə, guya qaraj tikintisinə mane olduğu üçün çinar ağacını kəsmək istəyirmiş; çoxmərtəbəli binanın bütün sakinləri ağacın müdafiəsinə qalxıblar və onu kəsməyə qoymayıblar. Bakılılar Əliyevin artıq respublika KP MK-nın birinci katibi olandan sonra Şıx çimərliyi ətrafında, qumsal təpələrdə təşkil olunan iməciliklərə şəxsən gəldiyini yaxşı xatırlayırlar. İndi o yerlərdə zümrüd yaşıllıq göz oxşayır.

Bir kənarında Azərbaycan Qaz emalı zavodu yerləşən yol da yaşıllıqlara bürünüb. Ağaclar şoranlaşmış, mazuta bulaşmış

torpaqlarda boy atdılar. Ona görə ki, onların xidmətində insan durmuşdu – o insan ki, bu torpaq ondan ötrü – Vətəndir; özününküdür. Məsələ yalnız ekologiyada deyil.

Vətən mənə oğul desə, nə dərdim,
Mamır olub qayasında bitərdim.

Məmməd Araz doğma torpaq haqqında belə yazıb.

Hərdən ilk baxışda xırda görünən bir detal da, atmaca da, səsin ahəngi də, jest də bu güclü duyğu haqqında bir kitablıq söz deyə bilər. Məsələn, İlham Əliyevin Sidney Olimpiadasındakı göz yaşları kimi...

Onun böyük atası kənardan baxanda elə bilərdin ki, daşdır. Üzüntülü illərdə, dəhşətli sınaqlar qarşısında o, özünü dözüm mücəssəməsi kimi aparıb. İnsanlar onun kövrəldiyini yalnız iki dəfə görüblər; Zərifə xanımla əbədi ayrılıq anlarında və bir də 1998-ci ildə yenidən müstəqil respublikanın prezidenti seçiləndən sonra keçirilən inaqurasiyada – andiçmə mərasimində. Heydər Əliyev öz hərarətli çıxışını Səməd Vurğunun misraları ilə tamamladı.

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma Vətənimsən!
Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan!

Sonuncu «Azərbaycan» kəlməsini o, xüsusi vurğu ilə dörd dəfə təkrar elədi! Bu təkrarlarda necə böyük məhəbbət əzabı, acılar və əzəmət vardı! Prezidenti qəhər boğdu. Hamı yerindən qalxıb əl çaldı. Bir qədər arxada dayanmış İlham atasına nə isə təqdiredici sözlər pıçıldadı, yüngülcə əlinə toxundu...

* * *

İlham Əliyevin prezidentliyinin yüz günü tamam oldu. Bu hüdud – ilk proqnozlar, ilk analitik nəticələr üçün ənənəvi zaman kəsiyidir; Prezidentin daxili və xarici siyasətini də qiymətləndirmək üçün yetərli vaxtdı.

4 fevralda Azərbaycan paytaxtında Bakı-Tiflis-Ceyhan neft kəməri layihəsinin maliyyələşdirilməsi haqqında sənədlər paketi imzalandı. Bu, dünya miqyaslı hadisə idi.

Prezident Bakı Biznes Mərkəzində respublikanın iş adamları, sahibkarlarla görüşdü. Diqqətlə onların qayğılarını

dinlədi. Onlara dövlət səviyyəsində yüksək dəstək vəd elədi. Prezidentin tapşırığı ilə mütəxəssislər gömrük, vergi və kredit xidmətləri ilə bağlı qanun aktlarında zamanın tələbinə uyğun dəyişikliklər etdilər.

Prezidentin imzaladığı amnistiyanın 168 məhbusa şamil olunması beynəlxalq təşkilatlar və ölkə ictimaiyyəti tərəfindən vacib addım kimi dəyərləndirildi. Və elə o günlərdə İlham Əliyev regional inkişaf haqqında konsepsiya irəli sürdü; yeni iş yerlərinin yaradılması uğrunda tədbirlərə start verildi.

Yeni prezidentin ilk rəsmi səfərlərinin Fransaya və Rusiyaya (aşağıda ətraflı danışarıq) istiqamətləndirilməsi, əsası Prezident Heydər Əliyev tərəfindən qoyulan balanslaşdırılmış xarici kursda vərəsəlikdən xəbər verirdi.

İlham Əliyev iki mühüm layihənin reallaşdırılması haqqında sərəncam verdi: Birincisi – Azərbaycan ensiklopediyasının nəşri; ikincisi – ən yaxşı Azərbaycan və xarici ölkə ədəbi əsərlərinin latın qrafikası ilə nəşri.

«Sol» analitik-informasiya mərkəzi Bakıda və Sumqayıtda sosioloji sorğu apardı. Sorğuya min nəfər cəlb olunmuşdu, onların 87 faizi müxtəlif peşə sahibləri, 10 faizi evdar qadınlar, 3 faizi işsizdir; rəyi soruşulanların 52 faizi kişilər, 48 faizi qadınlardı.

Cavabı alınanların yarıdan çoxu cavanlar, 39 faizi yaşlılar, yerdə qalan 10 faizi isə təqaüdçülərdir.

Sorğunun nəticələri:

1.Fəaliyyətinin ilk yüz günü ərzində Prezidentin xarici siyasət kursu Sizi qane edirmi?

Sorğu iştirakçılarının 86 faizi müsbət;

10 faizi mənfi;

Cavab verməyə çətinlik çəkənlər isə 4 faiz

2. Sizin fikrinizcə, prezidentin seçki kampaniyasından iqtisadiyyat haqqında verdiyi vədlər indiki fəaliyyəti ilə üst-üstə düşürmü?

a) bəli – 62 faiz;
b) xeyr – 20 faiz;
c) bilmirəm – 18 faiz

Bu rəqəmlər deyir ki, hələ qarşıda görüləsi işlər çoxdur. 24 noyabr 2003-cü ildə Prezident «Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafını sürətləndirmək üçün tədbirlər haqqında» sərəncam imzaladı. Bu proqram sənədinin əsasında, işsizliyin aradan qaldırılması, gənclərin ictimai faydalı işlərlə

məşğulluğunun artırılması, regionların bərabər inkişafı, qeyri-neft sektorunun gücləndirilməsi, kənd təsərrüfatında islahatların başa çatdırılması, dünya standartlarına cavab verən məhsulların istehsalı və eksportu kimi məsələlərə yenidən baxılması dururdu.

3. Prezidentin sosial problemlərə diqqəti Sizi qane edirmi?

Bəli – 83 faiz;

Xeyr – 14 faiz;

Cavab verməyə çətinlik çəkən – 3 faiz

Sosioloqlar şərh edirdilər ki, müsbət cavabların çoxu Heydər Əliyev tərəfindən sosial müdafiə sahəsində keçirilən tədbirlərin nəticəsindən xəbər verir. Bunu həm də sosial təminat sahəsində yeni proqramın işlənməsini, təqaüdlərin vaxtında verilməsini, poliklinikaların pulsuz xidmətə keçirilməsinin təsiri var.

4. Bu müddət ərzində milli-mənəvi dəyərlərlə bağlı Prezidentin atdığı addımlara münasibətiniz?

Çox müsbət – 61 faiz

Müsbət – 25 faiz

Mənfi – 7 faiz

Çox mənfi – 3 faiz

Cavab verməyə çətinlik çəkənlər: – 4 faiz

Statistikadan aralanaraq qeyd edək ki, dövlət fəaliyyətinin səmərəliliyi haqqında müəyyən nəticəyə gəlmək üçün, prezidentliyin yüz günü, özü də ilk yüz günü – bu zaman kəsiyi – milli-mənəvi dəyərlər kimi incə, uzunmüddətli, uzunömürlü bir şeyə münasibətdə dövlət fəaliyyətini dəyərləndirmək üçün xeyli qısa və şərti bir müddətdir. Sosioloqların zəhmətinin və sorğuların müəyyən əhəmiyyətini azaltmadan bunu deyirik. Bu dəyərlərin əhəmiyyətini rəqəmlərlə ifadə etmək mümkün olmadığı kimi, belə qısa müddət əsasında dövlət başçısının atdığı addımların miqyası və səmərəliliyi haqqında mülahizə yürütmək də mümkünsüzdür. Axı söhbət əsrlərlə şüurlarda, xalqın, millətin tarixi yaddaşında yaşayan, nəsildən-nəslə ötürülən, həmvətənlərin mənəvi, estetik aləminin formalaşmasına, milli mentalitet hissinə təsir edənlərin qorunub saxlanılmasından gedir.

...Yenicə bərpa olunmuş Yaşıl Teatrda Xalq musiqisi konserti gedir.

Prezident və onun xanımı hörmətli qonaqların arasındadır. İlham Əliyev açılışda çıxış edərək təbəssümlə, hamının şənlənməsinə səbəb olan bir epizodu yada salır:

– Bu teatrın təmiri ilə çoxdan məşğul olan şəhər merinə – Abutalıbova hər dəfə zəng vurub soruşanda ki, sən haradasan, cavab eyni olurdu: «Yaşıl Teatrda». Gördüyünüz kimi, teatrın bərpası başa çatıb...

Maraqlıdır, bəs görəsən şəhərin meri gələcəkdə özünün harada olmasına bəraət qazandırmaq üçün hansı səbəblər tapacaq?»

Allaha şükür ki, Azərbaycan prezidentinin yumor hissinə söz ola bilməz. Bu demək olar ki, kökdən gəlib: Heydər Əliyev şux zarafatı sevirdi, ürəkdən gülürdü, görəndə ki, hansısa gülməli vəziyyətin şahidi olanda iynəli sözlər tapmağı bacarırdı.

Yaşıl Teatrda xanəndə qız muğam oxuyurdu. Muğamlar – təsirli musiqi dramaturgiyaya malik bütünlüklə öz ahəngi üstündə köklənmiş bu sənət inciləri – özünəməxsus musiqi etirafı, musiqi etiqadıdır. Hər bir azərbaycanlı üçün əziz olan muğamlarda həyat haqqında düşüncələr, insanın məqsədi, məhəbbəti, inamı, ümidi, kədəri və sevinci öz əksini tapıb. Hələ Sovet dönəmində kosmosa göndərilən «Sputnik»lərdən biri bizə ən yaxın olan səyyarəyə – Aya – muğam yazılmış disk – plastinka «bağışlayıb». Kosmos və muğam... 2003-cü ildə, bizim günlərdə isə Azərbaycan muğamı Mehriban xanımın dəstəyi sayəsində bəşər övladının yaratdığı şedevrlər sırasında qəbul olundu. Yeri gəlmişkən qeyd edək ki, İçəri şəhərimizdə Şirvanşahlar kompleksi də, qədim Bakı qalası da, qədim memarlıq mirvarisi «Qız qalası» da muğam kimi «YUNESKO»nun «mühafizə fərmanı»na daxil olub.

İndi isə prezidentliyin yüz gününün başa çatması ərəfəsində İlham Heydər oğlunu Moskvada izləyək.

6 fevral 2004, Moskva

Azərbaycan Prezidenti İlham Əliyev ilk xarici səfərlərindən birini Moskvaya etdi. Özünün rusiyalı həmkarı ilə, o, beş Xəzəryanı dövlətin növbəti görüşünə hazırlıq məsələlərini və istilik energetika kompleksləri birgə layihələrinin işlənməsini müzakirə etdi.

Prezidentlərin birgə keçirdikləri mətbuat konfransında o, böyük insan haqqında da xoş sözlər səsləndi:

– Münasibətlərin möhkəmlənməsində Heydər Əlirza oğlu xüsusi rol oynamışdır. Biz bu görkəmli dövlət xadiminin, qeyri-adi insanın və Rusiyanın səmimi dostunun əziz xatirəsini unutmayacağıq. Bu gün mən –Müqəddəs apostol Andrey Pervozvannı ordenini saxlanmaq üçün İlham Heydər oğluna verdim. Bu mükafat Azərbaycan prezidenti Heydər Əlirza oğlu Əliyevin xalqlarımız arasında dostluğun və etimadın möhkəmənməsinə verdiyi müstəsna töhfənin təsdiqi deməkdir.

Bu gün biz Azərbaycan prezidenti ilə məzmunlu danıqlar apardıq, gördüyünüz kimi, danışıqların yekunlarına əsasən, Moskva Bəyannaməsini imzaladıq. Bəyannamə nəinki strateji tərəfdaşlığı inkişaf etdirmək niyyətində olduğumuzu təsdiqləyir, həm də gələcək perspektiv üçün əməkdaşlığın əsasını müəyyənləşdirir.

Görüşdə biz bir daha təsdiq etdik ki, ölkələrimiz müasir dövrün ən mühüm problemlərinin həllinə eyni və ya oxşar mövqelərdən yanaşır. Məsələn, biz terrorizmlə mübarizədə səyləri birləşdirməyin zəruriliyinə eyni cür baxırıq. Regional və beynəlxalq məsələlərdə, digər qlobal təhdidlərə müqavimət göstərilməsində qarşılıqlı fəaliyyəti gücləndirməyin başqa imkanlarını da real surətdə görürük.

Biz Cənubi Qafqazdakı vəziyyəti müzakirə edərkən «Qafqaz dördlüyü» çərçivəsində əməkdaşlığın əhəmiyyətini bir daha vurğuladıq. Əminik ki, Rusiya, Azərbaycan, Gürcüstan prezidentlərinin birbaşa dialoqu regionda sabitliyi möhkəmləndirməyə və bir sıra köhnə problemləri aradan qaldırmağa imkan verəcəkdir. Xəzər dənizinin hüquqi statusunu da müzakirə etdik. Dağlıq Qarabağ probleminə ciddi diqqət yetirildi. Ermənistan–Azərbaycan dialoquna yenidən başlanması Rusiyada məmnunluqla qarşılanmışdır. Bu gün mən yaranmış vəziyyətin hər iki tərəf üçün məqbul surətdə nizama salınmasına lazımi kömək göstərilməsinə hazır olduğumuzu bir daha təsdiqlədim.

Rusiya prezidenti 2004-2006-cı illərdə humanitar sahədə qarşılıqlı əməkdaşlıqdan, işgüzar əməkdaşlığın necə inkişaf etdirilməsindən danışdı. Vladimir Vladimiroviç xüsusilə vurğuladı ki, Azərbaycanda İlham Heydəroviçin rus dili ilə bağlı yürütdüyü siyasəti Rusiyada yüksək qiymətləndirirlər».

Jurnalistlər soruşdular:

– Rusiya ATƏT-in Minsk qrupunun həmsədrlərindən biridir. Rusiyanın bu problemin dincliklə nizama salınmasına dair konkret təklifi varmı? Necə bilirsiniz, Azərbaycan prezidentinin bu səfəri ikitərəfli münasibətlərin inkişafına yeni təkan verəcəkmi?

– Həqiqətən Dağlıq Qarabağ problemi köhnə olsa da, yeganə deyildir. Bildiyiniz kimi, Qafqazda elə həmin vaxtlardan başlanmış münaqişələr də var, Dnestryanı bölgədə də heç də hər şey nizama salınmayıb. Bizə sovet dövründən çox problemlər qalıb və onlar Sovet İttifaqının dağılmasını gərginləşdirdi və sürətləndirdi. Mən bu mövzuda öz fikrimi açıqlamışam və təkrarlaya bilərəm. Biz bu istiqamətdə yollar axtarmağa, hətta səylərimizi gücləndirməyə hazırıq. Lakin biz heç nəyi zorla qəbul etdirməyəcəyik və nə Azərbaycan xalqına, nə də Ermənistan xalqına nəyisə zorla qəbul etdirməyə haqqımız yoxdur. Məsələnin həlli yolunu iki ölkənin xalqları axtarmalıdır, biz isə bu qərarın axtarışında iştirak etməyə hazırıq. Biz əldə edilə biləcək razılaşmaların təminatçısı olmağa hazırıq.

Bu məsələni mən bu yaxınlarda Fransa prezidenti cənab Jak Şirakla müzakirə etdim. O həmin məsələ ilə əlaqədar mənə xüsusi olaraq zəng vurmuşdu, çünki bilirdi ki, Azərbaycan prezidenti ilə görüşümüz olmalıdır. Beynəlxalq birliklə birgə biz problemin aradan qaldırılmasına ürəkdən çalışacağıq. Mən sizə yeganə bir şeyi tam dəqiq və aydın şəkildə deyə bilərəm: Rusiya bütün münaqişələrin, o cümlədən də Dağlıq Qarabağ münaqişəsinin həllində maraqlıdır. Çünki bu, istər Azərbaycanla, istərsə də Ermənistanla dolğun əməkdaşlıq üçün bizə geniş imkan verəcəkdir və biz bunu çox istəyirik. İndiki qeyri-normal vəziyyətin davam etməsi istər bir, istərsə də digər istiqamətdə ikitərəfli əlaqələrin inkişafında təbii məhdudiyyət yaradır. Biz bu vəziyyətin dəyişməsində olduqca maraqlıyıq və bunun mümkün qədər tez baş verməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik. Bu istiqamətdə hər iki prezidentin səylərini dəstəkləyəcəyik.

O ki qaldı indiki səfərin kontekstində ikitərəfli əlaqələrin inkişafına, şübhə etmirəm ki, bu, yaxşı təkan olacaqdır. Qeyd edim ki, Azərbaycan prezidenti ikitərəfli münasibətlərimizin bütün mahiyyətinə dərindən bələddir. Bu işlərdə o, heç də təcrübəsiz deyildir. Buna dərindən bələd olaraq, biz təxminən bir saat, hətta bundan çox vaxt ərzində təkbətək söhbət etdik, özü də iqtisadi və siyasi səpkidə tamamilə konkret məsələləri



Heydər və İlham Əliyevlər



Vətənə sədaqət andı. *Bakı, 2003-cü il.*

Prezidentin sözü işlə təsdiqlənir.







Bakının ən gözəl incilərindən olan bu binada Heydər Əliyev Fondu yerləşir. Ona Milli Məclisin deputatı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva başçılıq edir.



Azərbaycanın neft strategiyasını Heydər Əliyev irəli sürüb və hazırlayıb. Bu strategiyanı yeni şəraitdə Azərbaycanın Prezidenti İlham Əliyev davam etdirir. Yeni yatağın ilk nefti. *Bakı, 1997-ci il.*





Prezident İlham Əliyev
Lənkəran Dövlət Dram
Teatrının açılışında.
2005-ci il.



Azərbaycanda həmişə uşaqlar və qocalara qayğı göstərilir.
Prezident və birinci xanım bu humanitar ənənəni davam etdirirl

Mehriban Əlieva qızı Arzu ilə birgə Bakının uşaq evlərinin birin



MDBƏİ-nun aspirantı Leyla Əliyeva
məktəblərə qayğı göstərməkdə anasına kömək edir.




GÜRCÜSTAN
RUSİYA FEDERASİYASI
TBİLİSİ
Balakən
Zaqatala
Qax
ŞƏKİ
Ağstafa
Qazax
Tovuz
Kür
Mingəçevir suanbarı
GƏNCƏ
Şəmkir
MİNGƏÇEVİR
YEVLAX
Gədəbəy
Daşkəsən
Xanlar
Goranboy
GÖYÇƏ GÖLÜ
İŞĞAL OLUNMUŞ ƏRAZİLƏR
QARABAĞ
Ağdərə
Bərdə
Tərtər
ERMƏNİSTAN
Kəlbəcər
İstisu
Ağdam
Əsgəran
XANKƏNDİ
Xocalı
Şuşa
Xocavənd
Laçın
DAĞLIQ
Füzuli
Hadrut
Qubadlı
Cəbrayıl
Şərur
Şahbuz
Azərbaycan Naxçıvan Muxtar Respublikası
NAXÇIVAN
Babək
Culfa
Ordubad
Xəngilan
İRAN
Nabran
Xudat
Xaçmaz
Qusar
Quba
Şabran
Qonaqkənd
Siyəzən
Qəbələ
İsmayıllı
Lahıc
Xızı
Pirqulu
Göyçay
Ağdaş
Şamaxı
Ləki
Ucar
Ağsu
Mərəzə
SUMQAYIT
Buzovna
Dübəndi
Xırdalan
Qala
Lökbatan
BAKI
A Z Ə R B A Y C A N
Kürdəmir
Zərdab
Sahil
Səngəçal
Qarasu
Hacıqabul
Qobustan
Ağcabədi
Sabirabad
Şirvan
Ələt
İmişli
Saatlı
Beyləqan
Araz
Kür
Salyan
Biləsuvar
Neftçala
Cəlilabad
Göytəpə
Masallı
Yardımlı
LƏNKƏRAN
Lerik
Astara
Xəzər dənizi



İlham Əliyev və Mehriban xanım Rusiya Prezidentini Heydər Əliyev Fondunda qarşıladılar. *Fevral, 2006-cı il.*

«Qızıl ürək» mükafatını Mehriban xanıma Sergey Mironov, İqor İvanov və Sofi Loren təqdim edirlər. *Moskva, may 2007-ci il.*



Azərbaycanda Rusiya günlərində konsertlərdə və görüşlərdə Puşkinin şeirləri dəfələrlə səslənmişdi. Bakının mərkəzində böyük rus şairinin heykəli Heydər Əliyevin təşəbbüsü ilə qoyulmuşdur.



İlham Əliyev Rusiya mədəniyyət xadimləri arasında.
Bakı, iyun 2004-cü il.





Azərbaycanın xarici siyasəti ardıcıl və müstəqildir.
Onda əsas yeri ölkənin milli maraqları tutur.
İlham Əliyevin ABŞ Prezidenti Corc Buşla…

və Fransa Prezidenti Jak Şirakla…





...Almaniyanın kansleri Angela Merkellə...



...NATO-nun baş katibi Yaap Xoop Sxefferlə görüşü



Mehriban xanım Əliyeva

Balaca Heydər bu gün öz adını məktəb lövhəsinə yazır, sabah isə, buna inanırıq, Azərbaycanın tarixinə yazacaq




Azərbaycanın
olimpiya ulduzları



Birgə xoşbəxtdirlər.
İlham Əliyev, Mehriban xanım
və oğlanları Heydər

təfərrüatı ilə müzakirə etdik. Bu, beynəlxalq mövzulara da, beynəlxalq məsələlərə də, iqtisadiyyatda qarşılıqlı fəaliyyətə də aiddir. Əminəm ki, prezidentin arzularına uyğun olaraq Rusiyanın müəyyən nazirliklərinin fəaliyyətində də təshihlər ediləcəkdir.

Bu, ikitərəfli münasibətlərin xeyrinə olacaqdır. Buna heç bir şübhə yoxdur.

Prezidentlərin danışıqları. Moskva deklorasiyasının və digər rəsmi sənədlərin imzalanması. Qəbullar, çıxışlar, tostlar... Və bu rəsmi, protokol mənasızlığında – doğma «MDBMİ» ilə görüş. Ömrün 15 ili bu instituta bağışlanıb. «Ömrün ən gözəl illəri – İlham Əliyev özü o illəri belə qələmə verir və sözünə davam edir: – Şübhəsiz ki, nostalgiya hissləri baş qaldırır. Burada çoxlu dostlar, tanışlar var...»

«MDBMİ» arxivində İlham Əliyevin qiymət kitabçası saxlanılır və orada bir dənə də üç yoxdur!

(Tələbə Əliyevin hansısa imtahan verə bilməməsi və Kiyevdə xilas yolu axtarması haqqındakı nağılı xatırlamağın lap məqamıdır) «MDBMİ»nin rektoru Anatoli Vasilyeviç Torkunov həmin zaçot kitabçasını Azərbaycan prezidentinə bağışlayır.Və xatırladır ki, o, diplomu əla qiymətlə müdafiə edib.

– Bu da İlham Əliyevin tələbə bileti, – o deyir – «MDBMİ»nin muzeyində saxlayacağıq. – Professor Natalya Kapitonova əlavə edir: «O, yüksək dərəcəli Britaniya mütəxəssisidir. Onu institutda çoxları xoş sözlərlə xatırlayır. İlham ciddi, dəqiq və ləyaqətli insandır. Atasına layiq oğuldur. Və biz fəxr edirik ki, o, bizim məzunlarımız arasında ilk prezidentdir. Və özü də ləyaqətli prezident!».

Diplomatiya dərsləri

Tanınmış diplomat və alim, tarix elmləri doktoru Stanislav İvanoviç Çernyavski də bu verilən qiymətlə tam şərikdir. O, ömrünün 40 ilini diplomatiyaya həsr edib, Kanadada, Belçikada, Əlcəzairdə, İsveçrədə işləyib. Axırıncı böyük ezamiyyəti Bakıya olub; Azərbaycanda rus səfirliyinin səfir-müşaviri kimi fəaliyyət göstərib. «Azərbaycanın yeni yolu» kitabını yazıb və çap etdirib. Bu əsərdə o, böyük faktiki materiallara əsaslanaraq, öz şəxsi müşahidələri ilə respublikanın siyasi və iqtisadi həyatını əsrlərin və minilliklərin qovuşuğunda

fikir sücgəcindən keçirir. O, diplomatiya inkişafının monitorinqi Beynəlxalq İnstitutun direktoru, MDB Parlamentlərarası Assambleya Sovetinin dəftərxana rəhbərinin müavini kimi Azərbaycanla indi də maraqlanır.

Biz, Stanislav İvanoviçdən ata Əliyevin İlhamı nə vaxtdan prezident roluna hazırdamağa başladığını soruşduq.

– Bu barədə çox söz-söhbət gedir, həm real, həm də fantastik söhbətlər, – Çernyavskiy cavab verdi. – 2003-cü ildə mən müxalifətin liderləri, o cümlədən İsa Qəmbərlə qarşılaşmalı oldum. Onlar hamısı İlhamı qeyri-ciddi, hətta əyləncə həvəskarı kimi qələmə verməyə çalışırdılar. Mən onlara, o cümlədən İsa Qəmbərə dedim: «Siz bilirsinizmi, hörmətli İsa, öz rəqiblərinizi lazımınca qiymətləndirməməyiniz faciədir. O, sizin birbaşa rəqibinizdir. Gələcək prezident seçkilərində elita onu dəstəkləyəcək və mən fikirləşmirəm ki, Heydər Əliyev uzun illər ərzində topladığı təcrübəni öz yeganə oğlundan əsirgəyəcək. Mənə elə gəlir ki, İlhamdan müxtəlif vəzifələrdə istifadə olunması, müxtəlif danışıqlara cəlb edilməsi, Əliyevin niyyətindən xəbər verir, o, oğlunun gələcəyini fikirləşir: əgər siyasi xadim kimi parlaya bilməsə, güclü biznesmen olsun, atasının işlərini ləyaqətlə davam etdirsin. Bir sözlə, İlham Əliyev dərin şəxsiyyətdir, yaxşı hazırlanmış mütəxəssisdir. O ki, qaldı Sizin onu lazımınca qiymətləndirməməyinizə, bu sizə baha oturacaq».

Elə belə də oldu.

Atası İlhama özünün bütün bilik və bacarığını, canını verib, onun nəzəri (Ali məktəb seçimi) və təcrübi hazırlığı üçün çox şeylər edib, – Stanislav İvanoviç sözünə davam edir. – Əlbəttə, İlhamın bütün cavanlar kimi bəlkə ifrat hərəkətləri də olub. Amma o, hakimiyyət çevrəsində olduğu illər ərzində göstərdi ki, o, öz atasının layıqli davamçısıdır.

Biz həmsöhbətimizdən xahiş etdik ki, Heydər Əliyevlə görüşləri barədə söz açsın.

– Mən istərdim ki, Heydər Əliyeviç Əliyevdən danışanda onun fenomenal yaddaşını, son dərəcə məlumatlı olmasını, qarşılaşdığı insanlara yaradıcı yanaşmasını yada salaraq şablon ifadələrdən qaçaq, – Stanislav İvanoviç dedi. – Bunlar həqiqətən də belədir və çoxdan hamıya məlumdur. Amma mən elə məsələlərdən danışmaq istəyirəm ki, bunlara əvvəllər toxunulmayıb. Əliyev özünü mürəkkəb, kritik situasiyalarda necə aparırdı?

...Belə situasiyalardan biri – 1993-cü ilin yayı. Surət Hüseynov tankları Bakıya yeritməyə hazırdı. Heydər Əliyev qıyamçı polkovnikə tərəf özü gedir. Vasitəçi olmadan. Hüseynova və onun əsgərlərinə qarşı Əliyev özünün başlıca silahını – onillərlə siyasət aləmində qazandığı təcrübəni işə salır. İyunun axırında (1993-cü il) onunla Surət Hüseynov arasında «Şahmat oyunu» başlanır. Özü də şübhəsiz, siyasət incəsənəti dərsliklərində fəxri yerə layiq bir oyun.

Hüseynovla söhbətində Əliyev yumşaq tərzdə, amma israrla onu inandırmağa çalışır ki, respublikanın lideri olmaq asan məsələ deyil. O, təcrübə və bilik tələb edir. Əliyev nəzakət xatirinə Hüseynovun intellektual bacarığı və savadı haqqında söz demədi, amma birbaşa söylədi ki, onun təcrübəsi azdı. Bu irada qarşı Əliyevin həmsöhbəti etiraz etməyə söz tapmadı. Bu səbəbdən də Hüseynov və onun tərəfdaşları bir qədər fikirləşəndən sonra baş nazir təklifini məqbul saydılar. Hüseynovun ətrafındakılar fikir yaratmışdılar ki, Əliyev yaşı keçmiş ağsaqqaldır, bir-iki il ölkəni idarə edəcək, sonra da ötürəcək bu müddət ərzində təcrübə toplayan cavan Hüseynova. Mənə elə gəldi ki, Əliyev məhz həmin günlərdə sanki qocaldı, qəddini əyməyə başladı.

O günlərin başqa şahidləri də var. Onlardan biri də yazıçı Aleksandr Proxanovdur. Əliyev moskvalı qonağı gecədən xeyli keçəndən sonra qəbul edib.

«Mən onun son bir həftəni sutkada dörd saatdan artıq yatmadığını bilirdim, – rus nasiri o gecə söhbəti haqqında yazısını belə başlayır. – Məni qarşılayan rəsmi, qıvraq insanın hərəkətlərində yorğunluqdan nişanə yox idi. Əl-ələ verəndə əlinin istiliyini, möhkəmliyini duydum. Günəşdən qaralmış uzunsov üzü əsla qoca sifətinə bənzəmirdi. Əynində bahalı, zövqlə tikilmiş kostyum vardı. Qalstuku məmur qalstuku deyildi, əsl dünyəvi, gözoxşayan idi və şux düyünlə bağlanmışdı. İti baxışları hər hansı bir sözdən dərhal diqqətə gəlirdi, gözləri parıldayırdı. Və bütünlüklə onun zahiri görünüşündə virtuozluq duyulurdu və o, bu qabiliyyətin sayəsində müsahibinin fikirlərini və əhval-ruhiyyəsini dərhal kəsdirirdi.

Daha bir məqam – onun kabinetindən tütün qoxusu gəlmirdi, hərdənbir bahalı odekalon ətri duyulurdu».

Çernyavskinin və Proxanovun Heydər Əliyev haqqında yaratdıqları bu iki portreti tutuşduranda, hətta inanmırsan ki, söhbət eyni insandan gedir. Bəlkə elə Çeynyavski də, Proxa-

nov da öz müşahidələrində dəqiqdirlər? Aleksandr Proxanovun etüdündə əsas məsələ Heydər Əliyevə şamil edilən aktyorluq bacarığı – virtuozluqla bağlıdır. Yenə bir məqamı xatırlayaq: Əliyev rolunu oynamaq istəyən aktyorlardan birinə heç bilirsiz Heydər Əliyev nə cavab verib? «Mən öz rolumu özüm yaxşı oynayıram!»

...Dağlıq Qarabağda dəyişiklik gözləyənlər ölkədə qüvvətləndilər. Kimlərsə bu situasiyadan öz maraqları xatirinə istifadə etməyə cəhd etdilər.

–Və bu zaman, – Stanislav İvanoviç Çenryavskiy sözünə davam edir, – Prezident tamamilə gözlənilməz bir addım atdı. Təklif etdi ki, parlamentin fövqəladə iclası çağırılsın. Gündəliyə kəskin bir məsələ çıxarılırdı – son zamanlarda ölkə rəhbərliyi tərəfindən Dağlıq Qarabağla bağlı hansı tədbirlər görülüb? Prezident həmişə olduğu kimi, şuxdu, gözəl geyinmişdi. İclasa Bakıda vəkil edilmiş bütün diplomatik missiyaların başçıları dəvət olunmuşdular. Mən deyərdim ki, israrla dəvət olunmuşdular. Ən qatı müxalifət iclasa etinasızlıq göstərmişdi və sonradan dəvət edilmədiklərini bildirmişdilər, amma bu belə deyildi. Prezident müzakirənin gedişində bir neçə opponentlərə müraciət elədi. Birinə başa saldı ki, danışıqlar zamanı dövlət başçılarına – hətta Azərbaycanın harada yerləşdiyini bilməyən liderlərə də Azərbaycanın işğal olunmuş ərazilərindən söz açır. Azərbaycan xalqının başına gətirilən faciə haqqında danışır. Bu problemi BMT-də, Təhlükəsizlik Komitəsində bir həftə ərzində həll edə biləcəyindən inamla, əminliklə dəm vurana isə belə dedi: «Bir yox, lap iki-üç həftəliyə də oraya gedə bilərsən. Biz sənə bilet alaq, sən də uç, bu məsələni həll et. Bütün Azərbaycan xalqı, həm də şəxsən mən özüm sənə minnətdar olaram».

İclasdan sonra biz Heydər Əliyeviçlə görüşdük.

– Biz – yəni kim?

– Rusiyanın səfiri Nikolay Timofeyeviç Ryabov və mən...

Qərbçilər aradan çıxdılar. Heydər Əliyeviç bu gərgin «döyüşdən» sonra da özünü enerjili göstərməyə çalışırdı. Amma onun soyuq əlləri və avazımış sifəti yəqin ki, bitib-tükənməyən həyat eşqinin təzadı idi. Ümumi söhbətdə biz səfirlə Heydər Əliyevə dedik ki, o, müxalifətlə çox dəqiq danışdı. «Bilirsinizmi, – o, bizə cavab verdi ki – insan dilində danışmaq lazımdır. Hər hansı bir demaqoqu normal insan nitqi ilə susdurmaq lazımdır. Bunu mənə gəncliyimdə partiya və dövlət iş-

ləri öyrədib. Mənə elə gəlir ki, belə danışdığım üçün insanlar məni daha yaxşı anladılar».

Ümumiyyətlə, Heydər Əliyeviçin öz nitqini necə qurması məni çox maraqlandırırdı. Onun çıxışları bir qayda olaraq, böyük sürəkliliyi ilə seçilirdi, nadir hallarda qırx dəqiqədən az çəkirdi. Ahıl, yaşı keçmiş çağlarında çıxışa başlayanda, yorulmuş insan təsiri bağışlayırdı. Amma birdən hansısa bir məqamda birdən başlayırdı başqalaşmağa. Üzünə təbəssüm qonurdu, sifəti özünəməxsus xoş ifadə alırdı. Sanki hansısa dərin bir qaynaqdan ilhamlanırdı, şuxlaşırdı. İfadəli əl-qol hərəkətlərindən qənaətlə istifadə edirdi. Çıxış zamanı qalstuk düzəltmək və ya nəyə isə əl çəkmək ola bilməzdi! Bu insan səliqəli və təmkinli idi.

Əliyev haqqında Çernyavskinin yadına düşən daha bir detal:

O, hamıyla – xüsusən də Rusiyadan gələn nümayəndə heyətləri ilə mehriban davranırdı. Görünür ruslarla sıx təmasda olduğu illərin nostalgiyasını yaşayırdı; o illərdə o, Sovet İttifaqının rəhbərlərindən biri idi, təəssüf ki, o dövrdə başladığı işləri başa çatdıra bilmədi.

Söhbətlərdə onun bu və ya başqa problemlərə qarşı konkret yanaşması, hansısa mürəkkəb məsələni dərhal saf-çürük edərək daha sadə hissələrə, indi deyildiyi kimi bloklara bölmək, sonra ən sadələrində başlayaraq həll etmək cəhdi həmişə hamını heyrətləndirib.

Rus-Azərbaycan münasibətlərinin müxtəlif dövrləri olub. Qarşılıqlı ittihamlar gəlib o yerə çıxanda ki, Rusiya XİN-yi və başqa idarələr Azərbaycanla viza rejiminə yenidən baxmaq haqqında göstəriş alanda, münasibətlər mürəkkəbləşməyə doğru gedirdi. Bakıya Rusiya XİN-dən nümayəndə heyəti uçub gəldi ki, viza verilməsi işində qaydalar müəyyənləşdirsinlər.

Və elə bu zaman Heydər Əliyeviç müdrik qərar qəbul etdi – o, təklif etdi ki, bu vaxta qədər yığılıb üst-üstə qalmış bütün mürəkkəb məsələləri həll etmək üçün təcili olaraq Rusiya ilə ciddi danışıqlara başlasınlar.

Gərginlik Rusiya Ermənistana külli miqdarda silah göndərəndən (və ya qoyub gedəndən) sonra artmağa başlamışdı. Əliyev Moskvaya böyük nümayəndə heyəti göndərdi ki, bütün məsələləri, hər şeydən öncə Çeçenistanla bağlı məsələləri həll etsinlər. Və müzakirələr zamanı fikir ayrılığı yarananda, bu və ya digər məsələyə münasibət haçalananda Rusiya MDB dövlət

başçılarının Kiyevdə keçirilən görüşündə çıxış edən Putin Əliyevə hərarətli sözlərlə müraciət etdi və dedi ki, Rusiyada Heydər Əliyevə böyük dəyər verilməsi, bütün qarşılıqlı münasibətlərin həllində böyük rol oynayır. Psixoloji cəhətdən, məlum səbəblərdən Yeltsinlə Əliyev arasında mövcud olan buz qatı sındırılıb. Və əlaqələri yeni mərhələyə gətirmək imkanları yaranıb. Əvvəlcə bu işlərə qorxa-qorxa yanaşdılar: qaynar problemləri aradan qaldırmaq üçün tədbirlər görməyə başladılar. Azərbaycan rəhbərliyi Dağıstandan keçən çeçen mücahidlərinin qarşısını almaq haqqında çox ciddi qərar qəbul etdi. Rusiya buna cavab olaraq viza rejiminin tətbiqindən imtina etdi. Və bu faktiki olaraq, Əliyevin gördüyü tədbirlərə qarşı cavab idi. Sonra Putinin Azərbaycana mümkün ola biləcək səfəri məsələsi gəldi.

Bizim üçün – Xarici İşlər Nazirliyinin əməkdaşları üçün bu bir nömrəli məsələ idi. Mən Putinin gəlişindən dörd ay qabaq səfirlikdə məsləhətçi-müşavir kimi fəaliyyətə başlamışdım. Açıq danışmaq istəyirəm: xeyli adamlar var idi ki, bu səfərə yol vermək istəmirdilər.

– Moskvada?

– Yalnız Moskvada yox. Elələri hər yerdə çoxdu. Son həftəyə qədər biz bu səfərin baş tutacağına əmin deyildik. Bunun çoxlu səbəbləri vardı – həm hərbi, həm də siyasi səbəbləri. Siyasi məqamlar tərəflərin hərdən bir-birini anlamamasından irəli gəlirdi. Heydər Əliyeviç «Azərbaycan XXI–əsrdə» adlı proqram sənədi – millətə özünəməxsus müraciəti açıqladı. Bu sənəddə Azərbaycanın strategiyasından söhbət açılır, səhv etmiramsə, yalnız bir dəfə Rusiya xatırlanır, o da mənfi mövqedə. Öz ölkəsinin gələcək müttəfiqləri sırasında isə, Rusiyanı yada salmır. Kiminsə xoşuna Azərbaycan-Rusiya münasibətlərini yaxşılaşması gəlmirsə, dərhal çalışırlar Moskvaya sübut etsinlər ki, Azərbaycan tərəfi kələk gəlir, əslində isə, Rusiya ilə münasibətləri əsaslı surətdə yaxşılaşdırmağa hazırlaşmır.

Bununla yanaşı, çeçen separatçıları Rusiya prezidentinə qarşı sui-qəsddən tutmuş, qanlı aksiyalar hazırlamağa cəhd ediblər. Amma xidmət sahəsi səmərəli işləyib və Putinin gəlməyinə dörd gün qalmış təhlükə aradan qaldırılıb. Rusiyanın bir sıra yüksək mövqeli məmurlarının, sözügedən sənədlə bağlı siyasi qıcıqlanmalarını aradan qaldırmaq mümkün olub. Bir sözlə, səfər qarşısında vəziyyət, nəhayət ki, yoluna qoyulub.

O səfər haqqında çox yazılıb. Mən yalnız Heydər Əliyeviçin özünü dostcasına aparmasını qeyd etmək istəyirəm. Açıq-saçıqlığa, zahiri «atalıq» münasibətinə yol vermədi. Amma Putin daha yaşlı, daha təcrübəli Əliyevə qarşı öz münasibətini gizləmədi. O, Heydər Əliyevin böyük təcrübəsini vurğuladı. Hazırda xeyli itirilmiş özündən böyüyə hörmət ənənələrini nəzərə almaqla, əlbəttə, iki lider arasındakı qarşılıqlı şəxsi simpatiya göz qabağında idi. Və elə bu da münasibətlərin kəskin surətdə yaxşılaşmasına təkan verdi. Mən siyasi görüşlərin genişlənməsini, fikir mübadiləsini, mübahisəli məsələlərdə qarşılıqlı yaxınlaşmanı nəzərdə tuturam. Kimin ağlına gələrdi ki, artıq üç-dörd aydan sonra Azərbaycana, müsəlman ölkəsinə Müqəddəs Patriarx gələcək və onun səfəri çox böyük uğurla keçəcək. Kimin ağlına gələrdi ki, ən yaralı məsələlərdən biri – hərbi obyekt – Qəbələ radiolokasiya stansiyası ilə bağlı məsələ həll olunacaq? Xeyli sayda başqa məsələlər də yoluna qoyuldu. Və ən başlıcası – Azərbaycan tərəfi ilə davadalaşa tuşlanmış küsüşmədən qaçmaq mümkün oldu.

Və bütün bunlar İlham üçün diplomatiya dərsi idi.

Qəbələ sülhə xidmət edir

Qəbələnin yada salınması üzərində dayanaq. Bu ad son zamanlara kimi Azərbaycanın hüdudlarından kənarda o qədər də məşhur deyildi. Amma 2007-ci ilin yayında bu ad birdən-birə dünya KİV-nin birinci səhifəsində yer almağa başladı. O yay təbiəti müşahidə tarixində ən isti yay idi. Praqa və Budapeşt, Bratislava və Roma, Buxarest və Belçika istidən əriyirdilər. Amma siyasi iqlimdə «soyuq müharibə» təhlükəsi iyi gəlirdi. NATO bloku Şərqə hücumlarını davam etdirirdi. Çexiya və Polşada ictimaiyyətin rəyini – kütləvi etirazları nəzərə almadan, amerikalılar Rusiya sərhədləri yaxınlığında, bu ölkələrin ərazilərində raketdən müdafiə qurğuları yerləşdirmək istəyirdilər. Bu qurğular sistemi Praqa yaxınlığındakı radardan və Polşanın şərqindəki onlarca «qabaqlayıcı raket»dən ibarət idi. Formal səbəb isə İrandan və Şimali Koreyadan (!) gözlənilən uydurma təhlükə idi. Bu arqumentlər açıq-aşkar sadəlövhlər üçündü. Avropada Amerikanın strateji silah elementləri ola bilərdi ki, peyda olsun və yəqin ki, olacaq. İyul ayında

Pentaqon «Boinq» kampaniyasına bu raketlərin sifarişini verdi. Rusiyaya birbaşa təhlükə artdı.

Almaniyada «böyük səkkizliyin» sammitində Rusiya prezidenti Vladimir Putin Corc Buşa təklif etdi ki, Azərbaycanda icarəyə götürdükləri Qəbələ «RLS»dən və Armavir yaxınlığında inşa olunan radar qurğusundan hipotetik təhlükələrdən qorunmaq üçün birgə istifadə edək. Ehtimal etmək olar ki, Bakıdan ötrü bu gözlənilməz xəbər deyildi. Prezident İlham Əliyev Rusiyanın təklifini dəstəklədi. ABŞ prezidenti həmkarı Putinin təklifini «maraqlı təşəbbüs» adlandırdı, amma ...

Geosiyasi Problemlər Akademiyasının prezidenti general-polkovnik İvaşov əminliklə «Rusiya ilə birgə Qəbələ layihəsində iştirak etmək üçün – dedi, – amerikalılar öz hava hücumundan müdafiə sistemlərini, öz planlarını dəyişməzlər». Leonid Qriqoryeviç – görkəmli hərbi mütəxəssislərdən biridir.

Onun fikrincə, Putinin təklifi Azərbaycanın dünya siyasətindəki və Beynəlxalq əlaqələr sistemindəki yerini və rolunu artırdı. «Mən Azərbaycan prezidenti İlham Əliyevə ona görə minnətdaram ki, o, öz atasının kursunu davam etdirir. Qəbələ «RLS»-ni bağlatdırmaq üçün amerikalılar hörmətli prezident Heydər Əliyevə necə təsir göstərmələrini Rusiyada yaxşı xatırlayırlar. Azərbaycanın o zamankı xarici işlər naziri Həsən Həsənovun Qəbələ «RLS»nin boşaldılması ilə bağlı tələbləri, Rusiyaya qarşı kəskin iradları mənim yaxşı yadımdadır. Ancaq müdrik Heydər Əliyev dedi: «Bu qiymətli obyektin təməl daşını mən qoymuşam. O, dünyada sülh işinə xidmət edir, heç kimi də hədələmir. Mən onu partlatmaq və ya hər hansı bir yolla ləğv etmək istəmirəm». Onun mövqeyi düzgün idi və bu gün də İlham Əliyev həmin konstruktiv yanaşmanı davam etdirir». – Bu da general-polkovnikin sözüdür.

Leonid İvaşov Qəbələ «RLS»ni Beynəlxalq stabilliyin qoruyucusu, təhlükənin ilkin xəbərvericisi kimi dəyərləndirir, onu beynəlxalq stabilliyin mühafizəsində mühüm amil sayır.

Azərbaycan Olimpiadanı dəvət edir

Başqa xalqlar kimi azərbaycanlılar da qədim zamanlardan qurşaq tutmağı, ağırlıq qaldırmağı, ox atmağı ona görə seviblər ki, bu yarışmalarda kimin daha güclü olduğu ortaya çıxır. «Kitabi-Dədə Qorqud» eposunun qəhrəmanları cı-

dıra çıxmaqla, qurşaq tutmaqla, yaydan ox atmaqla güclərini sınayırlar. Kişilərlə yanaşı, qadınlar da fərasətlərini nümayiş etdirirlər. Birinci minilliyin ortalarında çovkan oyunu – at belində topaldıqaç» meydana gəlib. Əsrlərin dərinliyindən «bizim günlərə qədər toylarda, bayramlarda pəhləvanlar yarışa çıxırlar. Belə görüşlər üçün məxsusi yer də ayrılıb: adı da zorxana.

Azərbaycan idmançıları başqa respublikalardan olan yoldaşları ilə birlikdə Sovet İttifaqını olimpiya oyunlarında ləyaqətlə təmsil ediblər. 1992-ci ildə Azərbaycan müstəqil dövlət kimi Olimpiya hərəkatına qatılanda, respublikada Milli Olimpiya Komitəsi yaradıldı. 1996-cı ildə Azərbaycan ilk dəfə Atlantada XXIV Olimpiya oyunlarında iştirak etdi. ABŞ-a yola düşmək ərəfəsində, 29 iyunda prezident Heydər Əliyev idmançıları qəbul etdi. Atlantada 197 ölkə təmsil olunurdu. 69 ölkənin komandası medal qazandı, Azərbaycan bu fəxri siyahıda altıncı oldu. Namiq Abdullayev sərbəst güləşmədə gümüş medala layiq görüldü.

«Biz sizi Atlantaya, Olimpiya oyunlarına böyük ümidlərlə yola salmışdıq və şübhəsiz ki, daha yüksək nəticələr gözləyirdik, – Heydər Əliyev olimpiyaçıları bu sözlərlə qarşıladı. – Lakin hər bir hadisəni reallıq əsasında qiymətləndirmək lazımdır...»

31 iyun 1997-ci ildə yeni İcraiyyə Komitəsi və MOK-nin prezidenti seçildi. Bu, İlham Əliyev oldu.

Ölkə müharibə alovundan üç il idi ki, çıxmışdı. Milyonlarla qaçqının və məcburi köçkünün dərdi-səri ilə məşğul olan, özbaşınalıqla, kriminal ünsürlərlə mübarizə aparan, iqtisadiyyatın bərpasına çalışan dövlətdən hansı birincilik ummaq olardı?!

Lakin respublika gələcəyi düşünürdü. Dəqiq söyləyək: respublika prezidenti Heydər Əliyev gələcəyi düşünürdü ki, sabaha boylanmadan yaşamaq olmaz. Və bu səbəbdən də İlhamdan xahiş elədi ki, gənclərin fiziki tərbiyəsini, idman sahəsində dövlət siyasətini – yəni daha bir yükü öz çiyninə götürsün.

Ey idman!
Sən Sülhsən!
Dünya xalqlarına özü könüllü
Bir bələdçisən...

...Dünya əhalisi – bütöv bir ailə –
Yarışa-yarışa özünü qanır,
Bundan da bir məqam başlanğıc alır –
Dünyanın neçə dil bütün xalqları
Düzgün və mərdliklə yarışa girən
Kəslər ətrafında sıx birləşərək
Çoxsəsli böyük bir xor yaradırlar.

(«İdmana oda». Olimpiya oyunlarının himni)

Olimpiya hərəkatının banisi Pyer de Kuberten öz odasında idmanın çoxsaylı əhəmiyyətini – gözəlliyin, harmoniyanın, hərəkət sevincinin təsdiqi, mübarizə həvəsi, kamillik yanğısı, məğlubiyyət acısı və ondan keçərək qələbə həvəsini açıqlamışdı.

Zaman keçəcək – beynəlxalq arenalarda respublikanın himni dönə-dönə səslənəcək, sərbəst güləşdə, qılıncoynatmada, dzü-doda, yunan-roma güləşində, atıcılıqda və idmanın digər növlərində olimpiya çempionları və olimpiya mükafatçıları meydana gələcək.

«Olimpiya oyunları – yalnız idman yarışları deyil, həm də böyük siyasətdir. Bu səbəbdən də orada ciddi, gərgin mübarizə aparmaq lazımdır». (Olimpiya, avqust, 2002). İlham Əliyev belə hesab edirdi və deyirdi ki, respublikada idman infrastrukturunu yaratmağa «sıfırdan» başlamaq lazımdır. Tez bir zamanda yeni idman kompleksləri, təlim-məşq bazaları inşa olundu, perspektivli idmançılara və onların məşqçilərinə xüsusi təqaüdlər kəsildi.

19-20 Mart 1998-ci ildə Lozannada Beynəlxalq Olimpiya Komitəsinin üzvləri ilə MDB ölkələrinin milli olimpiya komitələrinin nümayəndələri arasında görüş keçirildi. Markiz Xuan Antonio Samarançla görüş zamanı azərbaycanlı həmkarları Mingəçevirdəki Olimpiya avarçəkmə bazası və onun mümkün bərpası haqqında məsələ qaldırdılar. Samaranc söz verdi ki, avarçəkmə bazasının bərpası ilə bağlı məsələni araşdırmaq üçün Mingəçevirə eskpert göndərəcək və BOK-un yardımını edəcək. O, həqiqətən də ekspert göndərdi. Amma baza ilə yaxından tanışlıq kədərli oldu. «Kür» avarçəkmə bazasında qaçqınlar və məcburi köçkünlər məskunlaşmışdılar.

Son illərdə Azərbaycanda çoxlu beynəlxalq yarışlar keçirilir: bədii gimnastika üzrə dünya çempionatı, voleybol üzrə seçmə olimpiya turnirləri, yeniyetmələr arasında boks, tek-

vando, şahmat yarışları, voleybol üzrə milli qadın komandaları arasında «Qran-pri» turnirləri, şahmatçı qadınların turniri və s.

Xaricdə işləyən təcrübəli Azərbaycan məşqçiləri və idmançıları Vətənə qayıtdılar. Və bütün bunlar idmana qayğı göstərən dövlət başçısının çəkdiyi zəhmətin birbaşa nəticəsidir. Bütün bunlar öz yerində, Azərbaycan MOK-u olimpiyaçılar üçün xüsusi təqaüd proqramı işləyib hazırlamışdır. Başqa MDB dövlətlərində belə proqram yoxdur. 50 nəfərdən artıq idmançı, məşqçi, veteran hər ay BOK-un təsis etdiyi təqaüdü alır. İlham Əliyev veteranlar haqqında deyir: «Onlar bütün ömürlərini idmana həsr ediblər. Bu səbəbdən də biz onlara daimi kömək edirik... Mən bizim idmançılarla fəxr edirəm, onların uğurları qarşısında dərin minnətdarlığımı bildirirəm. Və hər dəfə beynəlxalq yarışlarda bizim bayrağımız ucalanda mənim ürəyim vətənpərvərlik duyğuları ilə dolur...» *(İrs, oktyabr, 2002-ci il).*

Xüsusi təqaüd alan idmançılardan biri – cavan, istedadlı şahmatçı Teymur Rəcəbovdur. İlham Əliyev FİDE-nin prezidenti Kirsan İlyumjinovdan xahiş etdi ki, bu şahmatçıya diqqət göstərsin; tanınmış şahmatçı Viktor Korçnoyu da Teymurla məşğul olmaq üçün Bakıya o dəvət etmişdi. Korçnoyun dediyinə görə, Teymur Rəcəbov gözəl perspektivə malikdir.

İlham Əliyevin 2016-cı ildə Yay Olimpiya Oyunlarının Azərbaycanda keçirilməsi haqqında təşəbbüsü dünya idman ictimaiyyətinin diqqətini çəkdi.

– Biz bu təşəbbüslə çıxış edəndə, əlbəttə ki, imkanlarımızı nəzərə almışdıq. Mən hesab edirəm ki, olimpiya oyunlarının keçirilməsi üçün Azərbaycan bütün imkanlara malikdir. Bakının adının Olimpiya paytaxtları sırasına düşməsini yaxın illər göstərəcək. Biz səmimi-qəlbdən ümid bəsləyirik ki, bu istəyimiz həqiqətən də yaxın zamanlarda çin olacaq.

– Maraqlıdır, ölkə prezidenti, MOK-un prezidenti özü şəxsən hansı idman növlərinə maraq göstərir?

– Çox fəal şəkildə üzgüçülüklə məşğul olmuşam, indi də bu idman növündən əl çəkməmişəm, – İlham Əliyev bu sualı belə cavablandırdı. – Bundan başqa, dağ xizəkçiliyini çox sevirəm, çoxdandır ki, bu idman növü ilə böyük həvəslə məşğulam. Demək olar, hər il çalışıram ki, heç olmazsa on gün dağ xizəkçiliyi ilə məşğul olum.

– Öz oğlunuzun hansı idman növü ilə məşğul olmasını istərdiniz?

(İlham Əliyevin oğlu Heydər bütün uşaqlar kimi futbolu xoşlayır. – *Müəl.*)

– Amma mən çalışıram ki, onu üzgüçülüyə istiqamətləndirim, – atası deyir. – Mənim fikrimcə, bu idman növü insan orqanizmini çox hormonik inkişaf etdirir – qəddi-qamətə, tənəffüsə təsir edir. İnsan həm ləzzət alır, həm də sağlamlığını möhkəmləndirir. Qızlarım isə xizəklə məndən yaxşı davranırlar. Sürətdən qorxmurlar, uçurlar...

İlham Əliyev böyük diqqət və həvəslə atçılıq idman yarışlarını izləyir. Milli Olimpiya Komitəsinə başçılıq etməyə başlayanda Atçılıq idman klubunun yaradılmasının təşəbbüsçüsü oldu. Hər il Bakıda Dövlət İppadromunun manejində Rusiya Federasiyası kuboku uğrunda yarış keçirilir. Hər il İstanbulda və Bakıda keçirilən bu qəbildən olan yarışlardan biri ulu öndərin adı ilə bağlıdır: Heydər Əliyev adına kubok uğrunda turnir. Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Jak Roqqe hesab edir ki, Azərbaycan Milli Olimpiya Komitəsinin fəaliyyəti, postsovet məkanında yaradılan bütün milli olimpiya komitələrinə örnək ola bilər. Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti Vitali Smirnov isə Azərbaycan Milli Olimpiya Komitəsinin işini yüksək qiymətləndirərək deyib ki, Azərbaycan irimiqyaslı yarışlar keçirə-keçirə böyük təcrübə qazanıb. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan nəinki Avropa səviyyəsində, hətta dünya səviyyəsində də belə yarışlar keçirməyə hazırdır. Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Xikej 2007-ci ildə respublikamızda qonaq olarkən, Masallı rayonuna da gedib çıxıb və orada yeni olimpiya kompleksinin açılışında iştirak edib. O, İlham Əliyevə müraciət edərək deyib: «Hörmətli cənab prezident, ola bilsin ki, Sizin ölkənizin coğrafi yeri Avropanın mərkəzindən çox uzaqdadır. Amma Masallıdakı kimi gözəl idman komplekslərinin inşa edilməsinə görə mən deyərdim ki, Sizin yeriniz Avropanın ürəyində olmalıdır, siz orada yer tutursunuz. Bir çox hallarda, siyasət və diplomatiya öz qüdrətini göstərə bilməyəndə, bir-biri ilə dil tapa bilməyən idman xalqlar arasında dostluq və həmrəylik vasitəsi ola bilər.

İlham Əliyev Azərbaycan idmanının parlaq gələcəyinə inanır:

– Qədim Odlar Yurdunda Olimpiya məşəlinin alovlanacağı gün gələcək!

Yeri gəlmişkən, 9 noyabr 2004-ci ildə Masallıda Olimpiya Kompleksinin inşasına başlayanda qəzetlər yazdılar ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Masallı şəhərində olimpiya idman qurğularının təməl qoyma mərasimində iştirak edib. Yeni kompleks regionların inkişaf etdirilməsi Dövlət Proqramına əsasən inşa olunur. Orada idman oyunlarından – güləş, boks, ağır atletika və gimnastika zalları, iki üstüörtülü üzgüçülük hovuzu, iki tennis kortu, futbol meydançası nəzərdə tutulmuşdu. Qədim Masallının yaraşığına çevrilən kompleksin inşası üçün vəsaiti Azərbaycan Milli Olimpiya Komitəsi ayırmışdı.

– Təxminən bir il bundan əvvəl, prezident seçkiləri ərəfəsində mən Masallıda olarkən çox gözəl görüşlər keçirdim. Xatırlayıram ki, o görüşlər çox səmimi keçdi və həmin görüşlər əsnasında təklif irəli sürülmüşdü ki, Masallıda olimpiya idman kompleksi tikilsin. Mənə müraciət olundu və mən də öz çıxışımda bildirmişdim ki, bir halda ki, belə bir təklif var, onu yerinə yetirəcəyəm. Bu gün buraya gələrkən həmin olimpiya kompleksinin təməl daşını qoydum. Bir il bundan əvvəl söz vermişdim ki, Masallıda idmanla məşğul olmaq üçün yeni tipli, müasir kompleks yaradılacaqdır və bu gün o, yaradılır. Bu, onu göstərir ki, bu sahələrdə, bu istiqamətlərdə verilən hər bir söz, bəyan edilən hər bir proqram həyatda öz əksini tapır. Bu, başlıca məsələdir. Əsas məsələ odur ki, xalq öz rəhbərinə inansın. Rəhbər də özünü elə aparmalı, elə işlər görməlidir ki, xalq onu dəstəkləsin. Azərbaycanda xalqla hökumət arasında bu birlik, vəhdət vardır və bu, bizim bugünkü və gələcək inkişafımızın ən əsas, ən başlıca amillərindən biridir.

Mənim vəzifəm, mənim borcum ondan ibarətdir ki, Azərbaycanın hər bir qəsəbəsi, hər bir kəndi, hər bir rayonu inkişaf etsin. Bölgələrə etdiyim səfərlər məhz bu məqsədi güdür. Mən şəxsən özüm, öz gözümlə vəziyyətlə tanış oluram, mövcud olan problemləri yerlərdə araşdırıb müvafiq qərarların qəbul olunması üçün addımlar atıram. Bu, belə də olmalıdır. Azərbaycanın hər bir yeri, hər bir guşəsi mənim üçün doğmadır, əzizdir, mənim vətənimdir. Bilirsiniz ki, Masallıya da mənim xüsusi münasibətim var. Mən dəfələrlə Azərbaycanın bu gözəl guşəsində olmuşam, burada görüşlər keçirmişəm. Mən prezident seçkiləri ərəfəsində də burada olmuşam, amma Azərbaycan Respublikasının Prezidenti kimi ilk dəfədir Masallıdayam. Həmişə olduğu kimi, mən indi də masallılardan böyük dəstək

görürəm, böyük inam görürəm. Bu inam mənə daha da güc verir. Rəhbər o vaxt güclü olur ki, xalq onu dəstəkləyir. Mən çox şadam ki, bu bir il ərzində görülən bütün tədbirlər Azərbaycan xalqı tərəfindən dəstəklənir və çalışacağam ki, bundan sonra da bu yolla gedim.

Masallıdakı Olimpiya kompleksi çoxdan istifadəyə verilib; ətrafda hər tərəfdən oğlanlar və qızlar bura axışırlar. Ola bilər ki, onlardan kim isə müəyyən müddətdən sonra Olimpiya zirvəsinə yüksəlsin – uğurlar diləyək. Amma ən əsası başqa şeydədir. Bu ən müasir avadanlıqlar və qurğularla təchiz edilmiş meydançalarda, zallarda Azərbaycanın gənc nəsli güc toplayır, sağlamlığını möhkəmlədir. Masallı şəhəri isə respublikanın idman xəritəsində ünvanlardan yalnız biridir.

«Mən Milli Olimpiya Komitəsinin prezidenti seçiləndə, – İlham Əliyev «Speys» telekanalına verdiyi müsahibədə yada saldı, – Mən qarşıma bir məqsəd qoydum. Bu da ondan ibarət idi ki, 2000-ci il olimpiadasında Azərbaycan idmançılarının yüksək səviyyədə çıxışları təmin edilsin...» Və bu məqsədə çatıldı.

Böyük olmayan, amma diqqət çəkən bir detal: Sidneydə MOK-in hər prezidentinə maşın və sürücü vermişdilər; İlham Əliyev olimpiya şəhərciyinə gələrək maşından imtina etdi, həmyerlilərinin yanına piyada gəldi; onlarla yeməkxanada oturdu, nahar etdi və rəsmiyyətin üstündən qələm çəkib keçdi zarafata və çox keçmədi ki, «Olimpiya kəndinin» güzəranına alışdı.

Mehriban xanım Əliyeva xatırlayır:

– Sidneydə keçirilən yay olimpiya oyunlarına hazırlaşanda biz İlhamın nə qədər zəhmət çəkdiyini müşahidə etdik, gördük ki, o, bizim idmançıların Azərbaycanı uğurla təmsil etmələrindən ötrü necə çalışır. Bizim Sidneydə olduğumuz ilk günlərdə, təbii ki, bəzi narahatçılıqlar var idi. Axı, idmanda hər şey ola bilər. Biz həyəcanlanırdıq: görəsən necə olacaq, medal qazana biləcəyik, ya yox? Ancaq o zaman mən çox şad oldum, indi də məmnunam ki, bizim ölkəmiz – Azərbaycan layiqli yer tutdu və İlhamın zəhməti boşa getmədi. İki dəfə himnimiz səsləndirildi, üç dəfə bayrağımız qaldırıldı. Mən o zaman orada yaşadığım duyğuları, anları heç nə ilə müqayisə edə bilmərəm.

Xüsusilə Namiqin* final görüşü zamanı mən gördüm və başa düşdüm ki, İlham hansı hissləri keçirir, hansı duyğularla yaşayır. O, oturmuşdu, bir kəlmə də danışmırdı. Nəhayət ki, mübarizə başa çatanda və məlum olanda ki, qızıl medal Azərbaycanındı, İlham dərhal yerindən sıçradı və qələbəmizin sevincini gizlətmədən alqışlamağa başladı...

Mən çox məmnun idim, mən onsuz da inanırdım ki, uğurlu nəticələr olacaq. Axı, mən görürdüm, bilirdim ki, o, bu uğurların qazanılması üçün nə qədər əzmkarlıq sərf eləyir. Bəli, nəticələr də sevindirici oldu.

Sidney Olimpiya oyunları zamanı Azərbaycan Gününün keçirilməsi də İlhamın ağlına gəlmişdi. Biz bu işə hələ Bakıda ikən hazırlaşmağa başlamışdıq. Bununla yanaşı, o fikirləşirdi ki, orada Azərbaycan xalçalarının, bizim rəssamların əsərlərinin sərgisini təşkil etsin. Beləcə, biz çalışdıq ki, orada İçərişəhərin bir guşəsini yaradaq və nümayiş etdirək. Bizim təşkil etdiyimiz sərgiyə baxanlar heyrətə gəlmişdilər. Mərasimi İlham açdı, gözəl nitq söylədi... Demək olar ki, hər şey qonaqları məftun etmişdi.

«MDBMİ»nin Beynəlxalq əlaqələr fakültəsinin dekanı, professor J.A. Bulanov da Sidneyə Olimpiya oyunlarına gəlmişdi. O da xatiratını bizimlə bölüşdü:

– Azərbaycan Milli Olimpiya Komitəsinin dəvətini alıb tədbirə gedəndə İlhamın nitqini eşitdim. O, ingilis dilində aydın tələffüzlə, çox yaxşı danışırdı. Qəlbimi qürur hissi çulğadı. Axı danışan bizim institutun məzunu idi... O, sərbəst danışırdı, suallara cavab verirdi, özü də heç bir kağıza baxmadan...

Əlbəttə, idman idmandı – medal da, qələbə də öz yerində, amma idman kompleksi tikintisinin mənası genişdi, söhbət artıq bizim qeyd etdiyimiz kimi, bədən tərbiyəsindən, böyüməkdə olan gənc nəslin sağlamlığından gedir. Ümumiyyətlə, İlham Əliyevin prezident postunda bütün fəaliyyəti «gənclik notları» ilə zəngindir.

«Bakılı oğlanlar» «KVN» komandasının kapitanı, parlamentin deputatı Anar Məmmədxanov belə söylədi:

– 1995-ci ildə odessalılarla görüşdən sonra biz istədik ki, dağılışaq. Amma İlham Əliyev buna yol vermədi. Buna görə

* Namiq Abdullayev, 54 kiloqrama qədər çəkidə Sidney Olimpiadasının çempionu

mən özümü ona həmişə borclu bilirəm. Bizim komanda, insanlar – bizim çıxışlarımızın kasetlərini evlərində saxlayan azərbaycanlılar İlham Əliyevə minnətdar olmalıdırlar... Bizim komandanın dağılmamasına sevinənlər də, bizim tamaşaların kasetinə baxıb ovqatını qaldıranlar da bilməlidirlər ki, bu İlham Əliyevin xidmətidir. «Bakılı oğlanlar» Ermənistan komandasına qalib gəlib XX əsrin «KVN» çempionu oldular. İlham Əliyevin dəstəyi olmasaydı, bu qələbə də baş tutmayacaqdı. Bir sözlə, o, bizimlə XX yüzilliyin çempionudur!

Fazil İsgəndər povestlərindən birində abxaz kəndinin adətlərindən yazır: əgər təzə qonşu ev tikməyə başlayırsa, dünyagörmüş kişilər ona hörmətlə yanaşırlar: deməli köklü insandı, köçəri quş deyil.

Ərazisinin beşdən biri işğal olunmuş respublika binalar; Bakıda, Şəkidə, Masallıda, Gəncədə, Şamaxıda, Bərdədə, Qəbələdə, Lənkəranda olimpiya kompleksləri tikir. Və bu xalqın sabaha inamından xəbər verir.

XIII fəsil

QIZIL ÜRƏK

Birinci ilin dərsləri

Heydər Əliyev dünyanı tərk edəndən sonrakı ildə gərgin işlər, qayğılar çox oldu. Prezident və oğul üçün bu ağır il – «birinci kurs» necə keçdi?

– Bu il ölkəmiz üçün çox mühüm idi, – Mixail Qusmana mətni «Rossiyskaya qazeta»da çap olunmuş televiziya müsahibəsində İlham Əliyev belə demişdi. – Heydər Əliyevin həyatdan getməsi bütün Azərbaycan xalqı üçün faciə və dərddir. Amma bizim cəmiyyət özünü ələ ala bildi, əl-ələ verməyi, çəkici bir nöqtəyə vurmağı bacardı. Mən fikirləşirəm ki, bu da məhz Heydər Əliyev siyasətinin uğurudur: onun başladığı iş yaşayır, onun yaratdığı sistem qaydasında işləyir. Biz müsbət hər şeyi saxlaya bildik, sabitliyi, ictimai asayişi saxlaya bildik, biz iqtisadi inkişaf, demokratikləşdirmə yolu, Heydər Əliyev yolu ilə getməkdə davam edirik.

Bu, müstəqil Azərbaycanın dayanıqlı inkişafını təmin edən yeganə düzgün seçim idi və əlbəttə ki, Azərbaycanın gələcəyi bu siyasətlə bağlıdır. Bunun alternativi yoxdur. Ölkə inkişaf edəcək, öz iqtisadi potensialını möhkəmləndirəcək. Biz beynəlxalq, regional siyasətdə daha fəal iştirak edəcək, qonşularımız və dostlarımızla əməkdaşlıq edəcəyik.

– *Təbii ki, bizi Sizin bir ölkə prezidenti kimi Rusıya ilə münasibətlərin inkişafına necə əhəmiyyət verməniz maraqlandırır*?

– Bu əlaqələr bizim üçün çox vacibdir. Təəssüf ki, Sovet İttifaqı dağıldıqdan sonra həm obyektiv, həm də subyektiv səbəblərdən ölkələrimiz arasında münasibətlər həmişə bizim istədiyimiz kimi olmayıb. Lakin Prezident Vladimir Putinin hakimiyyətə gəlişindən sonra vəziyyət dəyişdi. Prezident Heydər

Əliyev və Vladimir Putin arasında olduqca dostcasına şəxsi münasibətlər yarandı, qarşılıqlı anlaşma əldə olundu və biz dərhal bunun nəticəsini hiss etdik. Hazırda Rusiya və Azərbaycan rəhbərlikləri arasında məhrəm, yaxın münasibətlər mövcuddur. Aramızda siyasi dialoq çox yüksək səviyyədədir. Əmtəə dövriyyəsi ildən-ilə artır. Rusiya da, Azərbaycan da dinamik inkişaf edir və bizim, əlbəttə ki, əməkdaşlığı gücləndirmək üçün böyük potensialımız var.

Bu yaxınlarda Moskvada olmaq və Vladimir Putinlə birgə Ümumrusiya Azərbaycan konqresinin (bu barədə daha ətraflı növbəti fəsildə) açılışında iştirak etmək mənim üçün çox xoş idi. Azərbaycanda da ruslara, ümumiyyətlə, ölkəmizdə yaşayan bütün millətlərə çox yaxşı münasibət bəsləyirlər. Bizim cəmiyyət çox dözümlü cəmiyyətdir. Ölkəmizdə müstəqillik dövründə bir dənə də, lap məişət səviyyəsində belə, milli zəmində münaqişə olmamışdır, Azərbaycanda bir dənə də rus məktəbi bağlanmayıb, əksinə, biz rus dilinin daha mükəmməl öyrənilməsi üçün şərait yaradırıq. Bizdə MDB məkanında yeganə Slavyan universiteti fəaliyyət göstərir, orada rus dili müəllimləri hazırlanır, rus dili və ədəbiyyatı öyrənilir.

Rusiya ilə münasibətlər bizim xarici siyasətin çox mühüm elementidir və yaxşı qonşuluq münasibətlərinə nümunə ola bilər. Bizim aramızda bu gün üçün bir dənə də həll olunmamış məsələ qalmayıb.

– *Yaxın gələcəkdə Dağlıq Qarabağ ətrafındakı münaqişənin həlli imkanlarını necə görürsünüz?*

– Bu kimi münaqişələrin həllinə vahid unifikasiya edilmiş yanaşma olmalıdır, bunun üçün beynəlxalq hüquq norma və prinsipləri işlənib hazırlanmışdır və mövcuddur. Dövlətin ərazi bütövlüyü beynəlxalq hüququn əsas elementlərindən biridir. Bu gün Azərbaycanın ərazi bütövlüyü Azərbaycan ərazisinin 20 faizini – Dağlıq Qarabağın özünü və Dağlıq Qarabağ vilayətinin inzibati ərazisinə daxil olmayan yeddi rayonu işğal etmiş Ermənistan tərəfindən pozulmuşdur. Bu işğal, həmçinin Ermənistandan azərbaycanlıların qovulması nəticəsində hazırda bizdə çox ağır şəraitdə yaşayan yarım milyondan artıq qaçqın və məcburi köçkün, daxildə yerini dəyişmiş adamlar var. Bu çox böyük siyasi, sosial və iqtisadi problemdir.

Erməni tərəfi özü özlüyündə çox vacib olan və bizim hörmətlə yanaşdığımız xalqların öz müqəddəratını həll etmək tezisini irəli sürür, lakin bu halda o müddəa işləmir, çünki ermə-

nilər bir millət kimi öz müqəddəratlarını Ermənistan dövləti çərçivəsində müəyyənləşdirmişlər. Və onların yaşadıqları hər bir yerdə öz müqəddəratlarını həll etmələri kimi vəziyyəti təsəvvür etmək çətindir. Onda dünyada, yəqin ki, çoxlu erməni dövləti yaranardı. Azərbaycanlılar da milli azlıq kimi bir çox dövlətin ərazisində yaşayırlar və ayrılmaq tələbi ilə heç vaxt çıxış etməmişlər və etmirlər. Separatçılıq ümumi bəladır. Rusiya separatçılıqdan zərər çəkib. Gürcüstan və Moldova da separatçılıqdan zərər çəkiblər.

Bütün bu münaqişələrin kökündə bir bəla durur – aqressiv separatçılıq. Biz ümid edirik ki, dünya birliyi axır ki, beynəlxalq hüquqa əsaslanmağa başlayacaq. Biz heç kimin ərazisini istəmirik, özümüzünkü bizə bəsdir. Biz tələb edirik ki, Azərbaycanın işğal olunmuş əraziləri azad edilsin. Biz bunu sülh yolu ilə həll etmək istəyirik. Biz son vasitəyə əl atmaq istəmirik. Amma bununla yanaşı biz belə vəziyyətdə də yaşaya bilmərik. Əgər məsələnin sülh yolu ilə həlli tapılmasa, əvvəl-axır labüd olaraq başqa yollar da gündəmə gələcək.

– *Uşaq vaxtı nəçi olmaq istəyirdiniz?*

– General olmaq arzusundaydım.

– *Hə, siyasi baxımdan arzunuz yerini alıb.*

– Belə də demək olar. Yadımdadır, atama general rütbəsi 1967-ci ildə verildi. Mən onda əlbəttə ki, balaca idim, lakin bu mənə çox güclü təsir etmişdi. Çünki onda, yəqin indi də belədir, uşaqlar müharibə-müharibə oynayırdılar. Sonralar da hərbi karyeranın əleyhinə deyildim, amma axırda MDBƏİ-yə daxil oldum...

Heydər Əliyev oğlunun siyasi fəhmini, əlbəttə, dəqiq müşahidə etmişdi və onun inkişafına təkan vermişdi.

– O, siyasətdə də çox istedadlı insandır, – Heydər Əliyev öz oğlu haqqında belə deyib. – Buna görə də hesab edirəm ki, o, siyasət sahəsində də öz fəaliyyətini davam etdirə bilər. Mən bunu istərdim, çünki böyük həyat və siyasi təcrübəm olduğundan. Hesab edirəm ki, buna onun qabiliyyəti var... Bilirsiniz, hər bir peşə üçün nəsə genetik qabiliyyətlər də olmalıdır. Bu hamıda olmur. Onda var.

«Nə gözəl cütlük»

İlham Əliyevin fəaliyyəti, siyasəti, gündəlik işləri atasının gəldiyi qənaəti təsdiqləyirdi. Məsələn, respublikanın bölgələrinə çıxanda, yerli hakimiyyət nümayəndələri çalışırdılar ki, səfərin gündəliyinə nöqtəbənöqtə əməl etsinlər, Prezident isə əksinə, bu «cızıqdan çıxmağı» sevirdi. Ola bilərdi ki, o, yeni mənzilə köçən bir qaçqın ailəsinin qonağı olsun, onlarla çay içsin, «nərdtaxtada mübarizə aparmaq» niyyətinə düşən ağsaqqalın təklifini qəbul etsin. Həmsöhbətlərindən soruşardı ki, şəhərin, rayonun, qəsəbənin, müəssisə rəhbərlərinin fəaliyyətindən razıdırlarmı? Açıq müzakirələr, iradlar hakimiyyət orqanlarının işindəki nöqsanları aradan qaldırmağa kömək edir. Yaxşı dostların əhatəsində həvəslə lətifə danışardı. Etiraf etmək lazımdır ki, lətifəni uşaqlıqdan sevirdi – «eşitməyi də, danışmağı da, ən başlıcası, yadda saxlamağı da. Hərdən atam hətta məni yanına səsləyirdi və tələb eləyirdi: «Hə, danış görək». Öz aramızdı, lətifə ünsiyyət zamanı mühüm amildir».

Hərdən olur ki, mühafizə xidməti etiraz etsə də, Prezident özü sükan arxasına keçir. Məsələn, belə bir hadisə Qubada baş vermişdi. Orada Xınalıq adlanan unikal bir dağ kəndi var. Onun tarixi minilliklərin dərinliyindən gəlir. Xınalığın yaşının dörd min ildən artıq olduğunu hesab edənlər var. Bəli, bəli, minillər – əsrlər yox. Xınalıqlılar azərbaycanca sərbəst danışırlar, amma əcdadlarının dilini də qoruyub saxlayırlar. Onlar öz qədim həyat tərzlərini də yaşadırlar. İllərlə, onillərlə bu görünən kəndə yalnız hava yolu ilə getmək mümkün idi. Budur, asfalt şosse kəndi böyük dünya ilə birləşdirdi. Və bu dağ yolunu prezident «Cipdə» qət elədi! Mehriban xanım da yanında! Dağlılara Heydər Əliyev Fondundan hədiyyə olaraq telefon stansiyası gətirdilər. İndi dünya onlara həqiqətən də yaxın olacaq.

– Sizə də zəng edəcəyik, cənab Prezident.

Mehriban xanım gülümsünür. Dağlılardan biri – yəqin bilə-bilə ki, sözü demək çoxlarının ürəyindən keçir, o, dillənir:

– Nə gözəl cütlükdür!

* * *

Onların ittifaqını xoşbəxt və hormonik adlandırırlar. Ancaq hərdən olur ki, iki parlaq fərdiyyət, xüsusiyyətlərindəki uyğunsuzluq ucbatından bir damın altına sığışa bilmirlər. Hərdən belə də olur ki, zərif cinsin nümayəndəsi hakim kimi görünür, amma onu ilhamlandıran arxasındakı güc sahibidir... Hətta siyasətdə də belədir.

* * *

«İzvestiya» qəzetinin əlavəsi olan populyar «Nedelya» həftəliyi 2007-ci ilin yazında bu mövzuya, jurnalistlər demişkən, iki qoşa səhifə həsr eləyib. Bu maraqlı yazı belə adlanır: «Onlar tezdən prezidentləri oyadırlar.» Səhifə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın şəkli ilə açılır. Onunla yanaşı Lyudmila Putina (Rusiya), Sara Nazarbayeva (Qazaxıstan), Yekaterina Yuşenko (Ukrayna), Tatyana Karimova (Özbəkistan), Bella Koçaryan (Ermənistan) və daha bir Tatyana – Bakıyeva (Qırğızıstan), Sandra Rulovs (Gürcüstan), Taisiya Voronina (Moldova), İrina Abelskaya (Belarusiya) və Əzizmə Əsədullayeva kimi xanımlar var. Onların – «sübhdən prezidentləri oyadanların» üçü – tibb işçisidir; Mehriban xanım, Aleksandr Lukaşenkonun xanımı İrina Abelskaya, Bella Koçaryan. Birinci xanımlardan ikisi xaricidir. Yekaterina Yuşenko amerikalıdır. Mixaila Saakaşvilinin mübariz həyat dostu Sandra Hollandiya təbəəsidir. Demək olar ki, birinci xanımların hamısı xeyirxah layihələrlə məşğul olurlar, kitab yazırlar... Amma «Nedelya»nın reportyorlarını maraqlandırdığı kimi, başlıca məsələ, birinci xanımların siyasi yöndən öz ərlərinə necə təsir göstərmələridir. Qiymətlər beşballıq – beşulduzlu sistemlə verilib. Bəs nəticələr necədir?

«Nedelya» Gürcüstan, Moldova, Rusiya, Tacikistan prezidentlərinin həyat yoldaşlarını qiymətləndirmədə «ulduzsuz» qoyublar – onların bu sahədəki fəaliyyəti sıfıra bərabərdir.

Qırğızıstanın və Özbəkistanın birinci xanımları hərəyə bir «ulduz» qazanıblar, yəni təsirləri minimaldır; Bella Koçaryan isə, iki «ulduz» qazanıb. Yekaterina Yuşenko, Sara Nazarbayeva, İrina Abelskaya isə «dörd ulduzlu» xanımlardı. «Nedelya»nın rəyinə görə, İrina Abelskaya prezidentin siyasi qərarlarına o dərəcədə təsir edə bilir ki, hətta prezident onun anasını səhiyyə naziri təyin edib.

«Nedelya» qəzeti Mehriban xanım Əliyevanın ömür yoldaşına təsir dərəcəsini beş ulduzla dəyərləndirib və siyahıda birinci yeri ona verib. «Mehriban fəlsəfə elmləri namizədidir, «YUNESKO»nun xoşməramlı səfiridir, Azərbaycan Gimnastika Federasiyasının başçısıdır» yazan qəzet ölkənin birinci xanımını təqdim edir, – Mehriban xanım həm də «Yeni Azərbaycan» partiyasında parlamentin üzvüdür...» *(«Nedelya», 2 mart 2007-ci il).*

Xoşməramlı səfir

«Nedelya» Azərbaycanın birinci xanımının tələbkarlığını və işə can yandırmasını, əzmkarlığını, istedadını və bu qəbildən digər keyfiyyətlərini heç də axıra qədər sadalamayıb. Bəs prezidentin həyat yoldaşı olmaq asandırmı? Görək bu suala Mehriban xanımın özü «İzvestiya» qəzetinə müsahibə zamanı necə cavab vermişdir.

Mehriban xanımla jurnalist Oleq Tsıqankov söhbət etmişdi.

– Bir sözlə desək, çox məsuliyyətlidir. Həyatım isə demək olar ki, dəyişilməyib. Uşaq vaxtından mən elə mühitdə böyümüşəm ki, orada daim müəyyən qədər kütləvilik elementləri olub. Mən Heydər Əliyev ailəsinin üzvü olanda birinci kurs tələbəsi olduğum nəzərə alınsa, aydındır ki, iyirmi ildən artıq bir müddətdə formalaşmış davranış tipini çoxlu müxtəlif amillər şərtləndirib. Buna görə də hansısa ciddi dəyişikliklərin baş verməsini söyləmək mənim üçün xeyli çətindir.

Başqa şey – məndən kənarda olan nəsə dəyişib. Mənim həyat kredom həmişə belə olub ki, etmək istədiyin yaxşılığı heç cür aşkarlamaq olmaz. Mən hazırda bundan praktik olaraq məhrumam. Birinci xanım statusunda mən ictimaiyyətin diqqətindən kənarda qala biləcək hansısa xeyriyyə tədbirini keçirə bilmərəm. Bu açıqlıq elementi demirəm ki, narahatçılıq doğurur, amma yenə də mənim həyatıma bəzi incəliklər əlavə edir və mən də bunu necə var qəbul etməliyəm. Kütləvilikdən tamamilə uzaq bir adam kimi mən buna çətinliklə uyğunlaşıram.

– Bəs övladlarınızın buna münasibəti necədir?

– Fərqli. Heydər, yəqin ki, bunu heç görmür də. Onun üçün biz ən əsas adamlarıq, bunlardan güclüsü, ağıllısı və yaxşısı, əlbəttə ki, ola bilməz. Qızlar isə artıq böyükdürlər və mə-

nə elə gəlir ki, onlar öhdələrinə düşən məsuliyyət yükünü layiqincə aparırlar.

– *Ölkənin siyasi həyatında müxalifət, söz azadlığı olmasa mümkün deyil. Sizin ailədə söz azadlığı məsələsi nə yerdədir və «müxalifət» varmı.*

– Ailə, birinci növbədə, həmfikirlərdir. Onlar – kişi və qadın – oxşar həyat prinsipləri və mənəvi dəyərləri olan adamlardır. Odur ki, radikal mənada müxalifət, zənnimcə, ailədə olmamalıdır. Mənimlə İlhamın çox məsələlərdə baxışlarımız eynidir. Biz təxminən eyni mühitdə böyümüşük. Bu, ötən əsrin bütün çətinliklərinə baxmayaraq öz ideallarına, mənəvi dəyərlərə, milli ənənələrə sədaqətini saxlaya bilmiş Azərbaycan ziyalılığıdır. Belə kökləri olmaq xoşbəxtlikdir. Arvad, prezidentin arvadı olsa belə, ailədə sülhün, asayişin və məhəbbətin rəhnidir. Ərimin hədsiz dolğun və gərgin iş günündən sonra məhz başa düşüldüyü və dəstəkləndiyi, dəyərləndirildiyi və sevildiyi evə gəlməsi mənim üçün çox vacibdir. Mən həm dost, həm də sevimli olmaq istəyirəm.

– *Yəqin ki, bu Sizə müyəssər olur?*

– Bunu İlhamdan soruşmaq lazımdır.

– *Siz – atanın və oğulun cizgilərini necə müqayisə edərdiniz. Heydər Əliyevin hansı xüsusiyyətləri xatirinizdə daha çox qalıb?*

– Əlbəttə, oxşarlıq var. Bu özünü çox şeydə göstərir. Birinci növbədə intellekt və xasiyyətdə.

Heydər Əliyev haqqındakı suala bir müsahibədə cavab vermək mümkün deyil. Onun haqqında çox kitablar yazılıb, amma təəssüf ki, onlar bu şəxsiyyətin nəhəng miqyasını əks etdirmir. Əlbəttə, Heydər Əliyevdə birinci növbədə aşkar nəzərə çarpan xarizmadan – cəzbedicilikdən danışmaq lazımdır. Onun energetikası ətrafdakı hər şeyi dəyişdirməyə qabil idi. Onun haradasa görünməsi ətrafda hər şeyin dəyişməsinə səbəb olurdu. Onun fantastik yaddaşı, intellekti, hədsiz informasiyalılığı ona həlli müşkül görünən problemləri belə həll etməyə imkan verirdi.

Əslində, Heydər Əliyev fenomeni hələ də açılmayıb. Sovet dövrünün Əliyevi haqqında çox yazırlar, Azərbaycanda tamamilə çıxılmaz görünən vəziyyəti kökündən necə dəyişə bilməsinin sirrini anlamağa çalışırlar, yaxud da Əliyevin hansı yolla «hakimiyyət ustadına» dönməsinin sirrini açmağa çalışırlar. Özü də bunların hamısı eyni bir adam haqqındadır. Burada

bu liderin həm praqmatik, həm də strateq olmaq bacarığının fəlsəfi dərki çatışmır.

O, ailədə, gündəlik həyatda olduqca sadə adam idi. Onun övladları, nəvələri ilə yalnız qohumluq əlaqəsi bağlamırdı. O, nə qədər məşğul olsa da, onların hər birinə qarşı olduqca diqqətli idi.

Onu müqayisə etmək isə olduqca çətindir. Heydər Əliyev nəhəng, təkrarolunmaz şəxsiyyətdir! Onun müəyyən cizgiləri, xasiyyətinin xüsusiyyətləri övladlarına, nəvələrinə keçib. Əlbəttə, onlar fərqlidirlər. Yeni dövr başqa yanaşmalar tələb edir, həyat yerində saymır.

– Lora Buş ciddi proqramlarla məşğul olur, Hılari Klinton öz siyasi karyerasına başlayıb. Siz siyasətə gedə bilərsinizmi?

– Əlbəttə, böyük imkanlar açılır. Lakin hər şey fərdiyyətdən asılıdır. Əgər siyasi fəaliyyət sənə yaxındırsa, onda start, əlbəttə, asan olacaq. Mən siyasətlə məşğul olmuram, sadəcə insanlara kömək edirəm. Əgər bunu siyasət saymaq olarsa, buyurun, sayın. Çox vaxt siyasət deyəndə insanın sürətlə hakimiyyəti ələ keçirməyə cəhd etməsi başa düşülür. Mən hökumət adamı deyiləm və hakimiyyətə can atmıram. Bu mənlik deyil.

YUNESKO-nun Xoşməramlı səfiri və Heydər Əliyev Fondunun prezidenti kimi mən lazımlılığımı duyuram. Hər gün ünvanıma 200-dən artıq məktub gəlir. Onların biri də diqqətdən kənarda qalmır. Mən konkret iş görmək, konkret adamlara kömək etmək istəyirəm. Konkret problemləri həll etmək, bu alınanda sevinmək, səndən asılı olmayan səbəblərdən nəsə alınmayanda kədərlənmək, tale, əlacı olmayan xəstəlik qarşısında gücsüzlüyünü dərk edəndə əzab çəkmək və xilas edilmiş uşağın təbəssümünü görəndə yenidən sevinmək. Mənim seçimim budur» *(İzvestiya, 26 may 2005)*.

Azərbaycan 1992-ci ildən «YUNESKO»nun* üzvüdür. Amma beynəlxalq təşkilatlar sırasında ən nüfuzlu yerlərdən birini tutan «YUNESKO» ilə tam əməkdaşlıq son illər başlanıb və bu şübhəsiz ki, Mehriban xanım Əliyevanın şəxsi xidmətidir. Xalqın mənəvi sərvətlərinin qorunmasında onun zəhməti yüksək qiymətləndirilir, müqəddəs milli mədəniyyət

---

* BMT-nin təhsil, elm və mədəniyyət məsələləri üzrə qurumu.16 noyabr 1945-ci ildə yaradılıb. Mənzil qərargahı Parisdə yerləşir. 188 dövlət hal-hazırda bu təşkilatın üzvüdür.

örnəklərinə mənəvi varislik xanım Əlievanı «YUNESKO»nun xoşməramlı səfirinə çevirdi. Azərbaycan 2005-ci ildə «YUNESKO» İcraiyyə Sovetinin üzvü seçildi və bu da Azərbaycanın mədəniyyət sahəsində rolu və fəaliyyətinin beynəlxalq miqyasda tanınmasına daha bir sübutdur.

Xoşməramlı səfir olmaq – Vətən qarşısında, dünya qarşısında məsuliyyətdi, böyük şərəfdi. Bu yüksək adı öncə daşıyan, bu yüksək ada layiq görülən şəxsiyyətlərin bir qismini yada salaq: Mstislav Rostropoviç, Klaudiya Kardinale, Mərakeş şahzadəsi Lalə Məryəm, Böyük Lüksemburq hersoqinyası Mariya-Tereza, Zurab Sereteli... Əsas prinsiplərindən biri mədəniyyəti və ümumbəşəri irsi qorumaq olan YUNESKO-nun cəmi 30 xoşməramlı səfiri var. İlham Əliyev bu münasibətlə zarafata salaraq deyib: hər halda onların sayı prezidentlərin sayından xeyli azdır.

Xanım – Şərqdə zərif cinsin nümayəndəsinə hörmətlə müraciət formasıdır; xatun-xatın sözü də bu qəbildəndir, xüsusi hörmət əlaməti olaraq ağlına və ləyaqətinə, nəcibliyinə rəğbət olaraq Analara, Qadınlara deyilir.

Mehriban xanımın mədəniyyət, sosial müdafiə, mənəvi irsin qorunması sahəsində ardıcıl fəaliyyəti üzvi surətdə İlham Əliyevin dövlət qayğıları ilə üst-üstə düşür.

Mehriban xanım qaynaqları uzaq tarixlər adlayan adları, xalq arasında hörmətlə anılan, bağışlayan və rəhm edən qadınların böyük humanist missiyalarını uğurla davam etdirir. Belə qadınlardan biri Qarabağ xanının qızı Natəvan idi. Bu gün də dünyada çoxlu sayda maraqlı kitabları populyar olan tanınmış yazıçı Aleksandr Düma onunla görüşünü heyranlıq hissi ilə qələmə alıb. Xurşud banu Natəvan Azərbaycan poeziyasının klassiki oldu, o, doğma Qarabağda, həmçinin bütün Azərbaycanda nəcib əməlləri ilə anılır.

Diqqətəlayiq bir fakt. Fransa prezidenti Jak Şirak Azərbaycan Respublikasının başçısı İlham Əliyevi və onun həyat yoldaşı Mehriban xanımı qəbul edərkən, Dümanın Natəvanla görüşünü yada salıb.

Bir sıra regional ümummilli və dünya miqyaslı layihələr Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Heydər Əliyev Fondu, Azərbaycan Mədəniyyətinin Dostları Fondu, Azərbaycan, rus və ingilis dillərində çap olunan «Azərbaycan-İrs» jurnalı bu sıraya daxildir. Xatırladaq ki, Mehriban xanım respublika parlamentinin deputatıdır, ABŞ və Azərbaycan Parla-

mentlərarası İşçi Qrupunun rəhbəridir. «Yeni Azərbaycan» partiyası Siyasi Şurasının, Milli Olimpiya Komitəsinin üzvüdür, Azərbaycan Gimnastika Federasiyasının prezidentidir. Yeri gəlmişkən, 2007-ci ildə (29 iyun – 1 iyul arası) Bakıda bu gözəl idman növü üzrə 23-cü Avropa çempionatı keçirildi.

Folklor və musiqi ənənələrinin inkişafındakı xidmətlərinə görə Mehriban xanım Əliyeva 2004-cü ildə «YUNESKO-nun xoşməramlı səfiri» fəxri adına layiq görüldü.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva milli-mənəvi irsin təbliğatını, onun qorunmasını özünün başlıca fəaliyyət sahəsi sayır. Mehriban xanımın şəxsi müşahidəsi altında unikal Muğam Mərkəzi – Azərbaycan musiqi mədəniyyətinin bənzərsiz mülkü inşa olundu. Bu sıraya musiqi kitabxanası da daxildir. Müsəlman Şərqində ilk teatr, ilk opera və daha sonra ilk balet on doqquzuncu yüzilliyin axırlarında, 20-ci əsrin əvvəllərində Azərbaycanda yaranıb. Milli simfonik və opera musiqisinin başlanğıcında böyük Üzeyir Hacıbəyov və Müslüm Maqomayev dayanır. Məşhur musiqiçinin və müğənninin babası «Şah İsmayıl» operasını yaradıb və bu sənət incisi Hacıbəyov yaradıcılığının məhsulu olan «Leyli və Məcnun», «Koroğlu», «Arşın mal alan» kimi Azərbaycan incəsənətinin qızıl fonduna daxil olub. Bəstəkarlardan Qara Qarayevin, Fikrət Əmirovun, Tofiq Quliyevin, Arif Məlikovun, adlı-sanlı dirijor və bəstəkar Niyazinin, muğam ifaçısı Xan Şuşinskinin, təkrarolunmaz Bülbülün, Rəşid Behbudovun milli muğam elementləri ilə caz sənətini birləşdirən cazmen Vaqif Mustafazadənin yaradıcılığı dünya musiqi sənətinə töhfə deyilmi? Mehriban Əliyevanın rəhbərliyi altında dahi Üzeyir Hacıbəyovun bütün əsərləri yenidən çap olundu, disklərə yazılıb xalqın istifadəsinə verildi. Mehriban xanımın təşəbbüsü ilə Heydər Əliyev Fondu «Qarabağ xanəndələri» albomunu hazırladı və nəşr elədi. Bu, kökü dərinliklərə gedib çıxan Azərbaycan milli xəzinəsinin mühafizəsi ilə bağlı həyata keçirilən ilk layihələrdən biridir. Ad seçimi Qarabağın qədim zamanlardan Azəbaycana mənsub olmasını xatırladır. Sözün məqamıdır, «Arşın mal alan»ın müəllifi də, Əsgər rolunun ən yaxşı ifaçısı Rəşid Behbudov da Qarabağın yetirmələri idilər. Xalq şairi Bəxtiyar Vahabzadə Rəşid Behbudovun xatirəsinə həsr etdiyi məqaləsində yazır: «Martın son günlərində Şuşada olmağım yadıma düşür. Azman dağlarla, sıldırım qayalarla əhatə olunmuş Cıdır düzündə qar altından bənövşələr

boylanırdı. Birdən dağların birindən muğam eşidildi. Oxuyan uşaq idi. O, oxumağını bitirər-bitirməz qarşı dağdan başqa bir uşağın səsi ucaldı, sonra üçüncü, dördüncü uşaqlar da bir-birinə muğamla hay verdilər... Yazın ilk günlərində Qarabağda yalnız insanlar yox, dağlar, dərələr, güllər, çiçəklər, qayalar, bir-birini muğam dilində salamlayırlar. Bax elə buna görə də bu əsrarəngiz diyarı Azərbaycanın konservatoriyası adlandırırlar. Azərbaycan xalqının Mir Möhsün Nəvvab, Üzeyir Hacıbəyov, Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Cabbar Qaryağdıoğlu, Sadıqcan kimi qüdrətli musiqi mədəniyyəti xadimləri bu torpaqda doğulublar.

Ötən əsrin əvvəllərində məşhur olan xanəndə Məcid Behbudovun da adı onların sırasında çəkilirdi, onun səsi el toylarından, xalq şənliklərindən gəlirdi. 1915-ci ildə xanəndənin ailəsində bir oğlan doğuldu. Atası onu Rəşid adlandırdı. Rəşid – «Rəşadət» sözündəndir – igidlik, cəsarət, kişilik, qüvvət anlamındadır. Bu uşağa öz ölkəsinin xalq artisti Rəşid Behbudov olmaq qismət oldu». *(İrs-Nasledie, № 5, 6, 2005-ci il)*

Bu gözəl jurnal Rəşid Behbudovun 90 illiyinə xüsusi nömrə həsr eləyib.

Mənim köhlənim kəhər,
Papağı qoyaram yan,
Mənə belə deyirlər:
Qarabağlı gül oğlan.

– Muğam dünya musiqi sənətinin nadir incisidir. Azərbaycanda onu çox sevirlər. Mən muğamı da, xalq mahnılarını da, milli çalğı alətlərini xoşlayıram. İmkan düşən kimi bizim xalq mahnılarına qulaq asmağa çalışıram. – Bu İlham Əliyevin dilindən çıxan sözlərdi.

Mehriban Əliyeva hesab edir ki, muğam fəlsəfəsinin dərinliyi, zənginliyi «nəsildən-nəsilə ötürülməlidir». Onun rəhbərliyi ilə yeni «Muğam» jurnalı nəşr olunur. Özü də üç dildə – Azərbaycan, rus və ingilis.

«Qarabağ şikəstəsi» – hər hansı bir konserti, xalq şənliyini zənginləşdirə bilən folklor şedevri, muğam incisidir. Bu nəğməni dinləyəndə dərələr, yaşıl meşəli yamaclar, qədim Şuşanın başgicəlləndirən uçurumları, başı bəyaz örtüklü dağ zirvələri gözlərin önünə gəlir, doğma yurda əzəli məhəbbət duyğuları səni silkələyir.

Tanınmış Azərbaycan alimi Çingiz Qacarın «Qədim Şuşa» kitabının öz sözündə Mehriban Əliyeva yazır:

(293-294) «...Dünyada müəyyən mədəni, tarixi və ya siyasi səbəblərdən rəmz-şəhərlərə çevrilmiş şəhərlər çoxdur. Adı çəkiləndə yaddaşımızda... onların obrazını gözümüz qarşısında canlandıran çoxlu xatirələr canlanır. Şuşa hər bir azərbaycanlı üçün belə şəhərdir. Şuşa şəhər-muzeydir, Şərqin musiqi Akademiyasıdır. Burada, Qarabağ torpağında milli musiqi mədəniyyətimizi dünya simfonik mədəniyyətinin təcrübəsi ilə birləşdirməyə və sintez etməyə nail olmuş, muğamın ladları və strukturlarını elmi əsaslarını yaratmış Üzeyir Hacıbəyli dühası parlamışdır...

Üzeyir bəyin Bakıdakı ev-muzeyi kimi Şuşadakı ev-muzeyi də Azərbaycan mədəniyyətini sevənlər və dəyərləndirənlər üçün ziyarət yeri idi.

On iki əsas muğam və on iki əsas lad məlumdur. Muğam poetik yaradıcılıqla sıx bağlıdır.

Mir Mövsüm bəzi muğamların və onların adlarının necə yaranmasını izah edir. Belə ki, o, Azərbaycan, Nişapur, Zabul, Bağdadi, Şirvani, Qacar, Şah Xətai və b. muğamların adlarını onları yaratmış adamların və ya yarandıqları yerin adı ilə əlaqələndirir. Rast muğamını o, səhər yelinin əsməsi, Rahabı yağış damcıları, Çahargahı göy gurultusu, Dügahı fəvvarənin şırnaqlarının səsi, Humayunu quşların uçuşu, Nəvanı bədbəxt sevgililərin həyəcanları, Mahuru suyun axması, Şahnazı bülbülün oxuması, Uşşağı quşların hərəkəti, Uzzalı meteoritin uçuşu ilə əlaqələndirirlər...

Məşhur musiqişünas V.Vinoqradov «Üzeyir Hacıbəyov və Azərbaycan musiqisi» *(Moskva, 1938)* kitabında yazırdı ki, Şuşa qədimdən musiqi məskəni kimi məlumdur və bütün Qafqazda xalq musiqisi istedadlarının tükənməz mənbəyi kimi məşhurlaşmışdır. Şuşa musiqiçiləri Azərbaycanın musiqi tarixini yaradır və onu ölkələrində və Şərqin başqa ölkələrində təmsil edirdilər.

1989-cu ildə Şuşa «Xarıbülbül»* Birinci beynəlxalq festivalı keçirtdi. Artıq Qafandan Bakıya ilk qaçqın axınları gəl-

* Xarı-Bülbül nadir flora nümunəsi. Əsasən Şuşa və Azərbaycanın digər dağlıq ərazilərində bitir. «Xar» – tikan mənasındadır. «Xarı-bülbül» əlvan görünüşünə görə qönçə üstə qonmuş bülbülü xatırladır.

mişdi. Stepanakertdə (Xankəndi) azərbaycanlıların evləri yanırdı. Rəsmi dildə bu, «etnik təmizləmə» adlanırdı.

1992-ci ildə Şuşa festivalına 30 ölkədən qonaq gözlənilirdi. Amma elan edilməmiş müharibə gedirdi.

Mayın 8-dən 9-a keçən gecə Şuşaya erməni yaraqlıları soxuldular. Atəş səsləri mahnı səsini batırdı.

Xalq xalqın düşməni deyil, onları
Vuruşdurur yalnız saxta fikirlər,
Zalım hökmdardan gələn əmrlər,
Və onların sayı çox qoşunları.

Nifrətdən məhəbbətə yol, olsun ki, çox uzundur, dostluq və anlaşmaya qədər də. Realist olaq, amma biz azərbaycanlılar və ermənilər, gürcülər və osetinlər, abxazlar, ruslar, çeçenlər eyni bir səma altında, Yer adlı ümumi bir planetdə yaşamalıyıq.

«Muğam da, aşıq yaradıcılığı da, milli musiqi alətlərimizin bənzərsiz melodiyaları da Azərbaycan xalqının bu günə qədər qoruyub saxladığı və gələcək gün naminə qorumağa borclu olduğumuz irsin yalnız bir hissəsidir. Azərbaycan Mədəniyyətinin Dostları Fondunun fəaliyyəti məhz bu məqsədə xidmət edir. Xoşməramlı səfir kimi mənim bütün gələcək fəaliyyətim də bu məqsədə xidmət edəcəkdir.

Azərbaycan xalqı öz yaddaşını, dilini, musiqisini, eposlar yaratmaq bacarığını bir çox nəsillər boyu yaşada bilmişdir. Bu gün Azərbaycan mədəniyyətinin və incəsənətinin dəyərli nümunələri bütün bəşəriyyətin sərvəti hesab olunur. Mənə bu gün verilən fəxri adı, hər şeydən əvvəl, YUNESKO-nun prinsiplərinə sadiq olmağımın ifadəsi kimi qəbul edirəm. Sizi əmin etmək istəyirəm ki, bu yüksək mükafat məni və başçılıq etdiyim Azərbaycan Mədəniyyətinin Dostları Fondunu mədəni irsimizin qorunması naminə daha böyük səylə çalışmağa sövq edəcəkdir» *(M.Əliyevanın YUNESKO-nun 9 sentyabr 2004-cü ildə Xoşməramlı Səfir adının verilməsi mərasimində çıxışından).*

«Qarabağ xanəndələri» albomuna 24 məşhur xanəndənin ifasında muğamlardan fraqmentlər daxil edilib. Xoşməramlı səfirin təşəbbüsü ilə məşhur müğənninin babasının Müslüm Maqomayevin adını daşıyan Filarmoniyada ənənəvi muğam axşamları keçirilir.

Muğamın qorunmasında və populyarlaşdırılmasında və bütövlükdə Azərbaycan milli irsinin dünya incəsənəti incisi ki-

mi dinləyicilərə və tamaşaçılara təqdim olunmasında Mehriban xanımın xidmətləri iftixar hissi doğurmaya bilməz.

* * *

«Həyatda hər kəsin yerini və taleyini tarix müəyyənləşdirir. Necə varsansa, elə də ol! Özgənin rolunu oynamaq lazım deyil» – onun kredosu belədir.

«Həqiqətən də belə bir nəzəriyyə var ki, insana dünyaya gələndə verilən ad onun bütün taleyini müəyyənləşdirir. Bu nəzəriyyənin real həyatda özünü nə dərəcədə doğrultduğunu demək çətindir, amma yaxşılıq, xeyirxahlıq, mərhəmətlilik kimi anlayışlar həqiqətən də mənim üçün ən mühüm anlayışlardır. Məncə, sözün geniş mənasında mərhəmət ən yaxşı və ali insani keyfiyyətlərdən biridir...»

Heydər Əliyev Fondu fəal surətdə mənəvi dəyərlərin bərpası, milli iftixar hissinin tərbiyəsi, tarixi yaddaşın və tarixi abidələrin qorunması ilə məşğul olur. Gəncədə millət fədaisi Cavad xanın türbəsi, qəssab Comərdin məzarı, Bakı yaxınlığında – Mərdəkanda müqəddəs Pir Həsən ziyarətgahı bərpa olundu; paytaxtda Azərbaycan ədəbiyyatı klassiki Abdulla Şaiqin yaşadığı ev təmir edildi. Qobustan tarixi – bədii qoruğu Dünya mədəniyyət irsinin siyahısına salındı.

Mehriban xanım Fondun əsas qayğılarından söz açır: «Biz ölkəmizin maraq dairəsində baş verən hadisələri diqqətlə izləyirik və yaranan problemlərin həll edilməsi üçün bütün imkanlarımızdan istifadə edirik. Azərbaycanın məşhur oğul və qızlarının adları ilə bağlı tarixi abidələrin bərpasını mən yalnız keçmişimizə hörmətin və tarixi ədalətin bərpası kimi deyil, həm də gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyəsinin əsas elementlərindən biri, Heydər Əliyevin azərbaycançılıq haqqında ideologiyasının inkişafı kimi nəzərdən keçirirəm.»

4-7 dekabr 2006-cı ildə parlamentin deputatı, respublikanın birinci xanımı ABŞ-da səfərdə oldu və konqresdəki həmkarları ilə bir sıra söhbətlər apardı. Prezident Corc Buşun kitabxana Fondunun başçısı, Milli təhlükəsizlik məsələləri üzrə keçmiş müşavir, general Brend Skoukrofforla görüşdü.

Səfər zamanı o, Uolter Rid adına hərbi – tibbi mərkəzə, Vaşinqtondakı toxuculuq muzeyinə baş çəkdi. Mehriban xanım burada Azərbaycan xalça toxuculuğu muzeyi ilə birgə layihələrdən söz açdı.

6 dekabrda Vaşinqtonda Azərbaycanın birinci xanımının şərəfinə Amerika-Azərbaycan Ticarət Palatası adından qəbul keçirildi. Palatanın həmsədri Ceyms Beyker, «2006-cı ilin xoşməramlı səfiri» mükafatını Mehriban Əliyevaya təqdim etməmişdən qabaq sözü qonağa verdi. O, ingiliscə danışdı. Səmimi qonaqpərvərliyə görə ev sahiblərinə hərarətlə minnətdarlıq etdi. Azərbaycan və ABŞ arasında portnyorluğun inkişafına palatanın töhfələrini nəzərə çatdırdı, yeni humanitar və maarifçi lahiyələrin təşkilində, əsasən də Harvard Universitetinin Xəzər Araşdırmaları proqramından söz açdı.

– Biz cavanlarımızın tərbiyəsinə xüsusi diqqət ayırırıq, – Mehriban xanım dedi. – Son üç ildə 735 orta məktəb tikilib. Ötən ay Prezident istedadlı gənc azərbaycanlıların xaricdə oxuması üçün tələbə təqaüdlərinin artırılması ilə bağlı Dövlət proqramı haqqında fərman imzalayıb... Hesab edirəm ki, təhsilə investisiya ən yaxşı investisiyadır...

Ümid edirəm ki, tələbələrin çox hissəsi Amerikaya təhsil almağa gələcək. Təhsilə dəstək Heydər Əliyev Fondunun əsas fəaliyyət istiqamətlərindən biridir.

Ceyms Beyker birinci xanımın ictimai sahədəki fəaliyyətini yüksək qiymətləndirərək, səmimi-qəlbdən qeyd etdi ki, onun tərcümeyi-halında ən mühüm səhifə 1983-cü ildə, İlham Əliyevlə ailə quranda başlanıb.

Mehriban xanım belə rəyə etiraz etmədi:

«Mənə uşaqlıqdan bu barədə bir fikir təlqin edilib ki, ailə hər şeyin əsasıdır».

«YUNESKO»nun baş direktoru Koişiro Matsuura Mehriban xanımın xidmətlərini ölçüyəgəlməz adlandırır: «O, uğurlu fəaliyyətini yalnız Azərbaycanda, yalnız Azərbaycana yaxın bölgələrdə yox, mən hətta deyərdim ki, qlobal miqyasda aparır».

Bu, əslində də belədir. Fond Azərbaycanın tarixi abidələrinin bərpası ilə yanaşı, həm də dünyəvi əhəmiyyət daşıyan diqqətəlayiq xarici abidələrin həyata qaytarılmasında da iştirak edir. Bu səpkidə ən diqqətəlayiq ünvanlardan biri – Paris yaxınlığındakı Versal sarayıdır. Başqa nümunə – Pakistanda Qızlar məktəbi layihəsinin Fond tərəfindən həyata keçirilməsidir.

Heydər Əliyev Fondu müasirliklə tarixi birləşdirən mənəvi həlqə kimi ümumbəşəri dəyərlərin xidmətində nüfuz qazanır. Məsələn, o, 2005-ci ilin avqust ayında Bakıda

«YUNESKO–Azərbaycan» gələcəyə körpü» mövzusunda konfrans keçirmişdi.

«Bu gün biz müasir texnika və qloballaşma əsrində yaşayırıq, – xanım Əliyeva düşüncələrini bölüşərək deyirdi. – Zənnimcə, dövrün ən böyük dissonansı ondadır ki, əldə olunmuş tərəqqi, kommunikativ imkanlar insanların birləşməsinə, daha geniş ünsiyyətə şərait yaratsa da, insanlar arasında uçurum dərinləşir. Biz nəinki bəşəriyyətin səsini eşitmirik, hətta qonşu qonşunu eşitmir, qardaş qardaşa kömək əli uzatmır.

Hazırda dünyanın üzləşdiyi ən ağrılı problemlərdən biri mənəvi idealların inflyasiyası, onların saxta işlərlə əvəzlənməsidir...»

O, böyük dünya forumlarında, beynəlxalq konfranslarda, «dəyirmi masalarda» iştirak edir və hər yerdə də humanist ideallarının keşiyində durur.

«Yer üzündə milyonlarla insanın və yeniyetmələrin təhsildən kənarda qalması dözülməzdir, – Mehriban xanım Əliyeva konfransın tribunasından dedi. – Bütün problemlər savadsızlıqdan yaranır...»

Forumun əhəmiyyətini vurğulayan Mehriban Əliyeva erməni işğalından xilas olmuş bir milyon qaçqının və məcburi köçkünün vəziyyəti haqqında danışdı. Azərbaycanın ən yaralı yeri olan bu problemi yenidən yada saldı. Uğursuz ailələrdə böyüyən uşaqların təhsil almasında Azərbaycanın köməyindən söz açdı. Mehriban Əliyeva vurğuladı ki, sıx şəkildə «YUNESKO» və «İSESKO» ilə əməkdaşlıq edən Azərbaycan ola bilər ki, təhsil problemlərinin öyrənilməsində regional mərkəzə çevrilsin.

Bakıda Qafqaz xalqları ənənələri Evinin yaradılması ideyası da ona məxsusdur. Bu təşəbbüs YUNESKO-da səslənib.

Bir qədər irəli gedərək 2007-ci ilin iki məlumatını yada salaq. Yanvar ayında Cenevrədə Dünya Səhiyyə Təşkilatı İcraiyyə Komitəsinin 120-ci sessiyasında Azərbaycan Milli Məclisinin deputatı Mehriban Əliyeva «Anaların, uşaq və ailənin sağlamlığının möhkəmləndirilməsində və mühafizə olunmasında xüsusi xidmətlərinə görə Ümumdünya səhiyyə təşkilatının (ÜST) mükafatına layiq görüldü. 27 may 2007-ci ildə isə, Moskvada Azərbaycanın birinci xanımına beynəlxalq «Qızıl ürək» mükafatı təqdim olundu. Bu yüksək təltiflər ona insan ideallarına xidmətdə böyük uğurlarına, genişmiqyaslı nəcib fəaliyyətinə görə verilib. Həyəcanlı mərasim İtaliya kino ulduzu Sofi Lorenin iştirakı ilə Stanislavski və Nemiroviç –

Dançenko adına Musiqili teatrda keçirildi. Sofi Lorenlə birlikdə «Qızıl ürək» mükafatını və «Beynəlxalq mükafat laureatı» fəxri nişanını Mehriban Əliyevaya Federasiya Sovetinin sədri Sergey Mironov və Təhlükəsizlik Komitəsinin katibi İqor İvanov təqdim etdilər. Rusiya prezidenti Vladimir Putinin hərarətli təbriki oxundu.

Təbriklərə cavab verərkən Mehriban Əliyeva dedi:

– Mən hesab edirəm ki, laureatların və nominantların xeyirxah əməlləri rəhmdilləyə çağırışdır, özgələrinin, bizim köməyə ehtiyacı olanların ağrı-acılarını duymaq və bölüşməyi öyrənməyimizə, şəfqətli olmağa, özgəsinə qayğı göstərməyi bacarmağımıza çağırışdır.

Mən arzu etmək istərdim ki, hər il bu mükafatın laureatlarının sayı artsın və bununla da dünyada nurlu, xeyirxah əməllər çoxalar, ağrı-acılar isə bir qədər də olsa azalar. «Qızıl ürək» müxtəlif ölkələrdən müxtəlif adamları, müxtəlif peşə və qabilliyyət sahiblərini universal və əbədi ideya ətrafında – Xeyir ideyası ətrafında birləşdirir.

Humanistik ideyalara xidmət sahəsində xüsusi xidmətlərinə görə mükafat verilməsi mərasimi hər il Rusiya Federasiyasının YUNESKO ilə iş üzrə komissiyasının, RF hökumətinin, Rusiya Qırmızı Xaç cəmiyyətinin, Federasiya Sovetinin, «Qızıl ürək» xeyriyyə fondunun, İTAR-TASS və bir sıra başqa təşkilatların dəstəyi ilə keçirilir. 2007-ci ildə «Qızıl ürək» mükafatına həmçinin yanğından uşaqları xilas etdiklərinə görə 13 yaşlı Olqa Kozlova və Dmitri Filyuşin, 60-dan artıq uşağı oğulluğa götürmüş Sorokinlər ailəs layiq görülmüşdülər. Rusiya estrada ulduzlarının iştirakı ilə keçirilmiş Qala-konsertdən əldə olunmuş vəsait «Həyat xətti» xeyriyyə layihəsinin ehtiyaclarına yönəldilmişdi.

Bir dəfə Mehriban xanım etiraf etdi ki, bütün ömrü boyu «etdiyi yaxşılığı gözə çapdırmamaq» qaydasına riayət etməyə çalışıb. Gözəl rus şairi Mixail Svetlov «Ey alicənablıq, sən gizlənənsən» demişdir. Amma, əfsuslar olsun ki, Birinci xanım statusu imkan vermir ki, onun xeyirxah aksiyaları kölgədə – gizli qalsın. «Bu məqamın mənə rahatlıq verməməsinə baxmayaraq, – Mehriban Əliyeva sözünə davam edir, – Mən buna özündənrazılıqdan uzaq olan adam kimi adi bir şey kimi baxıram».

Bunları Azərbaycanda yaxşı bilirlər və işləri tamam çətinə düşəndə Heydər Əliyevin adını ləyaqətlə daşıyan fonda mü-

raciət edirlər. «Hərdən insan elə vəziyyətə düşür ki, döydüyü qapıların hamısı üzünə bağlı qalır, Fondun prezidenti bu xüsusda deyir. – Və o, öz dərdi, problemi ilə tək qalır. Və ona elə gəlir ki, artıq ona heç nə və heç kim kömək edə bilməyəcək. Belə hallarda o bizim Fonda üz tutur. Mən demirəm ki, biz bütün problemləri bir anda həll edirik. Lakin insan burada nə laqeydliklə, nə saymazyana münasibətlə üzləşməyəcək və onun problemini həll etmək üçün bütün mümkün vasitələrdən mütləq istifadə ediləcəkdir. Görünür, xeyirxahlıq, insansevərlik, rəhmdillik Azərbaycan xalqının mentalitetinə, əsrlərlə formalaşmış ənənələrinə xas olan gözəl keyfiyyətlərdəndir və biz Heydər Əliyev Fondu kimi bu ənənələri davam etdirəcəyik».

XIV fəsil

ƏN BAŞLICA MARAQ

«Krallar gedir, amma xalqlar qalır».
V.Hüqo

Məsafələrə baxmayaraq

Məlum olduğu kimi, hər şeyi bilən statistika dünyada yaşayan bütün azərbaycanlıları da sayıb – onların sayı 50 milyondan artıqdır. « 8,5 milyonu Azərbaycan Respublikasında, 42 milyonu isə, Azərbaycan respublikasının hüdudlarından kənarda məskunlaşıb: 30 milyonu İranda, 12 milyonu isə başqa ölkələrdə. Türkiyədə etnik azərbaycanlıların sayı üç milyondan artıqdır, bu qayda ilə Rusiyada 2 milyon, Amerikada 1,5 milyon, Ukraynada 500 min, Fransada 350 min, Almaniyada 400 min azərbaycanlı yaşayır» *(«İzvestiya», 28 dekabr 2006-cı il)*.

Bu rəqəmləri şərh eləyən «İzvestiya» qəzeti yazır ki, söhbət bütün dünyaya səpələnmiş çox böyük millətdən gedir. Mövcud olmaq, milli mənsubiyyəti və mədəniyyəti qorumaq – şişirdib-artırmadan deyə bilərik ki, belə şəraitlərdə daxili həmrəylikdən irəli gəlir. Qəzet vurğulayır ki, xalqın bütün dünya üzrə ərazi dağınıqlığı «tarixi ənənələr, dil, mədəniyyət, nəsil kimi amillərin mahiyyətini daha da artırır».

Tikanlı məftillərlə bölünmüş dünyada Arazın hər iki sahilində yaşayan yaxın qohumlar belə bir-birini – bacı qardaşını, qardaş bacısını – onilliklərlə görə bilməyiblər. 31 dekabr, 1989-cu ildə xalq Sovet – İran sərhədində Naxçıvan Muxtar Respublikası ilə Cənubi Azərbaycanı ayıran maneəni – tikanlı məftilləri dağıtdı. Bu hadisənin şahidləri danışırdılar ki, doğmalar hönkürə-hönkürə qucaqlaşırdılar, bir-birindən qardaşlarını, bacılarını, uşaqlıq dostlarını xəbər alırdılar... Eyni qandan

olan qan qardaşlarının təsirli və təkrarolunmaz qovuşma anları haqqında söhbətlər hələ də dillərdən düşmür.

Üstündən iki il keçəndən sonra artıq Naxçıvana qayıtmış Heydər Əliyev Zaqafqaziya sərhəd dairəsi ştab rəisinin müavini Konstantin Tonkini qəbul etdi. O günlərdə Ali Məclis Azərbaycan türklərinin birləşməsi və Milli həmrəylik günü haqqında məsələ müzakirə edəyirdi. Təklif olunurdu ki, 31 dekabr 1989-cu ildə Sovet-İran dövlət sərhədində baş vermiş hadisə Dövlət səviyyəsində qeyd olunaraq tarixi gün kimi əbədiləşdirilsin. Məlum olduğu kimi, həmin gün Naxçıvan Muxtar Respublikası ilə Cənubi Azərbaycanı arasındakı maneə – tikanlı məftillər aradan götürülmüşdü».

Heydər Əliyev sərhəd hərəkatının, vətənpərvər gənclərin hərəkətlərinin böyük məna daşıdığını vurğuladı: «Mən Moskvada olanda gördüm ki, bu hərəkatı cinayət aksiyası kimi qələmə verirlər. Sov.İKP MK və Azərbaycan KP MK bu vətənpərvər hərəkata böhtan atırlar. Mən hesab edirəm ki, bu hərəkatın qurbanlarının xatirəsini əbədiləşdirmək vacibdir.»

Sərhəd dairəsi ştab rəisinin müavini, əlbəttə ki, hadisəni sərhəddə özbaşınalıq kimi dəyərləndirib.

Doqquz il keçəcək və Rusiya Federal Sərhəd xidmətinin direktoru general-polkovnik Totski Azərbaycan prezidenti ilə görüşündə Naxçıvandakı söhbəti xatırlayacaq.

– 1991-ci ildə mən Naxçıvanda tərəfinizdən qəbul olunmaq şərəfində bulundum. Siz mənə xeyli qiymətli məsləhətlər verdiniz. Vəziyyət onda o qədər də sadə deyildi. Siz bu məsələyə çox ayıq yanaşırdınız, konkret tapşırıqlar verirdiniz. O zaman bunları qəbul etmək xeyli ağır idi. İndi zaman keçib, biz hamımız dərk edib anlamışıq ki, elə belə də olmalı idi. Konkret ərazi var, bu ərazidə yaşayan xalq var, bu xalqın dövləti var və bu dövlətin sərhədində yalnız Moskva qaydaqanun yaratmalı deyil. Siz buna çox düzgün aydınlıq gətirdiniz. Bır var ümumdövlət miqyasında qaydalar, bir də var yerli qaydalar – bunları da nəzərə almaq lazımdır.

16 dekabr 1991-ci ildə Naxçıvan Respublikası Ali Məclisinin sədri «xüsusi bayram günü təsis edərək 31 dekabr gününü Dünya Azərbaycanlılarının Həmrəylik günü elan etdi. Bu bayram ildən-ilə daha böyük məna kəsb eləyir və Azərbaycanın bütün oğul və qızlarını Vətəni, xalqı, soykökü barədə düşünməyə səsləyir...

* * *

Azərbaycan və Rusiya prezidentləri İlham Əliyev və Vladimir Putin 2004-cü ilin oktyabrında keçirilən Ümumrusiya Azərbaycan konqresinin II qurultayının qonaqları arasında idilər. Qurultay Moskvanın ən nüfuzlu salonlarından birində – İttifaqlar Evinin sütunlu zalında keçirilirdi.

– Mən bəri başdan iki məqamı vurğulamaq istərdim, – qurultay nümayəndələrinə üz tutan Vladimir Putin dedi. – Rusiyada biz Azərbaycan icmasını dövlətlərimiz arasında münasibətlərin möhkəmlənməsinin mühüm amili hesab edirik, onun təşəbbüsləri həm siyasi əməkdaşlığımızın, həm də işgüzar əməkdaşlığımızın xeyrinədir. İkincisi, biz hamımız bilirik ki, – mən burada yüksək üslubda danışmaq istərdim, – konqres Azərbaycan xalqının görkəmli oğlu və ölkəmizin, Rusiyanın səmimi, həqiqətən səmimi dostu Heydər Əlirza oğlu Əliyev tərəfindən yaradılmışdır. Bizim hamımızın sevdiyi və hörmət etdiyi insanın oğlunun –Azərbaycan Prezidentinin burada olmasının nəinki ciddi rəmzi mənası var, həm də xalqlarımız arasında münasibətlərin varisliyinə, ən səmimi dostluğa və tərəfdaşlığa sübutdur...

Rusiya prezidenti Rusiya və Azərbaycanın ümumi tarixi taleyini yada saldı. Azərbaycan neftçilərinin fədakar əməyindən, Böyük Vətən Müharibəsi cəbhələrində yarım milyondan artıq Azərbaycan oğlunun, Azərbaycan qızının göstərdiyi hünərdən söz açdı.

– ...Əminəm ki, biz böyük zəhmət və qan bahasına əldə edilmiş mehriban qonşuluq və əməkdaşlıq kimi çox dəyərli nailiyyətimizi qoruyub saxlamalı və inkişaf etdirməliyik, xalqlarımızın nümayəndələri üçün hər cür şərait yaratmalıyıq, əlimizdən gələni etməliyik ki, Azərbaycanda yaşayan ruslar və Rusiyada yaşayan azərbaycanlılar özlərini rahat hiss etsinlər. Bütün bunlar xalqlarımızın həm indiki firavanlığının, həm də gələcək tərəqqisinin çox mühüm amilləridir...

İlham Əliyevin ürək sözləri Vladimir Putinin xoşməramlı nitqi ilə özünəməxsus tərzdə səsləşdi:

– Ümumrusiya Azərbaycan Konqresinin yaradılması ümummilli liderimiz Heydər Əliyevin xaricdə yaşayan azərbaycanlıların müxalif qurumlarının formalaşdırılması sahəsində məqsədyönlü siyasətinin bir mərhələsi idi.

Bildiyiniz kimi, Heydər Əliyevin qərarı ilə Xarici ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılmış, habelə dünya azərbaycanlılarının birinci qurultayı keçirilmişdir. Mən çox şadam ki, Ümumrusiya Azərbaycan Konqresi qısa müddətdə çox güclü, nüfuzlu struktura – bütün regional təşkilatları öz ətrafında birləşdirə bilmiş və istər Rusiyada yaşayan azərbaycanlıların hüquqlarının qorunması məcrasında, istərsə də ikitərəfli əlaqələrimizin genişlənməsi və möhkəmlənməsi məcrasında fəal işləyən struktura çevrilmişdir. Konqres bu istiqamətdə çox mühüm rol oynayır.

Böyük məmnunluqla demək istəyirəm ki, son illər məhz Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinin və Azərbaycan Prezidenti Heydər Əlirza oğlu Əliyevin səyləri sayəsində dövlətlərimiz arasında münasibətlər tamamilə yeni səviyyəyə qalxmışdır. İnamla demək olar ki, ölkələrimiz arasındakı müasir mehriban qonşuluq münasibətlərinin bünövrəsini məhz onlar qoymuşlar.

Biz bir daha əmin olduq ki, Rusiya və Azərbaycan əməkdaşlığın bütün sahələrində çox böyük potensiala malikdirlər. Məhz Vladimir Vladimiroviçin Azərbaycana səfərindən sonra bizim iqtisadi münasibətlərimizdə yeni mərhələ başlandı.

Bu gün bir daha böyük sevinclə təkrar etmək istəyirəm ki, ölkələrimiz arasında həll olunmamış heç bir problem yoxdur. Siyasi dialoqun, ünsiyyətin çox yüksək səviyyəsi mövcuddur.

Bütün bunlar keçmişimizə necə qayğı ilə yanaşdığımıza sübutdur, artıq tamamilə başqa mühitdə, müstəqillik mühitində böyüyüb formalaşan vətəndaşlarımızın yeni nəsillərinin, rusiyalıların və azərbaycanlıların yeni nəsillərinin əsası əvvəlki nəsillər tərəfindən qoyulmuş yaxşı və xeyirxah ənənələri davam etdirməsi üçün bu əlaqələri necə qoruyub saxlamağımıza və möhkəmləndirməyimizə sübutdur.

Bununla əlaqədar, mən bu gün qürur duyduğumuz əməkdaşlığımızın yüksək səviyyədə olmasında çox mühüm rol oynamış daha bir məqamı qeyd etmək istərdim. Bu, ümummilli liderimiz mərhum Prezident Heydər Əliyev ilə Vladimir Putin arasındakı şəxsi hörmət, dostluq hisləridir. Onların arasında ən məhrəmanə, ən səmimi dostluq münasibətləri mövcud idi. Mən bunu, necə deyərlər, kimdənsə eşitməmişəm. Əlbəttə ki, indi Rusiyanın və Azərbaycanın tərəfdaşlar, mən deyərdim, strateji tərəfdaşlar olmasına bu münasibətlər də çox kömək et-

mışdır. Bu istiqamətdə, eləcə də ölkəmizin fəaliyyətinin bütün digər sahələrində Heydər Əliyevin siyasəti davam edir.

«İlham Əliyev zərbəni dəf edə bilər»

Parlament seçkilərindən (2005-ci il) bir qədər sonra, şərhçilərdən biri yazırdı ki, Azərbaycan demokratiya və stabillik, siyasi ənənə və innovasiya arasında düşünülmüş tarazlıq həddini tapa bilib. İlham Əliyev bu dəfə də «zərbəni dəf etməyə hazır olduğunu göstərdi».

Dövlətin yuxarı eşalonunda korrupsiya ünsürlərinə qarşı başlanmış işlər nəzərdə tutulurdu. Dünya və eləcə də Azərbaycan mətbuatı nazirlərin, biznesmenlərin həbs olunması haqqında yazdı, özü də hay-küylü başlıqlarla: «İlham Əliyev mühasirədən çıxdı», «Təmizləmə davam edir», «Batmayanlar da batır...»

İlham Əliyev ilk prezidentliyinin ikinci ilində nələr baş verdi, axı? O, necə dəyişilə bildi? «Sınaqdan çıxmamış» siyasətçi son dərəcə birmənalı olmayan şöhrəti ilə hara qeyb oldu? «Siyasət aləmində təzə şagird» necə oldu ki, özünü siyasətin ağır çəkilisi sayanlara üstün gələ bildi? Korrupsiya çevrəsindən necə çıxdı? Çıxdı... Daha doğrusu, necə yarıb çıxdı? Özümüzə başqa bir sual verək: bəlkə heç bir dəyişilmə olmayıb? «Birmənalı olmayan reputasiya» kimi ştamp həvəskarları kiçik Əliyevin xasiyyətini, təbiətini görmədən, anlamadan öz düşüncə tələlərinə düşə bilərdilər. Bu ehtimal həqiqətə yaxın görünür.

İlham Əliyevin prezidentliyinin ilk ilini necə qiymətləndirdiyini yada salaq: «...Bizim cəmiyyət səfərbər olub, birləşib. Mənə elə gəlir ki, bu da məhz Heydər Əliyev siyasətinin nəticəsidir. Onun başladığı iş, qurduğu sistem yaşayır, yaxşı işləyir». Mixail Qusmanın «Bu il prezident üçün ən çətin olan nə idi?» sualına İlham Əliyevin verdiyi cavab, heyif ki, «Rossiyskaya qazeta»nın səhifələrindən kənarda qalmışdı. İ.Əliyev dedi: «Bəlkə də, Azərbaycan üçün ən ciddi sınaq, əlbəttə ki, cəmiyyətin, hökumətin konsolidasiyası və arzuolunmaz hallara yol verilməməsi, vəziyyətin stabilliyinin pozulmasına yol verilməməsi olmuşdur. Təəssüf ki, prezident seçkilərindən dərhal sonra Azərbaycanı 90-cı illərin əvvəllərində olmuş və hər il hökumət dəyişiklikləri ilə nəticələnmiş

hərc-mərçiliyə, vətəndaş müharibəsi girdabına atmaq cəhdləri edildi. Amma bu halda bizim iqtidar öz gücünü göstərdi, Azərbaycan cəmiyyəti bu radikal ekstremist qüvvələri dəstəkləmədi və biz cəmiyyətdə stabilliyi saxlaya bildik».

Prezidentin düşünülmüş cavabında ölçülüb–biçilmiş həlledici sözlər bunlardı: stabillik, birləşmə. Bütün əvvəlki illər – «MDBMİ»-da tələbəlik və müəllimlik illəri, ağır zamanların qorxunc günlərində, atasının milləti parçalanma təhlükəsindən qurtardığı dövr, atası ilə çiyin-çiyinə işlədiyi xoşbəxtlik və çox məsuliyyətli illər məhz buna yönəldirdi.

Mixail Qusmanla elə həmin söhbətdə Azərbaycan neft sənayesinin inkişafı haqqında sualı cavablandıran İlham Əliyev yeri gəlmişkən, «Biz-neftçilər» deyir. Bu sözü deyə bilmək hüququnu ona neft şirkətində on ilə yaxın işləməsi, ölkənin yeni neft strategiyasının hazırlanması və həyata keçirilməsində şəxsən iştirakı vermişdi. O, həm də tam əsasla biz – tarixçilər, biz – alimlər, biz – diplomatlar, biz – parlamentarilər, biz – olimpiya hərəkatı təşkilatçıları... deyə bilərdi. Hər belə formulanın arxasında gərgin zəhmət, yeni biliklərin mənimsənilməsi, insan münasibətlərində ən başlıca elm olan – idarə etmək elmi durur.

Prezidentin göstərişi ilə 50 kilometrdən artıq olan Lənkəran-Lerik yolunu təzələdilər. Belə baxanda bu, nə böyük məsafədir ki, amma çınqıllı yolla üzüyuxarı dırmaş görüm necə dırmaşırsan! Rayonun 70 yaşı tamam olurdu, amma ilk dəfə idi ki, respublika rəhbəri bu rayon mərkəzinə gəlib çıxmışdı. Ona dedilər: ən yaralı yerimiz yanacaq məsələsidir. Lerikdə qaz yoxdur, demək, yerli nadir meşə ağacları qırılır. Prezident vəd verdi: qaz olacaq. Və ayyarımdan sonra yeni qaz xəttinin açılışına gəldi. Lerik də «mavi yanacaq» gördü. Hələ üstəlik də rayonda doqquz məktəb tikdilər. Yeni körpülər saldılar, köhnələrinə əl gəzdirdilər. 4000-dən artıq iş yeri yaradıldı. Prezident seçkiləri ərəfəsində İlham Əliyev vəd verdi: qarşıdakı beş il ərzində respublikada 600 min iş yeri açılacaq. Bu proqrama vaxtından qabaq əməl olundu.

* * *

Respublika yeni qəsəbələr salırdı. Neft və qaz yataqlarını mənimsəməyə başlayırdı. Boru xətləri çəkilirdi. Cənab analitiklər isə yad səslə Bakıda «çəhrayı inqilab»dan dəm vurur-

dular. Özü də Ukrayna menyusu əsasında. Gələcək tufanda sükançı roluna hal-hazırda ABŞ-da yaşayan, keçmiş Azərbaycan parlamentinin sədri Rəsul Quliyev təyin edilmişdi. Onun haqqında cinayət işi qaldırılıb. Quliyevi külli miqdarda dövlət əmlakını mənimsəməkdə günahlandırırlar.

Əvvəlcə o, Bakıya 17 oktyabrda uçmağa hazırlaşırdı. Bu gün təsadüfən seçilməmişdi; məhz o gün Londonda ingilis kraliçası Ukrayna prezidenti Yuşşenkoya «çəhrayı» hünərinə görə mükafat təqdim etmişdi. «Çəhrayı estafeti» Kiyevdən və Tiflisdən sonra Bakıya ötürmək planlaşdırılmışdı.

Yerli silahdaşları mühaciri inandırmışdılar ki, onu təntənə ilə qarşılayacaqlar. Guya Bakı aeroportunda onu 50 min tərəfdaşı gözləyirdi. Bütün siyasətbazların zəif yeri – şişirtmədir.

Xalq iradəsinin kütləvi nümayişi və ya ukrayna tipli yaxşıca «yağlanmış» Meydan hərəkatı ölkəyə də, bütün dünyaya da təsir edə bilər. Azərbaycan mətbuatı belə faktlar gətirirdi: respublikada sifarişli qrantların alınması başqa cür düşünənlər üçündür milli peşəyə çevrilmişdir. Bundan 1400 (!) fəal qeyri-hökumət təşkilatı – assosiasiyalar, hüquq müdafiəçiləri, hər şeyə qadir araşdırma mərkəzləri qidalanır. Orta hesabla hər kontora ayda 10-15 min dollar «damcılayır».

Hökumət hadisələri başlı-başına buraxmadı. Aeroport ətrafına polis, zirehli transportyorlar yeridildi. Və bu dövlətin qərarı idi. «Rəhbəri» min nəfərə yaxın adam qarşılamağa hazırlaşırdı.

Havada ikən bundan xəbər tutan Rəsul Quliyev göstəriş verir ki, icarəyə götürülmüş təyyarə Krımda, Simferopolda yerə ensin. Onun adına belə bir deyimi çıxırlar: «Bilsəydim ki, məni o qədər hərbçi qarşılayacaq, Stepanakertdə yerə enərdim».

Azərbaycan tərəfi tələb etdi ki, eks-spikeri saxlasınlar və Bakıya ekstradisiya etsinlər. Ukrayna hökuməti bu təklifə etirazını bildirdi. Quliyevi elə məhkəmə zalından azad etdilər.

Rəsul Quliyevin Bakıya baş tutmayan səfərindən sonra MDB-nin icraçı katibi Vladimir Ruşaylo və Rusiya xarici kəşfiyyat xidmətinin direktoru Sergey Lebedev ona baş çəkdilər. Bu kənardan birbaşa güc tətbiq edilmiş Əndican variantını xatırladırdı («Oqonyok», № 4, 2005-ci il).

Əndicanda, yadınızda varsa, talanlar oldu. Özbəkistan hökuməti normal həyatı bərpa etmək üçün son tədbirə əl atmalı oldu. Şəhərdə qan töküldü. Azərbaycandakı və Özbəkistandakı

vəziyyətləri müqayisə etmək dəhşətli görünə bilər, ələlxüsus «Əndican güc variantını Rusiya ilə əlaqələndirmək cəhdi... Bu nə kənardan, nə yaxından belə görünmürdü».

Deyirlər: istənilən müqayisə qüsurludur... Bəzisi isə ümumiyyətlə mövzudan uzaqlaşdıra bilər. Bizcə, «Ekspert» jurnalının fikri daha dəqiqdir: «Siyasi təlatümlər qorxusu da öz rolunu oynayır: 90-cı illərin əvvəlinin faciəli hadisələri hələ də Azərbaycan ictimaiyyətinin yaddaşlarında çox təzədi» (№ 40, 2005-ci il). Daha sadə desək, söhbət ölkəni başına almış özbaşınalıqdan gedir. Böyük şəhərlərdə də, əyalətlərdə də insanlar stabilliyi, ictimai qanun-qaydanı, cəmiyyətin birliyini, iqtisadi dirçəlişi, bir sözlə Heydər Əliyevin etdiyi, bu gün isə İlham Əliyevin davam etdirdiklərini layiqincə dəyərləndirdilər.

İctimai rəyi öyrənmək üçün aparılmış bütün sorğular göstərir ki, mövcud hakimiyyəti əyalətlərdə 90%, Bakıda isə 55-60% insan dəstəkləyirdi. Rusiya sosioloji xidmətlərindən birinin qapalı keçirdiyi sorğuya görə, müxalifət ən yaxşı halda 125 mandatdan 10-11-ni qazana bilər. O ki, qaldı İlham Əliyevin Bakı seçki dairələrinin birindən seçkilərə gedən həyat yoldaşı Mehriban Əliyevaya, o da qapalı sorğuların nəticələrinə əsasən, seçkilərdə böyük üstünlüklə qalib gələcək (amma müxalifət indidən hay-küy qaldırıb ki, o dairədə seçkilər saxtalaşdırılacaq).

«Xalq mifologiyasını» bir tərəfə qoyaq. Ən başlıcası İlham Əliyev «inqilabçıların» bütün planlarını pozdu. 16 oktyabrda Bakıda keçmiş maliyyə naziri Fikrət Yusifovu həbs etdilər. Onu «hazırlanan çevrilişin xəzinədarı» adlandırırdılar. Qəzetlər yazır ki, iki gün keçəndən sonra Azərbaycan siyasi elitasının yuxarı təbəqəsi – «çevrilişin başqa sponsorları da» həbs olundular. Bəli, onların adları gur səslənirdi! İqtisadi inkişaf naziri Fərhad Əliyev; onun qardaşı – Qafqazda ən iri şəxsi neft kampaniyasının – «Azpetrol»un prezidenti (Neft məhsullarının pərakəndə dövriyyəsinin 70 %-ni öz əlində cəmləmiş), Prezidentin soyaddaşı Rafiq Əliyev; səhiyyə naziri Əli İnsanov; «Azərkimya» dövlət kampaniyasının prezidenti, Sumqayıtın «ağası» Fikrət Sadıqov. Böyüklüyünə görə respublikanın ikinci şəhəri olan Gəncənin polis rəisi, Bakı rayonlarından birinin polis rəisinin müavini, Prezidentin işlər idarəsinin rəhbəri Akif Muradverdiyev.

Məlumatlı mənbələrin verdikləri informasiyaya görə, İlham Əliyev hələ 2004-cü ildə İnsanovu istefaya göndərmək

istəyirmiş. O zaman guya bu alınmayıb. Digər versiyalara görə, «yeni cəhd uğurlu alınıb, çünki bu cəhd Milli Təhlükəsizlik Nazirliyinin, yeni nazir Eldar Mahmudovun əli ilə həyata keçirilib». Həbs olunanların adları bir-birindən gur səslənir. Əli İnsanov tibb elmləri doktoru, səhiyyə naziri idi. Respublikanın ən mötəbər şəxslərindən biri hesab olunurdu.

İndi də Baş Prokurorluğun, daxili işlər və milli təhlükəsizlik nazirliklərinin birgə bəyanatını oxuyaq. Bu sənəddə, məsələn, deyilir: «...Milli Məclisin sabiq spikeri Rəsul Quliyevin hakimiyyəti zor gücünə ələ keçirmək cəhdi barəsində əməliyyat-axtarış tədbirlərinin gedişində müəyyənləşdirilmişdir ki, Respublikanın sabiq səhiyyə naziri İnsanov bu məsələnin maliyyə dəstəklənməsini təmin edənlərdən biri olub...» Və sabiq maliyyə nazirinə 100 min ABŞ dolları vermişdi. «...Əli İnsanovun rəhbərlik etdiyi nazirlikdə aparılmış əməliyyat-axtarış əməliyyatının gedişində xidməti vəzifədən suiistifadə, israfçılıq, lisenziyaların verilməsi zamanı külli miqdarda rüşvət alınması faktları aşkarlanmışdı.

...Həmçinin Səhiyyə nazirliyinin əczaçılıq və tibbi texnika şöbəsinin rəisi A.Məhərrəmov da həbs olunub.

İnsanovun şəxsi evində və bağında axtarışın gedişində 1 milyon dollar, 884 min avro, 25 kq brilyant və qızıl məmulatlar, kərpic formasında qızıl külçələri, çoxsaylı obyektlərə sahib olmağı təsdiqləyən sənədlər, bədii dəyəri olan 17 şəkil aşkarlanmışdı.

A.Məhərrəmovun evində 1 milyon 217 min dollar, iş kabinetində 8900 dollar aşkar edilmişdi».

«Ekspert» jurnalı mövzunu davam etdirərək yazır ki, Yusifovun həbsindən və Quliyevin saxlanılmasından dərhal sonra müxalifətin KİV-ləri beynəlxalq ictimiyyətdə və Qərb ölkələri hökumətlərində apellyasiyaya cəhd etdilər, bununla belə, baxmayaraq ki, müxalifətin KİV-ləri Quliyevin bütün Azərbaycan üzrə (Gəncədə, Sumqayıtda, Bakıda) qohumlarının və dostlarının kütləvi həbsi barədə məlumat yaymışdılar, Qərb ölkələri hökumətlərindən gözlənilən reaksiya gəlmədi. Üstəlik də beynəlxalq agentliklər nə üçünsə bu informasiyanı öz məlumatlarına daxil etmədilər. Amerika səfiri Rino Harniş Azərbaycan hökumətini çağırıb cavab istəmək əvəzinə bəyanatla «Azərbaycanda və Özbəkistanda demokratiya çox fərqlidir və iki postsovet dövləti kimi onlar arasında paralellər aparmaq – yalnış mövqedir», dedi və sonra da sanki qeyb oldu. Amma Bakı-

ya onun şefi, ABŞ-ın Avropa və Avrasiya üzrə dövlət katibinin köməkçisi, «çəhrayı» inqilabların baş kardinalı kimi ad çıxaran Daniel Frid gəldi. Amma o da demokratiyadan çox da bəhs etmədi, elan etdi ki, ABŞ Ermənistan-Azərbaycan münaqişəsinin həllində hərbi variantı tamamilə qeyri-məqbul sayır və o ərəfədə müxalifətin Qərbə yox, azərbaycanlılara üz tutaraq səsləndirdiyi şüarında isə deyilirdi ki, nəyin bahasına olursa-olsun Qarabağı qaytarmalıyıq. Bir sözlə, jurnalın yazısından belə nəticə çıxır ki, amerikalılar nəhayət ki, qərara gəliblər ki, inqilab təmtəraqlarının günahına batmasınlar, axı alabəzək inqilabların nəticələri bu gün amerikalılar üçün səmərəli deyil. İranla həmsərhəd, neft hasilatçısı olan Azərbaycanda stabillikla bağlı eksperiment aparmaq amerikalılara nə lazım?

Və nüfuzlu jurnalın ən mühüm nəticəsi belədir: «İlham Əliyev özünün çevik hərəkətləri ilə sübut etdi ki, cavan oğlan böyüyüb və atasına oxşayan, mükəmməl hökmdar olub... O ki qaldı onun Azərbaycanı yeni iğtişaşlardan qorumaq qabiliyyətinə, bu, yəqin ki, onun əhali arasındakı nüfuzunu, populyarlığını nəzərə çarpacaq dərəcədə artıracaq.

* * *

Əli İnsanov ona qarşı sürülmüş ittihamları qəbul etmədi. Müxalifət mətbuatı zaman-zaman onun kəskin bəyanatlarını çap eləyir, yeri gəlmişkən, bu da Azərbycanda mətbuat və söz azadlığının səviyyəsindən xəbər verir.

15 fevral , 2007-ci il:

«Mənə qarşı uydurma ittihamlar irəli sürülüb. Mən həbs olunandan sonra aparılan yoxlamalar nəticəsində mənim nazir olduğum 12 ildə dövlət əmlakını mənimsəməyimlə bağlı bir dənə də olsun fakt aşkarlanmayıb. Mən «Yeni Azərbaycan» partiyasının maliyyələşdirilməsinə ixtiraçı-alim kimi qazandığım əmlakın bir hissəsini xərcləmişəm. Sizdən xahiş edirəm ki, mənim mühakimə prosesimi tezliklə başa çatdırasınız, daha mənim səbrim qalmayıb».

28 fevralda:

«Mən 15 il Heydər Əliyevdən dərs almışam, amma siz bir dəfə də olsun onunla əl tutub görüşməmisiniz. – İnsanov dövlət ittihamçısını belə tənbehlədi – Məni çox böyük məbləğdə oğurluqda günahlandırırlar, amma Azərbaycan alimləri arasında çətin ki, mənim kimi qanunpərəst vergi ödəyicisi tapılsın.

Əli İnsanov yüksək vəzifə tutduğu zamanda yalnız ona nail olub ki, onun oğlu qarajını özəlləşdirib, mənim biznesim yoxdur, təyyarəm, parovozum, heç qoyun sürüm də yoxdur. Kimsə öz arqumentlərini ortaya çıxara bilərsə, qoy desin. Sizə məlumat verim ki, mənim dərmanlarımın hesabına Hindistandan Azərbaycana 3,5 milyon dollar daxil olub... Bu gündən mən müxalifətdəyəm, bu iqtidar elə hey deyir ki, əsil müxalifət arzulayır, qoy indi görsün onu!»

Müstəqil KİV-lər İnsanovun təsisatını «Azərbaycansayağı korrupsiya nümunəsi» adlandırırdılar. Məhkəmə ağır cinayətlərinə görə keçmiş naziri 14 il azadlıqdan məhrum etdi.

* * *

İndi isə, seçkilərin özü haqqında: «Yeni Azərbaycan» partiyası 62 mandat qazandı, ölkə parlamentində yerlərin üçdə ikisini tutdu. Əsas müxalifət bloku «Azadlığa» beş yer nəsib oldu. Demək olar ki, bütün müxalifət liderləri – parlamentin sabiq spikeri Rəsul Quliyev, keçmiş prezident Ayaz Mütəllibov, digər parlament eks-spikeri İsa Qəmbər, Milli İstiqlal Partiyasının lideri Etibar Məmmədov öz dairələrində tanınmayan rəqiblərinə məğlub oldular. Müxalifət Azərbaycanda ictimaiyyətin dəstəyini qazana bilmədi.

Müxalifət mitinqlərdə ABŞ-ı havadarlığa səslədi, amma xeyiri olmadı, kənardan Azərbaycana heç kim təsir göstərə bilmədi. İlham Əliyev isə ABŞ-dan da, Rusiyadan da himayə gördü. ABŞ strateji beynəlxalq tədqiqatlar assosiasiyasının nümayəndəsi Jozef Batanski bəyanat verdi ki, parlament seçkiləri zamanı «milli qanunçuluğa, beynəlxalq qaydalara, demokratik normalara əməl olunub və səsvermə zamanı dövlət tərəfindən heç bir kənar müdaxilə qeydə alınmayıb» MDB nümayəndələrinə başçılıq edən Vladimir Ruşaylo da bu deyilənləri təsdiq edib.

«Azərbaycanda əlvan inqilab olmayacaq»

Parlament seçkilərindən dərhal sonra alman qəzeti «Züddoyçe saytunq» yazırdı: «8 milyon Azərbaycan vətəndaşının lideri İlham Əliyev özünü düzgün başa düşülməyən demokrat kimi hiss eləyir. O, son həftələrdə yorulmaq bilmədən yüyrək ingilis dilində özünü qonaqlara azad seçkilərin təmi-

natçısı kimi təqdim edir. Və bazar günü səsvermədən sonra o, Bakıda burada təəccüblü heç nə olmadığını və nəticələrdən razı qaldığını bildirdi. «Seçkilər normal keçir», – deyə o, situasiyanı dəyərləndirdi və bu, özünütərifə bənzəyirdi.

Bu ifadə qalsın repartyorun öz vicdanına. Amma çıxarılan son nəticə ilə razılaşmaq da olar: «Əliyev öz imici ilə uğurla məşğul olur. Onda atasının xarizmasının – çatmadığı hiss olunsa da, şəxsi söhbətdə o, özünü bütün dünyaya eyni gözlə baxan liberal kimi təqdim edə bilir. «Biz azad cəmiyyət qurmalıyıq», – o arzusunu bildirir, – bu halda bizdə korrupsiya da az olacaq».

Prezident düz deyir. Xatırladaq ki, 2006-cı ildə onun 45 yaşı tamam oldu. Dövlət xadimi, dövlət başçısı üçün bu qətiyyən çox deyil. Yadınıza salın ki, Heydər Əliyev Azərbaycana 46 yaşından rəhbərlik edib. Bəyəm, o, hamının rəğbətini birdən qazanıb? Yox, bu, zaman keçdikcə baş verib. Təcrübə ilə.

Bu fəsli isə biz görkəmli Azərbaycan yazıçısı Maqsud İbrahimbəyovun sözləri ilə yekunlaşdırmaq istəyirik. «Nezavisimaya qazeta»nın jurnalisti Qriqori Zaslavski söhbət zamanı Bakıda Heydər Əliyevin çoxlu portretinin olmasından söhbət açıb.

– Bu portretlərin elə bir spesifik rəmzi mənası yoxdur, – Maqsud müəllim deyib. – Bu əslində daha çox nə ordusu, nə pulu olmadan 1993-cü ildə tüstülənən xarabalıqlara gəlib sözün həqiqi mənasında idarə olunan xaosu möcüzə ilə uğurlu dövlətə çevirən insana sadəcə minnətdarlıqdır. Onun o vaxt istifadə etdiyi texnologiya mənə tanış deyil. Lakin o bunu hamı şaşqınlıq və dəhşət içində olanda bizim gözümüzün qarşısında edib. İstənilən yaxşı işdə olduğu kimi, icraçılar, görünür, həddini aşıblar və bu səbəbdən sizə elə gəlib ki, portretlərin çoxluğunda nəsə rəmzi məna var. Heydər Əliyevin işi yaşayır və çiçəklənir, amma, sizi inandırıram, əsla onun portretlərinə görə deyil.

– Bu gün sizin yazıçı və şair ictimaiyyətlə münasibətləriniz necədir? Axı «Neft bumu hamıya gülümsəyir» pyesində siz faktiki olaraq açıq-aşkar hazırkı iqtidarı dəstəkləmisiniz və xəbərdar etmisiniz ki, istənilən başqa müxalifət, necə deyərlər, ölümə bərabərdir. İl yarım öncə biz bu barədə «NQ»da yazmışdıq və bildirmişdik ki, elə vaxtlar olur ki, böyük cəsarət və böyük vətəndaş qeyrəti üsyançı olmamaqdadır. Özü də nəzərə alaq ki, ziyalılar daha çox üsyançılığa meyilli olurlar.

– Siz bunu yazmısınız və başa düşdüyünüzə görə sizə minnətdaram. 90-cı illərin əvvəllərində əhalinin çəkdiyi o cəfalardan və fəlakətlərdən sonra, hər hansı ağlı başında olan insan – fərqi yoxdur ki, o yaradıcı ziyalıdır, ya sırf fiziki əməklə məşğul olur – öz prezidenti üçün canını əsirgəməz. Bəli, mən açıq şəkildə bəyan etmişəm ki, prezident İlham Əliyevin inanılmış tərəfdaşıyam. Heç kim, hətta mənim ən qatı düşmənlərim də, deyə bilməzlər ki, mən İlham Əliyevi şəxsi maraqlarıma görə dəstəkləyirəm. Mənim şəxsi maraqlarım yoxdur, tükənib. Daha mənə dağ da bırdı, bağ da birdi. Mənim yeganə marağım – Vətənin rifahıdı. Reallıq ondan ibarətdir ki, ağıllı, yüksək təhsil görmüş Avropa yönümlü İlham Əliyev bu gün yeganə şəxsiyyətdir ki, Azərbaycanda stabilliyi təmin edə və onu yeni sarsıntılardan, məhrumiyyətlərdən qorumağı bacarar. Nə müxalifətin sıralarında, nə də iqtidar strukturlarında onu layiqincə əvəz edə bilən yoxdur.

Azərbaycanda ağıllı, konstruktiv müxalifət olmasını mən çox istərdim. Erudisiyalı liderlər, hökumət nümayəndələri ilə siyasi dialoq aparmağı bacaranlar çox lazımdı. Orada elə insanlar olmalıdır ki, onu yalnız karyera və şəxsi maraqlar yox, dövlət problemləri düşündürsün. Bu çox faydalı olardı, çünki düzgün qərar çox vaxt məzmunlu polemikaya səbəb olur. Bəlkə elə onlar mövcuddur? Bəlkə elə hansısa kol-kos müxalifət dəstəsindəki gələcək liderləri – məsələn, Çörçil, ya da Şarl de Qoll, heç olmazsa Çe Qevara və ya Suxe-Bator kimi siyasətçiləri ictimaiyyətdən gizlədir? Yox, gizlətmir. Nə əsas kolun, nə də yardımçı kolun arxasında kimsə yoxdur. Müşahidə üçün kifayət qədər vaxt var, amma müxalifətin liderləri arasında mən elə bir adam görməmişəm ki, dövlət miqyasında siyasi fəaliyyəti ilə seçilsin.

Əlbəttə, müxalifətin liderləri arasında ağıllı, dünyagörmüş insanlar var, hətta onların bəzilərinə kimyəvi təmizləmə məntəqəsi, bərbərxanası, böyük mehmanxanası, stadionu olan bir şəhəri idarə etməyi də tapşırmaq olar. Ola bilsin ki, bunu risk hesab etsinlər, amma eybi yox, risk-nəcib əməldir. Həm də, axı bu təhsil görmüş, ambisiyalı insanlar hakimiyyətə şəhər, rayon miqyasından yox, ölkə miqyasından başlamaq, daha doğrusu, bizim hamımızı idarə etmək üçün gəlmək istəyirlər. Ehtimal etmək olar ki, onlar hakimiyyət naminə qan tökməyə hazırdırlar, amma öz qanlarını yox. İndi onlar narıncı, ya da alabəzək inqilablar xülyası ilə yaşayırlar. Narıncı inqilab ya-

ratmaq üçün bir sıra şeylərin qarşılıqlı əlaqəsi lazımdır – yoxsul iqtisadiyyatı, əhalinin qarşılıqlı narazılığı, güclü liderin ətrafında birləşmiş müxalifət və zəif dövlət hakimiyyəti. Bütünlükdə bu dörd şərt bizdə yoxdur... Bu mövzu maraqlıdır, amma bu söhbətə nöqtə qoymaq vaxtıdır. Mən Bakı qəzetlərindən birinə «Əksinqilabi etüdlər» başlıqlı məqalə yazmaq istəyirəm. Həmin yazını mütləq Sizə də göndərəcəyəm, Sizin rəyinizi bilmək mənim üçün maraqlıdır. Xahiş edirəm, mənə inanasınız – Azərbaycanda alabəzək inqilab olmaycaq. Necə deyərlər, kimi topla qorxudurlarsa, onun topu da var, tüfəngi də! Lazımi tədbirlər görülür. *(«Nezavisimaya qazeta», 13 may 2005-ci il)*

XV fəsil

PREZİDENT İLİ

Fikir və fəaliyyət arasında əlaqə nə qədər yaxın və sıxdırsa, onlar bir o qədər də fəaldırlar. Ən xoşbəxt insan o kəsdir ki, təfəkkürü ilə hərəkəti üst-üstə düşür.

C.Nehru

«BU SİYASƏT MİLLİ MARAQLARA CAVAB VERİR»

Azərbaycanda prezident beş il müddətinə seçilir. İlham Əliyev ilk dəfə 2003-cü il oktyabrın 15-də bu ali vəzifəyə seçildi və elə həmin ayın 31-də Bakıda Respublika sarayında (indiki Heydər Əliyev sarayında) təntənəli andiçmə mərasimində o, xalqa ləyaqətlə xidmət edəcəyinə and içdi. Onun beş il prezidentlik müddəti 2008-ci ildə başa çatdı. Görəsən, biz hansı ili götürsək yaxşıdır ki, dövlət başçısının gündəlik fəaliyyətini həftəbəhəftə, aybaay daha dolğun və əhatəli təqdim edə bilək? Zənnimizcə, prezidentlik dövrünün orta – 2006-2007-ci illəri üzərində dayansaq məsləhətdir, çünki beş illik böyük bir yolun yarısı, məhz bu illərə düşür və artıq seçkiqabağı vədlərlə görülən işləri real müqayisə etmək mümkündür.

Yeni, 2006-cı il ərəfəsində Azərbaycan Prezidenti parlamentdən maaşının azaldılmasını xahiş etdi. Milli Məclis bu xahişə həssaslıqla yanaşıb, yerinə yetirdi. Özü də dekabr ayının 24-də, düz anadan olduğu gündə. Bəlkə kimsə onun bu addımında populizm əlamətı axtarıb, amma ictimaiyyət hər şeyi olduğu kimi qiymətləndirdi və çox da xeyirxah sözlər söyləndi Prezidentin ünvanına.

Əhalinin gəlirləri ardıcıl şəkildə artır, maaşlar yüksəlir. Yoxsulluq səviyyəsi aşağı düşür. Bir qədər irəli gedib qeyd edək ki, 2006-cı ilin axırı üçün artıq 20 faizə qədər artmışdı. Prezident çıxışlarında əminliklə deyirdi: «Gələcəkdə biz Azərbaycanda yoxsulluğu tamamilə aradan qaldıracayıq».

Dekabrın 28-də Azərbaycan Respublikasının Milli Bankı dövriyyəyə yeni manat buraxdı. Yeni manatın dəyəri köhnəsindən min dəfə artıqdı. Min «köhnə» manat bir qəzet almağa zorla çatırdı.

Yeni pulun təqdimat mərasimində İlham Əliyev özü də iştirak etdi. O, bir cəhəti xüsusi nəzərə çatdırdı ki, son on ildə ölkə iqtisadiyyatı inamla, durmadan inkişaf edir və bu da milli valyutanı möhkəmlətməyə imkan verdi.

Bir çox ölkələrdə qəbul olunmuş ənənəyə görə dövlət başçıları ilin son dəqiqələrində öz xalqına yeni il təbriki ilə müraciət edir, hamıya, ayrılıqda hər bir ailəyə, hər bir insana xoşbəxtlik, cansağlığı, firavanlıq arzulayır. Azərbaycan Prezidenti də həmvətənlərini təbrik edərək, onlara sülh, bütün ümidlərinin həyata keçməsini arzuladı... Qarabağ faciəsi bütün Azərbaycanın, hər bir azərbaycanlının ən böyük dərdi, ağrısıdır. Beynəlxalq strukturların və ATƏT-in Minsk Qrupu həmsədrlərinin səyləri, hələlik, heç bir nəticə verməmişdir.

«Mən qürur hissi ilə deyə bilərəm ki, bu gün Azərbaycan, sözün əsil mənasında, müstəqil siyasət aparır. Bu siyasət Azərbaycan xalqının milli maraqlarına cavab verir. Bu siyasət Azərbaycanı regionda lider dövlətə çevirir. Bu siyasət gənc, müstəqil ölkə kimi Azərbaycanı dünyada tanıdır. Ümid edirəm ki, görülən bütün işlər və görüləcək işlər bizim gücümüzü daha da artıracaqdır. Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirəcək, Azərbaycan regionda daha da möhkəm yerini tutacaq və Azərbaycan xalqı, Azərbaycan vətəndaşları daha da yaxşı, rahat yaşayacaqlar, sülh, əmin-amanlıq, firavanlıq şəraitində yaşayacaqlar. Mənim məqsədim budur. Mənim başqa amalım yoxdur. Mən xalq üçün işləyirəm, xalq üçün çalışıram, xalqa xidmət edirəm...».

Prezident həmvətənlərini Dünya Azərbaycanlılarının Həmrəylik Günü (31 dekabr) münasibəti ilə də ürəkdən təbrik etdi, onlara xoşbəxtlik, əmin-amanlıq və həmrəylik arzuladı.

Vaxtı ilə Heydər Əliyev islam dini ilə bağlı xalqın əsrlərlə yaşatdığı adət və ənənələrin onun həyatındakı rolundan danış-

mışdı. Azərbaycanın ümummilli lideri ölkəsinin ənənəvi dini təsisatlarına həssas münasibətin, dindarların heysiyyatlarına hörmətin, ənənəvi dini ocaqlara və məbədlərə dövlət qayğısının əsil nümunəsi idi. O, eyni zamanda Azərbaycanda tarixən mövcud olan dinlər (islam, pravoslav məzhəbi, yəhudi dini, katolisizm) arasındakı bir-birinə qarşılıqlı hörmət, nəcib tolerantlıq kimi xüsusiyyətlərin daha artıq dərəcədə möhkəmlənməsinə də xüsusi diqqət verirdi.

İlham Əliyev atasının müdrik dərslərini unutmur, yadda saxlayır. Yanvarın 9-da o, Qurban Bayramı – bütün dünya müsəlmanlarının həmrəylik və qardaşlıq günü münasibətilə dindarları təbrik etdi, onlara ürək sözlərini çatdırdı. O, qürur və iftixarla söylədi ki, Azərbaycan xalqı qadağalara baxmayaraq «heç zaman tarixi köklərindən ayrılmamış, milli adət və ənənələrini, etiqad və dini mərasimlərini bizim günlərə kimi qoruyub saxlamışdır. Qurban Bayramı da bizim belə unudulmayan adətlərimiz sırasındadır; indi demokratik hüquqi prinsiplərin, vicdan və dini seçim azadlığının bərqərar olduğu müstəqil Azərbaycan Respublikasında biz bu bayramı hər il dövlət səviyyəsində qeyd edirik».

2006-cı il təqvimin səhifələrini qətiyyətlə çevirirdi. Prezidentin bir neçə ay əvvələ, böyük beynəlxalq tədbirlər nəzərə alınanda isə, hətta daha artıq müddətə hesablanmış gərgin iş cədvəli var: saysız-hesabsız ən müxtəlif görüşlər, səfərlər, qəbullar, çıxışlar, sərəncamlar və sairə... Portuqaliyanın, Madakaskarın, Nigeriyanın, Slovakiyanın, Qırğızıstanın, Braziliyanın, Kanadanın səfirləri onun yanına təşrif buyurub etimadnamələrini təqdim edirlər. Bakı küçələrində xroniki avtomobil «tıxacları» və yeni nəqliyyat infrastrukturunun yaradılması ilə əlaqədar əməli müşavirələr keçirir. Bunsuz paytaxt sadəcə boğular; 2004 və 2005-ci illər ərzində Bakıda maşınların sayı yüz mindən çox artmışdır!

Ayın 20-sində, Qara Yanvar günü Prezident Şəhidlər Xiyabanına gedib qəhrəmanların məzarları önündə baş əyir...

Prezident sarayında «Neftçi» klubunun futbolçularını və rəhbərlərini – Moskvada keçirilmiş «Həmrəylik Kuboku» turnirinin qaliblərini qəbul edir.

Bu rəngarəng gündəlik iş və qayğılar sırasından biz iki, zənnimcə, əlamətdar və mühüm hadisəni ayırıb üzərində dayanmaq istəyirik. Birincisi – Rusiyada keçirilmiş Azərbaycan

İlinin parlaq və məntiqi davamı olan Azərbaycanda Rusiya İlidir. İkincisi isə – Heydər Əliyevin uzaqgörənliyi və iradəsi ilə bünövrəsi qoyulmuş Bakı-Tiflis-Ceyhan neft kəmərinin təntənəli şəkildə istifadəyə verilməsidir.

Hər iki hadisə barədə ayrı-ayrılıqda və növbə ilə...

Yanvar ayında mətbuat belə bir xoş xəbəri göydə qapdı: Xəzərin işgüzar inteqrasiya klubunun menecerləri tərəfindən keçirilmiş sorğunun nəticəsinə görə (1500 şirkət bu klubun üzvüdür) Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Caspian Energy İntegration Award – 2006» beynəlxalq mükafatının laureatı olmuş, Qran-pri almışdır. Əvvəllər bu mükafata Heydər Əliyev, Nursultan Nazarbayev, Vladimir Putin, Mehriban Əliyeva layiq görülmüşlər.

Yanvarın 24-də Rusiya Federasiyası baş nazirinin müavini, müdafiə naziri, hazırda baş nazirin birinci müavini Sergey İvanov Bakıya gəldi. Rusiya və Azərbaycan qəzetlərinin yazdığına görə, onun İlham Əliyevlə və Azərbaycan hökumətindəki həmkarları ilə apardığı danışıqların əsas mövzularından biri də Dağlıq Qarabağ məsələsi oldu. İvanovun fikrincə, bu konfliktin hərbi yolla həllinin perspektivi yoxdur. İvanov aydın şəkildə dedi: «Rusiya konfliktin diplomatik yolla həll olunması üçün ən zəruri vasitələrə əl atmağa hazırdır». Moskvanın «Noviye İzvestiya» qəzetinin rəyincə Sergey İvanovun Bakıya səfərində «gizli məqsəd Xəzər dənizi regionunda, eləcə də Yaxın Şərq və Fars körfəzi ölkələrində Amerika nüfuzuna qarşı Rusiya-Azərbaycan-İran oxu yaratmaqdır. Özü də belə düşünmək üçün, dolayısı ilə də olsa, əsas var – bu, ilk növbədə, Bakının xarici siyasətində Moskvanın xeyrinə baş verən dəyişikliklər və Azərbaycan-İran münasibətlərindəki gözlənilməz yumşalmadır...»

Fərziyyələrə əsaslanan bu («ox konstruksiyası») «ox söhbəti» sadələşdirilmiş məlum siyasət səviyyəsindədir; yəni ki, «kiminləsə dostluq edirsənsə, mütləq bu kimə qarşısa yönəlib». Suveren Azərbaycanın tarazlaşdırılmış xarici siyasət yeritdiyini nəzərə alsaq, güman etmirik ki, bu, belədir.

Avropa istiqaməti

2007-ci ilin 29-31 yanvarı, Paris. Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya rəsmi səfəri. «Azerbaydjanskiye izvestiya» öz hesabatında yazırdı: «Paris artıq birinci dəfə deyil ki, Azərbaycan nümayəndələrini belə səmimi qarşılayır». Həqiqətən də, bu protokol xətrinə olan nəzakət, rəsmi-formal təbəssüm deyildi, məhz səmimiyyət, mehriban münasibət idi. Bəli, iki ölkə, iki xalq arasında münasibəti ifadə edən ən dəqiq söz – səmimiyyətdir. «Heydər Əliyev» kitabında biz Şarl de Qolla Heydər Əliyevin siyasi talelərindəki oxşarlıqdan söz açmışdıq, onu da qeyd etmişdik ki, Heydər Əliyev Azərbaycan dövlətinin başçısı sifətində ilk xarici səfərini Fransaya etmişdi. Bu 1993-cü ilin dekabrında olmuşdu. O zaman Fransa və Azərbaycan prezidentləri dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq barədə Müqavilə imzalamışdılar.

Və budur, iki dövlət başçısının yeni görüşü. İlham Əliyevlə Jak Şirakın Yelisey sarayında danışıqları: siyasət, iqtisadiyyat – ayrıca mövzu kimi erməni-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi. Jurnalistlər çox maraqlı bir fakta xüsusi diqqət yetirdilər. *Prezidentlərin görüşü günü* ATƏT-in Mins Qrupunun həmsədrləri regiona son səfərlərinin nəticələri barədə yekun bəyanatı yaydılar. Fransa, Rusiya və ABŞ diplomatları Azərbaycan və Ermənistan liderlərinin məsələyə onları ruhlandıran konstruktiv münasibətlərindən razı qaldıqlarını bildirdilər.

«Prezidentlər milli maraqlarını fəal müdafiə edirlər, lakin onlar bunu elə bir tərzdə edirlər ki, sülh danışıqlarının gələcəkdə davamı üçün şərait yaranır». Vasitəçilər belə hesab edirlər. Həmsədrlər tərəfləri bir-birinə etibar və qarşılıqlı anlaşma abhavasını getdikcə artırmaq üçün tədbirlər görməyə, eləcə də atəşkəs rejimini qorumağa çağırırdılar.

«Jak Şirak 2005-ci ilin fevralında Parisdə Azərbaycan və Ermənistan liderlərini qəbul etmişdi və elə həmin ilin axırında Ermənistanda səfərdə olmuşdu», – deyə «Azerbaydjanskiye izvestiya» belə bir cəhəti nəzərə çatdırır ki, onun Qarabağ böhranı haqqında təsəvvürü yalnız eşitdikləri əsasında deyildir. – Və bu dəfə də o, danışıqlar prosesinin vəziyyəti barədə son yeniliklərlə maraqlandı».

İlham Əliyev və Jak Şirak birgə bəyanat imzaladılar. Sənəddə xüsusi olaraq nəzərə çarpdırılır ki, hər iki tərəf Azərbaycan və Fransa respublikaları arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq barədə müqavilədə göstərilən bütün əsas müddəalara tərəfdardırlar. «Fransa Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü müdafiə etdiyini bir daha bəyan etdi». Hər iki tərəf iqtisadi əməkdaşlığın, xüsusilə də energetika sahəsində, uğurla inkişaf etdiyini nəzərə çarpdırdı.

2 fevral 2006-cı il. İlham Əliyev Ümumdünya gömrük təşkilatının Avropa gömrük xidmətləri rəhbərlərinin Bakıda keçirilən Beynəlxalq konfransında iştirak edir. Bu nüfuzlu təşkilatın beynəlxalq əməkdaşlığın inkişafında xidmətlərini nəzərə alaraq, Prezident onun baş katibi M.Danenin «Şöhrət» ordeni ilə təltif olunması barədə fərman imzaladı və bu yüksək mükafatı ona təqdim etdi. Elə həmin gün İlham Əliyev Gürcüstan Respublikası Ticarət-sənaye palatasının prezident müavini D.İnaişvili başda olmaqla Gürcüstan nümayəndə heyətini qəbul etdi.

2-3 fevral, Astara, Lənkəran. İranla sərhəddə, Astarada modul tipli ilk elektrostansiya istismara verildi. Onu Azərbaycan və xarici mütəxəssislər inşa etmişlər. Prezident bu obyektdə çalışanlara əlbir və əzmkar işlərinə görə təşəkkürünü bildirdi. Lənkəranda İlham Əliyev müalicə-diaqnostika mərkəzinin tikintisi ilə, o cümlədən də oranın istilik, su və enerji təchizatının necə olacağı ilə maraqlandı. Mehriban Əliyeva rəhbərlik etdiyi fondun «Yeniləşmiş Azərbaycana – yeni məktəblər» proyekti üzrə tikilən məktəblərə baş çəkdi.

9 fevral. Vaşinqtondan telefon zəngi. Xanım Kondaliza Rays Azərbaycanın sülhməramlı qüvvələrinin İrak, Əfqanıstan və Kosovada iştirakına yüksək qiymət verir; eyni zamanda Gürcüstanda enerji böhranı zamanı Azərbaycanın qonşu respublikaya qardaşlıq köməyini də söhbət əsnasında xüsusi qeyd edir. Müşahidəçilər bu cəhəti xüsusi vurğulayırlar ki, ABŞ-ın dövlət katibi Azərbaycan Prezidentinə onun Ermənistanın dövlət başçısı ilə Fransada gözlənilən görüşü ərəfəsində zəng etmişdir.

Azərbaycanda və Ermənistanda, eləcə də bu ölkələrdən kənarda minlərlə, on minlərlə insan Parisin yaxınlığında «Rambuye» sarayında (fevralın 10 və 11-də) keçiriləcək bu

görüşün problemin həllində dönüş yaradacağını gözləyirdilər. Lakin...

Danışıqların ikinci günü Ermənistan prezidenti bildirdi ki, müdafiə naziri Serj Sarkisyanın atası vəfat edib və o, Prezident təcili Yerevana qayıtmalıdır ki, silahdaşının dərdinə şərik olsun.

Bax, belə bir diplomatik fənd.

14 fevral, Berlin. İlham Əliyevin Almaniyaya səfəri ərəfəsində bu ölkənin məşhur «Berliner saytunq» qəzetində çox xarakterik başlıqlı bir məqalə çap olunmuşdur: «Kozır-neftdir». Qəzet yazır: «Dünya siyasəti haqqında bilgiləri yalnız Ceyms Bond barədə filmlərdən olan kəslərə belə Azərbaycan haqqında bəzi şeylər məlumdur; hətta özləri bunun fərqinə varıb varmasalar da. Elə götürək «Bütün dünya da azlıq edir» filmini. Orada söhbət Qafqazdan, neftdən, kürüdən, fitnə-fəsadlardan, qohumbazlıqdan, böyük-böyük oyunçuların maraqlarından, boru kəmərlərindən və terrorçulardan gedir. Bütün bunlar Azərbaycanla da bağlıdır, orada da öz rolunu oynayır... Təbii ehtiyatların hiss olunacaq dərəcədə azaldığı və Rusiyanın gələcəklə bağlı enerji siyasətində inamsızlığın gücləndiyi bir dövrdə bu regiona və eləcə də qonşu Orta Asiyaya Avropanın marağı hal-hazırda artmaqdadır. İki həftə əvvəl Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Berlinə təşrif buyurmuşdu. indi də onun azərbaycanlı həmkarı İlham Əliyev gəlib.

Bu təsadüf, əlbəttə, səbəbsiz deyil. Almaniya Avropa İttifaqının (Aİ) bugünkü sədri kimi bir çox başqa ölkələrlə birlikdə Qafqaza və Orta Asiyaya münasibətdə Avropanın strategiyasını formalaşdırmağı qarşıya məqsəd qoymuşdur. Qazaxıstan və Azərbaycanla yanaşı, Türkmənistanın da yerləşdiyi Xəzər regionunda 100 milyard barreldən artıq neft ehtiyatı olduğu söylənilir. Orada, həmçinin çox böyük qaz ehtiyatı da vardır. Bu ehtiyatlar uğrunda döyüş çoxdan başlanmışdır. Rusiya, Çin və ABŞ xüsusi fəallıq göstərirlər. Avropa bu mübarizəyə bir qədər gec qoşulmuşdur...» *(Berliner saytunq, 15 fevral 2007-ci il).*

Əslində isə, bu, bir o qədər də elə deyil, hətta heç tamamilə elə deyil. Avropa şirkətləri – fransız, alman, ingilis şirkətləri – məsələn, Azərbaycanda çox müvəffəqiyyətlə fəaliyyət göstərirlər. Və nahaq yerə alman qəzeti Prezident Əliyevi «Qərbə nefti yalnız təklif etməklə kifayətlənməyə deyil, həm də ona siyasi və iqtisadi şəffaflıq və mülkiyyət hüququnun təminatı

məsələlərində etibarlı zəmanət verməyə, eləcə də investorları hüquqi təzminatla təmin etməyə, – çağırır. – Yalnız bu halda Azərbaycan etibarlı strateji partnyor ola bilər».

Müəllif, görünür, üzərinə bu sayaq hakimlik səlahiyyəti götürməkdən utanmır: zəmanət verin – vəssalam, nöqtə! Azərbaycan Prezidenti 2007-ci ildə Almaniyaya özünün ikinci səfəri zamanı cəfəng çağırışlarla polemikaya girmirdi. İlham Əliyev Konrad Adenaur Fondunun təşkil etdiyi «Azərbaycan XXI əsrdə – inkişafı və perspektivləri» mövzusunda müzakirədəki çıxışında Azərbaycanın nailiyyətləri, neft strategiyası çərçivəsindəki proyektlər və respublikada real mövcud olan investisiya mühiti barədə ətraflı şəkildə danışdı. Prezident Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolunu, dünya bazarına təbii enerji resurslarının çatdırılması üzrə alternativ layihələrin əhəmiyyətini xüsusi qeyd etdi. Ciddi diplomatik qaydalara uyğun olaraq Azərbaycanın birinci xanımı da Prezidentin yanında idi. Bu yerdə, Mehriban xanım Əliyevanın «İzvestiya»nın müxbiri Oleq Sıqankovla söhbətindən (biz artıq həmin söhbətə istinad etmişdik) bir parçanı diqqətinizə çatdırmaq, zənnimizcə, yerinə düşər:

– *Səfərlər zamanı protokola riayət etmək Sizin üçün çətin deyil ki?*

– Bilirsiniz, bütün bu yorucu uçuşların, diplomatik reqlamentlərin əvəzi onunla çıxır ki, çox maraqlı adamlarla görüşürsən. Bir qayda olaraq, prezidentlərin ətrafında görkəmli şəxsiyyətlər olur. Ölkədə maraqlı nə varsa, onu sənə göstərirlər. Mən hesab eləyirəm ki, səfərlər etmək, insanlarla, başqa xalqların mədəniyyətləri ilə tanış olmaq böyük xoşbəxtlikdir.

– *Prezident xanımı ilə hər hansı bir ölkəyə gəlir; aydın məsələdir, danışıqlar aparır, görüşlər keçirir, siyasi tədbirlərdə çıxış edir. Bəs xanımları; onların öz proqramı olur?*

– Bəli, xanımlarının öz ayrıca proqramı olur; qarşılama mərasimi və başqa təntənəli tədbirlərdən savayı. Birinci şəxslərin xanımlarına ən maraqlı nə varsa, onları göstərməyə çalışırlar. Bu da paytaxtlarla tanış olmaq üçün çox yaxşı imkandır. Bir də nə vaxt belə bir imkan düşəcək ki, dünyanın ən əlamətdar, ən maraqlı yerlərini görəsən?.. Fiziki mənada bu, əlbəttə, kifayət qədər ağırdır: uçuşlar çox usandırıcıdır, hər şey dəqiqəsinə kimi hesablanıb, amma nə etmək olar. Riayət edirik. Həmişə formada olmalısan və öz ölkəni ləyaqətlə təmsil etməlisən».

«Moskva – gözəlim mənim»

Bakıda elə bil artıq bahar gəlib; günəşin hərarəti havanı qızdırır, xoş ovqat yaradır. Belə bir vaxtda şəhər, eləcə də bütün ölkə Azərbaycanda Rusiya ilinin açılışına hazırlaşır. Rəngarəng afişalar sərgilərə, konsertlərə çağırır. Sahibkarlar, iş adamları II Bakı, Rusiya-Azərbaycan iqtisadi forumunda görüşə hazırlaşırlar. Oxucular, kitabsevərlər birinci Beynəlxalq rus kitabı festivalının açılışını gözləyirlər. Sergey Yeseninin Bakı haqqında şeiri bu günlər yenidən və bütün səmimiyyəti ilə səslənir:

Əlvida, Bakı! Mavi türk səması, əlvida!
Taqətdən düşürəm mən, damarımda donur qan.
Mən bir səadət kimi aparram məzaracan,
Balaxanı mayını, Xəzər dalğasını da.

Böyük Səməd Vurğunun bu sözlərdən heç də az səmimi olmayan misraları yada düşür:

Moskva! Nə qədər doğmadır bu səs,
Doğmalar dar gündə yad ola bilməz!

Azərbaycanda Rusiya ilinin başlanmasına 2006-cı il fevral ayının 21-də Vladimir Putin və İlham Əliyev start verdilər.

Rusiya prezidenti çıxışında dedi ki, bu, həqiqətən əlamətdar hadisədir, ölkələrimiz arasında münasibətlərin müasir inkişafı üçün çox mühüm tədbirlər silsiləsidir:

«...Şübhə etmirəm ki, – dedi o, – İlin proqramı Rusiya Federasiyasında Azərbaycan İlindən heç də az populyar və önəmsiz olmayacaqdır. Rusiyada Azərbaycan İli isə göstərmişdir ki, xalqlarımızın taleləri nə dərəcədə sıx tellərlə bağlanmış və onların sülh, əmin-amanlıq şəraitində yaşamağa, əlbir qarşılıqlı inkişafa, bir-birini zənginləşdirməyə kömək etməyə çalışmaq əzmi nə qədər güclüdür...

...Bizim münasibətlərimizin müsbət xarakteri bütün regionda coğrafi-siyasi sabitlik amilidir. Burada biz kooperasiyanın yeni, səmərəli modellərini hələ axtarmalı və birlikdə həyata keçirməli, təkcə ikitərəfli imkanlardan deyil, həm də postsovet məkanındakı inteqrasiya proseslərindən tam dolğunluğu ilə istifadə etməliyik».

Açılışda İlham Əliyev çox səmimi, parlaq bir çıxış etdi. Dedi:

«Bu gün biz Azərbaycanda Rusiya İlini açırıq. Mən bu əlamətdar hadisə münasibətilə hamımızı səmimi-qəlbdən təbrik etmək istəyirəm. Əminəm ki, Azərbaycanda Rusiya İli uğurla keçəcəkdir. Bu il ərzində ölkələrimiz və xalqlarımız daha da yaxınlaşacaq, bir-birimizi daha yaxşı tanıyacaq, müxtəlif istiqamətlərdə daha fəal əməkdaşlıq edəcəyik. Beləliklə, çalışacağıq ki, həm Rusiya, həm də Azərbaycan gələcəkdə də yaxşı qonşular, xeyirxah dostlar və tərəfdaşlar olaraq qalsınlar. Bu, bizim mənafelərimizə uyğundur.

Ölkələrimizi və xalqlarımızı ümumi tarix birləşdirir və ənənəvi dostluq, mehriban qonşuluq və qardaşlıq münasibətləri indi davam edir, inkişaf edir və dərinləşir.

Siyasi səpkidə ölkələrimiz arasında həm regional əməkdaşlıq məsələlərində, həm də beynəlxalq məsələlərdə çox aktiv qarşılıqlı fəaliyyət mövcuddur. Biz müxtəlif beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq edir və bir-birimizi dəstəkləyirik. Əlbətlə, ikitərəfli əsasda da əməkdaşlığın çox möhkəm bazası var.

...Bu gün biz Vladimir Vladimiroviçlə birlikdə Rusiya istehsalçılarının Azərbaycanda açılmış sərgisinə getdik. Səmərəli iqtisadi əməkdaşlığın potensialının nə qədər böyük olduğunu bir daha yəqin etdik.

Cəmi iki ildə ölkələrimiz arasında əmtəə dövriyyəsi iki dəfə artmış və indi bir milyard dolları keçmişdir. Bu gün ölkələrimizin iqtisadi imkanlarını, iqtisadiyyatın artım, sənayenin inkişaf sürətini qiymətləndirərkən inamla demək olar ki, bu, son həddi deyildir. Ona görə də iqtisadi münasibətlərin daha da artmasına çalışacağıq...

Azərbaycanda rus mədəniyyətinə və dilinə böyük məhəbbət və hörmətlə yanaşırlar. Demək istəyirəm ki, Azərbaycanda rus dilində təhsil elə Sovet İttifaqı dövründəki həcmdə həyata keçirilir. Burada bir məktəb də belə bağlanmamış, ölkəmizin, əslində, bütün dövlət ali təhsil müəssisələrində rus dilində tədris mövcuddur...

Azərbaycanda çoxlu rus, Rusiyada isə olduqca çox azərbaycanlı yaşayır. Bu da dövlətlərimiz arasındakı münasibətlərdə mühüm amillərdəndir. Əminəm ki, Azərbaycanda Rusiya İli ilə başladığımız bu il çox uğurlu olacaq, bizə daha fəal əməkdaşlıq imkanı verəcək və biz daha da yaxınlaşacağıq. Biz qonşularıq və Rusiya ilə Azərbaycan arasında mehriban qonşuluq münasibətləri çox möhkəmdir. Onlar məhz mehriban

qonşuluğun fundamental prinsiplərinə – səmimiliyə, etibarlılığa və dostluğa əsaslanır».

Rusiya Federasiyanın Prezidenti Putinin şərəfinə «Gülüstan» sarayında verilən ziyafətdə Azərbaycan Respublikasının başçısı ölkəsinin böyük ümidlərindən danışdı: «...Biz ümid edirik ki, Rusiya bizim yaxın bir qonşumuz kimi, böyük bir dövlət kimi, nəhayət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üzrə ATƏT-in Minsk Qrupu həmsədrlərindən biri kimi bu münaqişənin sülh yolu ilə həlli üçün bundan belə də səyini əsirgəməyəcəkdir...».

Vladimir Vladimirioviç Putin cavab nitqində dedi: «Əlbəttə, biz başa düşürük ki, Azərbaycan çox mürəkkəb beynəlxalq problemlər qarşısında durub; bunlardan ən başlıcası Qarabağ münaqişəsinin həlli problemidir. Bu münaqişə Azərbaycan və Ermənistan xalqlarının başı üzərində çox ağır bir yük olaraq qalmaqdadır və hər iki ölkənin rəhbərləri qarşısında ilk baxışda sadəcə həlli mümkün olmayan vəzifələr qoyur. Lakin mən əminəm ki, həqiqi iradə olarsa, nizamlanmanın variantını tapmaq mümkündür...».

Təntənəli bayram görüşü Rusiya və Azərbaycan incəsənət ustalarının konserti ilə bitdi. Gecənin xoş ab-havası, bir-birini əvəz edən melodik rus xalq mahnıları və Azərbaycan muğamları, operalardan ariyalar və dağ çayları kimi aşıb-daşan rəqslər incəsənətin xalqları və ölkələri yaxınlaşdırıb doğmalaşdıran ecazkar gücünü bir daha nümayiş etdirdi. Sovet dövründə sənətin rəngarəng polifoniyasında Azərbaycan «Yallısı» və erməni «Köçərisi», Azərbaycan əkinçisinin «Holavarı» və erməni cütçüsünün «Oroveli» yanaşı mövcud idi. Bu adların özündə bir yaxınlıq var; filoloqların fikrincə, «Köçəri» türk sözü sülh arzusu ilə yaşayan iki qonşu xalqın musiqi folklorundakı yaxınlıqdan xəbər verir və çox şey deyir.

2006-cı ilin mühüm hadisələri sırasında biz Azərbaycanda Rusiya ili üzərində xüsusi dayandıq. Bəli, bu həqiqətən xüsusi əhəmiyyətli bir hadisə idi, – həm hər iki ölkə üçün, həm də keçmiş sovet məkanındakı siyasi ab-hava üçün; SSRİ dağıldıqdan sonra bu ərazidə yaradılmış müstəqil dövlətlərdə «nüfuz dairəsi» məsələsi ətrafında mübahisələr səngimək bilmir, inteqrasiya, əməkdaşlıq ətrafında, həmçinin həqiqi və əsassız təhlükələrlə bağlı söz-söhbət davam edir.

Rusiya ili Azərbaycan rus xalqına incəsənətinin görkəmli nümayəndələrinin yaradıcılığı ilə, gözəllik dünyası ilə canlı ünsiyyətdə olmaq səadəti bəxş etdi. İl ərzində rus musiqisi festivalı, ayrı-ayrı ifaçıların konsertləri keçirildi, sentyabr ayında isə Bakıda ilk beynəlxalq rus kitabı festivalı oldu.

23 fevral. Moskva. Ümumxalq bayramı gününün səhəri, sübh tezdən (həmin gün bir qayda olaraq Rusiyada Vətəni Müdafiə Günü – əvvəllər Sovet Ordusu Günü – qeyd olunur) Moskvada Bauman bazarının damı çökdü. Bina 1974-cü ildə memar Nodar Kançelinin layihəsi əsasında tikilmişdi; bir il öncə isə Moskvada başqa bir tikili – «Transvaal» akvaparkı uçmuşdu. O zaman 28 nəfər həlak olmuşdu və Moskva meri Lujkov söz vermişdi ki, Kançelinin layihələri əsasında tikilmiş bütün binaları yoxlatdıracaq; amma, görünür, vaxt tapmamışdı. Bu dəfə daha çox insan həlak olmuşdu; düz 66 nəfər – demək olar ki, hamısı da azərbaycanlı. Onlar bayram ticarətinə hazırlaşırdılar...

Fəlakət cümə axşamı baş vermişdi, iki gün sonra Ümumdünya valideyn şənbəsi (pravoslavlarda valideynlərin yad olunduğu gündür) Rus pravoslav kilsəsinin ibadətgahlarında Bauman bazarında baş vermiş faciə nəticəsində həlak olmuş müsəlmanların və pravoslavların – azərbaycanlı, rus, ukraynalıların... ruhlarına dualar oxundu.

Moskva və Bakı fəlakətə məruz qalmış insanların ailələrinə yardımlar göstərdilər. Rusiya və Azərbaycanın prezidentləri Vladimir Putin və İlham Əliyev başsağlığı verdilər.

25 fevral. Prezident «Vətən harayı» abidəsinə əklil qoydu. Bu abidə Xocalı faciəsinin xatirəsinə Bakının Xətai rayonunda ucaldılıb. 1992-ci ildə fevral ayının 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Sovet dövründə Dağlıq Qarabağda yerləşdirilmiş SSRİ silahlı qüvvələrinin tərkibi əsasən, ermənilərdən ibarət 365-ci alayının dəstəyi ilə azərbaycanlıların yaşadığı Xocalı qəsəbəsini zəbt etmişlər. Daha doğrusu, xocalılara divan tutmuşlar. Yüzlərlə günahsız insanı vəhşicəsinə qətlə yetirmişlər...

Xocalıda vəhşicəsinə öldürülmüş həmvətənlərinin xatirəsini bütün Azərbaycan fevralın 26-da saat 17:00-da bir dəqiqəlik sükutla yad etdi. Azərbaycan matəm içində idi.

27 fevral. İlham Əliyev Bakının Nizami rayonundakı 1 №-li uşaq evinə baş çəkir. Orada bütün ölkə üzrə qızılca və məxmərək xəstəliklərinə qarşı keçirilən immunitet yaratma

tədbiri çərçivəsində (27 fevral – 12 mart) uşaqlara peyvənd edirdilər. Ümumiyyətlə, kampaniya 7 yaşından 23 yaşına qədər olan üç milyon insanı əhatə etmişdi. Bu proqramın iştirakçıları – Ümumdünya Səhiyyə Təşkilatı, YUNİSEF, ABŞ-ın İnkişaf Beynəlxalq agentliyi, Vişnevskaya – Rostropoviç Fondu və Azərbaycan Səhiyyə Nazirliyi bir il öncə, 2005-ci ilin iyulunda memorandum imzalamışdılar. Qafqaz regionunda ilk dəfə həyata keçirilən proyekt 3,1 milyon dollara başa gəlmişdi.

O unudulmaz gün Azərbaycan dövlətinin başçısını uşaq evinin qarşısında dünya şöhrətli musiqiçi, köhnə bakılı Mstislav Rostropoviç qarşıladı. İclas zalında onlar gələcək nəslin sağlamlığı üçün çox böyük əhəmiyyəti olan bu kampaniyaya həsr olunmuş mərasimdə çıxış etdilər.

Həmin tədbiri xüsusi nəzərə çarpdırmağımız ona görədir ki, bir tərəfdən müstəqil Azərbaycanın Prezidentinin diqqətdə saxladığı problemlərin diapazonuna heyrət etməyə bilmirsən; digər tərəfdən – yaşının çoxluğuna və məşğulluğuna baxmayaraq, dahi musiqiçinin vaxt tapıb anadan olduğu və böyüyüb boya-başa çatdığı ölkənin yeni nəslinin gələcəyinə canyananlıq göstərməsi doğrudan misilsiz bir hərəkətdir və biz də çoxları kimi onun unudulmaz, işıqlı obrazı qarşısında baş əyirik.

Salam, Qarabağ!

1 mart. Prezidentin ölkədaxili növbəti səfərləri; bu dəfə o, cəbhə xəttində yerləşən rayonlardan birinə, – Ermənistan silahlı qüvvələri tərəfindən qismən işğal olunmuş Ağdam rayonuna gəldi. İlham Əliyev Dördyol qəsəbəsinə baş çəkdi. Güzanlı qəsəbəsində Olimpiya idman kompleksinin təməlqoyma mərasimində iştirak etdi.

Olduqca simvolik bir hadisə – Azərbaycan tərəfi erməni ordusunun mövqeyindən top mərmisi məsafəsində yerləşən qəsəbədə atəş nöqtəsi, raket şaxtası yox, sülhməramlı bir obyekt, idman kompleksi tikir. Elə Ağdam rayon icra hakimiyyəti də burada yerləşir. Müharibə nəticəsində rayon mərkəzi darmadağın edilmiş və hal-hazırda erməni silahlı qüvvələrinin nəzarətindədir.

Bənövşələr qəsəbəsində Prezident Qarabağ müharibəsi əlili Şakir Əliyevə baş çəkdi. Yeri gəlmişkən qeyd edək ki, əvvəllər xəritədə belə bir kənd olmayıb. Yeni yaşayış məntəqəsidir.

Daha bir il keçəcək, Azərbaycan son çadır şəhərciyini də ləğv edəcək. Və Prezident 2007-ci il avqust ayının 1-də Nazirlər Kabinetinin iclasında belə deyəcək:

– Çadır şəhərciklərinin ləğvi hələ işin birinci mərhələsidir. Sizə məlumdur ki, geniş proqram qəbul olunub və gələcək illər üçün yeni təkliflər hazırlanmalıdır. Onlar hazır olan kimi biz onları müzakirə edərik. Qaçqınlar və məcburi köçkünlərlə iş üzrə Dövlət Komitəsinə müvafiq tapşırıqlar verilib.

...Ağdam rayonundakı N saylı hərbi hissəsinin döyüşçülərinin qarşısına İlham Əliyev Ali Baş Komandan adına uyğun hərbi geyimdə çıxdı.

Prezident Vətənin müdafiəçilərinə müraciətində dedi: «...İyirmi ildir ki, biz atəşkəs şəraitində yaşayırıq, lakin heç bir nəticə yoxdur (münaqişənin nizamlanmasında. – *Müəllif.*) Azərbaycanda çox güclü, yüksək peşəkarlıq qabiliyyətinə malik nizami ordu yaradılır və bu ordu ən mükəmməl texnika və silahla, döyüş sursatı ilə təmin olunur. Qarşı tərəf başa düşməlidir ki, Azərbaycanda ordu quruculuğu sürətlə gedir və bu proses gələcəkdə də davam etdiriləcək. Düşmənlə üz-üzə duran siz əsgərlərə gəlincə isə, siz hər cür diqqətə layiqsiniz».

Ola bilsin ki, Azərbaycan Prezidentinin intensiv hərbi quruculuq haqqında sözləri kimə isə hərbə çağırış, davakarlıq kimi görünür. Amma, axı belə bir məlum həqiqət də var: təsir əks-təsirə səbəb olur. Dağıdılmış evlər, təhqir edilmiş məzarlar üzərində bayquş kimi əbədi ulaması mümkün deyil. Cəza anı bir gün mütləq gələcək.

Ağdam rayonundan Prezidenti müşayiət edən maşın karvanı cəbhəyə yaxın qonşu Tərtər rayonuna yönəldi. Burada insanların adi həyatlarına, zəhmətlə dolu iş günlərinə erməni mövqelərindən tez-tez açılan avtomat və pulemyot atəşi zəhər qatır. Fitnəkarlıq deyil bu, bəs nədir? Ərazidə yaşayan, çalışan zəhmətkeş insanları daim gərginlik, qorxu altında saxlamaq məqsədi ilə bu edilir. Sonra kütləvi informasiya vasitələrinin artıq qəlibləşmiş məlumatı növbəti dəfə təkrarlanır: «Cavab atəşi ilə düşmən susduruldu». Bu yerdə əxlaqdan, sözünün üstündə durmaqdan, beynəlxalq hüquq qaydalarına riayət etməkdən heç söhbət gedə bilməz.

Prezident Tərtərdə Heydər Əliyevin xatirəsinə ucaldılmış heykəlin təntənəli açılış mərasimində iştirak edir, rayon ictimaiyyəti ilə görüşür. Və Tərtər camaatı ilə sağollaşır. Maşın karvanı yola düşür – qarşıda Bərdədir.

Bərdə və bərdəlilər Heydər Əliyevi respublika Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, sonra isə Azərbaycanın Prezidenti kimi düz 14 dəfə qarşılamışdılar. O unudulmaz görüşlər Əliyev Muzeyində dolğun əksini tapmışdır. İndi isə şəhərdə Azərbaycan xalqının lideri, unudulmaz öndərin heykəli ucalır.

Elə həmin gün İlham Əliyev Bərdədə tikiləcək müalicə-diaqnostika mərkəzinin bünövrəsinə xatirə kapsulu qoydu. Daha sonra üç qonşu rayonun sosial-iqtisadi məsələlərinə həsr olunmuş müşavirə keçirildi. Müşavirədə çıxış edən İlham Əliyev dedi:

«Bu gün səhərdən mən Qarabağ regionundayam... Biz yeni şəhərciyin açılışında iştirak etdik... Uzun illər doğma torpaqlarından ayrı düşmüş insanlar qayıdırlar... Biz bu şəhərciyin təməlini qoymaq barədə qərar qəbul edəndə mən məhz bu cəhəti əldə rəhbər tutmuşdum ki, ağdamlı məcburi köçkünlər elə Ağdam rayonu ərazisində də məskunlaşdırılsınlar...

Regionun inkişaf proqramı da yerinə yetirilir. 340 min yeni iş yeri açılıb. Onların böyük əksəriyyəti rayonlardadır. Kənd təsərrüfatının inkişafında gözəl nəticələr əldə edilib. «Aqrolizinq» Səhmdar Cəmiyyəti yaradılıb – bu, kəndlilərə, fermerlərə böyük köməkdir. Belə ki, onlara texnika ilə yardım edir; kredit də, gübrə də verirlər. Məsələn, bu il özəl sektorun alacağı kreditlərin həcmi təxminən 100 milyon dollar olacaq. Bu, özəl sektora çox böyük yardımdır».

Üç rayonun icra hakimiyyəti başçılarının çıxışlarını dinlədikdən sonra, İlham Əliyev söylənilən fikirlərə yekun vurdu:

«Mən Qarabağ regionunun daha artıq inkişaf etməsini istəyirəm. Bura bizim tarixi yerlərimiz, qədim diyarımız, cəbhəyanı regionumuzdur; bu yerlər xüsusi diqqət tələb edir. Burada sosial problemlər olmamalıdır. İşıq həmişə yanmalı, qaz olmalıdır; bir sözlə, yaxşı sosial infrastruktur yaradılmalıdır.

Qoy Qarabağ həmişə möhkəm olsun, qoy Qarabağ – Azərbaycanın dayağı daim çiçəklənsin!»

Ölkənin birinci xanımı Mehriban xanım Əliyeva Qarabağ rayonlarında tikilmiş yeni məktəblərə baş çəkdi.

Azərbaycan mətbuatı üçün ən səciyyəvi xəbərlərdən: YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva kənd məktəbində olub... Bunun ardınca isə respublikanın ən müxtəlif rayonlarındakı neçə-neçə kəndin – dənizdən dağlara

qədər – adı çəkilir. Bu münvalla Mehriban xanımın təşəbbüsü ilə işlənib hazırlanmış «Yeniləşmiş Azərbaycan üçün yeni məktəblər» layihəsi reallığa çevrilir.

Respublikada 100 min yerlik 288 yeni məktəb tikilir.

Heydər Əliyev Fondunun proqramı üzrə 2006-cı ilin planına 100 məktəbin tikintisi salınmışdı; o cümlədən Goranboy rayonunun Göranlı və Qaşaltı Qaraqoyunlu, Balakən rayonunun Talalar və Gərəkli, Cəlilabad rayonunun Ağdaş kəndlərində... Özü də adi «qutular» deyil, hamısı müasir fənn otaqları, kompyuterlərlə təchiz olunmuş siniflər və idman zalları ilə... Bu barədə Mehriban xanım Əliyeva çox yaxşı deyib: «Biz sübut etdik ki, inam, işi düzgün qurmaq bacarığı varsa, istənilən problem qısa müddət ərzində öz həllini tapır».

Bu, həqiqətən belədir. Yeni məktəblər tikintisi çərçivəsində, məsələn, «Azərenerji» və başqa iri müəssisələr və şirkətlər də bir neçə il ərzində yaxşı məktəb keçiblər. Heç şübhəsiz, yalnız kəndlərdə, rayon mərkəzlərində yox, Bakıda da yeni məktəblər tıkılir. Onlardan birinin açılışında İlham Əliyev iştirak edib. O, məktəblilərə müraciət edərək deyib:

– Uşaqlar, sizin yaxşı təhsil almağınız üçün burada hər cür şərait var. Biz istəyirik, biz arzu edirik ki, Azərbaycanda bütün məktəblər bu səviyyədə olsun. Bu, son dərəcə vacib məsələdir. Uşaqlar gözəl şəraitdə oxumalıdırlar, yaxşı bilik almalıdırlar. Azərbaycanın hərtərəfli inkişaf etməsi barədə bu gün bizim hamımızın məlumatı var. Bunu biz də bilirik, beynəlxalq ictimaiyyət də bilir. İqtisadi inkişaf sürətinə görə Azərbaycan qabaqcıl ölkələrlə bir sıradadır. Biz bu maddi dəyərləri, bizim iqtisadi potensialımızı insan kapitalına çevirməliyik: insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına zəmin yaradır və beləliklə, həm də onun intellektual (əqli) potensialını möhkəmləndirir. İndi artıq bu sahəyə investisiya qoymağın zamanı çatmışdır; belə ki, Azərbaycanda həyata keçirilən uğurlu iqtisadi islahatlar siyasəti bu gün buna imkan verir.

Belə bir fikir tez-tez eşidilir ki, İlham Əliyev Heydər Əliyevin yolunu davam etdirir. Açığı, bəziləri mahiyyətə varmadan bunu xoş söz kimi deyirlər. Amma məktəbə, təhsilə, geniş mənada götürdükdə, gələcək nəslin tərbiyəsinə diqqət məsələsində (həm də təkcə bu məsələdə yox) görürük ki, o, əvvəllər Azərbaycan Kommunist Partiyası MK-nın birinci ka-

tibi, sonra isə ölkə Prezidenti Heydər Əliyevin strategiyasını yeni şəraitdə həyata keçirir.

Martın əvvəli. Yaponiyaya rəsmi səfər. Diqqətəlayiq bir cəhətdir ki, hər yerdə olduğu kimi, İlham Əliyev Gündoğan ölkəsində də Dağlıq Qarabağ haqqında əsil həqiqəti dinləyicilərinin nəzərinə çatdırmağa çalışırdı. O, Yaponiyanın Beynəlxalq münasibətlər institutunda çıxış edir. Auditoriyada dövlət və ictimai xadimlər, alimlər əyləşmişlər. Konfliktin əsasında, – deyə, Prezident xüsusi olaraq vurğulayır, – təcavüzkar separatizm durur. «Yəni, Azərbaycan ərazisini Ermənistana birləşdirmək istəyirlər. 1980-ci illərin sonu 1990-cı illərin əvvəlində Ermənistanın silahlı qüvvələri Azərbaycan ərazisinin bir hissəsini işğal etmişlər. Biz əminik ki, ədalət həm siyasi, həm hüquqi və həm də tarixi baxımdan bərpa olunacaq. Ona görə ki, Dağlıq Qarabağ heç zaman Ermənistan ərazisi olmayıb. Ermənilər o torpaqlarda yaşamayıblar, onlar ora çar Rusiyasının qərarı ilə köçürülüblər. Bu, on doqquzuncu əsrin birinci yarısında baş verib...

...Bəzən deyirlər ki, qoy hər iki tərəf özləri öz aralarında danışıb razılığa gəlsinlər. Yox, bu yol nəticə vermir. Biz istəyirik məsələyə aydınlıq gətirək: nə baş verib, təcavüzə kim başlayıb, kim kimin ərazisini işğal edib, etnik təmizləmə siyasətini kim həyata keçirib?! Məhz bundan sonra, aydın məsələdir ki, nəticəni nəzərə alaraq, beynəlxalq prinsiplər əsasında münaqişənin həlli yolları tapılmalıdır. Mən hesab edirəm ki, bu yolla biz irəliləyə bilərik...»

10 mart. Azərbaycan Prezidenti Yaponiyanın baş naziri Dzyunitiro Koidzumi ilə görüşdü. İkitərəfli əməkdaşlıq haqqında sənədlər, o cümlədən, Azərbaycan Respublikası ilə Yaponiya arasında dostluq və əməkdaşlığın gələcək inkişafı barədə birgə bəyanat imzalandı.

13 mart. İlham Əliyev Prezident sarayında ATƏT-in Minsk Qrupunun Amerika tərəfindən həmsədri Stiven Menni qəbul etdi. Erməni-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlar prosesinin vəziyyəti ilə bağlı məsələlər müzakirə olundu. Sabahı gün Prezident ABŞ-ın Dövlət katibinin Avropa və Asiya məsələləri üzrə müavini Daniel Fridi qəbul edəcək.

16 mart, Bakı. Respublikanın paytaxtında Azərbaycanlıların II Ümumdünya Qurultayı keçirildi. Birinci dəfə dünyanın hər tərəfindən gəlmiş öz həmvətənlərini Azərbaycan 2001-ci

ilin dekabr ayında salamlamışdı. O zaman onlara Heydər Əliyev tövsiyələrini söyləyib xeyir-dua vermişdi. Və budur, yeni görüş. Qurultay Prezidentin «Azərbaycanlıların II Ümumdünya qurultayının keçirilməsi» haqqında fərmanına müvafiq olaraq hazırlanmışdır. 1218 nümayəndə və 388 qonaq 49 ölkəni təmsil edirdi. Qurultay Azərbaycan Respublikasının hamiliyi altında keçdi.

İlham Əliyev həmvətənləri qarşısında geniş nitq söylədi. Dünyanın müxtəlif yerlərindəki diasporların birləşməsi və qüvvələrin möhkəmləndirilməsinin zəruriliyini xüsusi qeyd edərək, ölkə Prezidenti həyacanla hamının ən böyük ağrısı olan Qarabağ probleminə də toxundu: «Hətta yüzillər belə keçsə, Qarabağ Azərbaycanın ayrılmaz hissəsi olaraq qalacaqdır». Onun bu sözləri sürəkli alqışlarla qarşılandı.

Prezident nitqinin sonunda dedi: «Biz – 50 milyonuq. Dünya miqyasında götürsək, biz – böyük xalqıq. Bizim hamımızın bir Vətəni var – onun adı Azərbaycandır. Biz öz doğma Vətənimizi möhkəmləndirməyə çalışmalıyıq, onun daha artıq zənginləşməsinə, qüdrətli dövlət olmasına səy göstərməliyik. Sizin hamınıza bu sahədə uğurlar arzulayıram». İlham Əliyev dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının sədri seçildi.

17 mart. Prezident Azərbaycandakı «Rus icması»nın sədri, Milli Məclisin deputatı Mixail Yuryeviç Zabelinin «Şöhrət» ordeni ilə təltif olunması barədə fərman imzaladı. Yeri gəlmişkən qeyd edək ki, Zabelin «Heydər Əliyev: lider, siyasətçi, dost» kitabının müəlliflərindən biri, Azərbaycan Beynəlxalq Universitetinin fəxri professoru, Yeni Azərbaycan Partiyası idarə heyətinin üzvüdür.

«Tam əminliklə deyə bilərik ki, Azərbaycanın siyasi üfüqlərində yeni parlaq bir ulduz işıq saçdı. Prezident Putin İlham Əliyevlə görüşündən sonra heyrətini gizlətmədi. Qərbdə də onun haqqında yüksək fikirdədirlər. Çoxları başa düşür ki, İlham Əliyevin simasında Azərbaycanda hakimiyyətə gənc və eyni zamanda təcrübəli, fəal, peşəkar bir lider gəlmişdir» (*Zabelin M., Tatarenko V.* «Qeydar Aliev: lider, politik, druq». Bakı, 2005).

17 mart. İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebi qəbul etdi. Prezident qonağı yeni təyinatı münasibəti ilə təbrik etdi və ona fəaliyyətində uğurlar arzuladı. Prezidentin gündəlik iş planı kifayət

qədər gərgindir: növbəti qəbul Latviyanın inteqrasiya məsələlərində xüsusi tapşırıqlar üzrə naziri Aynars Latkovski başda olmaqla Latviya nümayəndələri ilədir: elə həmin gün prezident Türkiyənin Strateji və sosial araşdırmalar Fondunun sədri Akkan Suver başda olmaqla fondun nümayəndələrini də («Mərmərə» qrupu) qəbul etdi.

Novruz – xeyirin təntənəsi bayramı

Novruz Azərbaycan xalqının ən qədim və sevimli bayramıdır. O, islamaqədərki adət-ənənələr və inanclarla bağlıdır. Novruzda gündüzlə gecə bərabərləşir; bahar tarazlığıdır. Təbiətin oyanışının, yeniləşməsinin başlanğıcıdır. Məcazi mənada – canlanma, təzələnmə, ümid və işıqlı sabaha, sülhün, xeyir və həmrəyliyin təntənəsinə inam rəmzidir. Başqa sözlə, Novruzun təlqin etdiyi ideya insanları birləşdirir, milli birlik, özünüdərk hissinin tərbiyəsinə kömək edir. Lakin yaxın keçmişdə, milli-mənəvi dəyərlərin tədricən aradan çıxarılması siyasəti dövründə bu bayram da dövlət tərəfindən gözdən salınır, arxaik bir mərasim kimi kənarlaşdırılırdı. Buna baxmayaraq, hər damın altında, hər ocaqda, o cümlədən də Heydər Əliyevin böyüyüb boya-başa çatdığı evdə də Novruz bayramı yaşayırdı. Sonra yenidən kəndlərin, şəhərlərin meydanlarına, küçələrinə çıxdı; əsrlərlə köhnəlib eləməmişdi, öz təravətini, həyat eşqini əvvəlki kimi saxlamışdı özündə. Çərşənbə axşamları, bayram gecəsi xalq şənliklərində hər yerdə tonqallar qalandı. Uşaqlar, gənclər, hətta xəstə insanlar tonqalın üstündən tullanırdılar – qədim inanca görə belədə azar-bezar, bütün pis nə varsa tonqala tökülür, odda yanır. Şəhərlər, qəsəbələr, kəndlər bəzədilir, hər yerdə Novruz simvolu səmənilər görünür, yumurtalar boyadılır, xonçalar bəzədilir.

Budur, paytaxtın Gənclik meydanında bakılılar Prezidenti və onun ailəsini qarşılayır. Alqışlar, hər tərəf gül-çiçək, çöhrələrdə gülüş. Baharın rəmzi olan Bahar-qız dövlət başçısını Bayram münasibəti ilə təbrik etdi, ona cansağlığı, xoşbəxtlik, xalqın rifahı naminə göstərdiyi fəaliyyətində müvəffəqiyyət arzuladı. Meydan açıq səma altında konsert zalına çevrildi. Əyinlərinə milli paltarlar geymiş uşaqlar bir neçə xalq rəqsi ifa etdilər. Novruzun şəninə qoşulmuş mahnılar, şeirlər səsləndi.

İlham Əliyev meydana toplaşanları bayram münasibətilə təbrik etdi, sonra ailə üzvləri ilə birlikdə İçərişəhərə daxil oldu,

qədim küçələri gəzə-gəzə sənət adamları ilə, adi insanlarla görüşüb bayramlarını təbrik etdi, özü də şənliyə qoşuldu, Kosa ilə Keçəlin bir-biri ilə iyəşmələrinə, mübahisələrinə hamı ilə birlikdə ürəkdən güldü...

22 mart. Prezident «Şahdəniz» yatağından qaz çıxarmaqçün quraşdırılmış özü qalxıb-enən platformanın yaradıcılarını – mühəndis və fəhlələri təbrik etdi. Dünənki proyekt reallığa çevrilirdi.

Təxminən bir ildən sonra 2007-ci ilin birinci yarısında ölkənin sosial-iqtisadi inkişafına yekun vurarkən Prezident qeyd edəcək: «Azərbaycanın neft strategiyası uğurla inkişaf edir. Bu il biz «Şahdəniz» yatağından ilk qaz ala bildik. Azərbaycan böyük həcmdə qaz çıxaran və ixrac edən ölkə oldu. Mən əminəm ki, yaxın vaxtlarda Azərbaycan qazı Türkiyə bazarına, sonra isə Avropa ölkələrinə göndəriləcək.

Keçən il bizim Avropa İttifaqı ilə bu sahədə strateji əməkdaşlıq barədə imzaladığımız Memorandum çox əla hüquqi çərçivələr yaradır. Qarşıdan gələn illərdə biz Avropa istehlakçıları ilə birbaşa müqavilələr bağlayacayıq. Yaxın zamanlarda Türkiyə və Azərbaycan arasında tranzit razılaşma barədə danışıqlar başlayacaq; bu barədə siyasi qərar artıq qəbul olunmuşdur.

Tranzit razılaşması Azərbaycana öz qazını Avropa ölkələrinə birbaşa satmağa imkan verəcək. Azərbaycanda böyük qaz ehtiyatları var – bir trillion kubmetrdən artıq. Əminliklə deyə bilərəm ki, uzun illər ərzində Azərbaycan regionun və Avropanın enerji təhlükəsizliyinə öz əvəzsiz töhfəsini verəcəkdir *(Umumrusiya Azərbaycan konqresi, № 8 (46), 2007-ci il).*

«Şahdəniz» qaz yatağının qazı artıq Türkiyəyə göndərilir.

31 mart. Azərbaycanlıların genosidi günü münasibətilə Prezident xalqa müraciət etdi. O, «erməni millətçilərinin həyata keçirdikləri» qərəzli etnik siyasəti qətiyyətlə pislədi, genosid qurbanlarının doğmalarına və yaxınlarına başsağlığı verib, onlara dözüm və səbr, şəhid olmuşlara isə Allahdan rəhmət dilədi.

4 aprel. İlham Əliyev və Robert Köçəryan Qara dəniz ətrafı ölkələrinin dialoq və tərəfdaşlıq forumu çərçivəsində görüşdülər. Əvvəlcə prezidentlər xarici işlər nazirləri Elmar Məmmədyarov və Vardan Oskanyanın, ATƏT sədrinin və başqa rəsmi şəxslərin iştirakı ilə söhbət etdilər; sonra söhbəti təkbətək davam etdirdilər.

Heydər Əliyevin təcrübəsindən bəzi məqamları xatırlamağa dəyər. O, dəfələrlə deyirdi ki, razılığa gəlmək üçün görüşmək, tərəfmüqabili dinləmək, öz dəlillərini ortaya qoymaq lazımdır...

25 aprel, Vaşinqton. Azərbaycan Prezidenti İlham Əliyev Corc Buşun dəvəti ilə ABŞ-a onunla rəsmi görüşə gəldi.

Səfər ərəfəsi Azərbaycanın dövlət başçısı ilk dəfə olaraq bəyan etdi ki, Qarabağ müharibəsində rus ordusu Ermənistana kömək etmişdir: «Ermənistan müharibəni udmayıb. Olsa-olsa bu ölkə başqa dövlətlərin əhəmiyyətli köməkliyi sayəsində hansısa üstünlüklər qazanıb. Və bu köməklik müharibənin gedişatına ciddi təsir göstərib. Bununla belə, müharibə hələ qurtarmayıb».

Dünya mətbuatının diqqət yetirdiyi başqa bir bəyanat İrana aiddir. «Azərbaycanla İran arasında, – deyə, İlham Əliyev vurğuladı – çox aydın bir razılaşma var, həmin razılaşmaya görə, bizim ölkələrin ərazisindən onlardan birinə hərbi müdaxilə məqsədi ilə istifadə oluna bilməz».

Üç gün ərzində Prezident ABŞ-da 20-dən artıq görüş keçirdi; danışıqlar apardı... Biz onların gedişatının təfsilatına varmayacayıq, verilən qiymətlərə diqqət yetirəcəyik. Verilən qiymətlər səfərin nəticələrinə həsr olunmuş «dəyirmi masada» siyasi icmalçıların çıxışlarında səslənmişdir. Söhbət may ayının 5-də «Yeni Azərbaycan» partiyasının qərargahında aparılmış, hesabatı isə mayın 6-da «Kaspi» qəzetində dərc olunmuşdur. Müzakirəni partiyanın icraçı katibinin müavini, Milli Məclisin deputatı Mübariz Qurbanlı aparmışdır. O qeyd etmişdir.

– Biz hesab edirik ki, Prezident çox praqmatik, düzgün, mən deyərdim ki, Azərbaycan üçün xeyirli siyasət aparır. Bizim xarici siyasətimiz tarazlaşdırılmış siyasətdir və Azərbaycanın maraqları bütün başqa maraqlardan yüksək tutulur.

Azərbaycan ABŞ, Rusiya, Türkiyə, İran və başqa qonşu ölkələrlə, Ermənistandan savayı, uğurlu əlaqələr yaratmışdır. Prezident İlham Əliyevin bəyanatı və bütünlükdə ABŞ-a uğurlu səfəri bir daha göstərdi ki, Azərbaycan region ölkələri arasında liderdir.

Politoloq Fəzail Ağamalı söylədi ki, Ağ Evdə Azərbaycanı «dünyanın strateji cəhətdən çox mühüm rayonunda çox əhəmiyyətli müttəfiq» və «İrak hadisələrində mühüm köməklik göstərmiş qiymətli tərəfdaş» adlandırmışlar. Vaşinqtonda olarkən İlham Əliyev Azərbaycanın dünyəvi dövlət və sosial-

iqtisadi təkmilləşmə ideallarına sədaqətini, hərbi sahədə, terrorizmə qarşı mübarizədə və energetikanın inkişafında əməkdaşlığa maraqlı olduğunu təsdiq etdi. Politoloq dövlət başçısının parlaq siyasi məharətini xüsusi vurğuladı. İlham Əliyev bir tərəfdən Azərbaycanın qonşu İrana qarşı aparıla biləcək hər hansı bir əməliyyatda iştirak etməsini mümkünsüz saydı, digər tərəfdən, diqqətə çatdırdı ki, Amerika-Azərbaycan əlaqələrinin gələcək inkişafı Bakı üçün ən əsas məqsəd olan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması və ərazi bütövlüyünün bərpasında ABŞ-ın tutduğu mövqedən asılıdır.

Deputat Səməd Seyidov isə öz növbəsində Azərbaycanın apardığı siyasətin çox səmərəli olduğunu bildirdi. O dedi:

– Azərbaycan növbəti dəfə «yelləncək» deyilən siyasətə sadiq olduğunu nümayiş etdirdi. Vaşinqtonun da. Moskvanın da «özününkü» olmaq bacarığı yeni, postsovet Azərbaycanının xarici siyasətdə fərqlənən xüsusiyyətidir. ABŞ-la İran arasında münasibətlərin son dərəcə gərginləşdiyi bir vaxtda rəsmi Bakı Azərbaycan-İran münasibətlərindəki mürəkkəbliyə baxmayaraq, hətta Tehranın da «özününkü» olmağı öyrəndi. Bu siyasət artıq öz bəhrəsini verib və... postsovet Şərq regionunda təsir gücünü yalnız saxlamaq deyil, həm də bu təsiri artırmaq üçün effektli bir vasitədir. Bu gün regiondakı bütün qonşu ölkələr və eləcə də ABŞ və Avropa İttifaqı ölkələri sabit və güclü Azərbaycanın mövcud olmasında maraqlıdırlar. ABŞ Azərbaycanın timsalında radikal islam təmayüllərinin yayılmasına maneələr törədən dünyəvi bir ölkə görür. Dağıstanda və bütün Şimali Qafqazda «yeniləşmiş islamla» qarşılaşmış Rusiya öz cənub sərhədlərində terrorizmə qarşı mübarizədə ona yardım göstərməyə hazır olan bir ölkə görmək istəyir. İran isə Azərbaycanın islam dünyasına mənsub olmasını və onun rəhbərlərinin ölkələrini müharibəyə, özü də elə-belə kiçik müharibəyə yox, dağıdıcı müharibəyə cəlb olunmasını istəmədiklərini daim diqqətdə saxlayır. *(«Kaspı», 6 may 2006-cı il).*

«Vağzalı» sədaları altında

30 aprel, Bakı. Respublikanın paytaxtı Bakıda «iki parlaq ulduzun toyudur». Gəlin – İlham və Mehriban Əliyevlərin böyük qızı Leyla Əliyevadır. O, Heydər Əliyev Fondunun Moskva nümayəndəliyinə rəhbərlik edir, Moskva

Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda oxuyur və bu ali təhsil ocağında fəaliyyət göstərən Azərbaycan klubunun başçısıdır. Yeri gəlmişkən xatırladaq ki, SSRİ Xalq artisti, Rusiya Federasiyası Dövlət Dumasının üzvü İosif Kabzon Heydər Əliyevin adını daşıyan fonda həsr olunmuş filmə baxdıqdan, Əliyevin «gözəl nəvəsi Leyla xanımın bu fond barədə dediklərinə qulaq asdıqdan sonra» özü demişkən fikirləşib ki, «bizim bəzi nazirləri ora təcrübə keçməyə göndərmək lazımdır»...

Nişanlı oğlan – Emin Ağalarov da kifayət qədər tanınmış adamdır, məşhur «Krokus» şirkətinin maliyyə direktorudur. Rusiyanın çox iri sahibkarlarından biri Araz Ağalarovun oğludur. Onu haqlı olaraq gənc nəslin ən istedadlı biznesmenlərindən hesab edirlər. Mətbuat onu «ticarət imperiyasının varisi» adlandırır. Üstəlik, o, həm də istedadlı musiqiçi, məşhur ifaçıdır. Aprel ayının 22-də Emin «Still» adlandırdığı ilk solo albomunu tələbkar Moskva dinləyicilərinin mühakiməsinə verib. Müsahibələrinin birində o, belə deyir:

– Musiqi mənimçün sadəcə hobbi olmaqdan daha artıq bir şeydir. O mənim varlığımın bir hissəsidir və musiqiyə də mən biznes kimi ciddi və böyük istəklə yanaşıram.

«Sur La Terre» jurnalına verdiyi müsahibədən daha bir fikri nəzərə çarpdırmaq istəyirik:

« – *Bizim günlərin qəhrəmanını Siz necə təsəvvür edirsiz? Özünüzü o qəhrəman kimi hiss edirsizmi?*

– Özüm haqqında qəhrəman kimi danışmaq mürəkkəb məsələdir... Mən atamın mənə tərbiyə haqqında tələqin etdiyi anlayışlara riayət etməyə: vicdanlı və ədalətli olmağa, böyüklərə hörmətlə yanaşmağa çalışıram.

– *Siz elə hesab eləyirsiz ki, bu anlayışlar bu gün aktualdır, əhəmiyyətini saxlayır?*

– Bəli, bunlar bütün dövrlərdə aktualdır və əhəmiyyətini də saxlayır. Tam əminliklə deyə bilərəm ki, mənim əhatəmdə olan insanların hamısı ləyaqətli insanlardır».

Həyatda atasından nümunə götürür: sıfırdan başlayıb və hər şeyə özü nail olub.

Leyla və onun kiçik bacısı üçün dünyada ən yaxşı insan analarıdır. Mehriban xanımın bacısı Nərgiz xanım belə deyir və sonra da əlavə edir ki: «O heç vaxt çətinliklər qarşısında təslim olmur, geri çəkilmir».

Məşhur adamların – dövlət başçılarının, böyük siyasətçilərin, estrada və idman ulduzlarının həyatı məhdud düşüncəli

adamları rahat buraxmır. Bəzi adamlara çörək vermə, su vermə, qoy elə səhərdən axşamacan o qapıda, bu kandarda kimin kiminlə evlənməyindən, kimin kiminlə boşanmağından, mülkiyyətlərini bölüşməklərindən danışsınlar...

Aprel ayının 30-da dünya mətbuatının əsas kübar xəbərlərindən biri, bəlkə də birincisi Leyla ilə Emin Ağalarovun toy mərasimi idi. Bakıdakı bu toy barədə, hətta Amerikada çıxan «Novoye russkoye slovo» qəzeti də yazmışdı:

«İlham Əliyev və onun həyat yoldaşı, gözəllər gözəli və ictimai-siyasi xadim, az qala ledi Diananın şöhrətini belə kölgədə qoyan Mehriban xanımın dörd övladı var. (Ümumiyyətlə, əslində, üçdür, amma okeanın o üzündə bunu dəqiq bilmirlər. – müəllif).

Leyla Əliyeva – İlham Əliyevin böyük qızıdır. Onun 21 yaşı ola-olmaya. Bakı Dövlət Universitetində təhsil alıb... Yuxarı dairələrdə gəzən söz-söhbətə görə, o, Mehriban Əliyevanın sevimlisidir.

Yəqin ki, xarici ölkələrin paytaxtlarına, o cümlədən də Rusiyaya tez-tez səfərləri zamanı Emin Ağalarovun diqqətini cəlb edib. Leylanın gözəlliyi və sülalə ilə qohumluğun perspektivi maliyyə direktoru və «Krokus» ticarət imperiyasının varisini lap ürəyinin başından ovlayıb. Toy mərasimi paytaxtın «Gülüstan» sarayında baş tutub.

Qonaqlar Dövlət mahnı və rəqs ansamblının əyinlərinə milli paltarlar geyib, ikiqat düzülmüş rəqqaslarının arasından keçib zala daxil olurdular. Zalın ən möhtəşəm bəzəyi holland qızıl güllərindən və səhləb çiçəklərindən düzəldilmiş fəvvarə idi. «Vağzalı» sədaları altında bəylə gəlin – Leyla Əliyeva ilə Emin Ağalarov məclisə təşrif buyurdular...»

Bu rəvan, təsirli, zərif melodiya çox-çox illərdir ki, Azərbaycanda toy mərasimlərini müşayiət edir. Adətən, onu gəlini ata evindən nişanlısının evinə yola salanda çalırlar. Müasir dövrdə də, toy mərasimlərinin avropalaşdığı, onlara yeni-yeni çalarlar əlavə olunduğu (Mendelsonun marşı, ZAQS-da rəsmi xeyir-dua və sairə) bizim günlərdə də bu ecazkar xalq havası yaşayır, hər yeni ailənin təməlqoyma mərasimini bəzəyir.

Görünür, bu havanın adı Cənubi Qafqazda ilk dəmiryolunun çəkildiyi zamana təsadüf edir. Və vağzal sözünün müasir mənası ilə əlaqədardır; Vağzallarda adətən gedənləri yola salırlar – Burada bir ayrılıq motivi, həzinlik var. Amma vağzal sözünün özü (ya da «voksal» – V.İ.Dalın lüğətində belədir)

dəmir yolu olmamışdan əvvəl də – hələ XVIII əsrdə də olub, Londonun yaxınlığında Ceyn Voks adlı bir xanımın malikanəsindəki şənliklərin keçirildiyi parkın adından götürülüb.

Təbii ki, balabanda, qara zurnada nağaranın aram ritmi ilə həmahəng ilk dəfə «Vağzalı»nı ifa edən musiqiçilər nə xanım Ceyn Voksun adını eşitmişdilər, nə də onun bəylərin, ağaların şənləndikləri parkından xəbərləri vardı. İnsan həyatının ən əlamətdar, mühüm mərasimləri həmişə musiqi ilə müşayiət olunduğunu nəzərə alsaq, görünür «Vağzalı» adı bu melodiyanın özündən sonra yaranmışdır. Onun əsasında (3/4 ritmində) muğam ladı, daha konkret desək «Segah» muğamı durur. «Vağzalı» havası çox ağır-ağır, peşəkar musiqi dili ilə desək – andantedə ifa olunur.

İndi gəlin, gəlinin toy mərasimində nişanlısının evinə yola salınma ənənəsini təsəvvürümüzdə canlandıraq. Toy qatarı (keçmişdə bu bir-birinin ardınca düzülmüş faytonlar idi, indi isə – maşınlar) yola düşməyə hazırlaşır. Gəlinin ata-anası, qardaşları, bacıları, əlbəttə, son dərəcə mütəəssirdirlər, hətta gözyaşısız da keçinmir. Elə gəlinin özü üçün də hisslərini cilovlamaq bir elə də asand deyil; toyun sevinci ilə doğma ocaqdan ayrılığın kədəri biri-birinə qarışıb. Zurna haray çəkir, balaban ona səs verir, nağaranın təmkinli, ağır zərbələri ürəyin həyəcanlı döyüntülərinə çatmır.

«Vağzalı» artıq «abidələşmiş» o xalq havalarındandır ki, adətən, musiqiçilər onu improvizəsiz çalırlar.

Qara zurna səs tembrinə görə qaboya çox oxşayır, yuxarı notlarda haray çəkir, sanki bütün mahala işıqlı, eyni zamanda da bir qədər kədər çalarlı hadisə barədə xəbər verir. Axı, toy – həm sevdiyin insana, nişanlına qovuşmaq, həm də doğmalarınla ayrılıq deməkdir... «Vağzalı» insanı həyatın gözəllikləri, ailənin müqəddəsliyi və xeyir əməllərin yaşarılığı haqqında düşündürür.

Nişanlı oğlanla qızın ürək açan, incə, zərif geyimləri qohum-əqrabanın, qonum-qonşunun bəzədikləri xonçalar insan həyatındakı bu unudulmaz bayramın təmizliyini və gözəlliyini daha artıq nəzərə çarpdırır.

Şair Tofiq Bayram «Vağzalı» şeirində hər bir azərbaycanlının ürək çırpıntısı ilə yaşadığı toy hadisəsinin həm zahiri rəsmini, həm də daxili hiss və həyəcanlarını, bir sözlə, bütün mahiyyətini məharətlə qələmə almışdır:

Duvağa bürünüb yola düşürsən,
Qonşular telinə çiçək bağlayır.
Ay bacım, sən haldan-hala düşürsən,
«Vağzalı» çalınır, anam ağlayır.

Köçürsən üzüağ, məğrur, həyalı,
Gedirsən könlünü verdiyin yerə.
Buydu anamın da fikri-xəyalı,
Bəs niyə kövrəlir o, birdən-birə?

Ortada quş kimi süzür gəlinlər,
Qızlar oğrun-oğrun yar soraqlayır.
Gülür, fərəhlənir toya gələnlər,
«Vağzalı» çalınır, anam ağlayır.

Bir evdən, bir evə səadət gedir,
Biri yola salır, biri səsləyir.
Bir ana qızını burada ləngidir,
Bir ana həsrətlə gəlin gözləyir.

Otaqda boş qalır gümüş çarpayın,
Küncdə bir kitabı yel varaqlayır.
Naxışlı fincanda soyuyur çayın,
«Vağzalı» çalınır, anam ağlayır.

Ona təskinlik də gərək deyildir,
O göz yaşlarında sevinc var, bacım.
Səadət həmişə gülmək deyildir,
Ana qız toyunda ağlayar, bacım.

Gedirsən, ən şirin arzu-kam kimi,
«Vağzalı» çalınsın, get yavaş-yavaş.
Dünyada hər ana öz anam kimi,
Bircə toy günündə ağlayaydı kaş!

«Gülüstan» sarayındakı toyun da hər bir toy kimi gözəlliyi vardı: mahnı rəqsi, rəqs mahnını əvəz edirdi. Kimlər iştirak etmirdi bu toyda: Dövlət rəqs ansamblı... Lev Leşşenko, İqor Krutoy... məşhur modelyerlər Yudaşkin, Zaytsev... Fransız musiqi qrupu... Daha kimlər, kimlər...

Azərbaycan Prezidenti ABŞ-dan yenicə qayıtmışdı. Burada o, Prezident olmaqdan daha çox, övladının xoşbəxtliyinə sevinən mehriban bir ata idi. Mikrafona yaxınlaşdı, həmkarları Vladimır Putinin və Corc Buşun səmimi təbrik teleqramlarını

oxudu. Şübhəsiz, bu, bəylə gəlinçün də, qonaqlarçün də xoş bir sürpriz oldu. Sonra o, rok-n-rol oynadı.

Adət-ənənəyə görə valideynlər bəylə gəlini «Vağzalı» sədaları altında maşına qədər yola saldılar. Səhərisi toy karvanı aeroporta yollandı. Orada sevgililəri «Boinq» gözləyirdi. Çox keçmədi, təyyarə havaya qalxdı və Moskvaya istiqamət götürdü; bəyin evinə... Və qədim «Vağzalı» havası da onların ardınca yüksəldi...

Uzaq yola gedənlərin ardınca su atarlar – bu, bir adətdir.

Qızını ər evinə yola salan ananın bulaq suyu kimi təmiz göz yaşı onun xeyir-duasıdır.

May ayı iki çox böyük beynəlxalq konfransla başladı və başa çatdı: onlardan biri Azərbaycanda keçirildi, digərində isə Azərbaycan iştirak etdi. Mayın 5-də Bakıda İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) üzvü olan ölkələrin 11-ci sammiti açıldı. Siyasi icmalçılar belə bir cəhətə diqqət yetirdilər ki, dövlət başçıları Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini müdafiə etdilər. Kiyevdə isə GUAM-ın sammiti oldu. (Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova. Bir zamanlar bu birliyə Özbəkistan da daxil idi və onda təşkilat belə adlanırdı: GUÖAM).

Görüşün şərhini verən «Nezavisimaya qazeta» mayın 24-də (2006-cü il) yazırdı: «Ukrayna, Gürcüstan, Moldova və Azərbaycan prezidentlərinin görüşü Tbilisi, Kiyev və Kişinyovun tutduqları qərbyönlü kursu nəzərə alaraq çoxdan planlaşdırılmışdı; görüşün hansı siyasi istiqamətdə aparılacağını qabaqcadan bilmək bir elə də çətin deyildi. İlk baxışda Azərbaycan Prezidenti «Kiyev dördlüyünün» digər üzvlərindən bir qədər fərqlənirdi, onun Moskvaya qarşı loyal olmamasını düşünməyə əsas yox idi. Lakin o, GUAM-ın bu sammitinə gəldi; özü də hətta prezident Viktor Yuşşenkonun gürcü və moldav qonaqlarından daha tez. Və bu da istisna deyildi ki, sammitdə məhz onun iştirakının həlledici əhəmiyyəti olacaqdı: nəticədə Əliyev dünən öz yeni simasının və formatının təntənəli təqdimat mərasimini keçirən GUAM-ı ya sementləyə və enerji cəhətdən gücləndirə bilər, ya da əksinə – dağıda bilər. Birinci ssenari Tbilisi, Kiyev və Kişinyovun ardınca Bakının da ABŞ-ı özünün əsas partnyoru (tərəfdaşı) hesab edəcəyi halda həyata keçəcək. İkinci ssenari isə – Əliyev Rusiya ilə müttəfiqliyin daha xeyirli və ya perspektivli olduğunu qəbul etdiyi təqdirdə

Azərbaycan liderinin Vaşinqton və Moskva ilə dialoqlarını mətbuatda çoxdan «siyasi yelləncək» termini ilə mənalandırıblar. Və Əliyev artıq onu da sübut edib ki, o birbaşa təzyiq göstərmədən həmsöhbətlərini istədiyi səmtə yönəldə bilir, özü də bu zaman «dostlarının düşmənlərindən» öz məqsədlərinə çatmaqçün məharətlə istifadə edir.

«Nezavisimaya qazeta» daha sonra yazır ki, Vladimir Putin Rusiya İli tədbirlərinin açılışı münasibəti ilə Bakıda olarkən İlham Əliyev onu Azərbaycanın Moskvaya qarşı sədaqətli və etibarlı tərəfdaş olduğuna inandırdı. Təxminən elə eyni vaxtda Azərbaycan xarici işlər nazirinin müavini Araz Əzimov bildirdi ki, onun ölkəsi «kimə qarşı isə yönəlmiş ittifaqın üzvü olmaq fikrində deyil və regionun bütün dövlətləri ilə mehriban qonşuluq əlaqələri qurmaq istəyir». Bir neçə gün sonra Əliyev növbə ilə ayrı-ayrılıqda Qazaxıstan və Gürcüstan Prezidentləri ilə görüşüb hər birinə Rusiyadan asılı olmayan Bakı-Tbilisi-Ceyhan marşrutu ilə neft nəqli proyektində fəal iştirak edəcəyinə söz verdi. Özü də birinci görüşdə (Nazarbayevlə) əməkdaşlığın inkişafında MDB-nin rolu nəzərə çarpdırıldı, ikincidə isə (Saakaşvili ilə) GUAM-a bənzər regional birliklərin əhəmiyyəti xüsusi vurğulandı. Sonra İlham Əliyev nümayişkaranə tərzdə İranın müdafiə nazirini dostcasına qəbul edib Vaşinqtona rəsmi görüşə yollandı.

Faktiki olaraq bir neçə gün ərzində rəsmi Bakı özünün əsas tərəfmüqabillərinə məsələ ilə bağlı şərtlərini ortaya qoydu və indi onlar cavab gedişlərini etməli idilər. Bundan sonra Azərbaycan lideri təklifləri nəzərdən keçirib müttəfiqini seçə bilərdi. Əliyevin bir sıra bəyanatlarından belə görünür ki, bu oyunda Qarabağ münaqişəsinin tənzimlənməsində ABŞ və Rusiyanın tutacaqları mövqe həlledici rol oynayır.

Rusiya Siyasi və hərbi araşdırmalar İnstitutunun şöbə müdiri Sergey Markedonov İlham Əliyevin Vaşinqton səfəri zamanı verdiyi bəyanatı şərh edərək demişdir: «Görünür, Bakını ilk növbədə güclü bir müttəfiqin köməyi ilə qiyamçı ərazisi üzərində öz hakimiyyətini bərpa etmək düşündürür. Amerika–Azərbaycan əməkdaşlığının gələcəkdə daha da möhkəmlənməsi bütünlüklə ABŞ-ın Qarabağ məsələsində mövqeyindən və Vaşinqtonun Yerevana təzyiq göstərməyə nə dərəcədə hazır olmasından asılıdır...». Qarabağ münaqişəsi istiqamətində əsaslı addımlar atılarsa, Bakı «İran məsələsində» üzüyolalığa hazırdır».

Yəqin. ABŞ hökumətində təklif üzərində ciddi düşünürlər. Hər halda. Vaşinqtonda gözlənilməz bir vəziyyət müşahidə olunur: belə ki, Əliyevə bir dəfə də olsun insan haqlarının pozulması faktları və demokratiya prinsiplərinə riayət edilməməsi xatırladılmayıb. Halbuki, Vaşinqtonda danışıqlar zamanı Bakıda məhkəmə bir neçə müxalifət nümayəndəsi barədə hökm çıxarmışdır və bu məsələ Amerika-Azərbaycan danışıqlarının əsas mövzusu hesab olunurdu.

Mühüm səfərlər

16 iyun, Alma-Ata. Diplomatiya təcrübəsində müxtəlif görüşlər olur: dövlət səfərləri, rəsmi səfərlər, işgüzar səfərlər. Dövlət başçıları formal və qeyri-formal sammitlər çərçivəsində tez-tez danışıqlar aparırlar... Məsələn, Rusiya və Azərbaycan prezidentlərinin növbəti görüşü 2006-cı il iyunun 16-da Asiyada qarşılıqlı təsir və etimad tədbirləri üzrə məsləhətləşmələr çərçivəsində Alma-Atada baş tutdu. Rusiya prezidentinin Mətbuat xidməti bu görüş haqqında belə xəbər verirdi.

«V.V.Putin: Salam, İlham Heydəroviç.

Bizim yalnız görüşlərimiz müntəzəm keçirilmir, ikitərəfli münasibətlərimiz də olduqca inadla inkişaf etdirilir. Bu, iqtisadiyyata da aiddir, humanitar sahəyə də. Və Azərbaycan rəhbərliyinin son illər ərzində tutduğu mövqe, xarici siyasət kursu bu nailiyyətlərdə az əhəmiyyətli deyil. Münasibətlərimizin həcmini və əlaqələrimizin çoxşaxəli xarakterini nəzərə alsaq, bizim danışmağa sözümüz çoxdur.

İ.H.Əliyev: Səmimi sözlərinizə görə çox sağ olun, Vladimir Vladımıroviç.

Sizi yenidən görməyimə çox şadam. Yadımdadır, sonuncu dəfə Sizinlə Bakıda, Azərbaycanda Rusiya İlinin açılışı zamanı görüşmüşdük; İl çox uğurla başladı və uğurla da davam edir. Bu gün də, həmçinin yenidən görüşmək, ikitərəfli münasibətlərdə mövcud olan məsələləri müzakirə etmək imkanına görə şadam. Biz ölkələrimiz arasındakı münasibətlərin inkişafından çox məmnunuq. Əlaqələrimiz bütün istiqamətlərdə, o cümlədən siyasi sahədə inkişaf edir. Ölkələrimiz arasında ticarət dövriyyəsi sürətlə artır, biz onu iki dəfə artırmışıq. İndi, yəqin ki, ticarət dövriyyəsinin bu artımının özünü də iki dəfə

artıracayıq. Humanitar sahədə də həmçinin əməkdaşlığımız çox yaxşı gedir və biz buna çox şadıq.

Və, əlbəttə, Rusiya ilə münasibətlər bizim üçün prioritet xarakter daşıyır. Biz münasibətlərimizin belə dinamik inkişafından çox məmnunuq. Bu münasibətlər dostluq, mehriban qonşuluq, bərabərlik və tərəfdaşlığa əsaslanır».

Alma-Atada İlham Əliyev Nursultan Nazarbayevlə danışıqlar apardı. Prezidentlər Qazaxıstan Respublikasından neftin Xəzər dənizindən və Azərbaycan Respublikası ərazisindən keçməklə dünya bazarına nəql olunması üçün yardım göstərmək və müvafiq şərait yaratmaq haqqında Müqavilə imzaladılar.

19 iyun, Bakı. «Gülüstan» sarayında «İslam konqresi» Təşkilatı üzvləri ölkələrinin xarici işlər nazirləri Şurasının 33-cü sessiyası keçirilir. İlham Əliyev konfransda nitq söylədi.

21 iyun. Yenidənqurma və əsaslı təmirdən sonra Bakı dəniz vağzalının açılışı oldu. Açılış mərasimində Prezident iştirak edir. Sabahı gün onun iştirakı ilə Müdafiə Nazirliyi Mərkəzi hərbi klinik qospitalının yeni cərrahiyyə korpusu açılır.

29 iyun. Dövlət başçısını və ölkənin birinci xanımını Ucar rayonunda mehribanlıqla qarşılayırlar. Onlar rayonun mərkəzi parkında Heydər Əliyevin heykəlinin və onun həyat və fəaliyyətini əks etdirən muzeyin açılış mərasimində iştirak edirlər. Qarabağ müharibəsi qəhrəmanlarının və əlillərin ailələri yeni mənzillər alırlar.

Qızılquş kəndində Prezidentin anası, akademik Zərifə Əliyeva adına xəstəxana açılır; xəstəxana binası qarşısında unudulmaz Zərifə xanımın büstü qoyulmuşdur. Tər çiçəklər, çələnglər. Simvolik lent kəsilir.

Bir gün əvvəl kənddəki Turist evi ilk qonaqlarını qəbul etmişdi. İndi orda toydur. Bəylə gəlinin valideynləri hörmətli qonaqları ailə bayramlarının sevincini bölüşməyə dəvət edirlər. Prezident ailə quran gəncləri ürəkdən təbrik edir, onlara sülh və ailə həyatında xoşbəxtlik arzulayır.

12 iyul, İstanbul. «Sarıyer» deyilən rayonda Heydər Əliyev adına park açılıb. İlham Əliyev Türkiyə rəhbərləri və İstanbul şəhər hakimiyyət nümayəndələri ilə birlikdə Heydər Əliyevin abidəsinə gül dəstələri, əklillər qoyurlar. Elə həmin gün Türkiyənin baş nazir müavini Abdullah Gül Azərbaycan Prezidentinə «Avroasiyanın ilin siyasətçisi» mükafatını təqdim edir.

13 iyul, Ceyhan, Türkiyə. Bu liman şəhərində neçə vaxtdan bəri haqqında mübahisələr gedən, gümanlar söylənilər, bununla belə tikintisi davam edən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin rəsmi açılış mərasimi baş tutdu; bəzi inamsız adamların şübhələrinə baxmayaraq.

Əvvəllər yalnız yerli balıqçıların, bir də qaçaqmalçıların tanıdıqları kiçik liman şəhərinə Azərbaycanın, Türkiyənin və Gürcüstanın prezidentləri – İlham Əliyev, Əhməd Necat Sezer, Mixail Saakaşvili gəldilər... ABŞ-ın, Rusiyanın, Qazaxıstanın prezidentləri də dəvət olunmuşdular, lakin onlar mərasimə imkan tapıb gələ bilməmişdilər.

Azərbaycanın, Gürcüstanın və Türkiyənin himnləri səslənir. Əsas ixrac neft kəmərinin tikintisinə həsr olunmuş sənədli film nümayiş etdirilir... Canlı tarixin insanı həyəcanlandıran, təsirli kadrları bir-birini əvəz edir. Budur yaradıcı insanların xoş məramının nəticələri...

Azərbaycan, Gürcüstan, Türkiyə prezidentləri, baş nazir Ərdoğan, «BP»-nin prezidenti boru kəmərini simvolik şəkildə birləşdirib işə salırlar; kəmər dolur. İlham Əliyev və R.T.Ərdoğan Heydər Əliyevin şəkli olan və «Heydər Əliyev adına Ceyhan terminalı» sözləri yazılmış stendə yaxınlaşır və şəkillərini çəkdirirlər. Sonra hər iki lider Heydər Əliyev adına parkı və Türkiyə-Azərbaycan qardaşlığı parkını açırlar. Onlar Mustafa Kamal Atatürkün və Heydər Əliyevin abidələrinə əklillər qoyurlar.

Bu nəhəng tikinti 12 il davam etmişdir. Və tamamlanıb başa çatdırılmışdır. İlham Əliyev 2007-ci il avqust ayında keçirilən proqram-müşavirədə boru kəməri barədə demişdir: «Bakı-Tbilisi-Ceyhan» neft kəməri uğurla işləyir. Gələn il o, tam gücü ilə işləyəcək. Azərbaycanda neft hasilatı artır və bununla birlikdə bizim iqtisadi problemlərimiz də öz həllini tapır. Bir sözlə, Azərbaycanın dahi lideri Heydər Əliyevin əsasını qoyduğu və bu gün uğurla həyata keçirilən neft strategiyası ölkəmizin hərtərəfli inkişafında əvəzsiz rol oynayır. Biz qarşımızda duran bütün vəzifələri yerinə yetirmişik, enerji sektoru ilə bağlı proqramı neft və qaz hasilatı və nəqli sahəsində bütünlüklə reallaşdırmışıq».

23 iyul, Moskva. Bu şənbə günü Rusiya paytaxtının bütün tanınan adamları Mərkəzi cıdır meydanına axışırdı – burada Rusiya Prezidentinin mükafatı uğrunda at çapma yarışı keçirilirdi! Yarış üçüncü dəfə idi keçirilirdi! Qəzetlər yazırdı ki,

əvvəllər belə səviyyəli yarışlar yalnız 1917-ci il Fevral inqilabına qədər keçirilib. İmperatorun sonuncu mükafatı 1916-cı ildə oynanılıb; hətta Birinci Cahan müharibəsi belə çarın əyləncəsinə mane ola bilməyib. Fevraldan sonra isə imperator təkcə cıdırsız yox, həm də Rusiyasız qaldı. İmperatorun mükafatından başqa Moskvada Məlikə İmperatriça Aleksandra Fyodorovnanın mükafatı da oynanılırdı – mükafatların hər biri 30 min manat idi; o dövrdə bu çox böyük məbləğ sayılırdı. İmperatriça Aleksandra Fyodorovnanın şərəfinə daha bir mükafat Peterburqda oynanılırdı – o, 50 min manat idi; inqilabdan əvvəlki Rusiyada bu ən böyük mükafat idi.

Müqayisə üçün belə bir fakt. O zaman gələcəkdə Sovet İttifaqı Nazirlər Sovetinin sədri olacaq Aleksey Kosıginin «Q.A.Lessner» mexaniki zavodları səhmdar cəmiyyətinin 1 №-li zavodunun 9 №-li emalatxanasında çilingər işləyən atası Nikolay İliç Kosıgin öz iş yoldaşları kimi hər iş saatına 14 1/2 qəpik – gündə 8.50-8.70 manat maaş alırdı. Hətta inqilab ərəfəsində gündəlik tələbat mallarının gündən-günə bahalaşmasına baxmayaraq, o, ailəsini babat dolandıra bilirdi. İmperatriçanın mükafatı qədər pulu o öz dəzgahı qarşısında heç yarım əsrə də qazana bılməzdi.

2006-cı il Prezident mükafatı 6 milyon rubl idi. 2008-ci ildə bu məbləğ 8 milyon rub olacaq. Yeri gəlmişkən, 6 milyon rubl 2006-cı ildə Moskvada nə demək idi? Rusiyanın paytaxtında bu pula 1 otaqlı mənzil almaq olardı.

O ki qaldı cıdırdakı çapacaq atların azarkeşlərinə, onların belə mənzillərə qətiyyən ehtiyacı yox idi. Gəlin görək azarkeş-prezidentlər kimlər idi: V.V.Putin, İ.H.Əliyev, N.A.Nazarbayev, K.S.Bakiyev, V.Voronin, E.Ş.Raxmonov, İ.Kərimov, eləcə də Yu.Lujkov, M.Şaymiyev, R.Kadırov və B.Qromov...

Qaçış yoluna ilk olaraq üç və daha artıq yaşı olan ayğır və madyanlar çıxarıldı. Ünvanlarından kimin onlara azarkeşlik etdiyini bilmək bir elə də çətin deyildi. Casil (Çeçenistan Respublikası), Lambori (Tatarıstan), Lanito (Qazaxıstan), Satellit (Moskva vilayəti), Smertin (Tacikistan), Xayest Laver (Ermənistan), Eşqiyyə (Azərbaycan)... Satellit və Eşqiyyə qalib gəldilər; finiş xəttini eyni anda keçdilər. Hətta fotofiniş də hansı atın daha birinci keçdiyini müəyyən edə bilmədi. Satellitin çaparı (jokeyi) Kapluşev, Eşqiyyəninki – B.Kurdu idi. Ayğır Eşqiyyə Moskva cıdır meydanının saytında qeyd olunurdu, amma Rusiya Prezidentinin mükafatı uğrunda yarışa qədər

Moskva tamaşaçılarına tanış deyildi; hərçənd, hesabında artıq 60 qaçışı vardı – hələ üstəlik, Türkiyə Prezidentinin mükafatı uğrunda yarışda qalib gəlmişdi. Putin və Əliyev birgə qələbəni bir bokal şərabla qeyd etdilər. Raxmonov da onlara qoşuldu. Nazarbayevlə Kərimov isə məğlubiyyətin acısını araqla yumaq qərarına gəldilər.

Deyirlər ki, İlham Əliyev cıdır həvəskarıdır, guya cıdır onun xobbisidir. Bu – həqiqətənmi belədir? Ona birbaşa verilən bu suala Azərbaycan Prezidenti belə cavab verdi: «Yox, cıdır – əlbəttə, çox yaxşı idman növüdür. İndiki halda, məncə bu, daha çox görüşməkçün bir bəhanədir. Elə-belə isə, mən heç yerə durub cıdıra getməzdim».

Əlavə edək. Moskva cıdır meydanında cıdır yarışları Birlik ölkələri başçılarının qeyri-rəsmi görüşü çərçivəsində proqrama daxil edilmişdi.

31 iyul, Bakı. Prezident Ümumdünya Bankının Avropa və Mərkəzi Asiya üzrə infrastruktur sektorunun direktoru Piter Tomsonu qəbul edir. İlham Əliyev söhbət əsnasında qeyd edir ki, neft-qaz proyektlərinin uğurla həyata keçirilməsi qeyri-neft özəl sektorunun və infrastrukturun gücləndirilməsinə imkanlar yaradır. Ölçülüb-biçilmiş iqtisadi siyasət yaxşı nəticələr verir. Qonaq bildirdi ki, Ümumdünya bankı iqtisadi inkişafın sürətinə görə dünyada qabaqcıl mövqelərə çıxmış Azərbaycanın uğurlarını xüsusi maraqla izləyir.

1 avqust. İlham Əliyev başda respublikanın baş naziri Rüstəm Minnixanov olmaqla Tatarıstan nümayəndələrini qəbul edir. Qonaq Bakıda apardıqları danışıqlar və birgə proyektlər barədə danışdı. Belə proyektlərdən biri də məşhur KamAZ-ların Azərbaycanda yığılmasını təşkil etməkdir. Bu maşınlar artıq yollara çıxıb.

4 avqust. Prezident Rusiyanın Azərbaycanda yeni səfiri Vasili İstratovun etimadnaməsini qəbul etdi. Qeyd edək ki, Rusiyanın diplomatik nümayəndəliyi arzuolunmuz müddət səfirsiz qalmışdı. Görünür, Smolenski meydanı kadr sarıdan qıtlıq çəkir.

10 avqust. İlham Əliyev İran İslam Respublikası prezidentinin Xəzər məsələləri üzrə xüsusi müvəkkili, xarici işlər nazirinin müavini Mehdi Səfarı başda olmaqla İran nümayəndə heyətini qəbul edir.

Elə həmin gün prezident xanımı ilə Salyan rayonuna yollanır. Şəhər sakinləri ilə səmimi görüşür, Olimpiya mərkəzinin

tikintisində işlərin gedişatı ilə tanış olur. Sabahı gün artıq qədim Lənkəranda görüşlər keçirir. Heydər Əliyevin heykəlinə gül dəstəsi qoyur, iki dəfə Sovet İttifaqı qəhrəmanı Həzi Aslanov adına parkda gəzişir. Müalicə-profilaktika mərkəzinin, yeni süd zavodunun, xalq tətbiqi sənəti mərkəzinin və «Xəzər Lənkəran» futbol klubunun yeni stadionunun açılışlarında iştirak edir.

17 avqust. BMT-nin qaçqınlarla iş üzrə Ali komissarı Antoni Qeterreş başda olmaqla nümayəndə heyətinin qəbulu. Prezident bir milyon həmvətəninin dözülməz həyatı barədə, Ermənistan təcavüzü nəticəsində acınacaqlı vəziyyətə düşmüş insanlara yardım tədbirləri haqqında məlumat verir.

21 avqust. Amerika Senatının xarici əlaqələr üzrə sədri senator Riçard Luqar başda olmaqla ABŞ nümayəndə heyətinin qəbulu.

27-29 avqust. Azərbaycan Prezidenti İlham Əliyevin Sloveniyaya rəsmi səfəri. Bu respublika da Azərbaycan kimi yalnız ötən əsrin lap sonlarında – Yuqoslaviya parçalandıqdan sonra müstəqil olmuşdur; xoşbəxtlikdən vətəndaş müharibəsi onlardan yan keçmişdir.

Prezident gün ərzində həm Xəzər regionundan enerji resurslarının Qərbi Avropaya nəqli probleminin müzakirə olunduğu «Caspian Outlook-2008» strateji forumunda iştirak etdi, həm də Sloveniya rəhbərliyi ildə danışıqlar apardı. Yüksək səviyyəli qonaqlara – İlham Əliyev və xanımı Mehriban Əliyeva Sloveniyanın fəxr etdiyi nə varsa, hamısını göstərdilər: Bladanın nağıllar dünyasını xatırladan qəsirlərini, məşhur Postoyna Yama mağarasını – onun qeyri-adi gözəlliyə malik stalaktitləri və stalaqmitləri ilə, respublikanın paytaxtı qədim Lublyananı və daha nələri, nələri... Əlbəttə, ölkənin gözəllikləri ilə tanışlıq proqramın əsas hissəsinə – Sloveniyanın Prezidenti Yanez Dronovşeklə danışıqlara daha artıq xoş əhval-ruhiyyə, xoş ovqat verdi.

Azərbaycan Prezidenti bunlardan əlavə Sloveniyaya səfəri zamanı ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi müvəkkili Pyer Şevalyeni, Avropa yenidənqurma və inkişaf bankının prezidenti Jak Lemyeri, ATƏT-in Minsk Qrupunun ABŞ tərəfindən həmsədri Metyuz Brayzı qəbul etdi...

Sloveniyanı Azərbaycanda keçmiş Yuqoslaviya Sosialist Federativ Respublikasının yeddi respublikası arasında hər hansı birindən daha artıq və daha yaxşı tanıyırlar.

...Böyük Vətən müharibəsi (1941-1945), İkinci Cahan müharibəsi milyonlarla insanın taleyini tamam başqa səmtə döndərdi, alt-üst etdi. Cəbhədə onların həyatı ağıllarına belə gəlməyən bir istiqamətə yönəldi. Bəzilərini döyüş yolları aparıb Berlinə, Praqaya çıxartdı, sonra qələbə ilə geriyə – evə döndülər, bəziləri isə yaralanıb, ya da mühasirəyə alınıb əsir düşdülər. Hitlerçilər əsirlərdən, fərarilərdən (bələləri də az olmurdu) milli hərbi hissələr – satqın-general Vlasovun Rus azadlıq ordusu, Ukrayna üsyançı ordusu, Türküstan diviziyası, Azərbaycan milli legionu... təşkil edirdilər. Bəli, bu hissələrdə, heç şübhəsiz, satqınlar da xidmət edirdilər. Çekistlər bələlərini müharibədən sonrakı ilk illərdə də, çox-çox sonralar da mühacirətdən və əsirlikdən qayıdanlar arasında tapırdılar. Bir çox əsirlər isə həbs düşərgələrindən, faşist hərbi hissələrindən qaçır Fransada və Çexiyada, İtaliya və Yuqoslaviyada, Slovakiya və Norveçdə... partizanlarla çiyin-çiyinə faşizmə qarşı vuruşurdular. Belə partizanlardan birinin, Mehdi Hənifə oğlu Hüseynzadənin taleyi ilə müharibədən bir neçə il sonra üç Bakı çekisti – A.Məmmədov, H.Əliyev, V.Bantseryov məşğul oldu. Onlar böyük leytenant Hüseynzadənin döyüş yolunu diqqətlə zərrə-zərrə öyrənib bərpa etdilər. O, Stalinqrad altından bacısı Hürriyyətə yazırdı: «Bilmirəm mən sağ qalacağam, ya yox, amma sizə söz verirəm ki, mənə görə xəcalət çəkib qızarmayacaqsınız və nə vaxtsa siz mənim haqqımda eşidəcəksiniz. Əgər öləcəyəmsə də, qəhrəman kimi öləcəyəm – kişi kimi».

Stalinqrad altında döyüşlərdən birində Mehdı ağır yaralanır və əsir düşür. Doğmalarına isə onun izsiz-soraqsız itməsi barədə bildiriş vərəqəsi gəlir. Halbuki, almanlar əsiri müalicə edib ona Türküstan alman diviziyasına yazılmağı təklif etdilər. Elə o diviziyadan da Mehdi Yuqoslaviya partızanlarının yanına qaçdı. Onun hesabında çoxlu sayda cəsarətli əməliyyatlar var: o, yüzlərlə faşist zabit və əsgərini gəbərtmişdi. Rus partizanı (SSRİ vətəndaşlarının hamısı belə hesab olunurdu) «Mixaylo»nun başına – Mixaylo adını partizan yoldaşları qoymuşdular ona – 300 min marka mükafat təyin etmişdilər.

Döyüşlərdən birində Mehdi həlak olur. Yoldaşları onu partızanların nəzarətində olan əraziyə çıxara bilir və Sloveniyanın Çepovani kəndində avtomatlardan yaylım atəşi altında qəhrəman kimi dəfn edirlər.

1957-ci il aprel ayının 11-də SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Mehdi Hənifə oğlu Hüseynzadə Sovet

İttifaqı Qəhrəmanı adına (ölümündən sonra) layiq görülür. Cəsur partizanın silahdaşları, onun doğma və yaxınları üçün, bütün Azərbaycan üçün bu, təntənəli bir gün idi. Onu doğma respublikaya, xalqa təmiz vicdanlı çekistlər – Məmmədov, Əliyev, Bantseryev (Hüseynzadənin qəhrəmanlıq fəaliyyəti haqqında hazırlanmış arayışda soyadlar bu ardıcıllıqla yazılmışdır) hədiyyə etmişlər.

1973-cü il may ayının 9-da Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi H.Ə.Əliyevin təşəbbüsü ilə Bakıda Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin şərəfinə ucaldılmış abidənin açılışı oldu.

3 sentyabr, İstanbul. Avropa ilə Asiyanın qovuşduğu yerdə yerləşən bu şəhərdə İslam Konfransı Təşkilatının «Əməkdaşlıq və dialoq uğrunda» Gənclər forumunun mənzil qərargahı açılır. Təntənəli mərasimdə Türkiyə, Azərbaycan, Pakistan və «İslam konqresi» təşkilatının liderləri iştirak edirlər.

5 sentyabr, Bakı. İlham Əliyev Rusiyada yaşayan həmvətənlərin beynəlxalq şurasının iclasının iştirakçılarını səmimiyyətlə qəbul etdi.

17-18 sentyabr, Antalıya. Dəniz sahilindəki bu şəhər türkdilli ölkələrin dostluq və əməkdaşlığının X qurultayının üzvlərini qəbul etdi.

20 sentyabr, Bakı. Azərbaycan respublikada ən əsas, ən hörmətli peşə sayılan neftçilərin bayramını – Neftçilər gününü qeyd edir. Bakının Dənizkənarı parkı, Sahil küçəsi, şəhər bağçaları insanla doludur. Gülüş səsləri, xoş zarafatlar, musiqi sədaları. Bura ailə ilə gəlirlər. Prezident də bu gün öz ailəsi ilə bakılıların arasındadır.

21 sentyabr. Prezident Amerika Birləşmiş Ştatları dövlət katibinin müşaviri D.Qrossu qəbul edir.

22 sentybr, Berlin. Almaniyanın paytaxtında «Bertelamann-2006» beynəlxalq forumu keçirilir. Regional münaqişələr müzakirə olunur.

Azərbaycan Prezidenti forumda açıq və birmənalı şəkildə bəyan edir:

– Dağlıq Qarabağ münaqişəsi Avropa və Cənubi Qafqaz əlaqələrinin inkişafına böyük əngəl törədir.

Rumıniya Prezidenti Troyan Bassesku Azərbaycanın mövqeyini müdafiə edir:

– Hər bir milli azlığın öz dövlətini yaratması mümkün deyil. Muxtariyyətlər təcrübəsi var və belə münaqişələr bu prinsiplər əsasında həll olunmalıdır.

26 sentyabr, Bakı. İlham Əliyev Prezident sarayında məşhur geoloq, böyük Sibir neftini kəşf edənlərdən biri Fərman Salmanovu qəbul edir. Fərman Salmanov Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı laureatı, Rusiya Elmlər Akademiyasının üzvü idi. Prezident Fərman Qurbanoviçi anadan olmasının 75 illiyi münasibətilə ürəkdən təbrik edir, ona cansağlığı və fəaliyyətində uğurlar arzulayır.

Salmanovun həyatı hələ ilk gənclik illərindən seçdiyi sevimli işinə, peşəsinə fədakarcasına xidmətin parlaq nümunəsidir, əsil mərdlik məktəbidir. Onun dönməz inamını, intuisiyasını XX əsrin böyük kəşflərindən sayılan möhtəşəm neft və qaz fantanları artıq təsdiq etmişdi.

Yaşına baxmayaraq onu tanıyanlar inanırdılar ki, o, hələ çox nəhəng işlər görməyə qadirdir. Amma – tale başqa hökm verdi... Onu son mənzilə yola salmağa Rusiya və Azərbaycanın minlərlə neftçi, qaz sənayesi işçisi, geoloqu, Ümumrusiya Azərbaycan konqresinin rəhbərləri gəlmişdilər. Bakıdan dəfn mərasiminə Prezidentin tapşırığı ilə Yanacaq və energetika naziri təyyarə ilə özünü çatdırmışdı.

16 oktyabr. İlham Əliyev Ümumdünya Ticarət Təşkilatında ABŞ nümayəndəsi P.Allqerneri qəbul edir.

21 oktyabr, Minsk. Belorusiya Azərbaycan Prezidentinin bu ölkəyə ilk rəsmi səfərinin və respublikanın başçısı Aleksandr Lukaşenko ilə danışıqlarının nəticələrini yekunlaşdırır. Batka – beloruslar Aleksandr Qriqoryeviçi belə adlandırırlar – əməlli-başlı hazırlıq görmüşdü, hər şey də yüksək səviyyədə olunurdu; əlbəttə, Əliyev axı birinci dəfə idi Belorusa gəlmişdi. Protokola söz ola bilməzdi – motosikletçilərdən ibarət mühafizə dəstəsi, fəxri qaravul rotası, bayraqlar və himnlər... Özü də, bu hələ görüşün üzdə olan, görünən tərəfi idi. Əsas məsələlər bağlı qapılar arxasında həll olunur. Əliyev və Lukaşenko təkbətək bir neçə saat söhbət edirlər. Nə barədə?

Lukaşenkoya yaxın mənbələrdə «İlham Əliyevin qibtə ediləcək çevikliyindən» hörmətlə danışırlar. O, həm Qərblə, həm də Rusiya ilə dostluq etməyi bacarır. «Burada sirr nədədir? Yəqin ki, ilk növbədə ondadır ki, Azərbaycanın neftı var...» Buna onu əlavə etmək olar ki, Belorusiyada isə – yoxdur, amma özüboşaldan maşınları, traktorlar var. Bir sözlə,

işgüzar, qarşılıqlı faydalı əməkdaşlıq mümkündür. Amma bunun yerinə aydın olan şeyi də siyasi dumana bürüyürlər: «...Azərbaycan hələ də özünün əsas geosiyasi yerinin axtarışındadır, – deyə istədikləri rəngi vururlar görüşün məqsədinə. – Axtarır görsün – bu gün yox, uzunmüddətli perspektivdə kiminlə olmaq ona əlverişlidir! Və budur, elə bu vaxt Bakı Minskdən çox aydın və dəqiq, indiki dillə desək, message, siqnal, sadə dildə – təklif alır. Bu, əlbəttə, əməkdaşlıq haqqında təklifdir, özü o dərəcədə maraqlı təklifdir ki, yerindəcə tanış olub götür-qoy etməyə – daha doğrusu, Minskə ilk rəsmi səfərə ehtiyac duyuldu».

Bir neçə sətirdən sonra isə, elə həmin müəllif fikrindəki ziddiyyətləri görmədən, Əliyevdən sitat gətirir: bu səfər MDB-nin sammitinə uyğun nəzərdə tutulmuşdu, amma sonradan sammitin vaxtı dəyişdirildi, səfəri isə biz təxirə salmamaq qərarına gəldik...

Nə isə, öcəşməyək. MDB çərçivəsində ikitərəfli əlaqələr nə qədər möhkəm və nə qədər müxtəlif çalarlı olarsa, birlik bir o qədər güclü və möhkəm olar. Bizsə strateji məzmunlu sənədlər imzalamış hər iki respublikaya uğurlar arzulayırıq. O sənədlərdən ikisi xüsusi ilə əhəmiyyətlidir: birincisi, «2015-ci ilə kimi sosial-iqtisadi əməkdaşlıq haqqında»; ikincisi, «Uzunmüddətli iqtisadi əməkdaşlıq Proqramı». Şərhə ehtiyac belə yoxdur. Vladimir İliç yazırdı ki, iqtisadiyyat – ən əsas siyasətdir. Hayıf, hayıf ki, Xruşşova, Brejnevə və Qorbaçova bu, çatmadı.

Yaqut işığı

Oktyabr ayının 18-də Heydər Əliyev Fondu xeyli qonaq qarşılayırdı. Onlar fondun Prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya «Yüzilliyin mesenatları» Beynəlxalq xeyriyyə fondunun «Yaqut xaç» ordeninin təqdim olunması mərasiminə gəlmişdilər. Bu, respublikanın həyatında əlamətdar hadisə idi. Mərasimdə deyildiyi kimi, Mehriban xanımın xeyriyyəçiliyinin əsasında alicənablıq, nəciblik durur.

– O nə edirsə, ölkəmizin müxtəlif guşələrində insanlarla apardığı bütün görüşlərdə hər şey məhz bu sözlə müşayiət olunur. Gördüyü bütün işləri o, təbiətinə xas olan çox böyük, heç

bir ölçüyə gəlməyən nəcibliklə edir. Mən düşünürəm ki, bu da təsadüfi deyil, çünki biz onun dahi azərbaycanlı, unudulmaz Prezidentimiz Heydər Əliyevin yanında necə böyük, məzmunlu, hərtərəfli gözəl və bənzərsiz bir məktəb keçdiyini yaxşı bilirik. Bu həyat məktəbi idi və bu gün də ona kömək edir.

Bu gün bütün dünyada çoxları xeyriyyəçilikl̇ə məşğul olur. Amma bizim ziyalıların, eləcə də cəmiyyətimizin müxtəlif təbəqələrinin əksəriyyəti Mehriban xanım Əliyevanın yalnız elədiklərinə deyil, həm də necə elədiyinə heyrandılar. Bu mənəvi yüksəlişin ikitərəfli əlaqəsi var. Zənnimcə, Mehriban xanım xeyriyyəçilik etdikcə, həm özü mənən yüksəlir, həm də elə edir ki, diqqətini, qayğısını yönəltdiyi şəxs də, fəaliyyətindən bəhrələnənlər də, mənəvi cəhətdən zənginləşsinlər, yüksəlsinlər; beləliklə, qarşılıqlı mənəvi zənginləşmə gedir. Bu cəhət isə Mehriban xanımın Azərbaycandakı fəaliyyətini başqalarından fərqləndirir. Təkcə Azərbaycanda yox, olduğu hər yerdə fərqləndirir.

Elmi dairələrdə Mehriban Əliyevanın elmi araşdırmalarını çox yüksək qiymətləndirmişlər. O, «Evtanaziya və təbabətdə humanizm problemləri» mövzusunda dissertasiya müdafiə etmiş və fəlsəfə elmləri namizədi olmuşdur. Əsas məsələ isə, bizə belə gəlir odur ki, düzdür, başqa bir münasibətlə, akademik Arif Paşayevin dediyi kimi: «Mehribanı sadəliyinə görə, təbii olduğuna görə sevirlər...». Anadan olanda ona çox dəqiq ad qoyublar: Mehriban. Həqiqətən də çox rəhmli, mülayim, mehriban insandır Mehriban xanım.

27 oktyabr. Azərbaycan Prezidenti xarici juranlistlər üçün mətbuat konfransı verir. Dağlıq Qarabağ münaqişəsinə toxunarkən o, bir məsələni xüsusi olaraq vurğulayır: «Bizim mövqeyimiz dünya birliyi tərəfindən qəbul olunmuş beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır. Azərbaycanın ərazi bütövlüyü – danışıqlar mövzusu deyil. Ermənistan BMT Təhlükəsizlik şurasının işğalçı qoşunların Azərbaycan ərazisindən qeydsiz-şərtsiz və yubanmadan çıxarılmasını tələb edən dörd qətnaməsinə əməl etməlidir... Ermənistan rəhbərliyi aydın şəkildə başa düşməlidir ki, ərazi bütövlüyü məsələsində Azərbaycan heç bir güzəştə getməyəcək».

9 noyabr, Moskva. Prezidentlər Putin və Əliyev danışıqlar aparmışlar. İlham Əliyev Rusiya paytaxtına Brüsseldən uçub gəlmişdir. Vladimir Vladimiroviç həmkarını Belçikaya uğurlu səfəri münasibəti ilə təbrik etdi və dedi ki: «Energetika sahə-

sində ümumavropa işlərində Azərbaycanın iştirakı nöqteyi-nəzərindən orada mühüm razılaşmalara nail olunub».

Sabahı gün Moskvada çıxan «Vremya novostey» qəzeti qeyd edirdi ki, Putinin canlı söhbət əsnasında söylədiyi rəndələnib səliqə ilə qurulmuş bu cümlə onun qonaqpərvərliklə bir araya sığmayan ifadələrdən qaçmağa cəhd etdiyini düşünməyə əsas verir. Məsələ ondadır ki, deyə qəzet davam edirdi, Avropa İttifaqı Azərbaycanı enerji resursları təchizatı sahəsində Rusiyanın potensial alternativi kimi nəzərdən keçirir və Bakı ilə daha sıx əməkdaşlığa can atır. İlham Əliyev də özü ilə Brüsseldən vətənə energetika sahəsində Avropa İttifaqı ilə əməkdaşlıq haqqında imzalanmış razılaşma aparırdı.

Avropa İttifaqındakı «Azərbaycan Prezidenti ilə danışıqlara yaxın» diplomatik mənbələrə istinad edən «Vremya novostey» qəzeti Azərbaycan–Ukrayna münasibətləri mövzusuna da toxunurdu. Onlarda olan məlumata görə, cənab Əliyev Avropa İttifaqının rəhbərliyindən Bakı üçün mühüm olan bir məsələdə Ukraynaya təzyiq göstərməyi xahiş etmişdir. Azərbaycan öz neftinin Rusiya ərazisindən yan keçərək Odessa-Brodı neft kəməri vasitəsi ilə Avropa bazarına ötürülməsində son dərəcə maraqlıdır. Lakın Ukraynada baş nazir vəzifəsinə Viktor Yanukoviç təyin olunduqdan sonra Kiyev Bakı ilə bu məsələdə əməkdaşlığa marağı itirmişdir və bu da Azərbaycan Prezidentini olduqca narahat edir.

Güman etmirik ki, İlham Əliyevin Brüsseldən evə qayıdarkən nədən və kimdən narazı olduğunu Vladimir Putin bilmirdi. Olsun ki, elə ona görə də Putin söhbət zamanı diplomatik nəzakəti son dərəcə gözləyirdi, lakin bununla belə Əliyevin diqqətinə xüsusi olaraq bunu da çatdırmağı unutmadı ki, onun nail olduğu razılaşmalar «çox sevindiricidir, belə ki, bizim də bu məsələ ilə əlaqədar Avropa İttifaqı ilə daima dialoqumuz olur». «Bu yaxınlarda – deyə Putin əlavə etdi, – bizim Finlandiyada növbəti görüşümüz olmalıdır. Odur ki, sizin avropalı tərəfdaşlarla söhbətinizin necə keçdiyini eşitmək mənə çox maraqlıdır».

Azərbaycan Prezidentinin bunun cavabında nələr söylədiyi mətbuata məlum deyil. Bunun əvəzində onlar eşidib bildilər ki, iki ölkə arasında mal dövriyyəsi sürətlə artır, artıq milyard dolları ötüb keçib. Və, Putinin dediyi kimi, «...yaxın iki-üç ildə biz bu rəqəmi iki dəfə artıracayıq». Həmkarını salamlayan İlham Əliyevin Moskva ilə Bakı arasında «münasibətlərin

yüksək dərəcədə effektli» olması ifadəsi diqqəti xüsusi cəlb etdi. Bir də bu münasibətlərin «dinamikası» və «pozitiv xarakteri» haqqında və ən əsası da «bütünlükdə regionda sabitliyə şərait yaradan mehriban qonşuluq, dostluq və əməkdaşlıq» barədə dedikləri.

İlham Əliyevin bu sözlərinə İngiltərənin Bi-Bi-Ci (BBC) radiostansiyası da diqqət verdi: iki ölkənin qarşılıqlı münasibətlərdə «yüksək dərəcədə dinamizm mövcuddur, bu münasibətlər çox effektlidir, mehriban qonşuluq, dostluq və əməkdaşlıq əsasında qurulub. Və biz bunun əyani nəticələrini görürük». Əlbəttə, bu sözlərin üstünə od atmasaydı, Bi-Bi-Ci olmazdı. Onlar dərhal Azərbaycanın siyasi icmalçılarından Rasim Musabəyova müraciət edirlər və o, strateji münasibətlərin möhkəmlənməsi barədə bəyanatı həddindən artıq təmtəraqlı hesab edir. Onun dediyinə görə, ümumiyyətlə, son zamanlar bütün münasibətləri «strateji» adlandırmaq bir növ dəb olub. Azərbaycanın həm Amerika, həm Gürcüstan, həm Türkiyə, həm Rusiya, həm Ukrayna ilə münasibətləri belə çıxır ki, strateji münasıbətlərdir. Siyasi icmalçı o fikirlə razıdır ki, «rusiya – çox böyük qonşu dövlətdir – Azərbaycan üçün onun böyük əhəmiyyəti var.

...Amma düşünmürəm ki, deyilmiş sözlər Azərbaycanın Rusiya orbitinə qayıtmağa hazır olduğu mənasında deyilsin» – Musabəyov belə hesab edir.

Niyəsi isə – aydındır. Azərbaycanın öz orbiti var – Azərbaycan orbiti.

Ümumiyyətlə, şərhçilərin təxəyyüllərinin uçuşu sərhəd bilmir. Məsələn, «Kommersant» qəzeti yazırdı ki, «Moskva Azərbaycana Gürcüstanın qaz və ümumiyyətlə, enerji blokadasına qoşulmağı təklif edib». Bunu necə başa düşək? Yəni Azərbaycandan Gürcüstan ərazi ilə keçib limanlara gedən enerji axınını bağlamaqmı? Bu nə sayıqlamadı?! Başdan ayağa cəfəngiyyatdır lap...

Hə, yeri gəlmişkən, çox maraqlıdır, Rusiyanın mərkəzi mətbuatı – indi ona federal mətbuat deyirlər, – İlham Əliyevin noyabrın 10-da paytaxt meriyasına baş çəkməsinə, demək olar ki, əməlli-başlı diqqət verməyib. Yazdıqları da budur: «Əliyevin Moskva meriyasına ilk gəlişi qış bağçasına tamaşa ilə başlandı. Bu gözəl, səfalı guşədə xeyli söhbət etdikdən sonra Yuri Lujkov hörmətli qonağı meriyanın ən yaxşı, ən təmtəraqlı zallarından biri sayılan «Krasnı zala» («Qızılı za-

la») dəvət etdi. Orada İlham Əliyev Fəxri qonaqlar üçün ayrılmış kitaba öz ürək sözlərini yazdı. Moskva meri qonağı bir daha salamlayarkən xüsusi nəzərə çarpdırdı ki, Moskva və Azərbaycan əməkdaşlıq üçün mövcud olan imkanlardan tam istifadə etmirlər. Amma bununla belə, indiki göstəricilər də tamamilə məqbuldur».

Oxucular, heç şübhəsiz, İlham Əliyevin çoxsaylı xarici səfərlərini müəyyən qədər izləyə bildilər və onun apardığı danışıqların miqyasını da gördülər. Azərbaycan lideri üç il ərzində etdiyi 72 səfərdən say etibarı ilə ən çox Rusiyada olub; sonra Türkiyə, Fransa, Gürcüstan və Polşa gəlir...

15 noyabr, Bakı. Azərbaycan Prezidenti «Azərbaycan təbiətinin mühafizəsi sahəsində uğurlu siyasətinə görə» beynəlxalq mükafata layiq görülüb. Mükafatın pul hissəsini (15 min yevro) İlham Əliyev ekoloji proqramların nəfinə keçirib.

28 noyabr, Minsk. Belorusiyanın paytaxtında MDB-nin sammiti keçirilir. Azərbaycan və Ermənistan prezidentləri Rusiya səfirliyində danışıqlar apardılar.

4 dekabr, Bakı. M.F.Axundov adına Opera və Balet Teatrında Azərbaycanda Rusiya ilinin təntənəli yekun mərasimi oldu. Mərasimdə İlham Əliyev, nazirlər, Milli Məclisin deputatları, incəsənət və mədəniyyət xadimləri iştirak etdilər. Rusiya nümayəndə heyətinə hökumətin sədri Mixail Fradkov (indi artıq keçmiş sədri) başçılıq edirdi. M.Fradkov çıxışında dedi:

– Milli illərin keçirilməsi ölkələrimizdə yaşayan xalqların çoxəsrlik dostluq və mehriban qonşuluqda həqiqətən maraqlı olduqlarının parlaq sübutudur. Baş tutmuş tədbirlər ölkələrimizin zəngin potensialını nümayiş etdirdi. Bu potensialdan bizim çoxplanlı qarşılıqlı əlaqələrimizin gələcək inkişafı üçün fəal istifadə etmək lazımdır...

Həqiqətən də elədir... İl də uğurla keçmişdi, bayram şənliyi də çox təntənəli idi, zal da Fradkovu hərarətli alqışlarla qarşıladı, amma... «Azərbaycan Prezidenti İlham Əliyevin qonağa hörmət və ehtiram göstərməsinə, görüş iştirakçılarının hamısının mehriban qonşuluğu inkişaf etdirmək arzusunu dilə gətirmələrinə baxmayaraq, son günlərin hadisələri gələcəyə nikbin baxmağa qətiyyən imkan vermir. Fradkovun Bakıya gəlişindən üç gün əvvəl Əliyev ölkəsinin hökumətinə «Bakı-Novorossiyski» boru kəməri ilə neft ixracını azaltmaq məsələsini həll etmək barədə tapşırıq verdi. Bakı OAO «Qazprom»un 2007-ci ildə Azərbaycana qaz satışını 4,5-dən 1,5 milyard kubometrə

qədər azaltmaq və qiyməti də 230 dollara qədər artırmaq niyyətinə bu cür münasibət bildirdi» *(«Rodnaya qazeta», 7 dekabr 2006-cı il).*

12 dekabr. Müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin xatirə günü. Prezident İlham Əliyev ailə üzvləri ilə birlikdə Fəxri Xiyabana gedib Ulu Öndərin məzarını ziyarət etdi. O, bir oğul kimi atasının, bir ölkə başçısı kimi millətin Dahi Liderinin yanına gələn kimi gəlmişdi.

Prezident öndərin mərmər məzarı üstünə əklil qoydu; doğmaları, yaxınları əklilin hər iki tərəfinə gətirdikləri gül dəstələrini düzdülər. Sonra Əliyevlər ailəsi unudulmaz Zərifə xanım Əliyevanın, Prezidentin anasının, onun uşaqlarının nənəsinin xatirəsini yad etdilər. İlham və Mehriban xanım Əziz Əliyevin, onun oğlu, Zərifə xanımın qardaşı, professor Tamerlan Əliyevin də məzarlarına gül dəstələri qoydular.

Heydər Əliyevin xatirəsi önündə o gün minlərlə, on minlərlə bakılı və respublikanın rayonlarından Azərbaycan vətəndaşları, diplomatlar və deputatlar, nazirlər, məktəblilər və tələbələr baş əydilər...

Yenə elə həmin gün Moskvada, qonaqsevən Azərbaycan səfirliyində yazıçı Rudolf İvanovun məşhur sərkərdə Hüseyn xan Naxçıvanskiyə həsr etdiyi «Əlahəzrətin general-adyutantı» kitabının təqdimatı keçirildi. Bir çox tarixi romanlar və povestlər müəllifi olan R.İvanov mərasim iştirakçıları qarşısında çıxış edib dedi:

– Naxçıvan xanının dörd nəsli Vətənə vicdanla, sədaqətlə və kişi kimi ləyaqətlə xidmət etmiş və yüksək mənəviyyat, əsil qəhrəmanlıq nümunəsi göstərmişlər. Və mən fəxr edirəm ki, bu vicdanlı, sədaqətli insanın adını tarixin səhifələrindən çıxarıb yeni nəslə qaytara bilmişəm.

«Əlahəzrətin general adyutantı» kitabı Heydər Əliyev Fondunun çox fəal dəstəyi sayəsində işıq üzü görüb. Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Fondun Prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın rolunu xüsusi qeyd etdi:

– Mehriban xanım Rudolf Nikolayeviç İvanovun yaradıcılığına böyük diqqətlə yanaşdı, bu gözəl tarixi əsərin nəşrinə kömək etdi.

Siyasi icmalçılar Mehriban xanımı çox parlaq bir şəxsiyyət kimi yüksək qiymətləndirirlər. Gözəldir – bəli, amma bu onun haqqında, heç şübhəsiz, hələ hər şeyi demir. O, Pa-

risdə, Pekində ya Vaşinqtonda olsun, fərqi yoxdur, hələ təhsil aldığı Moskvanı demirik, özünü ən səviyyəli diplomatik qəbullarda belə evindəki kimi hiss eləyir; eləcə də ən ucqar kənddə, elə kənddə ki, onu başqa planetin elçisi də hesab eləyə bilərdilər, amma – yox, o, burada da onların özününküdür.

O, həyatda əlaçıdır. Hansı işdən yapışırsa, nə eləyirsə, əla eləyir. Orta məktəbi qızıl medalla, Seçenev adına I Moskva tıbb institutunu əla qiymətlərlə qurtarıb. Eləcə də bütün başqa sahələrdə – elmdə, xeyriyyə fəaliyyətində, ailədə gördüyü işlər uğurlu alınır.

Onun təşəbbüsü ilə 2006-cı ilin oktyabrında YUNESKO-da Azərbaycan Günü keçirildi. Mehriban Əliyeva Azərbaycan Gününün açılış mərasiminə gələn qonaqları səmimi-qəlbdən salamladı. «YUNESKO-nun baş direktoru cənab Koişiro Maçuuroya bugünkü gündə bizimlə olduğuna görə» xüsusi minnətdarlığını bildirdi.

Onun həmin mərasimdəki çıxışı böyük deyil, amma olduqca tutumludur, məzmunludur. Mehriban xanım Əliyeva dedi:

– Azərbaycan zəngin mədəni irsi və ənənələri ilə seçilən qədim bir diyardır. Əsrlər boyunca Azərbaycan sivilizasiyalar arasında dialoq aparılmasında mühüm rol oynayıb. Bizim ölkəmiz Şərqlə Qərbin qovuşuğunda yerləşir. 1918-ci ildə Şərqdə ilk demokratik respublika məhz Azərbaycanda yaradılmışdı. O, bütün islam dünyasında ilk Avropa tipli parlament respublikası idi.

Bu gün biz YUNESKO-nun Dözümlülük həftəsi – «Sivilizasiyalararası dialoq» çərçivəsində «Azərbaycan günü»nü keçiririk və fikrimcə, bu, çox rəmzi xarakter daşıyır. Çünki dünən bizim bir müstəqil ölkə kimi 15 yaşımız tamam oldu.

Azərbaycan zəngin mədəni irsi və ənənələri ilə seçilən qədim diyardır.

Əsrlər boyu Azərbaycan sivilizasiyalar arasında dialoqun aparılmasında mühüm rol oynamışdır. Ölkəmiz Şərqlə Qərbin qovuşduğu məkanda yerləşir. Şərqdə ilk demokratik respublika 1918-ci ildə məhz Azərbaycanda qurulmuşdur. Bu, bütün müsəlman dünyasında Avropa tipli ilk parlament respublikası olmuşdur.

Eyni zamanda, müsəlman ölkələri arasında ilk opera, balet, teatr, qadın məktəbləri, azad mətbuat, kişi və qadınlar üçün bərabər seçki hüququ Azərbaycanda təşəkkül tapmışdır.

Hazırda Azərbaycan Avropa dəyərlərini bölüşən və getdiyi yolunu tam anlayan müasır ölkəyə çevrilmişdir. Uğurlu inkişafın mühüm amillərindən biri də ondan ibarətdir ki, Azərbaycan dünyəvi dövlət, yüksək dözümlülüyü ilə seçilən bir ölkədir.

Tarixən Azərbaycan çoxmillətli ölkə olubdur. Buradakı bütün milli azlıqlar Konstitusiya əsasında bərabər hüquqa malikdir və bir ailə kimi yaşayır. Dini və etnik dözümlülük əldə etdiyimiz uğurların əsas elementidir və bizim sərvətimizdir.

Azərbaycan ilə YUNESKO arasında əməkdaşlığın tarixi müstəqilliyimiz dövründən başlayır. Ötən illər ərzində təhsil, elm və mədəniyyət sahələrində bir çox birgə layihələr həyata keçirilmişdir. Azərbaycanın maddi və qeyri-maddi mədəni abidələri artıq YUNESKO-nun Dünya irsi siyahısındadır. Məsələn, YUNESKO tərəfindən İçərişəhər dünyanın ən gözəl abidələri siyahısına, Azərbaycan muğamı isə qeyri-maddi mədəni irs siyahısına salınmışdır.

Cənab Koişiro Maçuura 2005-ci ildə Azərbaycana etdiyi səfəri zamanı YUNESKO-nun dəstəyi ilə tikilən Beynəlxalq Muğam Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak etmişdir. Həmin vaxt biz, eyni zamanda «YUNESKO-Azərbaycan: gələcəyə körpü» adlı beynəlxalq konfrans keçirdik, təhsil məsələlərini müzakirə etdik. İndi isə Azərbaycanı regionda ən yaxşı təhsil sistemi nümunəsinə çevirmək arzusundayıq.

Eyni zamanda, biz YUNESKO ilə birlikdə qaçqın və məcburi köçkün uşaqlar üçün mühüm təhsil layihələri həyata keçiririk. YUNESKO ilə əməkdaşlığımız «Atəşgah» məbədinin bərpası, Qobustanın Dünya mədəni irsi siyahısına salınması kimi layihələri də əhatə edir.

Azərbaycan YUNESKO ilə nəinki ölkə daxilində layihələr üzrə əməkdaşlıq edir. YUNESKO-nun məqsədlərinə uyğun olaraq beynəlxalq ictimaiyyətin hər bir üzvünün ehtiyac duyan digər ölkələrə və xalqlara yardım etməsi zəruridir. YUNESKO ilə birlikdə biz Pakistanın Müzəffərabad şəhərində zəlzələ nəticəsində dağılmış məktəbi yenidən tikməyi planlaşdırırıq.

Bütün bunlar onu göstərir ki, Azərbaycan ilə YUNESKO arasındakı əməkdaşlıq çox məhsuldar, geniş və uğurludur.

Bu gün mən, bir tərəfdən, ölkəmi – Azərbaycan Respublikasını – bu mötəbər məclisdə təmsil etməkdən böyük şərəf hissi duyuram. Digər tərəfdən isə YUNESKO-nun xoşməramlı

səfiri kimi yenidən sizinlə öz ümumi ailəmizdə olmağıma çox şadam...

Daha iki gündən sonra, oktyabr ayının 23-də həmkarları, dostlar, ilk növbədə isə, əlbəttə ki, İlham Əliyev Mehriban xanımı İSESKO-nun xoşməramlı Səfiri adına layiq görüldüyü üçün səmimi-qəlbdən, böyük sevinclə təbrik etdilər. Bu, islam ölkələrinin elm, təhsil və mədəniyyət üzrə çox hörmətli bir təşkilatıdır.

Təşkilatın baş direktoru Əbüləziz bin Osman əl-Tüveycri Mehriban xanım Əliyevaya İSESKO-nun xoşməramlı Səfirinin nişanını təqdim etdi və xüsusi olaraq vurğuladı ki, Mehriban xanım bu ada layiq görülmüş ilk qadındır. Öz növbəsində, Mehriban xanım verilmiş ada görə minnətdarlığını bildirdi və qeyd etdi ki, onun fəaliyyətinə verilən yüksək qiymətlə fəxr edir. Mehriban Əliyeva çıxışında dedi ki, 24 illik fəaliyyəti ərzində təşkilat böyük işlər görmüşdür və bu təşkilatın fəaliyyətinin ən mühüm istiqamətlərdən biri islamın zəngin tarixi irsini, islam dəyərlərini qorumasıdır.

20 dekabr, Naxçıvan. Muxtar vilayətin paytaxtında Naxçıvan torpağının yetirdiyi və sınaq saatında əfsanəvi Antey kimi ona yenidən güc verdiyi bir insanın – Heydər Əliyevin şərəfinə ucaldılmış heykəlin açılışıdır. Bu gözəl abidənin müəllifi sənətini Heydər Əliyevin yüksək qiymətləndirdiyi xalq rəssamı, heykəltaraş Ömər Eldarovdur.

Naxçıvanın ən böyük və ən gözəl meydanını Dahi Liderin monumental muzeyi tamamlayır. Bu gün onun açılışıdır. Xatirə kitabına ilk ürək sözlərini oğlu yazır. O yazır ki: «Heydər Əliyev bütün ömrünü Azərbaycanın inkişafına həsr etdi... Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində xüsusi rol oynadı... Heydər Əliyev bizim ürəklərimizdə yaşayır, onun ideyaları, onun siyasi kursu yaşayır və əbədi yaşayacaqdır.

Prezident birbaşa efirdə

23 dekabr, Bakı. Prezident İlham Əliyev «Exo Moskvı» radiostansiyasına böyük bir müsahibə verdi. Müsahibəni jurnalistlər «Exonun» baş redaktoru Aleksey Venediktov və Nərgiz Əsədova apardılar. Bu vaxta kimi İlham Əliyevlə bu cür söhbət eləmək çox az-az adamlara nəsib ol-

muşdu. Elə o da çox nadir hallarda bu qədər açıq və sərbəst söhbət etmişdi: Prezident yaxşı bilirdi ki, onu Baltikyanı ölkələrdən tutmuş İrana qədər, ilk növbədə də çoxmilyonlu Rusiya dinləyiciləri dinləyir. Bu söhbətin mətni, biz əminik ki, İlham Əliyevin xarakteri, onun düşüncə tərzi, bir dövlət başçısı kimi qayğılarının və arzularının miqyası haqqında oxucuların təsəvvürlərini xeyli dolğunlaşdıracaq.

A.Venediktov: Efirimizdə Azərbaycan Prezidenti İlham Əliyevdir. Xoş gördük, cənab Prezident. Bizə müsahibə verməyə razılığınıza görə sağ olun. Sizə internetlə çoxlu sual gəlib və biz hətta təəccübləndik, çünki bilmirdik ki, Azərbaycana təkcə moskvalılarda və peterburqlularda deyil, həm də estonlarda, latışlarda, iranlılarda... belə maraq var.

N.Əsədova: Hazırda, hətta, Latviya və Estoniyada da hamını maraqlandıran başlıca mövzu, qəribə olsa da, türkmənbaşı Saparmurad Niyazovun vəfatıdır və Estoniyadan Vladimir Sizə belə bir sual verir: «Salam, cənab Prezident, Siz Türkmənistanda hadisələrin inkişaf ssenarisini necə görürsünüz, bu ölkədəki hadisələr Azərbaycanın həyatına necə təsir göstərəcək və Siz Türkmənistanın taleyində iştirak edəcəksinizmi? Əlbəttə ki, dolayısı ilə?»

İ.Əliyev: Əvvəla, mən Türkmənistan prezidentinin vəfatı ilə əlaqədar bütün dost, qardaş türkmən xalqına başsağlığı vermək istərdim. Mən artıq hökumətə və Prezidentin yaxın adamlarına başsağlığı vermişəm. Əlbəttə, bu, böyük itkidir və türkmən xalqına bu çətin anda dözüm və səbir diləmək istərdim. Əlbəttə ki, dost dövlət kimi, biz münasibətlərimizi bundan sonra da inkişaf etdirmək niyyətindəyik. Bizim Xəzər dənizində ümumi sərhədimiz var, gələcəkdə iqtisadiyyat, energetika sahəsində səmərəli əməkdaşlığı inkişaf etdirmək üçün, bəlkə də olduqca çox təmas nöqtələrimiz var. Təbii ki, biz belə əməkdaşlığa hazırıq. Ümidvaram ki, ölkələrimiz arasında münasibətlərin daha da inkişafı regionda etimad və təhlükəsizlik tədbirlərinin möhkəmlənməsinə kömək edəcəkdir.

N.Əsədova: Türkiyənin xarici işlər naziri Abullah Gül (Hal-hazırda Türkiyənin prezidentidir – *red.*) Türkmənistanda hakimiyyət boşluğu yarana biləcəyindən narahatlığını bildirmişdir.

İlham Əliyev: Bilirsiniz, bu barədə nə isə demək bizim üçün çətindir, çünki kifayət qədər məlumatımız yoxdur. Görünür, Türkiyənin məlumatı daha çoxdur, onların arasında daha

fəal siyasi dialoq var. Ona görə də Türkmənistandakı daxili siyasi vəziyyəti şərh etmək istəməzdim.

A.Venediktov: Ötən həftə Türkmənistan Azərbaycana Xəzər dənizi ilə bağlı məsələnin artıq ikitərəfli əsasda həll olunmasını təklif etdi. Bu, İran, Türkmənistan, Azərbaycan və Rusiya arasında mövcud olan köhnə məsələdir. Bu məsələnin həlli hansı mərhələdədir və Siz Rusiyadan nə gözləyirsiniz?

İ.Əliyev: Deməliyəm ki, biz Rusiya ilə bütün məsələləri həll etmişik. Bizim milli sektorlarımızı bölən dövlətlərarası sazişimiz var. Qazaxıstan ilə də və müvafiq olaraq, Rusiya ilə Qazaxıstan arasında da məsələ bu cür həll olunmuşdur. Beləliklə, Rusiya yeganə Xəzəryanı ölkədir ki, qonşuları ilə problemlərini həll etmişdir. Çünki Rusiyanın qonşuları Azərbaycan və Qazaxıstandır. Qalanları ilə hələlik danışıqlar prosesi gedir. Düşünürəm ki, bir-biri ilə saziş imzalamış üç ölkə arasında mövcud olan format və razılaşma Xəzərin bölünməsinə dair hərtərəfli sazişin əsasını təşkil edə bilər və etməlidir. Hər şey beynəlxalq normalara, prinsiplərə, mövcud beynəlxalq təcrübəyə əsaslanmalıdır. Azərbaycan da bu istiqamətdə fəal əməkdaşlığa və danışıqlar aparmağa hazırdır. Təəssüf ki, Türkmənistanla danışıqlar prosesi, demək olar, sıfır nöqtəsindədir. İranla danışıqlar kifayət qədər intensivdir, müntəzəm məsləhətləşmələr keçirilir, İran nümayəndələri buraya gəlirlər, bizim mütəxəssislərimiz İrana gedirlər. Biz məsələnin beynəlxalq huquq normaları və prinsiplərinə uyğun həllini tapmağa çalışırıq. İstənilən digər qərar qeyri-məqbuldur, çünki artıq hazır norma və prinsiplər vardır. Öz sektorunu artırmaq arzusu ola bilər, lakin hər şey prinsiplərə əsaslanmalıdır. Əgər bu prinsip bir dəfə pozularsa, onda o, bütün digər məsələlərdə də pozula bilər.

A.Venediktov: Başqa sözlə, deməli bu, ikitərəfli sazişlər sistemidir?

İ.Əliyev: Bu mərhələdə biz ikitərəfli sazişlər yolu ilə getdik, çünki məsələnin çoxtərəfli həlli yolunu tapmaq çətin idi. Ona görə də, zənnimcə, Rusiya, Qazaxıstan və Azərbaycan rəhbərlikləri öz aralarında razılığa gəlmək kimi müdrik qərar qəbul etdilər. Biz bir tərəfdən bu məsələləri həll etdik, bizim Qazaxıstan və Rusiya ilə Xəzərdə sərhədlərimiz müəyyənləşdirilmişdir. Eyni zamanda, bu, hərtərəfli saziş üçün bazadır.

N.Əsədova: Deyəsən, Siz Türkmənistanla Xəzərdə hansısa qaz yatağının işlənilməsinə dair razılıq əldə edəndə İran məsələyə qarışdı və o zaman hansısa problem yarandı?

İ.Əliyev: Belə şey olmamışdır. Sizin məlumatınız dəqiq deyildir, kim isə səhv məlumat vermişdir.

N.Əsədova: Belə problemlər olmayıb?

İ.Əliyev: Yox olmamışdır. Təəssüf ki, Türkmənistanla Xəzərin orta xəttinə dair fikirlərimiz üst-üstə düşmür. Onlar məsələyə bir cür yanaşırlar, biz isə başqa cür. Yəqin ki, onlar hesab edirlər ki, onlar haqlıdırlar, bizim fikrimizcə, biz haqlıyıq. Yenə demək istəyirəm ki, bizim haqlı olduğumuzu təkcə sektorların bölünməsinə dair artıq mövcud təcrübə deyil, həm də Xəzərin Azərbaycan sektoruna və bu sektordakı yataqlara dünyanın aparıcı şirkətlərinin milyardlarla dollar sərmayə yatırması göstərir. Yeri gəlmişkən, Türkmənistanın bu yataqlara iddiası olub və indi də var. Yəqin ki, bu şirkətlərin yaxşı və savadlı hüquqşünasları var və onlara yaxşı məsləhətlər vermişlər ki, mübahisəli sektorda yerləşən yataqlara pul yatırmağa dəyər, ya dəyməz. Biz özümüz də 1994-cü ildə xarici şirkətlərlə danışıqların sonuncu fazasını keçirməzdən əvvəl ekspertiza apardıq və məlum oldu ki, əgər məsələ beynəlxalq arbitraja düşərsə, bizim xeyrimizə həll olunacaqdır. Buna görə də biz 1994-cü ildən bəri neft-qaz layihələrimizi təmiz vicdanla və əminliklə həyata keçiririk. Yeri gəlmişkən, Xəzər dənizi ilə bağlı məsələnin həll edilməməsi bizə milyardlarla dollar sərmayə cəlb etməyə mane olmamışdır.

A.Venediktov: İlham Heydəroviç, bu mövzunu bitirmək üçün soruşuram. Siz deyirsiniz ki, mən Türkmənistanın daxilindəki siyasi hadisələrə qarışmaq istəmirəm. Lakin onlar, əksinə, Sizin işlərinizə qarışa bilərlər. Aranızda əlaqə – ölkənizlə Türkmənistan arasında bərə əlaqəsi var və qaçqınlar meydana gələ bilər. Siz buna hazırsınızmı?

İ.Əliyev: Yox, siz nə deyirsiniz! Biz bu məsələni hətta nəzərdən belə keçirmirik. Yeri gəlmişkən, digər dövlətlərin işlərinə qarışmamaq bizim xarici siyasətimizin prinsiplərindən biridir. Hesab edirik ki, ölkələr bir-birinin işlərinə az qarışsalar, dünya qat-qat təhlükəsiz olar. Ona görə də biz digər ölkələrdə hər hansı daxili siyasi vəziyyəti prioritetimiz kimi nəzərdən keçirməyə heç vaxt çalışmırıq və eyni zamanda, kimsə bizim işlərimizə qarışmağa cəhd edəndə, bu, bizi çox qıcıqlandırır.

N.Əsədova: Bildiyimizə görə, «Qazprom»un nümayəndə heyəti Rusiya qazının qiymətini müəyyən etmək üçün bu gün Azərbaycana gəlməlidir. Bizə həm də məlum olduğuna görə, Rusiya qazın qiymətini 230 dollaradək qaldırmağı planlaşdırır.

Siz buna necə baxırsınız, hesab etmirsinizmi ki, bu, Rusiyanın siyasi oyunudur?

İ.Əliyev: Mən sizə yanlış məlumatlar verən mənbələri ifşa etmək məcburiyyətindəyəm. Məsələ heç də belə deyil.

N.Əsədova: Bu xəbər bu gün İnternetdə gedib.

A.Venediktov: Deyin, bəs məsələ necədir? Bu, çox vacibdir.

İ.Əliyev: Məsələ belədir. Əvvəla, «Qazprom»un dəvəti ilə nümayəndə heyətimiz bu gün Moskvadadır. Danışıqlar artıq kifayət qədər çoxdan gedir və təəssüf ki, bir nəticə yoxdur, çünki «Qazprom» ilə Azərbaycanın neft şirkəti arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın müsbət səviyyəsi və çəkisi azalır, özü də bizim təqsirimiz olmadan azalır. Əgər sizin üçün maraqlıdırsa, mən bunun bir qədər tarixindən danışa bilərəm.

N.Əsədova: Çox maraqlıdır.

İ.Əliyev: Biz Rusiya qazını almaq proqramına başladıqda qiymət 48 dollar səviyyəsində idi. O vaxt bununla «Ltera» şirkəti məşğul olurdu, bizim onunla uzunmüddətli müqaviləmiz vardı və bu müqavilənin yerinə yetirilməsindən çox razı idik. Sonra, bizdən asılı olmayan səbəblərə görə, təchizatçı dəyişdi, o, «Qazprom» oldu. Onunla təsbit olunmuş qiymətə, səhv etmirəmsə, hər min kubmetr üçün 55 və ya 60 dollara beşillik müqavilə bağlandı. Lakin keçən il «Qazprom» bu müqaviləni birtərəfli qaydada ləğv etdi, başqa sözlə, anlatdı ki, qaz həmin qiymətə yox, 110 dollara veriləcəkdir. Biz razılaşdıq, hərçənd, bu, təəccüblü idi. Hər halda, iri bir şirkətin beş il müddətinə beynəlxalq öhdəliyi vardı. Biz 1994-cü ildə xarici şirkətlərlə «Əsrin müqaviləsi»ni imzaladıq və bu müqavilədə bir vergül belə dəyişdirilməyibdir. Hesab edirik ki, etimadı illərlə qazanmaq lazımdır, onu səhv bir addımla itirmək olar. Lakin, görünür, belə yanaşma heç də hər yerdə yoxdur. Deməli, öhdəliklərin pozulmasına baxmayaraq, biz xoş məram və əməkdaşlıq ruhu göstərdik, bir min kubmetri 110 dollara razılaşdıq. Amma bu qiymət birdən-birə 230 dollara, son məqamda isə 235 dollaradək qaldırıldıqda, əlbəttə ki, bunun Rusiya–Azərbaycan münasibətlərinin ruhuna, xarakterinə və mahiyyətinə tam uyğunsuzluğu hiss edilir. Bu isə təəssüf doğurur, çünki bizim münasibətlərimiz çox müsbət, çox konstruktiv tərzdə qurulur və energetika ilə müqayisədə daha geniş sahələri əhatə edir. Yox, əgər söhbət energetikadan, xüsusən də qazdan gedirsə, onda, qiyməti birtərəfli qaydada qaldırmağa və Azərbay-

canı müəyyən dərəcədə məcburiyyət qarşısında qoymağa çalışmaqdansa, görünür, birgə fəaliyyət, müştərək layihələr üçün təmas nöqtələrini axtarmaq daha məntiqi və ağlabatan olardı. Azərbaycanı məcbur etmək qeyri-mümkündür. Azərbaycan elə dövlət deyil ki, onu məcbur edə biləsən. Digər tərəfdən, qiyməti qaldırmaq «Qazprom»un haqqıdır. «Qazprom» 500 dollar da, min dollar da elan edə bilər. Bu, onun haqqıdır. Eləcə də bizim də bundan imtina etməyə haqqımız var.

N.Əsədova: Belə başa düşürəm ki, qiymət 230 dollar olarsa, Rusiyadan aldığınız qazın həcmini azaldacaqsınız?

İ.Əliyev: Biz onu almaqdan, ümumiyyətlə, imtina edə bilərik.

A.Venediktov: İmtina etmək?

N.Əsədova: Bəs onda qazı haradan alacaqsınız, Sizə əlavə qaz lazım deyilmi?

İ.Əliyev: Bəli, bizə əlavə qaz lazımdır, ona görə ki, biz özümüzü qazla hələlik təmin edə bilmirik. Bu il bizdə neft hasilatı 30 milyon ton olmuşdur, daxili tələbat isə 6 milyon ton təşkil edir. Ona görə də burada problem yoxdur. Qaz hasilatı 4,5-5 milyard kubmetr olmuşdur. Daxili tələbat isə 10 milyard kubmetrdir. Odur ki, bizdə qıtlıq var. Bu qıtlıqdan istifadə etmək isə yaxşı iş deyildir. Biz heç vaxt belə etməzdik. Biz qazı haradan alacağıq? Almalı yerimiz yoxdur. Deməli, biz öz enerji balansımızı dəyişdirməli, onu mazut-qaz yanacağından mazut yanacağına keçirməliyik. Bu, nəyə gətirib çıxaracaq? Aydındır ki, biz Azərbaycan neftinin Novorossiysk limanına nəqlini azaltmalı olacağıq. Başqa çarəmiz yoxdur. Elektrik stansiyalarımız nə iləsə işləməlidir: qaz olmasa, mazutla işləyəcək. Bəs mazutu haradan almaq olar? Ancaq neft emal etməklə. Bəs nefti haradan alaq? Bakı-Novorossiysk kəmərindən. Gördüyünüz kimi, kommersiya baxımından belə aqressiv addım atıldıqda, o, bu cür nəticələrə doğru aparır. Ən başlıcası odur ki, ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinin inkişafını o qədər də istəməyən müəyyən qüvvələr bu vəziyyətdən istifadə etməsin və baş verən hadisələrin mahiyyətini siyasi baxımdan səhv yozmasınlar. Hesab edirəm ki, bu məsələni kommersiya və energetika çərçivəsində saxlamaq və ona başqa qiymət verməmək lazımdır.

A.Venediktov: Yəni, Siz siyasi mənaya məhəl qoymadınız? Belədir, cənab Prezident?

İ.Əliyev: Bilirsiniz, siyasi məna olub-olmadığını demək mənim üçün çətindir. Mən vəziyyətdən Azərbaycan üçün minimum itki ilə və eyni zamanda, ləyaqətlə çıxmağın yolunu tapmağı qərara aldım. Mən Azərbaycanın kommersiya şantajı elementlərinə məruz qalan ölkəyə çevrilməsinə imkan verə bilmərəm. Buna yol verə bilmərəm.

N.Əsədova: Bilirsiniz, sadəcə, Rusiyada hesab edirlər ki, Gürcüstanın qaz blokadasında iştirak etmək istəmədiyi üçün bu yolla Azərbaycanı cəzalandırırlar. Axı, Siz Gürcüstana qaz göndərməkdə davam edirsiniz?

İ.Əliyev: Biz Gürcüstana qaz göndərmirik.

N.Əsədova: Bu, bir çox Rusiya təhlilçilərinin...

İ.Əliyev: ...Deyərdim ki, bir çox Rusiya məmurunun fikridir. Bu, çox pis haldır. Yeri gəlmişkən, ilk dəfə deyil ki, belə yalan xəbərlər sonradan geniş müzakirə olunmuş və bu yalan məlumatlar əsasında nəticələr çıxarılmışdır. Biz Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi zamanı da bununla rastlaşmışıq. Onda deyirdilər ki, bu kəmər Rusiya əleyhinə yönəldilmişdir. Aralıq dənizinə gedən boru kəməri nə üçün Rusiya əleyhinə yönəldilməlidir? Rusiya ərazisindən Aralıq dənizinə boru kəməri çəkmək olar? Yəqin ki, yox. Ona görə də kəmər Rusiyadan yan keçir, – biz yan keçmək istədiyimiz üçün yox. Əgər yan keçmək istəsəydik, onda Bakı-Novorossiysk boru kəmərindən istifadə etməzdik. Yeri gəlmişkən, bu kəmər iqtisadi baxımdan ziyanlıdır və Bakı-Supsa, yaxud Bakı-Tbilisi-Ceyhan boru kəmərləri ilə qətiyyən müqayisə edilə bilməz. Sadəcə, dünya bazarlarından uzaqda yerləşən hasilatçı ölkə kimi bizə Aralıq dənizinə çıxan boru kəməri lazımdır. Vəssalam. Onda bu məsələ ilə bağlı diskussiyalar gedirdi, ilk baxışda çox məlumatlı təsiri bağışlayan adamlar Azərbaycanın dostcasına hərəkət etmədiyi barədə ciddi diskussiya aparırdılar. İndi də eyni vəziyyət yaranmışdır. Biz Gürcüstana qaz göndərmirik. Biz özümüz qazı alırıq. Biz bu il 4,5 milyard kubmetr qaz almışıq. Yeri gəlmişkən, Rusiyanın ən yüksək vəzifəli rəhbərlərinin informasiyasına və bəyanatına görə, Rusiyaya borcla bağlı problemi olmayan yeganə ölkə bizik. Biz qabaqcadan ödəmişik, biz borclu deyilik, heç vaxt müqavilələri pozmamışıq. Ona görə də bu fonda qiymətin belə qaldırılması bizə qəribə görünür. Mən buna qiymət vermək və ehtimallar qurmaq fikrində deyiləm, ehtimallar əsasında nəticə çıxarmağı sevmirəm.

A.Venediktov: İlham Heydəroviç, Rusiyada bilirlər ki, Sizin Prezident Putinlə şəxsi münasibətləriniz var. O da məlumdur ki, Prezident Putin «Qazprom»da baş verənləri diqqətlə izləyir. Elə dünən o, Saxalin-2 layihəsinin rəhbərlərini Aleksey Millerlə birlikdə qəbul etmişdi. Siz bunu, özünüz dediyiniz kimi, kommersiya məsələsi kimi deyil, siyasi məsələ kimi, – çünki Azərbaycan Rusiyanın siyasi müttəfiqidir, – həll etməyə çalışmamısınız? Siz bu barədə Rusiya Prezidenti ilə danışmamısınızmı? Bax belə, bizə dediyiniz kimi?

İ.Əliyev: Təbii ki, danışdım. Mən bunu Moskvada axırıncı dəfə olarkən fikir mübadiləsi qaydasında dedim. Bu, noyabrın əvvəlində olmuşdur. Təbii ki, bu mövzu çox geniş fikir mübadiləsi kontekstində müzakirə edildi. Lakin o mənada müzakirə edilmədi ki, «Qazprom»a deyəsiniz, bizə qazı ucuz versinlər. Mən suveren dövlətin Prezidentiyəm. Mən heç vaxt heç kimdən xahiş etmirəm. Əgər hansısa bir vəziyyət yaranıbsa, deməli, ondan çıxmaq lazımdır. Biz özünü təmin edən ölkəyik. Biz heç kimdən asılı deyilik. Ermənistandan fərqli olaraq, biz soyuqdan donmarıq. Ermənistanda artıq indinin özündə həyəcan qaldırmışlar ki, onların qaz anbarlarında qaz tükənir, çünki Gürcüstanda boru partlayıb və xahiş edirlər ki, bizi xilas edin. Biz belə tərbiyə edilməmişik. Bizim ikitərəfli münasibətlərə yanaşmamız başqadır və bu münasibətləri başqa cür dərk edirik. Biz hər bir ölkə ilə, o cümlədən də Rusiya ilə ikitərəfli münasibətləri qarşılıqlı fayda, mehriban qonşuluq, – əgər söhbət qonşulardan gedirsə, – tərəfdaşlıq, hörmət və ləyaqət səviyyəsində nəzərdən keçirirık. Ona görə də xahiş etmək bizə xas deyildir.

A.Venediktov: Bu əhvalatlar, təkcə sizinlə bağlı hadisə deyil, son zaman baş verənlər MDB-nin sonudur. Bu, MDB-nin, sadəcə olaraq, güllələnməsi deməkdir? MDB-nin mahiyyəti...

İ.Əliyev: Mən MDB-nin mahiyyətini ucuz Rusiya qazı səviyyəsinə endirməzdim. Bilirsinizmi, hər halda, 15 il hər bir ölkənin özünü müstəqil hiss etməsi üçün böyük müddətdir. SSRİ-nin süqutu nəticəsində müstəqillik əldə etmək heç də ən böyük nailiyyət deyildir. Milli azadlıq mübarizəsinin mövcud olduğu və olmadığı ölkələrin hamısı obyektiv və əlbəttə ki, həm də subyektiv səbəblərə görə müstəqillik əldə etdi. Ona görə də düşünürəm ki, ikitərəfli münasibətləri, – o cümlədən də Rusiya ilə, – məhz bu nöqteyi-nəzərdən keçirmək vaxtı çoxdan çatmışdır. Rusiya heç kimə heç nə borclu deyil və əgər

qazı Avropaya 260 dollara satırsa, onda nə üçün MDB ölkələrinə başqa qiymətə satmalıdır. O, başqa ölkədirsə. Ola bilsin biz bunu sadəcə, daha tez başa düşmüşük və heç bir xəyala qapılmırıq. Yeri gəlmişkən, deməliyəm ki, MDB çərçivəsində də bizim hansısa iddialarımız və ya xahişlərimiz, yaxud hisslərimiz yoxdur ki, deyək siz bizə borclusunuz. Heç kim heç kəsə borclu deyil. Əgər sən müstəqil dövlətsənsə, problemləri özün həll et. Ona görə də mən bu məsələni, ümumən, siyasiləşdirməzdim. Hərçənd siyasi mənanı, əlbəttə, istisna etmək olmaz. Amma MDB-nin varlığının vacibliyini ucuz qaza bağlamaq da, sadəcə, düzgün olmazdı.

N.Əsədova: Yaxşı. Gəlin, MDB-yə iqtisadi nöqteyi-nəzərdən baxaq. Ucuz qaz yoxdur. Məsələn, Gürcüstana öz şərabını, öz mineral suyunu Rusiyaya ixrac etmək qadağan edilmişdir və sair. Birlik üzvləri üçün MDB-də hansı iqtisadi fayda qalmışdır? Məsələn, Sizin üçün, Azərbaycan üçün? Sizin üçün MDB-nin faydası nədədir?

İ.Əliyev: Bu, bizə heç nə vermir. Mən açıq deyirəm. Biz MDB üzləri ilə münasibətlərimizi ikitərəfli əsasda qururuq. Məsələn, iqtisadi baxımdan qonşularla həyata keçirdiyimiz layihələr MDB çərçivəsindən kənardadır. Məsələn, siyasi əlaqələr baxımından da: bizim, demək olar, MDB-nin bütün ölkələri ilə ikitərəfli münasibətlər çərçivəsində münasibətlərimiz yaxşıdır. Buna görə praktik nöqteyi-nəzərdən MDB heç nə vermir. Bu, görüşlərin keçirilməsi, danışıqlar aparılması üçün yaxşı formatdır. Bu yaxınlarda Minskdə keçirilən MDB zirvə görüşündə liderlər arasında bir sıra görüşlər olmuşdur, onlar danışmışlar, fikir mübadiləsi aparmışlar, vəssalam. Başqa sözlə, MDB-yə böyük tələblərlə yanaşmaq lazım deyildir. Eləcə də digər təşkilatlara. Məgər BMT hansısa qlobal məsələləri həll etmişdir? BMT Baş Məclisinin qətnamələri, məsələn erməni qoşunlarının işğal olunmuş ərazilərdən dərhal çıxarılmasını tələb edən 4 qətnamə 14 ildir yerinə yetirilmir. Heç kim demir ki, BMT-ni buraxmaq lazımdır və ya o, faydalı deyildir. Başqa sözlə, böyük tələblər qoymaq lazım deyildir. Həm də MDB-nin necə yaradıldığını yada salmaq lazımdır. Axı bu, nə Avropa İttifaqı, nə GUAM və hətta Avrasiya İqtisadi Birliyi də deyildir. MDB üzvləri taleyin hökmü ilə bu təşkilatda birləşmişlər. Düşünürəm ki, onun mövcud olması, olmamasından daha müsbət haldır. Onun dağılması ilə yaxşı heç nə olmayacaqdır. İndi heç olmazsa, görüşmək, danışmaq imkanı vardır.

Kimsə hesab edir ki, MDB çərçivəsində problemlər həll oluna bilər. Mən ilk dəfə 2003-cü ildə, hələ Baş nazir olarkən MDB-nin Yaltada keçirilən zirvə toplantısına öz problemlərimlə gəlmişdim. Sonra yeni prezidentlər ilk dəfə öz problemlərini müzakirəyə çıxaranda mən özümü xatırlayırdım. Bu, o format deyildir. O, heç nə həll etmir. Məsələn, hətta münaqişələrin nizama salınması məsələlərində, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə kim məşğul olur? ATƏT. Gürcüstanda və ya Moldovada münaqişələrlə kim məşğul olur? MDB? Xeyr. MDB-dən çox şey gözləmək lazım deyildir.

N.Əsədova: GUAM-da üzvlük Sizə nə verir?

İ.Əliyev: GUAM 1997-ci ildə yaradılmış təşkilatdır. Bu təşkilatın yaradılmasının zamanın və şəraitin tələbi olduğuna əmin olmaq üçün həmin dövrdəki Rusiya-Azərbaycan münasibətlərini yada salmaq kifayətdir. Çoxları unutmuşlar, ancaq o zaman Azərbaycan blokadada idi. Rusiya Azərbaycanı Volqa-Don kanalında, sərhəddə blokadaya almışdı. Mərhum general Roxlin Ermənistana milyard dollarlıq qanunsuz silah verilməsi faktını açıqlayanda, Rusiya Dumasında böyük qalmaqal qalxmışdı.

A.Venediktov: Yeri gəlmişkən, bu işi prezident Yeltsinin nəzarət idarəsinin rəisi Vladimir Vladimiroviç Putin araşdırırdı.

İ.Əliyev: Sizin yaxşı yaddaşınız var. Axı bu, olmuşdu. Ərazilərin 20 faizini zəbt etmiş azərbaycanlılara qarşı etnik təmizləmə aparmış, bir milyon insanı evsiz-eşiksiz qoymuş işğalçı ölkə əlavə olaraq birdən-birə milyard dollarlıq silah alır. Bu hərbi tarazlığın tam pozulması demək idi. Lakin indi biz onu kompensasiya etmişik. Biz hərbi tarazlığı öz xeyrimizə dəyişmişik. Ancaq dediklərim GUAM-ın yaradılması ərəfəsində olan reallıqlardır. Buna görə də Ukrayna, Gürcüstan, Moldova və Azərbaycanın bu təşkilata daxil olmasında qəribə heç nə yoxdur. Bir qədər sonra Özbəkistan da qoşuldu, sonra çıxdı. Kifayət qədər səmərəli formatdır.

Hesab edirəm ki, təşkilat antı olmamalıdır. Yeri gəlmişkən, Azərbaycanın bu təşkilatda iştirakı müsbət amildir. Prinsipcə, biz heç kimə qarşı heç bir kampaniyada iştirak etmirik. Bizim Ermənistanla, ərazilərimizi işğal etmiş ölkə ilə problemimiz vardır. Biz onunla bütün metodlarla, bütün vasitələrlə, bütün geniş cəbhə boyunca – iqtisadi, siyasi, hərbi, informasiya, təbliğat sahələrində, hər sahədə mübarizə aparırıq və aparacağıq. Digər ölkələrlə bizim problemimiz yoxdur və biz

heç vaxt kiməsə qarşı kampaniyaya qoşulmayacağıq. GUAM bizə nə vermişdir – məsələsinə gəldikdə... Deyə bilərəm ki, GUAM-ın təşəbbüsü hazırda Birləşmiş Millətlər Təşkilatının gündəliyinə daxil edilmişdir. Biz GUAM çərçivəsində ilk dəfə bütün separatçı münaqişələri bir formatda birləşdirməyə nail olmuşuq. Axı, əvvəllər bu, yox idi. Nədənsə, əvvəllər həmişə, xüsusilə, Qərbdə hesab edilirdi ki, Abxaziyada, Osetiyada və Dnestryanıda baş verənlər separatizmdir, Dağlıq Qarabağdakı isə guya hansısa azadlıq hərəkatıdır. Halbuki, mahiyyət eynidir – təcavüzkarkar separatizm. Nəticə də eynidir – etnik təmizləmə, ərazilərin işğalı və yüz minlərlə, milyon qaçqın. Lakin erməni lobbisinin xususiyyətləri sayəsində onlar həmişə bu formatdan ayrıla bilmişlər. GUAM bunların hamısını sistemləşdirdi və dondurulmuş münaqişələr barədə bəndin daxil edilməsi haqqında məhz GUAM-ın təklifi olan qətnamə BMT-də keçmişdir. Bəzi ölkələr bunun əleyhinə çıxdılar. Lakin dünyanın aparıcı ölkələri lehinə oldu. Bax bu, yaxın vaxtlarda yaradılmış təşkilatın artıq bu cür təşəbbüslə çıxış etməsinə misaldır.

A.Venediktov: Cənab Prezident, bir halda ki, Siz Dağlıq Qarabağ mövzusuna toxundunuz, Siz Rusiyanın Minsk qrupu çərçivəsində regionda vasitəçilik fəaliyyətinin aktivliyindən nə dərəcədə razısınız? Bəlkə də, Minsk qrupu çərçivəsindən kənarda. Sizin fikrinizcə, Rusiya həlledici söz deyə bilərmi? Kobud desək, Sizcə, bu problemin həllinin açarları və ya açarlarından biri nə dərəcədə Moskvadadır?

İ.Əliyev: Biz həmişə Minsk qrupuna vahid orqanizm kimi baxmışıq. Yeri gəlmişkən, deməliyəm ki, Minsk qrupunun fəaliyyətinin son mərhələsi münaqişənin həlli yollarının tapılmasına cəhd göstərilməsi baxımından kifayət qədər müsbətdir, həm də, bəlkə də bu, Minsk qrupu həmsədrlərinin birgə aktiv fəaliyyətinin, hələlik qalmaqda olan sayca az elementlərindən biridir. Fransa, Rusiya, ABŞ Ermənistan-Azərbaycan münaqişəsinin həlli çərçivəsində birgə işləyirlər. Bu, müsbət haldır. Lakin biz ayrılıqda danışıqlar aparmırıq. Minsk qrupunun həmsədrləri olan ölkələrin nümayəndələri hər dəfə, adətən, ya hamısı bir yerdə gəlirlər, yaxud da kimsə hansı səbəb üzündənsə gələ bilmirsə, onun rəyi başqalarının rəyindən fərqlənmir. Buna görə də bizim üçün kimisə fərqləndirmək çətindir. Ayrıca formatda biz nə Rusiya ilə, nə Fransa ilə, nə Amerika ilə bu məsələ ilə məşğul oluruq.

Biz münaqişənin həlli yollarını tapmağa cəhd göstərən ölkələrə hörmət və minnətdarlıqla yanaşırıq. Bu, bizim məsələmizdir, onu heç kimin çiyinlərində qoymamalıyıq. Biz özümüz onu həll etməliyik. Bu, bizim torpağımızdır, bizim ərazimizdir. Biz güclü olmalıyıq, iqtisadiyyatı möhkəmləndirməliyik, ordunu möhkəmləndirməliyik, diplomatik cəbhədə daha fəal olmalıyıq. Biz Ermənistandan daha vacib ölkə olmalıyıq və artıq oluruq. Öz əhəmiyyətimiz, potensialımız və layihələrimizlə erməni lobbisini üstələməliyik. Axı bizim mübarizəmiz, əslində, Ermənistanla deyildir. Əgər açıq danışsaq, Ermənistan bir ölkə kimi bizə rəqib deyil. Əgər erməni lobbisi aradan götürülsə, məsələ asanlıqla həll olunar.

A.Venediktov: 2000-ci ildə mən Daosda olanda küçə ilə gedirdim və birdən eşitdim: «Aleksey!». Heydər Əliyeviç masa arxasında əyləşmişdi və dedi: «Aleksey, gəl əyləş». Mühafizəçilər kənara çəkildilər, onun Koçaryanla əyləşdiyini gördüm. O dedi: «Əyləş, üçüncü olarsan». Əyləşdim, təbii ki, mənə qəhvə gətirdilər. Fikirləşirdim ki, Heydər Əliyeviç nə üçün məni çağırdı, bilirdim ki, bu, əbəs deyildi. Səssizcə oturub üçlükdə qəhvə içirdik. Sonra o, mənə tərəf dönüb, – mən onunla Koçaryanın arasında oturmuşdum, – dedi: «Aleksey, yadında saxla, mən Roberti partiyaya qəbul etmişəm». Qəhvəni içdi. O zaman birbaşa danışıqlar aparılırdı, prezidentlər görüşürdülər...

İ.Əliyev: Görüşlər indi də var...

A.Venediktov: Danışıqlar irəliləyirmi? Siz xatırladınız, zənnimcə, Sizin bunun uğrunda hərbi qüvvə ilə də mübarizə aparmağa hazır olduğunuzu eşitdikdə, çoxları dik atılacaqdır. İlham Heydəroviç, əlbəttə, başa düşürəm, Siz bunu elə-belə, sözgəlişi demədiniz. Hər halda indi bu münaqişəni, məsələn, ikitərəfli danışıqlarla kifayət qədər tezliklə və kifayət qədər ağrısız həll etməyə imkan varmı?

İ.Əliyev: Danışıqlar, ümumiyyətlə, ikitərəfli formatda da gedir. Minsk qrupu, sadəcə olaraq, bir növ vasitəçidir, təkliflər hazırlayır, tərəflərin rəylərini nəzərə alır. Biz görüşdük, bir saat – saat yarım danışdıq və dağılışdıq. Bundan sonra xarici işlər nazirləri görüşdülər və sair. Bizdə işçi orqan yoxdur. Minsk qrupu müəyyən dərəcədə işçi orqanın funksiyalarını da yerinə yetirir, görüşlərin yekunlarına dair tövsiyələr, arzular alır, regiona gedir və bizdən eşitdiklərinin əsasında mövqeləri yaxınlaşdıra biləcək formullar tapmağa çalışır. Ona görə də Minsk qrupunun fəaliyyəti müsbətdir. Qərarlar tapılması baxı-

mından yox, məhz eşidilənlərin ümumiləşdirilməsi və az-çox məqbul bəndlər hazırlanması baxımından. Lakin hər şey, əlbəttə, Ermənistanın mövqeyindən asılı olacaqdır. Çünki bizim mövqeyimiz kifayət qədər aydındır. Azərbaycanın ərazi bütövlüyünü bütün dünya tanımışdır. Yeri gəlmişkən, bu yaxınlarda atılmış addım, deyərdim ki, uydurma konstitusiya üzrə referendum keçirilməsi kimi çox ağılsız addım bütün dünyaya və bütün beynəlxalq təşkilatlara bu hərəkəti pisləməyə bir daha imkan verdi. Bunu ATƏT də etdi. Bunu Minsk qrupu – Rusiya, Fransa, Amerika, Türkiyə, Avropa Şurası, Avropa İttifaqı, GUAM, İslam Konfransı Təşkilatı da etdi. Hamı. Yəni, referendum keçirilməsini pislədilər. Yeri gəlmişkən, biz – bəlkə də, ekspertlərdən kimlərsə buna diqqət yetirməmişdir – referendum keçirilməzdən əvvəl, xüsusi olaraq etiraz etməmişdik. Mən, sadəcə, bunun nə vaxt baş verəcəyini gözləyirdim, reaksiyanın necə olacağını bilirdim. Bunu Ermənistanda, nədənsə, təəccüblə qarşılamışdılar. Olmaya, onlar göydən düşmüşdülər, bilmirdilər ki, belə reaksiya olacaq? Mən necə reaksiya göstəriləcəyini bilirdim. Ona görə də bu ağılsız addımın nə vaxt atılacağını gözləyirdim. Bu addım atıldı. Bununla da BMT Təhlükəsizlik Şurasının qətnamələrindən 14 il sonra Azərbaycanın ərazi bütövlüyü yenidən təsdiq edildi. Heç kim, heç vaxt Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımayacaqdır. 60 min nəfər əhalisi olan ölkə heç kimə gərək deyildir. Özü də bu, ilk növbədə, Azərbaycanın iradəsi olmadan mümkün deyil, biz isə buna heç zaman razılaşmayacağıq. Ona görə də Ermənistan rəhbərliyi bu başlıca məsələni anlamalıdır ki, bu, heç vaxt olmayacaqdır. Əlbəttə, ərazi bütövlüyü çərçivəsində həll yolu tapmaq olar. Biz müxtəlif modellər – muxtariyyət, özünüidarə, yüksək status təklif etmişik. Avropada, dünyanın digər ölkələrindəki oxşar halları araşdırmışıq. Axı, azlıqda olmaq ərazini ölkədən ayırmaq demək deyildir. Biz XXI əsrdə yaşayırıq, orta əsrlərdə, mağara psixologiyası ilə yaşamırıq. Etnik təmizləmə aparmaq, bütün azərbaycanlıları qovmaq, sonra da referendum keçirmək – bunları bir neçə əsr əvvəl etmək olardı, indi isə heç kim belə şeyi qəbul etmir.

N.Əsədova: Siz indi Naxçıvanda olanda dediniz ki, gələn il Azərbaycanın hərbi büdcəsi Ermənistanın bütün büdcəsinə bərabər olacaqdır. Rusiyanın hərbi mütəxəssisləri ehtiyat edirlər ki, Siz ABŞ-dan silah almağa başlayacaqsınız. Siz silahı haradan alırsınız və haradan almağa hazırlaşırsınız?

İ.Əliyev: Yeri gəlmişkən, mən bunu iki il əvvəl demişəm. Mən qarşıya vəzifə qoymuşdum. Onda Azərbaycan büdcəsi, ümumiyyətlə indiki kimi deyildi. Büdcəmiz dörd il ərzində dörd dəfə artdı, bizim büdcəmiz 6,5 milyard dollar, birləşdirilmiş büdcə isə təxminən 8 milyard dollardır. Mən sözümün üstündə durmağa adət etmişəm. Ona görə də sözümün üstündə durdum və ordunun büdcəsini Ermənistanın bütün büdcəsinə çatdırdım. Bu son həddi deyildir, onu ötüb keçəcəkdir. Silah almağa gəldikdə isə, harada ucuz, keyfiyyəti yaxşı, problemlər azdırsa, oradan alacağıq. Biz Rusiya ilə də əməkdaşlıq edirik. Yeri gəlmişkən, bizim münasibətlərimizin elementlərindən biri hərbi-texniki sahədə əməkdaşlıqdır. Yeni elementdir. Bu da bizim üçün münasibdir. Bizim üçün istehsalçıdan almaq, sonradan üçüncü əllərdən almaqdan daha yaxşıdır.

N.Əsədova: Yəni, Siz ABŞ-dan silah almaq imkanlarını istisna etmirsiniz?

İ.Əliyev: Zənnimcə, orada bizə silah satmayacaqlar.

N.Əsədova: Dinləyicilərdən çoxlu sual alınmışdır. Onlar soruşurlar: Azərbaycan NATO-ya daxil olacaqmı?

İ.Əliyev: Mən bu mövzuda Bakıda, yeri gəlmişkən, o cümlədən, NATO-da dəfələrlə danışmışam. Mən hadisələri qabaqlamağı, əsassız bəyanatlar verməyi sevmirəm. Əvvəla, hər hansı təşkilata daxil olmaq ikitərəfli prosesdir. Təşkilat sənin ona daxil olmağını istəyir, ya yox. Qapı döymək, təkid, xahiş etmək, yalvarıb-yaxarmaq mənim xarakterimə ziddir. Bu, Avropa İttifaqına da aiddir. Biz beşillik saziş, Qonşuluq proqramı imzalamışıq, kifayət qədər səmərəli mexanizmlər var. Biz ölkəmizin meyarlarını ümumdünya, Avropa meyarlarına yaxınlaşdırmaq üzərində işləməliyik. Bunun oraya daxil olmağa gətirib çıxarıb-çıxarmayacağı başqa məsələdir. Hətta bu və ya digər səbəbdən gətirib çıxarmasa da, biz artıq açıq cəmiyyət olacağıq. Bizim nadir imkanımız var. Azərbaycanın iqtisadi artımı indi dünyada ən yüksək – 34 faizdir, ötən il 26 faiz idi, gələn il yəqin ki, 30 faiz olacaqdır. İstehsalın artımı, üç il ərzində yarım milyon iş yerinin açılması, əslində, bir ildə yoxsulluğun səviyyəsinin 49 faizdən 29 faizədək azalması, sənaye istehsalının 40 faiz artması. Biz texniki göstəricilərinə görə nadir enerji layihələri həyata keçirmişik. Geosiyasi baxımdan bu, nadir hadisədir. Bakı-Tbilisi-Ceyhan, sadəcə, neftlə doldurulmuş boru parçası deyildir. Qaz, dəmir yol layihələri də bu

qəbildəndir. Biz dəmir yolunu Türkiyə və Gürcüstan vasitəsilə Avropa ilə birləşdirmək istəyirik. Yəni, belə nadir sosial-iqtisadi imkanımız olduğuna görə, təbii ki, siyasi islahatları hərəkətə gətirməliyik. Əlbəttə, bunun baş verməməsi faciə ilə nəticələnməyəcək. Ölkə inkişaf edəcək, lakin bu, tam inkişaf olmayacaqdır. Biz ölkəni müasirləşdirmək istəyirik ki, güclü siyasi sistemi və azadlıqları olan müasir dövlətə çevrilsin. Ən yaxşı nümunə Avropadır. Bu, sirr deyildir. Ona görə də bizim üçün tərəfdaşlıq proqramı onlardan nəyisə xahiş etmək və kömək göstərin demək cəhdi deyildir. Biz, bəlkə də onlara daha çox lazım olacağıq, nəinki onlar bizə. Bu, bizim üçün ölkəmizin bütün göstəricilərini yaxşı səviyyəyə gətirmək imkanıdır.

Eyni sözləri NATO haqqında da demək olar. Biz «Sülh naminə tərəfdaşlıq» çərçivəsində, fərdi tərəfdaşlığın fəaliyyət planı çərçivəsində əməkdaşlıq edirik. Yeri gəlmişkən, Kollektiv Təhlükəsizlik üzrə Müqavilə Təşkilatının (KTMT) üzvü olan Ermənistan da orada əməkdaşlıq edir. Nə üçünsə, heç kəs Ermənistandan soruşmur ki, siz daxil olmaq istəyirsinizmi? Bizdən isə soruşurlar. Heç olmasa, onlardan da soruşsunlar: əgər KTMT-nin üzvüdürlərsə, NATO-nun fərdi tərəfdaşlıq planında nə işləri var. Uzun müddət iki stulda oturmaq olmaz. Özü də hazırda onlar bəzi dövlət xadimlərinin köməyi ilə Rusiyanın Qafqazda forpostu kimi yüksək status almışlar. Lakin aydın deyil ki, bu forpost kimin əleyhinədir. Bizim əleyhimizə? Kimin əleyhinə? Zənnimcə, bu, ümumiyyətlə, zərərli yanaşmadır. Bəzən eşidirəm ki, Rusiyanın Qafqazda yeganə müttəfiqi Ermənistandır. Nəyə görə? Baxın, Azərbaycanla Ermənistanı tərəziyə qoyun, əlbəttə, mən dərinə getmək istəmirəm, mövzu kifayət qədər genişdir. Azərbaycan Rusiyanın qonşusudur. Ermənistan isə qonşusu deyildir. Azərbaycanın Rusiya Qafqazı ilə dərin tarixi, mədəni əlaqələri var. Ermənistanın isə yoxdur. Azərbaycan neft və qaz hasil edən ölkədir və indiki halda artıq hasilatçı kimi müttəfiqdir. Lakin biz Rusiya ilə rəqabət apara bilmərik. Rusiya hər il Avropaya 150 milyard kubmetr qaz satır. Bizim gələn il üçün qaz hasilatımız isə 10 milyard kubmetr olacaqdır. Eyni sözləri elektroenergetika haqqında da demək olar, biz energetika sistemlərimizi birləşdirmişik. Ona görə də, nə üçün Azərbaycan daha az əhəmiyyətli ölkədir? Bu, mənə aydın deyildir. Yəni bu, stereotipdir, yoxsa yenə erməni lobbisi, yaxud başqa səbəblər var?

A.Venedıktov: Cənab Prezident, biz Sizə çoxlu stereotip gətirmişik. Bu da təbiidir, axı, biz Rusiyada yaşayırıq. Toxunmaq istədiyimiz daha bir mühüm mövzu var. Siz bizim daxili işlər nazirimizlə, cənab Nurqaliyevlə görüşmüsünüz. Məsələ bunda deyil. Məsələ ondadır ki, bildiyiniz kimi, Rusiya dövləti, Rusiya hökuməti əmək miqrasiyası, – bunu mədəni şəkildə və nəzakətlə belə adlandıraq, – haqqında qərar qəbul etmişdir. Müxtəlif hesablamalara görə, Rusiyada milyon yarımdan iki milyonadək azərbaycanlı işləyir. Prezident Putin iki milyon demişdir, amma burada statistika, bildiyiniz kimi, şübhəlidir. Azərbaycanlılar, əsasən, xidmət sahəsində, bazarlarda işləmişlər və işləyirlər. Hökumətin gələn il qüvvəyə minəcək qərarı onların imkanlarını kəskin şəkildə məhdudlaşdırır. Eşitmişəm, amma dəqiq bilmirəm, doğrudurmu ki, Siz Rusiyanı tərk etməli olan həmvətənləriniz üçün burada, Bakıda, ümumiyyətlə, Azərbaycanda mərkəzlər yaradılması barədə göstəriş vermisiniz? Belədirmi?

İ.Əliyev: Bəli.

A.Venedıktov: Siz bu barədə Nurqaliyevlə, Putinlə danışmısınızmı? Bunun baş verməməsi üçün nə etmək olar, Siz nə təklif etmisiniz?

İ.Əliyev: Bəli, əlbəttə, danışmışam. Bu mövzu Rusiya Prezidenti ilə görüş zamanı da, indi də müzakirə olunmuşdur. Yeri gəlmişkən, rəqəmlər barədə. Sizə deyim ki, indi görüşdə bizim daxili işlər naziri də iştirak edirdi və mənim də məlumatım vardı. Bizim məlumatımıza görə, Azərbaycanın əmək qabiliyyətli yaşda burada vətəndə müvəqqəti olmayan vətəndaşları təxminən 400-500 min nəfərdir.

A.Venediktov: Bütün ölkələrdə?

İ.Əliyev: Bəli.

A.Venediktov: Yəni, onlar Azərbaycanın hazırda digər ölkələrdə işləyən vətəndaşlarıdır. Onlar yarım milyondur.

İ.Əliyev: Rusiya vətəndaşları olan azərbaycanlılar da təxminən 500-600 min nəfərdir. Ona görə də iki milyon, üç milyon rəqəmi həqiqətə uyğun deyildir. Biz rayonlar üzrə, şəhərlər üzrə monitorinq keçirdik və müəyyən etdik ki, daha çox adamın getdiyi bəzi rayonlarda əhalinin təxminən 7 faizi yoxdur. Odur ki, bu, Azərbaycan üçün bir növ faciə kimi qəbul edilə biləcək fəlakətli rəqəm deyildir.

A.Venediktov: Axı, bunlar da adamdırlar – yarım milyon. İndi onlar Rusiya hökumətinin bəzi hərəkətlərinin təsirinə məruz qalacaqlar.

İ.Əliyev: Əlbəttə. Ona görə də biz ləngimədən qərar qəbul etdik, mən bu istiqamətdə işin qaydaya salınması üçün Baş nazirin birinci müavini başda olmaqla hökumət komissiyası yaradılması haqqında fərman verdim. İndi biz DİN-in nümayəndələrini Rusiyanın bir neçə regionuna göndəririk...

A.Venediktov: Bu, Rusiya ilə razılaşdırmaqla edilir?

İ.Əliyev: Bəli. Biz, əvvəla, Rusiyanın hakimiyyət orqanları ilə birlikdə dəqiq sayı və dəqiq fərdi tərkibi müəyyənləşdirmək üçün Azərbaycan diasporunu, bütün regionlarda şöbələri olan Ümumrusiya Azərbaycan Konqresini, səfirliyi işə qoşmuşuq. Bu məsələni həll etmək olar və lazımdır. Yalnız əlaqəli şəkildə etmək lazımdır ki, bu, kampaniyaçılıq xarakteri daşımasın.

Əgər Rusiyada miqrasiya proseslərini həqiqətən qaydaya salmaq vəzifəsi qoyulmuşdursa, mən belə başa düşürəm ki, prinsipcə bunu məhz həmin miqrantların gəldikləri ölkələrlə əməkdaşlıq şəraitində etmək daha səmərəli olacaqdır. Biz daha yaxşı bilirik, bizim mexanizmlərimiz çoxdur. Sizə açığını deyim ki, yaratdığımız komissiya prosesin artıq rəsmiləşdirilməsi deməkdir. Bilirdik ki, gec-tez belə olacaqdır. Çünki vəziyyətin, hadisələrin gedişini izləyirik. Müəyyən narahatlıq, milli və dini zəmində toqquşmalar, skinhedlər – bunların hamısı reallıqdır. Biz bunu izləyirik. Odur ki, bu vəziyyətə bir qədər əvvəldən hazırlaşmışdıq, iqtisadi, sosial, inzibati xarakterli tədbirlər kompleksi hazırlamışdıq. Bu məsələni ancaq birgə səylərlə həll etmək lazımdır. Bu, bizim üçün problemlər yaratmayacaqdır. Qarşıya qoyulmuş vəzifənin yerinə yetirilib-yetirilməyəcəyi hələ məlum deyil, axı, orada təkcə Azərbaycandan deyil, Orta Asiyadan, digər regionlardan olanlar da yaşayır, işləyirlər. Onlar boşluqda deyillər, kiminləsə görüşür, əlaqə saxlayırlar, onlara kimsə kömək edir, kimsə onların sənədlərini rəsmiləşdirir, bazarda kimsə onlardan töycü alır. Bax, onlarla mübarizə aparmaq lazımdır. Əgər Rusiyada onlara, belə deyək, havadarlıq edənlərə qalib gəlmək mümkün olarsa, onda məsələni həll edəcəklər. Bu, mürəkkəb məsələdir və Rusiyanın hakimiyyət orqanlarına uğur arzulayıram. Bunu etmək çətin olacaqdır. Odur ki, miqrantların gəldikləri ölkələrlə əməkdaşlıq etmək hamı üçün faydalı olacaqdır.

N.Əsədova: Dediniz ki, Sizin məlumatınıza görə, Rusiyada Azərbaycan vətəndaşları təxminən 500 min nəfərdir. Lakin etnik azərbaycanlılar Rusiyada qat-qat çoxdur. Bu insanlar artıq Rusiya vətəndaşlığı alsalar da, etnik azərbaycanlılardır. İndi isə Rusiyada millətçilik əhval-ruhiyyəsi artmaqdadır və yəqin ki, özünüzünkülərə görə ürəyiniz ağrıyır. Axı, onlar Sizin xalqınızdır.

İ.Əliyev: Əlbəttə.

N.Əsədova: Siz cənab Nurqaliyevlə danışdınız, bu problemi necə həll edəcəksiniz? Çünki Rusiyada azərbaycanlılara qarşı, bütün qafqazlılara qarşı mənfi əhval-ruhiyyə yaranır. Siz bununla əlaqədar işləyəcəksinizmi, kömək edəcəksinizmi?

İ.Əliyev: Bilirsinizmi, biz maksimum nə mümkündürsə, onu edirik. Yeri gəlmişkən deyim ki, Rusiyada Gürcüstan vətəndaşları olan çoxlu azərbaycanlı var. Yenə də nazirliyimizin məlumatına görə, onlar təxminən 170 min nəfərdir. Ona görə də, əlbəttə, azərbaycanlılar çoxdur və onların taleyi bizi narahat edir. Mən harada, hansı ölkədə oluramsa-olum, həmişə diasporla görüşürəm – Moskvada da, Kiyevdə də, Avropada da. Zənnimcə, bizim təşəbbüsümüzlə Prezident Putini Ümumrusiya Azərbaycan Konqresinin ikinci qurultayına dəvət etməyim və bizim orada birlikdə çıxış etməyimiz Azərbaycan diasporunun rahatlığı üçün mühüm amil oldu. Bu, cəmiyyətə də, bütün qurumlara da çox güclü siqnal idi. Əlbəttə ki, belə fəal siyasi əməkdaşlıq da kömək edir, çünki ölkələrimiz arasında əlaqələr genişlənir, ünsiyyətin səviyyəsi yüksəlir, əmtəə dövriyyəsini iki dəfə artırmışıq, indi üç dəfə artırırıq. Bütün bunlar köməkedici amillərdir. Amma bu məsələdə, bildiyiniz kimi, hər şey bizdən asılı deyildir. Hər halda, ora bizim ərazimiz deyildir. Bu, Rusiyanın ərazisidir və hər şey məhz əhvali-ruhiyyədən, ictimai ovqatdan asılıdır. Əlbəttə, müəyyən dairələrin millətçilik zəminində siyasi kapital toplamağa can atması çox narahat edir. Başqa bir şey hesabına siyasi kapital toplamaq mümkün olmadıqda, bu, əlverişli görünə bilər. Bu, klassiklər demişkən, sonuncu sığınacaq olsa da, çox təhlükəlidir, xüsusən də Rusiya kimi ölkədə. Azərbaycan da çoxmillətli ölkədir. Sizə deyim ki, biz milli azlıqlara böyük qayğı ilə yanaşırıq. Çünki bilirsiniz, ölkələrimizdə problemlər var və sosial-iqtisadi problemlər kifayət qədər oxşardır. Əgər hər hansı bir problem yerli sakini narahat edirsə, o, bundan, sadəcə, narazıdır və narazılığını bildirir. Əgər bu, azlığın nümayəndəsinə

aiddirsə, o düşünə bilər ki, bu ona görədir ki, o, başqa millətdəndir. Ona görə də azlıqların yığcam yaşadıqları bölgələrə daha çox kömək göstərməyə çalışırıq – sosial infrastruktur: xəstəxanalar, məktəblər tikir, iş yerləri yaradırıq. Azərbaycanın zənginliyi ondadır ki, bız çoxmillətli dövlətik. Mən buna qəti əminəm. Bu, hər bir çoxmillətli dövlət üçün vacibdir. Rusiya da Qafqaz ölkəsidir. Qafqazın bir hissəsi Rusiyadadır. Məsələn, onları necə fərqləndirəcəklər...

N.Əsədova: ...Dağıstanlını azərbaycanlıdan?

İ.Əliyev: Heç cür. Məgər fərqləndirmək olarmı, hətta soyadları da eynidir. Yaxşı, bu, nəyə gətirib çıxaracaq? Biz öz tərəfimizdən maksimum hər şeyi edirik ki, soydaşlarımız üçün rahatlıq olsun. Lakin mən onlara demişəm, – yeri gəlmişkən, Moskvada da, Peterburqda da, digər şəhərlərdə də, – siz olduğunuz ölkənin qanunları ilə yaşamalı, onun qanunlarına tabe olmalı, o cümlədən də məişət sahəsində inteqrasiya etməlisiniz. Amma bilin ki, sizə pis olsa, sizi həmişə qəbul edərik.

A.Venediktov: İcazənizlə, söhbətimizin sonunda sürəti artıraq – keçək blitsə. Suallar olduqca çoxdur, həqiqətən sürəti artıqmaq lazımdır – çatdıraq. İndi biz Bakıda olarkən bu, daxili işdir, buna baxmayaraq, bir çox bakılılar bizə deyirdilər ki, hündür binaların tikintisi şəhərin tarixi mərkəzini məhv edir. Bunu biz də görürdük. Ölkə Prezidenti kimi Siz bu təhlükəni hiss edirsinizmi, yoxsa bu, ancaq həmin məhəllədə yaşayan adamların rəyidir?

İ.Əliyev: Belə narahatlıq var. Nə vaxt ki, heç nə tikmirdilər, deyirdilər heç nə tikilmir. İndi Bakıda eyni zamanda 500 ev tikildiyi bir vaxtda deyirlər ki, həddindən çoxdur. Hər bir ev məhəlləyə də uyğun olmalıdır, onun hündürlüyü və arxitekturası da Bakının arxitekturasına uyğun gəlməlidir. Odur ki, biz bu məsələlərlə məşğul oluruq. Əgər diqqət yetirdinizsə, indi bir çox köhnə evlərə yenidən üzlük çəkilir, onların tarixi koloriti bərpa edilir. Sözlərim qutuyabənzər köhnə sovet evlərinə də aiddir. İndi onlara da bizim gözəl Bakı daşından üzlük çəkirik və bunlar köhnə Bakı evləri kimi olacaqdır.

A.Venediktov: İlham Heydəroviç, bu gün-sabah BMT Təhlükəsizlik Şurası İran problemi haqqında qətnamə qəbul edəcəkdir. Orada hərtərəflı olmasa da, hər halda, sanksiyalar da olacaqdır. Layihə artıq hazırdır, ola bilsin, indi, biz sizinlə söhbət etdiyimiz vaxtda son qeydlər yazılır. Əgər indi Azər-

baycan Təhlükəsizlik Şurasının üzvü olsaydı, İran barəsində nə kimi mövqe tutardı?

İ.Əliyev: Biz sanksiyaların əleyhinə olardıq. İstənilən sanksiyaların. Bu, birmənalıdır.

A.Venediktov: Bəs nə üçün? Hər halda, atom silahının yayılması dəhşətli tarixdir. Yeri gəlmişkən, bu. Sizin problemləriniz olacaq. Axı, İranda 26 milyon, yaxud 30 milyon azərbaycanlı yaşayır.

İ.Əliyev: Axı, nüvə texnologiyalarının hazırlanması qadağan edilməyib. Doğrudurmu? Hər bir ölkənin buna haqqı var. BAEA mövcuddur, beynəlxalq nəzarət mövcuddur. Bu gün sübut varmı ki, İran nüvə bombası hazırlayır? Bizdə belə sübut yoxdur. Bu sübutlar beynəlxalq ekspertlərdə varmı? Bütün bunlar ehtimallar səviyyəsindədir. Odur ki, ölkəni nüvə texnologiyalarını inkişaf etdirmək istədiyinə görə cəzalandırmaq... Nə üçün başqalarına olar, onlara olmaz? Yəni, prinsip pozulur. Bəlkə də, bu, kiminsə xoşuna gəlmir, yəqin ki, kimdəsə narahatlıq və ya qorxu doğurur. Belə isə, bu məsələni müzakirəyə çıxarmaq, işləmək, əməkdaşlıq etmək lazımdır. Desən ki, olmaz, sanksiyalar tətbiq ediləcəkdir – bu, heç nəyə gətirib çıxarmayacaqdır. İnanın mənə. Biz bu regionda yaşayırıq, regionu tanıyırıq, İranla min kilometrdən çox sərhədimiz var, orada, dediyiniz kimi, 30 milyonadək azərbaycanlı yaşayır. Bu, heç nəyə, yaxşı bir şeyə gətirib çıxarmayacaqdır. Ona görə də biz bunun əleyhinəyik və mən bu mövqeyi dəfələrlə açıqlamışam, bəyan etmişəm və hesab edirəm ki, bu, təhlükəsizlik baxımından region üçün və ümumən inkişaf üçün ağır nəticələrə gətirib çıxaracaqdır.

A.Venediktov: Cənab Prezident, axırıncı sualdır. Sankt-Peterburqdan olan arxitektor Yura yazır: Sizin xanımınız kimi xanımı harada tapmaq olar? Əvvəlcədən təşəkkür edirəm. Mehriban xanım gözəllik ilahəsidir. Yuraya bir məsləhət verin.

İ.Əliyev: Yəqin ki, Bakıda. Düşünürəm ki, Bakıda, daha harada tapmaq olar.

A.Venediktov: Bu müsahibəni dinləyəcək rusiyalılara demək istədiklərinizi birbaşa demək üçün indi Sizin iki dəqiqə vaxtınız var. Ənənəvi olaraq, biz qonaqlarımıza belə imkan veririk.

İ.Əliyev: İki dəqiqə, bu, çox qeyri-demokratikdir. Axı, siz məni nə qədər sorğu-suala tutdunuz? Bir saat. Mənim demək

istədiyim üçün isə cəmi iki dəqiqə. Siz söz azadlığını boğursunuz.

Mən Yeni il ərəfəsində bütün rusiyalılara xoşbəxtlik, firavanlıq, məhəbbət, əmin-amanlıq arzulamaq istəyirəm. Mənim həyatım Moskva ilə bağlı olmuşdur – 15 il orada oxumuş, işləmişəm. O illər pis illər deyildi, məhz gənclik, formalaşma illəri idi. Ona görə də Rusiyada baş verən hadisələr, təbii ki, qonşu dövlətin Prezidenti kimi, habelə şəxsi nöqteyi-nəzərdən mənim üçün əhəmiyyətlidir. Mən Rusiyanın uğurlarına sevinirəm, sevinirəm ki, Rusiya yenidən dünya miqyasında sanballı dövlətə çevrilir. Bizdə deyirlər, qonşunun firavanlığı sənin firavanlığındır. İstəyirəm ki, sülh olsun, ölkələrimiz arasında əməkdaşlıq inkişaf etsin, qarşılıqlı anlaşma möhkəmlənsin, daha çox ünsiyyət olsun.

A.Venediktov: Cənab Prezident, son söz Sizdədir, biz Sizinlə doğum gününüz ərəfəsində görüşürük. Siz artıq dediniz ki, xahiş etməyi sevmirsiniz. Buna baxmayaraq, öz doğum gününüz üçün Rusiyadan hansı hədiyyəni almaq istərdiniz? Sifariş verin. Xahiş etməyin. Sifariş verin.

İ.Əliyev: Sözün düzü, bunu demək mənim üçün çətindir. Ən yaxşı hədiyyə – xoş bir sözdür. Mən belə deyərdim. Və bir də Azərbaycanın dost olduğunu başa düşməkdir.

A.Venediktov: Çox sağ olun.

24 dekabr. İlham Əliyevin 45 yaşı tamam olur. Dövlət, hökumət və beynəlxalq təşkilatların başçılarından güllər, teleqramlar, təbrik məktubları gəlir. Rusiya prezidenti Vladimir Putin Bakıya zəng vurub, İlham Heydəroviçi ad günü münasibəti ilə ürəkdən təbrik etdi. Telefonla dostyana söhbətdən əlavə, Vladimir Vladimiroviç səbəbkara çox səmimi bir məktub da göndərdi.

«...Siz qətiyyətlə və ardıcıl olaraq Azərbaycanı sosial-iqtisadi islahatlar aparmaq, xarici siyasətə onun təsirini gücləndirmək yolu ilə irəli aparırsınız. Ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafı üçün gördüyünüz işləri xüsusi ilə qiymətləndiririk. Bu gün biz əsil strateji tərəfdaşlıq səviyyəsinə çıxmışıq. Bütün bunların əsasında dolğun və məzmunlu dialoq, səmərəli və qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq, sıx humanitar əlaqələr durur. Rusiya və Azərbaycan arasında milli illərin mübadiləsi kimi əhəmiyyətli təşəbbüsə Sizin şəxsi da-

yaq olmanız, onun müvəffəqiyyətlə keçməsinə qabaqcadan təminat verdi».

Amma o qışı dostluq münasibətləri bir xeyli soyudu; bunu Azərbaycan Prezidenti efirdə birbaşa çıxışında açıq-aşkar söylədi. Düzdür, Rusiya ilə Belorusiya arasındakı «neft-qaz müharibəsi» fonunda – xatırlayanlar varsa, o zaman onlar yeni il ərəfəsi, 2006-cı ilin lap son dəqiqələri, razılığa gəldilər – xülasə, o fonda Moskva ilə Bakı münasibətlərindəki soyuqluq ikinci plana keçdi. Lakin Azərbaycanda ziddiyyətlər barədə söz-söhbət səngimirdi, hər yerdə bu haqda danışılırdı. Rusiyanın yuxarı dairələrində, görəsən, bu barədə nə düşünürlər? Rusiyanı MDB üzrə qonşularını Qərb tərəfdaşları ilə daha sıx əlaqələrə təhrik etməkdə suçlamaları ilə razıdırlarmı?

Bu sualları biz Rusiya Federasiyasının o zaman Federal Məclisinin sədri olan Sergey Mironova verdik. Sergey Mixayloviç – təcrübəli siyasətçidir, Rusiya dövlətində üçüncü sima idi, özü də dəfələrlə Azərbaycanda olub. Belə bir vəziyyət onu narahat edirmi? O belə cavab verdi:

– Mən hesab etmirəm ki, bizim qonşularımızla münasibətlərimiz pozulub. Rusiyanın mövqeyi daha proqmatik olmağa başlayıb, öncə Rusiyanın özünün milli maraqlarını nəzərə alır. Bu, zənnimcə, məntiqə uyğundur. Bilmirəm niyə keçmiş sovet respublikalarında, elə bizim ölkədə də, bu mövqe gözlənilməz olmuşdur. Vladimir Vladimiroviç Putin prezidentliyinin lap əvvəlindən Rusiya Federasiyasının xarici siyasətində belə bir istiqamət seçmişdir. Və ardıcıl olaraq, inadla buna riayət edir.

Rusların və belorusların böyük əksəriyyəti kimi mən də birləşmiş dövlətin qəti tərəfdarlarındanam. Bu bizim qardaş xalqların kökündə olan həyati marağıdır. Əminəm ki, biz tədricən bütün problemləri həll edəcəyik. Mən Belorusiyanın bir çox vilayətlərində olmuşam, paytaxtda da, ucqarlarda da, şəhərlərdə və kəndlərdə insanlarla söhbət eləmişəm və şəxsən əmin olmuşam ki, onların əksəriyyəti ürəkdən bizimlə bir dövlətdə yaşamaq istəyir. Əvvəlcə bu, konfederasiya olacaq, sonra, ola bilsin ki, əsil federasiya. Ancaq tədricən, yavaş-yavaş hərəkət etmək lazımdır; addım-addım, etap-etap konstitusiya müddəaları ilə, ümumi pul vahidi, vahid gömrük və iqtisadi ərazi məsələləri ilə bağlı problemləri həll edə-edə. Əlbəttə, bu yolda baş verən ləngimələr həyəcan doğurur. Lakin Belorusiyanı, elə hər hansı bir başqa ölkəni də, təcrid etmək məsələnin həlli yolu deyil.

Mironov əmindir ki, beloruslar Moskvanın və Minskin əleyhdarlarının qələmə vermək istədikləri kimi Rusiyaya kasıbçılıq üzündən can atmırlar. Belorusiya bu gün pensiya və sosial təminatın, iqtisadi sabitliyin səviyyəsinə görə MDB-də liderlər sırasındadır. Bir sözlə, hər iki xalqın birləşmək istəyi şübhə doğurmur, sadəcə bu ittifaqın həyata keçirilməsi böyük səy və böyük də hövsələ tələb edir.

Bu söhbəti biz başqa tanınmış siyasətçilərlə də davam etdirdik. Çoxlu müxtəlif fikirlər, gümanlar eşitdik; o cümlədən də, şəxsiyyətin tarixdə rolu seriyasından. Həmsöhbətlərimizdən biri – düzdür, ona istinad etməməyimizi xahiş etdi – Aleksandr Qriqoryeviç Lukaşenkonun şəxsi iddialarını dilə gətirdi. Guya onda nəsə bir kəndçi hiyləgərliyi var və batka – bəzi qəzetçilər Belarusun prezidentini belə adlandırmağı xoşlayırlar – gələcək İttifaq dövlətində eyni vaxtda iki vəzifə: prezidentin müavini və hökumətin sədri vəzifələrini tutmaq istəyir. Elə ki, Lukaşenkonun tutmaq istədiyi vəzifələr məsələsində razılaşdılar (bu isə müşkül məsələdi: həmsöhbətimiz hesab eləyir ki, iki belə vəzifə çoxdur), Qorbaçov demişkən: «proses poydyot», yəni – iş yoluna düşəcək. Deməli, əsas məsələ Lukaşenkonun həddindən artıq yüksək tələblərindədir, «onunçün şəxsi mənafe millətin taleyindən üstündür... O, öz taleyini belə görür və əsas əngəl də budur».

Həmsöhbətlərimizin fikirlərində, mövqe müxtəlifliyinə baxmayaraq, səmərəli bir toxum var. Bir saatın içində müstəqil olmuş, sovet respublikaları yalnız indi dövlət quruculuğu təcrübəsi qazanırlar. Hətta onların lideri sayılan Rusiya belə bütün 90-cı illər ora-bura çırpınırdı. Belə olan halda, Moldova, Belarus, Qırğızıstan barədə nə deyəsən?.. Tanınmış diplomat Aleksandr Çikvaidzenin bu münasibətlə bağlı müşahidələri, zənnimizcə, çox maraqlıdır.

Aleksandr İvanoviç Sovet İttifaqının, Rusiyanın səfiri, Gürcüstanın xarici işlər naziri olub. Gürcüstan Xarici İşlər Nazirliyində ilk addımlarını xatırlayan nazir yazır: «...O dövrdə (sovet dövründə – müəllif) Gürcüstanda xarici siyasət idarəsi, əslində, müstəqil deyildi, o hələ sözün geniş mənasında azad bir ölkənin xarici siyasətini planlaşdıran və həyata keçirən bir mərkəz olmaqdan uzaqdı. Və bunda qeyri-adi, onda da ola – pis, heç nə yox idi».

Hər bir ittifaq respublikasının öz xarici işlər nazirliyi var idi, lakin onlar da Gürcüstan Xarici İşlər Nazirliyi sayaq, SSRİ

Xarici İşlər Nazirliyinin protokol əlavəsi kimi bir şey idi. Yalnız Ukrayna və Belorusiya xarici siyasət idarələrindən başqa; bu respublikalar hər halda BMT-nin üzvləri idilər. Aleksandr Çikbaidze yazır: «Keçmiş xarici işlər nazirlərindən biri – o eyni zamanda həm də Gürcüstan Nazirlər Soveti sədrinin müavini idi – söhbət əsnasında mənə şikayət elədi ki, respublikaya gələn xarici qonaqların mənə verdikləri ən çətin sual: «sizin xarici siyasət idarənizin əsas işi nədən ibarətdir? – sualıdır».

Həqiqətən də, nə iş?! Əsas iş elə süfrələr açmaqdan ibarət idi ki, xarici qonaqlar Tbilisidə, Bakıda, Yerevanda, Daşkənddəki qonaqpərvərliyi uzun müddət unutmasınlar...

Müstəqil dövlətlərin diplomatiyası qarşısında artıq tamam başqa vəzifələr durur: xarici siyasət xəttini işləyib hazırlamaq, müəyyənləşdirmək; öz ölkələrinin beynəlxalq miqyasda tanınmasına nail olmaq; həm xaricdə, həm öz ölkəsində diplomatik nümayəndəliklər açmaq – özü də, səfir, rəsmi nümayəndə olmaq arzusunda olanlar çoxdur, növbədir, amma aralarında peşəkarlar tək-tükdür...

Sovet İttifaqı dağıldıqdan sonra, az qala müstəqillik qazanmış bütün keçmiş sovet respublikaları, o cümlədən də, Rusiya ilk illər bu qəbildən olan problemlərlə qarşılaşdılar. Rusiya Ali Sovetinin sədri Ruslan Xasbulatovun «Çəhrayı rəngli, gödək tumanlı oğlanlar» adlandırdığı keçmiş laboratoriya müdirləri, kiçik elmi işçilər nazirliklərdə vəzifələri ələ keçirib ölkəni aparıb saldılar dalana. Belə ki, Rusiyanın xarici işlər naziri Andrey Kozırev okeanın o tayındakı tərəf-müqabillərindən Rusiyanın milli maraqlarının nədən ibarət olduğunu ona başa salmağı xahiş etdi. Azərbaycanda yeni xarici siyasət xəttinin bünövrəsini Xalq Cəbhəsi qoydu. Özü də necə?! Elə qoydu ki, sonradan yalnız Heydər Əliyevin möhtəşəm iradəsi, ondakı dövlətə rəhbərlik etmək istedadı, xalq yanında və dünyada olan nüfuzu Azərbaycanın siyasi xəritədən silinməsinin qarşısını aldı.

XVI fəsil

ƏSRİN ÇAĞIRIŞLARI

Fəaliyyətə yönələn vəsait
onun nəticələri ilə qovuşur.
O.Balzak

XXI əsrin çağırışlarına partiya və hərəkatların hər biri öz cavabını axtarır, bu cavablar müzakirələrdə, mətbuatda, parlamentlərdə səslənir, yazılır. Prezident İlham Əliyev öz çıxışlarında, müsahibələrində, söhbətlərində tez-tez ölkənin müasirləşməsi barədə danışır. Bu tutumlu məfhum özündə həm iqtisadiyyatın yeniləşməsini, həm təsirli sosial proqramları və həm də düşünülmüş xarici siyasəti ehtiva edir.

2002-ci il mayın 20-də (rəqəmlərin naxışına fikir verin) Tehranda keçirdiyi mətbuat konfransında Heydər Əliyevdən soruşurlar ki, o «Mazandaran gölü ətrafında yerləşən beş ölkənin sammitini» necə qiymətləndirir. Heç şübhəsiz, Azərbaycan Prezidenti söhbətin nədən getdiyini çox gözəl başa düşdü. Amma...

– Başa düşmədim, Mazandaran gölü nə deməkdir – dedi...

İranın Prezidenti Muhəmməd Hatəmi qonağa kömək etmək istədi:

– Sizdə Xəzər deyirlər, Xəzər gölü – deyə, izah eləməyə başladı, – bizdə – Mazandaran gölü deyirlər. Amma tərəflərin heç birinin narahat olmaması üçün onu Xəzər dənizi adlandıraraq.

Heydər Əliyev ona belə cavab verdi:

– O, lap çoxdan Xəzər dənizi adlanır. Xəzər dənizi adını dəyişmək olmaz.

Bu, kifayət qədər tutarlı coğrafiya dərsi, daha doğrusu, siyasət dərsi idi. Tutarlı və nəzakətli.

Beynəlxalq icmalçılar, diplomatlar qeyd edirlər ki, bu üslub İlham Əliyevə də xas olan xüsusiyyətdir. Biz artıq 2006-cı

ilin sonları – 2007-ci ilin ərəfəsində Azərbaycanın gözlənilmədən qiyməti artırılmış rusiya qazından imtina etdiyini yazmışdıq. Buyurun, nəhəng bir şirkətin («Qazprom»un) korporativ maraqları ilə dövlət maraqlarının ziddiyyətə girdiyi, demək olar ki, klassik bir vəziyyət. Azərbaycan Prezidentinə birmənalı şəkildə haqq qazandırmaq lazımdır: onun cavab addımı dəqiq, ağıllı, tam məntiqə uyğun və eyni zamanda nəzakətli idi. «...Əldə edilmiş güclü potensial, – deyə, «İzvestiya» qəzeti yekun vururdu, – Azərbaycana yalnız və yalnız xarici səbəblər üzündən, ölkə rəhbərliyində deyildiyi kimi, bir o qədər də anlaşılmayan vəziyyət nəticəsində yaranmış müvəqqəti çətinliklərdən ləyaqətlə çıxmağa imkan verir. Azərbaycan bu gün artıq xarici təbəddülatlardan az asılıdır. İlham Əliyev emosiyalara uyan rəhbər deyil və bacarıqla öz şəxsi dəst-xəttini yeridir. Onun siyasəti bu gün güclü iqtisadi bünövrəyə əsaslanır və bu da inkişafı uğurla davam etdirməyə təminat verir» *(«İzvestiya», 30 yanvar 2007-ci il).*

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov «Rossiyskaya qazeta»ya müsahibəsində (19 may 2007-ci il) belə qeyd edirdi:

– Azərbaycan-Rusiya münasibətləri son illər sabit pozitiv inkişaf dinamikası üzrə yüksəlir. Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 3 iyul 1997-ci ildə dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik barədə imzalanmış təməl Müqaviləsi bu prosesdə mühüm rol oynayır. Bu sənədin əsas məzmunu və mahiyyəti ondan ibarətdir ki, bizim dost və bərabərhüquqlu dövlətlərimiz gələcək münasibətlərini etibar və strateji tərəfdaşlıq əsasında, bir-birinin dövlət suverenliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə və sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət prinsipi üzrə qururlar.

Hal-hazırda ikitərəfli münasibətlərimiz çox mötəbər müqavilə – hüquq normalarına söykənir; ölkələrimiz arasında 100-ə yaxın hökumətlərarası və müəssisələrarası müqavilələr, sazişlər bağlanmışdır və bunlar ticarət və iqtisadiyyat, investisiya qoyuluşu və humanitar yardım, eləcə də hərbi sahələrdə qarşılıqlı əlaqənin ən geniş spektrini əhatə edir».

İqtisadiyyatın hansı sahəsini götürürsünüz götürün: istər neft strategiyasını, istər aqrar sektoru, nəqliyyatı – fərqi yoxdur, hər bir sahədə təməlin Heydər Əliyev tərəfindən qoyulduğu və işlərin sonrakı davamının İlham Əliyevin adı ilə bağlı olduğu görünür.

«Azərbaycan Hava Yolları» (AZAL) Dövlət konserninin baş direktoru Cahangir Əsgərov nəql edir:

– Mülki aviasiyamızın inkişaf proqramı və müasirləşdirilməsi hələ keçən əsrin 90-cı illərində Azərbaycanın Ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilmişdi. Buna müvafiq olaraq 1999-cu ildə bütün beynəlxalq standartlara cavab verən, hazırda Heydər Əliyevin adını daşıyan Bakı aeroportu istifadəyə verildi, 2000-ci ildə isə ilk yeni «Boinq–757–200» təyyarəsi alındı.

Aviasiyamızın sonrakı kompleks müasirləşdirilməsi siyasəti Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən davam etdirildi. Mülki aviasiyanın 2008-ci ilə qədər nəzərdə tutulmuş inkişafının dövlət proqramını da o imzaladı. Həmin proqramda bir neçə çox mühüm, həlledici bənd var. Əvvəla, bu, heç şübhəsiz, aviaparkın sistemli yeniləşdirilməsidir; özü də dünyanın aparıcı aviatikinti korporasiyalarından yalnız yeni texnikanın alınması nəzərdə tutulur. İkincisi, respublikanın müxtəlif regionlarında yeni aeroportların tikintisidir; beynəlxalq aviasiya qovşaqlarının sayının beşə çatdırılması şərti ilə.

Bir çox başqa dövlətlərdən fərqli olaraq, Azərbaycan öz hava donanması üçün, aeroportları üçün kadrları özü hazırlayır. Milli aviasiya akademiyasının (MAA) əyani və qiyabi şöbələrində 22 ixtisas üzrə 1800 tələbə təhsil alır. Akademiyaya fizika-riyaziyyat elmləri doktoru, akademik Arif Mir Cəlal oğlu Paşayev rəhbərlik edir. Alim fəxr edir ki, vaxtı ilə onun böyük elmə gəlişinə xeyir-duanı Sovet İttifaqı Elmlər Akademiyasının prezidenti Mstislav Keldış verib. Bu, 1974-cü ildə olub. Mstislav Vsevolodoviç Bakıya gəlib Azərbaycan fiziklərinin işi ilə maraqlanırmış. Respublika Elmlər Akademiyasının o zamankı prezidenti Həsən Abdullayev başqaları ilə bir sırada moskvalı qonağa Arif Paşayevi də təqdim edir:

– Son dərəcə istedadlı gənc fizikdir...

Akademik Keldış onun əlini sıxıb:

– Gələcək sizlərə məxsusdur, mənim əziz fiziklərim! – deyir.

Bizə elə gəlir ki, müxtəlif «sahələr» üzrə misallar kifayət qədərdir; onlar, ümumiyyətlə, bir-birinə çox bənzəyir. İndi gəlin ölkənin sosial-iqtisadi inkişafının nəticələrinə baxaq; əvvəlki fəsillərdə biz artıq bu haqda yeri düşdükcə danışmışdıq. Azərbaycan iqtisadiyyatda ildən-ilə yeni-yeni rekord göstəricilər əldə edir: 2006-cı ildə, məsələn, ümumi daxili məhsulun

inkişafı 35 faiz təşkil etmişdir; sənaye üzrə – 37 faiz. Əhalinin pul gəliri 22 faiz artmışdır. Yoxsulluq səviyyəsi nəzərə çarpacaq dərəcədə aşağı düşür. Üç il ərzində ölkədə 520 min yeni iş yeri açılmışdır.

«Elm – zəmindir, iş, əməl – nəticədir» – bu sözlər çox-çox qədimlərdən bizlərə qədər gəlib çıxıb. Məşhur Azərbaycan astronomu və mütəfəkkiri Nəsirəddin Tusi (1201-1274) belə deyib.

İlham Əliyev dövrün, zamanın ölkə qarşısında qoyduğu vəzifələrə bir tarixçi, siyasi xadim, yüksək əyarlı dövlət rəhbəri kimi yanaşır. Onun bilavasitə maraq dairəsində, başqa dövlətlərin liderləri ilə danışıqlarında ən müxtəlif məsələlərə rast gəlmək mümkündür – məsələn, Xəzər dənizindəki yataqların istifadə edilməsi, transmilli neft kəmərlərinin, qaz magestrallarının çəkilməsi, TRASEKA proyektləri – qədim Böyük İpək Yolu ənənələrinin müasir əsaslarda bərpa olunması və s... O, iqtisadi forumlarda dünyanın biznes-elitası qarşısında rus, ingilis və fransız dillərində çıxış edir.

İlham Əliyev də atası kimi kabinet adamı deyil. O, həvəslə respublikanın şəhər və kəndlərinə gedir, ən ucqar yerlərə belə baş çəkir, zavod və mədənlərdə, yeni tikintilərdə olur. O, yeni məktəblərin, poliklinikaların, xəstəxanaların, idman saraylarının açılışında iştirak edir... Adət üzrə uşaq bağçasının, sexin və ya fabrikin açılışında qırmızı lent kəsilir. Hətta xalq arasında zarafatyana deyirlər ki, bu lentlərdən əllərindən hayküydən, boşboğazlıqdan başqa heç bir iş gəlməyən müxalifətçi cənablara yaxşı kostyumlar tikmək olar.

* * *

Azərbaycan Yazıçılar Birliyinin katibi, xalq şairi Fikrət Qoca:

– Sovet İttifaqı dağıldıqdan sonrakı ilk illər biz yeni dövrlə ayaqlaşmağı Heydər Əliyevdən öyrənirdik. Belə bir novatorluq ruhu İlham Əliyevə də xasdır. O, cəmiyyəti Heydər Əliyevin müəyyən etdiyi yolla irəli aparır. Və hər işi, hər addımı onun müasir, güclü dövlət xadimi olduğunu göstərir.

SSRİ xalq artisti, professor Arif Məlikov:

– İlham Əliyevin hakimiyyətə gəlməsi təsadüfi deyil. O, siyasətdə Heydər Əliyevin başladığı işlərin davamçısı kimi iştirak edir... Dövlətin lideri üçün ən müxtəlif səviyyələrdə ünsiyyətə girmək bacarığı çox mühüm məsələdir; mövqeyini

izah etməkçün dəqiq sözlər, ifadələr tapmaq, problemlərin həllinə çalışmaq, çətin vəziyyətlərdə ifrata varmamaq, kimi danlamağın, kimi həvəsləndirməyin, kimə xoş sözlə, real işlə dayaq olmağın yerini bilmək... Xarizm deyilən xüsusiyyət, insana bir anda, bir saatda verilmir. Tarixdə o qədər cazibəli şəxslər olub ki, sonradan sınaqdan çıxanda boşboğaz olduqları görünüb...

Görünür, xarizm – yalnız bəlağətli danışmaq qabiliyyəti deyil, insanın bir çox məziyyətlərinin cəmidir: sözü ilə əməlinin vəhdəti, təbiətinin bütövlüyü, bir sözlə, o keyfiyyətləri ki, hamısı birlikdə cəmiyyətin rəğbətinə, sevgisinə səbəb olur. Azərbaycan dövlətinin başçısının nüfuzunun, şöhrətinin sirri buradadır.

O, dostluqda sədaqətlidir; təmizliyi, saflığı və düzgünlüyü qiymətləndirir; ikiüzlülüyə, riyakarlığa qarşı dözümsüzdür, yalançı sədaqətə, canfəşanlığa nifrət edir. Məlumdur ki, görkəmli adamların ətrafında şirin-şirin ötən, ayaqlarını cütləyib təzim edən «xadimlər» az olmur... İlham Əliyev belə təşəbbüslərdə bulunmaq istəyənlərin qarşısını nəzakətlə alır. Hərdən istehzalı bir təbəssümü kifayət edir ki, yaltaq özünü yığışdırsın.

Üzü Ərgünəşə*

Buradan, göz işlədikcə uzanan, ucsuz-bucaqsız Muğan düzündən Qarabağın qış, yay başıqarlı ən uca Ərgünəş və Kirs dağlarının zirvələri belə görünmür. Buz kimi soyuq suyu diş göynədən bulaqlar, kəhrizlər, göz yaşı kimi dupduru kiçik çaylar uzaqlardadır.

Çadır düşərgələrindən birinin sakinləri bura köçüb gəliblər.

Minlər, on minlərlə qaçqın və məcburi köçkün daimi mənzil ümidi ilə belə çadır şəhərciklərində yaşayırdılar. İldən-ilə, aydan-aya tədricən onların çoxunun arzuları gerçəkləşirdi. Nəhayət, sonuncu çadırların da növbəsi çatdı. Yeni qəsəbədə xəstəxana, məktəb, klub, kitabxana, şadlıq evləri – yaşayış üçün nə lazımdırsa, hər şey var: su kəməri də, küçələrində işıq dirəkləri, dirəklərdə fənərlər – şəhərdə necədirsə, eləcə.

Qovaq ağaclarının kölgəsində bacı və qardaş gizlənpaç oynayırlar. İkinci sinifdə oxuyan Zibaya nənəsinin adını qo-

* Ərgünəş – Azərbaycanın Cəbrayıl rayonunda (Qarabağ) dağ adıdır

yublar. Qardaşı Rüfət bu il gedib məktəbə, birinci sinifdə oxuyur. Necə deyərlər: «bapbalaca boyu var, dam dolusu toyu var» – yaman zirəng uşaqdır. Qonaqların suallarına, maşallah, avtomat kimi cavab verir. Özünü öydü də, dedi ki, əzbərdən çoxlu şeir bilir.

– İstəyirsiz, deyim?

Üzünü uzaq üfüqlərdə qaraltı kimi görünən dağlara tutub dedi də:

Zər papaqlı Heydər baba!
Gözləyirik, tez gəlin!
Əbədilik yeriniz var
Qəlbində xalqın, elin!

Səsə uşaqların atası, Qarabağ müharibəsi əlili Azər çıxır. Evə dəvət edir bizi, valideynləri – Şamil kişi, Ziba ana ilə, arvadı Kifayət xanımla tanış edir. Yaşayışlarından, dolanışıqlarından suallar veririk. Ziba nənə söhbət əsnasında hələ doxsan doqquzuncu ildə, çadır şəhərciyində yaşadıqları vaxt Heydər Əliyevin gəlib onlara baş çəkməsini xatırlayır. O zaman Heydər Əliyev dedi: çox keçməyəcək, lap yaxın vaxtlarda yaşayışınız xeyli yaxşılaşacaq. Necə demişdi, elə də oldu. İkinci gəlişində bizim Azərin toyunu keçirdi. Gəncləri onun tapşırığı ilə tikilmiş şadlıq evində təbrik etdi.

– Mən bu gün sizin ilk şadlıq gününüzə gəlmişəm – dedi Heydər müəllim. – Xoşbəxtəm ki, Novruz Bayramı ərəfəsində toy şənliyində iştirak edirəm.

Sonra o, öz toyunu xatırladı.

Heydər Əliyevin xatirələrinin bu səhifəsini biz başqa mənbələrdən daha ətraflı bilirik.

– Biz Zərifə xanımla iki-üç il idi evlənmək istəyirdik. Amma evimiz yox idi. Ev alana kimi gözləməli olduq. Nəhayət, mənə ikiotaqlı bir mənzil verdilər. Hə, indi evlənmək olardı.

Və sonra Heydər Əliyev incə bir yumor hissi ilə Zərifə xanımla necə evləndiklərini danışdı.

– Biz şəhəri gəzirdik. Voroşilov küçəsində – indi Yusif Məmmədəliyev adınadır həmin küçə – hə, o küçədə ZAQS şöbəsi gördük. Girdik ora. Orda bir qadın oturmuşdu. Ona dedik ki, bəs, biz evlənmək istəyirik. Dedi, yaxşı, əyləşin. Əyləşdik. Bizimsə heç nişan üzüyümüz də yox idi. Qadın nəsə yazdı, qeyd elədi. Sonra üzünü tutdu bizə:

– Siz ailə qurmağa razısınızmı?

– Hə – dedik; ikimiz də birdən.

– Onda bura qol çəkin.

Biz imzalarımızı qoyduq. Və bizə evlənmək haqqında şəhadətnamə verdilər.

O zaman «Nizami» kinoteatrının qarşısında yaxşı şirniyyat mağazası vardı. Girdik ora, mən bir kiloqram «Mişka» aldım: çox yaxşı konfet idi, amma baha idi. Sonra dəniz kənarına tərəf getdik, Zərifə xanımgilə. Dedik ki, bəs biz evlənmişik. Və mən «Mişka» konfetlərini tökdüm stolun üstünə, yəni ki, ağzınız şirin olsun...

Hamının «Mişka» dediyi həmin o məşhur konfetin əsil adı «Mişka na Severe» («Mişka Şimalda») idi. Onunla bağlı, daha doğrusu, səfeh siyasətçilərlə bağlı yenidənqurmanın əvvəllərində gülməli bir hadisə baş verib. O hadisəni Fərman Qurbanoviç Salmanov bizə danışmışdı.

Bu, Sov.İKP MK-nın baş katibi Qorbaçovun uzaq şimalda Tümenin şəhər və qəsəbələrinə səfəri zamanı baş vermişdir. Orada insanlar illərlə yaxşı konfet görmürdülər. İndi belə bir möhtəşəm rəisin gəlişi münasibəti ilə yerli təsərrüfat rəhbərləri həddindən artıq canfəşanlıq edib Nijnevartovskə bir vaqon «Mişka na Severe» gətirtdirirlər. Amma o bir vaqon konfetdən bircəciyi də mağazaların piştaxtasına çıxarılmır. Niyə? Birdən Mixail Sergeyeviç inciyər.

Qayıdaq Ziba nənənin, onun oğlunun və gəlininin xatirələrinə. Prezidentin gənclərə o zaman xeyir-dua verməsi onların indiki kimi yadlarındadır.

– Mənim sizə əsas nəsihətim budur: bir-birinizi sevin, bir-birinizə vəfalı olun, valideynlərinizi heç zaman unutmayın, torpağımıza, ölkəmizə, dövlətimizə sədaqətli olun...

Ziba gəlini Kifayət xanımdan albomu gətirməsini xahiş edir. Oğlu Farizin şəklini bizə göstərir.

– O, Cəbrayıl rayonunun Horovlu kəndi uğrunda igidcəsinə vuruşmuşdu. Heydər Əliyev onu «Azərbaycan Bayrağı» ordeni ilə təltif etdi – ölümündən sonra... O müqəddəs insanla, xalqın ağsaqqalı ilə görüşüb söhbət eləmək mənə, bizim bütün ailəmizə böyük bir təsəlli oldu. Elə bil dərdimiz bir az yüngülləşdi...

İlham müəllim də, bizim bugünkü Prezidentimiz, vicdanla, ləyaqətlə atasının yolunu davam etdirir. İki min üçüncü ildə bura gəlmişdi. Onda dedi ki, lap tezliklə biz bu çadır düşərgə-

ləri ilə vidalaşacayıq. Sözünün üstündə durdu. İndi bizim mahalda daha beş qəsəbə salınıb. Eşitmişəm ki, açılışlarına özü gələcək, onun qadasını allam.

Camaatımız çadırlardan köçəcəklər bura. Amma həmişəlik yox. Axı doğma rayonumuz, Cəbrayıl bizim yolumuzu gözləyir; torpaqlarımız hələ tapdaq altındadır. Çaxırlının, Mərcanlının, Horovlunun gözü yoldadır...

Həyətimizdəki o oturacağı görürsüz, üzü bizim dağlara sarıdır. Hava işıqlananda ya gün batanda doğma torpaqların nəfəsini, ətrini duyuram.

Bax, bu televizoru rəhmətlik Heydər Əliyev oğluma, gəlinimə toylarında bağışlayıb. Mən bu televizorla Prezidentimizin çıxışlarına qulaq asıram, o, həmişə deyir ki, torpaqlarımızı azad edəcəyik, doğma ocaqlarımıza qayıdacayıq. Mən inanıram ona, havayı söz danışmır...

Novruz Bayramı ərəfəsi, martın 19-u Füzuli rayonunun köçkünləri Tuqay Rzayevlə Aygün Quliyevanın yaddaşlarına həmişəlik həkk olunub. Onlar Prezidentin iştirak etdiyi toy şənliyinin videoyazısını əziz bir xatirə kimi saxlayırlar.

Biz onlarla köhnə «nobel evlərindən» birində görüşdük; bu ev dahi isveçlinin adını daşıyan prospektdə yerləşir. Sovet vaxtı ona Fəhlə prospekti deyərdilər. Bakılı olmuş Tuqayla Aygün burada yaşayırlar. Aygün Bakı neft və energetika kollecini bitirib; hər ikisi Bakı elektrik şəbəkəsi sistemində işləyirlər. Onlar qızlarına Heydər Əliyevin həyat yoldaşı, – məşhur göz həkimi, akademik Zərifə xanımın şərəfinə Zərifə adı qoyublar.

Tuqay videomaqnitafonu qoşur, kasseti qoyur.

– Kassetdə olmayan nəsə bir maraqlı epizod qalıbmı yadınızda? – deyə, biz Tuqaydan soruşduq.

– Bizə evlənmək haqqında şəhadətnamə təqdim olunandan sonra, Prezident xeyir-dua verdi bizə; oyun havası çaldılar... Biz oynamağa başladıq və... Heydər Əliyev də bizə qoşuldu. Biz qollarımızı bir-birimizin çiyninə qoyduq; doğma, yaxın adamlar kimi. Bu zaman Prezidentin mühafizəçilərindən biri dərhal yaxınlaşıb mənim əlimi Heydər Əliyevin çiynindən götürmək istədi, amma o, baxışı ilə mühafizəçini başa saldı ki, narahat olmasın. Bax, bu detal kasetdə yoxdur.

Biz oturub bir xeyli o unudulmaz toyun epizodlarına tamaşa etdik.

Novruzun müjdəçisi səməni̇lərlə bəzədilmiş stollara süfrələr bəzəyi zəfəranlı, xuruşlu Qarabağ plovu verildi. Prezidentin sa-

ğında və solunda: bir tərəfdə Tuqayın anası Ruba Rzayeva, o biri tərəfdə – o biri bəyin, Azərin anası Ziba Cavadova əyləşmişlər.

Müğənni qız xalq arasında geniş yayılmış, Qarabağı vəsf edən gözəl bir mahnı oxudu:

Sevgilim, seyrə çıxaq burada gəl ilk baharı,
Gül açsın qəlbimizin ən şirin arzuları.
Anadır arzulara hər zaman Qarabağ,
Danışan dil-dodağı tar, kaman – Qarabağ.
Bu çəmənlərdə gəzib Vaqifin şux gözəli,
Ruhunu buradan alıb Natavanın qəzəli...

Mahnı başa çatdı.

Prezident ifanı bəyənir, «Çox sağ ol!» – deyir.

Aygün xanım xatırlayır; deyir:

– Biz oynayanda, istədim onun əlini öpəm, amma qoymadı, əlini çəkdi, özü mənim alnımdan öpdü...

İndi də ekranda elə həmin epizodu göstərirlər.

Alnından öpmək – xeyir-dua vermək deməkdir. Prezident «Süleymani» havasına oynayır, elə gözəl, elə vüqarla rəqs edir ki, heç ona 76 yaş verməzsən.

Müğənni Əlikram Bayram «Ana» mahnısını oxuyur. Prezident dinləyir, hər sözə, hər kəlməyə diqqət kəsilir, onun üzündəki təbəssümü kədər əvəz edir.

Budur, bəylə gəlin Prezidentlə xatirə şəkli çəkdirirlər. Aygün həmin şəkillərdən birini bizə göstərir.

– İstəyirəm bu şəkilləri Mehriban xanım Əliyevaya çatdıram. Deyirlər Heydər Əliyev Fondu üçün onlar maraqlı eksponatlar toplayırlar.

Həmin gündən səkkiz il keçib. İnsanlar hələ də gözləyirlər, doğma ocaqlarına qayıdacaqlarına ümid edirlər: Tuqay və Aygün kimi.

Tuqay deyir:

– İlham Əliyev söz vermişdi ki, Azərbaycanda bir dənə də çadır düşərgəsi qalmayacaq. Sözünün üstündə durdu. Verdiyi söz həqiqətə çevrildi. Mən inanıram ki, onun adı tarixə Qarabağın xilaskarı kimi düşəcək. O gün uzaqda deyil!

Prezident insanlarla canlı ünsiyyətdə olmağı sevir və qiymətləndirir, köməkçiləri vasitəsi ilə onlardan təcrid olunmur.

Məsələn, danışırlar ki, Oğuz rayonunda dəhşətli soyqırımına məruz qalmış Xocalı rayonu Daşbulaq kəndinin keçmiş

sakini, məcburi köçkün Adil kişi ona yaxınlaşıb, dərdini danışıb Prezidentə. 1988-ci ildə, Novruz Bayramı ərəfəsində erməni quldurları onun ikimərtəbəli evini yandırmışlar. Oğlu Niyaz aldığı yanıqlardan əlil olmuşdur. Adil Mahmudovun adı Qarabağ qaçqınlarının acınacaqlı və çox uzun siyahısında birincilərdəndir. O, özü də ağır yaralanıb o zaman. Oğlu Mahir özəl «Təfəkkür» Universitetində oxuyur. Di gəl ki, vəziyyətləri ağırdır: təhsil haqqını verməyə imkanları yoxdur. Prezident başıbəlalı atanı dinləyib və ona yardım göstərməyi tapşırıb.

Qeyd edək ki, dövlət təhsil ocaqlarında qaçqınlar və məcburi köçkünlər pulsuz oxuyurlar.

Erməni blokadası nəticəsində Böyük torpaqdan ayrı düşmüş Naxçıvana xüsusi qayğı göstərilir. Ora yeganə yol – hava yoludur. Gündə bir neçə təyyarə reysi var, vəssalam. Bir də dolayı yoldur – İrandan keçməklə...

Prezident Muxtar Respublikada tez-tez olur. Muxtar Respublikanın başçısı Vasif Talıbovun işgüzarlığı, ruh yüksəkliyi onun ürəyincədir. Naxçıvanda beynəlxalq aeroportun açılışında İlham Əliyev deyib ki, buranın Azərbaycan üçün çox böyük strateji əhəmiyyəti var: «Mən həmişə, hər zaman naxçıvanlılara kömək edəcəyəm... Bilin, bizim ürəklərimiz buradadır, sizinlədir».

Qayıdaq bizim Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Sergey Mironovla görüşümüzə. Sergey Mixayloviç o zaman (2006-cı ildə – *red.*) deyirdi:

– İlham Əliyevin belə praqmatik, iradəli, güclü və sərt siyasətçi olacağı çox az adamın ağlına gələrdi. Çoxları, hətta Azərbaycanda belə, gənc Prezidenti az qala başı taclı şahzadə, dekorativ bir fiqur kimi görürdülər. Amma onlar səhv ediblər. İlham Heydəroviç siyasətini yalnız atasının zəngin təcrübəsinə deyil, həm də özünün düşüncə və təsəvvürlərinə, biliyinə istinad edərək qurur. O, məlum olduğu kimi, Rusiyada təhsil alıb, həyatının əhəmiyyətli hissəsi Rusiya ilə bağlıdır. Bizim ölkələrimiz boy atır, inkişaf edir, dünyada öz yerlərini axtarırlar. Müəyyən mübahisələr və bəzi məsələlər qaçılmazdır. Amma mən əminəm ki, atasının təcrübəsi və şəxsi təcrübəsi İlham Əliyevi Rusiya ilə mehriban qonşuluq münasibətlərinə alternativin olmadığına inandırır; Rusiya üçün Bakı Zaqafqaziyada (Cənubi Qafqazda – *red.*) ən etibarlı tərəfmüqabil olub və olaraq da qalır. Heç kimə sirr deyil ki, dünyada Azərbaycandan enerji daşıyıcılarının nəqli məsələsində və hərbi-strateji sahədə

öz məqsədlərinin həlli üçün istifadə etməyə can atan qüvvələr vardır. Belə planların Azərbaycan xalqının maraqları ilə heç bir əlaqəsi yoxdur. Və mən əminəm ki, Bakıda hamı bunu çox gözəl başa düşür.

25 fevral 2007-ci il, Moskva

Sovetlərin vaxtında burada, Sodoviy koltso ilə Çernışevski küçəsinin kəsişdiyi yerdə adı qəhrəman şəhərin şərəfinə «Novorossiyski» qoyulmuş və özü də böyük, ağ gəmini xatırladan məşhur bir kinoteatr vardı. Nikolay Qriqoryeviçə çarın «hədiyyəsi» Yakutiyaya sürgün olmuşdu. Moskvanın müasir sahibləri isə Leninin ən çox sevdiyi bu yazıçıya öz «məhəbbətlərini» başqa cür bildirdilər, onun adını şəhərin xəritəsindən sildilər. Küçəyə köhnə – Pokrovka adını qaytardılar; kinoteatrı isə sahibkarların ixtiyarına verdilər – oldu Sahibkarların mərkəzi evi.

Bazar günüdür; 2007-ci il fevralın 25-i... Sahibkarların mərkəzi evinə gənclər, nisbətən yaşlı qonaqlar – Dövlət Dumasının deputatları, senatorlar, jurnalistlər yığışırdılar. Bizi bura iki ictimai təşkilat – Azərbaycan gənclərinin əlaqələndirmə şurası və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) Azərbaycan klubu dəvət etmişdi. Gənclər Xocalı faciəsinin 15 illiyinə həsr olunmuş bu görüşü Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlamışdılar. Bir vaxt gələcək, Azərbaycanın bu balaca şəhərciyinin adı belorusların Xatın, rusların Krasuxa, çexlərin Liditse qəsəbəsi, fransızların Oraduru ilə bir sırada çəkiləcək...

Xocalı 1992-ci il fevral ayının 26-a keçən gecə yer üzündən silinmişdir.

«XX yüzilliyin sonunda bütün dünyanın gözü qarşısında baş vermiş bu kütləvi qırğın öz qəddarlığı və amansızlığı ilə yalnız Azərbaycan xalqına qarşı deyil, həm də bütün bəşəriyyətə və insaniyyətə qarşı törədilmiş cinayətdir – deyə, ölkə Prezidenti İlham Əliyev Azərbaycan xalqına müraciətində bəyan etmişdir. – Bizim məqsədimiz tarixi həqiqəti bərpa etməkdən, cinayətkarları ifşa edib onları dünya ictimaiyyətinin məhkəməsinə verməkdən ibarətdir. Etnik separatizmin, başqa xalqlara münasibətdə nifrət və terror ideologiyasının necə böyük bir təhlükə olduğunu açıb göstərmək çox vacibdir».

Xocalı qurbanlarının xatirəsini yad etmək üçün həmin gün Bakıda «Vətənin harayı» abidəsi önünə minlərlə insan toplaşmışdı. Təkcə Bakıda yox – Ankarada, Parisdə, Astanada, Nyu-Yorkda da... Və – Moskvanın mərkəzində də.

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Azərbaycan klubunun Prezidenti Leyla Əliyeva səhnəyə qalxır. Düzdür, həyəcanlıdır, amma yazılı mətnə baxmır, sinədən danışır. Bura yığışanlara erməni-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin artıq 15 ildən artıq müddətdir ki, davam etdiyini söyləyir. Deyir ki, Azərbaycan torpaqlarının 20 faizi işğal olunub; ölkədə bir milyondan artıq qaçqın və məcburi köçkün vardır; minlərlə tarixi abidələr məhv edilib... 1992-ci il fevralın 26-sı bizim tariximizə ən faciəli günlərdən biri kimi daxil olub. Xocalı faciəsi xalqımız üçün ən ağır sınaqdır. 15 il keçib. Amma Azərbaycan o dəhşətli fevral gününü heç zaman unutmayacaq...

Ona görə unutmayacaq ki, Xocalı ağrısı gənclərin ürəyində silinməz, dərin iz qoyub. Haqqında danışacağımız görüşü də onlar – Azərbaycan tələbələri, gənc sahibkarlar təşkil ediblər; Heydər Əliyev Fondunun çəkdiyi yeni sənədli filmdə bu barədə danışılır. Filmdə döyüş zamanı həlak olmuş Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevin lentə aldığı materiallardan istifadə olunmuşdur.

Prezident sözü bəlkə də Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun aspirantı məlahətli, cazibədar Leyla ilə bir qədər uyuşmur. Amma ilk anlar hiss olunan həyəcan hissini cilovlayıb ram etdikdən sonra, o inamla danışırdı, prezident necə danışmalıdırsa – elə; özü də təmiz rus dilində:

– XXI əsrdə bəşəriyyət, nəhayət ki, zorakılıqdan və müharibələrdən ümumi dəyərlərə, həmrəyliyə, dözümlülüyə və ayrılıqda hər bir insanın hüquqi haqlarına əsaslanan yeni mədəniyyətə, yeni münasibətlərə keçməlidir.

Leyla çıxışını qurtarıb Eminlə yanaşı, öz yerinə gedənə kimi alqışlar ara vermədi. Hiss olunurdu ki, zaldakı gənclər öz liderləri – Leylayla fəxr edirlər.

Səhnəyə bir-birinin ardınca müxtəlif nəsillərə mənsub insanlar: alimlər və tələbələr, jurnalistlər və diplomatlar çıxırdılar.

– Mənə danışmaq çətindir, – Azərbaycanın Rusiyadakı səfiri, keçmiş Sovet İttifaqında (bizim böyük ölkəmiz bir zamanlar belə adlanırdı) ən məşhur azərbaycanlılardan biri Polad

Bülbüloğlunun bu sözləri sükuta qərq olmuş zala daha artıq gərginlik gətirdi; hamının gözləri səfirə zillənmişdi. – Mənim babam və nənəm Qarabağda, – Şuşada dəfn olunublar; Xocalıdan çox da uzaq deyil Şuşa. Mənim atam Şuşanın və Ağdamın yaxınlığında dünyaya göz açıb...

Bu kadrlara baxmaq mənimçün olduqca ağır idi; 15 il əvvəl törədilmiş bu cinayətə, baş vermiş faciəyə yenidən bir daha baxmaq çətindir. O ağlasığmaz qırğından salamat çıxmış çox az sayda insanlarla mən hələ o zaman görüşmüşəm. Onların danışdıqlarını unutmaq mümkün deyil...

Azərbaycan bu dərdə dözməkçün özündə güc tapdı, insanlar daha artıq sıxlaşdılar, doğmalaşdılar – deyə Fövqəladə və Səlahiyyətli səfir sözünə davam edir. – Bu gün Azərbaycan – səsi bütün dünyada eşidilən müstəqil bir ölkədir. Və biz bu problemi həll edəcəyik. Bizim nəsil olmasa da, bu gün bu zalda əyləşənlər mütləq həll edəcəklər. Biz intiqam almaq fikrindən uzağıq və bu məsələdən də hər hansı siyasi, maliyyə, ərazi və başqa bir mənfəət, qazanc əldə etmək məqsədi güdmürük. Biz erməni-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli tənzimlənməsinə nail olmağa çalışırıq.

Mən bu gecəni, bu görüşü təşkil edənlərin hamısına təşəkkür etmək istəyirəm; xüsusən gənc nəslin hisslərini ifadə edən Leyla Əliyevaya minnətdarlığımı bildirirəm...

Nə vaxtsa, lap çoxdan və çox da dəqiq bir fikir söylənib: gəncliyini itirən ölkə, gələcəyini itirir. Azərbaycanda gəncliyə qayğı – ümumdövlət və ümummilli proqramın tərkib hissəsidir.

Hindistanın böyük oğlu, müdrik dövlət xadimi Cəvahirlal Nehru 1933-cü il yanvar ayının 16-da «Naiki» həbsxanasından qızı İndiraya növbəti məktubunu göndərir. İllər keçdikdən sonra bu məktub tarixin səhifələrini çox sərbəst və anlaşıqlı bir tərzdə gəncliyə çatdırmaq məqsədi ilə həbsxanadan qızına yazdığı başqa məktublarla birlikdə ayrıca kitab şəklində dərc olundular. Hindistanın ilk baş naziri Nehru (1889-1964) bu kitabı «Dünya tarixinə bir nəzər» adlandırmışdı.

Xatırlatdığımız, yanvarın 16-da yazılmış məktub «Üç qitənin birləşdiyi yerdə» adlanır; bu məktub Qərbi Asiyanın və Ottoman imperiyasının taleyi haqqında, Asiyanın Aralıq dənizi ölkələrinin Cənubi Avropa və Şimali Afrika ilə əlaqələri barə-

də Nehrunun dərin məzmunlu düşüncələridir. Nehrunun yazdığına görə, Qərbi Asiya yüzillər və hətta minillər boyunca Avropanı Asiya ilə birləşdirən böyük bir yol olmuşdur və saysız-hesabsız karvanlar onun şəhər və səhralarından keçərək bir qitənin mallarını o birinə daşımışlar. Lakin sonralar «dəniz böyük yola çevrilib və gəmi səhralardan keçən dəvənin yerini tutub... İndi isə, iyirminci əsrdə, bizim gözümüzün qabağında yeni dəyişikliklər baş verir: quru ilə dəniz arasındakı köhnə rəqabətdə yenidən quru qalib gəlir və böyük dünya yolu olmaqda dənizin yerini tutur».

Müasir geosiyasət, «Azərbaycanın Xəzər nefti» monoqrafiyasında İlham Əliyevin müfəssəl şəkildə yazdığı kimi, sivilizasiyanın iki tipini – dəniz və quru sivilizasiyalarını tanıyır. «Qərb və Şərq, dəniz və quru, adalar və qitələr, Atlantika və Avroasiya arasındakı bu qütbləşmələr, ziddiyyətlər – deyə, İlham Əliyev xüsusi olaraq nəzərə çarpdırmaq istəyir ki, – dünya tarixinin və siyasətinin bütün əsas istiqamətlərini qabaqcadan müəyyən edir. Sivilizasiyaların (dəniz və quru sivilizasiyalarının) böyük qarşıdurması tarix davam etdikcə, davam edəcəkdir».

Bu qarşıdurmalar zamanı imperiyalar meydana gəlir də, dağılır da. Dövlətlər yaranır. Xalqlar ən ali milli maraqlarına uyğun öz yollarını seçirlər. Azərbaycan müstəqillik yolunu seçib. Və bu yolda, Heydər Əliyevin sözləri ilə desək, neft və qazla bağlı Xəzər dənizinin imkanlarından istifadə etməyin yeni tarixini yaradır. Sonra o deyirdi: «Mən çox şadam ki, biz bu tarixi yaradanlardan biriyik. Bizim gördüyümüz işin böyük gələcəyi var. Bu tarix bizdən sonra da yazılacaq, davam edəcək».

Tarix dönə-dönə öyrədir: o ölkələr tərəqqi edir ki, lideri xalqına arxalanır, xalqı üçün yaşayır. Azərbaycan xalqının dahi Ümummilli lideri Heydər Əliyevin uzaqgörən seçimi də belə idi. Xalqın istəyi ilə o, dövlətin idarə sükanını mənəvi silahdaşı, siyasi varisi oğlu İlhama etibar etdi. İlham Əliyev həmvətənlərinin hörmət və məhəbbətini qazandı, dünya onu qəbul etdi, tanıdı. Prezidentliyin dörd ili, ümumiyyətlə, götür-dükdə, hətta bir insanın tərcümeyi-halında böyük müddət deyil; ondakı ola ölkənin həyatında. Amma diqqət edəndə, görürsən ki, bu illər ərzində nə qədər çox iş görülüb! Günügündən yeniləşən, müstəqil Azərbaycanda hələ nə qədər də görüləsi işlər var!

Dövlətin getdiyi yolu çox vaxt sürətli hərəkətlə müqayisə edirlər: yeni üfüqlərə gedən gəminin və ya səmaya tuşlanmış, anbaan yüksələn təyyarənin hərəkəti ilə... İşıqlı gələcəyə doğru irəliləyən «bizim sovet parovozu» haqqında bir zaman çox dəbdə olan bir mahnı vardı. Həmin mahnıda deyilirdi: «...Dayanacaq kommunadadır!». Lakin əslində, xalqın həyat yolunda heç bir dayanacaq yoxdur. Qarşıda həmişə qayğılar var; yeni-yeni – gündəlik və perspektiv, ailə və dövlət qayğıları. Yeni dövrün, zamanın hayqırtısı, çağırışı eşidilir. İlham Əliyevin Azərbaycanı onlara necə və nə cavab verəcəyini bilir.

Bakı-Moskva
2003-2007

İ.H.ƏLİYEVİN HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

1961, 24 dekabr – Bakıda, Heydər və Zərifə Əliyevlərin ailəsində anadan olmuşdur.

1967-1977 – Bakıdakı 6 №-li orta məktəbdə oxumuşdur.

1977-1982 – Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ) təhsil almışdır.

1982-1985 – MDBMİ-nin aspirantı; tarix elmləri namizədi adı almaqçün dissertasiya müdafiəsi.

1983 – Mehriban Arif qızı Paşayeva ilə evlənmişdir.

1985, 15 aprel – Anası, Zərifə Əziz qızı Əliyeva vəfat etmişdir.

1985-1990 – MDBMİ-nin müəllimi.

1985 – qızı Leyla anadan olmuşdur.

1988 – qızı Arzu anadan olmuşdur.

1991-1993 – Moskva və İstanbul şəhərlərində kommersiya fəaliyyəti

1994, may-avqust 2003 – Azərbaycan Respublikası Dövlət Neft Şirkəti prezidentinin birinci müavini.

1995 – Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir.

1995 – oğlu Heydər anadan olmuşdur.

1997 – Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsinə təsdiq olunmuşdur; bu vəzifəni bu günə kimi də icra edir.

1999, dekabr – «Yeni Azərbaycan» partiyası sədrinin müavini seçilmişdir; 2001-ci ildə partiya sədrinin birinci müavini vəzifəsinə seçilmişdir.

2000 – İkinci dəfə Milli Məclisə deputat seçilmişdir.

2003, Yanvar – Avropa Şurası Parlament Assambleyası (AŞPA) sədrinin müavini seçilmişdir.

2003, mart – «İzvestiya» (Moskva) nəşriyyatında «Azərbaycanın Xəzər nefti» monoqrafiyası nəşr olunmuşdur.

2003, 2 avqust – Azərbaycan Respublikasının baş naziri təyin olunmuşdur.

2003, 15 oktyabr – Ümumxalq seçkilərində Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

2003, 31 oktyabr – Bakıda, Respublika sarayında yeni dövlət başçısının andiçmə mərasimi.

2003, 12 dekabr – atası Heydər Əliyev vəfat etmişdir.

2003, 15 dekabr – Bakıda, Fəxri Xiyabanda Heydər Əlirza oğlu Əliyevin dəfni.

2004, fevral – Moskvaya rəsmi səfəri zamanı Rusiya və Azərbaycan prezidentləri iki ölkə arasında əsas münasibətlər haqqında Moskva bəyannaməsi imzaladılar.

Azərbaycan Prezidentinə MDBƏİ(U)-nin fəxri doktoru adı verildi.

2004, 10 may – Heydər Əliyev Fondu açılır. M.A.Əliyeva Fondun prezidenti olur.

2004, 19 oktyabr – Moskvada Ümumrusiya Azərbaycan konqresinin ikinci qurultayının işində iştirak edir.

2005 – «Yeni Azərbaycan» partiyasının sədri seçilir.

2006, fevral – Azərbaycanda Rusiya ilinə həsr olunmuş tədbirlərdə çıxış edir;

mart – Azərbaycanlıların II Ümumdünya konqresində dünya azərbaycanlıları Koordinasiya şurasının sədri seçilir;

aprel – ABŞ-a rəsmi səfəri;

iyun – Türkiyədə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışında iştirak edir;

Qazaxıstan Respublikasının «Bakı-Tbilisi-Ceyhan» layihəsinə qoşulması haqqında Qazaxıstanla müqavilə imzalanır;

Noyabr – Brüsseldə Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə qarşılıqlı yardım və strateji əməkdaşlıq haqqında Memorandum imzalanır;

Noyabr – Moskvaya səfər edir, Rusiya Federasiyasının Prezidenti V.V.Putinlə danışıqlar aparır.

2007, yanvar – ATƏT-in Minsk Qrupu həmsədrlərini qəbul edir, Fransaya ilk dövlət səfəri;

GUAM üzvlərinin dövlət başçılarının II sammitində iştirak edir;

İyun – XI Sankt-Peterburq iqtisadi forumunda və MDB ölkələri liderlərinin qeyri-rəsmi görüşündə iştirak edir;

Avqust – Hacıqabul rayonunda uşaq tibb mərkəzinin bünövrəqoyma mərasimində olur;

Sentyabr – Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində doğma torpaqlarından qovulmuş həmvətənlərinin problemlərinə həsr olunmuş müşavirədə iştirak edir;

Oktyabr – Vilnusda keçirilən «Enerji təhlükəsizliyi – 2007» konfransında iştirak edir.

Azərbaycan, rus, ingilis, fransız və türk dillərini gözəl bilir və bu dillərdə sərbəst danışır.

Azərbaycanın, Rusiyanın, Türkiyənin və bir çox başqa ölkələrin orden və medalları ilə təltif olunmuşdur; Beynəlxalq Olimpiya Komitəsinin ən yüksək ordeninə layiq görülmüşdür. Bir sıra nüfuzlu beynəlxalq mükafatların laureatıdır, Avropa Şurası Parlament Assambleyasının fəxri üzvü diplomuna və AŞPA-nın medalına layiq görülmüşdür. Xarici ölkələrin bir çox məşhur universitetlərinin fəxri doktorudur.

QISA BİBLİOQRAFİYA

Əlıyev H. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr. 18 c. Bakı, 1993-2007 (Azərb. dilində).

Əliyev H. Şəxsi mövqe. Bakı, 1996.

Əliyev H. Rusiya – böyük ölkədir. Bakı, 1997.

Akademik Zərifə xanım Əliyeva: Elmi əsərlər məcmuəsi. Bakı, 1999.

Zərifə xanım Əliyeva. Bakı, 1998

Əliyev İ. Müasir mərhələdə Böyük Britaniyada müharibə əleyhinə hərəkat və siyasi partiyaların ona münasibəti. M., 1985.

Əliyev İ. Azərbaycanın Xəzər nefti. M., 2003.

Əliyev İ. Azərbaycanda Olimpiya Hərəkatı. Bakı, 2002.

Əliyeva Ş. Mənim anam. Bakı, 2000 (Azərb. Dilində).

Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyində. Bakı, 2001.

Azərbaycan-Rusiya. Yeni qarşılıqlı əlaqələr, yeni üfüqlər. Bakı, 2002.

Abdullayev V. O, böyük siyasətə hazırdır. Bakı, 2000.

Abdullayev E. Dövlət quruculuğu. Bakı, 2002.

Əbdüləzımov C. Sözünə sadiq Prezident. Bakı, 2006.

Azərbaycan. Tarixi-etnoqrafik oçerk. Bakı, 1998.

Azərbaycan və Rusiya: tarixi dialoq. M., 2004.

Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə qədər. Bakı, 2004.

Azərbaycan XXVII Olimpiya oyunlarında. Bakı, 2000.

Əzizbəyova P. İllər arxasından baxış. Bakı, 1982.

Əliyev C. Elm həqiqətdir. Bakı, 1999.

Əliyev E. Qoşa zirvə. Bakı, 2001.

Əliyeva R. Azərbaycanlılar Avropa Müqavimət Hərəkatında. Bakı, 2005.

Andriyanov B. Kosıgin. M., 2004.

Andriyanov V., Mirələmov H. Heydər Əliyev. İkinci nəşr, əlavələrlə.

Əhmədov Ş. Əziz Əliyev – həyatı, Dağıstanda dövlət və siyasi fəaliyyəti. Dərbənd, 2003.

Axromeyev S., Korniyenko Q. Marşal və diplomatın gözü ilə. M., 1992.

Axundova E. Həqiqət anı. Bakı, 2003.

Boldın V. Pyedestalın yıxılması. M., 1995.

Vahabov C. Məktəbdən – zirvəyə. Bakı, 2006.

Vəliyev Ə. Bəsirət mənbəyi. Bakı, 2002.

Həsənli C. Cənubi Azərbaycan: «Soyuq müharibənin» başlanğıcı. Bakı, 2003.

Həsənli C. SSRİ-İran: Azərbaycan böhranı və «Soyuq müharibənin» başlanğıcı. M., 2006.

Qrınevskı O. Dönüş. Brejnevdən Qorbaçova doğru. M., 2004.

Hüseynov A. Azərbaycanlılar Rusiya tarixində. M., 2006.

Qusman M. Hakimiyyət düsturu. M., 2005.

Dubinin Yu. Diplomatik marafon. M., 2006.

Zabelin M., Tatarenkov. Heydər Əliyev: lider, siyasətçi, dost. Bakı, 2005.

Milli və millətlərarası Həmrəylik uğrunda. II Ümumrusiya Azərbaycan konqresinin materialları. M., 2006.

Zenkovıç N. Heydər Əliyev. Taleyin dolanbacları. M., 2007.

İmanquliyeva A. Yeni ərəb ədəbiyyatının korifeyləri. Bakı, 2003.

Azərbaycan tarixi. 3 cilddə. Bakı, 1958-1963.

Azərbaycan tarixi. Bakı, 1995.

Məmmədov İ., Musayev T. Erməni-Azərbaycan münaqişəsi. Tarix, hüquq, vasitəçilik. Tula, 2006.

Marqelov M. Rusiya qlobal karbohidrogen bazarında. Əsas meyillər, ziddiyyətlər və perspektivlər. SPb, 2005.

Mehtiyev R. İlham Əliyev magiyası. Bakı, 2006.

Mirələmov H. Zəfər yolu. Bakı, 2003, (Azərb. dil. tərc.)

Mirələmov H. Tövbə (Pokayanie) Bakı, 2002.

Mirzəyev R. «Əsrin müqaviləsi» ilə başlanmış yol. Bakı, 2004.

Mirzəyeva S. Heydər Əliyev: İncəsənət bütün həyatımdan keçmişdir... Bakı, 2004.

Molçanov N. General de Qoll. M., 1973.

Muxtarov V. Yeni əsrin yeni lideri. Bakı, 2005.

Azərbaycanın müasir inkişafında Heydər Əliyev irsi: Beynəlxalq elmi-praktik konfrans. Bakı, 2007.

Bizim Prezident. Bakı. 2004.

Nehru C. Dünya tarixinə nəzər. 3 cilddə. M., 1989.

Nicat Ə. 100 dahi azərbaycanlı. Bakı, 1999.

Primakov Y. Böyük siyasətdə keçmiş illər. M., 1999.

Yarım əsr sonra (1948-1998). M., 1998.

Azərbaycan Respublikası Milli Məclisinin iclaslarının protokolları və stenoqramları. T.21. Milli Məclisin nəşriyyatı. Bakı, 2003.

Mədəniyyətimizin və mədəni dəyərlərimizin himayəçisi (qayğıkeşi). Bakı, 2007.

İlham Əliyev diplomatiyasının uğuru. Bakı, 2001.

Çernyavskı S. Azərbaycanın yeni yolu. M., 2002.

Çernyayev A. Qorbaçovla altı il: Gündəliklər əsasında. M., 1993.

Çernyayev A. Mənim həyatım və mənim dövrüm. M., 1995.

Çıkvaidze A. Tarixin döngəsində. M., 2006.

* * *

Müəlliflər İ.H.Əliyev haqqında yazılmış bu kitab üzərində işləyərkən onlara köməklik göstərənlərin hamısına ürəkdən minnətdarlıqlarını bildirirlər.

İlk növbədə:

Mehriban Arif qızı Əliyevaya – Azərbaycan Respublikası Prezidentinin həyat yoldaşı, Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı Səfiri, İSESKO-nun xoşməramlı Səfiri;

Leyla İlham qızı Əliyevaya – Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun aspirantı, İ.H.Əliyevin qızı;

Eləcə də:

Fatma Hüseyn qızı Abdullazadəyə – Azərbaycan Respublikası Prezidentinin İcra aparatı humanitar siyasət şöbəsinin müdiri;

Fikrət Nehməd oğlu Əzizova – Azərbaycan Respublikası Prezidentinin İcra aparatının ümumi şöbəsinin müdir müavini;

Məmməd Cavad oğlu Əliyevə – Ümumrusiya Azərbaycan konqresinin prezidenti, uşaq onkologiyası və hematologiyası ETİ-nun direktoru, RTEA-nın N.N.Bloxin adına ROEM-nin baş direktor müavini, RTEA-nın müxbir üzvü;

Natiq Ağaəmi oğlu Əliyevə – Azərbaycan Respublikasının sənaye və energetika naziri, 1993-2005-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti;

Murtuz Nəcəf oğlu Ələsgərova – 1995-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin Sədri, Milli Məclisin deputatı;

Anar Sahib oğlu Ələkbərova – Heydər Əliyev Fondunun icraçı direktoru;

Əli Hidayət oğlu Əsədova – Azərbaycan Respublikası Prezidentinin köməkçisi;

Əli Cavad oğlu Əhmədova – Yeni Azərbaycan Partiyası Sədrinin müavini, Milli Məclisin deputatı;

Vaqif Əlibala oğlu Axundova – general-leytenant, Azərbaycan Respublikası Xüsusi Dövlət mühafizəsi Baş idarəsinin rəisi;

Yuri Petroviç Batalinə – Rusiya neftqaztikinti ittifaqının fəxri prezidenti, 1985-1990-cı illərdə SSRİ Nazirlər Soveti Sədrinin müavini;

Filipp Denisoviç Bobkova – «Novosti» Rusiya İnformasiya Agentliyi idarə heyəti sədrinin müşaviri, 1986-1990-cı illərdə SSRİ DTK-si sədrinin birinci müavini;

Polad Bülbüloğluna – Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli səfiri;

Aleksandr Timofeyeviç Qavrilova – tarix elmləri namizədi, 1983-1987-ci illərdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavininin köməkçisi;

Rafael Cahangiroviç Hüseynova – «Trud» qəzetinin baş redaktor müavini;

Mixail Solomonoviç Qusmana – İTAR-TASS-ın baş direktorunun birinci müavini;

Nizami Qulu oğlu Cəfərova – Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının müxbir üzvü, Milli Məclisin mədəniyyət işləri üzrə daimi komissiyasının sədri;

Şuman Musayeviç Kaqermanova – «Selskaya jizn» qəzetinin baş redaktoru;

Əbülfəs Mürsəl oğlu Qarayeva – Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri;

Eldar Qulam oğlu Quliyevə – Ümumrusiya Azərbaycan konqresinin icraçı direktoru, Fövqəladə və Səlahiyyətli səfir;

Albert Anatolyeviç Mixanova – yazıçı, rusiya uşaq fondu idarə heyətinin sədri;

Eldar Əhməd oğlu Mahmudova – Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri;

Ramiz Ənvər oğlu Mehdiyevə – Azərbaycan Respublikası Prezidentinin İcra aparatının rəhbəri;

Zeynal Səfər oğlu Nağdəliyevə – Azərbaycan Respublikası Prezidentinin İcra aparatının şöbə müdiri;

Nursultan Abişeviç Nazarbayevə – Qazaxıstan Prezident;

Boris Nikolayeviç Pastuxova – Rusiya Federasiyası Ticarət-sənaye palatasının böyük vitse-prezidenti, 1977-1982-ci illərdə ÜLKGİ Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Dövlət Nəşriyyat Komitəsinin sədri (1982-1986), Rusiya Federasiyasının MDB üzrə naziri (1998-1999);

Yevgeni Maksimoviç Primakova – akademik, RF Ticarət-sənaye palatasının prezidenti, RF xarici işlər naziri (1996-1998), Rusiya hökumətinin sədri (1998-1999);

Nikolay İvanoviç Rıjkova – RF Federal Məclisinin Federasiya Şurasının üzvü, Rusiya əmtəə istehsalçıları ittifaqının prezidenti, SSRİ Nazirlər Sovetinin sədri (1985-1990);

Vasif Yusif oğlu Talıbova – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri;

Natalya Qriqovyevna Tomilinaya – Ən yeni tarix Rusiya Dövlət arxivinin direktoru;

İvan Polikarpoviç Tretyakova – yazıçı, Bakı şəhəri;

Stanislav İvanoviç Çernyavskiyə – tarix elmləri doktoru, demokratiyanın inkişafının monitorinqi Beynəlxalq İnstitutunun direktoru;

Yuri Konstantinoviç Şafranikə – Neftqazsənayesi sahibkarlar İttifaqının Prezidenti, 1993-1996-cı illərdə Rusiya Federasiyası yanacaq və energetika naziri;

Heydər Əliyev Fondunun, Azərbaycan milli arxiv idarəsinin, M.F.Axundov adına Milli Kitabxananın, Naxçıvandakı H.Ə.Əliyev muzeyinin, Ən yeni tarix Rusiya Dövlət arxivinin və Rusiya dövlət kitabxanasının əməkdaşlarına da göstərdikləri köməkliyə görə təşəkkür edirik.

Bu kitab üzərində işlərkən bizə xeyirxah məsləhətlər vermiş bütün insanalara səmimi-qəlbdən minnətdarlığımızı bildiririk.

MÜNDƏRİCAT

Kitabı açanda 5

I fəsil. ODLAR DİYARI 17
Adlar nələr deyir 17
Altı saylı Bakı məktəbi 19

II fəsil. MOSKVA, MOSKVA 29
«Azərbaycan sizə güvənir» 29
Kapitan Nosenko əhvalatı 33
Komsomolsayağı intizam 35
«Biz – cəbhəçilərdə tələblər ciddidir» 37
Brejnev dövrü başa çatırdı 44
Baş katibin son səfəri 46
Zamanın fonunda məddahlar qrupu 48

III fəsil. KREML SƏMASINDA YENİ ULDUZ 52
Yekunlaşdırma və başlanğıc ili 52
Ata 57
Rektor Kozlovanın məsələsi 60
Vyana üçün portret 63
Oğul 69
«Gələcəyə baxmaq» 74

IV fəsil. SEÇİM 78
Onun yarı Mehribandır 78
Göylər göz yaşından üzülür 83
«Pionerlər» tufan əkdilər 85
Kremlin pərdə arxası 89
Qarabağ 91
«Mən Qorbaçovla görüşməyə cəhd edirdim» 99
21 Yanvar 1990, Moskva 101
«MDBMİ»də «təmizləmə» işləri 106

V fəsil. KÖRPÜLƏR 116
Kökünə qayıdış 116
Naxçıvan blokadada 123

«Gələcəyə yolu yalnız məktəb açır» 125
«Azərbaycan Sizin sözünüzü gözləyir» 131
Xalq Heydəri seçdi 136

VI fəsil. AZƏRBAYCANIN NEFT AÇARLARI 140
Əgər neft şahzadədirsə 140
Peşəkarların komandasında 143
Böyük neftə doğru yol 153
3 iyul 1997, Moskva 156
İradə mümkün olmayanı da
mümkünləşdirir 158
«Əsrin müqaviləsi» insan xidmətində 161
Nyu-York: illərdən sonra baxış 164
«Neft – bizim xoşbəxtliyimiz və
baş ağrımızdır» 168
Üç dənizin əfsanəsi və həqiqətləri 174
Geosiyasətin pərdəsi arxasında 177

VII fəsil. STRASBURQDA DÖYÜŞ 184
Nə üçün killerlərdən siyasi dustaq
düzəldirlər 184
AŞPA-da həqiqət anı 189
Cənab Klerfayt məruzəsini geri götürür 192

VIII fəsil. ATA VƏ OĞUL 197
Kimin bəxti gətirib 197
Doğma evdə olduğu kimi 198
«Məsuliyyəti dərk edirəm» 207
21 aprel 2003, Bakı 211
Klivlenddə ad günü 213
Və yenə də təntənə oldu 215
17 iyun 2003, London 217
Məzuniyyətsiz yay 218

IX fəsil. «BAŞ NAZİR TƏYİN OLUNSUN...» 222
4 avqust 2003-cü il, Bakı 222
Republikaya monarxiya təhlükəsi varmı? 228
Şaxta-baba xurcunlu opponentlər 231

X fəsil. «MƏN ONA ÖZÜM QƏDƏR İNANIRAM» 235
Seçilmək hüququ 235

Baş nazirin iş günləri ... 238
18 sentyabr 2003. Yalta ... 242
Prezidentin vəsiyyəti ... 247
Klivlend gecələri ... 251
«Mənim bütün həyatım millətin gözü qarşısındadır» ... 257
«Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam» ... 267

XI fəsil. VİDALAŞMA ... 276
Klivlenddən qara xəbər ... 276
Leyla babasına elegiya həsr etdi ... 278

XII fəsil. ATA VƏSİYYƏTİ İLƏ ... 281
«Ayrılarmı könül candan» ... 281
6 fevral 2004, Moskva ... 286
Diplomatiya dərsləri ... 289
Qəbələ sülhə xidmət edir ... 295
Azərbaycan Olimpiadanı dəvət edir ... 296

XIII fəsil. QIZIL ÜRƏK ... 305
Birinci ilin dərsləri ... 305
«Nə gözəl cütlük» ... 308
Xoşməramlı səfir ... 310

XIV fəsil. ƏN BAŞLICA MARAQ ... 323
Məsafələrə baxmayaraq ... 323
«İlham Əliyev zərbəni dəf edə bilər» ... 327
«Azərbaycanda əlvan inqilab olmayacaq» ... 333

XV fəsil. PREZİDENT İLİ ... 337
«Bu siyasət milli maraqlara cavab verir» ... 337
Avropa istiqaməti ... 341
«Moskva – gözəlim mənim» ... 345
Salam, Qarabağ! ... 349
Novruz – xeyirin təntənəsi bayramı ... 355
Vağzalı səsdaları altında ... 358
Mühüm səfərlər ... 365
Yaqut işığı ... 374

Prezident birbaşa efirdə 382

XVI fəsil. ƏSRİN ÇAĞIRIŞLARI 406
Üzü Ərgünəşə 410
25 fevral 2007-ci il, Moskva 416

İ.H.Əliyevin həyat və fəaliyyətinin əsas tarixləri 421
Qısa biblioqrafiya 424

Andriyanov V.İ., Mirələmov H.F.
A.65 İlham Əliyev / Viktor Andriyanov, Hüseynbala Mirələmov. – M.: «Molodaya qvardiya, 2007 – 436 (4) s.: il – (JZL: Bioqrafiya davam edir: ser. Bioqr.; vip.8)

ISBN 978-5-235-03090-9

«Molodaya qvardiya»nın yeni nəşriyyat layihəsi: «JZL Bioqrafiya davam edir» seriyasında ilk dəfə xarici ölkələrin fəaliyyətdə olan liderləri sırasında İlham Əliyev təqdim olunur. Kitabın müəllifləri – yazıçılar – Viktor Andriyanov və Hüseynbala Mirələmov obyektiv, dəqiq sənədlərə istinad edərək öz qəhrəmanlarının ömür yolunu izləmişlər. Hər hansı böyük şəxsiyyət haqqında gəzən mifləri və əfsanələri, ilk dəfə çap olunan arxiv sənədlərinə və şəhadətlərə əsaslanaraq təkzib edirlər. Kitab göstərir ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin ləyaqətli davamçısı, dövlət xadımı İlham Əliyevin şəxsiyyəti zaman-zaman – uşaqlıq, gənclik, tələbəlik illərində formalaşmışdır. Kitabın qəhrəmanının bioqrafiyası Sovet və postsovet dönəminin geniş tarixi fonunda işıqlandırılmışdır.

"Kitabın Azərbaycan dilinə tərcüməsi və nəşri dostum Məhərrəm Gülmalıyevin dəstəyi və köməyi ilə həyata keçirilmişdir". (H.Mirələmov)

УДК 342.51 (497.24)
ББК 67.400.6 (5Аәә)

Andriyanov Viktor İvanoviç, Mirələmov Hüseynbala Fazil oğlu
İLHAM ƏLİYEV

Korrektor: Suğra Osmanova

Lisenziya LP № 040224 – 02.06.97 –ci il.

Yığılmağa verilib: 05.11.2011. Çapa imzalanıb 05 12.2011
Format 84x108/32 Ofset kağızı №1. Ofset çapı. Şrift «Tayms».
Şərti çap vərəqi 27,25. Tiraj 3000. Sifariş 211/11.
«NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi.
Nəşriyyatın ünvanı: Bakı, Az1122, H.Zərdabi küç. 78. Tel: 4977021. Faks: 4971295.
İnternet: Http://nurprint.com. E-mail: office@nurprint.com





8572 020000 0485





Viktor Andriyanov (təvəllüdü 1936), yazıçı və jurnalistdir (Moskva). 30-dan çox sənədli nəsr kitabının müəllifidir.

Hüseynbala Mirələmov (təvəllüdü – 1947), yazıçıdır (Bakı). 20 kitab müəllifidir. Milli Məclisin deputatıdır. Onların birgə yazdıqları «Heydər Əliyev» kitabı («Molodaya qvardiya», JZL, 2005, 2006) bir çox dillərə tərcümə olunmuşdur.